**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ İNSTİTUTU**

# ELMİ ƏSƏRLƏR

*Beynəlxalq elmi-nəzəri jurnal*

**№ 2 (29)**

**BAKI-2017**

## BAŞ REDAKTOR:

**İlham MƏMMƏDZADƏ,** *fəlsəfə üzrə elmlər doktoru, professor*

## BAŞ REDAKTORUN MÜAVİNİ:

**Eynulla MƏDƏTLİ,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

## MƏSUL KATİBLƏR:

**Həbib HÜSEYNOV,** *fəlsəfə üzrə fəlsəfə doktoru*
**Zeynəddin ŞABANOV,** *fəlsəfə üzrə fəlsəfə doktoru, dosent*

## REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ:

| | |
|---|---|
| **FƏLSƏFƏ ELMLƏRİ ÜZRƏ**<br>**Səlahəddin XƏLİLOV,**<br>*fəlsəfə üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü*<br>**Sevda MƏMMƏDƏLİYEVA,**<br>*fəlsəfə üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü*<br>**Adil ƏSƏDOV,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Füzuli QURBANOV**, *fəlsəfə üzrə elmlər doktoru*<br>**Arzu HACIYEVA,** *fəlsəfə üzrə elmlər doktoru*<br><br>**SOSİOLOGİYA ELMLƏRİ ÜZRƏ**<br>**Əbülhəsən ABBASOV,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Rəna MİRZƏZADƏ,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Rəfiqə ƏZİMOVA,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Hüseyn QARAŞOV,** *sosiologiya üzrə elmlər doktoru*<br><br>**SİYASI ELMLƏR ÜZRƏ**<br>**Əlikram TAĞIYEV,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Həsən ƏLİBƏYLİ,** *tarix üzrə elmlər doktoru*<br>**Ramiz SEVDİMALIYEV,** *siyasət üzrə elmlər doktoru*<br>**Afaq RÜSTƏMOVA,** *fəlsəfə üzrə elmlər doktoru*<br><br>**İLAHİYYAT ELMLƏRİ ÜZRƏ**<br>**Sakit HÜSEYNOV,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Aydın ƏLİZADƏ,** *fəlsəfə üzrə elmlər doktoru*<br>**Elsevər SƏMƏDOV,** *fəlsəfə doktoru* | **PSİXOLOGİYA ELMLƏRİ ÜZRƏ**<br>**Bəxtiyar ƏLIYEV,**<br>*psixologiya üzrə elmlər doktoru, AMEA-nın müxbir üzvü*<br>**Kamilə ƏLİYEVA,** *psixologiya üzrə elmlər doktoru, professor*<br>**Svetlana MƏCİDOVA,** *psixologiya üzrə elmlər doktoru*<br><br>**BEYNƏLXALQ REDAKSİYA HEYƏTİ**<br>**Aleksandr ÇUMAKOV (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Eduard QİRUSOV (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Oleq BAKSANSKİ (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Valentina FEDOTOVA (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Nizami MƏMMƏDOV (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Tom ROKMOR (ABŞ)** *Professor*<br>**Doğan ÖZLƏM (Türkiyə)**<br>*professor, fəlsəfə doktoru*<br>**Taxir MAHAMATOV (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Yuriy POPKOV (Rusiya)**<br>*fəlsəfə elmləri doktoru, professor*<br>**Şaban Teoman DURALI (Türkiyə)**<br>*professor, fəlsəfə doktoru* |


## REDAKSİYA HEYƏTİNİN ÜNVANI:


*Azərbaycan Respublikası, Bakı şəhəri, Hüseyn Cavid pr.31, AMEA-nın əsas binası, IX mərtəbə.*
*Tel.: 537-22-79; Faks: (99412) 537-11-39; e-mail: elmieserler@gmail.com.*
*ISBN 9952 428-03-0*
*AMEA Fəlsəfə İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunur.*
*Jurnal Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat № 1704. 17.02.06*
*Azərbaycan Respublikası AAK-nın 30.IV.2010-cu il tarixli qərarı ilə*
*elmi nəşrlər siyahısına daxil edilmişdir.*

THE INSTITUTE OF PHILOSOPHY
OF AZERBAIJAN NATIONAL
ACADEMY OF SCIENCES

# SCIENTIFIC WORKS

*The International Scientific and Theoretical Journal*

№ 2 (29)

BAKU-2017

## EDITOR-IN-CHIEF:

**Ilham MAMMADZADE,** *doctor of philosophical sciences, professor*

## DEPUTIES EDITOR-IN-CHIEF:

**Eynullah MADATLİ,** *doctor of philosophy, assistant professor*

## EXECUTIVE SECRETARIES:

**Habib HUSEYNOV,** *doctor of philosophy*
**Zeynaddin SHABANOV,** *doctor of philosophy, assistant professor*

## EDITORIAL BOARD MEMBERS:

**ON PHILOSOPHICAL SCIENCES**
**Salakhaddin KHALILOV,** *doctor of philosophical sciences, Associate Member of the ANAS*
**Sevda MAMMADALIYEVA,** *doctor of philosophical sciences, Associate Member of the ANAS*
**Adil ASADOV,** *doctor of philosophical sciences*
**Fuzuli GURBANOV,** *doctor of philosophical sciences*
**Arzu HAJIYEVA,** *doctor of philosophical sciences*

**ON SOCIOLOGOLICAL SCIENCES**
**Abulhasan ABBASOV,** *doctor of philosophical sciences, professor*
**Rafiga AZIMOVA,** *doctor of philosophical sciences*
**Hussein GARASHOV,** *doctor of sociological sciences*

**ON POLITICAL SCIENCES**
**Alikram TAGIYEV,** *doctor of philosophical sciences, professor*
**Hasan ALIBEYLI,** *doctor of historical sciences, professor*
**Ramiz SEVDIMALIYEV,** *doctor of political sciences*
**Afag RUSTAMOVA,** *doctor of philosophical sciences*

**ON THEOLOGICAL SCIENCES**
**Sakit HUSEINOV,** *doctor of philosophical sciences*
**Aydin ALIZADEH,** *doctor of philosophical sciences*
**Elsever SAMADOV,** *doctor of philosophy*

**ON PSYCHOLOGICAL SCIENCES**
**Bakhtiyar ALIYEV,** *doctor of psychological sciences, Associate Member of the ANAS*
**Kamila ALIYEVA,** *doctor of psychological sciences, professor*
**Svetlana MAJIDOVA,** *doctor of psychological sciences*

**THE INTERNATIONAL EDITORIAL BOARD**
**Alexander CHUMAKOV**
*Doctor of philosophical sciences, professor*
**Eduard GIRUSOV (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Oleg BAKSANSKY (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Valentina FEDOTOVA (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Nizami MAMMADOV (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Tom ROCKMORE (USA)** *Professor*
**Doghan OZLEM (Turkey),** *professor, Ph.D*
**Takhir MAKHAMMATOV (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Juriy POPKOV (Russia),**
*Doctor of philosophical sciences, professor*
**Shaban Teoman DURALY (Turkey),**
*Professor, Ph.D*


## ADDRESS OF EDITORIAL STAFF:


*Azerbaijani Republic., Baku c., Huseyn Javid ave.31, The basic building of ANAS, the IX floor.*
*Tel.: 537-22-79; Fax: (99412) 537-11-39; e-mail: elmieserler@gmail.com.*
*ISBN 9952 428-03-0*
*Published by Resolution of Scientific Council of the Institute of Philosophy of ANAS*
*The journal has been registered by the Ministry of Justice. Registration № 1704. 17.02.06.*
*By the decision of SSC of the Azerbaijani Republic dated 30.IV.2010 was included into the list of scientific editions.*

# MÜNDƏRİCAT

**Mündəricat** .......................................................... 5

## FƏLSƏFƏ BÖLMƏSİ

**Azad CƏFƏROV**
Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz .......................................................... 11

**Fikrət NƏBİYEV, Minayə XIDIROVA**
Hüquqi tənzimləmə prosesində təfəkkürün rolu .......................................................... 17

**Rövşən HACIYEV**
Sosiomədəni sistemlərin təsnifatına dair (sosial-fəlsəfi təhlil) ..........................................................23

**Nicat MƏMMƏDOV**
XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycan yazıçılarının
Azərbaycanın ictimai və fəlsəfi fikir tarixində rolu ..........................................................31

**Faiq ƏLƏKBƏRLİ**
Mühacirət dövründə Azərbaycan Milli İdeyası (1950-1990-cı illər) ..........................................................39

**Leyla NƏSİRZADƏ**
Sosial proqnozlaşdirma metodlari .......................................................... 46

**Elmira TƏHMƏZOVA**
Nizami Gəncəvi yaradıcılığında gender məsələsinin qoyuluşu ..........................................................52

**Kurt FARUK**
M.Bukçinin multikulturalizm modeli haqqında ..........................................................59

**Günay SÜLEYMANOVA**
Azərbaycançılıq azərbaycanlıların milli ideologiyası kimi ..........................................................67

**Eldar ƏMİROV**
Riyazi idrak və onun spesifik xüsusiyyətləri .......................................................... 73

**Günay ZEYNALOVA**
Estetik ideyaların kontrastı: Antik estetik təfəkkür və Yeni dövr ..........................................................83

**Rəşadət YAQUBLU**
Davamlı insan inkişafı konsepsiyasının sosial-fəlsəfi mahiyyəti ..........................................................90

**Aytən CƏFƏROVA**
Gender bərabərliyi və onun təhsilin inkişaf dinamikasinda rolu ..........................................................97

## XARİCİ ÖLKƏ TƏDQİQATLARI

**Цуй Вейхан**
Положение и задачи современной китайской философии ................ 106

**Oleksandra KAÇMAR**
Mərasim təcavüzlərin idarəetmə vasitəsi kimi ................ 112

**Николай ТУЛЕНКОВ, Сергей ЯРЕМЧУК**
Социальные практики в фокусе социологической аналитики ................ 122

## SOSİOLOGİYA BÖLMƏSİ

**Səadət MƏMMƏDOVA**
Sosial dövlətin formalaşmasını tarixi-nəzəri əsasları ................ 130

**Üzeyir ŞƏFİYEV**
Azərbaycanda ailə dayanıqlığı: problemlər və qlobal çağırışlar ................ 138

**Ülvi ƏLİYEV**
Sosial xidmətlə bağlı xarici ölkələrin təcrübəsinin tətbiqi məsələləri ................ 142

**Aynur BAĞIRLI**
Aztəminatlı ailələrin məşğulluğunun təmin edilməsi ilə bağlı dövlət siyasəti ................ 152

**Musa BƏRATİ**
İranda şəhərsalmanın sosial problemləri ................ 158

**Hüseyn ZÜLQƏDR**
İran televiziyası və informasiya çatdırılması sahəsində rəqabət ................ 167

**Tural SALIFOV**
Əhalinin məşğulluğunda turizmin rolu ................ 174

## PSİXOLOGİYA BÖLMƏSİ

**Südabə HÜSEYNOVA**
Hüquqi şüurun strukturu və funksiyaları ................ 181

**Джамиля САФАРОВА**
Некоторые подходы к изучению этнического самосознания, Я-концепции ................ 188

**Fatimə BAYRAMOVA**
İntuisiyanın qərar qəbulunda rolunun elmi–nəzəri cəhətləri ................ 196

## SİYASİ ELMLƏR BÖLMƏSİ

**Zaur ƏLİYEV**
Qarabağ xanlığı ilə Osmanlı dövlətinin diplomatik əlaqələri ............................................. 205

**Etibar ƏSƏDOV**
Siyasi mədəniyyətin tarixi və onun müasir inkişafına yeni yanaşma .................................... 211

**Fazilə HÜSEYNLİ**
Avropa Şurası və Azərbaycan Respublikası qanunvericiliyində insan alveri ilə mübarizənin siyasi aspektləri ........................................................................................ 220

**Pərvanə İSLAMOVA**
Rusiya və ABŞ-ın Xəzər hövzəsinə dair təhlükəsizlik konsepsiyalarının mahiyyəti və digər hövzə ölkələrinin mövqeyi ........................................................................................ 227

**Leyla ABIYEVA**
Elita və elita nəzəriyyələrinə fəlsəfi baxış ........................................................................ 234

**Rüfət CƏFƏROV**
Demokratik dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsinin fərqli xüsusiyyətləri.............238

**Şəhriyar MƏMMƏDOV**
Müstəqilliyin ilk dövrlərində ABŞ-Azərbaycan münasibətləri ............................................. 244

**Sənan FƏRƏCOV**
Xarici ölkələrin immiqrantlarin inteqrasiyasina dair assimilyasiya və multikulturalizm siyasəti………………………………………………………………………….. 251

## İSLAM FƏLSƏFƏSİ VƏ DİNŞÜNASLIQ

**Yasəmən QARAQOYUNLU (MAHMUDOVA)**
İslam dövrü Azərbaycan mədəniyyətinin sosial - fəlsəfi xarakteristikası. Heterodoks İslam ...................................................................................................................257

**Yeganə RƏHNULLA**
İslam dinində "Əsmaul-husna" (Allahın gözəl adlari) termininin izahı ................................. 275

## Oxucu rəyi

Etika haqqında dəyərli dərs vəsaiti ....................................................................................280
Hüquq üzrə elmlər doktoru, professor Ə.H.Rzayevin "Şəxsiyyət, Dövlət, Möcüzə" monoqrafiyasına rəy ...........................................................................................285

**Elmi həyat**.......................................................................................287

**Yeni nəşrlər** ....................................................................................297

# CONTENTS

**Contents**..........5

## PHILOSOPHY SECTION

**Azad JAFAROV**
Heydar Aliyev and our national-spiritual values .......... 11

**Fikret NABIYEV, Minaya XIDIROVA**
The role of the thinking in the process of legal regulation.......... 17

**Rovshan HAJIYEV**
To classification of sociocultural systems (social-philosophical analysis) .......... 23

**Nijat MAMMADOV**
The role of Azerbaijani writers of the en of the XIX$^{th}$ and the beginning of the XX $^{th}$ centuries in history of social and philosophical thought of Azerbaijan.......... 31

**Faiq ALEKBERLI**
Azerbaijani national idea in the period of emigration (1950-1990).......... 39

**Leyla Nazirzada**
The methods of social prognostication.......... 46

**Elmira TAKHMAZOVA**
Statement of gender problem in works by Nizami Ganjevi .......... 52

**Kurt FARUK**
On the models of multiculturalism of Bookchin.......... 59

**Gunay SULEYMANOVA**
Azerbaijanism as the national ideology.......... 67

**Eldar AMIROV**
Mathematical cognition and its specific characteristics.......... 73

**Gunay ZEYNALOVA**
Contrasts of aesthetical ideas:antique aesthetical thought and a new period.......... 83

**Rashadat YAGUBLU**
Social and philosophical essence of the concept of sustainable human development.......... 90

**Ayten JAFAROVA**
The role of gender equality and its dynamics in the development of education.......... 97

## FROM FOREGIN RESEARCHES

**Tsuy VAYKHAN**
A state and tasks of modern chinese philosophy .................................................................. 106

**Oleksandra KACHMAR**
Ritual as a method of management of aggression…........................................................... …112

**Nikolay TULENKOV, Sergey YAREMCHUK**
Social practices in focus of sociological analytics.................................................................. 122

## SOCIOLOGY SECTION

**Saadat MAMMADOVA**
Historical and theoretical bases of the formation of social state............................................. 130

**Uzeir SHAFİEV**
On state of azerbaijan family:problems and global challenges............................................... 138

**Ulvi ALIYEV**
The issues of applying the practice of the foreign countries in the field of social service ...... 142

**Aynur BAGİRLİ**
State politics on provi ding employment of the families of moduate means......................... 152

**Musa BERATI**
Social problems of town-planning in Iran ....................................................................................158

**Huseyn ZULGADR**
Iranian television and competition in the field of broadcasting information........................... 167

**Tural Salifov**
The role of tourism in managing employment........................................................................ 174

## PSYCHOLOGY SECTION

**Sudaba HUSEYNOVA**
Structure and functions of legal awareness..........................................................................................181

**Jamalya SAFAROVA**
Some approaches to studying ethnic self-consciousness, me-concept .................................... 188

**Fatima BAYRAMOVA**
Scientific - theoretical aspects of the role of intuition in decision-making ............................. 196

## SECTION OF THE POLITICAL SCIENCES

**Zaur ALIYEV**
Diplomatik ties between Karabagh khanate and Ottoman empire ..........................................205

**Etibar ASADOV**
The history of political culture and a new approach to its modern development..................... 211

**Fazilya HUSEYNLI**
The european council and political aspects of the struggle against human trade in the legislation of the Republic of Azerbaijan.................................................................................. 220

**Parvana ISLAMOVA**
The essence of security concepts of russia and the united states on the caspian basin and positions of other littoral states ........................................................................................ 227

**Leyla ABIYEVA**
An elite and philosophical view of elite theory ........................................................................ 234

**Rufat JAFAROV**
The distinctive features of improving the quality in modernization of state government ........... 238

**Shahriyar MAMMADOV**
USA-Azerbaijan relations in the earlier stages of independence ............................................ 244

**Senan FARACOV**
Assembling and multiculturalization policies of integration of foreign countries 'immigrants251

### ISLAMIC PHILOSOPHY AND RELIGION STUDY

**Yasaman QARAQOYUNLU (MAHMUDOVA)**
Sosio-philosophical characteristics of Azerbaicani culture of islamic epoch.Heterodoxical islam. ......................................................................................................................... 257

**Yegana Rahnulla**
Explanation of the term “asma ul-husna” ( the beautiful names of allah) in religion of islam.275

**Reader′s opinion** .........................................................................................287

**Scientific life**...............................................................................................285

**New editions**...............................................................................................297

# FƏLSƏFƏ BÖLMƏSİ

## HEYDƏR ƏLİYEV VƏ MİLLİ - MƏNƏVİ DƏYƏRLƏRİMİZ*

**UOT 101.1:316**

**Azad CƏFƏROV**
*Fəlsəfə ü. f. d., dosent,*
*ADNSU*

Müasir dövrdə elmi və strateji tədqiqat institutları belə bir konsepsiya irəli sürmüşlər ki, artıq elə zaman gəlmişdir ki, hansısa bir ölkə digər ölkənin ərazisini işğal edərkən kütləvi qırğın silahından və ya qoşun kontingentindən istifadə etməklə bu aksiyanı həyata keçirmək işğalçı dövlət üçün çox böyük siyasi, iqtisadi, sosial, mənəvi problemlər yaradır. Bu baxımdan qəribə səslənsə də, hərbi ekspertlər və elm xadimləri yeni metodla bu məsələni çözmək ideyasını irəli sürürlər. Bu isə ondan ibarətdir ki, bu və ya digər ölkəni işğal etməkdən ötrü xalqa məxsus olan milli-mənəvi dəyərləri mənimsəmək, özgələşdirmək və özününküləşdirmək kimi ideologiyanı həyata keçirmək kifayət edər. Ona görə də bu günə qədər gəlib çıxan milli-mənəvi xüsusiyyətlərimizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək məsuliyyəti zamanın vacib məsələlərindən hesab edilməlidir. Bu sahədə də dövlətimizin, siyasi xadimlərimizin qeyd olunan məsələlərə böyük diqqət yetirmələri təqdirəlayiqdir.

Belə ki, başda Heydər Əliyev fondu olmaqla Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Respublikası Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikasının yanında Gənclər fondu, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Vyanada Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycan Rəssamlar İttifaqı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası və s. onlarla dövlət, ictimai və qeyri-dövlət qurumlarının fəaliyyəti qeyd olunan sahəyə töhfə verməkdədir. Mədəniyyətimizi inkişaf etdirmək, dayanıqlı və davamlı inkişafı təmin etmək bu gün dövlətin prioritet istiqamətini təşkil edir. Dahi Azərbaycan filosofu Nizami Gəncəvinin sözləri ilə desək:

Kin ilə, sülh ilə sınanmış cahan,
Sülhündən xeyir olmuş, kinindən ziyan.

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakı Qlobal Forumdakı çıxışında qeyd etmişdir ki: ” Azərbaycanda – bu qədim torpaqda həmin müxtəlif millətlərə mədəniyyət və ənənələrə məxsus insanlar yaşamışlar. Onların hər biri öz töhfəsini vermiş və tarixdə öz izini qoymuşdur. Bu gün ölkəmizdə xristianlar, müsəlmanlar və yəhudilər sülh və əmin - amanlıq şəraitində yaşayırlar. Tolerantlıq anlayışı xalqımız üçün hər hansı nailiyyət deyildir, bu normadır, bu həyat tərzidir. Biz heç vaxt başqa cür yaşamamışıq...Bu Azərbaycan xalqının ən böyük sərvətidir “ [7,s.24]. Məruzəçinin Azərbaycan xalqına, xüsusilə Azərbaycan gənclərinə səslənməsinin kökündə müasir cəmiyyətin mədəni həyatında gənclərin bilik və bacarıqlarının aşkar edilməsi, onlar üçün şəraitin yaranması, nəticədə, onsuz da kövrək olan müstəqilliyimizin möhkəmlənməsində yaradıcı gənclərin formalaşmasının aktuallığından xəbər verir.

Xüsusilə Azərbaycan gəncliyinin cəmiyyətdəki yeri və rolu, müxtəlif dövlət və ictimai tədbirlərdəki uğurları sağlam vətəndaş cəmiyyətinin formalaşmasından xəbər verir. Mənəviyyatca zəngin gənclikdə vətənpərvərlik ruhu yüksək olar. Müstəqilliyimizin möhkəmlənməsinə, işğal olmuş torpaqların geri qayıtmasına səbəb olar. Qeyd olunan nəticənin yolu isə milli mənlik şüuru, milliözünüdərkdən keçir. ”Real mövcud olan və normal fəaliyyət göstərən əsl

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Kamina Məmmədova tərəfindən çapa məsləhət görülüb.

millətdən yalnız o vaxt danışmaq olar ki, həmin millətin obyektiv əlamətləri onun dəqiq ifadə olunmuş milli mənlik şüuru ilə tamamlanmış olsun " [4,s.441] dedikdə cəmiyyətin formalaşmasının və inkişafının əsasında elmi tədqiqatların və elmi müddəaların işlənməsinin durduğu nəzərdə tutulur. Bu sahədə alimlərimiz bir çox araşdırmalar aparmışlar. Bunlardan Qərib Allahverdiyev ərsəyə gətirdiyi tədqiqatda göstərir ki: " milli mənlik şüuru millətin öz milli varlığını adekvat və dərindən mənalandırmaq keyfiyyətinə malik olduğu üçün burada azadlıq, xüsusilə də milli azadlıq anlayışı, onu real həyata keçirməyin üsul və vasitələri, amilləri dəqiq ifadə olunur" [1,s.81]. Yəni azad düşüncə tərzini milli mənlik şüurundan ayırmaq olmaz. Əks halda üstünlük adi şüur tərzinə keçər ki, nəticədə səviyyəsizlik, bu və ya digər məsələlərə münasibətdə yanlış mövqe yaranmış olar. Deməli, istənilən halda elm, təhsil, yaradıcılıq istənilən məsələlərin əsasını təşkil etməlidir.

Son zaman alimlərimizin tədqiqatları göstərir ki, XXI əsrin əsas kapitalı ölkələrin maliyyə imkanları və təbii resurslarının zənginliyi ilə bərabər demək olar ki, eyni səviyyədə insanların intellektual potensialı durur. Hal – hazırda Şərq ölkələrində baş verən hadisələrin əsas səbəblərindən biri də məhz bu ölkələrin zəngin neft ehtiyatları hesabına varlanması, lakin bu ölkələrdə təhsilin kütləvi xarakter almaması nəticəsində cəmiyyətdə olan təbəqələrin qarşıdurmasına gətirib çıxarmışdı ki, bu da sonda cəmiyyətdə inqilabi proseslərlə nəticələndi. Bu isə istənilən cəmiyyət üçün arzuolunmaz hal hesab edilə bilər.

Qərb ölkələrindən müasir texnologiyanın ölkəmizə gətirilməsi iqtisadi imkandan irəli gəlirsə, bu avadanlıqları idarə edə bilən, işlədə bilən kadr potensialına da ehtiyac artır. Deməli, xaricdə hazırlanan milli kadrların səmərəli istifadəsinə maksimum diqqəti artırmaq tələb olunur. Lakin onların təhsil aldıqları mühitlə, yaşayış səviyyəsiylə respublikamızdakı mövcud vəziyyəti nəzərə alsaq problemlərin həllinə yönəlmiş təxirəsalınmaz addımların atılması zamanının yetişdiyini söyləmək olar. Digər tərəfdən intellektual potensialı daimi özünüinkişaf (dinamik) prosesə çevirmək istiqamətində millilik və bəşərililik, qabaqlayıcı təhsilvermə, professional, konkret biliklərə yiyələnməklə bərabər universal biliklərə yiyələnmə, bütün həyat boyu təhsilalma (fasiləsiz təhsil), yəni maliyyələşmə modelinə keçid nəzərdə tutulur.

Nəzərə almaq lazımdır ki, hal-hazırda böyük şirkətlər öz məhsullarının təbliğinə nə qədər vəsait ayırırlarsa, ondan da çox təhsil treninqlərinin keçirilməsinə vəsait ayrılır . Bu isə ona dəlalət edir ki, insan kapitalı ilə maliyyə arasındakı mütənasiblik işlək mexanizmə çevrilib. Nəticədə, milli texnologiyaların yaranması baş verir və inkişafı daimi prosesə çevirir.

Qeyd olunanları ümummilli liderimiz Heydər Əliyevin sözləri ilə ifadə etsək, "İqtisadiyyatda, mədəniyyətdə, elmdə, həyatın bütün sahələrində əldə olunmuş nailiyyətlərin başında duran, onun əsasını təşkil edən, kökü olan məktəbdir, təhsildir, müəllimdir " [2,s.6]. Bu o deməkdir ki, milli mənsubiyyətimizin qorunub saxlanmasının, milli dəyərlərin yaşamasının yolu iqtisadi kapitalın insan kapitalına çevirilməsindən keçir. Bu da öz növbəsində azərbaycançılıq ideyasına xidmət edir. Ulu öndər Heydər Əliyev demişdir: " Azərbaycançılıq- öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərə sintezindən, inteqrasiyasından bəhrələnmə və hər bir insanın inkişafını təmin etmək deməkdir " [3,s.5]. Bu fikirlər təkcə respublikamızda yaşayan Azərbaycan vətəndaşlarına ünvanlanmamışdır. Bu həm də dünyada yaşayan həmvətənlərimiz üçün bir çağırış olaraq onların mənsub olduğu milli mənliyi, milli xüsusiyyətləri yaşatmağı nəzərdə tutur. Ölkədə yaşayanların öhdəsinə xalqımızın milli-təbii sərvəti sayılan neft və qaz məhsulu brendinin, digər sahələrdə istehsal olunan məhsulların milli brendə çevrilməsi istiqamətində görüləcək səylərin yol xəritəsini ifadə edir. Təbiidir ki, qeyd olunanlar mümkündür, yalnız müstəqil, azad, demokratik inkişaf etmiş cəmiyyətdə. Əgər rus alimi Solovyovun fikirlərinə əsaslansaq o deyir ki, demokratiya daim çoxfikirlilik yaradır, ictimai

həyatın mənəvi məkanını rəngarəng edir, eyni zamanda o hakimiyyət forması kimi sosial entropiyanın qarşısını almalı və cəmiyyəti birləşdirməyə cəhd göstərməlidir.

Çoxmillətli Azərbaycan xalqının vahid bir ideya ətrafında birləşməsi, milli mənəvi dəyərlərin mövcudluğu və bu dəyərlərin mükəmməl tarixi irsə bağlılığı imkan verir ki, azərbaycançılıq ideologiyasını konkret əməli fəaliyyətlə həyata keçirib, əbədiliyini təmin edib gələcək nəsillərə ötürməyə nail olaq.

Necə bir irsin varisi olduğumuzu aydınlaşdırmaq üçün kifayətdir ki,tarixə nəzər yetirək. Dünya mədəniyyətinə böyük töhfə verən bir xalq olduğumuzu, bu mədəniyyəti yaşadıb inkişaf etdirmək üçün bugünkü nəslin üzərinə böyük məsuliyyət düşür. Tarix boyu müxtəlif imperiyalar tərəfindən çox böyük təzyiqlərə məruz qaldığımıza baxmayaraq, milli-mənəvi dəyəri, mənəvi-əxlaqi mentaliteti yaşatmağa müvəffəq olmuşuq. Eyni zamanda milli-mənəvi dəyər olan dini dəyərlərimizi də yaşatmağa nail olmuşuq. Hətta müxtəlif etnik azlıqların, milli azlıqların dini dəyərlərinə də hörmətlə və rəğbətlə yanaşmışıq. Onların mədəniyyətlərinin qorunub inkişaf etdirilməsinə yaxından yardım etməyə ,yaşatmağa dəstək olmuşuq. Bu isə mənəviyyatca zəngin bir xalqa məxsus olmağımızdan xəbər verir. Dünyanın çox ölkələrində bu prosesin tam tərsini müşayiət etməkdəyik. Multikulturalizm və tolerantlığın bizim xalqın həyat tərzi olmasını bu bir daha sübut edir. Azərbaycanlılar tərəfindən insanlığa, insani münasibətlərə daha çox önəm verilməsi nəticəsində belə keyfiyyətlərin şahidi oluruq. Müstəqilliyimizin əldə olunması nəticəsində sərhədlər açılmışdır. Azərbaycan bir dünyəvi ölkə olaraq öz qapılarını digərləri üçün açmışdır. Bunun nəticəsində xalq başqa mədəniyyətlərə inteqrasiya olmuşdur. Burada əsas məsələ ondan ibarət olmalıdır ki, bu inteqrasiya prosesində milli-mənəvi özəlliyimizi qoruya bilək. Belə ki, dünya bizə məhz bu xüsusiyyətlərə görə rəğbət göstərəcəkdir.

Bəzi alimlər Avropa dəyərləriylə Azərbaycan dəyərlərinin oxşar və fərqli cəhətlərini araşdırarkən Avropanı yunan elmi nailiyyətlərinə bağlayırlar. Məlumdur ki, yunan mədəniyyəti də öz növbəsində Şərq mədəniyyətindən bəhrələnmişdi. Azərbaycan mədəniyyəti isə öz kökünə əsaslanan müdriklik fəlsəfəsini əsas götürüb. Sözsüz ki, hər bir xalqın varis olduğu mədəniyyət həmin xalq üçün doğma hesab edilir. Nəzərə alsaq ki, mədəniyyət artıq uzun müddətdir ki, təkcə bir xalqa məxsus olmasına baxmayaraq ümumbəşəri xarakter daşıyır. Əgər o mədəniyyətdə ümumbəşəri cəhətlər, dəyərlər üstünlük təşkil edirsə, əgər hansısa xalqın mədəni irsi yoxdursa , təbii ki o xalq çalışacaqdır ki, yüksək inkişaf etmiş olan xalqın mədəni irsini mənimsəmə yolu ilə özününküləşdirsin. Müasir dövrdə belə hadisələrlə tez-tez rastlaşırıq. Hətta terrorizm, separatizm, etnik təmizləmə üsulundan istifadə etməklə məqsədlərinə çatmaq üçün yararlanırlar. Bəzən də buna nail olurlar. Buna nümunə olaraq erməni radikal milliyyətçilərini, faşistlərini göstərmək olar. Artıq iki yüz ildən çoxdur ki, havadarların köməyi ilə Azərbaycanın əzəli torpaqlarını işğal etməklə yanaşı, bu torpaqlarda mövcud olan coğrafi, arxeoloji, mədəni irsə məxsus Azərbaycan adlarını dəyişdirir, maddi, mədəni abidələri məhv edir, müxtəlif vasitələrlə irsimizin mövcudluğunu tarixdən silirlər.

Bütün qeyd olunanlara baxmayaraq Azərbaycan xalqının müstəqil dövləti vardır. Bu dövlət günü-gündən inkişaf edir və çiçəklənir. Güclü dövlət quran müasir Azərbaycan gec-tez öz itirdiklərinə sahib olacaqdır. Heç bir azərbaycanlının buna zərrə qədər şübhəsi yoxdur. Bu qənaətə gəlməyin həddən artıq çox əsasları vardır. Yuxarıda qeyd olunan mənəvi dəyərlərlə bərabər möhkəm bağlarla bağlanan və fundamental dayağa söykənən ailə institutları mövcuddur. Xalqın yaşamasının bünövrələrində duran milli-mənəvi ruhun və ondan bəhrələnən milli – mənəvi dəyərlərin, sosial-psixoloji amilin genetik yolla ötürülən Azərbaycan ailəsi modeli öz unikallığı ilə, ailədaxili münasibətlərlə zəngin xüsusiyyətlərə malik olması ilə dünya xalqları içərisində fərqlənir. Bu da onu qeyd etməyə imkan verir ki, adət-ənənələrlə , qəhrəmanlıq keyfiyyətləriylə, qürur hissinin yüksək olmasıyla, mənliyə,

təəssüfkeşliyə və digər psixoloji əlamətlərə malik olmaqla bərabər ailə münasibətlərinə önəm vermə xüsusiyyətidir ki, ailənin mənəvi-əxlaqi kimliyində özünü büruzə verir.

Bu sahənin mütəxəssisi sayılan azərbaycanlı alim Hacıyev Talehin araşdırmaları nəticəsində gəldiyi qənaətə görə məhz ailə ruhunu daşıdığı xalqın mental təxəyyülünü təlqin etməklə yanaşı, fiziki baxımdan formalaşdığı cəmiyyətin dəyərini bərqərar edərək yaşam şərtlərini müəyyənləşdirir. Mental təxəyyülü insanların məişətində əks etdirməklə xalqın mədəniyyətinə mühüm təsirlər göstərir [5,s.405]. Nəticədə, bütün bu şərtlər və təsirlər məhrumiyyət və çərçivələrin timsalında xalqın mədəni-mənəvi bütövlüyünün, saflığının və özünəməxsusluğunun qorunmasına xidmət göstərir. Deməli, demoqrafik problemin olmamasına təsir edir. Ölən millət yox, artan millət olur. Nəticə etibarı ilə etnik dəyərləri yaşatmış ailə institutunu möhkəm dayaqlara söykəmişdir. Məhz bu amilə görə xalqa məxsus olan, dəyərli sayılan xüsusiyyətlər bu səbəbdən bütün tarixi çətinliklərə baxmayaraq yaşamış, yaşayır və yaşamaqda davam edir.Yalnız bir şərtlə. Azərbaycan ailə münasibətləri modelini kənar müdaxilələrdən mühafizə edib saflığını qorumaq lazımdır. Gen yaddaşına və kökə bağlılıq ənənəsinə sadiq olmaq lazımdır.

Hətta indiki dövrdə respublikamızın müxtəlif ərazilərinə səyahət edən zaman tarixin müxtəlif mərhələlərinə aid milli-mədəni dəyərləri özündə əks etdirən maddi-mənəvi nümunələrə rast gəlirik. Buna insanların yaşam tərzindən tutmuş, inanc və dini etiqadların mövcud olduğu məkanları əyani olaraq göstərmək olar. Müxtəlif mədəniyyətlərin qovuşduğu yerlərdə qohumluluq, mehriban qonşuluq, sevincli halların bölüşdürülməsinin, yasda isə hamılıqla dərdə şərik olmağın qanunauyğun hal kimi qəbul edilməsinin şahidi oluruq.

Xalqa məxsus olan bütün dəyərlərə görə Azərbaycan ailəsinə borcluyuq. Məhz Azərbaycan ailəsinin yaratdığı azərbaycanlı düşüncəsi bütün tarix boyu müqəddəs bir hal kimi qorunub inkişaf etdirilmişdir. İnsan tərbiyəsinin önəmli əsasını təşkil edən azərbaycanlı ailəsinin özəlliklərini elmi şəkildə tədqiq edib, onu digər xalqlar üçün nümunə ola biləcək halda təbliğ etməyin zamanı çoxdan çatmışdır. Bizim milli kimliyimizi, milli mənliyimizi, bir sözlə, bizi millət edən azərbaycanlı ailəsinin milli-mənəvi dəyərlər sistemində özünəməxsus yeri vardır. Müasir dövrdəki ailə modeli əvvəlki dövrdəki ailə modellərindən onunla fərqlənir ki, indiki müstəqil, milli dövlətimizin təsiri altında formalaşan ailə modeli müasirləşir, zənginləşir, yeni xüsusiyyətləri özündə təcəssüm etdirir. Ən önəmlisi, burada neqativ əlamətlərin azərbaycanlı ailəsinə daxil olan elementlərin qarşısının alınmasıdır. Ən gözəl nemətimiz sayılan milli dəyərlərə görə istənilən ideya ətrafında birləşə bilməyimizdir. Deməli, burada görüləsi işlər çoxdur. İctimai nəzarətin önəmli olması diqqəti çəkir.

Cəmiyyətimizdə olan demokratikləşmə, mövcud olan qanunlar, iqtisadiyyatımızın günü-gündən güclənməsi, hər bir azərbaycanlı ailəsinin rifahının yüksəlməsi nəticəsində hər birimizin iftixar hissinə çevrilməlidir. Bu isə o zaman baş verir ki, ailədaxili münasibətlərdə hörmət, qeyrət, mərdlik, qarşılıqlı anlaşma kimi xüsusiyyətlər cəmiyyət tərəfindən qiymətləndirilməli və tərbiyəvi işin daima gündəmdə olması nəzərdən qaçmamalıdır.

Yeni-yeni texnologiyaların, internetin həyatımıza daxil olması bu yeniliklər fonunda münasibətlərin formalaşması istiqamətində bir sıra çətinliklər yaradır. Hər bir insana qloballaşmanın təsir etməsi danılmaz faktdır. Bu yeniliyin ən çox təsir dairəsi Azərbaycan gəncliyidir. Dövlətimizin apardığı siyasətin əsasını da məhz bizə yad olan ideologiyaların neqativ təsirinin qarşısının alınması və azərbaycanlıların təhlükəsiz və əmin-amanlıq şəraitində yaşamalarını təmin etməkdən ibarət olmasıdır. Milli-mənəvi dəyərlərə söykənən sağlam Azərbaycan vətəndaşı güclü dövlətin təməlini təşkil edir. Bu dəyərlər yalnız iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən mükəmməl, sosial cəhətdən təminatlı, mənəvi cəhətdən zəngin olan Azərbaycan vətəndaşının sayəsində mümkündür.

Azadlığı çox çətinliklə əldə edən Azərbaycan vətəndaşı onun qədrini də yaxşı bilir. Ona uzanan əlləri də qırmağın təcrübəsini bilir. Burada xalq şairi Xəlil Rzanın yazdığı şeir yerinə düşür:

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
Azadlığı istəmirəm Bir həb kimi, Dərman kimi.
Mən azadlıq istəyirəm Səma kimi, Günəş kimi, Cahan kimi [6,s.95].

Azərbaycanda keçmişdə olduğu kimi poetik fəlsəfənin nümayəndələri müasir dövrdə də milli ruhdan gələn azadlıq, müstəqillik ideyalarına sadiq qalmış və bunun sayəsində də öz suveren dövlətinin yaranmasına müvəffəq olmuşdur. Yalnız bu xalq tarixi şəxsiyyət olan Heydər Əliyevin apardığı siyasət nəticəsində, liderliyi nəticəsində öz müstəqilliyinə qovuşa bilmişdir. Müstəqilliyi əldə etmək olar, yalnız əsas məsələ onu qoruyub saxlamaqdan ibarətdir. Hansı dövrə nəzər yetirsək görərik ki, milli ruhda əsərlər ərsiyyəyə gəlmiş, fəlsəfi ideyalar mövcud olmuşdur. Mədəniyyətimiz uzun bir tarixi yol keçərək bu günə qədər gəlib çatmışdır. Respublikamızın ictimai-siyasi xadimi olan Mehriban xanım Əliyevanın mədəniyyətimizin inkişaf etdirilməsindəki səyləri danılmaz faktdır və xalqımız tərəfindən böyük rəğbətlə qarşılanır. Xalqın mənəviyyatını zənginləşdirən irsi yaşatmaq və inkişaf etdirməkdən məsuliyyətli və savab iş yoxdur. Bu misilsiz zəhmətə kölgə gətirənlər isə təbii ki, xalqın düşmənləridir.

Milli mənəvi dəyərlərin dinamik inkişafını təmin edən azərbaycan təhsili daima təkmilləşir, yeniləşir, müasirləşir. Bu istiqamətdə baş verən islahatlar dünya təhsil sisteminə uyğunlaşdırılır. Mənəviyyatın başlıca əsası maarifçilik və təhsildən, ailə və cəmiyyətdən gəlir. Dövlət başçısının səyləri məhz mövcud olan milli-mənəvi dəyərlərin qorunması, təhlükəsizliyi, torpaqların azad olması ölkəmizin dünyəvi sivil cəmiyyətə çevrilməsinə yönəlmişdir.

**Açar sözlər:** azərbaycançılıq, milli - mənəvi dəyərlər, milli ideologiya, dinamik inkişaf, multikulturalizm

## İstifadə olunmuş ədəbiyyat

1. Allahverdiyev Q. Azadlığın sosial- fəlsəfi tədqiqinin metodoloji məsələləri. Bakı. 2016
2. Mehrabov A. Müasir təhsilin konseptual problemləri. Bakı, 2010
3. Aydınoğlu T. ” Xalq qəzeti “ 2009, 8 may
4. Hacıyev Z. Fəlsəfə. Bakı,2000.
5. Hacıyev T.E. Azərbaycanşünaslığın aktual problemləri. Bakı-Gəncə, 4-7 may 2011.
6. Rza Xəlil Ulutürk. Seçilmiş məqalələri. 2 cilddə. Bakı, 2005.
7. Tolerant Azərbaycan gənci.Bakı,2017.
8. Ulu öndər Heydər Əliyev irsi və politologiyanın aktual problemləri. Bakı.2012.

**Азад Джафаров**

## ГЕЙДАР АЛИЕВ И НАШИ НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ

### Резюме

В статье отмечается, что развитие каждого народа связано с уважением и сохранением своих духовных ценностей и передачей их от поколениям к поколению. Этот вопрос всегда занимал центральное место в государственной политике виднейшего государственного деятеля Гейдара Алиева. Придавая большое значение патриотизму, азербайджанизму и гуманизму Гейдар Алиев имеет огромные заслуги в работе по

сохранению национальных ценностей и проведению в обществе, особенно среди молодежи, широких дискуссий о значении сохранения этих ценностей. В статье отмечается, что такая политика с успехом продолжается и в настоящее время.

**Ключевые слова:** азербайджанизм, национально-духовные ценности, национальная идеология, динамическое развитие, мультикультурализм

**Azad Jafarov**

## HEYDAR ALIYEV AND OUR NATIONAL-SPIRITUAL VALUES

### Summary

In this article commends that the developing of every people relates with respecting and maintain their spiritual value and passes them from generation to generation. This question always takes up central place into government policy by prominent statesman Heydar Aliyev. Attaching great importance azerbaijanizm and humanizm, Heydar Aliyev takes place great services in preservation national value and adopting society, particulary among young generation, wide discussion about significance preservation these values. In this article commends that such politics with achievement continues in this time.

**Keywords:** azerbaijanism, national-spiritual values, national ideology, dynamic development, multiculturalism

UOT 101.1

**Fikrət NƏBİYEV**
*b.e.i., fəlsəfə ü.f.d.*
*AMEA Fəlsəfə İnstitutu*

**Minayə XIDIROVA**
*e.i, AMEA-nın əməkdaşı*

# HÜQUQİ TƏNZİMLƏMƏ PROSESİNDƏ TƏFƏKKÜRÜN ROLU*

Bütün hüquq sahələri üzrə hüquqi təfəkkür hüququn tərkib elementi olduğu üçün spesifik funksiyalara malikdir. Eyni zamanda sistemi təşkil edən bütün ünsürlər kənar mühitlə əlaqədədir (1). Ona görə də hər bir sahə üzrə hüquqi təfəkkür özünün bütün başqa elementləri ilə birlikdə, qarşılıqlı əlaqədə tədqiq edilməlidir.

Tədqiqatlar göstərir ki, hüquqi təfəkkürün və hüququn funksiyaları differensial qaydada, yəni hüquq sahələri üzrə müstəqil tədqiqat obyekti kimi öyrənilməlidir (2). Hüquqi təfəkkürün müxtəlif hüquq sahələrinə bölünməsi qanunvericilikdə, hüquq-mühafizə orqanlarının fəaliyyətində və hüquqi tənzimləmə prosesində xüsusi önəmli məsələdir. Hüquqi təfəkkürün hüquq sahələri üzrə öyrənilməsi məsələsi konkret hüquq sahəsinin təfəkkür prosesində necə təzahür etməsindən asılıdır. Məsələn, hələ qədim zamanlardan hüququn cinayət və mülki sahələri tədqiq edilməyə başlamış və nəticədə, hər bir hüquq sahəsinin fərqləndirilməsi xarakterik hal almışdır.

Başqa hüquq sahələri ilə müqayisədə cinayət hadisələri ilə bağlı məsələlərdə insanlar daha aydın təsəvvürə malikdirlər (3, s.34-35). Bu da cinayət hüquqi təfəkkürü müstəqil olaraq tədqiq etməyə imkan verir. Hüquqi təfəkkür əqli, qiymətləndirici və iradəvi gücə malikdir (4, s.210).

Təfəkkürün əqli tərəfini əhatə edən prinsiplərə hüquqi təfəkkürlə hüquqi hadisələri əlaqələndirən cinayət hüquqi prinsiplər haqqında biliklər; cinayət qanunları haqqında, ayrı-ayrı cinayət əməlləri haqqında yaddaşda qalmış biliklər; qanunda nəzərdə tutulan cəza növləri haqqında biliklər; azadlıqdan məhrum etmə ilə bağlı islah əmək koloniyaları və həbsxanalar haqqında biliklər; cəzadan azad etmə, məhkumluğun götürülməsi və ya ödənilməsi ilə bağlı biliklər; cinayət qanunlarının tətbiqi (təcrübi olaraq) haqqında biliklər; cinayətkarlığın vəziyyəti və profilaktik tədbirlər haqqında biliklər aid edilə bilər. Hüquqi biliklər normativ aktların dərc edilməsi və təbliği ilə, baş vermiş əməllərlə bağlı informasiyaların alınması ilə, cinayətkarlıqla mübarizədə iştirak etməklə yaranır.

İnsanların hüquqi təfəkkürü müxtəlif vasitələrdən – radio-televiziya, qəzet, konkret baş vermiş əməl haqqında yayılan məlumatlardan və məhkəmə baxışından əldə edilən biliklərdən formalaşır.

İnsanlara məxsus olan hüquqi təfəkkür qüvvədə olan hüquqi aktlardan, baş verən cinayətlərdən və tətbiq edilən cəzalar haqqında biliklərdən ibarət deyildir. Bu, eyni zamanda insan beynində əks olunan hüquqi hadisələrə qarşı müsbət və yaxud mənfi münasibətdən ibarət olur. Məsələn, insanlar qanunverici orqan tərəfindən qəbul edilmiş qanunları dərk edir, ancaq hər hansı hüquqi aktda qeyd edilən sanksiya ilə razılaşmır və yaxud qanunun tətbiqi ilə bağlı praktikaya öz kəskin mənfi münasibətini bildirir və bu istiqamətdə qanunun təkmilləşdirilməsi ilə bağlı tələblərlə çıxış edir. Hüquqi təfəkkür anlayış və kateqoriyaların köməyi ilə özlərinin

* Məqalə fəlsəfə ü.e.d. Füzuli Qurbanov tərəfindən çapa məsləhət görülüb.

ictimai həyatdakı davranışına, hüquq-mühafizə orqanlarının fəaliyyətinə münasibət bildirir. İnsanların və cəmiyyətin hüquqi ideyaları dəyişdikcə hüquq elmi də daim inkişaf edir.

İnkişaf prosesi iqtisadi formasiyaların bir-biri ilə əvəz olunması şəraitində baş verir. Məsələn, Sovetlərin dövründə "valyuta əməliyyatı qaydalarını pozma", özəl müəssisə fəaliyyəti ilə məşğul olma, "al-ver" etmə kimi əməllər cinayət hesab edildiyi halda, hazırda həmin fəaliyyət növləri bazar iqtisadi münasibətlərinin əsasını təşkil edir. Qanunla əvvəllər sürgün və köçürmə kimi qəbul edilmiş cəza növləri ləğv edilmişdir. İnsanlar qanunçuluq və məsuliyyət kimi kateqoriyalara əsaslanaraq öz davranışlarına, hüquq-mühafizə orqanlarında cinayətkarlıqla mübarizə aparan subyektlərin fəaliyyətinə nəzarət edir.

Keçid dövründə sosialist təsərrüfat sisteminin dağılması ilə bağlı qanunlarda sürətli dəyişikliklər baş vermişdir. Belə ki, sosial nəzarətin zəifləməsi qanunçuluğun pozulmasına gətirib çıxarmışdır. Sonralar hüquqi təfəkkürün nəticəsi olaraq qanunda yaranan neqativ hallara, qanunda boşluğa, qanunçuluq rejimindən yayınma hallarına tənqidi münasibət yaranmışdır.

Hüquqi təfəkkürün iradəvi mahiyyəti onda özünü təsdiq edir ki, hüquqi hadisələrlə bağlı insan beynində baş verən idraki proseslərlə iradə aktı qarşılıqlı əlaqədə olsun. Məhs hüququn əmələ gəlməsinin əsas şərti hüquqi təfəkkürün yaratdığı yeni ideyanı iradə aktının vasitəsi ilə gerçəkləşdirməkdir.

Materializmdə hüquqa hakim sinfin iradəsi kimi baxılır. K.Marks və F.Engelsin "Kommunist Partiyasının manifesti" əsərində qeyd edilir ki, hakim sinif eyni zamanda hüquqi təfəkkürün yaradıcısıdır. Hər bir hüquq hakim sinfin qanun şəklinə salınmış iradəsidir. Bunun da məzmununu hakim sinfin maddi həyat şəraiti müəyyən edir.

Sovetlərin hakimiyyəti dövründə hüquq ədəbiyyatında hüququn ümumxalq iradəsini əks etdirməsi haqqında qeydlər vardır. Əslində, ancaq siyasi hüquqi hakimiyyətə sahib olan vətəndaşlar öz hüquqlarını yarada bilərlər. Sovet dövləti heç bir vaxt xalqın siyasi hakimiyyət orqanı olmamış və heç vaxt xalqın iradəsini ifadə etməmişdir.

Belə ki, 90-cı illərdə ölkədə baş verən siyasi iqtisadi böhran özünü sosial həyatın bütün sahələrində, o cümlədən ölkə qanunvericiliyində də büruzə verdi. Qanunlar işləmədi və cinayətkarlıq artdı. Bunun əsas səbəblərindən biri də, qeyd edildiyi kimi, qanunların real şəraitə uyğun gəlməməsində idi.

Hazırkı dövrdə xalqın iradəsini əks etdirən dövlət hakimiyyət strukturu möhkəmlənir və demokratik əsaslara malik inkişaf etmiş qanunlar yaradılır. Hüquqi təfəkkürün inkişafı nəticəsində ictimai iradə formalaşır. Bunsuz qanunların sosial bazasını möhkəmləndirmək qeyri-mümkündür.

Təfəkkürün qiymətləndirilməsi ancaq iradə aktı vasitəsilə həyata keçirilir. Son nəticədə iradə aktı vasitəsilə formalaşan hüquqi təfəkkür bir tərəfdən hüquqi cəhətdən mühafizəsi zəruri olan sosial münasibətləri aşkar edir, digər tərəfdən qüvvədə olan qanunlara istinad edir və onların praktikada təkmilləşməsinə yönəlmiş ideyalar irəli sürür.

Təfəkkür hər bir insana öz hüquq və vəzifələrini həyata keçirərkən qanun çərçivəsində fəaliyyət göstərmək imkanı verir. Hüquqi təfəkkür hüquqi hadisələr haqqında insanların, kollektivin, bütövlükdə cəmiyyətin baxışları, ideyaları və biliklərinin məcmusudur. Hüquqi təfəkkür cəmiyyətdə ictimai praktikanın müxtəlif sahələrində hüquqi hadisələri əks etdirir. İnsanlarsız cəmiyyət olmadığı kimi, insanların hüquqi təfəkküründən, hüquqi baxışlarından, ideyalarından, təsəvvürlərindən kənarda dərk etmədə yoxdur.

Cəmiyyətin hüquqi təfəkkürü təfəkkürün formalarından olub məzmun etibari ilə onun quruluşunu yaradır (5, s.99). Sovetlər dövründəki ideologiyaya əsaslanan hüquqi təfəkkür fərdlərin, siniflərin, sosial qrupların və nəhayət cəmiyyətin hüquqi təfəkküründən ibarət idi. Eyni zamanda bu struktur daxilində sinfin hüquqi təfəkkürünün aparıcı əhəmiyyətindən bəhs

edilir. Təfəkkür insanın keçdiyi həyat yolunun xüsusiyyətlərinin təsiri altında, ictimai hüquqi düşüncənin təsiri nəticəsində yaranır və o hər bir şəxsin fərdi hüquqi təfəkkürünə çevrilir. Ümumiyyətlə insanlar ictimai münasibətlərin iştirakçısı olduqları üçün onların hüquqi baxışları, ideyaları ictimai praktikanın təsiri altında formalaşır və zəmanəsinin fərdi hüquqi təfəkkür səviyyəsinə çatır.

Qeyd etmək lazımdır ki, dövrün hüquqi hadisələrinin təsiri ilə formalaşan fərdi hüquqi təfəkkürlə ictimai xarakter kəsb edən hüquqi təfəkkürü eyniləşdirmək olmaz. Belə ki, fərdi hüquqi təfəkkürdə təkcə öz dövrünün obyektiv hüquqi hadisələri əks olunmur, həm də ona yaşadığı mühitin obyektiv halları, eyni zamanda şəxsiyyətin fərdi keyfiyyətləri kimi təhsili, tərbiyəsi, peşəsi, xarakteri, sosial-psixoloji durumu, həyat şəraiti, ailə-məişət münasibətləri təsir edir. Məlum olduğu kimi, hətta bir sosial qrup daxilində olan insanların müxtəlif səviyyələrdə hüquqi təfəkkürü formalaşır. Ona görə də ayrı-ayrı insanların hüquqi hadisələr haqqında yaranmış ideyaları, baxışları, bilikləri və hissləri heç vaxt eyni olmur.

Tədqiqatlar göstərir ki, faktiki olaraq müxtəlif sosial dairədən olan əhalinin hüquqi bilikləri olduqca zəifdir. Aparılan sorğu prosesinin yekunları göstərir ki, sorğuda iştirak edənlərin əksəriyyətinin cinayət məsuliyyətinin neçə yaşdan yaranması haqda, məsuliyyətdən və cəzadan azad etmə məsələləri haqqında məlumatları yoxdur.

Hüquqi mədəniyyət formalaşdırmadan insanların qanuni hüquq və mənafelərini, qanunçuluğun fəal müdafiəçisinə çevirmək, bir sözlə, hüquqi dövlət qurmaq mümkün deyildir.

Tədqiqatçılar hüququn hüquqi ideologiyaya və hüquqi psixologiyaya bölündüyünü qeyd edirlər (6, s.124). Ancaq fəlsəfi ədəbiyyatlarda ictimai xarakterli hüquqi təfəkkürün ictimai psixologiya, ictimai ideologiya və nəzəri elmi təfəkkürdən ibarət olduğu qeyd olunur (5, s.167). Bəzi müəlliflər isə ictimai şüurun adi və nəzəri elmi şüura bölündüyünü qeyd edirlər (7, s.248). Əlbəttə ki, bu cür tədqiqat nümunələri müsbət haldır və bu istiqamətdə fikir söyləmək olar. Ancaq biz ictimai xarakterdə olan hüquqi təfəkkürün ayrıca mövcud olmadığını, təfəkkürün fərdlərlə bağlı olduğunu, fərdi şüurun eyni zamanda ictimai xarakter daşıdığını qeyd etmək istəyirik. Fərdi hüquqi şüurun ictimai və fərdi rasional tərəfi, yəni sağlam düşüncə adlandırılan tərəfi vardır. Bütün şəxslərdə formalaşmış adi empirik şüurla ictimai şüurun nisbəti eyni deyildir.

Hüquqi psixologiyada hüquqi hadisələr stereotiplərdən asılı olaraq tədqiq edilir. Burada çox vaxt həyatda baş verən neqativ hadisələr arasında fərq qoyulmur, konkret hüquq pozuntularına əsasən psixoloji ümumiləşdirmələr aparılır. Bu cür psixoloji ümumiləşdirmələr isə sağlam düşüncənin mühakiməsindən uzaq olur. Belə ki, vərdişlərə və emosional hisslərə əsaslanan hüquqi hadisələrin, neqativ halların əsasında hadisəyə qiymət verilir. Bu halda isə cəmiyyətdə qanunun roluna, onun tətbiqinə o qədər əhəmiyyət verilmir. Bir çox hallarda hüquq-mühafizə orqanlarının fəaliyyəti şişirdilir, cinayətkarlığın qarşısının alınması haqqında onların fəaliyyəti ilə bağlı mülahizələr əsas kimi qəbul edilir, tətbiq edilən cəzaların yumşaqlığı barədə fikirlər yaranır. Burada predmet və hadisələrin ancaq zahiri, yəni ayrı-ayrı görünən tərəfləri müəyyən edilmiş olur.

Hüquqi təfəkkür nəzəri bilikləri tətbiq etməklə, təcrübədə qanunvericiliyin tətbiqini təkmilləşdirilir.

Hüquqi təfəkkür hüquqi hadisələrin təhlili və ümumiləşdirilməsi əsasında yaranan, həmin hadisələrin mahiyyətinin inkişaf istiqamətini müəyyən edən, hüquqi faktlara əsaslanan yaranmış təsəvvürlərdən və emosional hisslərin çərçivəsindən kənarda olan, idrak prosesinin ikinci mərhələsini əhatə edən hüquqi anlayışdır.

Hüquqi təfəkkür əsasında hüquqi hadisələr arasında əlaqələr, onların xüsusiyyətləri, cəmiyyətin sosial həyatdakı fəaliyyətini əks etdirən hüquqi anlayışlar yaranır. Bura hüquq pozuntusu, cinayət, cəza, qanunçuluq, cinayət tərkibi kimi anlayışlar daxildir.

Hüquqi təfəkkürün əsas forması hüquqi ideyadır. Hüquqi ideyalara hüquqi hadisələrin mahiyyəti, qanunauyğunluqları və bunun başqa sosial sistemlərlə əlaqəsi aid edilir. Hər hansı qanunun tətbiqi praktikası ilə bağlı olan hüquqi ideya geniş və dərin sosial əlaqə və proseslərə sistemli yanaşma zəminində elmi nəzəri təhlili həyata keçirə bilər.

Hüquqi anlayışların və ideyaların sistemli şəkildə məcmusu hüquq nəzəriyyəsidir. Deməli, hüquqi nəzəriyyə hüquqi biliklərin sistemə salınmış formasıdır. Hüquqi nəzəriyyə hüquq haqqında və hüquqi hadisələr haqqında ideya və anlayışların bütöv sistemidir. Eyni zamanda qeyd olunmalıdır ki, hüquqi nəzəriyyə hüquqi təfəkkürün daha yüksək pilləsi olub, özündə hüquqi anlayışları və ideyaları müəyyən qaydada və sistemdə birləşdirərək məntiqi asılılıq əlaqəsini yaradır. Hüquqi təfəkkür əsasında nəzəriyyələr yaradılarkən başqa elm sahələrinin elmi nailiyyətlərindən də istifadə edilir. Məsələn, qeyd edilməlidir ki, cinayət məsuliyyəti, təqsir, cinayət tərkibi kimi anlayışlar cinayət hüququnun sistemə salınmış anlayışları olmaqla bərabər, həm də həmin anlayışlar məhz psixologiya, sosiologiya, fəlsəfə kimi elmi biliklərin əsasında işlənib hazırlanmışdır. Belə ki, təqsir anlayışının işlənib hazırlanması zamanı insan davranışının ətraf mühitlə əlaqəsi, insanın iradə azadlığı haqqında fəlsəfi təlim, geneseologiyanın nəzəri müddəaları və eyni zamanda idrakı inkişafın sosial psixoloji qanunauyğunluqlarından istifadə edilmişdir.

Nəzəriyyəçilər hüquqi təfəkkürə əsaslanaraq cinayət tərkibi haqqında nəzəriyyə işləyib hazırlayarkən sosial psixoloji elmi biliklərdən istifadə edilmişdir. Belə ki, ilk öncə insan davranışının fiziki və psixi keyfiyyətlərinin vəhdətdə olması, ayrı-ayrı kriminal davranış aktlarında təkrar olunan əlamətlərin aşkar edilməsi və bu əsasda yaranan əlamət anlayışlarını cinayət hüquq normasına daxil etməklə tərkiblərin müəyyən edilməsi ilə bağlı nəzəriyyə yaratmışlar.

Hüquq elmi hüquqi bilikləri və hüquqi nəzəriyyələri əhatə edən anlayışların sistemə salınmış ali formasıdır. Deməli, hüquqi nəzəriyyələrin sistemə salınmış forması hüquq elmini yaradır.

Hüquq elmi hüquqi hadisələrin mahiyyətini və inkişaf qanunauyğunluqlarını müəyyən edir. Hüquq elmi qanunvericiliyi, hüquq yaradıcılığını və qanunun tətbiqi təcrübəsini təkmilləşdirməyi qarşısına qoyan, hüququn inkişaf qanunauyğunluğunu müəyyən edən biliklər sistemidir.

Aydındır ki, hüquqi ideyalar, nəzəriyyələr ilk növbədə ayrı-ayrı insanların təfəkkürünün məhsuludur. Fərdi hüquqi təfəkkürün məzmununda empirik biliklərə əsaslanan sağlam düşüncə mühüm yer tutur. Sağlam düşüncə obyektiv gerçəkliyin real faktlarına əsaslanır.

Burada insanların adi gündəlik həyat şəraiti əks olunur və bu təsəvvürlərin həqiqiliyini milyonların gündəlik əməli fəaliyyəti ilə təsdiq etmək olar (8, s.15).

Hegel qeydlərində sağlam düşüncənin mahiyyətinə nəzər salaraq qeyd edir ki, sağlam insan düşüncəsi öz zəmanəsinin təfəkkür tərzini, cəfəng təsəvvürlərini və mövhumatlarını özündə ehtiva edir... (10, s.28-29).

Hüquqi psixologiyada yaranan təsəvvür və ideyalar konkret hüquqi hadisələri daxilən yaşamaqla, yəni iztirabla bağlı olduğundan hissi xarakter kəsb edir. Hissi təəssürat ön plana keçdiyindən o qədər də düzgün olmayan konkret faktlara əsasən ümumiləşdirmələr aparılır ki, bu da reallığı əks etdirə bilmir. Beləliklə, hüquqi psixologiya hüquqi biliklərin və hadisələrin mahiyyətini açmaq səviyyəsində olmur. Belə hallar adətən ziddiyyətli və qeyri-sabit xarakter daşıyır (10, s.34).

Hüquqi psixologiyaya fərdlərin hüquqi hissləri və emosiyaları təsir edir. Qeyd edilməlidir ki, hüquqi hisslər və emosiyalar kriminal əməllərin baş verməsilə, cinayətlərin üstünün açılma intensivliyi ilə, müəyyən qanunların tətbiqi ilə özünü göstərə bilər. Hüquqi emosiyalar ictimai mühitdə baş verən hüquqi hadisələrlə əlaqədar yaranır. Məsələn, baş vermiş

hər hansı ictimai təhlükəli əmələ görə mənfi reaksiya yarana bilər. Hüquqi hiss hüquqi hadisələrin müəyyən şəraitlərdə dəfələrlə yaranan nisbətən sabit daxili vəziyyətidir. Hüquqi hiss hüquqi hadisələrlə, hüquqi faktlarla əlaqədar yaranır. Qanuna, ədalət mühakiməsinə şəxsi hüquq və azadlıqların hüquqi mühafizəsinə inam hissi buna misal ola bilər. Hüquqi şüur-hüquqi təfəkkürün sözlə ifadə edilə bilən forması olub hüquq yaradıcılığına doğru yönəlmişdir.

Qeyd edilməlidir ki, hüquqi şüur-fərdi, qrup və ictimai hüquqi şüur adlı növlərə ayrılır. İctimai hüquqi şüur fərdi şüurun ictimai tərəfidir. Fərdlər fərdi hüquqi şüurun daşıyıcılarıdır. Sırf hüquqi profisional biliyə malik olan fərdlər hüquqi şüurun yaradıcılarıdır.

Elmi baxışların yaranması haqqında bir çox nəzəri müddəalar irəli sürülmüşdür. Məsələn, "Üç dünya" konsepsiyasına görə yaşama spesifikasından asılı olaraq varlığın üç dünyası mövcuddur. Birincisi, fiziki varlıq, yəni təbiət, ikincisi, insanların psixi dünyası, idrak sahəsi, üçüncüsü, biliklər dünyasıdır. Bura yazılı nəzəri mənbələr, incəsənət əsərləri, mədəniyyət abidələri aid edilir. Bütün bunlar insan təfəkkürünün nəticəsi olaraq baş verir (11, s.104-106). İnsanlar bir tərəfdən keçmiş nəsillərdən miras qalan maddiləşmiş informasiyaları seçib öyrənir, digər tərəfdən isə əldə etdikləri informasiyalar əsasında sosial ictimai münasibətləri dərk edərək yeni biliklərə sahib olur, yəni fərdi və ictimai səviyyələrdə özlərinin sosial-psixoloji biliklərini yaradırlar. Zəruri qaydada meydana gələn informasiya, yəni müəyyən bilik haqqında anlayışlar əvvəlcə təxəyyüldə, sonra isə sosial aləmdə maddiləşir, yəni insandan kənarda yaddaş aləminə informasiya şəklində daxil olur (12, s.220-221).

İnikas prosesində şeyin və ya hadisənin ayrı-ayrı zahiri xüsusiyyətləri, sonra isə daxili tərəfləri arasında rabitə yaranır, bütün bu mənzərə qavranılır və müəyyən edilmiş obraz yaddaşa köçürülür. Qavrayışınköməyi ilə qazanılan informasiya fərd üçün bələdçi rolunda çıxış edir. Qavrayış prosesində ancaq subyektə lazım olan cəhətlər qavranılır. Ona görə də qavrayış prosesini subyektin real həyatdakı vəziyyətindən, vəzifələrindən kənarda araşdırmaq düzgün olmazdı (13, s.59).

**Açar sözlər:** hüquqi təfəkkür, iradə aktı, fərdi hüquqi təfəkkür, hüquqi ideologiya, hüquqi psixologiya, hüquqi ideya.

## İstifadə olunmuş ədəbiyyat

1. Юдин З.Г. Системный подход и принцип деятельности. М., 1978.

2. Фарбер И.Е. Правосознание как форма общественного сознания. М., 1963.

3.Гойман В.И. Правовая информированность граждан: состояние, пути улучшения. «Государства и права», 1988, № 9.

4. Имре Сабо. Основы теории права.

5. Уледов А. Структура общественного сознания. М., 1968.

6. Лукашева Е.А. Социалистическое правосознание и законность. М., 1973.

7. Плеханов Г.В. Избранные философские произведения. В 5 томах. Т.II.

8. Səttarov M.M. Adi şüur və onun inkişaf dialektikası. Bakı, 1978.

9. Гегель. Соч. Т. X. М., 1932.

10. Назаренко Е.В. Социалистическое правосознание и советское правотворчество.

11. Критический рационализм, философия и политика. М., 1981.

12. Малиновский А.А. Проблемы соотношения социального и биологического - биологическое и социальное в развитии человека. М., 1977.

13. Запорожец А.В., Зинченко В.П. Восприятие, движение, действие. В кн. «Познавательные процессы: Ощущение восприятия». М.: «Педагогика», 1982.

**Фикрет НАБИЕВ, Миная ХЫДЫРОВА**

## РОЛЬ МЫШЛЕНИЯ В ПРОЦЕССЕ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ

### Резюме

На основе теоретического юридического мышления создаются юридические понятия, отражающие деятельность общества в социальной жизни, отношения между юридическими событиями и их особенностями. Сюда входят такие понятия, как нарушение закона, преступление, наказание, законность и уголовное содержание.

Основной формой теоретического юридического мышления является юридическая идея. Сущность и закономерность юридического события и их связь с другими социальными системами относятся к юридическим идеям. Юридическая идея, связанная с практикой применения любого закона,оставить путем системного подхода к обширным и глубоким социальным связям и процессам, может осуществить научно-теоретический анализ. Совокупность юридических понятий и идей есть теория права. Таким образом, теория права - системная форма правовых знаний.

В то же время, следует отметить, что правовая теория, будучи более высокой ступенью юридического мышления, упорядочивая и систематизируя правовые концепции и идеи, создает логическую зависимость связей.

**Ключевые слова:** правовое мышление, волевой акт, индивидуальное правовое мышление, правовая идеология, правовая психология, правовая идея.

**Fikret NABIYEV, Minaya XIDIROVA**

## THE ROLE OF THE THINKING IN THE PROCESS OF LEGAL REGULATION

### Summary

On the basis of the theoretical legal reasoning legal concept are created that show the company's activities in the social life, the relationship between legal developments and their features. This includes the concept of a crime, punishment, criminal law and contents.

The basic form of the theoretical legal thinking is the law of ideas. The nature and pattern of legal developments and their relation to other social systems is legal ideas. Legal concept is associated with the practice of application of any law. On the basis of a systematic approach to the vast and deep social relationships and the process can realize the scientific and theoretical analysis. A systematic form of a set of legal concepts and ideas is a theory of law. Thus, the theory of the right systemic form of legal knowledge. Legal theory is the whole system of ideas and views on the legal developments. At the same time, it should be noted that the legal theories are of more higher levels of legal thought and combined with the legal concept and idea in a certain system and procedure creates a logical dependency relationships.

**Keywords:** legal thinking, act of will, individual legal thinking, legal ideology, legal psychology, legal idea.

**Rövşən HACIYEV**
*a.e.i., fəlsəfə ü.f.d.,*
*AMEA Fəlsəfə İnstitutu*

# SOSİOMƏDƏNİ SİSTEMLƏRİN TƏSNİFATINA DAİR (SOSİAL-FƏLSƏFİ TƏHLİL)*

Məntiqdə anlayışın məzmunu dedikdə, bir qayda olaraq, onu təşkil edən predmetlərin mühüm əlamətlərinin üzə çıxarılması nəzərdə tutulur. Bu metodoloji məqamı nəzərdə tutub ilk növbədə onu qeyd etmək istərdik ki, *sosiomədəni hadisə* və *sosiomədəni sistem* məzmunu baxımından fərqli anlayışlardır. İnsanların məna kəsb edən istənilən qarşılıqlı münasibətləri sosiomədəni hadisə kimi qəbul edilir və əvvəlki məqalədə (3, s.60-64) aparılan araşdırmalar bunu başa düşməyə imkan verir. Lakin sosiomədəni sistem birincidən fərqli anlayışdır, çünki burada insanlar arasındakı məna kəsb edən qarşılıqlı əlaqələr təsadüfi səciyyə daşımayıb müəyyən quruluşda, struktur halında ortaya çıxır. Məsələn, əgər biz nəqliyyatda digər insanlarla ünsiyyət qurub müəyyən əxlaqi davranış normaları çərçivəsində dünyada baş verən siyasi prosesləri müzakirə ediriksə, bu, əlbəttə ki, sosiomədəni hadisə kimi təzahür edəcəkdir, lakin yaradılmış interaksiya formalaşmış və qərarlaşmış münasibətlər sistemi halında olmayacaqdır! Çünki çəkdiyimiz konkret misalda bizim məna daşıyan qarşılıqlı əlaqələrimiz təsadüfi səciyyə daşıyır. Bu cür əlaqələrin sistem halına düşməsi üçün isə davamlı struktur əlaqələrinin qurulması tələb olunur. Bu şərtə isə sosial birliklər, institutlar, təşkilatlar cavab verir. Həmin səbəbdən də istənilən sosial institut, təşkilat, mütəşəkkil insan birliyi və ya qrupu mütəxəssislər tərəfindən sosial sistem kimi qəbul edilir. Deməli, sosiomədəni hadisənin sosial sistem kimi çıxış etməsi üçün onu təşkil edən komponentlərin struktur halına düşmüş dayanıqlı qarşılıqlı əlaqələri yaranmalıdır.

Belə bir metodoloji hazırlıq işləri aparıldıqdan sonra aşağıdakı sualları cavablandırmağa çalışaq. Etnos sosial sistemdir, yoxsa mədəni? Siyasət sosial sistemdir, yoxsa mədəni? Sivilizasiya sosial sistemdir, yoxsa mədəni? Belə sualların sayını dəfələrlə artırmaq da mümkündür, lakin zənnimizcə, buna elə bir ehtiyac da yoxdur. Bu cür suallara cavab vermək üçün sosial sistemləri mədəni sistemlərdən fərqləndirən mühüm və başlıca əlaməti ayırd etmək gərəkdir. Yalnız bu məsələnin həlli zəminində sosiomədəni sistemlərin məzmununa aydınlıq gətirmək, onu təşkil edən elementlərin təsnifatını aparmaq mümkün olacaqdır.

Əslində bu problemlərin həllinin əsas çətinliyi onunla bağlıdır ki, araşdırdığımız anlayışların məzmunu indiyə kimi öz aydınlığını əldə edə bilməmişdir. Xüsusən mədəni sistemlərin təyininə həsr edilmiş tədqiqatların sayı olduqca azdır. Sosial sistemlə bağlı T.Parsonsun tədqiqatları bu məsələyə xeyli dərəcədə aydınlıq gətirilməsinə imkan verir. Eyni zamanda onun tədqiqatlarında mədəni sistemlərin məzmunu dolğun şəkildə açılmamışdır (məsələn, sosial sistemdən fərqli olaraq, Parsonsun əldə etdiyimiz tədqiqatlarında "mədəniyyət" anlayışı təyin edilmiş, lakin mədəni sistemin tərifi verilməmişdir), çünki görkəmli sosioloq öz diqqətini əsas etibarilə sosial sistemlərin məzmununa və onun strukturunun funksionallığına yönəltmişdir. Mədəni sistemin təyin edilməsi ilə bağlı məsələyə yalnız T.Q.Quşevitskayanın və A.P.Sadoxinin "Kulturologiya" dərsliyindəki üç cümlədən ibarət fikirlərində konkret cavab tapmaq mümkün olmuşdur. Həmin yazıdan məlum olur ki, mədəni sistem müəyyən insan birliyinin praktikasında və şüurunda tarixən formalaşmış mədəni formaların cəmidir (12, s.116). Bu tərifin davamı olaraq müəlliflər bildirirlər ki, mahiyyəti

---

* Məqalə fəlsəfə ü..e.d, professor Əli Abasov tərəfindən çapa məsləhət görülüb.

baxımından mədəni sistem hər hansı bir xalqın, təbəqənin, icmanın və sairənin konkret-tarixi mədəniyyətini ifadə edir. Bu fikirlər mədəni sistemin mahiyyətini və məzmununu müəyyən dərəcədə başa düşməyə imkan verir. Aydındır ki, konkret etnosun yaratdığı dəyərlər ümumilikdə mədəni sistem kimi təzahür edir. Lakin T.Q.Qruşevitskayanın və A.P.Sadoxinin yuxarıdakı tərifi digər sosiomədəni hadisələrin mədəni sistem olub-olmamasını bilavasitə başa düşməyə imkan vermir. Bunun üçün xüsusi təhlilə ehtiyac yaranır. Bu məsələyə bir qədər aydınlıq gətirək.

Məsələn, elm mədəni sistem adlandırıla bilərmi? Zənnimizcə, bəli! Elm və ya incəsənət ona görə mədəni sistem adlandırıla bilər ki, onları konkret bir xalqın nümayəndələri və ya sosial toplum öz tarixi inkişafı prosesində formalaşdırmağa müvəffəq olmuşdur. Digər tərəfdən başlayan proses bununla məhdudlaşmaya bilir. Bir müddətdən sonra tarixin sınağından çıxmış həmin dəyərlər konkret ümumbəşəri mədəni sistemin yaranmasına da yol açır. Məsələn, Yeni Dövr Qərb elminin nailiyyətləri həqiqi mənada dünya əhəmiyyətli mədəni sistem kimi qəbul edilməkdədir. Belə ki, Qərb alimləri tərəfindən yaradılmış və artıq hamı tərəfindən qəbul edilmiş riyazi, fiziki və digər elmi simvollar (yəni mədəni sistemin işarələri), onlar arasındakı davamlı funksional əlaqələr (yəni işarələrin yaratdığı strukturdaxili əlaqələr) və digər bu kimi xüsusiyyətlər artıq dünya səviyyəsində özünü təsbit etmişdir. Bəs siyasət mədəni sistem kimi dəyərləndirilə bilərmi? Zənnimizcə, yox! Siyasətin yaranması və aparılması sosial sistemin, yəni idarəçilik strukturunun zəruri mövcudluğu ilə şərtlənir. Hakimiyyət olmayan yerdə siyasi fəaliyyət də mənasını itirir. Bu baxımdan iqtisadi, dini və ya elmi fəaliyyət üçün, xüsusən də incəsənətin təzahürü üçün, dövlət amili zəruri şərt deyildir. Siyasət haqqında isə bunu demək olmaz. Ona görə də siyasət mahiyyəti baxımdan sosial sistem kimi dəyərləndirilir. Aydındır ki, siyasətin də öz mədəni atributları vardır. Lakin bu mədəni komponentlər, daha konkret desək, etik davranış normaları siyasətin sırf mədəni sistem kimi təqdim edilməsinə kifayət etmir. Çünki siyasətin mahiyyətində onun mədəni sistem olmasına əngəl olan mühüm bir xüsusiyyət vardır ki, bu da idarəetmə amilidir. Beləliklə, apardığımız təhlillər mədəni sistemlə sosial sistemin məzmununda başlıca fərqli əlaməti aydınlaşdırmağa imkan verir. Bu əlamət, bu xüsusiyyət idarəetmə amili ilə müəyyənləşir.

Ümumiyyətlə, cəmiyyətin məzmununda hakimiyyət amilinin mühüm tərkib hissəsi olması məsələsinə Parsons və xüsusən də struktur-funksionalizmin aparıcı nümayəndələrindən olan E.Şilzin tədqiqatlarında aydınlıq gətirilmişdir. Özünün "Cəmiyyət və cəmiyyətlər: makrososioloji yanaşma" əsərində Şilz əsaslandırmağa nail olur ki, sosial sistem o halda cəmiyyət olur ki, burada hakimiyyət müəyyən ərazidə bərqərar olsun (4, s.344-345). Nəzərə alsaq ki, Parsons cəmiyyəti sosial sistemin xüsusi tipi kimi qəbul edib onları hətta eyniləşdirir (misal üçün bax: 20, s.691), o halda başa düşmək olar ki, idarəetmə funksiyası, xüsusi halda isə (yəni cəmiyyətə aid olduğu halda) hakimiyyət amili sosial sistemlərin mühüm və başlıca xüsusiyyətini təşkil edir. Zənnimizcə, sistemin mədəni və ya sosial olması məhz idarəetmə amilinin zəruri şəkildə mövcud olub-olmamasını və sistemin digər komponentlərinə bilavasitə təsirini nəzərdə tutur. Başqa sözlə, sosial sistemlər üçün, onların strukturunun formalaşması üçün idarəetmə funksiyasının yerinə yetirilməsi zəruridir. Buraya liderlik funksiyası da daxildir. Belə ki, hətta kiçik sosial qruplar belə liderlik funksiyasının olması xüsusiyyəti ilə səciyyələnir. Bu barədə S.S.Novikovanın fikirlərində daha ətraflı şərhlər verilmişdir (19). Ümumən isə tam əminliklə demək olar ki, idarəçilik amili sosial sistemlərin stukturyaradıcı atributu və prinsipi kimi çıxış edir! Dediklərimizdən irəli gəldiyimiz təqdirdə istənilən sosiomədəni hadisənin mahiyyəti baxımından sosial və ya mədəni sistem olmasını ziddiyyətsiz şəkildə ayırd etmək mümkün olur. Məsələn, din mahiyyəti baxımından mədəni sistemdir, çünki onun yaranması insan cəmiyyətinin tarixi inkişafının mədəni hadisəsi kimi təzahür edir. Lakin din öz üzərinə idarəetmə funksiyalarını götürdüyü andan həm də sosial sistemə çevrilmiş olur.

Belə ki, istənilən təşkilatlanmış dini qurum sosial sistem kimi çıxış edir, çünki burada sistemin strukturu idarəetmə funksiyasının həyata keçirilməsi xüsusiyyəti ilə səciyyələnir. Bu səbəbdən deyə bilərik ki, din mahiyyəti baxımından mədəni hadisədir, çünki insanların fövqəltəbii qüvvələrə inamından yaranır, lakin şəraitdən asılı olaraq həm də sosial sistem kimi çıxış edə bilir. Eləcə də elm mahiyyəti baxımından mədəni sistemdir, çünki alimlərin ortaq simvollara əsaslanan qarşılıqlı elmi fəaliyyəti, onlar arasındakı davamlı əlaqələr və mübadilələr mədəni sistem halında təzahür edir. Eyni zamanda elm institut şəklində sosial sistem kimi də çıxış edə bilir. Bu baxımdan mədəniyyət nazirliyi və ümumiyyətlə idarəetmə strukturu ilə səciyyələnən istənilən insan birliyi artıq sosial sistem kimi çıxış edəcəkdir. Aydındır ki, rəssamların sənət nümunələrinin qiymətləndirilməsi prosesi, eləcə də onların yaradıcı görüşlərinə xidmət edən qarşılıqlı əlaqələr, aralarındakı fikir mübadiləsi davamlı şəkil aldığı və müəyyən qəbul edilmiş simvollar və qaydalar üzrə aparıldığı təqdirdə artıq mədəni sistemdən danışmağa əsasımız olacaqdır. Dediklərimizin məntiqi nəticəsi olaraq bizə məlum olan sosiomədəni hadisələrdən din, elm, incəsənət, etnos, xalq və ya sivilizasiya mahiyyəti baxımından mədəni sistem, qəbilə, tayfa, dövlət, imperiya və o cümlədən istənilən institut, idarə, təşkilat mahiyyəti baxımından sosial sistem kimi çıxış edəcəkdir.

Qaldırdığımız problemə başqa istiqamətdən də aydınlıq gətirmək mümkündür. Mədəni sistemlər əsas etibarilə təbii şəkildə, insanların fərdi və kollektiv yaradıcı fəaliyyətinin müəyyən qərarlaşmış ideyalar, simvollar, normalar və qaydalar toplusu şəklində təzahürünün məhsulu kimi formalaşır. Bundan fərqli olaraq, sosial sistemlər bir və ya bir neçə insanın idarəetmə qabiliyyətinin həyata keçirilməsi zəminində təşəkkül tapır. Bu baxımdan ibtidai icmanın sosiomədəni hadisə kimi tam sinkretik (yəni mədəni ilə sosialın ayrılmaz birliyini nəzərdə tutan) təzahüründən söhbət açmaq olar. Belə ki, ibtidai icma nə sosial, nə də mədəni sistem kimi xarakterizə oluna bilməz, çünki tarixin bütün dövrlərində vahid sosiomədəni sistem kimi təzahür etmişdir. Lakin qəbilə haqqında eyni sözləri demək çətindir, çünki onu başçısız təsəvvür etmək ən azı L.Q.Morqanın və K.Marksın klassik tədqiqatlarından sonra mümkün deyildir. Bu isə o deməkdir ki, qəbilə tərəfimizdən sosial sistem kimi təsnif ediləcəkdir.

Göründüyü kimi, idarəetmə amilinin nəzərə alınması şəraitində sosiomədəni hadisələrin mahiyyəti baxımından mədəni və ya sosial sistem kimi təsnifatlandırılması məsələsi ziddiyyətsiz şəkildə öz müəyyənliyini əldə edə bilir. Qeyd olunmalıdır ki, araşdırdığımız problem metodoloji əhəmiyyət daşıyır, çünki real həllini tapdığı təqdirdə humanitar elmlərdə tədqiq edilən bir çox sosiomədəni hadisələrin mahiyyəti baxımından eyniləşdirilməsinin qarşısını ala bilir. Bu özünü xüsusən etnik birliklərin tipoloji təsnifatı məsələsində aydın şəkildə büruzə verməkdədir. Məlumdur ki, Sovet dövründən indiyə qədər etnos və tayfa anlayışları mahiyyəti baxımından eyniləşdirilir. Bu eyniləşdirilməni müxtəlif səviyyəli tədqiqat işlərində və dərsliklərdə görmək mümkündür (5; 14, s.73; 15; 21, s.8; 22, s.155). Bu anlayışların eyniləşdirilməsinə gətirən əsas səbəb isə onların mahiyyəti baxımdan hansı sistemə (sosial və ya mədəni) aid olması məsələsində özünü büruzə verən fikir müxtəlifliyidir.

Bu məsələnin konkret təhlilinə çalışaraq iki tanınmış sovet aliminin (V.İ.Kozlov və L.N.Qumilov) mövqeyini araşdırmağa cəhd edək. V.İ.Kozlov öz əsərlərində bildirmişdir ki, etnos sosial orqanizmdir (18, s.111) və ya sosial-tarixi kateqoriyadır (17, s.21-22). Yeri gəlmişkən qeyd edək ki, əksər Sovet və postsovet dövrünün tədqiqatçıları məhz bu mövqedən çıxış etmiş və etməkdədirlər. L.N.Qumilyov isə konkret faktlar əsasında göstərməyə çalışmışdır ki, etnos cəmiyyət və ya sosial sistem deyildir (13, s.50), əslində bir təbiət hadisəsidir (13, s.174). Görəsən bu alimlərdən hansının fikri həqiqəti əks etdirir? Əvvəlcə Kozlovun mövqeyini araşdıraq. Deyildiyi kimi, sosial sistemlərin əsas cəhəti onunla səciyyələnir ki, burada struktur elementləri arasındakı qarşılıqlı münasibətlər iyerarxik

təbiətlidir, yəni şaquli əlaqələrdə tabeçilik xüsusiyyəti özünü büruzə verir. Gəlin bir daha sosial sistemlərin tarixən formalaşmış tiplərini yada salaq: ailə, qəbilə, tayfa, dövlət, imperiya, ümumən isə istənilən tipli sosial institut, təşkilat və s. Bu tip sistemlər onları təşkil edən elementlər arasında tabeçilik əlaqələrinin mövcud olması xüsusiyyəti ilə səciyyələnir. Lakin etnik birlik (yəni etnos, xalq və s.) əsas etibarilə müəyyən mədəni struktura malik olsa da, iyerarxik tabelik quruluşuna malik deyildir. Bu gerçəkliyi etnik birliklərin əsas anlayışı olan etnos məfhumuna verilən təriflər də açıq şəkildə göstərir. Gəlin həmin təriflərdən birinə, akademik V.Bromleyin erkən tədqiqatlarında formulə edilmiş və elmi ədəbiyyatda əksər mütəxəssislər tərəfindən ümumən qəbul olunmuş aşağıdakı definisiyaya diqqət yetirək: “Sözün dar mənasında və ən ümumi formada etnos − tarixən formalaşmış, nisbətən sabit mədəni (dil də daxil olmaqla) və psixiki xüsusiyyətlərə malik olan, eləcə də vahidliyini dərk edən və özünü digər analoji birliklərdən fərqləndirən insanlar toplusudur” (9, s.37). Bu tərifdən göründüyü kimi, etnosu müəyyən edən ən mühüm əlamətlər bioloji, sosial və siyasi səciyyə daşımayıb, mədəni, psixiki və ümumən ruhi təbiətlidirlər. Bu məqam etnosun əsas əlamətlərini xüsusi olaraq qeyd edən Bromley tərəfindən aydın şəkildə vurğulanmışdır (9, s.37). Deməli, etnos, mahiyyəti baxımından sosial sistem deyildir. Eyni zamanda etnos, L.N.Qumilyovun başa düşdüyü kimi, təbiət hadisəsi də deyildir. Əks təqdirdə meymunlarda da etnos amilini axtarmaq məntiqəuyğun olardı (L.N.Qumilyovun baxışlarındakı ən böyük çatışmazlıq da məhz intellektual amilə, sosiomədəni faktora ciddi əhəmiyyət verilməməsi ilə bağlıdır). Hesab edirik ki, etnosun mahiyyəti ruhi təbiətlidir (ruhi dedikdə, şübhəsiz ki, ilk növbədə zəka amili nəzərdə tutulur). Bu kontekstdə nəzərə almalıyıq ki, insanı digər canlılardan fərqləndirən də məhz onun zəkaya malik olmasıdır. Əks təqdirdə nə dil, nə incəsənət, nə də mədəniyyətin digər tərəfləri təzahür edə bilməzdi, yəni tarixi proses baş tutmazdı. Bu kontekstdə Bromleyin tədqiqatları aydın şəkildə göstərir ki, etnosun formalaşmasında məhz mədəni amil müstəsna rol oynayır (7, s.19-21). Özü də mədəni amilin məhz o elementləri ki, etnosu digər analoji birlikdən fərqləndirməyə, yəni onun özünəməxsusluğunu ayırd etməyə imkan verir. Bu elementlər sırasında dili, adət-ənənələri, mərasimləri və bu kimi digər mədəni amilləri qeyd etmək mümkündür. Lakin etnos tarixi proses daxilində öz nisbi sabitliyini qorumaq üçün adını çəkdiyimiz dəyərlərin nəsildən nəslə ötürülməsini də təmin etməlidir. Bu isə, etnosun özünəməxsusluğunu təmin edən dəyərlər kompleksinin ***sosiallaşması*** *nəticəsində* mümkündür. Deməli, sosial komponent olmadan etnosun varlığını təmin etmək sadəcə mümkün olmazdı. Dediklərimizi ümumiləşdirib bildirmək mümkündür ki, mahiyyəti baxımdan etnos mədəni sistemdir, lakin eyni zamanda özündə mahiyyəti, məzmunu və formanı ehtiva edən vahid sosiomədəni sistemdir.

İndi isə etnos ilə tayfanın eyniləşdirilməsi məsələsinə diqqət yetirək. Məlumdur ki, etnik birliklərin tipologiyasının müəyyənləşdirilməsi məsələsində ibtidai icma dövrü üçün “tayfa” məfhumundan geniş şəkildə istifadə edilməsi praktikası (etnik birliyin mühüm təzahür forması kimi) nəinki postsovet məkanında, həm də Qərb mütəxəssislərinin tədqiqatlarında özünə geniş yer tapmışdır. Lakin yuxarıdakı mühakimələr nəticəsində aydınlaşdırıldı ki, etnos mahiyyəti baxımından sosial sistem deyildir. Başqa sözlə, tayfa etnik birlik kimi təqdim edilməməlidir. Sovet dövründə bu məsələ ilə əsaslı şəkildə V.F.Qeninq məşğul olmuşdur (10; 11). Qeninq öz məqaləsində tayfanı etnik birlik kimi təqdim etməyə çalışan S.A.Tokarev, L.P.Laşuk və digər mütəxəssislərin fikirlərini tutarlı arqumentlər vasitəsilə aradan qaldıraraq göstərə bilmişdir ki, tayfa ilk növbədə gələcək dövlət quruluşunun yaranması üçün başlıca zəmin rolunu oynamış sosial-potestar sistemdir və bu baxımdan heç cür etnik birlik kimi təqdim edilə bilməz (10, s.65-68, s.78). Biz də onun fikirləri ilə bölüşürük.

Biz, yuxarıda sosiomədəni sistemlərin təsnifatını apararkən xalqı və sivilizasiyanı mədəni sistemin formaları kimi təqdim etdik. Zənnimizcə, bu mövqeni bir qədər açıqlamaq lazımdır.

Yəqin ki, sivilizasiyanın mədəni sistem olmasına heç kim şübhə ilə yanaşmaz, ən azı ona görə ki, dünyanın əksər tədqiqatçıları və böyük mütəfəkkirləri (P.Sorokin, A.Toynbi və b.) bu anlayışları faktiki olaraq eyniləşdirmişlər. Ona görə də diqqətimizi mədəni sistemin formalarına aid etdiyimiz "xalq" anlayışına yönəltmək istərdik. "Xalq" anlayışının məzmununa həsr olunmuş xüsusi məqaləmizdə əsaslandırmağa çalışdıq ki, dövlət daxilində ortaq dəyərlər formalaşdıraraq etnonim və milli simvollar (siyasi, dini və s.) əsasında özünüidentikləşdirən sosiomədəni birliyə **xalq** deyilir (2, s.156). Bu tərifdə istifadə olunan sözlərin əksəriyyəti "xalq" anlayışının mühüm əlamətlərini təşkil etməklə mədəni komponentlər kimi çıxış edirlər. Lakin dövlət sözündən istifadə edilməsi məsələyə aydınlıq gətirilməsini tələb edir. Şübhəsiz ki, dövlət sosial sistemdir və bu baxımdan xalqın da mahiyyəti baxımdan məhz bu cür təqdim edilməsi üçün bir növ zəmin yaranır. Lakin məsələyə daha dərindən nüfuz etdikdə aydınlaşdırmaq olur ki, istənilən fenomenin təzahürü üçün tələb olunan şərtləri onun daxilini müəyyənləşdirən amillərdən fərqləndirmək lazımdır. Xalqın mahiyyəti əsrlər boyu yaratdığı ortaq mədəni dəyərlər ilə müəyyən edilir. Dövlətin mövcudluğu həmin dəyərlərin formalaşması üçün zəruri şərtdir. Eləcə də milli iqtisadiyyatın mövcudluğu xalqın mövcudluğunu təmin edən vacib şərtdir. Lakin xalqın mahiyyəti, onun ruhu tarixən formalaşdırdığı ortaq mədəni dəyərlər ilə müəyyənləşir və bu gerçəkliyi maarifçilik dövründən etibarən istənilən filosof və ya mütəfəkkir daim vurğulamaqdadır. Dövlətin mövcudluğu onun daxilində yaşayan insan toplusunun vahid xalq anlamına gəlməsi demək deyildir. Bunu yaxın dövrün tarixi hadisələri də təsdiqləyir. Yuqoslaviya və Sovet İttifaqı süni şəkildə yaradılmış dövlətlər olduğu səbəbindən onların dağılması prosesi də (müəyyən tarixi şəraitin yaranması fonunda) qaçılmaz oldu. Halbuki əsrlər boyu ortaq mədəni dəyərlərini formalaşdıra bilmiş və vahid milli ideyanın təsiri ilə üzvi şəkildə birləşmiş toplumun dağılması da yəqin ki, daha çətin iş olardı və ya heç mümkün olmazdı. Digər tərəfdən anlayışın həcmi baxımından "xalq" anlayışı daxil olduğu "etnik birlik" anlayışının mühüm əlamətini özündə ehtiva edir. Söhbət etnik birliklərin etnonim əsasında özünüidentikləşdirməsindən gedir. Qeyd etmək lazımdır ki, etnik birliyi istənilən ictimai birlikdən fərqləndirən əsas xüsusiyyət kimi etnonim və özünəməxsus davranış stereotipi əsasında (yəni mədəni amil zəminində) müəyyən insan qruplarının özlərini digər analoji toplumlara (yəni digər etnik birliklərə) qarşı qoyması və ya özünü onlardan fərqləndirməsi istəyi çıxış edir. Burada söhbət etnoqrafiya elmində etnik birliyin əsas fərqləndirici cəhəti kimi çıxış edən və əksər mütəxəssislər tərəfindən birmənalı şəkildə qəbul olunan "biz – başqaları" qarşıdurmasından gedir. Başqa sözlə, tarixən müəyyən ərazidə formalaşdıra bildiyi ortaq mədəni dəyərlərdən irəli gələrək, özünü analoji insan birliklərindən fərqləndirmək xüsusiyyəti və bunun əsasında özünüidentikləşdirmək istəyi etnik toplumların başlıca cəhəti kimi çıxış edir. Qeyd edək ki, bu məsələyə akademik Bromley hələ Sovet dövründə müəyyən dərəcədə aydınlıq gətirə bilmişdir (6; s.51-55; 8, s.97-98). Başqa sözlə, xalqı etnik birliyin forması kimi ortaya çıxaran mühüm xüsusiyyət məhz etnonim əsasında özünü identikləşdirmək istəyidir.

Eyni sözləri millət üçün də söyləmək mümkündür. Lakin millət etnik birliyin forması olsa da, xalq anlayışı ilə eyniləşdirilməməlidir. Halbuki, sovet dönəmindən tutmuş indiyə qədər xalq və millət anlayışlarının eyni mənada işlədilməsi praktikası adi hala çevrilmişdir. İki anlayışın fərqini anlamaq üçün ilk növbədə millət anlayışını təyin etmək tələb olunur. Millət anlayışının məzmununa həsr olunan xüsusi məqaləmizdə onun tərifini aşağıdakı şəkildə ifadə etməyə çalışdıq: tarixən əldə etdiyi ortaq mədəni dəyərləri liberal-demokratik prinsiplərə uyğunlaşdıraraq milli ideya əsasında vətəndaş cəmiyyətini və hüquqi dövləti quran və bu zəmində özünüidentikləşdirən xalqa **millət** deyilir (1, s.151). Əgər bu tərifə diqqətlə yanaşsaq, o halda milləti xalqdan fərqləndirən əsas əlamətləri aydın görə bilərik. Söhbət vətəndaş cəmiyyəti və hüquqi dövlət prinsiplərinin dövlət daxilində bərqərar olmasından gedir. Əslində,

yuxarıdakı tərifi nəzərə alanda millətin mahiyyəti baxımından həm də sosial sistem olması təsəvvürü də formalaşır ki, bu da əsassız deyildir. Məsələ burasındadır ki, tarixən millətin yaranması prosesi cəmiyyətdə baş verən siyasi hadisələr zəminində xalqın liberal dəyərlər əsasında özünüidarəetməsi istəyi ilə əlaqədar olmuşdur. Bunu tanınmış alim və mütəfəkkirlərin fikirləri də təsdiq edir. Bu fikirlərdən bəzilərinə müraciət edək. A.Kozinq öz elmi-tədqiqat əsərində xüsusi olaraq vurğulayır ki, "millət" anlayışının *müasir anlamının* təşəkkül tapması Avropada burjua inqilabları dövrünə təsadüf etmiş və bu işdə ən böyük töhfəni məhz Fransa inqilabı vermişdir (16, s.38). Kozinqə görə, Fransa inqilabı "millət" anlayışına siyasi çalar qataraq, bu məfhumu xalqın suverenliyi ideyası ilə əlaqələndirmişdir (16, s.38). "Millət" anlayışının inqilabaqədərki və inqilabdan sonrakı mənalarının nə dərəcədə transformasiyaya uğramasını isə Kozinq konkret sitatlarla izah etməyə çalışmışdır. Belə ki, Fransa inqilabına qədər qraf Jozef de Mestr millət nədir sualına – "hökmdar və aristokrat" cavabını verdiyi halda, artıq 1888-ci ildə, yəni burjua inqilablarından sonrakı dövrdə həmin sualı abbat Sieys belə cavablandırmışdır – "vahid qanun altında yaşayan və eyni qanunverici orqanlarda təmsil olunan fərdlərin birliyi" (16, s.39). Bu misalda "millət" anlayışının Avropa burjua inqilablarından əvvəlki və sonrakı dövrlərdə ən azı məzmun baxımından nə dərəcədə dəyişikliyə məruz qalması gerçəkliyi aydın şəkildə özünü büruzə verir. Tanınmış çexiyalı mütəxəssis M.Xrox öz məqaləsində bildirir ki, Avropanın son feodal rejimləri siyasi reformalar və inqilablar nəticəsində paralel şəkildə müasir vətəndaş cəmiyyətinin və bərabərhüquqlu vətəndaşlardan təşkil olunmuş ***milli dövlətlərin*** formalaşması ilə nəticələnən tarixi yol keçmişdir (24, s.122). Eyni mövqedən müasir dövrün görkəmli filosofu Y.Xabermas da çıxış edir. Xüsusi olaraq bu məsələnin həllinə həsr olunmuş məqaləsinin elə ilk səhifəsində tanınmış filosof bildirir ki, bizim milli dövlət adlandırdığımız hadisə məhz Fransa inqilabından sonra formalaşmağa başlamışdır (23, s.364). Məqaləsinin gedişi boyu Y.Xabermas əsaslandırmağa çalışır ki, "vətəndaşlıq" anlayışı siyasi aspektlə yanaşı, xalqın ortaq mədəni dəyərləri bölüşməsi və milli ideya əsasında özünüidentikləşdirməsi zəminində müəyyənliyini əldə edir. Bu məsələ ilə bağlı Xabermas aşağıdakı ifadəni söyləyir: "Vətəndaşlıq anlayışı hüquqi statusla yanaşı, həm də mədəni birliyin üzvü mənasını özündə ehtiva edir" (23, s.370). Xabermasa görə vətəndaşlıq anlayışının bu iki aspekti (yəni ictimai və mədəni) bir-birini tamamlayır. Tanınmış mütəxəssislərin və xüsusən Xabermasın fikirləri araşdırdığımız məsələnin mahiyyətini dərk etməyə imkan verir. Belə ki, millət mahiyyəti baxımından eyni zamanda *həm mədəni, həm də sosial sistem* kimi çıxış edir. Millətin həm xalqdan, həm də etnosdan keyfiyyətcə fərqi bundan ibarətdir. Millətin formalaşması xalqın demokratik prinsiplər əsasında özünüidarəetməsi istəyindən irəli gəlir və bu səbəbdən mədəni sistem olması ilə yanaşı, həm də sosial sistem kimi çıxış etməsini mümkün edir. Başqa sözlə, əgər etnos tam şəkildə, xalq isə əsas etibarilə (belə ki, xalqın formalaşması üçün dövlətin, yəni siyasi sistemin olması vacib şərtdir) mədəni sistem kimi qəbul edilə bilərsə, millət anlayışına bu cür yanaşmaq düzgün olmazdı, çünki millət eyni zamanda həm mədəni, həm də ictimai-siyasi fenomen kimi təzahür edir. Belə demək mümkünsə, əgər xalqın təşəkkül tapması onun intellektual təbəqəsinin, yəni ziyalıların sosiuma təsiri ilə reallaşırsa, millətin formalaşması üçün bu fəaliyyət kifayət etmir, *çünki bundan əlavə dövlət daxilində yaşayan insanların özlərini həm də bir vətəndaş kimi* (yəni yalnız regional, konfessional və ya etnik zəmində deyil, həm də vətəndaş cəmiyyətinin və hüquqi dövlətin üzvləri kimi) *identikləşdirə bilməsi istəyi ilə gerçəkləşir* (başqa sözlə, həm də aşağıların istəyindən asılı olur**)**, yəni geniş xalq kütlələrinin milli ideya əsasında liberal-demokratik prinsiplərin bərqərar olması uğrunda şüurlu və məqsədyönlü fəaliyyətini nəzərdə tutur. Yuxarıdakı fikirlərdən belə nəticəyə gəlmək mümkündür ki, etnosların formalaşması təbii surətdə baş verirsə və bir qayda olaraq obyektiv səbəblərdən (kollektivin müəyyən coğrafi ərazidə uzun illər birgə yaşayaraq ortaq dəyərlər formalaşdıra bilməsindən) qaynaqlanırsa,

xalqların və xüsusən də millətlərin təşəkkül tapması eyni zamanda həm də ictimai-siyasi amillərdən asılı olur.

Məqalədə aparılan təhlillər belə qənaətə gəlməyə əsas verir ki, sosiomədəni sistemlərin təsnifatı, yəni onu təşkil edən sosial və mədəni sistemlərin mahiyyəti və məzmunu baxımından fərqləndirilməsi mürəkkəb məsələ olmaqla yanaşı, həm də mühüm metodoloji əhəmiyyət daşıyır. İlk növbədə ona görə ki, müxtəlif sosiomədəni hadisələrin eyniləşdirilməsinin qarşısını ala bilir. Apardığımız təhlil mürəkkəb və az tədqiq edilmiş mövzuya həsr olunduğu səbəbindən özündə müəyyən qüsurlar daşıya bilir və buna görə də tənqidi fikirlər üçün açıqdır.

**Açar sözlər:** sosial sistem, mədəni sistem, sosiomədəni sistem, etnos, xalq, millət.

### İstifadə olunmuş ədəbiyyat

1. Hacıyev R.S. “Millət” anlayışına dair (sosial-fəlsəfi təhlil) //AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, “Azərbaycan Arxeologiyası və Etnoqrafiyası” jurnalı, № 1, 2013.

2. Hacıyev R.S. “Xalq” anlayışına dair (sosial-fəlsəfi təhlil) //AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu, “Azərbaycan Arxeologiyası və Etnoqrafiyası” jurnalı, № 1, 2012.

3. Hacıyev R.S. “Sosiomədəni hadisə” və “sosiomədəni sistem” anlayışları //Fəlsəfə (beynəlxalq elmi jurnal), № 1(14), Bakı, 2010.

4. Американская социология. Перспективы, проблемы, методы. М.: Прогресс, 1972.

5. Беркович Н.А. Племя, народность, нация: социально-философское исследование. Дис. ... док. филос. наук. Санкт-Петербург, 2002.

6. Бромлей Ю.В. К вопросу о сущности этноса //М., Природа, 1970, № 2.

7. Бромлей Ю.В. К характеристике понятия «этнос» //Расы и народы. Вып.1. М., 1971.

8. Бромлей Ю.В. Этносоциальные процессы: теория, история, современность. М.: Наука, 1987.

9. Бромлей Ю.В. Этнос и этнография. М.: Наука, 1973.

10. Генинг В.Ф., Павленко Ю.В. Институт племени как орган зарождающейся политической надстройки //Ф.Энгельс и проблемы первобытной истории. Киев: Наукова Думка, 1984.

11. Генинг В.Ф. Этнический процесс в первобытности (учебное пособие). Свердловск: Изд. Уральского ГУ, 1970.

12. Грушевицкая Т.Г., Садохин А.П. Культурология. М.: Юнити-Дана, 2010.

13. Гумилев Л.Н. Этногенез и биосфера земли. М.: Мишель и К°, 1993.

14. Дашдамиров А.Ф. Национальная идея и этничность. Азербайджанская идея в этнокультурном и этнополитическом контексте. Баку, 2001.

15. Замиралова Т.А., Крих С.Б. Этнология: конспект лекций. Омск, 2008.

16. Козинг А. Нация в истории и современности. М.: Прогресс, 1978.

17. Козлов В.И. Динамика численности народов. М.: Наука, 1969.

18. Козлов В.И. О понятии этнической общности //СЭ, 1967, № 2.

19. Новикова С.С. Социология: история, основы, институционализация в России. М.: Издательство НПО «МОДЭК», 2000.

20. Парсонс Т. О социальных системах. М.: Академический Проект, 2002.

21. Пивоев В.М. Этнос и нация: проблемы идентификации. Петрозаводск, 2006.

22. Социология. Учебник для вузов, М., 2005.

23. Хабермас Ю. Европейское национальное государство: его достижения и пределы. О прошлом и будущем //Нации и национализм. М.: Праксис, 2002.

24. Хрох М. От национальных движений к полностью сформировавшейся нации: процесс строительства наций в Европе //Нации и национализм. М.: Праксис, 2002.

**Ровшан ГАДЖИЕВ**

## К КЛАССИФИКАЦИИ СОЦИОКУЛЬТУРНЫХ СИСТЕМ (СОЦИАЛЬНО-ФИЛОСОФСКИЙ АНАЛИЗ)

**Резюме**

В статье предпринята попытка классификации социокультурных систем. В данном направлении рассматриваются вопросы методологической значимости, анализируются взгляды известных ученых по этим вопросам, осуществляется дифференциация социальных и культурных систем. Выдвигаемые в статье мысли обосновываются конкретными примерами.

**Ключевые слова**: социальная система, культурная система и социокультурная система, этнос, народ, нация.

**Rovshan HAJIYEV**

## TO CLASSIFICATION OF SOCIOCULTURAL SYSTEMS (SOCIAL-PHILOSOPHICAL ANALYSIS)

**Summary**

In the article an attempt is made to classify the sociocultural systems. In this regard, issues of methodological significance are emphasized. Opinions and reviews of leading specialists concerning the issues of research process are analyzed. Social and cultural systems are differentiated. Opinions put forward in the article are substantiated with the concrete examples.

**Keywords**: social system, cultural system, sociocultural system, ethnos, people, nation.

**UOT 1(091)**

**Nicat MƏMMƏDOV**
*a.e.i., fəlsəfə ü.f.d.,*
*AMEA Fəlsəfə İnstitutu*

# XIX ƏSRİN SONU VƏ XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN YAZIÇILARININ AZƏRBAYCANIN İCTİMAİ VƏ FƏLSƏFİ FİKİR TARİXİNDƏ ROLU*

XIX əsrin sonu və XX əsrin əvvəllərində digər Şərq ölkələrində olduğu kimi Azərbaycanda da maarifçi-realist ədəbiyyatın inkişafı uğrunda mübarizə yeni mərhələyə qədəm qoyurdu. Mürəkkəb, ziddiyyətli xarakter kəsb edən bu mərhələdə bədii yaradıcılığın inkişafı daim çətinliklərlə üzləşirdi. Bu mərhələ A.Bakıxanov, M.F.Axundov və «Əkinçi»dən sonra «Molla Nəsrəddin» məktəbinin yarandığı vaxta qədər Azərbaycanda ədəbi hərəkatın canlanması prosesini, maarifçi-realist ədəbiyyatın inkişaf qanunauyğunluqlarını, nəzəri-estetik fikrin istiqamətini, ictimai fikirdə ideya mübarizələrinin başlıca qütblərini, ən nəhayət, ideologiya və yaradıcılıq metodu məsələlərini tədqiq etmək nöqteyi-nəzərindən xüsusi əhəmiyyətə malikdir. A.Bakıxanov və M.F.Axundov tərəfindən əsası qoyulan, nəzəri-estetik prinsipləri müəyyənləşdirilmiş Azərbaycan maarifçi-realist ədəbiyyatını inkişaf etdirmək təşəbbüsləri məhz bu vaxtdan başlanır.

İlk olaraq M.F.Axundov tərəfindən başlanılan və «Əkinçi» qəzeti əməkdaşları tərəfindən davam etdirilən epiqonçuluğa qarşı mübarizə məhz bu mərhələdə «şeir bülbüllərinin» (C.Məmmədquluzadə) ədəbi mövqelərinin zəifləməsi ilə nəticələnir, realizm ədəbiyyatın başlıca yaradıcılıq metoduna, nəsr, dramaturgiya isə hakim ədəbi növə çevrilir və milli ədəbi yaradıcılığın dəyərli nümunələri yaranır, sənət ictimai fikrin əsas ifadə vasitəsinə çevrilir. Bu dövrdə Azərbaycanda maarifçi ədəbi fikrin mükəmməl səviyyədə inkişafına kömək edə bilən real şərait yaranır. Lakin 1905-ci il rus inqilabından sonra Maarifçilik ideologiyasının inqilabi demokratiya və marksizm-leninizmlə, maarifçi realizmin isə tənqidi realizmlə əvəz olunması üçün əlverişli zəmin reallaşır. Təkcə birinci rus inqilabından sonra fəaliyyət göstərən yazıçıların böyük əksəriyyətinin, eyni zamanda ən görkəmlilərinin ədəbi fəaliyyətə XIX əsrin 80-90-cı illərində başlamasını, bəzilərinin (M.Ə.Talıbov, Z.Marağalı, N.Vəzirov, E.Soltanov, Ə.Gorani, S.M.Qənizadə, N.Nərimanov, Ə.Haqverdiyev, F.Köçərli, R.Əfəndiyev) 1905-ci il inqilabından sonra bütün səylərini bədii, nəzəri-tənqidi və publisist əsərlər yazmağa sərf etməsini, digərlərinin isə (C.Məmmədquluzadə, S.S.Axundov, M.Ə.Sabir, A.Səhhət və b.) bir sıra obyektiv və subyektiv səbəblər üzündən geniş yaradıcılıq fəaliyyəti göstərə bilməməsini, yalnız birinci rus inqilabından sonra məşhurlaşmasını xatırlatmaq kifayətdir.

XIX əsrin 80-90-cı illərini ədəbi tənqidçilər keçid dövrü adlandırırlar. Bu həqiqətən də belədir. Bu mərhələdə hər iki əsrin üzərindən uzanaraq M.F.Axundovla «Molla Nəsrəddin» ədəbi məktəbi arasında körpü yaranır. Bu illərdə, digər Şərq ölkələrində də olduğu kimi, klassik şeirin təsiri altında yaradıcılığa başlayan şairlərlə M.F.Axundovun maarifçi ədəbi ənənələrini davam etdirən gənc yazıçıların ədəbi növbələşməsi başlanır.

Akademik Feyzulla Qasımzadənin qeyd etdiyi kimi, «XIX əsr ədəbiyyatının mütəxəssisləri 80-90-cı illəri yeni ədəbi hərəkatın başlanğıcı, təzə bir mərhələ hesab edib tədqiqlərinin hüdudlarından kənarda saxladıqları kimi, XX əsr ədəbiyyatını öyrənən alimlər də birinci rus inqilabından sonra yaranan ədəbi intibaha daha artıq əhəmiyyət vermişlər» (1, s.34).

* Məqalə fəlsəfə ü.e.d., professor Rəhman Bədəlov tərəfindən çapa məsləhət görülüb.

Bəzi müəlliflər hətta XX əsr ədəbiyyatının hüdudlarının 1905-ci ildən başlandığını iddia edirlər. Bu illərdə fəaliyyət göstərən yazıçılara gəldikdə, onlardan bəziləri (N.Vəzirov, Ə.Gorani, M.T.Sidqi) XIX əsr, bəziləri (N.Nərimanov, Ə.Haqverdiyev) «XX əsr Azərbaycan ədəbiyyatı tarixi» kursunun inqilabi-demokratik, bəziləri isə (S.M.Qənizadə, S.S.Axundov, R.Əfəndiyev) «realist maarifpərvər» yazıçılar cərgəsinə daxil edilmişlər. Bir sıra ədəbiyyatşünaslar həmin yazıçılardan söhbət açarkən onların hansı yaradıcılıq metodunu təmsil etdiklərini müəyyənləşdirmədiklərini bildirir, bundan əlavə məfkurə məsələsini yaradıcılıq metodu ilə eyniləşdirmək cəhdlərinə də təsadüf olunur. Tədqiqatçılar bu dövrə, bir qayda olaraq, bu və ya digər yazıçının yaradıcılığını öyrənmək məqsədilə, Xeyrulla Məmmədovun qeyd etdiyi kimi, «tərcümeyi-hal faktlarından ötrü müraciət etmiş, onun enişli-yoxuşlu yollarında seyrək ayaq izləri saxlamış, bədii təəssüratı yarandığı dövrün konkret məfkurə cərəyanları və yaradıcılıq metodları mövqeyində deyil, ya XIX əsr, ya da birinci rus inqilabından sonra əmələ gəlmiş ədəbiyyatın ümumi fonunda təhlil etmiş, beləliklə, ədəbi prosesin inkişafında başlıca problemlər araşdırılmamış qalmışdır» (2, s.17).

Yuxarıdakı mülahizələr tədqiqatçıları 80-90-cı illərin ədəbiyyatı haqqında bir-birinə zidd, ümumiyyətlə isə ziddiyyətli, bəzi hallarda isə elmi tərəfdən səhv mühakimələr yürütməyə sövq etmişdir. Həmin illərdə Azərbaycanda bədii ədəbiyyatın inkişafını inkar edənlərə də təsadüf edilir. Xeyrulla Məmmədovun qeyd etdiyi kimi, «aydın elmi münasibətin olmamasının nəticəsində bu mərhələni F.Köçərli «milli intibahımızın sübh çağı», B.Talıblı «Azərbaycan ədəbiyyatında avaraçılıq», Hənəfi Zeynallı «şəfəq sökülməsi», M.K.Ələkbərli «yetimlik», K.Məmmədov «sakitlik», Ə.Mirəhmədov isə «enişli-yoxuşlu» dövr kimi müxtəlif şəkildə səciyyələndirmişlər» (2, s.24).

İlk Azərbaycan maarifçiliyinin və mədəniyyətinin görkəmli simalarından sayılan A.Bakıxanov (1794-1847) qiymətli elmi əsərləri ilə Yaxın Şərq, o cümlədən Azərbaycan elminə çox mühüm yeniliklər gətirmişdir. Bədii əsərləri ilə ədəbiyyatda tənqidi realizmin inkişafı naminə iz qoyan bu mütəfəkkir haqlı olaraq XIX əsr ədəbiyyatında inkişaf edən realizm cərəyanının ilk nümayəndələrindən hesab olunur.

M.F.Axundovun məşhur «Kəmalüddövlə məktubları»nda irəli sürülən bir çox fəlsəfi məsələlər hələ rüşeym halında olsa da məhz Bakıxanovun «Təkzibi-əxlaq» adlı əsərində öz əksini tapmışdır. Bu mənada «Təkzibi-əxlaq» müəllifini M.F.Axundovun sələfi adlandırmaq olar.

XIX əsr Azərbaycan maarifçiliyinin ilk nümayəndəsi A.Bakıxanovdur. O dövrün Azərbaycan maarifçiliyinə aid qüvvətli və məhdud cəhətlər Bakıxanovun yaradıcılığında öz aydın ifadəsini tapmışdır. A.Bakıxanovun maarifçiliyi, elmi, fəlsəfi və ədəbi fəaliyyəti Azərbaycan xalqının ümumi vəziyyəti ilə sıx bağlıdır. Elmi və fəlsəfi əsərlərində («Təkzibi-əxlaq», «Kitabi-nəsihət», «Kitabi-Əsgəriyyə», «Mişkatil-ənvar», «Gülüstani-irəm» və s.) o öz vətəninə, xalqına xidmət etmək məqsədini qarşısına məqsəd qoyduğu kimi, bədii əsərlərində də ictimai zülmə, əsarətə qarşı mübarizə aparmaqla məzlumların mövqeyindən çıxış etmişdir.

XIX əsr Azərbaycan ədəbiyyatında Maarifçiliyin görkəmli nümayəndələrindən biri də Mirzə Şəfi Vazehdir (1794-1852). O, A.Bakıxanovun müasiri, M.F.Axundovun isə müəllimi və sələfi idi. M.F.Axundovun realist sənətkar və ateist-materialist filosof kimi formalaşmasında o əhəmiyyətli rol oynamışdır.

O, dünya nemətlərini, nəcib insani duyğuları, azad məhəbbəti tərənnüm edən görkəmli satirik, əxlaqi-tərbiyəvi şeirlər müəllifi idi. Mütəfəkkir səviyyəli bu şair lirik fəlsəfi şeirlərilə («Züleyxa haqqında şeirlər», «Şikayət şeirləri», «Şərab və dünya nemətlərinin mədhi haqqında», «Həkimanə şeirlər», «Tiflis və digər şeirlər», «Mirzə Yusif haqqında», «Hafizə haqqında şeirlər», «Həyata inam» və s.) nəinki Rusiyada, eləcə də Qərbi Avropa ölkələrində, xüsusilə Almaniyada böyük şöhrət qazanmışdır. Mirzə Şəfi görkəmli Şərq klassiklərindən

hesab olunur. Lakin Azərbaycan və fars dillərindəki şeirlərinin əsli qalmadığı üçün onun əsərləri Yaxın Şərqdə və şairin doğma vətəni Azərbaycanda geniş yayıla bilməmişdir.

Azərbaycanda ilk maarifçi tənqidi realizmin digər görkəmli nümayəndəsi Qasım bəy Zakirdir (1784-1857). Müəyyən məhdud cəhətlərinə və ziddiyyətli görüşlərinə baxmayaraq Zakir feodalizm cəmiyyətinin iç üzünü, azadlığa zidd təbiətini, bir sözlə bütün eyiblərini açıqladığı əsərlərində (tənqidi-satirik şeirləri, təmsilləri, mənzum hekayələri, qoşmaları, təcnisləri, gəraylıları, qəzəlləri, müxəmməsləri, müstəzadları, təcrübəndlər və tərkibəndlər, məişət şeirləri və s.) zəhmətkeş xalqı müdafiə edən humanist sənətkar kimi tanınır. Klassik şeirimizin ənənələrini, xüsusilə Vaqifin poeziya nümunələrini yeni ideya cərəyanına uyğun olaraq inkişaf etdirən Zakir yaradıcılığı sayəsində ədəbiyyat tarixində görkəmli yer tutur.

İctimai, fəlsəfi və bədii fikir tariximizdə M.F.Axundov (1812-1878) isə maarifçiliyin böyük nəzəriyyəçisi və ən görkəmli siması olmuşdur. Dövrünün yeni, realist-demokratik ədəbi cərəyanının inkişafına istiqamət verilməsi məhz onun adı ilə bağlıdır.

Axundov istedadlı realist sənətkar, materialist və filosof, böyük maarifçi, vətənpərvər və demokrat idi. Axundovun qırx ildən artıq davam edən ədəbi-ictimai fəaliyyəti xalqımızın azadlıq hərəkatına qüdrətli mənəvi təkan vermişdir.

XIX əsrin ədəbiyyat tariximizdə M.F.Axundov əsri adlandırılması heç də təsadüfi deyildir. Sələflərinin arzu və əməlləri onun yaradıcılığında («Hekayəti Molla İbrahimxəlil kimyagər», «Hekayəti Müsyö Jordan həkimi-nəbatat və Dərviş Məstəli şah cadügünü-məşhur», «Sərgüzəşti-vəziri xani-Lənkəran», «Hekayəti-xırsi quldurbasan», «Sərgüzəşti-mərdi-xəsis (Hacı Qara)», «Mürafiə vəkillərinin hekayəti», fəlsəfi, ədəbi-tənqidi və tarixi məqalələri, lirikası və s.) geniş və hərtərəfli inkişaf etdirilmişdir.

M.F.Axundovun bədii yaradıcılığı və ictimai-siyasi, əxlaqi-estetik, fəlsəfi görüşləri Azərbaycan mədəniyyəti və maarifçiliyi tarixində tamamilə yeni mərhələ təşkil edir. Realist ədəbiyyatın və materialist dünyagörüşünün böyük nümayəndəsi olan M.F.Axundov özündən sonrakı mütərəqqi fikir cərəyanlarına, maarifçiliyə güçlü təsir göstərmişdir, ədəbi prosesə ciddi təkan vermişdir.

Böyük söz ustadı Seyid Əzim Şirvani (1835-1888) də XIX əsr Azərbaycan ədəbiyyatının, bədii fikrinin görkəmli nümayəndəsi olmuşdur. Aşiqanə-lirik qəzəlləri ilə Füzuli ənənələrini davam etdirən şair maarifçi şeirləri və satiraları ilə («Qafqaz müsəlmanlarına xitab», «Təlim-tərbiyə haqqında», ««Əkinçi» qəzetinə yardım üçün», «Həsən bəy Məlikov Zərdabiyə», «Puşkinə heykəl», «Köpəyə ehsan», «Qarınqulu abid», «Dəli şeytan» və s.) dövrünün dərin realist sənətkarı səviyyəsinə yüksəlmiş, əsl maarifçi mövqedən mövcud təhkimçi feodal qayda-qanunlarını ifşa edərək qabaqcıl və mütərəqqi Avropa ictimai-bədii və fəlsəfi fikrini mənimsəməyə çağırırdı.

Avropa ictimai-maarifçi fikrinin digər tanınmış tərənnümçüsü XIX əsrin sonlarında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov (1854-1926) olmuşdur. N.Vəzirov maarifçi-yazıçı olmaq etibarilə yeni inkişaf mərhələsini öz yaradıcılığında («Ev tərbiyəsinin bir şəkli» (1875), «Daldan atılan daş topuğa dəyər» (1890), «Sonrakı peşmançılıq fayda verməz» (1891), «Adı var, özü yox» (1891), «Yağışdan çıxdıq yağmura düşdük») (1875-1895), «Müsibəti-Fəxrəddin» (1896), Pəhlivani-zəmanə» (1898-1900) və s. əhatəli əks etdirərək feodal dünyasının eybəcərliklərini, sosial bəlalarını kəskin surətdə tənqid etməklə işıqlı gələcəyə can atan insanların bədii surətini yaratmağa nail oldu.

Maarifçi kimi o vətəninin geridə qalmasının başlıca səbəbini hökm sürən cəhalətdə, insanların hüquqsuzluğunda, feodal adət-ənənələrinin hökmranlığında görürdü. Lakin Vəzirovun görüşlərində tarixi nikbinlik özünü göstərirdi. Məhz 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyətinin təşkil olunduğu vaxt bu maarifçi-yazıçı tərəddüd etmədən sovet mövqeyinə keçidi və «Təzə əsrin ibtivası» əsərini yazdı. Yarım əsrlik maarifçi-ədəbi ya-

radıcılığı dövründə Vəzirov müəyyən ideya tərəddüdlərinə, ziddiyyətli görüşlərə malik olsa da, bütövlükdə əsl vətənpərvər, humanist yazıçı kimi ədəbi-maarifçi fikir tariximizdə qərarlaşdı.

XX əsrin başlanğıcından etibarən Firudin bəy Köçərlinin (1863-1920) ədəbi fəaliyyətə başlaması maarifçiliyimizin ədəbi tənqidi tarixində yeni bir mərhələnin başlanğıcını qoydu. O, M.F.Axundovun maarifçi realizminin davamçısı kimi fəaliyyət göstərmişdir. Firudin bəy Köçərlinin mətbuatdan, nəşriyyat vasitələrindən imkan daxilində geniş istifadə etməyə çalışması təqdirə layiq haldır və akademik K.Talıbzadənin qeyd etdiyi kimi: «o, atəşin bir vətənpərvər kimi xalqın qarşısında duran maneələri tənqidə tutur, milli mədəniyyətin, maarifçiliyin, eləcə də ədəbiyyatın tərəqqisi üçün yollar göstərir (3, s.492).

O, İrəvan gimnaziyasında çalışdığı illərdə maarifçilik məsələlərinə dair bir sıra məqalələr yazır, «Təlimi-lisani-türk» adlı dərslik tərtib edir, «Təlimati-Sokrat» (1891) adlı fəlsəfi əsərinin nəşrinə nail olur, eləcə də ədəbiyyata ciddi maraq göstərərək bədii tərcümə ilə məşğul olur. Rus yazıçıları Puşkindən, Lermontovdan, Tolstoydan və Koltsovdan tərcümələr edir, tənqidi məqalələrlə sıxış edirdi.

F.Köçərli Qori müəllimlər seminariyasında işlədiyi müddətdə fəaliyyətini genişləndirir, fəal maarifçi və ədəbiyyatşünas kimi tanınır. «Kavkaz», «Zakavkaziya», «Kaspi» qəzetlərində təhsil, təlim-tərbiyə, əlifba və dərsliklər haqqında dəyərli məqalələr çap etdirir. «Ərəb əlifbası və onun nöqsanları» (1898) adlı silsilə məqalələrində M.F.Axundovun fikirlərinin davamçısı kimi çıxış edir. Köçərli 1902-ci ildə M Şaxtaxtinskinin yeni əlifba layihəsi barədə özünün tənqidi mülahizələrinin nəşrinə nail olur. Azərbaycan ədəbiyyatını öyrənməyə xidmət edən «Tatar komediyaları» (1895), «Azərbaycan şairi Vaqifin həyatına dair» (1903) və «Ədəbiyyatımıza dair məktub» (1904) kimi məqalələr yazır, həmçinin M.F.Axundovun «Aldanmış kəvakib» povestini rus dilinə çevirir və «Azərbaycan tatarlarının ədəbiyyatı» (1901) adlı ayrıca kitabça çap etdirir.

Çətinliklərə, təzyiqlərə baxmayaraq F.Köçərli həvəsdən düşmür, əsərlərinin nəşr olunması naminə müxtəlif vasitələrə əl atır və nəticə etibarilə «M.F.Axundov» (1911), «Balalara hədiyyə» (1912) kitablarının nəşrinə müvəffəq olur.

Onun bir maarifçi kimi bədii əsərin zehinlərə və ürəklərə yol tapa bilməsi, təsvirlərin rəğbətlə qarşılanması, ürəyə yatması, fikir və əxlaqın tərbiyəsinə əhəmiyyətli dərəcədə təsir göstərməsi üçün xalq həyatının doğru-dürüst inikas edilməsi ilə yanaşı, yazıçının dünyagörüşünün, onun ali fikirlərinin təbii hisslərlə, ilhamla verilməsini lazım bilirdi. Beləliklə də o,bədii əsərin ideyasını, məzmununu onun formasından ayırmırdı, əksinə, onları vəhdətdə görürdü. Bir maarifçi və tənqidçi kimi bunun səbəbini Sədi, Hafiz, Şekspir, Bayron, Hüqo, Höte, Şiller, Puşkin, Dostoyevski və Tolstoy kimi məşhur sənətkarların bütün dünyaya səs salan əsərlərinin, yaradıcılığının nəinki öz xalqlarının, həmçinin bütün dünya xalqlarının sevimli maarifçi yazıçıları ola bilməsi faktı ilə açıqlayırdı.

Maarifçi və ictimai fəaliyyəti ilə azadlıq uğrunda mübarizəyə, demokratik hərəkata təsir göstərən böyük ədib Cəlil Məmmədquluzadə (1866-1932) XX əsr Azərbaycan ədəbiyyatı tarixinə maarifçi realist ədəbi cərəyanın banisi kimi daxil olmuşdur.

Realist dramaturgiyanın inkişafında C.Məmmədquluzadənin rolu çox böyükdür. Təkcə onun «Ölülər» əsəri tam bir ictimai dövrü əks etdirir. C.Məmmədquluzadə Azərbaycan ictimai fikrinin, maarifçilik ənənələrinin inkişafında böyük rol oynayan «Molla Nəsrəddin» jurnalını təsis etməklə fanatizmə, dini xurafata və cəhalətə ağır zərbə vurdu. Onun bədii əsərləri («Buz», «Usta Zeynal», «Qurbanəli bəy», «Saqqallı uşaq», «Zırrama», «Ölülər», «Ananın kitabı», «Danabaş kəndinin məktəbi», «Bəlkə də qaytardılar», «Dəli yığıncağı») və «Molla Nəsrəddin» jurnalı bütün Yaxın Şərqdə inqilabi-demokratik ideyaların carçısı, zəhmətkeş insanın hüquqlarının mübariz müdafiəçisinə çevrildi.

Bu böyük ədib vətənpərvər ziyalı və mübariz maarifçi kimi Azərbaycan dili, ədəbiyyatı

və mədəniyyətinin müstəqilliyini inkar edən mürtəce burjua ziyalılarına qarşı kəskin mübarizə aparmışdır.

Maarifçi dünyagörüşün, realizmin və demokratik ideyaların XX əsr Azərbaycan ədəbiyyatının inkişafında M.Ə.Sabirin (1862-1910) çox böyük və müstəsna rolu olmuşdur. Böyük xalq şairi, görkəmli mütəfəkkir və ictimai xadim olan M.Ə.Sabirin əsərləri maarifçi inqilabi-demokratik poeziyanın klassik nümunələri hesab olunur. Onun yaradıcılığı sırf maarifçi və vətənpərvər ideyaları təbliğ və tərənnüm edən xalq poeziyasıdır. Öz yaradıcılığında (ölümündən sonra dostu A.Səhhətin təşəbbüsü ilə əsərlərinin tam külliyyatı 1912-1914-cü illərdə «Hophopnamə» adı ilə çap olunur) klassik ədəbiyyat ənənələrini dahiyanə inkişaf etdirən şair «Molla Nəsrəddin» ədəbi məktəbinin başçılarından biri olmaq etibarı ilə yalnız Azərbaycan ədəbiyyatına deyil, Şərqin bir sıra ölkələrindəki maarifçi xarakterli ədəbi yaradıcılığa da qüdrətli təsir göstərmişdir.

Sabir Azərbaycan ədəbiyyatı tarixində ilk olaraq şeirə tamamilə yeni bir maarifçi ruh, yeni həyat, yeni məzmun bəxş etmişdir. Şair zəhmətkeş insanın, xüsusilə fəhlələrin hüquqları, azadlığı və səadəti uğrunda kəskin, dəyərli qələm mübarizəsi ilə əvəzolunmaz tarixi sənətkar səviyyəsinə yüksəldi. O, insanlara öz müsibətlərini və geriliyini məhz öldürüçü satira və öz üzərlərində gülüş vasitəsilə çatdırmaq istəyirdi. ««Bu tarixi» mübarizə ictimai inkişafın qanuniyyətindən, cəmiyyətin tərəqqi amillərindən doğan labüd bir proses idi» (4, s.119).

Maarifçilik ideyalarının, realist ədəbiyyatın ən görkəmli nümayəndələrindən digəri də Ə.Haqverdiyevdir (1870-1933). O, XIX əsrin son onilliyində fəaliyyətə başlamışdır. Azərbaycanda feodalizmin, mülkədarlığın süqutunu əks etdirən, mürtəce adət-ənənələrin tənqidinə həsr edilən realist əsərlərin müəllifidir. Azərbaycanda maarifçilik ideyalarının tərənnümçüsü olan «Molla Nəsrəddin» jurnalının fəal əməkdaşlarından olmaqla geniş xalq kütlələrinin məhəbbətini qazanmış, həmin jurnalda çap olunan hekayələri və publisist əsərləri («Yeyərsən qaz ətini, görərsən ləzzətini», «Marallarım», «Xortdanın cəhənnəm məktubları», «Şeyx Şəban», «Xəyalat», «Ac həriflər» və s.) ilə mədəniyyətimizi inkar etməyə çalışanlara qarşı qətiyyətli mübarizə aparmışdır.

Bir çox klassik hekayələrin müəllifi kimi o, XX əsr ədəbiyyatında çox orijinal bir mövqe tutur. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Haqverdiyev bu quruluşun şüurlarda yaratdığı dönüşü əks etdirmiş, milli maarif və mədəniyyətlə əlaqədar olan işlərin çoxunda fəal iştirak etmişdir. Qırx ildən çox bir müddətdə Haqverdiyev dramaturq, nasir, gözəl tərcüməçi, bacarıqlı rejissor, mədəniyyət tarixini yaxşı bilən alim, maarifçi və müəllim idi.

Ruspublikamızda inqilabi-maarifçi cərəyanın, keçmiş Sovet dövlətinin qabaqcıl xadimi, Şərqdə marksizm ideyalarının ideoloqu olan Nəriman Nərimanov (1870-1925) bir yazıçı kimi Azərbaycan ədəbiyyatının inkişafında, onun Avropa maarifçiliyi ideyaları ilə zənginləşməsində əhəmiyyətli rol oynamışdır.

Feodal cəmiyyətinin mənfur qayda-qanunları, mürtəce adət-ənənələr, ümumdünya maarifçilərinin mübarizə apardığı dini fanatizm, Şərq istibdadı onun əsərlərində kəskin tənqidə məruz qalmışdır.

Xalqı mühüm siyasi hadisələrlə, ölkə daxilindəki vəziyyətlə tanış etmək, onların arasında qabaqcıl ideyaları yaymaq məqsədi ilə Nərimanov «Təzə xəbərlər» adlı qəzet, «Sovqat» və «Məktəb» adlı jurnallar nəşr etdirmək haqqında məsələ qaldırır. Lakin çar üsul-idarələri tərəfindən N.Nərimanovun xahişi müxtəlif bəhanələrlə qəbul olunmurdu.

Nərimanovun ədəbiyyat və incəsənət sahəsində fəaliyyəti xüsusilə maraq doğurur. O, 1894-cü ildə böyük maarifçi əhəmiyyət kəsb edən «Nadanlıq» pyesini, 1895-ci ildə «Dilin bəlası yaxud Şamdan bəy» komediyasını, 1896-cı ildə məşhur «Bahadır və Sona» romanını, 1899-cu ildə isə «Nadir şah» faciəsini nəşr etdirir, böyük rus yazıçısı N.V.Qoqolun məşhur «Müfəttiş» komediyasını Azərbaycan dilinə tərcümə edir.

Bu böyük ədib və ictimai-siyasi xadim ədəbiyyat və teatrın insanları əyləndirməyə deyil, məhz kütlələri tərbiyə etməyə və maarifləndirməyə istiqamətlənməsini vurğulayırdı. 1898-ci ildə Gəncədə yeni məktəbin açılması və onun şərəfinə «Hacı Qara» komediyasının oynanması münasibətilə söylədiyi nitqində Nərimanov maarifçi komediya haqqında deyir: «...Komediya çıxartmaqda əsl məqsəd tərbiyədir... Bizim müsəlman qardaşlarımız teatra çox da həvəs etməyib fikir edirdilər ki, o komediya ki oynanır, ancaq gülüş üçündür. Bu fikirdə olanlar çox səhv edirlər. Çünki komediya zadəganlığın ayinəsidir. Bu teatrda öz qüsurlarımızı görüb əlbəttə çalışırıq ki, özümüzü yaxşı adamlara oxşadaq və pis adamlardan uzaq olaq. Teatr böyüklər üçün bir məktəbdir. Necə ki, uşaqlar məktəbdə gözəl şeylər əxz edirlər, elə də bizlər teatrdan gözəl şeylər əxz edirik (5, s.201).

İnsanın yaradıcı zəhməti, azadlığı və mənəvi qüdrəti Nərimanovun yaradıcılığında yüksək qiymətləndirilir. Bu görkəmli realistin və ədibin zəngin ideya irsində ədəbi-tənqidi məqalələr, publisist əsərlər, xüsusilə elm, mədəniyyət, maarif, təhsil, tərbiyə, dil, əlifba və eləcə də iqtisadiyyat və siyasət məsələlərinə dair maraq kəsb edən əsər və fikirləri indi də öz əhəmiyyətini saxlamışdır.

Digər görkəmli yazıçı və mütəfəkkirlər kimi Nərimanov da ədəbiyyat və incəsənətin böyük ictimai təsir güçünü dönə-dönə qeyd edərək kütlələrin siyasi tərbiyəsində bunların xüsusi rol oynadıqlarını göstərirdi.

Həmin dövrdə Azərbaycan ədəbiyyatında Avropa ictimai fikrinin, Maarifçilik məfkurəsinin inkişafında və təbliğində Cənubi Azərbaycanın ictimai fikrinə əhəmiyyətli təsir göstərən ədiblərdən biri də Mirzə Əli Möcüz (1873-1934) olmuşdur.

M.Möcüzün Azərbaycan ədəbiyyatı tarixində («Xalqı bidar eyləmək», «Yatan xalqı ayıltmaq», «Nəqqaş», «Dedilər», «Mən neyləyim» və s. şeirləri) müəyyən mənada özünəməxsus orijinallığı ilə seçilən sənətkar olduğunu qeyd etmək lazımdır. Bəhmənyar və Mahmud Şəbüstəri kimi mütəfəkkirlər, azadlıq hərəkatında Səttərxan və Xiyabani kimi qəhrəmanlar yetirən, dünyaşöhrətli xalqının nəcib ənənələrindən, inqilabi-mədəni hərəkatından bəhrələnən Möcüz ləyaqətli sənətkar səviyyəsinə malik idi.

Realist satirik maarifçi kimi tanınan Möcüzün yaradıcılığında xalqın qanını soranlar, feodal quruluşu və münasibətləri maarifçiliyə yabançı olan feodal əxlaqı və xalqın azadlıq mübarizəsinə xidmət etmək başlıca yer tuturdu. Xalqının xoşbəxt gələcəyinə ümidini belə ifadə edirdi:

«Ayıl, Möcüza, səslə qardaşları,
Kənar eylə qəmdən vətəndaşları» (3, s.125).

Şairin əsərlərinin demokratik, maarifçi və imumbəşəri mahiyyəti onun bütün şeirlərində aydın sürətdə əks olunmuşdur. Bu maarifçi şairin bədii yaradıcılıqda satiraya xüsusi əhəmiyyət verməsi ilk öncə onun demokratik görüşlərindən, köhnə cəmiyyətə kəskin tənqidi münasibətlərindən irəli gəlir. Möcüz yalnız ədəbiyyatın deyil, təsviri incəsənətin də cəmiyyətdəki ziddiyyətlər və qarşıdurmanı yüksək səviyyədə ifadə etdiyini qiymətləndirir. Rəsm əsərini aynaya bənzədən şair «Nəqqaş» şeirində deyirdi:

«Şəkil bir aynadır ki, ey ağa,
Görsənir onda hər xətavü xətər» (3, s.131).

Şairin bütün əsərləri xalq həyatını, istismarçılara və xarici işğalçılara nifrəti, onun azadlıq istəyini əks etdirir. Yüksək maarifçi dünyagörüşünə malik olması ilə Mirzə Əli Möcüz Molla Nəsrəddinçilərlə birləşirdi.

XX əsrin başlanğıcındakı maarifçi realist Azərbaycan ədəbiyyatı sözün əsl mənasında milli ədəbiyyat kimi formalaşırdı. Onun ideya istiqamətini, məzmununu, bədii üslubunu milli Azərbaycan reallığı şərtləndirirdi. Yaradıcılığında nəinki maarifçilik və realizm, eləcə də romantizm xüsusiyyətləri ifadə edən A.Səhhət, A.Şaiq və digərləri bir çox cəhətdən maarifçi

yazıçılara yaxınlaşırdı. A.Səhhətin «Əhmədin qeyrəti» və Şaiqin «Məktub yetişmədi» kimi qiymətli realist əsərlər yazmalarına baxmayaraq onların realizmində bəzi maarifçi yazıçılara xas olan məhdudluq hiss olunurdu. Dini dünyagörüşü mövqeyindən çıxış edən Axund Əbuturab, Ə.Hüseynzadə və Ə.Ağaoğlu Avropa ictimai fikrini, maarifçiliyi dini mənəda qəbul edir və ilahiyyat elmlərinə üstünlük verirdilər. Lakin H.Zərdabi, C.Məmmədquluzadə, M.S.Sabir, Ö.Faiq kimi tərəqqipərvər ideoloqlar dünyəvi, təbiət-texniki, müasir elmləri təbliğ edir və sxolastik elmlərə qarşı çıxırdılar.

M.Ə.Sabir, N.Nərimanov, C.Məmmədquluzadə, F.Köçərli, Ü.Hacıbəyli və başqaları maarifçilik ideyalarını inkişaf etdirməklə təbiətə və cəmiyyətə aid bir çox vacib məsələləri xalqa sadə dildə izah edirdilər. Onlar Kainatın və Yer kürəsinin quruluşundan başlamış feodal cəmiyyətindəki ədalətsizliyə, azadlıq əldə etmək zərurətinə qədər mühüm fəlsəfi, ictimai-siyasi məsələlərə aid elmi biliklərin təbliğinə çalışırdılar.

Haqqında mülahizə yürütdüyümüz dövrün digər görkəmli maarifçi yazıçısı Mir Möhsün Nəvvabdır (1833-1919). O, bu dövrdə Azərbaycan ədəbiyyatının və ədəbi-estetik fikrinin yetişdirdiyi görkəmli şəxsiyyətlərdəndir. XX əsr Azərbaycan mədəniyyəti, ədəbiyyatı və elmi Şərq-Qərb mədəniyyəti ənənələrindən, mənbələrindən bəhrələnərək yaranmışdırsa, M.M.Nəvvabın yaradıcılığı XIX əsr Azərbaycan ədəbi-bədii düşüncəsinin məhsulu kimi formalaşmışdır.

Mir Möhsün Nəvvabın maarifçilik görüşləri başlıca olaraq «Kəşfül-həqiqə» («Həqiqətin kəşfi»), «Nurül-ənvar» («Nurlar işığı»), «Nəsihətnamə» əsərlərində və bir sıra digər şeirlərində öz əksini tapmışdır. Sənətkarın maarifçi dünyagörüşünün formalaşmasında qabaqcıl Qərb fikri ilə yanaşı Şərq-İslam mədəniyyəti də əhəmiyyətli rol oynamışdır. Nəvvabın yaradıcılığında İslam etikasının və ümumilikdə İslam dünyagörüşünün ciddi təsiri aydın nəzərə çarpır. Onun yaradıcılığında mükəmməl maarifçilik meyilləri ilə yanaşı, sağlam zəminə əsaslanan dini məqamların mövcudluğu heç də təəccüb doğurmamalıdır. O, bəzi əsərlərində «Quran»da səslənən fikirlərə müraciət edir. «Quran» surələri və Peyğəmbər (ə.s.) hədislərindən müxtəlif iqtibaslar gətirir. Ədibin belə iqtibaslara müraciəti daha çox onun «Nurül-ənvar», «Kəşfül-həqiqə» əsərlərində təsadüf olunur. Ümumiyyətlə, onun yaradıcılığında İslami dəyərlər sisteminin güclü təsiri digər əsərlərində də nəzərə çarpır.

Azərbaycan ədəbiyyatı öz çalarlarının müxtəlifliyi ilə beynəlmiləlçi ədəbiyyat idi, milli məhdudluq ona yad idi. XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan maarifçi-realist yazıçıları dünya ədəbiyyatının nailiyyətləri ilə tanış olan, rus, Şərq və Qərb klassiklərini sevən, öyrənən yazıçılar idilər. Azərbaycan ədəbiyyatı o zaman başqa xalqların ədəbiyyatı ilə çoxcəhətli əlaqələrə malik idi.

Milli ədəbiyyatın məzmununa dünya ədəbiyyatı ilə əlaqə xələl gətirmirdi, əksinə, Azərbaycan həyatının, xalqın milli xarakterinin, problemlərinin ədəbiyyatda daha dolğun ifadəsinə imkan yaradırdı. MollaNəsrəddinçilərin realizm, xəlqilik uğrunda mübarizədə nəinki klassik Azərbaycan, eləcə də Şərq, rus və Qərbi Avropa ədəbiyyatı ənənələrindən və nümunələrindən bacarıqla istifadə etmələri çox təqdirə layiq idi.

**Açar sözlər:** ictimai fikir, maarifçi, realist, inqilabi, demokratik.

## İstifadə olunmuş ədəbiyyat

1. Qasımzadə F. S. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: ADU, 1956.

2. Məmmədov X. Q. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçi realist ədəbiyyatı. Bakı: Azərnəşr, 1978.

3. Azərbaycan ədəbiyyatı tarixi. II cild (3 clddə). Bakı: Azərb. EA nəşriyyatı, 1960.

4. Hüseynov F. Mir Cəlal. XIX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982.
5. Əhmədov T. Nəriman Nərimanov. Bakı,Yazıçı, 1982.
6. Göyüşov Z. B. Azərbaycan maarifçilərinin etik görüşləri (XIX əsrin II yarısı). Bakı: Azərb. EA nəşriyyatı, 1960.
7. Həsənov H. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir (1910-cu il mart, 1917-ci il), Bakı: Elm, 1997.
8. Xəlilov Q.V. Azərbaycan ictimai fikrində humanizm ideyaları. Bakı: Elm, 1984.

**Ниджат МАМЕДОВ**

## РОЛЬ АЗЕРБАЙДЖАНСКИХ ПИСАТЕЛЕЙ КОНЦА XIX - НАЧАЛА XX ВЕКОВ В ИСТОРИИ ОБЩЕСТВЕННОЙ И ФИЛОСОФСКОЙ МЫСЛИ АЗЕРБАЙДЖАНА

### Резюме

В данной статье анализируются проблемы борьбы за развитие просвещенческо-реалистической литературы в Азербайджане и других восточных странах конца XIX – начала XX веков и переход ее на новый уровень.

Исследуются процесс динамики литературного движения в Азербайджане, закономерности развития литературы, направление теоретико-эстетической мысли, основные полюсы идейной борьбы в общественной мысли и, наконец, проблемы идеологии и творческого метода от А.Бакиханова, М.Ф.Ахундова и после «Экинчи» до создания школы «Моллы Насреддина».

**Ключевые слова:** общественная мысль, просветитель, реалист, революционный, демократический.

**Nijat MAMMADOV**

## THE ROLE OF AZERBAIJANI WRITERS OF THE EN OF THE XIX$^{TH}$ AND THE BEGINNING OF THE XX $^{TH}$ CENTURIES IN HISTORY OF SOCIAL AND PHILOSOPHICAL THOUGHT OF AZERBAIJAN

### Summary

In the present article the problems of fight for development of enlightenment-realistic literature in Azerbaijan, as well as in other Eastern countries of the end of the XIX and beginning of the XX centuries are analyzed.

The process of dynamics of literary movement in Azerbaijan, regularities in the development of literature, direction of theoretical and aesthetic thought, the basic poles of ideological thought finaly the problems of ideology and creative method from A.Bakikhanov and M.F.Akhundov and then "Ekinchi" (Ploughman) to creation of “Molla Nasreddin”s school.

**Keywords:** social thought, enlightener, realist, revolutionary, democratic.

UOT 101.1

**Faiq ƏLƏKBƏRLİ**
*a.e.i., fəlsəfə ü.f.d., dosent,*
*AMEA Fəlsəfə İnstitutu*

# MÜHACİRƏT DÖVRÜNDƏ AZƏRBAYCAN MİLLİ İDEYASI (1950-1990-CI İLLƏR)*

## Giriş

1950-1990-cı illər Azərbaycanın mühacirət irsinin məfkurəsində əsas mübarizə xətti bütün sahələrdə (mədəni, fəlsəfi, siyasi və s.) Azərbaycan Milli İdeyasını – azərbaycançılığı yaşatmaq və yenidən Milli İstiqlalı qazanmaq istəyi olmuşdur. Bu mənada həmin dövrdə yaşayan mühacir aydınlarımızın (Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Nağı Şeyxzamanlı, Əbdülvahab Yurdsevər, Kərim Odər, Azər Aran, Məmməd Sadıq Aran, Məhəmməd Kəngərli, Əhməd Qaraca, Çingiz Göygöl, Süleyman Təkinər, Kərim Yaycılı, Həmid Ataman, Feyzi Aküzüm, Cəmil Ünal və b.) yaradıcılıqlarında yer verdikləri mədəni, fəlsəfi, dini, tarixi və iqtisadi məsələlər Azərbaycan Milli İdeyası – azərbaycançılıqla uzlaşdırılmışdır. Yəni onlar müxtəlif sahələrin tədqiqatçıları olsalar da, bütövlükdə həmin yaradıcılıq sahələrini Azərbaycanın milli ideyası ilə əlaqələndirməyə çalışmışlar. Xüsusilə, Azərbaycanın Milli İstiqlalının zorla əlindən alınıb, onun yerini Sovet Rusiyası müstəmləkəçiliyi ilə əvəz olunmasını heç cürə qəbul edə bilməyən mühacir aydınlarımız müxtəlif aspektlərdən bu tarixi hadisənin mahiyyətini dünya ictimaiyyətinin diqqətinə çatdırmışlar. Onlar bir tərəfdən Azərbaycan türklərinin qədim mədəniyyətə, tarixə, ədəbiyyata malik bir millət kimi azad yaşamağa haqqı olduğunu isbat etməyə çalışmış, digər tərəfdən SSRİ kommunizminin saxta mahiyyətini ifşa etməyə çalışmışlar. Eyni zamanda mühacir aydınlarımız Azərbaycan Milli İstiqlalını tarixi nümunələrlə yanaşı, azərbaycançılığın meydana çıxması və inkişafı açısından da idealizə etməyə çalışmışlar. Beləliklə, türk, İslam və Qərb mədəniyyətinə əsaslanan Azərbaycan milli ideyası və onunla bağlı olan yeni turançılıq, qafqazçılıq, «rus kommunizmi»nin tənqidi və milli təsanüd mühacirət mütəfəkkirlərinin irsində başlıca yer tutmuşdur.

Mühacirət dövründə dilçi və türkoloq alim, mühacir ziyalımız Əhməd Cəfəroğlu (1899-1975) 1960-cı ildə «Mücahit» dərgisində nəşr olunan «Azərbaycan Cümhuriyyəti» məqaləsində yazırdı ki, bu Türk Cümhuriyyəti tamamilə demokratik olub hakimiyyəti hüdudsuz və şərtsiz millətə vermişdir. Bu cümhuriyyətdə bütün dinlərə, millətlərə münasibətdə tolerantlıq nümayiş etdirilmiş və himayədarlıq göstərilmişdir. Azərbaycan alimi hesab edirdi ki, ancaq 27 apreldə böyük türk dünyasının köksündə hürriyyət bayrağını ilk qaldıran bir türk ölkəsinin ocağı sönmüş, Azərbaycan qırmızı ruslar tərəfindən işğal edilmişdi. Bunun müqabilində isə milli bayrağı enilən, yerində azad türk cümhuriyyətləri vətəndaşlarının qanuna boyanmış «oraq-çəkicli» bayrağın dalğalandığı bolşevik istilasına uğramış Azərbaycanda rus əsarətini mədh edən nitqlər söylənilir və şənliklər keçirilir: «Böyük rus istibdadına satılmış kiçik bir azəri tör-töküntüsü də bu rus şənliklərində ana yurdlarının istilaçıya təslim edilməsinin mükafatını alırlar. Milli prinsiplər və milli varlıq bunlar üçün başdan-başa saxta və riyakar bir yalandan ibarətdir. Bunların nəzərində həqiqi vicdan xalqların milli şərəf və namusunu tapdalamaq, müqəddəs və əziz ruhları təhqir etməkdir. Kiçik bir tör-töküntüdən ibarət olan və qırmızı rusların qanlı xəncərinin kölgəsində gizlənən bu qaragüruh, nəhayət ki, yaxın zamanlarda türk ölkələrində öz inhisarlarına daha yer qalmadığını görərək, şərəfsiz

---

* Məqalə fəlsəfə ü.e.d., professor Əlikram Tağıyev tərəfindən çapa məsləhət görülüb.

ölümlərinin günbəgün yaxınlaşdığını özləri başa düşəcəklər. Çünki haqq və istiqlal eşqi, istiqbal və milliyyət davası könüllərdə yer tapdığı bir zamanda nə qırmızı xəncər, nə də boğazdan yuxarı şənliklər kimsəni qorxutmur» (1, s.351).

Cəfəroğlu yazırdı ki, Azərbaycan türklərinin izzəti-nəfsinə endirilən vicdansız zərbəni bir daha göz önünə gətirməklə yanaşı, bunun belə davam etməyəcəyi inamını da yaşatmaq lazımdır. Ona görə də hər bir azərbaycanlı Azərbaycan milli məfkurəsinin nə qədər uca amal olduğunu bir daha təqdir edir və istiqlal şəfəqinin artıq dan yerindən sökülməkdə olduğunu sezir. Bu baxımdan istiqlal davası azəri türklərinin taleyi və yaşam prinsipidir. Cəfəroğlu yazırdı: «İstiqlalın mayası və mənbəyi uzun illərdən bəri türk ellərini əsarət atına alaraq türk ruhunu ağrı-acılarla inlədən ruslarda deyil, «Tanrım, məni istiqlala qovuşdur!» - deyən və onu milli dua kimi hər gün təkrarlayan türklərin əlində və dilindədir. Buna görə də düşmən caynağında qalan sevgili türk Azərbaycanının qurtuluşu əsarətə boyun əyməyən və istiqlal üçün qan tökməyi şərəf bilən hər bir türk ölkəsinin susmayan vicdan qaynağıdır» (1, s.351). O yazırdı ki, dil, mədəniyyət, milli mənlik, əxlaq və s. etibari ilə türklüyə tam yad olan qüvvənin illərdən bəri vurduğu zərbələr yalnız bir məqsədə və bir hədəfə yönəldilmişdir: «Azərbaycanı türksüz qoymaq, istiqlal və milliyyət ruhunu kökündən qoparıb atmaq! Bu isə bir daha onu göstərir ki, azəri türkləri istiqlala layiq, hürr yaşamağa hazır, yetişmiş bir millətdir. On üç ildən bəri rusların istismarına və təzyiqlərinə qarşı aparılan inadlı çarpışmalar, axıdılan qanlar, daxildə və xaricdə ucaldılan mübarizə sədaları məhz bu yetkin millətin istiqlaldan dönməyəcək əzmə və milli varlığa malik olmasının göstəricisidir» (1, s.351-352).

Azərbaycançılığın gerçəkləşməsi üçün əlindən gələni edən, bu baxımdan yaradıcılığında Azərbaycan istiqlal davası tarixinə və Azərbaycan türk mədəniyyətinə mühüm yer ayıranlardan biri də Hüseyn Baykaradır (1904-1984). Azərbaycanın milli azadlıq hərəkatına yaradıcılığında xüsusi yer verən H.Baykara yazırdı ki, ona aid «Azərbaycan mədəniyyəti tarixi» ilə «Azərbaycan istiqlal mübarizəsi tarixi» kitabları Azərbaycanın azadlıq mübarizəsinin əlifbasıdır (2, s.7). Sonuncu kitabında Azərbaycanın istiqlal savaşı tarixi ilə yanaşı, H.Baykara milli azadlıq hərəkatının siyasi-ideoloji mahiyyətini də göstərməyə çalışmışdır. Azərbaycan xalqının milli şüurundakı inkişafı göstərmək məqsədi ilə o qeyd edirdi ki, Azərbaycan ziyalıları XIX əsrin birinci yarısında daha çox fars dilində əsərlər yazdığı halda, həmin əsrin ikinci yarısında vətənpərvərlik duyğularının və millətçiliyin qüvvətlənməsi nəticəsində elmi-ədəbi əsərlərini artıq Azərbaycan türk dilində qələmə almışlar. Bu o demək idi ki, Azəbaycan türkləri milli oyanışa qədəm qoyur və milli azadlıq mübarizəsinə başlayırdı. Başqa sözlə, çar Rusiyası tərəfindən qəsb olunmuş azadlığını geri istəyirdi. Bu baxımdan Azərbaycan mədəniyyətində və fəlsəfi dünyagörüşündə ciddi dəyişilmələr baş verir, yeni inqilabçı ruhlu ziyalılar nəsli yetişirdi.

H.Baykara qeyd edirdi ki, XX əsrə yetişmiş bir xalq olaraq daxil olan Azərbaycanın qabaqcıl milli ziyalıları (C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ə.Topçubaşov, Ə.Ağaoğlu, Ə.Hüseynzadə və b.), vətən qarşısında milli, demokratik istiqamətdə borcunu yerinə yetirmək üçün əlverişli şərait gözləyirdilər. Milli məfkurənin tədqiqatçısı qeyd edirdi ki, həmin dövrdə Azərbaycan türk aydınları əsasən üç: 1) islamçılıq və türkçülük; 2) liberal-demokratik; və 3) sosial-demokratik cəbhəsində təmsil olunublar (3, s.74). H.Baykara hesab edir ki, Qafqaz müsəlmanlarını «ümmətçilik»dən «millətçiliy»ə yönəldən, onları türkçülük-millətçilik, Azərbaycan milli ideyası ətrafında birləşdirən və «Açıq söz» qəzetində bunu təbliğ edən M.Ə.Rəsulzadə olmuşdur (2, s.186). Baykaranın fikrincə, ilk dövrlərdə sosial-demokratlarla eyni cəbhədə çalışmış M.Ə.Rəsulzadə 1911-1913-cü illərdə müsəlman mütəfəkkiri Cəmaləddin Əfqaninin yazılarının təsiri altında türkçülük hərəkatına qoşulmuş və Azərbaycanda bu ideyanın əsas ideoloqu olmuşdur: «M.Ə.Rəsulzadənin Azərbaycan istiqlalının elanında və Azərbaycan dövlətinin yaradılmasında xidmətləri əvəzsizdir» (2, s.192). H.Baykara onu da

əlavə edir ki, Rəsulzadənin lideri olduğu «Müsavat» və Bitərəf demokratik qrup öncə milli ərazi və milli muxtariyyət tərəfdarı olsalar da, 1-ci və 2-ci rus inqilablarının gedişi, Qafqaz hadisələri onları özlərinin öncədən «uzaq məqsəd» olaraq planlaşdırdıqları Azərbaycan istiqlalı yoluna sürükləmişdi: «Azərbaycan istiqlal mübarizəsi tarixində «Azərbaycan istiqlalına» nə rast gəlinmiş, nə də baş verən siyasi hadisə olmuşdur. Azərbaycan xalqının ruhundan doğan bu istiqlal hadisəsi tarixin axarı içində öz yerini tapmışdır» (2, s.133). H.Baykara azərbaycançılıq ideyası və onun gerçək təcəssümü olan Milli Azərbaycan uğrunda ömrünün sonuna qədər mübarizə aparmış şəhidlərimizdəndir. Baykara üçün Azərbaycanın milli istiqlalı əsas ideallardan biri olmuş və o, bu idealı ömrünün sonuna qədər yaşatmışdır.

Azərbaycan mühacirət ziyalılarından Nağı Şeyxzamanlı (1883-1967) da «Azərbaycan istiqlal mücadiləsi xatirələri» (1964) kitabında azərbaycançılıq ideyasını təbliğ etmişdi. Onun fikrincə, Azərbaycan türkləri çar Rusiyası və Sovet Rusiyasının işğalçılıq siyasəti ilə heç vaxt razılaşmamış, ilk anlardan buna qarşı mübarizə aparmışlır (3, s.11). Şeyxzamanlıya görə hər bir Azərbaycan türkünün ürəyi iki müqəddəs varlıq ilə doludur: «Birisi din duyğusu, digəri milli duyğu. Azərilər bu iki müqəddəs varlıqlarını sevimli milli bayraqlarında da əks etmişdilər. Azərbaycan bayrağı üçrənglidir: yaşıl rəng islamiyyəti təmsil edir. Qırmızı rəng və ay-ulduz müasirçiliyi təmsil edir. Üçüncü rəngi olan mavi isə soyunu təmsil edir. Hər bir azərinin fikri istiqlal duyğusu ildə doludur» (3, s.103). Ancaq azərbaycanlılar özlərini digər türk toplumları kimi heç vaxt din təsiri altına salmamışlar: «Ənənələrini dinləri qədər müqəddəs saymışlar. Əsrlərcə çalışmanın sahəsində dinini, ənənələrini, adətlərini, məntiqini, insani duyğularını qanun şəklində ifadə edə bilən bir dövlət kimi layiq olmuşdur» (3, s.103). O yazırdı ki, cəhalətpərəstlər dinə arxalanıb sünnilik, şiəlik deyə iki ayrı yola ayrıldıqları halda, Azərbaycan xalqı bu bayrağı qəbul etməmişdir (3, s.103).

Şeyxzamanlı 1963-cü ildə qələmə aldığı «Dərdləşmə» məqaləsində də Azərbaycan Milli İdeyası uğrunda aparılan mübarizəyə toxunmuşdur. Onun fikrincə, ilk illərdə Azərbaycan mühacirləri arasında pərakəndəlik olsa da, ancaq bu çox uzun sürməmiş, M.Ə.Rəsulzadənin Rusiyanı gizli yollarla tərk edərək İstanbula gəlməsi ilə vəziyyət yaxşılığa doğru dəyişmişdir (10, s.170). Şeyxzamanlının fikrincə, M.Ə.Rəsulzadənin mühacirlər arasında yaratdığı birlik və bərabərlik hazırda da davam etməkdədir. Çünki Rəsulzadə Azərbaycanın bir gün Milli İstiqlala qovuşacağı inamını həmin nəşrlərdə, yazdığı məqalələrdə onlara aşılıya bilmişdir (4, s.174).

Azərbaycanın tanınmış ziyalı mühacirlərindən Əbdülvahab Yurdsevər (1898-1976) də bu dövrdə qələmə aldığı yazılarında digər məsləkdaşları kimi əsas diqqəti azərbaycançılığa yönəltmişdir. Azərbaycanın bir gün yenidən istiqlalına qovuşmasına şübhə etməyən Yurdsevər yazırdı ki, Azərbaycanın istiqlalını qəsb edən SSRİ rejiminin ömrü uzun olmayacaqdır. O, buna əsas kimi bolşeviklərin saxta beynəlmiləlçiliyini göstərmişdir: «Sovetlər beynəlmiləlçilikdən bəhs etdikləri halda tamamilə rus hakimiyyət təmayüllərinə istinad edirlər. Bu təmayüllər xüsusilə Stalin dövründə bütün çılpaqlığı ilə ortaya çıxdı. Bu gün Sovet imperatorluğunun hüdud bölgələrində vaqe olan məhkum ölkələr, türklər də daxil olmaqla qeyri-rus ünsürlərlə məskunlaşmışlar. Bunlardan heç birinin rusluqla milli və tarixi bağlılıqları yoxdur» (5, s.46). Yurdsevər yaradıcılığında bir tərəfdən SSRİ-nin iç üzünü açıb göstərməyə çalışmış, digər tərəfdən isə Azərbaycan Milli İdeyasına uyğun olaraq milli mədəniyyəti və milli ədəbiyyatı geniş şəkildə təbliğ etmişdir. Bu mənada onun 1950-ci illərdən başlayaraq Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə dair qələmə almağa başladığı məqalələri («Mirzə Fətəli Axundzadənin həyatı və əsərləri», «Abbasqulu Ağa», «XIX əsr Azərbaycandakı modern və realist ədəbi cərəyanlar», «Şah İsmayıl Xətai», «Azərbaycan istiqlal savaşından səhnələr» və b.) çox dəyərlidir. Bu əsərlərində Yurdsevər klassik Azərbaycan türk mütəfəkkirlərini bütün yönləri (mədəni, fəlsəfi, dini, ədəbi və s.) ilə araşdırmış, onların dünyagörüşlərini və yaradıcılıqlarını geniş şəkildə tədqiqat obyektinə çevirmişdir (6, s.102-103).

Mühacir ziyalılarımızdan Əhməd Qaraca (1929-2005) da yaradıcılığında Azərbaycan milli məsələsinə geniş yer ayırmışdır. O, 1960-1970-ci illərdə qələmə aldığı bir çox məqalələrində SSRİ rejiminin iç üzünü açaraq Azərbaycanın bir gün istiqlala qovuşacağına inamını ifadə etmişdir. Qaraca 1976-cı ildə «Azərbaycan» aylıq dərgisində nəşr olunan «Kommunist-Rus imperializminin yeni taktikaları» məqaləsində yazırdı ki, Türk Cümhuriyyəti Azərbaycan kommunist rus imperializminin silah gücü ilə istilaya məruz qalmışdı: «Fəqət tarixlə yaşıd olan böyük türk milləti bu qaranlıq günləri aydınlıqla boğmasını bilmişdir. Tarixmizdə belə qaranlıq günləri aydınlığa çevirdiyimiz, qaranlıqları altun işıqlarla boğduğumuz günlər sayılmayacaq qədər çoxdur» (7, s.172).

Əhməd bəyin fikrincə, kommunist rus imperialistləri çar Rusiyası boyunduruğundan qurtaran ölkələri yenidən işğal etdikdən sonra, ikinci bir hasarı daha qurtararaq özünü həm təhlükəsizlik içində saxlamış, həm də dəmir pərdə ilə əhatə etdiyi bu ölkələrdə yeni müstəmləkə yerləri tapmışdır. Belə ki, rus bolşevikləri I Pyotrun vəsiyyətini yerinə yetirmək üçün yeni müstəmləkə torpaqları əldə etməyə çalışmışdır: «Vaxtilə Məhəmməd Əmin Rəsulzadələrin, Mustafa Çokayların, Ayaz İshaklarin, Çələbi Cahan və Cəfər Seyil Əhməd Krımlıların, Məhəmməd Əmin Buğraların və digər əsir türk elləri fikir və elm adamlarının xəbərdarlıqlarına qulaq asan hürr dünya ölkələri, indi də Soljenitsınların, Saxarovların Qızıl Rus imperializminin bu dırmanmasının Batı-Qərb mədəniyyətinin yıxılışı olacağı əmrlərini görməməzliyə vura bilməzlər. Millətləri əsrlərdən bəri vətən olaraq yerləşdikləri yerdən qaldıraraq məhv edən, genosid hərəkətinin, faşistlərə daş çıxardacaq ən qorxunc biçimdə tətbiqçisi olan, 2 milyondan çox bir kütləni əsir düşərgələrində çürüdən kommunist rus faşistlərinə bütün bir dünyanın «dur» deməsi, insanlığı bu kommunist mikrobundan təmizləməsi şərtdir» (7, s.173).

Azərbaycan mühacirətinin tanınmış xadimlərindən Çingiz Göygöl də «Mühafizəsi lazım gələn milli ruh» məqaləsində yazırdı ki, sovet ideoloqları Azərbaycan türklərinin tarixini, mədəniyyətini, soykökünü və dilini saxtalaşdırmaqla Milli İstiqlal ideyasını tarixə gömmək istəyirlər. Bu anlamda rus kosmopolitizmi uğrunda atılan ciddi tədbirlər əhəmiyyətsiz sayılmayacaq dərəcədə təsirlərini göstərməkdədir. Bu baxımdan rus kosmopolitizminə qarşı mübarizə aparmaq əsas məsələlərdən birinə çevrilmişdir. Göygöl yazırdı ki, sovet diktaturasının müstəmləkəsinə çevrilmiş millətlərin üzərində həssaslıqla durmalı olduğu əsas məsələ də rus kosmopolitizminin təsirinin nəticəsiz qalmasını saxlamaqdır. Ona görə də kommunistlərin iqtisadi, ictimai, kültürəl və başqa sahələrdə basqı, məhvetmə siyasətlərinə qarşı istilada olanlar ciddi və daimi şəkildə müqavimət göstərməlidirlər. Göygöl yazırdı: «Əlbəttə, bu amili əsaslandıran ruhun milli ruh olduğuna kimsə tərəddüd etməz. Bolşevik kommunistlərin üzərində həssaslıqla durduqları məhvedilməsi və tənəzzülə uğradılması üçün ən çox məşğul olduqları yenə milli ruhdur. Bu ruh insanlara hürriyyət, millətlərə gələcək təmin edən ən mühüm ünsürdür. Bolşevik kommunistlərə təqibə uğrayan insanlarda milli ruh və ən üstün vəsf olunandır. Milli ruhun insanlar içərisindən silinərək onun yerinə Kosmopolit marksizm və leninizm öndərləri yetişdirmək istənilməkdədir ki, bu öndərlərin insanlar arasında qardaşlıqda başqa sinfi ayrılıqları və mənfəət toxumları səpərək qayəsini güddüyünü indiyə qədərki hadisələr bizə açıqlamaqdadır» (10, s.178-179).

Göygöl hesab edirdi ki, millətlərin bir qazanda qaynadılaraq insanlar arasında sinfi mücadiləsi fikri köpüklənərək və təkbaşına iqtisadi ümdələrə istiqbal bağlanaraq artıq insanlığa rifah təmin edilməyəcəyi həqiqət olaraq görünməkdədir. Çünki bütün bunların əvəzində, milli ruhun və üstün əxlaqın insanlara rifah və səadət təmin etdiyi azadlıq dünyaca qəbul edilməkdədir: «Milli ruhun tənəzzülü və ortadan itməsi yalnız millətlərə deyil, ümumən insanlığa köləlik, hürriyyətsizlik, haqq və hüquqdan məhrumiyyət gətirir. Bu etibarla millətlərdə mövcud milli ruhun mühafizəsi insanlığın üzərində ciddiyyətlə durması lazım gələn

bir məsələdir. Milli ruhun mövcudiyyəti ilə «Millətlərə istiqlal, insanlığa hürriyyət» təmin edilə bilir. Milli ruhun mühafizəsi üçün bütün millətlərin müştərək qüvvə sərf etmələri zərurəti bu gün dünəndən daha çox ehtiyac halındadır. Kommunistlər bu ruhun məhvi üçün hər gün bir az daha hiylə və aldatma yolları kəşf edərək insanlığı köləliyə sürükləməkdədir» (10, s.180).

Milli istiqlal ideyalarının gerçəkliyə çevrilməsinə yaxınlaşan bir dövrdə Azərbaycan mühacirətinin tanınmış xadimlərindən olan Kərim Odərin (1901-1981) Vətəndən kənarda qələmə aldığı məşhur əsərləri «Azərbaycan», «Azərbaycan ekonomisi» və başqalarıdır. Eyni zamanda, o, «Azərbaycan» dərgisinə onlarla məqalələr yazmışdır. Bu əsər və məqalələrində Odərin əsas hədəfi Azərbaycan mədəniyyəti, tarixi, iqtisadiyyatı və Milli İstiqlal ideyası olmuşdur. O, «Milli Azərbaycan Cümhuriyyəti» əsərində yazırdı ki, milli-dini dəyərlərə əsaslanan bir dövləti müvəqqəti də olsa zorla aradan qaldırmaq mümkündürsə, onu tarix səhnəsindən tamamilə silmək isə mümkün deyildir (9, s.79-80).

Milli istiqlal ərəfəsində Azərbaycan Milli Mərkəzinin və Azərbaycan Kültür Dərnəyinin fəal üzvlərindən olan Məhəmməd Gəngərli (1914-2006) bir çox məqalələrində SSRİ rejiminin dağılmasının səbəblərini açmağa çalışmışdır (8, s.181-182). O, «Xaincəsinə boğulan bir səs» məqaləsində yazırdı ki, Azərbaycan türkləri tarix boyunca hürr və müstəqil yaşamağa alışmış bir millətdir. Onun milli varlığının ana prinsipi isə hər zaman milli azlıq təşkil edən millətlərə deyil, bilavasitə onların haqq və hüququnu çeynəməyə yönələn yırtıcı ruhlu müstəmləkəçilərə qarşı yönəlmişdir. Gəngərli hesab edirdi ki, 1920-ci ilin 27 aprelində Azərbaycan türklərinin Hürriyyət, İstiqlal və Milli hakimiyyət səsi xaincəsinə boğulmuşdu (9, s.156). Onun fikrincə, həmin gündə Azərbaycan mədəniyyət ocaqları söndürülmüş, Azərbaycan insanı istiqlaldan məhrum edilmişdir. Ancaq harada və nə durumda olursa-olsun hər bir münəvvər milliyyətçi və istiqlalçı Azərbaycan türkünün qəlbini kin-küdrət, nifrətlə dolduran, bəşəriyyət tarixində mədəni insanlıq anlayışına görə qara bir ləkədən başqa bir şey olmayan bu günün bir gün sonu gələcəkdir. Elə bir gün gələcək ki, azərbaycanlılar Azərbaycan Cümhuriyyətinin şəhidlərini və qazilərini dərin saygı və hörmətlə, Sovet Rusiyası müstəmləkəçilərini isə nifrətlə yad edəcəkdir. Çünki 27 apreldə qırmızı bolşeviklər öz torpaqlarında hürriyyət və barış içində yaşamaq istəyən bir millətə qəsd etmişdir (9, s.157). Mühacir aydınımıza görə, nə öz torpağımız, nə də bu torpağın yetişdirmiş olduğu Milli Azərbaycan gəncliyi Azərbaycan Milli İstiqlalı uğrunda mübarizə aparmış mücahidləri bir anda özlərindən ayrı görməyəcəkdir. Onların əziz ruhlarını istiqlal eşqi ilə dolu səmimi bağırlarına basacaq, Azərbaycan Türk Milliyyətçiliyinin bir həqiqi örnəyi olaraq abidələşmiş Milli İstiqlal mücadiləsinin təməl daşı kimi daima mənəvi hüzurlarında əyiləcək və beləcə şan-şərəflə dolu xatirələrini yaşadacaqdır. Gəngərli böyük üzaqgörənliklə qeyd edirdi ki, ikinci 28 May günü yaxınlaşmaqdadır (9, s.159).

Azərbaycan mühacir mütəfəkkiri Süleyman Təkinərin (1917-2006) də yaradıcılığında Sovet kommunizminin əsl mahiyyətinin açılması və Azərbaycan Milli İstiqlal ideyası, eyni zamanda milli mədəniyyət və tarix sahələri önəmli yer tutmuşdur. O, «Tarix boyunca kommunistvari fikir və hərəkatlar» məqaləsində yazırdı ki, kommunizm ideyası birdən-birə meydana çıxmamışdır. Yəni kommunizm müəyyən bir təkamül mərhələsi keçmişdir. Onun fikrincə, kommunizmin yaranmasında əsas rol Karl Marks və Fridrix Engelsə məxsus olsa da, o özünün daha yüksək mərhələsini Rusiyada tapmışdır. Ancaq Marks və Engelsin düşündüyü kommunizmlə Vladimir Leninin və İ.V.Stalinin uyğuladığı kommunizm xeyli dərəcədə fərqli olmuşdur (11). Mühacir ziyalımıza görə Sovetlər Birliyindəki ictimai ədalətsizlik və sosial bərabərsizlik dünyanın heç bir mədəni məmləkətində yoxdur. Ona görə də bu çox uzun sürməyəcək və Azərbaycan Milli İstiqlala qovuşacaqdır: "Fəqət, insan cəmiyyətinin təbii əsaslarını yıxmaqla təbiət qanunlarına qarşı çıxan kommunizmin «İnsanlara hürriyyət, millətlərə istiqlal» parolunu mənimsəyərək, insanlıq mədəniyyətini də yaşatmağa əzm etmiş

olan Hürr Millətlərin bu dərin iman və sarsılmaz iradələri qarşısında tez-gec yıxılacağından əsla şübhə edilməməlidir» (11).

Azərbaycan mühacir ziyalılarından Cəmil Ünal artıq 1980-ci illərin sonlarına doğru Azərbaycan türklərinin Milli İstiqlala qovuşacağına tamamilə inanırdı. Bu baxımdan onun 1990-cı ildə qələmə aldığı «Yenidən doğuş» məqaləsi diqqəti cəlb edir. O, bu məqaləsində yazırdı ki, Azərbaycan türk millətinin tək dayanağı Allaha təslimiyyət və türkülük şüurudur: «Hər kəs hürriyyət istəyir, istiqlal deyə hayqırır. İnsanca yaşamanın özləmini çəkən milyonlarca insan marksizmin, leninizmin, kommunizmin çöküşünü hayqırmaq istəyir. Basqı rejimi altındakı millətlər öz kimliklərinə yenidən qovuşmaq istəyir. Türkçülük aləmi içərisində Azərbaycan olayların mərkəzi halına gəlmişdir» (12).

**Nəticə**

1960-1990-cı illərdə mühacirətdə olan Azərbaycan mütəfəkkirlərinin fəlsəfi irsinin əsas cəhətlərini ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, onların yaradıcılıqları və dünyagörüşləri nə qədər çoxşaxəli olsa da, bütövlükdə Azərbaycan Milli İdeyasının – azərbaycançılığın yaşadılması kontekstində Azərbaycan mədəniyyətinin, fəlsəfəsinin tədqiqi və təbliği dayanmışdır. Başqa sözlə, Azərbaycanın mühacirətdə olan mütəfəkkirləri bütün dövrlərdə olduğu kimi bu dönəmdə də Azərbaycan mədəniyyətinə və fəlsəfəsinə əvəzsiz töhfələr vermiş, öz dünyagörüşlərində Azərbaycan Milli İdeyasını sonsuza qədər yaşatmaq prinsipindən bir an olsun belə geri çəkilməmişlər. Əksinə, mühacir mütəfəkkirlərimiz üçün Azərbaycan mədəniyyəti və fəlsəfəsini öyrənmək və tədqiq etmək, Sovet kommunizminin saxta mahiyyətini açıb göstərmək Azərbaycan Milli İdeyasını yaşatmaq və Milli İstiqlala nail olmaq üçün ən ümdə vasitələr olmuşdur.

**Açar sözlər:** Azərbaycan Milli İdeyası, azərbaycançılıq, Azərbaycan Milli İstiqlalı, Əhməd Cəfəroğlu, Hüseyn Baykara, Nağı Şeyxzamanlı, Çingiz Göygöl.

## İstifadə olunmuş ədəbiyyat

1. Cəfəroğlu Ə. Seçilmiş əsərləri. Bakı: Mütərcim, 2008.
2. Baykara H.Azərbaycan istiqlal mübarizəsi tarixi. Bakı: Azərnəşr, 1992.
3. Şeyxzamanlı N. Azərbaycan istiqlal mücadiləsi xatirələri. Bakı: «Azərbaycan» nəşriyyatı, 1997.
4. Şeyxzamanlı N. Xatirələrim. Bakı: «Vətən», 2004.
5. Yurtsevər Ə. Sovet istismarçılığı //Ankara, «Azərbaycan» dərgisi, №10-11, 1956-cı il yanvar-fevral.
6. Cabbarlı N. Azərbaycan mühacirət nəsri. Bakı: Elm və təhsil, 2011.
7. Qaraca Ə. Kommunist-Rus imperializminin yeni taktikaları //Ankara, «Azərbaycan» dərgisi, №218, 1976-cı il, aprel-may.
8. Yaqublu N. Türkiyənin azərbaycanlılara müstəqillik mücadiləsində dəstəyi (Sovetlər dönəmi: 1920-1991-ci illər). Bakı, 2009.
9. Azərbaycan mühacirət irsi. Bakı: «Elm və Təhsil», 2011. (Tərtib edən: Nəsiman Yaqublu).
10. Göygöl Ç. Mühafizəsi lazım gələn milli ruh //Ankara, «Mücahit» dərgisi, №9, 1957-ci il, iyun.
11. Təkinər S. Tarix boyunca kommunistvari fikir və hərəkatlar //Ankara, «Birləşik Qafqasiya» məcmuəsi, 1963, №6 (23).
12. Ünal C. Yenidən doğuş //«Azərbaycan» kültür dərgisi, №271, 1990-cı il, yanvar-fevral.

**Фаик АЛЕКПЕРЛИ**

## АЗЕРБАЙДЖАНСКАЯ НАЦИОНАЛЬНАЯ ИДЕЯ В ПЕРИОД ЭМИГРАЦИИ (1950-1990 ГОДЫ)

**Резюме**

В статье отмечается, что в период эмиграции (1950-1990-е годы) Ахмед Джафароглы, Гусейн Байкара, Наги Шейхзаманлы, Сулейман Такинер и другие мыслители, изучавшие проблему азербайджанства с политико-идеологических и философских аспектов, в своих произведениях большое внимание уделяли вопросам истории национальной независимости Азербайджана, становлению и развитию понятия национальная идея.

Эти мыслители пытались доказать, что азербайджанская национальная идея возникла не случайно, а в силу необходимости, следовательно, рано или поздно она восстановится вновь.

В статье также отмечается, что при советской власти, права и свободы отдельных народов, входивших в СССР, ущемлялись.

**Ключевые слова:** азербайджанская национальная идея, азербайджанство, азербайджанская национальная независимость, Ахмед Джафароглы, Гусейн Байкара, Наги Шейхзаманлы, Чингиз Гейгель, Джамил Унал.

**Faiq ALEKBERLI**

## AZERBAIJANI NATIONAL IDEA IN THE PERIOD OF EMIGRATION (1950-1990)

**Summary**

In the article it is noted that in the period of emigration (1950-1990) Ahmad Jafar oglu, Huseyn Baykara, Nagi Sheyhzamanov, Takiner and others studying the problem of Azerbaijanism from the political-ideological and philosophical aspects, in their works paid a great attention to flu issues of history of the national independence of Azerbaijan, the formation and development of notion of the national idea.

These thinkers made an attempt to prove that Azerbaijani national idea arose not accidentally, but due to the necessity, therefore, sooner or later,it will be restored anew.

In the article it is also noted that under Soviet power the rights and freedoms of separate peoples entering the USSR were infringed.

**Keywords:** National Ideology of Azerbaijan, Azerbaijanism, Azerbaijan National Independence, Ahmad Jafaroglu, Huseyn Baykara, Nagi Sheykhzamanli, Chingiz Goygol, Jamil Unal.

UOT 316.33

**Leyla NƏSİRZADƏ**
baş müəllim, fəlsəfə ü.f.d.,
*Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)*

# SOSİAL PROQNOZLAŞDIRMA METODLARI*

Müasir sosial proseslərin mürəkkəbliyi sosial idrakda yeni proqnozlaşdırma metodlarının işlənməsini zərurətə çevirir. Buna görə də sosial proqnozlaşdırmanın artıq bizə məlum olan metodlarından istifadə etməklə sosial idrakın qarşısında duran xüsusi metodoloji alətlərin formalaşdırılması probleminin kəskinliyini yalnız müvəqqəti zəiflətmiş oluruq. Görünür, sosial proqnozlaşdırma antropologiya, hermenevtika, aksiologiya, praksiologiya, semiotika, sinergetika kimi elmlərlə zənginləşəcək müxtəlif elm və metodların qovşağında həyata keçiriləcəkdir.

Zamanın çağırışları ondan ibarətdir ki, sosial elmlərdən araşdırılan problemlərin diapazonunu genişləndirmək və adekvat metodologiyanı formalaşdırmaq tələb olunur. Sosial dəyərlərin unifikasiyası şəraitində kompromiss və sosial konsensus yollarının axtarılması da mühüm məsələlərdən biridir. Bununla əlaqədar biz hesab edirik ki, S.Hantinqtonun (15,s.113-149) fikirlərinə zidd olaraq gələcəyimiz sivilizasiyaların toqquşması ilə deyil, mədəni dəyərlərin bir-birinə yaxınlaşması, bir-birini tamamlaması ilə səciyyələnəcəkdir ki, bu da öz növbəsində metodoloji plüralizm problemini aktuallaşdırır. Bu mənada antropologiya, etnologiya kimi elmlərdə istifadə olunan metod və elmi alətlər çox faydalı ola bilər. Bu elmlərin əldə etdikləri faktlar cəmiyyəti nəinki keçmişin və indinin, habelə gələcəyin də kateqoriyalarında təhlili etmək üçün çox zəngin empirik material verir. Bundan başqa, müasir mərhələdə o da aydın olmuşdur ki, qloballaşma nəticəsində dünyada cərəyan edən unifikasiya proseslərinə baxmayaraq, heç bir sosial sistem dünyanın qalan hissəsi üçün universal bir nümunə ola bilməz. Bu fakt əsaslı ziddiyyət doğurur, çünki bir tərəfdən qlobalizmin məntiqinə görə vahid qaydaların işlənməsində əsas ola biləcək hansısa bir universal sosial model yaradılmalıdır. Digər tərəfdən də bu model hansısa bir mədəniyyətin məhsulu olmalı deyil, çünki əks halda o, resipiyentlər tərəfindən rədd ediləcək. Bu mənada bəzi, xüsusən də Qərb alimlərinin araşdırmalarında müşahidə olunan aşağıdakı tendensiya təbiidir: onlar müxtəlif tipli cəmiyyətlər üçün universal sosial modelləri işləyib hazırlamağa cəhd göstərirlər. Maraqlıdır ki, bu tendensiya konvergensiya, sosiomədəni plüralizm və s. kimi müxtəlif nəzəriyyələrdə öz əksini tapır.

Qeyd etmək istərdik ki, birincisi, universalizm və birləşmə ideyaları insanın varlığının və şüurunun ən ilkin cəhətlərindən biridir. Tarix sübut edir ki, bəşəriyyət gah dini qüvvələrə, gah da elmə və s. əsaslanaraq dəfələrlə birləşməyə cəhd göstərmişdir. Tarixdən bizə insan birliklərini daha böyük tamlığa gətirən iki proses məlumdur. Onlardan biri - iqtisadi prinsiplərin siyasi amillər üzərində qələbə çaldığını nümayiş etdirən sənaye inqilabı mərhələsində milli dövlətlərin meydana çıxması olmuşdur. Beynəlmiləlləşmə adlanan digər irimiqyaslı proses ona gətirib çıxardı ki, iqtisadi qanunauyğunluqlar formalaşmış sosial münasibətlərdən azad oldular. Məntiqi olaraq belə ehtimal etmək olar ki, növbəti mərhələ dünya miqyasında iqtisadi qanunauyğunluqların özünün aradan qaldırılması ola bilər. İkincisi, qloballaşma həm yekcinsliyin, həm də rəngarəngliyin artmasına səbəb olur. Üçüncüsü, sosial dinamizmin mənbəyi olan universallıq, özünəməxsusluq, mədəni rəngarənglik insan həyatını zənginləşdirməyə qadirdir, çünki onlar yaradıcılığa səbəb olur və bəşəriyyətin bütün

---

* Məqalə fəlsəfə ü.f.d.,dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

problemlərinə yeni gözlə baxmağa həvəsləndirir. Sosial proqnozlaşdırmada idrakın ümumelmi metodları olan analiz, sintez, müqayisə, mücərrədləşmə, tarixi və məntiqi, tarixi paralellər və s. metodlardan bu gün də istifadə olunur. Sosial idrakın ümumelmi metodlarının əsasında gələcək perspektivin işlənilməsində tətbiq olunan spesifik metodlar formalaşır. Onların sırasında ümumiləşdirilmiş ssenari, ekspertlər sorğusu metodlarını, sosial-iqtisadi və sosial-siyasi amillərin, sosial struktur və funksiyaların təhlili metodlarını və b. qeyd etmək olar. Bununla belə, idrakın ümumelmi metodlarından hər biri sosial proqnozlaşdırmada əsaslı modifikasiyalara məruz qalır. Bu cür modifikasiyanın ən mühüm tərəflərinə xüsusi nəzər salaq.

Belə ki, tarixi inkişafda olan sistemlərin proqnozlaşdırılmasında tarixi metod əvəzolunmazdır. Öyrənilən obyektin tarixini bilməklə biz nəinki ciddi elmi nəticələr əldə etmiş oluruq, həmçinin gələcəyə baxmaq, obyektin gələcək inkişaf tendensiyalarını dərk etmək imkanını da qazanmış oluruq. V.O.Klüçevskinin dediyi kimi, "*əcdadlarımızı* öyrənməklə biz *özümüzü* də öyrənirik. Tarixi bilmədən biz dünyaya gəlişimizin təsadüf olduğunu, necə və nə üşün yaşadığımızı, nəyə can atmalı olduğumuzu bilmədiyimizi etiraf etməliyik..."[11, s.375].

Tarixi metodla tarixilik prinsipini bir-birindən fərqləndirmək lazımdır. Onlar bir-biri ilə bağlıdır və mahiyyət etibarı ilə eyni anlayışların qnoseoloji və ontoloji aspektlərini kəsb edirlər: metod tədqiqatın üsul və priyomlarını, yollarını göstərir, prinsiplər isə obyektin bu tədqiqatdan irəli gələn obyektiv xarakteristikaları haqqında qərarları kəsb edir. Öz növbəsində artıq "əldə olunmuş" prinsiplər sonrakı idrakın ilkin şərtləri kimi çıxış edir.

Belə ilkin şərtlərdən biri də tarixilik prinsipidir. O, bir tərəfdən inkişafı hər biri nisbi müstəqil, tamamlanmış olan bir sıra mərhələlərin bir-birini əvəz etməsi kimi nəzərdən keçirir. Digər tərəfdən isə bu mərhələlərin özləri də eyni bir sistemin müxtəlif vəziyyətlərinin bir-birini əvəz etməsi kimi şərh olunur. Bu varislik elementlərinin qalması öyrənilən obyektin tamlığını üzə çıxarmağa imkan yaradır.

Beləliklə, artıq tarixilik prinsipinin özündə (elə bütövlükdə tarixi metodda da oldugu kimi) prosesin məntiqi, nəzəri öyrənilməsinə keçidin həm mümkün, həm də zəruri olması aşkarlanır. Həqiqətən də, "nə? harada? necə?" suallarına cavab axtararkən tarixçi aşkarladığının məntiqi haqqında düşünməli olur, tarixi metodun kifayət etmədiyini dərk etməyə başlayır. Tarixi metoda tarixi prosesi mücərrəd və nəzəri cəhətdən ardıcıl formada əks etdirən məntiqi metodu da əlavə etmək lazım gəlir.

Bu problemlə əlaqədar bir məqamı da qeyd etmək istərdik. Bəzi tədqiqatçılar hesab edirlər ki, nəzəriyyə yalnız mücərrəd ola bilər, tarix isə konkretdir. Bununla da faktiki olaraq tarixi metod empirik təsvirlə eyniləşdirilmiş olur, nəzəriyyə statusu isə məntiqi metoda verilir. Əslində isə onlar bir-birinə nüfuz edir. Bu mənada empirik, faktoqrafik tarixin əksi olan "*nəzəri tarix*" kimi "qovuşuq" elmin formalaşdırılmasının həm mümkünlüyü, həm də məqsədəuyğunluğu meydana çıxır. Əgər nəzəri tarixə onun daxili strukturu və ifadə forması nöqteyi-nəzərindən yanaşsaq, onda məlum olar ki, nəzəri tarix prinsip etibarılə tarix elmində hamılıqla təsdiq olunmuş xronoloji ardıcıllıqdan heç nə ilə fərqlənmir. Formaya gəlincə isə, artıq o, konkret-tarixi deyil, az-çox ümumiləşdirilmiş, mücərrəd-nəzəri şəkildə göz önünə gəlir. Belə tədqiqatın əsas vəzifəsi hər hansı bir sosial təsisatın, ictimai qrupun (məsələn, ailənin, icmanın) genezisindən başlayaraq real tarixi inkişaf tipini, qanunauyğunluqlarını göstərməkdən ibarətdir. Tədqiqatçını tarixdən kənara çıxmalar, təsadüflər maraqlandırmır: o, obyektin tarixinin ən baclıca məqamlarını rekonstruksiya edir [8,s.148-159].

Sosial proqnozlaşdırmada tarixi paralellər metodu da tətbiq olunur. Müəyyən dərəcədə bu metod ümumelmi analogiya metodunun modifikasiyasını kəsb edir, lakin bu, çox spesifik bir modifikasiyadır.

Bu spesifiklik nədədir?

Birincisi, öyrənilən təbii hadisələrin analoqunu fiziki formada modelləşdirmək mümkündürsə, sosial proseslərin və fenomenlərin analoqu artıq mövcud olmaya da bilər. Bununla əlaqədar öyrənilən obyektin analoqu kimi çox vaxt oxşar keçmiş hadisələr haqqında biliklər çıxış edir.

İkincisi, tarixi prosesdə hadisələr heç vaxt tam təkrarlanmır. Tarix fəlsəfəsindən mühazirələrində Hegel yazır: "Hökmdarlara, dövlət adamlarına və xalqlara təkidlə tarixin təcrübəsindən örnək almağı məsləhət görürlər. Lakin təcrübə və tarix göstərir ki, xalqlar və hökumətlər heç vaxt tarixdən dərs almayıblar...Hər dövrün öz xüsusi halları olur, hər dövr o qədər fərdi bir durum kəsb edir ki, burada yalnız həmin bu durumun özündən irəli gələn qərarları qəbul etmək lazım və mümkün olur. Dünyadakı hadisələrin gedişində ümumi prinsip və ya oxşar hadisələr haqqında xatirələrimiz yardımçı ola bilmir, çünki indinin həyatiliyi və azadlığı ilə müqayisədə ağarmış, "rəngi qaçmış" keçmişin xatirələrinin heç bir qüvvəsi olmur" [10,s.7-8].

Üçüncüsü, tarixi analogiyalar şərti xarakter daşıyır. İctimai hadisələr insanların şüurlu fəaliyyəti ilə baş verir. Bu fəaliyyət isə heç də həmişə keçmişdə olan fəaliyyətə analoji olmur ki, bu da tarixi analogiyaların ehtimaliliyini daha da dərinləşdirir.

Bu xüsusiyyətlər üzündən ictimai elmlərdə analogiyalar tarixi paralellər formasını alır. Artıq "tarixi paralellər" termininin özü sanki ictimai hadisələrin tam üst-üstə düşməsi, tamamilə təkrarlanması haqqında təsəvvürlərə etiraz edir. Heyranedici dərəcədə analoji olan, lakin müxtəlif tarixi şəraitlərdə baş vermiş hadisələr tamamilə müxtəlif nəticələrə gətirib çıxara bilir. Məhz buna görə də tarixi paralellər metodunun tətbiqi öncə ictimai hadisələrin tipikləşdirilmə prinsiplərinin işlənməsini tələb edir. Fəlsəfi və tarixi-metodoloji ədəbiyyatda bu məsələ hələ tam həll olunmamışdırsa da, onun bəzi aspektləri artıq üzə çıxarılmışdır. Bu, ilk növbədə, müqayisə olunan hadisələrin eynitipli sosial-iqtisadi və ya texniki-texnoloji zəmininin olmasıdır. Söhbət müxtəlif formasiyalardan və ya sivilizasiyanın müxtəlif mərhələlərindən getdikdə isə bu aspekt müqayisə olunan obyektlərin eynixarakterli dövrlərə aid olması ilə bağlıdır. Siyasi şəraitin və ictimai qüvvələrin oxşarlığı prinsipini də qeyd etmək olar [Bax:13].

Tarixi paralellər metodundan ilk növbədə əvvəlki tarixi təcrübəni ümumiləşdirib bugünkü təcrübə ilə müqayisə etmək məqsədilə istifadə olunur. O bizə tarixin "şaquli sütunlarının" dərkində köməklik edir. Lakin onun şaxələnmiş "üfüqi sütunlarının", yəni bu tarixi mərhələdə müxtəlif dövlət və xalqların inkişafındakı ümumi ilə xüsusinin dərkində kifayət etmir. Tarixi keçmişlə indinin əsl mənzərəsini yalnız sosial idrak metodları sistemindən bütövlüklə faydalanmaqla əldə etmək olar.

Proqnozlaşdırmada riyazi metodlar da çox səmərəlidir. Düzgün qurulmuş və yoxlamadan keçmiş riyazi modellər bəzi amillərin sosial dinamikaya təsir edib-etmədiyini müəyyən etmək imkanı yaradır. Əgər nəzərdən keçirilən amil sosial dinamikaya təsir göstərirsə, onda tətbiq olunan riyazi modelin köməyi ilə bu təsirin dəqiq kəmiyyət ölçüsünü əldə etmiş olarıq. Riyazi modelin əsasını araşdırılan hadisə və proseslərin kəmiyyət tərəfini əks etdirən statistik material təşkil edir. Sosial hadisələrin modelləşdirilməsi əksər hallarda reqressiya tənliklərinin (korrelyasiya tənliklərinin) köməyi ilə həyata keçirilir.

Lakin sosial proqnozların tərtibində riyazi aparatdan istifadə problemi hələ araşdırılmalıdır. Mövcud riyazi modellər hələ ki proqnozlaşdırma obyektinin inkişaf qanunauyğunluqlarının adekvat əksini təmin etmir. Modellər ya obyektin xarici əlaqələrini diqqətdən kənarda saxlamaqla yalnız onun daxili əlaqələrini əks etdirir (məsələn, Markovun zəngirlər nəzəriyyəsi əsasında qurulan modellər), ya da ki, əksinə, yalnız hansısa bir faktın təsirini nəzərə alır. Çoxölçülü korrelyasiya təhlili bir çox amillərin əlaqələrini əks etdirsə də, obyektin mövcud olduğu konkret-tarixi şəraiti təsvir etmir.

Proqnozlaşdırma obyektinin fəaliyyət göstərdiyi xarici mühiti diqqətdən kənarda qoyduqda riyazi və statistik metodların tətbiqi yalnız qısamüddətli və ortamüddətli proqnozlar səviyyəsində məqbul nəticələr verə bilir.

Müəyyən çatışmazlıqlar sosial elmlərdə, ilk növbədə fəlsəfədə də vardır. Belə bir ifadə var: sosial dəyişikləkər davam etdiyi təqdirdə fəlsəfənin sonu ola bilməz. Əgər bu tezis düzgündürsə, onda aşağıdakı tezis də düzgün olmuş olur: bu sosial dəyişikliklərin özü də ciddi fəlsəfi əsaslandırmaya ehtiyac duyur. Bir daha qeyd edək ki, siyasi qərarlara və texnoloji reseptlərə çevrilməyə can atmayan *spesifik fəlsəfi əsaslandırmaya*. Axı fəlsəfə, A. Şopenhauerin bir vaxtlar qeyd etdiyi kimi, "mahiyyət etibarilə yalnız düşünür və araşdırır. O, göstəriş vermir. Davranışı idarə etmək, xarakteri yenidən tərbiyələndirmək və s. onun köhnə iddialarındandır ki, bu gün o, nəhayət ki, bunlardan imtina etməlidir"[17,s.694]. R.Kollinqvud isə belə yazır: "İnsan təbiəti haqqında elmə xas olan səhvlərdən ən başlıcası onun hər bir gələcək tarixin uyğun gəlməli olduğu çərçivələri təyin etmək.... iddiasıdır " [12,s.216].

Fəlsəfə sosial hadisələrin modelləşdirilməsində statistik və riyazi metodlardan səmərəli istifadə etmək üçün sosial hadisələrin strukturunun xarici əlaqələrini hərtərəfli təhlil etməlidir. Sosial fəlsəfə həm dəyişməz, daimi kəmiyyətlərin üstünlük təşkil etdiyi mövcud sosial nizami, həm də dəyişkən kəmiyyətlərin üstünlük təşkil etdiyi sosial prosesi eyni dərəcədə əhatə etməlidir.

Bu gün dünyada baş verən dəyişikliklər əsasən elmi-texniki xarakter daşıyır. Buna görə də bəşəriyyətin gələcəyini proqnozlaşdırmaq iddiasında olan fəlsəfi nəzəriyyələr müəyyən dərəcədə texniki tərəqqinin də proqnozlaşdırılmasına arxalanmalıdırlar. Sosial praktika fəlsəfədən elmi-texniki tərəqqi ilə sosial tərəqqi arasındakı ziddiyyətlərin, texnogen sivilizasiyası üçün ənənəvi, lakin əsasən köhnəlməkdə olan dəyərlərin tənqidi təhlilini gözləyir.

Sosial elmlərdə mövcud olan nöqsanlar üzündən hal-hazırda riyazi aparat proqnozlaşdırma obyektinin xarici mühitlə bütün əlaqələrini tam həçmdə əks etdirməyə qadir deyil. Sosial modellərin qurulmasında riyazi aparatın acizliyini hələ ki, ekspert qiymətləndirmə metodu kompensasiya edir. Mütəxəssislərin qiymətləndirmələri bu gün cəmiyyətin aktual problemləri üzrə proqnozlaşdırmaların etibarlı əsasını təşkil edir. İqtisadiyyatda, siyasətdə, texnikada əksər proqnozlar bu yolla tərtib olunur. E.İ.Xolostovaya görə, "ekspertiza məsələnin mütəxəssis rəyinin (qərarın) formalaşdırılması yolu ilə araşdırılmasına deyilir. Bu arada mütəxəssis araşdırılan məsələ ilə bağlı informasiyanın qıtlığını öz biliyi, intuisiyası ilə tamamlayır" [16,s.488].

Ekspert qiymətləndirmələrində aşağıdakı metodiki tələblərə əməl olunmalıdır:

- çıxış vəziyyətinin qiymətləndirilməsi;
- vəziyyətin qeyri-məqbul olmasının səbəblərinin müəyyənləşdirilməsi;
- situasiyanın bu durumuna daha çox səciyyəvi olan tendensiyalalrın aşkar edilməsi;
- sistemin ən mühüm tərkib hissələrinin inkişaf xüsusiyyətlərinin təyin edilməsi [14,s.67].

Ekspert qiymətləndirmələri xüsusi ekspertiza mərkəzləri, elmi analitik-informasiya mərkəzləri, ekspert laboratoriyaları, ekspertlər qrupu və ayrı-ayrı ekspertlər tərəfindən həyata keçirilir.

Proqnozların səmərəliliyi bir çox amillərin, o cümlədən tədqiqat prosesinin özünün əsas prinsiplərinə əməl edilməsindən asılıdır. Onların arasında aşağıdakıları qeyd etmək olar:

- bu sistemin əsas amillərinin və elementlərinin seçilməsi, onların rolunun müəyyən edilməsi;
- araşdırılan proseslərin əsas inkişaf tendensiyalarının aşkar edilməsi;
- bu tendensiyaların gələcəyə ekstrapolyasiya edilməsi;
- gələcəkdəki bu trayektoriyaların hazırkı sosial proseslərlə sintez edilməsi;

- sosial fəaliyyətin digər sferalarındakı proqnozlarla əlaqələndirilməsi;
- çoxsəviyyəli kompleks proqnozun tərtib edilməsi;
- proqnozlarda daimi korreksiyaların edilməsi.

Tədqiqatçılar proqnozun etibarlılığının əsas şərtlərinə aşağıdakıları aid edirlər:

- təhlilin dərinliyini və obyektivliyini;
- konkret şərait haqqında hərtərəfli məlumatın olmasını;
- operativlik və səriştəliliyi.

Nəzəri-metodoloji baxımdan da bəzi mühüm şərtlərə, o cümlədən:

- sosial proseslərin obyektiv reallıq kimi qavranılmasına;
- tədqiqatda sistemli yanaşmadan istifadə olunmasına əməl olunmalıdır.

Proqnostik fəaliyyətin səviyyəsini təhlil edərkən proqnozların səmərəliliyinə təsir göstərən bir çox amilləri nəzərə almaq lazım gəlir. Bəzi amillər sırf metodoloji xarakterlidir. Bu, ilk növbədə proqnozları tərtib edərkən sosial və mənəvi aspektlərin qarşılıqlı əlaqələrinin spesifikliyini nəzərə almaq bacarığında özünü büruzə verir.

Təşkilat xarakterli çatışmazlıqlar proqnozları tərtib edən və onların nəticələrini realizə etməyə çalışan insanların şəxsiyyəti ilə əlaqədar olur. Proqnoz verənlərin, ekspertlərin peşəkarlılığının kifayət səviyyədə olmaması, potensial sifarişçilərin mövqeləri haqqında onların məlumatsızlığı bəzi arzuolunmaz məqamlara gətirib çıxarır.

Buradan irəli gələn birinci nəticə proqnostik hesabatlarda təsviri-informasiya materiallarının həcminin prosessual məzmuna uyğun gəlməməsi ilə əlaqədardır. Nəticədə proqnozlaşdırma tədbirləri, informasiyanın emalı, istifadə olunan mənbələr haqqında informasiya retrospeksiya ilə müqayisədə daha azhəcmli olur.

İkinci nəticə, proqnozların işlənilməsinin məqsədlərinin aydın olmaması ilə bağlıdır ki, bu da həm retrospeksiya dövründə, həm də proqnozların yekun hissəsində heç bir elmi əhəmiyyəti olmayan amillərin təhlilə cəlb edilməsinə səbəb olur.

Nəhayət, üçüncü nəticə, elmi tövsiyələrə məhəl qoymayan və onları öz baxışları ilə əvəz etməyə və ya Azərbaycan şəraitinə adaptasiya etdirilməsinin mümkün olub-olmadığını təhlil etmədən mövcud Qərb modellərini tətbiq etməyə cəhd göstərən rəhbər orqanlarının volyuntarist meyilləri ilə bağlıdır.

**Açar sözlər:** sosial proqnozlaşdırma, qloballaşma, unifikasiya, proqnostik fəaliyyət, tarixi proses, idrakın ümumelmi metodları

## İstifadə olunmuş ədəbiyyat

1. Əhmədli C.T.İdrak prosesinə fəlsəfi yanaşmanın mahiyyəti. Bakı, 2008.
2. Xəlilov S.Sivilizasiyalararası dialoq.Bakı:Adiloglu,2009.
3. Mehdiyev R. İctimai və humanitar elmlər: zaman kontekstində baxış. Bakı:OSKAR NPM, 2010.
4. Məmmədov Ə. Dialektik idrak və ümumelmi tədqiqat metodları. Bakı,1998.
5. Аббасов А.С. Проблемы истории, теории и методологии познания. Баку: Ени несил, 2001.
6. Ахмедлы Дж.Т. Закон, познание и предвидение. Б: Азернешр. 1989.
7. Ахмедлы Дж.Т. О методологии развития научного познания. Баку,1988.
8. Барг М.А. Категории и методы исторической науки. М.: Наука, 1984.
9. Батороев К.Б. Кибернетика и метод аналогий. М.: Высшая школа, 1974.
10. Гегель Г.В.Ф. Философия истории. Соч. В 9 т. Т.VIII. М.-Л: Соцэкгиз, 1935.

11. Ключевский В.О. Соч. т.9. М.: Мысль, 1990. Материалы разных лет / В. О. Ключевский. Под ред. В. Л. Янина. Послесл. и комментарии В. А. Киреевой.
12. Колингвуд Р.Дж. Идея истории. Автобиография. М.: Наука, 1980.
13. Дюркгейм Э.Социология. Ее предмет, метод, предназначение / Пер. с франц. составление, послесловие и примечания А. Б. Гофмана. М. Канон, 1995.
14. Мертон Р.К. Социальная структура и аномия // М.:СОЦИС, 1992, №2-4.
15. Хантингтон С. Столкновение цивилизаций. М.: Издательский дом:АСТ , 2006.
16. Холостова Е.И. Социальная работа. Учебное пособие. 4-е изд. М.: Издательско-торговая корпорация. Дашков и К, 2007 .
17. Шопенгауэр А. Мир как воля и представление//Антология мировой философии. В 4 т. Т.3 М., 1971.

**Лейла НАЗИРЗАДЕ**

## МЕТОДЫ СОЦИАЛЬНОГО ПРОГНОЗИРОВАНИЯ

### Резюме

В статье речь идет о методах социального прогнозирования в условиях глобализации и унификации социальных систем, которые, однако, не привели к появлению универсальной социальной модели как образца для всего остального мира. Товаря о применении социального прогнозирования при подготовке обоснованных предложений, проектов, программ, рекомендаций о том, в каком направлении желательно развитие объектов в исследуемой области, автор раскрывает эвристический потенциал методов социального прогнозирования, анализирует факторы, обусловливающие эффективность прогнозов и прогностической деятельности.

**Ключевые слова:** социальное прогнозирование, глобализация, унификация, прогностическая деятельность исторический процесс, общенаучные методы познания.

**Leyla Nazirzada**

## THE METHODS OF SOCIAL PROGNOSTICATION

### Summary

The article dealt with the methods of social forecasting in the context of globalization and the unification of the social systems-which nevertheless did not lead to the emergence of a universal social model as a model for the rest of the world. Stating on social forecasting at the preparation of grounded proposals, projects, programmes, recommendations on the desired direction of the development of the objects in the field under study, the author reveals the heuristic potential of social prediction techniques, analyzes the factors that make forecasts and predictive activities effective.

**Keywords:** social prediction, globalization, unification, predictive activities, historical process, scientific methods of learning

UOT 101.1

**Elmira TƏHMƏZOVA**
*e.i., fəlsəfə ü.f.d.,*
*AMEA Fəlsəfə İnstitutu*

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA GENDER MƏSƏLƏSİNİN QOYULUŞU*

Keçmişimizi araşdırmaq üçün bizə söz deməyə imkan verən mənbələrdən biri filosof-şair Nizami Gəncəvinin söz xəzinəsidir. Nizaminin yaradıcılığı təkcə insana məhəbbət, tərbiyə, təhsil, bilik mənbəyi, dərin əxlaq-etika, fəlsəfi fikir, hikmətli söz xəzinəsi deyil, eyni zamanda tariximizdir. Keçmişimizin qaranlıq səhifələrini işıqlandıran bir şölədir.

Onu da demək lazımdır ki, belə işıqlı zəkalar, görkəmli şəxsiyyətlər mənəvi ənənələrə söykənmədən yetişə bilməzlər. Bu dahilər xalqının düşüncə tərzinə əsaslanaraq, dünyəvi, mənəvi sərvətlərə yiyələnərək, bəşəri dəyərlərdən bəhrələnərək yetişir və formalaşır. Nizami Gəncəvinin doğulub boya başa çatdığı Gəncə Orta əsrlərdə dünyada inkişaf etmiş şəhərlər sırasına daxil idi. Bu səbəbdəndir ki, Gəncədən başqa dünyanın heç bir ölkəsində olmamış, belə ensiklopedik biliyə yiyələnə bilmişdi. Demək, Gəncə mühiti, Gəncənin elmi-mədəni mərkəzə malik bir şəhər səviyyəsində olması Nizami dünyagörüşünün yetişməsinin amillərindən biri idi. Nizamişünas alimlərdən bəziləri onun yetişməsində antik dünya nəzəriyyəsinin də təsirini əsas hesab etmişlər. Bəzi müəlliflər isə aşağıdakı qənaətə gəlirlər: «Nizamini yetirən güclü milli zəmin, güclü ənənə vardı ki, bunun kökləri çox qədimlərdən gəlir» (7, s.2).

Nizami bu mənada öz elinin, xalqının mənəvi dünyasını, dəyərlərini, tarixini özündə, əsərlərində qoruyub saxlayan bir tarixçi, bir filosofdur.

Nizaminin ideyaları haradan doğmuş və haradan qaynaqlanmışdı? Necə olmuşdur ki, Nizami bəşəriyyətin elmi və dini nailiyyətlərini özündə birləşdirərək dünyamiqyaslı bir dahi kimi yüksəlmişdir. O, bu barədə «İskəndərnamə» əsərində çox gözəl yazmışdır:

Hər köhnə nüsxədən əsas alaraq,
Onu öz şerimlə bəzədim ancaq.
Ən qədim tarixi əsərlərdən mən,
Yəhudi, nəsrani, pəhləvilərdən
Ən incə sözləri əlimə saldım (2, s.54).

Nizami Gəncəvi demək olar ki, özündən əvvəlki elmi, dini fəlsəfi fikirləri dərindən mənimsəmiş, öz xalqının mifologiyasını, fəlsəfəsini, dini baxışlarını dərindən öyrənib, dərk edərək öz əsərlərində istifadə etmişdir. Onun dünyanın yaranması haqda söylədiyi fəlsəfi fikir hələ Şumer rəvayətlərinə qədər gedib çıxır. Şumer rəvayətlərində Kainatın başlanğıcının sudan ibarət olduğunu qeyd etmişlər. Nizami Gəncəvi də eyni fikri «İskəndərnamə» əsərində belə izah edir: «Mən də əxz eləyim: dünyaya təməl, məncə, su olmuşdur hər şeydən əvvəl» (2, s.495).

İskəndərin Bərdə hakimi Nüşabə ilə görüşü... Sonra Şirvandan keçib, Dərbəndə səfər etməsi əsərdə belə verilir.

Elə ki, Əlburzə yol aldı ordu,

---

* Məqalə fəlsəfə ü.e.d., professor Əli Abasov tərəfindən çapa məsləhət görülüb.

Hər yerdə şahdan bir naib oturdu.
Bu çətin yollarla heç yorulmadan,
Ovçu aslan kimi keçdi Şirvandan.
Açaraq öz istək qol-qanadını,
Oradan Dərbəndə sürdü atını (2, s.219).

Sonralar isə tədqiqatçı alim, professor Y.Qarayev Nizaminin bu əsərdə yaratdığı «sosial utopiya»nı «...məhz belə bir «ictimai gözəllik» ideyasının zirvəsi hesab etmək olduğunu yazır. Sonralar «ənəlhəq» deyən Nəsimi də, «Mən aləm sədəfində insandan qiymətli gövhər görmədim» deyən Füzuli də məhz bir sənətkar kimi, insanı göylərə qaldıran müqəddəs təlimə - Nizami təliminə etimad bəsləmişdirlər (3, s.86).

Nizamini düşündürən ən mühüm məsələlər içərisində qadın azadlığı önəmli yer tutur. O, cəmiyyətdə qadının roluna diqqət verərək onun hüquqlarına hörmət olunmasını lazım bilir və bu arzusunu əsərlərində böyük ustalıqla nəzmə çəkirdi. Nizami yaradıcılığında azərbaycanlı hökmdar qadın qəhrəmanlarını - Nüşabəni, Məhinbanunu, Şirini işləyərək ölməz tarixi-bədii surətlər yaratmışdır. Nizami Gəncəvinin əsərlərində ədalətsiz hökmdarları adil şah edən və kamilləşmə yolunda önə çəkən obrazlar əsasən sadə insanlar və xüsusilə qadın obrazlarıdır. Bunlar çox vaxt xalq rəvayət və folklorunda olan simalardır (1, s.44). Məsələn, İskəndərin həyatı dərk etməsində Bərdə hökmdarı Nüşabəni, Xosrovun cəhalət torundan xilas olmasında Şirinin varlığı əvəzolunmazdır. Bununla Nizami idarəetmə işlərində qadınların da rolunun əvəzolunmaz olduğunu sübut etmişdir. Buna misal olaraq Bərdə hökmdarı Nüşabənin idarəetmə sisteminin monarxiya deyil, demokratik prinsiplər əsasında həyata keçirildiyi müşahidə olunur. Nizami qadın idarəçiliyinin daha çox demokratik prinsiplərə uyğun gəldiyini göstərir. Maraqlıdır ki, şair qadının sosial-siyasi idarəetmə sistemində yerinin kişilərlə bərabər olduğunu vurğulayır. «Aslanın erkəyi, dişisi olmaz» deyən şair əsərlərində gender bərabərliyi ideyasına yer verir (8, s.139).

Nizami yaradıcılığının bir xüsusiyyəti də ondan ibarətdir ki, şair bütün əsərlərində qadının mənəvi dünyasını da əks etdirmişdir. İstər «Sirlər xəzinəsi»ndə, istərsə «Xosrov və Şirin»də və istərsə də b. əsərlərində şair qadının daxili aləmi, onun bacarığı, iradəsi və s. xüsusiyyətlərini ön planda vermişdir. Müxtəlif cinslər arasında münasibətlər Nizami yaradıcılığının əsasını təşkil etmişdir. «Xosrov və Şirin» əsərində Şirin qoçaqlığı ilə elə ilk görüşdən oxucuların rəğbətini qazanır. Həyati gözəllikləri sevən, təbii nemətlərdən bacardıqca səmərəli faydalanmağa çalışan bu Azərbaycan gözəli həm də elmə, biliyə rəğbət bəsləyən, ilk məhəbbətinə son nəfəsinə qədər sadiq qalan, qılınc vurmağı bacaran bir qadındır. Nizami yaratdığı bu ideal qadın obrazı ilə onu vətən qızlarına xas cəsarət, qürur, mənəvi yüksəklik, mərdlik kimi gözəl sifətlərlə səciyyələndirmiş, öz qəhrəmanını zəhməti, hünəri qiymətləndirməyi bacaran həssas bir adam, yaxşı dost, vəfalı ömür yoldaşı kimi təsvir etmişdir. Nizami əsərlərində təsvir etdiyi cəmiyyətdə qadın və kişilərin rolunu bir-birindən ayırmır. O, qadını həmişə cəmiyyətin tam ləyaqətli bir üzvü kimi görməyi arzulamışdır. Şair tarixdən aldığı bu obrazı humanist ideyaları baxımından işləyərək, qadınlıq haqqında yüksək fikirlərini onun vasitəsilə ifadə etmişdir. Şirin saf mənəviyyata malik ismətli qadınlıq qürurunu yüksək tutan bir adam kimi sevdiyi Xosrovun gizlicə görüşmək təklifini rədd edərək:

Mən gövhərəm, neçin gərək əksiləm,
Çağrılmamış gedəm, məgər mən yeləm? (5, s.173).

– deyərək öz şərəfini alçaltmayacağını qəti bildirir. O, sərxoş halda qəsrə gələn Xosrova qapı açmır, onu rədd edir, kəbinsiz evlənməyəcəyini söyləyir. Nəhayət, kəbin kəsildikdən sonra

evlənir və sevgilisindən əli üzüldüyü zaman isə özünü öldürür. Sevgilisinin məzarı üstündə intihar etdiyini təsvir edərkən də şair onun fədakarlığını alqışlamaqla bərabər, qadınlıq haqqında danışmış, qadını ülvi bir varlıq kimi qiymətləndirmişdir:

Alqış bu ölümə, əhsən Şirinə,
Öldürən Şirinə, ölən Şirinə.
Məhəbbət yolunda ölüm budur, bax
Canana belədir cani tapşırmaq.
Çox gözəl qadın var mərdlikdə bir şir
Çox ipək içində şirlər gizlənir (5, s.343).

Şirin Xosrovu ata yurdunu düşmənlərdən qorumağa vadar edir, onun mənasız, kefcil həyatını dəyişdirir, elmə, fəlsəfəyə cəlb edir. Nizaminin yaratdığı Xosrovu Şirinin saf eşqinin qüdrəti məğlub edir. O, Şirinlə evləndikdən sonra əxlaqi cəhətdən bir insan olaraq həyatı dərk edir. Sonralar Xosrovun dünya, həyat, ölüm məsələləri ilə maraqlandığını, alim və bilicilərin məsləhətlərinə qulaq asdığını görürük. Nizami Gəncəvi dövlət işlərində qadınların rolunu qiymətləndirir, onların dövlətin ədalətlə idarə olunmasında iştirakını önə çəkir. Ona görə məhz gender balansında idarə olunan dövlət ədalət və inkişafın tərənnümünə çevrilir.

Nizami Gəncəvinin qadın obrazlarının xüsusiyyətlərini qiymətləndirərək M.Ə.Rəsulzadə yazırdı: «Nizaminin qadın haqqındakı görüşlərini yaratdığı fəzilətli qadın surətlərinə görə müsbət olaraq müəyyən etmək mümkündür. Fəqət Nizami, bizcə, qadın azadlığı və isməti haqqındakı fikirlərini türk köçərilərindən qıpçaqlar barədə gözəl bu hekayəti ilə anladır" (9, s.171).

Nizami Gəncəvi Məhinbanu, Şirin, Nüşabə kimi qadın-hökmdar obrazları yaratmışdır. Məhinbanu xalqla ədalətli rəftar edir. Xalq firavan yaşayır. Məhinbanu eyni zamanda əxlaqlı, təmiz, tərbiyəli bir qadındır. O, həmişə Şirinə məsləhətlər verir, onun ədalətli hökmdar olmasının nəticəsidir ki, Şirin hakimiyyətə keçdikdən sonra zülm büsbütün ölkədən götürülür. Xalq bacdan azad edilir, xərac alınmır. Nizami hər tərəfdə bolluq olduğunu, xalqın firavan yaşadığını qeyd edərək, ölkə başçısının xalqa qayğısı haqqındakı fikrini belə ifadə edir:

Şahın niyyətləri xoş olsa əgər,
Otdan gül yerinə min gövhər bitər.
Ölkədə rahatlıq, bolluq olarkən
O yerin şahından verəcək nişan (5, s.156).

Nizami kişi və qadın münasibətlərinin əsasında məhəbbət durduğunu qeyd edir. Saf məhəbbət insanı mənən də ucaldır. Məsələn, saf məhəbbət Xosrovun alicənab bir insan olmasına kömək edir. Şair əsasən zülm və zorakılığa əsaslanan patriarxal idarəetmə sistemindən fərqli olaraq qadınların idarəetmə sistemində ədalətin, mərhəmətin olduğunu vurğulayır və buna üstünlük verir:

Dünyada zülm etmək qoçaqlıq deyil,
Rəiyyət bəsləmək çox yaxşıdır bil (5, s.156).

Yaxud da Məhinbanunun yerinə Şirinin taxta çıxması vaxtı şair belə yazır:

Şirinin əlinə çatanda şahlıq
Ədalətlə etdi rəiyyəti şad.
Məhbuslar olundu həbsdən azad
Şəhər qapısından bir bac almadı
Heç bir əkinçidən xərac almadı (5, s.159).

Nizami Gəncəvi qadın idarəçiliyinin daha ədalətli olduğunu vurğulayır:

Aləmin məzlumlarını zülmdən azad etdi,
Bütün zülm ayinlərini dövrandan götürdü.
Yaxında və uzaqda olan rəiyyət bütünlüklə
Onun ədalətinə and içdilər (10, s.122).

N.Gəncəvinin yaradıcılığında qadın və ailə, cəmiyyətdə qadın ana, qadın hökmdar kimi məsələlər öz həllini tapmışdır. Ailədə ümumiyyətlə kişi etibarlı dayaq, qadın isə sədaqətli keşikçidir:

Aqillər demişkən, olmazsa qadın dünyada əgər,
Nə doğular, nə də yaşayar bəşər (5, s.159).

Azərbaycan qızı Nüşabə də İskəndər ilə görüşdüyü zaman öz qüdrətini və mərdliyini ona göstərir. İskəndər qadının mənliyinə, qorxmazlığına, Azərbaycan xalqına məxsus qonaqpərvərliyinə heyran olur. Şair Nüşabənin xarakterini İskəndərlə görüşdüyü zaman qəhrəmanının dili ilə belə təsvir edir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın
Mən də bir aslanam düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.
Qara bulud kimi gurlasam kinlə,
Qılınc tüstüsündən yanar su belə (5, s.159).

Şair Nüşabəni Azərbaycanın mərd, kamil qəhrəman qızı kimi təsvir edirsə, Şirini təmiz, saf məhəbbətə malik Bərdə gözəli kimi göstərir. Onun məhəbbəti insana yüksək hisslər aşılayır, onu mütərəqqi ideyalar uğrunda mübarizəyə çağırır. Nizami Çin Türküstanı qadınlarının qəhrəmanlıqlarına aid olan keyfiyyətləri təsvir edir ki, bu da türk xalqlarının qəhrəmanlıq eposu ənənələrinə tam uyğundur (11, s.217).

Ümumiyyətlə, kişi-qadın münasibətləri, gender məsələsi Nizaminin əsərlərinə xas olan xarakterik bir cəhətdir. Kişi-qadın münasibətləri həm ailə çərçivəsində, həm də sosial, ictimai-siyasi həyatla bağlı açıqlamalarda demək olar ki, müxtəlif planda təsvir olunur. Araşdırma apararkən «İskəndərnamə» əsərində Nizami Gəncəvinin bu münasibətləri ictimai-siyasi həyatda məharətlə verməsinin şahidi oluruq. Bərdə hakimi Nüşabənin İskəndər üçün açdığı qonaqlıq süfrəsinə nəzər saldıqda Azərbaycan mətbəxinin zənginliyinin də eyni zamanda şahidi oluruq. Burada, yəni İskəndər Nüşabə ilə görüşdüyü zaman ondan yeddi ilin xəracını tələb edəndə Nüşabə - «biz də, dərvişin olduğundan, bir şey düzəldəcəyik ki, sənin yanında başımız aşağı olmasın» - deyir.

İskəndər dinmir, Nüşabə İskəndərin qoşununa lazımi qədər hörmət edir, üç gün-üç gecə İskəndərə böyük qonanlıq verir, qazanlar asılır, məclislər qurulur, dördüncü günü Nüşabə yeddi ilin xəracını, bir qoşunun illik azuqəsini öz xəzinəsindən ayırıb qatırlara yüklətdikdən sonra İskəndərə deyir: «İskəndər, mən bu gözəl şəhərimi dağıtmaq, əhalini öldürtmək istəmirəm. Dünya malı nə olan şeydir, sabah düşüb öləndən sonra sənə bir qarış yer, beş arşın kəfən qalacaqdır, indi zəhmət çək, çıxaq bayıra». İskəndər Nüşabə ilə bayıra çıxanda yüzə qədər yüklənmiş qatırın hazır dayandığını görəndə bunun nə anlama gəldiyini soruşur və Nüşabədən «yeddi ilin xəracıdır» cavabını alır. Bu zaman İskəndər: Mən xərac sərrafıyam, bu on dörd ilinkidir» - deyir. Nüşabə: «Məgər, sənin niyyətin ölkələri dağıdıb, qanlar axıtmağın dünya malından ötrü deyilmi? Ancaq dünya malı dünyada qalacaq» - deyir. Bu sözdən sonra İskəndər: «Xəracı sənə bağışladım, geri qaytar qatırları» - deyir. Nüşabənin sözü İskəndərə böyük təsir etdi və bu şəhərdən heç bir şey aparmadı (4, s.124-125). Dahi şair Nüşabəni həm idarəetmə məsələlərini bilən ədalətli bir hakim, həm də öz dərin mühakimələri ilə başqalarına

tövsiyə verən ağıllı bir qadın kimi təsvir edir. O həm də mərd qadındır və ölkəsinin əmin-amanlığı onun üçün hər şeydən əhəmiyyətlidir.

Nüşabənin mərdliyindən bəhs edən Nizami belə yazır:

Mərdliklə belinə bağlamış kəmər,
Kəyan nəslindənəm deyə fəxr edər (2, s.l92).

Nüşabənin mərdliyi, onun siyasətçi bir qadın kimi verilməsi, özü də bir fatehin qarşısında əyilməməsi Atropaten qadınına məxsus xüsusiyyətdir.

Əvvəlcə, onu demək lazımdır ki, Nizaminin yaratdığı Nüşabə surəti şairin yaratdığı qadın surətlərinin davamıdır.

Onu da xatırlatmaq lazımdır ki, Azərbaycan türk-dövlətçiliyi tarixində qadın hökmdarlar olmuşdur və şübhəsiz ki, böyük Nizami bu obrazları yaradarkən onlardan bəhrələnmiş, onları qələminin süzgəcindən keçirmək məqsədində olmuşdur.

Başqa bir qadın hökmdarı - Azərbaycan hökmdarı Tomris bir qadın hökmdarı kimi fəaliyyət göstərmişdir. Onun müqabilində Məhinbanu türk hökmdarlar nəslinin bir nümayəndəsidir. Lakin o, hökmdar olmaqla yanaşı, həm də ismətli, qayğıkeş, pak və mehriban azərbaycanlı-türk anadır. Onun Şirinin böyüyüb başa çatmasında böyük rolu olmuşdur. O, Şirinə verdiyi öyüdlərində deyir: «Ey gözümün nuru! Sən qapısı möhürlü bir xəzinəsən, dünyanın yaxşı-pisini sınamalısan. Dünya kələklər işlətməyi bacarır, o dürrü oğurlayar, yaqutu əzər. Ürəyimə damıb ki, bu cahangir sənə evlənmək fikrindədir. Məbadə şirin sözünə aldanasan. Səni rüsvay edib sonra atar... səni vəfalı və namuslu görsə, el qaydası ilə gəlib səni məndən istər. Namuslu qız kimi dünyada adın çəkilər. Dünya şahlığı sənin olar" (5, s .115-116).

Azərbaycan qadınının nümunəsi olan Şirin üçün ismət, paklıq, təmiz ad, bakirəlik dünyanın var-dövlətindən artıqdır. Şirin bunu çox gözəl bilir. O, bu ruhda boya-başa çatmışdır. Onun tərbiyəsi bu ruhda olmuşdur. Şirin Məhinbanunun nəsihətlərinə belə cavab verir: Xosrovun şirin dilinə aldanmayacağıma söz verirəm. Belə deyir: «Onun camalının eşqindən qan ağlasam da, yalnız halal arvadı olacağam»(5, s. 116).

Şirin nəinki aldanıb təslim olur, əksinə, o ağlı, dərrakəsi, şirin dili, sözü, söhbəti ilə Xosrovu ayıldır, onu qeyrətə gətirir, ona düşdüyü ağır, böhranlı vəziyyətdən xilas olmaq yollarını öyrədir, ona əldən getmiş taxtını qaytarmaq üçün güclü mənəvi təsir göstərir. Belə deyir:

«Mən durmuşam burda, şahlığı al sən,
Öz təxtini qaytar, əlindəyəm mən...
Bu dövlət əzəldən siz nəsildədir,
Çox ayıb olsun ki, başqa əldədir» (5, s. 131-132).

O, demək olar ki, lazımi qədər ağıllı, zəkalı və tədbirli idi, sələfi Bərdə hökmdarı Nüşabənin səviyyəsinə qalxıb yüksələ bilmişdi. Eynilə də Nüşabə Makedoniyalı fatehə qalib gəlmiş, onu sarsıtmışdı.

Diqqət etsək görərik ki, eynilə Nüşabə də İskəndərə təsir edir, ona mərdliyin mahiyyətini açır, onu öz əməllərindən əl çəkməyə çağırır. Bunun müqabilində isə İskəndər etiraf etməli olur, öz dili ilə deyir:

«Eşq olsun bu fikri sağlam qadına
Mərdliyin yolunu göstərdi mana» (2, s. 218).

Buradan göründüyü kimi, Nizami Gəncəvinin hökmdar qadın obrazları tarixdə yaşamış, eyni zamanda Kiri eyni şəkildə sülhə dəvət edən Tomrisin davamçılarıdır.

Beləliklə, demək olar ki, Azərbaycan qadın hökmdar nəsli biri-digərini əvəz edirdi. Nizaminin hökmdar qadınları xalqımızın mənəvi aləmi, ağlı, zəkası, dövləti idarə təcrübəsi və

bacarığının bədii təsdiqidir. Beləliklə, demək olar ki, Nizaminin bütün əsərlərində məhəbbət-ailə, kişi-qadın münasibətlərinə bu və ya digər istiqamətdən toxunulmuşdur. Burada kişi-qadın münasibətlərinin insan həyatının çox mühüm cəhətləri sayılan sahələrinə toxunulur. Hörmətli alimimiz Z.Quluzadə bu barədə belə yazır: «...Nizami qadın qəhrəmanlarının həm yüksək insani ləyaqətə, iradəyə, həm də bu ləyaqəti qorumağa malik olmasını bir daha bariz surətdə nümayiş etdirdi» (6, s. 54).

Nizami ümumiyyətlə insanın adi bir varlıq olduğunu bütün əsərlərinin əsas mərkəz xətti hesab etmişdir. O, insanın vahid Allah tərəfindən yaradıldığını əsərlərin əvvəlində ona müraciətində etiraf edir, insana verdiyi bütün xüsusiyyətləri alqışlayır. Bunun müqabilində insanda olan iradə və mətanəti, qeyrəti, sədaqəti, mübarizliyi, qüruru, bir sözlə, bütün müsbət xüsusiyyətlərin insana xas olduğunu görür və onu qiymətləndirir. O, qeyd edir ki, «Ürək» məfhumu altında həm cismani, həm də ruhani varlığın vəhdətini nəzərdə tutur. Bu vəhdətin fəaliyyəti xalqa, millətə ancaq xeyir verməkdən ibarət olmalıdır.

Şair insanın dünyaya qəm çəkmək üçün gəlmədiyini, həyatda xoşbəxt olmaq, müvəffəqiyyət qazanmaqdan ötrü yaşamağa haqqı olduğunu tərənnüm edir. Lakin şair həyatda Xeyir ilə yanaşı Şər qüvvələrin də mövcudluğunu unutmur. Onun əks tərəfdar olması mövcuddur. Əks tərəflər daima mübarizədədirlər. Nizamidə də bütün yaradıcılığı boyu bu mübarizə davam edir. Bu mübarizə Xeyirin və Şərin mübarizəsidir. Bəzən Şər qüvvə qarşısında Xeyir gücsüz olsa da, yəni qeyri-bərabər gücə malik olsa da öz ağlı, dərrakəsi, bacarığı ilə, öz möhkəm iradəsi ilə, bəzən sözlə, bəzən də öz əməlləri ilə mənfiliklərə, təkəbbürlüyə, zülmkarlığa, zorakılığa qalib gəlir.

**Açar sözlər:** təhsil, bilik, gender, qadın, kişi, əxlaq, məhəbbət.

### İstifadə olunmuş ədəbiyyat

1. Rəfili M. Nizami, həyatı və yaradıcılığı. Bakı, 1939.
2. Nizami Gəncəvi. İskəndərnamə. B., 1982.
3. Qarayev Y. Renessans və onun öyrənilməsi problemi //Azərbaycan Renessansı və Nizami Gəncəvi. Bakı, 1984.
4. Nizaminin əsərlərinin el variantları. Bakı, 1947.
5. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı, 1982.
6. Quluzadə Z. Nizami Gəncəvi görüşlərində qadın //Azərbaycan bədii və ictimai fikrincə qadın məsələsi. Bakı, 2004.
7. Əlimirzəyev X. Nizami və tariximiz. Müqəddimə. B., 2004.
8. Mirzəzadə R. Gender və Feminizm. Bakı: Adiloğlu, 2002.
9. Rəsulzadə M.Ə. Azərbaycan şairi Nizami. Bakı: Azərnəşr, 1991.
10. Əhmədov Ə. Nizami – elmşünas. Bakı: Azərnəşr, 1992.
11. Бертельс Е. Низами. М.: Изд. АН СССР, 1956.

**Эльмира ТАХМАЗОВА**

## ПОСТАНОВКА ГЕНДЕРНОЙ ПРОБЛЕМЫ В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ

### Резюме

Проблема человека занимает важное место в творчестве Низами Гянджеви. В данной статье изучается духовный мир женщины отраженный во всех произведениях поэта. В своих поэмах Низами так мастерски описал отношения между мужчиной и женщиной, что проблемы, поставленные им, и в настоящее время имеют важное значение. Автор статьи показывает неоднозначную позицию Низами к внутрисемейным отношениям. Следует подчеркнить, что уже в Средневековье Низами Гянджеви показал свое отношение к гендерной проблеме, мечтал видеть женщину как достойного члена общества.

**Ключевые слова:** образование, знание, гендер, женщина, мужчина, нравственность, любовь.

**Elmira TAKHMAZOVA**

## STATEMENT OF GENDER PROBLEM IN WORKS BY NIZAMI GANJEVI

### Summary

Gender problem takes a considerable place in works by Nizami Ganjevi. In the present article a spiritual word of woman reflected in all works of the poet is under study. In his poems Nizami so masterly dericted reiations between woman and man the problems put by him are of great importance in our time as well.

The author of the article shows not a simple comeption of Nizami to intrafamily relations.It should be emphasized that in the Middle Ages already Nizami demonstrated his original attitude to gender problem dreaming to see a woman as deserved member of a socicty.

**Keywords:** education, knowledge, gender, woman, man, moral, love.

UOT 101(1)

**Kurt FARUK**
*doktorant, BDU*

# M.BUKÇİNİN MULTİKULTURALİZM MODELİ HAQQINDA*

Qlobal istiləşmənin və iqlim dəyişikliklərinin daha güclü hiss edildiyi bu günlərdə milyonlarla insan yerini məcburi şəkildə dəyişməkdədir. Bununla yanaşı insanlar yoxsulluq, müharibələr, ictimai ədalətsizlik və etnik-dini qarşıdurmalarla da tez-tez qarşılaşmaqdadırlar. Hansı mərhələsində olmamızdan asılı olmayaraq kapitalizm bu gün dünyəvi dəyərləri yox etməkdə, ictimai və psixoloji həyatımızı böyük ölçüdə yoxsullaşdırmaqda və tənəzzülə doğru sürükləməkdədir.Bu prizmadan baxdıqda kapitalizm həm fərdi, ictimai və həm də təbii həyatı çətinləşdirməkdədir (14, s.1). Bütün bunlarla yanaşı XXI əsrdə ekoloji və multikultural problemlər də özünü aşkar şəkildə büruzə verir. Bu məqalədə həm dövlətlərin bu məsələlərə dair siyasətləri, həm də bu modellərin hamısını özündə birləşdirən Mürray Bukçinin ictimai ekoloji modeli ətrafında fikir mübadiləsi aparılmışdır. Çünki bu model həm multikulturalizmin daha əhatəli bir şəkildə analizini təqdim etməyə, həm də yalnız köçkünlərin deyil, bütün insanların bir arada yaşaya biləcəyi yeni bir cəmiyyət yaratmağa xidmət edir.

Multikulturalizm məsələsinə münasibətdə ölkələr arasında yaxınlaşmalar müşahidə olunsa da, problemlərin həlli üsulları hər ölkədə özünəməxsus xarakter daşıyır. Buna görə də bu özünəməxsus modellər içərisində ilk olaraq İsveçrə modelini nəzərdən keçirək. İsveçrənin dil müxtəlifliyini bir mədəni siyasət hadisəsi kimi mənimsəməsinin əsas səbəbi bu ölkədə yaşayan etnik qrupların fərqli dillərdə danışmasıdır. Həmçinin ölkə ərazi baxımından kiçikdir – fransızca danışanlar, əsasən, ölkənin qərb hissəsində yaşamaqdadırlar. İtalyan və roman dillərində danışan etnik qruplar, əsasən Alp dağlarının cənubunda və cənub-şərq yaylalarında məskunlaşmışlar.

İsveçrə Konstitusiyasına görə alman, fransız və italyan dilləri ölkənin rəsmi dilləridir. Keçən il keçirilmiş referendumun nəticələrinə görə roman dili (İsveçrə romancası) də rəsmi dil olaraq qəbul edilmişdir. Ancaq ölkənin 1 faizdən də az əhalisinin dili olan roman dilinin rəsmi dil olaraq istifadəsi üçün qanunvericilik bazası hazırlanmalıdır.

Bir qayda olaraq, qanun mətnlərinin qüvvəyə minməsi üçün onların bütün rəsmi dillərə tərcümə edilməsi labüddür. Federal hökumətlə əlaqə zamanı hər bir vətəndaş öz dilindən istifadə etmək hüququna malikdir. Parlament protokolları ölkədəki bütün rəsmi dillərə tərcümə edilir. Federal hökumət nümayəndələri bütün yazılı müraciətlərə həmin müraciətin yazıldığı dildə cavab verməyə borcludurlar. Oxşar qanun Federal Məhkəmə üçün də keçərlidir. Yəni onlar da yazılmış müraciətləri eyni dildə verdikləri qərarla cavablandırmalıdırlar. Dil azadlığı Federal Məhkəmənin zəmanəti altındakı əsas azadlıqlardan biridir. Bunun nəticəsi olaraq, İsveçrədə hər kəs şəxsi və ictimai həyatında öz seçimi olan dili istifadə edə bilməkdədir.

Dil azadlığı Federal Məhkəmənin də qəbul etdiyi və yazılmamış bir qanun olaraq əyalət (torpaq suverenliyi) səviyyəsində qismən məhdudlaşdırılmışdır. Bu qismən məhdudlaşdırmanın məqsədi isə etnik dillərin ənənəvi yaşayış bölgələrində qorunub saxlanmasıdır. Dil müxtəlifliyi İsveçrə Dövlət (siyasi) Sisteminin əsas prinsiplərindəndir. Cəmiyyət və dövlət bu qanunu qorumağı plüralist demokratiyanı qorumaqla ekvivalent görməkdədir. Fransız və italyan dillərində danışan kantonlarda bu dillər həm məktəbdə, həm ictimai həyatda istifadə edilməkdədir. Hər üç dilin qarışıq istifadə edildiyi kantonlarda isə

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Ülviyyə Ağabəyova tərəfindən çapa məsləhət görülüb.

Federal səviyyədə qəbul edilmiş qaydalar tətbiq edilir. Bələdiyyələr isə, ümumiyyətlə, çoxluq prinsipinə əsaslanır. Ticino və Graubünden kantonları bir azlıq dili olan italyan və roman dillərini qorumaq və inkişaf etdirmək üçün Federal hökumətdən maddi yardım alırlar. İsveçrənin təqdim etdiyi çox mədəni cəmiyyət modelinin üzərində dayandığı üç sütun vardır: 1. Federalizm: 2. Dil müxtəlifliyi və azadlığı: 3. Etnik azlıqların azlıq hüquqlarına deyil, əksəriyyət (yəni bərabər vətəndaşlıq) hüquqlarına tabe edilməsi üçün onların təmsil imkanlarının artırılması.

İsveçrə bunu qanunvericilik, icra, məhkəmə və yayım-tədris dili sahələrində həyata keçirmək məqsədi ilə qanuni-təşkilati infrastruktur yarada bilmişdir (10, s.165). Yeni İsveçrə Konstitusiyası da din və vicdan azadlığını (Maddə 15) zəmanət altına almışdır. Bütün bu təminatların ortaq səbəbi isə "insanın inancının, varlığının özünü meydana gətirməsi və bu xüsusiyyəti ilə də dövlət hakimiyyətinin yaxud da digər ictimai güclərin davamlı təzyiqinə qarşı vətəndaşların qorunmasına ehtiyacın olmasıdır" (6, s.2). Əslində bu heç də bir möcüzə deyil, ağıllı və realist bir seçimdir. Cəmiyyətin yanaşmasından asılı olaraq bu, ayrı-seçkiliyə və yaxud da əksəriyyətin təzyiqinə çevrilə bilər.

Bununla yanaşı, İsveç azlıqlar siyasətinin əsas prinsiplərini ilk dəfə 1975-ci ildə formalaşdırmış və bu prinsipləri 1986-cı ildə bir daha təsdiq etmişdir. Buna görə azlıqlar siyasəti üç əsas prinsipə söykənmişdir:

Birinci, qanunseçmə azadlığıdır. Bu qanun mədəni və dil fərqliliklərinin hansı istiqamətdə inkişaf edəcəyinə köçkünlərin özlərinin qərar verməsini ifadə etməkdədir.

İkinci, prinsip bərabərliyidir. Buna görə immiqrantlar, digər isveçlilər kimi, bərabər həyat standartlarına sahib olmalıdırlar.

Üçüncü qanun isə İsveç cəmiyyəti ilə immiqrant qruplar arasındakı əməkdaşlığı nəzərdə tutur. Əməkdaşlıq - köçkünlərin öz gələcəklərini qurarkən siyasi proseslərdə iştirakını, İsveç cəmiyyəti ilə qarşılıqlı anlayış və həmrəyliyini ifadə edir (9, s.163).

İsveçdən fərqli olaraq Fransada anadili təhsili 1980-ci illərin əvvəllərindən immiqrant qrupların öz ölkələrinin konsulluqları tərəfindən təşkil edilmişdir. Ana dili təhsili valideynlərin tələblərindən daha çox konsulluqların istəyi və Fransa Təhsil Nazirliyinin əməkdaşlığı ilə başladılmışdır. Bu təhsili verən müəllimlər məktəblər tərəfindən təyin edilməklə yanaşı, konsulluqlar tərəfindən təmin edilməkdə və əmək haqları qarşılanmaqdadır. Təməl təhsildə minimum iştirak mövzusunda qəti qaydalar yoxdur. Burada məktəblər, nazirlik və konsulluq arasındakı xüsusi razılaşmalar təyinedici rol oynayır. Orta təhsildə 5-8 şagirdin iştirakı vacib şərtlərdəndir.

2000-ci illərdə Fransada etnik azlıqlar siyasəti bütünləşməkdən daha irəliyə gedən və daha çox uyğunlaşma (adaptasiya) olaraq xarakterizə edilən yeni bir mərhələyə qədəm qoymuşdur. Burada yeni gələn immiqrantlara "inteqrasiya müqavilələri" yolu ilə daha çox fransız dili kursları verilərək təhsilə istiqamətləndirilərkən, məskunlaşmış immiqrant və etnik azlıqların da Fransada etibarlı olan ortaq dəyər və normalara uyğunlaşmaları əsas götürülür.

Almaniyada isə yaşayan immiqrantların cəmiyyətə uyğunlaşmasının dəstəklənməsi məqsədilə Berlində təşkil edilən beşinci Adaptasiya Konfransının, əslində, alman hökumətinin immiqrantlara qarşı tətbiq etdiyi siyasətin əsasını təşkil etdiyini qeyd edə bilərik. “İmmiqrantlardan nə qədər uyğunlaşma gözlənilməli, bu mövzuda məntiqsizlik harada, hansı nöqtədə başlayır?” kimi suallar, fərqli mədəniyyətə sahib immiqrantların cəmiyyətə uyğunlaşma probleminin həll edilməsi məqsədi ilə verilir. Qaçqınların məktəbdə almanlara nisbətdə təhsil səviyyələrinin daha pis olması, məşğulluq bazarında çətinliklə üzləşmələri və üçüncü nəsildən olan bir çox uşağın belə hələ də doğru-düzgün alman dilində danışa bilməməsi kimi problemlər almanlar tərəfindən gündəmə gətirilən ən əhəmiyyətli problemlərdir. Dil öyrənmə, təhsil və idman kimi sahələrdə köçkünlərin dezavantajlarının qarşısının alınması,

ictimai işlərdə daha çox immiqrantların işləməsi, onların diplomlarının tanınması və onlara müntəzəm olaraq dil kurslarının təqdim edilməsi uyğunlaşma qanunlarından çıxan qərarlardır. Ancaq uyğunlaşma qanunları bəzən tənqid də edilir. Çoxlarını bu qanunların immiqrantlara hüquqlar vermək əvəzinə, onları almanlaşdırma siyasəti olduğunu düşündürür. Yaşıllar Partiyasının Uyğunlaşma sözçüsü - Federal Parlamentin Millət vəkili Mehmet Qılınc Adaptasiya Konfransını bu sözlərlə tənqid etmişdir: "Qaçqınların hüquqlarına dair çox əhəmiyyətli mövzular şüurlu olaraq müzakirə edilməmişdir. Bunların içində vətəndaşlığa qəbulun asanlaşdırılması, Avropa Birliyi vətəndaşı olmayan insanların yerli seçkilərdə iştirakının reallaşdırılması və qaçqın uşaqların zərərinə olan çox köhnəlmiş və bayağı təhsil sisteminin modernləşdirilməsi kimi mövzular təəssüf ki, müzakirə edilmir (11,12; 11).

Kanadada multikulturalizm daha çox aborigenlərlə iki Avropa milləti - Fransa və Böyük Britaniya arasındakı mübarizələrin nəticəsində doğulmuşdur. Dünyanın hər yerindən daha yaxşı bir həyat tapmaq məqsədilə köçkünlərin bir-birinin ardınca gələn köç dalğaları ilə Kanada sürətlə böyüməyə davam etməkdədir. Son 40 ildə Kanadanın etnik və mədəni əhalisi artaraq daha çox müxtəliflik qazanmışdır. 1971-ci ildə Kanada dünyada multikulturalizm siyasətini həyata keçirməyi qəbul edən ilk ölkə olmuşdur. Kanada zəngin etnik və irqi müxtəliflikləri qəbul edir və onları dəyərləndirir. Kanadada 200-dən çox etnik qrup birlikdə yaşayır. 40-dan çox mədəniyyət Kanadanın etnik mətbuatında təmsil olunur. Bu gün Kanadada əhali artımının 50%-ni xaricdən gələnlər təşkil edir. Kanada Multikulturalizm Aktı (in English and French only) Kanada cəmiyyətindəki hər mənşədən insana ayrıca fərdlər və fərqli mənşəyə aid cəmiyyətlər arasındakı əlaqələrə tam və bərabər yanaşma təqdim edir. Multikulturalizm (in English and French only) yolunda irəliləyən Kanada bütün kanadalıların potensialını qəbul etməklə, onların cəmiyyətə inteqrasiyasını və sosial, mədəni, iqtisadi və siyasi mövzularda aktiv vəzifə almalarını təşviq edir.

Kanada "immiqrant ölkəsi" anlayışına bütün mənalarda uyğun gələn bir ölkədir. 1996-cı il siyahıya alınmasına görə ölkənin əhalisi 28 528125 nəfər olaraq təsbit edilmişdir. Əhalinin 8 806 275 nəfəri özünü mənşə etibarilə "kanadalı" olaraq təqdim edir; geriyə qalan 19 721850 nəfər isə mənşəyini "kanadalı" kimi qeyd etmir. Rəsmi statistikalar çox fərqli ictimai mənşəyə mənsub kütlələrin xüsusiyyətlərini ən kiçik detalına qədər incələyirlər. Dövlət müəyyən dövrlərdə ölkədəki insanların ictimai mənşələrinə bağlı statistik məlumatlar dərc etdirir. Bununla əlaqəli statistikalar araşdırıldığında, az qala dünyanın bütün ölkələrindən gələn insanların Kanadada Kanada vətəndaşı olaraq yaşadıqları aydın olur. Əlbəttə ki, müxtəlif ictimai mənşələrə malik insanların sayı bir-birindən çox fərqlidir. Məsələn, Kanada vətəndaşlarından 6 832 095 nəfəri ingilis, 5 597 845 nəfəri fransız, 1 207475 nəfəri italyan, 921585 nəfəri çinli, 799 010 nəfəri isə aboregen olmasına baxmayaraq cəmi 1750 nəfər keniyalı, 1330 nəfər uqandalı, 255 nəfər Sakit Okean Adaları mənşəli və 18130 nəfəri türklərdir. Sıralamanın bu iki üç nöqtəsi arasında da fərqli mənşəyə mənsub təxminən 150 etnik birlik mövcuddur. Kanadanın "immiqrant ölkəsi" xüsusiyyətini daha ətraflı dəyərləndirmək üçün köç, sığınacaq axtaran şəxslər və etnik mənşə statistikalarına baxmaq kifayətdir. Ölkə və xüsusilə də böyük şəhərlərin hamısı, belə demək olarsa, “dovğa qazanı” kimi qarışıqdır. Hər yerdə hər millətdən olan insanı görmək, dünya üzərində danışılan hər dili eşitmək və bu dildə yazılmış bir yazını (qəzet, tabel, elan və s.) oxumaq mümkündür. İngilis və fransızcanın nisbi üstünlüyünə, müasir həyat tərzinin geniş yayılmasına baxmayaraq dində, dildə, paltarda, qanunvericilik formasında, hər cür fərqliliyi hər an hər yerdə görmək mümkündür (5, s.27).

Ümumilikdə belə bir nəticəyə gəlmək olar ki, kanadalıları birləşdirən əsas dəyərlər bunlardır: 1. Bərabərlik və düzgünlüyə inam. 2. Müşavirə və dialoq inancı. 3. Uzlaşma və

tolerantlıq. 4. müxtəlifliyin dəstəklənməsi. 5. Mərhəmət və alicənablıq. 6. Ətraf mühitə bağlılıq. 7. Azadlıq, sülh və zorakılığa əsaslanmayan dəyişikliklərdir (7, s.66-67).

ABŞ-da isə multikulturalizmin deyil, daha çox xalqların Amerika cəmiyyətində birləşdirilərək fərqli irqlərdən və etnik birliklərdən ibarət siyasi millətin formalaşmasına şərait yaradılmasının şahidi oluruq. Burada əsas anlayış ağ Anglo-Sakson mədəniyyətidir. ABŞ modelində mədəniyyətin qarşılıqlı prinsiplərinin 5 əsası qabardılır. Bunlar müstəsnalıq (qeyri-adilik), təhlükə hissi, qarşıdurma hissi, stereotip düşüncələr (şablon fikirlər) və fərqli cəmiyyətlərə baxış və onlara yanaşma tərzləridir(4, s. 273).

Azərbaycan modeli isə özündə fərqlilik göstərən bir model təşkil edir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra mədəniyyətlərin toqquşması düşüncəsinə qarşı özünün tarixdən gələn tolerantlıq modelini dünyaya tanıtmaq, dialoqun məkanı olmaq arzusunu, XXI əsrin dialoq fəlsəfəsini ortaq səylərlə birlikdə tanıtmaq məqsədini əsas götürmüşdür. Bunu etməyi mümkün edən faktorlar nələrdir? Azərbaycan modeli multikulturalizm üçün necə model ola bilər? Azərbaycanın mədəniyyətlərarası modelinin xüsusiyyətlərindən bəhs edərkən üç əsas məqam diqqəti çəkir: bunların birincisi, Azərbaycanın fərqli etnik quruluşlu xalqlarla və fərqli irqlərlə yaşamaq sahəsində tarixdən gələn konkret bir təcrübəyə sahib olmasıdır. Azərbaycanda heç bir zaman etnik-dini sahədə problem olmamışdır. Bunların ikincisi isə müstəqillik illərində tolerantlıq və dialoq adət-ənənələrinin və dəyərlərinin qorunub saxlanmasıdır. Və son olaraq da Azərbaycanda mədəniyyətlərarası əlaqələrdə hər bir mədəni xalqın hüquqlarının və özünü ifadə etmək fəlsəfəsinin nəzərə alınmasıdır (4, s.279).

Fərqlilik, birlik və birliyin həqiqi fəlsəfəsi, dialoq və səmimilik azərbaycançılıq fəlsəfəsidir. Belə dinamik modeldə prof. R.Aslanovanın sözü ilə desək, xalqların və millətlərin müxtəlifliyində hər bir element "donmuş eskponat " vəziyyətində olmur, canlı "çələng" kimi inkişaf edir və sintez təşkil edir.

Bunlardan başqa bir də Hollandiya (Niderland) modelinin araşdırılması mövzumuzun gedişatı, modellərin müqayisəsi və multikulturalizmə müxtəliflik gətirməsi baxımından əhəmiyyətlidir. Bunu əhəmiyyətli edən Hollandiyada yaşayan etnik azlıqlardan frislandların vəziyyətidir. Mövzumuz baxımından onlara verilən hüquqlar gözəl bir nümunədir. Hollandiya mənşə ayrı-seçkiliyi olaraq azlıqları etnik və milli azlıqlar olmaq üzrə iki qrupa ayırır. Köçəri azlıqlar, Qərb və Qərb olmayan olaraq ifadə edildiyi halda, milli azlıqlar frislandlar hesab edilir.

Frislandiya "frislandların ölkəsi" deməkdir və Hollandiyanın 12 əyalətindən biridir. 650000 nəfər əhalinin yaşadığı bu əyalətdə fərqli mədəniyyətdən olanların kimliyinin qorunmasına imkan yaradılmışdır. Əyalət, Hollandiyanın digər əyalətləri kimi, özünəxas bir bayraq, gerb və milli marşa malikdir.

Frisland dilinin əsas mövqeyi nədən ibarətdir? Hollandiyada frisland dili ikinci rəsmi dil olaraq qəbul edilmişdir. Təhsildə yalnız zəruri olaraq öyrədilən bir dil deyildir, həmçinin bəzi dərslərin frisland dilində verilməsi də mümkündür. Frisland dili əyalət daxilində ictimai təşkilatların rəsmi yazışmalarında, xalq təşkilatlarında istifadə edilir. Məhkəmələrdə istifadə edilməsi ilə yanaşı, küçə, şəhər və məkan adları da bu dildə yazılır. Məhkəmənin divarında "öz dilinizi müdafiə edə bilərsiniz" deyə xəbər verilir. Frisland dili ilkin vaxtlarda məktəbdən əvvəl və sonra seçilə bilərdisə, bir müddət sonra bu seçim zəruri hala gətirilmişdir. İndi isə rəsmi dil kimi qəbul edilir.

Yalnız frisland dili deyil, bəzi kiçik regional və azlıq dillər də qoruma altına alınmışdır. Bu dillər: Aşağı Saksoniya, Eşkenazi (Eşkanazi Yəhudiləri), Roma və Sinti (qaraçı) dilləri və Limburq dilidir (regional) (15).

Mürrey Bukçin modelinə nəzər salsaq görərik ki, o, ictimai ekologiyanın qurucusu olmuş və insanların təbiət üzərindəki hökmranlıq düşüncəsinin insanın insan üzərində, hətta kişinin

qadın, yaşlıların gənclər, bir etnik qrupun digəri, dövlətin cəmiyyət, bürokratiyanın fərd, bir sinfin digər sinif və müstəmləkəçi güclərin müstəmləkə xalqlar üzərindəki hökmranlığından qaynaqlandığına inanır. M.Bukçin qeyd edirdi ki, bu hökmranlıq aradan qaldırılmadıqca insanların azadlığından və bərabərliyindən söz edilə bilməz. Onun düşüncəsinə görə sosial-ekoloji azadlıq anlayışı yalnız fabrikdə deyil, ailə içində də, yalnız iqtisadiyyatda deyil, psixologiyada da, yalnız maddi həyat şəraitində deyil, ruhi şərtlərdə da davam etdirilməlidir. Cəmiyyətdəki ən molekulyar əlaqələr xüsusilə qadın və kişi, böyüklər və uşaqlar, ağlar və digər etnik qruplar, biseksual və homoseksuallar - bu siyahı uzadıla bilər - arasındakı əlaqələr dəyişməyincə, cəmiyyət ən sosialist mənada sinifsiz və istismarsız hala gəlsə də, hökmranlıq düşüncəsi varlığını davam etdirəcək. İyerarxiya var olduğu və təhkimçilik insanları bir elitalar sistem ətrafında təşkilatlandırdığı müddətcə, təbiətə hökmranlıq etmək düşüncəsi də davam edəcək və bu düşüncə planetimizi qaçılmaz bir sona aparacaq (13, s.16).

Bukçinin yalnız hökmranlığın mövcud olmadığı bir dünya üçün deyil, eyni zamanda çox mədəni bir həyat üçün də təklif etdiyi model şəhərlərin eko-birliklərə ayrılmasıdır:"...İnsanlığın həyata baxışını dəyişməli və təbiəti qəbilə quruluşundan bu yana istismar edən xüsusi mülkiyyət maneələrinin aradan qaldırılaraq bir insan kollektivi kimi dünyanın problemləri ilə birlikdə maraqlanmalıyıq. Şəhərlərimiz birliklərə ya da eko-birliklərə ayrılmalı, ətrafımızdakı eko-sistemlərin həcminə uyğun incəlik və ustalıqla yenidən dizayn edilməlidir. Çünki bunu həyata keçirdiyimiz yerlər içində yaşadığımız şəhərlərdir (13, s.12).

Ayrıca bu modeldə hər mədəniyyətin müstəqil şəkildə mövcud olmaq və öz dəyərlərini yaşatmaq hüququ vardır. Bunun siyasi toplum tərəfindən qəbul edilməsi ancaq öz-özünü idarə edən bir fərdin səyləri nəticəsində mümkündür. Bu da öz növbəsində vətəndaşların bir-birinə qarşı hiss etdikləri məsuliyyətə, vətəndaşlıq əlaqələrinin yaratdığı yüksək düşüncə və mədəni qaydalara söykənir (3, s.11).

M.Bukçinin buradakı məqsədi şəhəri və vətəndaşı ictimai ekoloji dilində yenidən təsvir etməkdir.Bukçin bu modelin ən gözəl konfederal rəhbərliklərdə həyata keçirilə biləcəyini qeyd edir. Bunu da fiziki və korporativ olmaqla iki yerə ayırır.

M.Bukçin, fiziki olaraq modelin həyata keçirilməsinin çox vaxt tələb etdiyinə görə bunu ən yaxşı şəkildə təşkilati olaraq yəni yerli bələdiyyələr vasitəsilə reallaşdırmağı düşünür. Çünki yerli özünüidarəetmə anlayışı "potensial" olaraq azad təşkilatlardır. Təbii ki,indi onların ciddi şəkildə dövlət qurumlarının nəzarəti altında olduqlarını da yaddan çıxarmamalıyıq. Ancaq yenə də bu vəziyyət bələdiyyələrin birbaşa demokratiyanın yaranması və yayılması üçün yeni bir siyasi sahədə inkişaf potensialı təşkil etdiyi həqiqətini dəyişdirə bilməz. Əgər bələdiyyələrin demokratik və siyasi potensialını reallaşdırmaq istəyiriksə, var olan böyük şəhərləri kiçik yerli özünüidarəetmə bölgələrinə ayırmalıyıq.

Beləcə nəhəng metropoliyalarda və digər şəhərlərdə yaradılacaq təşkilati yerli rəhbərliklər sayəsində idarəetmənin mərkəzi şəhər mərkəzlərindən məhəllələrə və kiçik bələdiyyələrə ötürülər. Buralarda insanlar özlərini maraqlandıran hər mövzuda - yerli, regional və ya beynəlxalq mövzularda öz siyasətlərini formalaşdıra bilərlər. Yəni bunun həyata keçirilməsi ilə yeni bir siyasi sahə üçün də zəmin hazırlanmış olar. Məhəllələrdə yaradılacaq xalq məclislərindən ibarət olan bələdiyyələr bu mənada potensial olaraq birbaşa demokratiyanın siyasi sahəsini formalaşdıran təşkilati strukturlardır (14, s.6).

Bu şəkildə demokratikləşmiş bələdiyyələrin birləşərək daha genişəhatəli konfederasiyalar meydana gətirmələri lazımdır. Komunalizmə görə, vətəndaş məclislərinin bir araya gəlməsindən meydana gələcək, konfederasiya olmadan yaradılacaq bir azad bələdiyyəçilik ciddi olaraq uğur qazana bilməz. Daha da əhəmiyyətlisi budur ki, konfederasiya olmadan yalnız bir bələdiyyənin ya da şəhərin yerli rəhbərliyi çox asan bir şəkildə darfikirli, daxilə bağlı və hətta milliyyətçi düşüncələrə zəmin hazırlaya bilər. Bu nöqteyi-nəzərdən komunalizm

fikrinə görə bələdiyyələrin birləşərək konfederasiya meydana gətirmələri həm bələdiyyənin sərhədlərini aşan problemlərlə məşğul olarkən işləri asanlaşdıracaq, həm sosial-iqtisadi həyatın daha müxtəlif imkanlara sahib olmasının yolunu aça biləcək, həm də darfikirli, daxilə bağlanan birliklərin meydana gəlməsinin qarşısını ala biləcək bir zəmin yaratmış olacaqlar. Bunun yanında konfederal olaraq birləşmiş məclislər və bələdiyyələr cəmiyyətin xaricində və onun yaxınlığında meydana gəlmiş olan dövlətə və ya digər iqtidar mərkəzlərinə qarşı da ayrı bir güc yarada biləcəklər.

Bu məzmunda qiymətləndirildiyində azad bələdiyyəçilik layihəsi o şəhərdə yaşayan bütün vətəndaşlar tərəfindən cinsiyyətindən, dinindən və milliyyətindən asılı olmayaraq bərabər qəbul edilə bilər. Beləliklə də o bölgədə ya da yaşayış sahəsində yaşayan hər kəs yalnız orada oturduqları üçün vətəndaş məclislərində iştirak etmək hüququna malik olacaqlar.

İctimai ekologiyanın bəlkə də ən əhəmiyyətli tərəfi və buradan aldığı gücün mənbəyi bütöv bir cəmiyyət anlayışını ehtiva etməsidir. Komunalizm iqtidarın yerli rəhbərliklər vasitəsilə vətəndaşlara yayılmasını, qarşılıqlı yardımlaşmanı, mürəkkəbliklərin minimuma endirilməsini, birbaşa hərəkəti, birbaşa demokratiyanı, bərabərlik prinsipini və həyat vasitələrinin hər kəsin əlində və xidmətində olduğu, ətrafı və mülkiyyəti iyerarxik olmayan bir tərzdə kommunal paylaşılan bir cəmiyyətin bütövlüyünü təlqin edir (14, s.8 ).

İctimai ekologiyaya görə bölgə anlayışı şəhər həyatının bütün təşkilatları üçün tətbiq olunmalıdır. Şəhərdəki nəhəng muzeylər və teatr mərkəzləri kimi mədəni strukturların yerini hər məhəllədə qurulacaq kiçik muzeylər və teatrlar almalıdır. Universitet təhsil və araşdırma mərkəzi olaraq xidmətlərinə davam etməlidir. Böyük xəstəxanalar yerinə kiçik klinikalar və səhiyyə ocaqları inkişaf etdirilərək səhiyyə ictimailəşdirilməlidir. Bu təşkilatların idarələri xüsusi mülkiyyətdən azad olmalı, olduqları yerin bələdiyyəsinə verilməlidir. Beləliklə, ictimai siyasi həyatın dirçəldilməsi üçün lazım olan təşkilati tədbirlər sayəsində psixoloji və sosial həyatın qarşılıqlı işləməsinin və inkişaf etdirilməsinin yolu açılacaqdır.

Sosial ekologiya, bir tərəfdən bir məskunlaşmanın coğrafi olaraq insani ölçüdə olmasını, siyasi qərarların bu məskunlaşmanın xalq məclisində birbaşa demokratiya yolu ilə verilməsinin vacibliyini müdafiə edərkən, digər tərəfdən də əgər bir məskunlaşma özünü qonşusu olan məskunlaşmaların, bölgələrin, böyük coğrafi sahələrin və vaxt ötdükcə bütün insanlığın ayrılmaz bir parçası olaraq görmədən, dünyasını yalnız bu dar məkanda sıxışdırdığı zaman təcrid olunmuş, özünə qapalı və dar düşüncəli bir cəmiyyət meydana gətirmə təhlükəsini də həssaslıqla vurğulamaqdadır (12, 22). Konfederasiyanın sistemin inkişafının ən yüksək nöqtəsinə çatıb ictimai bir təşkilatlanma halına gələ bilməsi üçün iqtisadiyyatın konfederativ hala gətirilməsi, yəni yerlərdəki fermaların, fabriklərin və digər lazımlı obyektlərin yerli rəhbərliklərin əlinə verilməsi lazımdır.

Sosial ekologiya təliminə görə iqtisadiyyat lokallaşdırılmalı, "mülkiyyət" (fabriklər, sexlər, torpaqlar, fermalar və s.) yerli rəhbərliklərin əlində olmalı və iqtisadiyyatın xalq məclisindəki bütün vətəndaşlar tərəfindən idarə edilməsi təmin edilməlidir. Vətəndaşlar birliyin iqtisadi qaynaqlarının kollektiv "sahibləri" olacaqlar. Torpaq və investisiyalar artan bir şəkildə birliyin, xalq məclislərindəki vətəndaşların və bu məclislərin konfederasiyadakı nümayəndələrinin nəzarəti altına veriləcək. İşlərin necə planlaşdırılmasının, hansı texnologiyaların istifadə edilməsinin və ya hansı malların paylaşdırılmasının vacibliyi isə ancaq praktikada öz həllini tapacaqdır. Amma rasional və ekoloji standartlar tərəfindən yönləndirilən, ehtiyacları qarşılayacaq malların keyfiyyətli və kapitalizmə alternativ meydana gətirə biləcək səviyyədə olması da böyük əhəmiyyət kəsb edir.

**Açar sözlər:** multikulturalizm, mədəniyyət, dil, vətəndaş, sivilizasiya, Mürrey Bukçin.

**İstifadə olunmuş ədəbiyyat**

1. Murray Bookchin. Toplumu Yeniden Kurmak. İstanbul: Sümer Yayıncılık, 2013.
2. Murray Bookchin. Toplumsal Ekoloji ve Komünalizm. İstanbul: Sümer Yayıncılık, 2013.
3. Murray Bookchin. Kentsiz Kentleşme: Vatandaşlığın Yükselişi ve Çöküşü. İstanbul: Sümer Yayıncılık, 2014.
4. Aslanova.R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2016.
5. Kadir Köstekçi. Çok Kültürlülük Üzerine Mantıksal İrdelemeler.
6. Hüseyin Pekin. İsviçre Hukukunda Din ve Vicdan Özgürlüğü üzerine makale, 2002.
7. Ertan Özensel. Çok kültürlülük Uygulaması Olarak Kanada Çok kültürlülüğü üzerine makale. Akademik İncelemeler Dergisi (Journal of Academic Inquiries), 2012.
8. Feyzullah Ünal.Toplumsal Ekoloji üzerine makale. Dumlupınar Üniversitesi Sosyal Bilimler Dergisi, 26 sayı Nisan, 2010.
9. Kadir Canatan. Avrupa Ülkelerinin Azınlık Politikalarında Türkçe Anadil Eğitiminin Konumu “İsveç, Fransa ve Hollanda Örnekleri” üzerine makale, 2007.
10. Dolu Ergil. Çok kültürlülük ve Çok dillilik üzerine makale. Ankara Üniversitesi SBF Dergisi, 1995, Cilt: 50 Sayı: 3.
11. Will Kymlicka. Çev. Yard. Doç. Dr. Fatih Öztürk. Çok kültürlülük Başarı, Başarısızlık ve Gelecek üzerine makale, 2011. Yılmaz Ceylan. Çok Kültürlülük Avrupa Modelleri (Almanya örneği) üzerine makale.
12. Sezgin Ata. Toplumsal Ekoloji’nin Politikası üzerine makale.
13. Sinan Tavukçu. Murray Bookchin’in “Toplumsal Ekoloji” Felsefesi üzerine makale.
14. Şadi İdem. Toplumsal Ekoloji ve Komünalizm üzerine makale. Toplumsal Ekoloji Dergisi, Cumartesi, 04 Mayıs 2013.
15. https://www.youtube.com/watch?v=fOmIE-kwRtI.

**Курт ФАРУК**

## О МОДЕЛИ МУЛЬТИКУЛЬТУРАЛИЗМА М.БУКЧИНА

**Резюме**

Исследуя различные модели понятия «мультикультурализм» как одного из важнейших вопросов нашего века, мы еще раз убедились в том, что новая модель, объединившая в себе все позитивные особенности предшествующих моделей и вселяющая надежду всему человечеству, способна справиться с решением поставленной задачи. Данная модель связана с именем ее создателя Мюррея Букчина, основателя социальной экологии (ум. в 2006 г.). Эта модель, направлена не только на причину, но и на результат, и потому наиболее эффективна для всестороннего решения изучаемой проблемы. Итак, необходимо более глубокое изучение данной модели мультикультурализма и ее скорейшая реализация.

**Ключевые слова:** мультикультурализм, культура, язык, гражданин, цивилизация, Мюррей Букчин.

**Kurt FARUK**

## ON THE MODELS OF MULTICULTURALISM OF BOOKCHIN

**Summary**

We have studied the models of the multicultural conception being one of the most important problems of our century. We believe that this model which features all characteristics of all the other models that all people will live within it together and it instills hope all people around the worl that it will bring solution for this model. This is a model of Murray Bookchin who founded the theory of social ecology and passed away in 2006. So it is much more needed to be studied and brought to life urgently.

As it is both cause and result beingassan oriental model it is very useful. And this is a model for solution of this problem comprehensively.

So it iz much more needed to be studied and brought to life urgently.

**Keywords:** multiculturalism, culture, language, citizen, civilization, Murray Bookchin.

UOT 101.1

**Günay SÜLEYMANOVA**
*Doktorant,*
*AMEA Fəlsəfə İnstitutu*

# AZƏRBAYCANÇILIQ AZƏRBAYCANLILARIN MİLLİ İDEOLOGİYASI KİMİ*

«Azərbaycanı sevmək - azərbaycançılıq hissiyatını özündə cəm etmək deməkdir».
**HEYDƏR ƏLİYEV**

İdeologiya cəmiyyətdə milli birliyin ümumxalq münasibətlərini qorumaq, millətin və onun dövlətinin mövqeyini izah və təsdiq etmək üçün yaradılır. O, xalqın milli-mənəvi varlığının ilkin əlamətlərindəndir, xalqın kimliyini əks etdirən təfəkkür, adət və inanclar sistemidir. Dil, ərazi, din və ideoloji birlik xalqın, millətin və dövlətin tarixi varlığının əsas atributlarıdır.

Milli ideologiya, adətən, dövlət titulu qazanmış bir ideologiyadır. Əslində bütün dövlətin ərazisinə şamil olunduğundan və bütün əhalini əhatə etdiyindən burada sosial və ya etnik fərqləri üzə çıxaracaq dəyər yox, tam tərsinə, onun cəmiyyəti bütün fərqləri və müxtəlifliyi ilə bir hədəf istiqamətində birləşdirici xüsusiyyəti önə çəkilir. Milli anlayışı isə daha çox dövləti və cəmiyyəti vahid sərhədlər çərçivəsində birləşdirəcək, üstəlik kənar təcavüz və təzyiqlərdən müdafiə edəcək anlamı verir.

Sosiomədəni kontekstdə vətən və vicdan anlamı özünütəsdiqlə bir əxlaqi meyarlar sistemində təsəvvür edilən anlayışlardır. Xalqın mənlik şüurunda müstəqil Azərbaycanın taleyi qarşısında məsuliyyət hissini itirmiş bəzi liderlərin eqoist, ambisiyalı düşüncələri həmişə vətənçiliyə neqativ münasibət kimi qəbul edilmişdir. Xalqın gərgin sosial-siyasi anlar keçirməsi vətən amalı faktorunun daha da qabardılmasına, onun əxlaqi mahiyyətinin isə böyük tərbiyəvi faktora çevrilməsinə səbəb olmuşdur.

Vətənpərvərlik konsepsiyası funksional baxımdan bir-birilə qarşılıqlı əlaqədə olan üç komponentdən ibarətdir: vətənpərvər münasibət, vətənpərvərlik şüuru və vətənpərvərlik fəaliyyəti. Vətənpərvər münasibət - insanın vətənin faydası üçün lazım olan fəaliyyəti həyata keçirmək niyyəti, həmçinin ölkəsinin maddi-mənəvi sərvətlərinə daxili pozitiv münasibətdir. Vətənpərvərlik şüuru - vətənpərvərlik obyekti ilə vətənpərvərin qarşılıqlı münasibətinin bütün növlərinin mənəvi tənzimləyicisi, onun şüurunun daxili determinantıdır. Vətənpərvərlik fəaliyyəti isə vətənpərvərliyin real hiss olunan və görünən tərəfləridir (7, s.23).

Hegel vətənpərvərlik barədə belə deyirdi: «Vətənpərvərlik sözü altında çox zaman yalnız fövqəladə qurban verməyi və davranışları başa düşürlər. Amma əslində o elə bir övqatdır ki, adi vəziyyətdə və adi həyat şəraitində dövləti substansional əsas və məqsəd kimi başa düşür… Bu övqat, ümumiyyətlə, etimaddır, mənim substansional və xüsusi marağımın başqasında, yəni dövlətdə yerləşdiyini başa düşməkdir» (10, s.292).

Qloballaşmaqda olan dünyada milli özünəməxsusluğun qorunmasının vacib şərtlərindən biri də gənc nəslin azərbaycançılıq ruhunda tərbiyə edilməsidir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev bizə azərbaycançılıq məfkurəsini bəxş etmişdir. Azərbaycançılıq bir tərəfdən Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf

* Məqalə fəlsəfə ü.e.d., professor Əli Abasov tərəfindən çapa məsləhət görülüb.

etdirilməsinə şərait yaradır, digər tərəfdən də gənc nəsli qlobal dünyanın təbliğ etdiyi müxtəlif ideologiyaların təsiri altına düşməkdən qoruyur. Azərbaycançılıq məfkurəsi milli rəngarəngliyi və müxtəlifliyi, milliyyətindən asılı olmayaraq bütün insanların qanun qarşısında bərabərliyini, gendaşlığı, dindaşlığı və vətəndaşlığı təbliğ etdiyindən ölkə ərazisində yaşayan müxtəlif xalqların nümayəndələrinin mənafeyinə uyğun gəlir, çünki azərbaycançılıq ölkədə yaşayan bütün etnik qrupların və millətlərin ümumdövlət mənafeləri və dəyərləri əsasında birləşdirilməsi, onların hüquq bərabərliyinin təmin edilməsidir (12, s.183).

"Azərbaycançılıq" anlayışı milli siyasi diskursda nisbətən yaxın vaxtlardan işlədilir. O, ölkədə yaşayan bütün etnik qrupları və millətləri ümumdövlət mənafeləri və dəyərləri əsasında real surətdə birləşdirmək ideyasının verballaşdırılması kimi, 1992-1993-cü illərdə xüsusilə geniş yayılan şovinist və separatçılıq əhval-ruhiyyəsinə qarşı mübarizə ideyası kimi meydana gəlmişdir. Yeni anlayış ictimaiyyət tərəfindən kifayət qədər tez dəstəklənmiş, təzə, məzmunlu elementlərlə dolğunlaşmışdır. Düşünürük ki, indi "azərbaycançılıq" artıq milli ideologiyanın ilk nümunəsi hesab edilə bilər.

Heydər Əliyevin milli ideologiyamızın konsepsiyasına dair nəzəri fikirlərində ilk öncə dövlətçilik anlayışına, daha sonra milli-mənəvi dəyərlərə və milli ideologiyamızın başqa bir komponenti ümumbəşəri dəyərlərə, nəhayət sonda, milli ideologiyamızın özəyini əsasını təşkil edən azərbaycançılıq anlayışına xüsusi yer vermişdir. Heydər Əliyevin təbirincə desək, "dövlətçilik, milli mənəvi dəyərlər, ümumbəşəri dəyərlər-bunlar hamısı azərbaycançılıq anlayışının tərkib hissələridir" (4, s.18).

Dövlətçilik ideologiyası da, milli ideologiya da eyni bir təməl üzərində - milli fəlsəfi fikir zəminində formalaşır. Azərbaycan xalqının inkişafının ümumi məqsədi və strategiyası təcrübəyə, sosial-mədəni dəyərlərə və ənənələrə əsaslanır. Azərbaycan milli ideyasının aparıcı gücü Azərbaycanın müstəqil dövlət kimi dərk edilməsi olmalıdır. XXI əsrdə Azərbaycan milli ideyasının əsas tərkib hissələrinə dövlətin ərazi bütövlüyünün və müstəqilliyinin qorunub saxlanılması, vətəndaşların firavanlığı, mənəvi inkişaf, demokratiya, təhlükəsizlik və ondan irəli gələn bir çox başqa məsələlər daxildir.

Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün cəlbedicidir.

Azərbaycançılığı şərtləndirən ən mühüm amillərdən biri də milli ənənədir. Milli düşüncə sisteminin genetik qaynağı olan azərbaycançılığın inkişaf stimulyatoru da məhz ənənədir. Ənənə uzun əsrlərin sınağından keçərək tarixi təcrübəni yığır, xalqın müdrikliyi, onun mənəvi mədəniyyəti və s. amillər bu anlayışda ifadə olunur. O, keçmişlə gələcəyi əlaqələndirir, etnokulturoloji mövcudluğu qoruyur. Bu ənənələr xalqın keçdiyi zəngin tarixi yolun mütərəqqi yaşam təcrübəsini özündə qoruyub saxlayır. Deməli, azərbaycançılıq ideologiyası həm də xalqın tarixən tapındığı mütərəqqi ənənələri gələcək nəsillərə ötürən mənəvi körpüdür.

Azərbaycançılığın gücü, eyni zamanda, fərdi maraq və meyilləri dövlət siyasəti ilə birləşdirmək, xalqın milli-mədəni eyniyyətini qoruyub saxlamaq imkanları ilə ölçülür.

Dövlətçilik hisslərinə malik olmayan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu mənada azərbaycançılıq ideologiyası milləti, xalqı, dövləti qəlbən sevməyi, onun naminə yorulmadan çalışmağı bütün mahiyyəti ilə təşviq edir. Xalqın milli varlığını ifadə edən rəmzlərə, adət-ənənələrə, ali mənəvi dəyərlərə yüksək sədaqət, ana dilinə məhəbbət, bəşəri ideallara hörmət azərbaycançılığın milli mahiyyətini açmaqla yanaşı, onun humanist səciyyə daşıdığını göstərir. Azərbaycançılığın əsasında yer alan ünsiyyət birliyi isə vahid ana dilimiz vasitəsilə həyata keçirilir. Azərbaycan dili milliliyin ifadə vasitəsi olduğu üçün azərbaycançılıq ideologiyasının komponenti kimi çıxış edir.

Azərbaycançılıq ideologiyasının yaşaması vətəndaşın cəmiyyət və dövlət qarşısında məsuliyyətindən asılıdır. Vətəndaşlıq məsuliyyətini bəzən hüquqi məsuliyyətin bir növü kimi də nəzərdən keçirirlər. Məsuliyyət hüquqi xarakter daşıdığı halda fərd qarşısında tələblər vəzifə olaraq qoyulur. Azərbaycan Respublikasının Konstitusiyasından irəli gələn bu tələblərə hər bir vətəndaş əməl etməyə borcludur.

Vətəndaşlıq məsuliyyəti azərbaycançılıq ideologiyası kontekstində geniş anlayışdır. O, özündə hüquqi və mənəvi məsuliyyəti cəmləşdirir. Bu məsuliyyət növü daha çox konstitusiya məsuliyyətinə yaxın anlayışdır. Konstitusiya məsuliyyəti hüquq, siyasət və əxlaq münasibətlərinin sərhəddində subyekt üçün yaranan məsuliyyət formasıdır. Konstitusiya hüququnun subyektləri spesifik xarakter daşıyırlar. Beləliklə, fərd dövlətlə siyasi bağlılığına görə, ilk növbədə, vətəndaş olaraq dövlət qarşısında konstitusiya məsuliyyəti daşıyır. Bu məsuliyyətin sosioloji aspektləri vətəndaşlıq məsuliyyəti yaradır.

Hər bir ideologiyanın əsasında gerçəkliyə real münasibət amili dayanır. Bu münasibət tarixin təcrübəsinə əsaslanmalı, tarixi xarakter daşımalıdır. Onun dəyişməsi tarixin cəmiyyət qarşısında irəli sürdüyü tələblər ideologiyasının ideya mənbəyi, hərəkətverici amilləridir. Beləliklə də ideologiya tarixin gedişi ilə meydana çıxaraq həmin gedişi təsdiq edən və bu gedişin sonrakı istiqamətlərini müəyyənləşdirən, həmin prosesdə xalqın və millətin rolunu təyin edən ən parlaq və obyektiv ideyaların və sistemin məntiqi yekunudur. Azərbaycançılıq xalq tarixinin obyektiv izahına xidmət edir.

1918-ci ildə qurulan və Şərqdə demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideologiyası daha da inkişaf etdirildi. Ötən əsrin 80-ci illərinin sonlarında Azərbaycanda başlayan milli-azadlıq mücadiləsi və bu müstəvidə yaşadığımız faciələr həm ölkə daxilində, həm də xaricdə yaşayan soydaşlarımızın vahid ideya ətrafında birləşdirilməsi və onların imkanlarından istifadə edilməsini taleyüklü bir məsələ kimi ortaya çıxardı.

Azərbaycançılıq ideologiyası təkcə Azərbaycan Respublikasında yaşayan azərbaycanlıların deyil, bütövlükdə bütün dünyada yaşayan azərbaycanlıların milli-mənəvi maraqlarını ifadə edir. Uzun müddət milli ideologiyamızın konsepsiya şəklində formalaşmadığı dövrlərdə tariximiz, milli-mənəvi dəyərlərimiz digər ideologiyaların təxribatına məruz qalmışdır. Əsassız dəlillərlə ideoloji fikrin böhranı yaşanmış, ideologiyamız sıxışdırılmışdır.

Azərbaycanın dövlət müstəqilliyini qazandığı, müasir dünya ilə çoxşaxəli əlaqələrini qurub inkişaf etdirdiyi dövrdə azərbaycançılığın fəlsəfi, sosioloji, iqtisadi və politoloji aspektləri diqqəti daha çox cəlb edir. Azərbaycançılığın bir ideologiya olaraq məqsədi bir sıra elmlərin nəticələrindən istifadə etməklə Azərbaycan və azərbaycanlılar haqqında elmi təsəvvür yaratmaq və onun dünyadakı universal mövqeyini müəyyənləşdirməkdir. Müxtəlif dövrlərdə görkəmli elm və mədəniyyət xadimlərimiz azərbaycançılıq ideyasını əsərlərində özünə məxsus tərzdə ifadə etmişlər. Azərbaycan milli dövlətçilik hərəkatının qabaqcıl nümayəndələrinin və Xalq Cümhuriyyətinin qurucularının konsepsiyasına görə müstəqillik ideyası ölkədə yaşayan

bütün xalqların hüquq bərabərliyinin tanınmasına əsaslanırdı. Onun fəlsəfi əsası azərbaycançılıq, islamçılıq və müasirləşmə şüarından ibarətdir.

Azərbaycançılıq ideologiyası bu gün hər bir azərbaycanlının fərdi və həyati ideologiyasına çevrilməlidir. Bu gün azərbaycançılıq ideologiyasının inteqrasiya şəraitində başqa ideologiyaların, dillərin, dinlərin mədəni təcavüzünə məruz qalmaması üçün bu ideologiyanın ətrafında birləşməliyik.

Azərbaycançılıq ideologiyası metodoloji və elmi baxımdan zaman-zaman araşdırılıb və tədqiq edilmişdir. Amma təəssüflər olsun ki, Sovet imperiyası zamanında bu ideologiyanın ətraflı şəkildə işıqlandırılmasına şərait yaradılmamışdır. Bütün bunlara baxmayaraq, azərbaycançılıq ideologiyasını elmi şəkildə əsaslandıran, onun tarixi inkişaf mərhələlərini xarakterizə və təhlil edən dəyərli ziyalılarımız, mütəfəkkirlərimiz və alimlərimiz olub, bu gün də var. Onlardan Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", Anarın "Azərbaycançılıq haqqında düşüncələr", Yaşar Qarayevin "Milli mən", Nizami Cəfərovun "Azərbaycanşünaslığa giriş", Səlahəddin Xəlilovun "Heydər Əliyev və azərbaycançılıq məfkurəsi" kimi dəyərli əsərləri azərbaycançılıq ideologiyasının inkişafında istiqamət göstərici funksiyanı yerinə yetirən dəyərli əsərlərdən sayıla bilər.

Azərbaycanın ümumilli lideri, dahi rəhbər və görkəmli şəxsiyyətçi Heydər Əliyev həm də Azərbaycan mədəniyyətinin dostu olmuşdur. O mədəniyyətin hər sahəsindəki inkişafına nail olmaq üçün tükənməz güclə çalışır və böyük nailiyyətlərə imza atırdı. Onun hakimiyyəti dövründə Azərbaycan mədəniyyətinin yeni dövrünün çiçəklənməsi idi.

Azərbaycançılıq ideyasını ilk dəfə yaradıcılığının ana xəttinə çevirməkdən çəkinməyən Cəlil Məmmədquluzadənin özü də əsərlərində İslam və Şərq siyasi mənliyinin ideoloqu kimi çıxış edirdi. Azərbaycanın böyük tarixi şəxsiyyətlərinin hər biri azərbaycançılığı bir ideya olaraq görürdü. Heydər Əliyevin isə onlardan böyük fərqi ondan ibarət oldu ki, o azərbaycançılığı dövlət ideologiyasına çevirdi. O deyirdi: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir" (8, s.3).

Müstəqilliyin bərpası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsinin yeni mərhələsinin başlanmasını bir daha təsdiq etdi. Azərbaycançılıq məfkurəsindən danışarkən ilk əvvəl prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının III qurultayında azərbaycanlıların başlıca keyfiyyətlərindən biri haqqında dediyi fikri xatırlatmaq istəyirəm: "Bizim milli dəyərlərə bağlılığımız Azərbaycan xalqının iradəsinin nəticəsidir" (2).

Azərbaycan cəmiyyətinin milli-etnik baxımdan rəngarəngliyi və bütövlükdə regionun, konkret olaraq isə ölkəmizin müxtəlif geosiyasi maraqlarının kəsişdiyi bir məkan olması bir məsələnin mahiyyətini daha dərindən anlamağa imkan verir. Azərbaycan ərazisinə, Azərbaycan ictimai fikrinə, Azərbaycan mənəviyyatına təcavüzlər bu gün də davam edir. Belə bir zamanda milli birliyin dərk olunması hər zamankından daha artıq tələb olunur. Akademik Ramiz Mehdiyev milli dövlətçilik ideologiyasının müasir Azərbaycan dövlətçiliyində yerini çox dəqiqliklə ifadə edir: "Azərbaycançılıq - real müstəqilliyə nail olmağın, vahid və bölünməz Azərbaycanın qorunub saxlanılması və möhkəmləndirilməsinin siyasi əsasıdır" (1).

Belə nəticəyə gəlirik ki, azərbaycançılıq Azərbaycanda baş vermiş milli azadlıq hərəkatlarının tarixi təcrübələrinin nəzəri yekunudur. O, dünyada və ölkəmizdə gedən ictimai proseslərin tarixi mənasını Azərbaycan xalqının mənafeyi baxımından izah edir.

Azərbaycançılığın tərkib hissələrinə bunlar daxildir:

- məfkurəçilik - yəni sosioloji aspekt;
- istiqlalçılıq - azadlığın tarixən mənimsənilməsi;
- türkçülük - milli ideya kimi;

- İslamçılıq - Şərqdə ümmətçilik dövlət yaratmaq qüdrətinə malikdir;
- ünsiyyətçillik - vahid dillə və mədəniyyətlə vəhdət.

Azərbaycançılıq ideyalarının tarixi təşəkkülünə nəzər saldıqda onun mərhələli inkişafının necə tarixi və keşməkeşli olduğu bizə bəyan oldu. Hər bir xalqın ideologiyası o xalqın ibtidai miflərindən yaranıb ümumi siyasi konsepsiyaya qarşı yol gəlir. Qeyd etmək lazımdır ki, bu yol düşündüyümüz qədər asan olmur. Azərbaycan xalqının bugünkü ideologiyası ondan ibarətdir ki, xalqımız öz ənənələrinə bağlı olsun, adət-ənənələrini və ailələrini, ən başlıca dövləti sevsinlər, onun mənafeyini üstün tutsunlar. Bu cür mötəbər addımlar hər bir xalq üçün vacibdir və hər bir xalq bu yolla getsə, Azərbaycan kimi yüksəliş dövrünə qədəm qoya bilər.

**Açar sözlər:** milli ideologiya, azərbaycançılıq, vətənpərvərlik, dövlətçilik.

### İstifadə olunmuş ədəbiyyat

1. “Azərbaycan” qəzeti, 9 noyabr 2007.
2. “Azərbaycan” qəzeti, 6 iyul 2011.
3. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı, 2005.
4. Heydər Əliyev. Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002.
5. Xəlilov S.S. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı: «Azərbaycan Universiteti» nəşriyyatı, 2002.
6. Mehdiyev R. XXI əsrdə milli dövlətçilik. Bakı: Azərnəşr, 2003.
7. Мамедова З. Патриотизм как философская проблема. Баку, 1999.
8. Məmmədova S. Heydər Əliyev və azərbaycançılıq ideologiyası. Bakı: Respublika, 15 may 2010.
9. Şəmsizadə N. Azərbaycançılıq. Bakı: Nurlar, 2006.
10. Гегель. Философия права. М.: Мысль, 1990.
11. Tağıyev Ə. Milli ideya və milli ideologiya: problemlər və onların şərhi. Bakı: «Təbib», 2000.
12. Tagıyev Ə.M., Şükürov M.A. İki əsrin qovşağında Azərbaycan: milli və millətlərarası problemlərin həlli yolunda. Bakı: Adiloglu, 2004.

**Гюнай СУЛЕЙМАНОВА**

## АЗЕРБАЙДЖАНСТВО КАК НАЦИОНАЛЬНАЯ ИДЕОЛОГИЯ АЗЕРБАЙДЖАНЦЕВ

### Резюме

В статье рассматривается национальная идеология Азербайджана-азербайджанство. Азербайджанство основывается на сильной государственной власти и национальном менталитете, национальном интересе и национальном самосознании. Оно предусматривает солидарность самых различных социальных слоев населения. Как идеология азербайджанство объединяет социокультурные и этногеополитические стороны философско-социальной доктрины независимого Азербайджана.

**Ключевые слова:** национальная идеология, азербайджанство, патриотизм, государственность.

**Gunay SULEYMANOVA**

## AZERBAIJANISM AS THE NATIONAL IDEOLOGY

### Summary

The author considers the national ideology of Azerbaijani - Azerbaijanism. Azerbaijanism is grounded on strong state power and national mentality, national interests and national self-consciousness. It provides as an ideology Azerbaijanism unites socio-cultural and ethnic geopolitical aspects of philosophical-social doctrine of independent Azerbaijan.

**Keywords:** national ideology, Azerbaijanism, patriotism, statehood.

UOT 51(091); 510

**Eldar ƏMİROV**
*doktorant,*
*AMEA Fəlsəfə İnstitutu*

# RİYAZİ İDRAK VƏ ONUN SPESİFİK XÜSUSİYYƏTLƏRİ*

***Riyaziyyatin meydana gəlməsi.*** Riyaziyyat ən qədim elmlərdən biri olub, ümumbəşəri mədəniyyətin tərkib hissəsidir. Minillərlə toplanmış riyazi bilgilər nəticəsində təxminən 5000 il bundan öncə bir elm kimi Şumerdə yaranmışdır.

İnsan yarandığı gündən bəri praktik ehtiyaclarını ödəməklə yanaşı, ətrafında baş verənləri anlamağa, dünyanı öyrənməyə çalışmışdır. Bu öyrənmə də elə ilk çağdan riyaziyyatla başlamışdır. Ovladığı hevyanları saymağa başlayan insandan Marsa peyk göndərən insana qədər praktik yardım etmiş riyaziyyat, eyni zamanda Pifaqordan başlayaraq bugünkü Kosmoloji nəzəriyyələrə qədər bir dünyagörüşü modeli də olmuşdur. Sonradan, əsrlərin sınağından məlum olacaq ki, riyaziyyat digər elmlərə nisbətən gerçəklik haqqında daha çox bilgi saxlayır. Riyaziyyatın mahiyyətini başa düşmək və gələcək tendensiyaları görmək üçün onun tarixini bilmək çox vacibdir. O, öz tarixi ilə vəhdət təşkil edir, bütov bir orqanizmə çevrilir. Ona görə də riyaziyyatın tarixi vacib məqamlardandır, həm də onu digər elmlərdən fərqləndirir. A.Puankarenin təbirincə desək: “Riyazi elmlərin gələcək inkişafını öngörmək üçün ən yaxşı metod bu elmlərin tarixini və bugünkü vəziyyətini öyrənməkdir” (1 s. 294). Eyni zamanda fəlsəfi refleksiya üçün də riyaziyyat tarixi vacibdir. İ.Lakatos öz əsərində İ.Kantın məşhur “Elmin fəlsəfəsi elm tarixi olmadan boşdur, elmin tarixi də elmin fəlsəfəsi olmadan kordur” fikrini sitat gətirir (2, s. 201). Biz də bu metodologiyaya sadiq qalaraq qısa olmaq şərtilə bu qədim elmin, riyaziyyat tarixinin ümumi cizgiləri ilə tanış olacağıq, ardınca da riyaziyyatı digər düşüncə sahələrindən fərqləndirən spesifik xüsusiyyətlərlə bağlı mülahizələrimizi davam etdirəcəyik.

“Matematika” sözü qədim yunan sözü olan μάθημα sözündən əmələ gəlmişdir. Mənası öyrənmək, bilik, elm deməkdir. Bizim dildə ərəb dilindən alınmış söz olan “riyaziyyat” kimi istifadə olunur. Matematik sözünü ilk dəfə e.ə.550-ci ildə pifaqorçular işlətmişlər, yazıya isə e.ə.380-cı ildə Platon daxil etmişdir.

Riyaziyyatın tarixi saylardan - ədədlərdən başlayır. Qədim insanlar instinktiv səviyyədə biri və çoxu ayıra bilirdilər. Biri ayırandan sonra ikini, üçü və digər sayları da ayırmaq üçün nisbətən abstrakt düşüncə tələb olunurdu və bunun üçün isə hələ aradan min illər keçəcəkdi. Hələ də Amazon, Afrika cəngəlliklərində sivilizasiyadan tədric olunmuş halda yaşayan tayfaların dilində yalnız, “bir”, “iki” və “çoxlu” sözləri var. Onlar bundan artığını saya bilmirlər. Ədədlərin meydana gəlməsi qismən insanların praktik tələbatları ilə bağlı olsa da, burada metafizik səbəblər də var. Biz bu barədə bu jurnalın digər bir nömrəsində öz tezisimizi irəli sürdüyümüzdən, burada onun üzərində çox dayanmırıq və ümumi təsəvvür yaranması üçün tarixi faktlara nəzər salmaqla kifayətlənirik. Beləliklə, Homo Sapiens qidalanmaq üçün, təbiət qüvvələrindən qorunmaq üçün saymaqdan istifadə etmişdir. Onlar ovladığı heyvanların sayına uyğun daşlar düzürdülər. Sonralar daşları ağac üzərində və heyvan sümükləri üzərində kərtiklərlə əvəz etməyə başladılar. Bu günümüzə də gəlib çatan belə qədim eksponatlardan biri 30000 il bundan əvvələ aiddir. 1937-ci ildə Çexoslavakiyada tapılmışdır. Bu, uzunluğu 17 sm olan və üzərində beş-beş qruplaşdırılmış 55 kərtiyi olan cavan canavarın mil sümüyüdür. Bu nümunə belə tarixi tapıntılar içərisində ən qədimi hesab olunur (3, s. 2). Lakin ədədlərin

---

* Məqalə fəlsəfə ü.e.d. Füzuli Qurbanov tərəfindən çapa məsləhət görülüb.

sayılması, başqa sözlə, nizamlı şəkildə düzülməsi, ardıcıllığı və ədədlər üzərində əməllər sonrakı dövrlərdə meydana çıxacaqdı. Bu proseslər o qədər ləng baş verir ki, bir mərhələdən digərinə keçmək üçün min illər lazım olub. Müqayisə üçün demək olar ki, müasir dövrdə belə sıçrayışlar üçün bir neçə on il kifayət edir.

Ümumiyyətlə, riyaziyyatın inkişaf tarixini beş dövrə ayırmaq qəbul olunmuşdur ( (4), (5)). İlk dövr Misir və Mesopotamiya dövrüdür. Bu dövr e.ə.XX-V əsrlər arasında qalan 1500 ili əhatə edir. İkinci dövr, e.ə.V əsrdən b.e.V əsrə qədər olan təxminən 1000 illik yunan riyaziyyatı dövrünü əhatə edir. Üçüncü dövr, Miladın V əsrindən sonsuz kiçilənlərin kəşfinə qədər uzanan 1200 illik müddətdə hind, İslam və Renessans dövrlərini əhatə edir. Dördüncü dövr, 1700-1900-cü illər arasındakı riyaziyyatın qızıl əsrləri adlandırılan klassik riyaziyyat dövrüdür. Və nəhayət beşinci dövr, müasir dövr, 1900-cü ildən üzü bu tərəfi əhatə edir.

Başlanğıc dövr *Misir və Mesopotamiya* dövrüdür**.** İnsanların köçəri həyatdan oturaq həyata keçməsi, əkinçiliklə məşğul olmağa başlaması ölçmənin də meydana gəlməsinə zəmin yaratmışdır. Misir bunun üçün ən əlverişli yer idi. Qədim dövr riyaziyyat tarixinin görkəmli bilicisi Q.Neygebauer yazır: ”Bütün qədim sivilizasiyalardan mənə ən əsrarəngiz görünəni Misir sivilizasiyasıdır. Səhraların və dənizlərin mükəmməl şəkildə müdafiə etdiyi və təcrid etdiyi Nil vadisi qəhrəmanlıq ruhunun intəhasız inkişafını əngəlləmişdi. Hansı ki, belə qəhrəmanlıqlar Yunanıstanı cəhənnəm yerinə döndərmişdi. Güman ki, qədimdə Misir kimi ikinci bir ölkə tapmaq çətindir ki, mədəniyyəti yüz illiklərlə və təhlükəsiz şəkildə yaşasın” (6, s. 83). Misirdə Nil çayının sahilləri əkin üçün əlverişli idi. Lakin çayın daşması vaxtaşırı tarlaları yuyurdu. Bu zaman vergi toplamaq çətinləşirdi. Kahinlər yenidən torpaqları ölçüb sahiblərinə qaytarmalı idilər. Və bu zaman yer ölçmə - geometriya (həndəsə) meydana gəlir. Bütün bu məlumatları bu günümüzə gəlib çatan iki mənbədən alırıq. Bunlardan biri Rinda papirusu, digəri Moskva papirusudur. Papirus Nil deltası boyu bitən, qırmızımtıl rəngdə, 15-25 metr uzunluğunda və 30-50 santimetr enliyində olan yarpaqlardır. Bu yarpaqlar kəsilib presləndikdən və bəzi sadə işləmələrdən sonra üzərində yazı yazmaq mümkün olurdu. Lakin papirus yaxşı qalmadığından bizim Misir riyaziyyatı haqqında bilgimiz Babilistana nisbətən azdır. Çünki Babilistanda gil lövhələr üzərində yazırdılar, gil lövhələr isə aşınmağa az məruz qalırdı. Bu günə qədər gəlib çatan, qazıntılar nəticəsində tapılmış milyonlarla belə gil lövhələr məlumdur. Rinda papirusunda bölmə, kəsr və bəzi fiqurların sahəsi hesablanan 87 məsələ, Moskva papirusunda isə həcm və səth sahələri hesablanmış 25 məsələ var. Tədqiqatçılar qeyd edirlər ki, hər ikisindəki məsələlər düzgün həll edilmişdir. Bu papiruslardakı məsələlər müasir riyazi simvolika ilə ifadə olunaraq müxtəlif vaxtlarda çap olunmuşdur (məsələn, bax: (3, s. 51)).

Sonrakı dövr *Yunanıstan* dövrüdür**.** Qədim Misir və Babilistanlılar öz gündəlik həyatlarında praktik məsələləri həll etmək üçün faydalı qaydalar, formullar tapmışdılar. Bu qaydalar və formullar bir-birinə bağlı deyildi, sistematik şəkildə əlaqəli deyildi, yalnız müəyyən məsələləri həll etməkdən ötrü "reseptlərdən" ibarət idi. Belə olan halda bunlar təbiətə tətbiq edilmirdi. Başqa sözlə, riyaziyyat təbiətə tətbiq edilmirdi və bu onların nə ağlına gəlirdi, nə də ki, belə riyaziyyat o səviyyədə deyildi. Lakin yunanlar bu bilikləri əxz edəndən sonra, bu biliklər nisbətən praktikadan ayrılmış və xeyli dərəcədə bir növ əyləncəyə çevrilmiş, asudə vaxt keçirmək xarakterini almışdı. Aristotel Metafizikada deyir ki, qədim Misirdə riyaziyyatın yaranmasının səbəbi kahinlərin asudə vaxtlarının olması ilə bağlı idi (7, s. 32). Beləliklə, riyaziyyat bütöv şəkildə bu qaydaların, formulların məntiqi-riyazi qaydada bir-birinə bağlanması yunanlara aiddir. İrəlidə görəcəyik ki, loqos dövrü bunun üçün stimul olmuşdur. Bu e.ə.VI-V əsrlərə aiddir. Lakin həmin dövrə aid olan və bu günə qədər gəlib çatan heç bir mənbə saxlanmamışdır. Biz yalnız tarixçilərin qənaəti ilə kifayətlənirik. Bunlardan biri odur ki, onlar öz mifoloji-fəlsəfi dünyagörüşlərini isbat etmək üçün əllərində olan bu biliklərdən

ustalıqla istifadə etmişlər. Hansı ki, biz bunun bariz nümunəsini Pifaqorçularda görürük. Belə ki, onlar Kainatda baş verənləri ədədlərlə izah etməyə çalışırdılar. "Hər şey ədəddir" tezisi bu dünyagörüşünün nüvəsi idi.

Riyaziyyatın və ümumiyyətlə rasional fikrin tarixində Yunan dövrü çox əhəmiyyətlidir. Çünki biliyin sonrakı binası bu təməl üzərində qurulur. İrəlidə də görəcəyimiz kimi yunan loqosu riyaziyyatın isbat üsulu kimi möhkəmlənməsi üçün düşüncə zəmini yaratmışdı. Məsələn, Evklid deyirdi ki, məndə heç bir yenilik yoxdur, sadəcə hazır məlumatları başqa üsulla təqdim etmişəm (deduktiv metod). Beləliklə, müasir dövr, daha doğrusu indiki Qərb Antik Yunanıstanın varisi hesab olunur. Əgər sinergetik paradiqma ilə ifadə etmək istəsək, Antik Yunan fikrini mədəniyyət sistemində bifurqasiya nöqtəsi saymaq olar.

Və nəhayət, Roma imperiyasının yüksəlişi, Xristianlığın imperatorluğun rəsmi dini kimi elan edilməsi Yunan mədəniyyətinin sonunu gətirmişdir. İskəndəriyyə kitabxanasının yandırılması, Platonun Akademiyasının bağlanması, alimlərin təqib olunması ilə bu dövr sona yetmişdir. B.L.Van der Vanderin obrazlı təbirincə desək, "yunan riyaziyyatı şam kimi əriyərək, alovları sönmüşdür (8, s. 392).

Qüruba enən bu mədəniyyətdən sonrakı dövrlər üçün elmi əsərlər miras qalmışdır. Hansı ki, sönmüş bu ocaq üçüncü dönəmdə *İslam dünyasında* yenidən alovlanacaqdı. İslam dünyasında elm 750-ci ildən sonra Abbasilərin xilafətə gəlməsi ilə başlayır. Abbasi xəlifələri Bağdadda " Beytül-Hikmət" (Ağıl Evi) adlı mədrəsə açırlar və geniş şəkildə yunancadan, hindcədən, pəhləvicədən, ibrabicədən tərcümələrə başlayırlar. Bu dövrdə yetişən görkəmli riyaziyyatçılardan Məhəmməd əl-Xarəzminin, Ömər Xəyyamın, Şərafəddin əl-Tusinin, Nəsirəddin əl-Tusinin, Çəmşid əl-Kaşinin adlarını çəkmək vacibdir (9, s. 53-56). Əl-Xarəzmi "cəbrin atası" hesab olunur. Lakin qərb tədqiqatçılarının riyaziyyat tarixinə həsr olunmuş nə klassik, nə də ki, müasir əsərlərində Xarəzminin orijinal olmadığını, yalnız yunan riyaziyyatının tərcüməsi ilə məşğul olduğunu deyirlər. Lakin cəbrin müstəqil sahə kimi ayrılması, yunan say sistemindən daha effektiv olan mövqeli saya sisteminin qurulması, sıfrın yaradılması, bu gün də istifadə etdiyimiz Hind-Ərəb rəqəmləri kimi tanınan 1, 2, 3, ..., 9, 0 rəqəmlərinin yaradılması məhz birbaşa İslam riyaziyyatı ilə bağlıdır. Ən azı sintez olaraq. A.Ülger haqlı olaraq yazır: "İslam riyaziyyatı yunan ənənəsinin davamı olmaqdan çox, yunan, Mesopotamiya və hind riyaziyyatının sintezidir. Say sistemləri, hesab, triqonometriya və cəbr daha çox Mesopotamiya mədəniyyətinə, həndəsə isə Yunan mədəniyyətinə dayanır" (4, s. 53). Sanki Qərbin diskret-struktural düşüncəsi ilə Şərqin kəsilməzlik düşüncəsi Xarəzminin simasında bir araya gəlir. Avropa dillərində istifadə olunan "Algebra" sözü də Xarəzminin məşhur "Əl-Cəbr və Əl-Mukabala" (tamamlama və müqayisə) əsərinin latıncaya çevrilmiş adından götürülmüşdür (10, s. 96). Bizdə bu adın orijinalı saxlanılmışdır və "Cəbr" kimi istifadə edirik. Eyni zamanda "Alqoritm" sözü də əl-Xarəzminin adının latıncaya tərcüməsindən qaynaqlanan təhrifdən əmələ gəlmişdir. Elə bu tərcümələrlə də riyaziyyatın tarixinin növbəti, *üçüncü*, Renessans dövrü başlayır.

Müxtəlif səbəblərdən İslamın bu qızıl çağı sona çatır və estafet yenidən Qərbə ötürülür. Ərəbcə olan əsərlər latıncaya tərcümə olunmağa başlayır. Avropanın sonrakı inkişafı bu təməllərə söykənir. 1202-ci ildə Fibanoççi "Liber Abaci" (Abak kitabı) əsərini yazır. Bu kitabda o, Avropanı Xarəzminin irsi ilə tanış edir. Burada hind-ərəb rəqəmləri, bu rəqəmlərlə ədədlərin necə yazılması və onlar üzərində hesab əməlləri göstərilir (11, s. 229). Bundan sonra 1200-1500-cü illər arasında riyaziyyatın tarixində elə də bir inqilabi dəyişiklik baş vermir, riyaziyyatçılar əsasən İslam riyaziyyatçıların məşğul olduğu məsələlərlə məşğul olurlar. Lakin 1500-1600-cü illərdə canlanma baş verir və demək olar ki, müasir riyaziyyatın təməlləri qoyulur. Bu dəyişikliklərə Tartalo və Kardanonun üçüncü dərəcəli tənliklərin həllini tapması, Bombelinin kompleks ədədlərlə işləməsi, Vietin simvolik cəbri yaratması, Dekartın analitik

həndəsəni yaratması, Nyuton və Leybinsin differensial-inteqral hesabını yaratmasını misal göstərmək olar. Bunlar təkcə riyaziyyat tarixinin önəmli məqamları olmaqla qalmayıb, mühəndisliyin, astronomiyanın, sənaye cəmiyyətinin yaranmasına və fransız inqilabi ilə möhkəmlənən maarifçilik hərəkatının da təməlləri olmuşdur.

Daha sonra riyaziyyat tarixinin qızıl əsri adlanan *dördüncü dönəm* başlayır. Bu dövr 1700-1900 illəri əhatə edir. Bu dövr isə artıq riyaziyyat ağacının müxtəlif bölmələrə şaxələnməsi, ixtisaslaşması dövrüdür. Bu şaxələrin təməllərini atan görkəmli riyaziyyatçılar L.Eyler (riyazi analiz), P.-S.Laplas (ehtimal nəzəriyyəsi, göy mexanikası), J.-L.Laqranj (variasiya hesabı), J.Dalamber (differensial tənliklər), F.Gauss (Qeyri-Evklid həndəsəsi, elliptik funksiyalar, kvarternionlar, ehtimal nəzəriyyəsi,), K.Veyerştrass (həqiqi dəyişənli funksiyalar nəzəriyyəsi), B.Riman (kompleks dəyişənli funksiyalar nəzəriyyəsi, Riman həndəsəsi), N.Lobaçevski (Lobaçevski həndəsəsi), N.Abel, E. Qalua (qruplar nəzəriyyəsi) və b. bu kimi riyaziyyatçılardır. (9), (5), (12).

Və nəhayət, *beşinci* dönəm müasir dövrdür. Bu dövrün banisi Q.Kantor hesab olunur. Onun çoxluqlar nəzəriyyəsi müasir riyaziyyatın əsasları olur. Eyni zamanda bu nəzəriyyədə ortaya çıxan paradoksların həlli də riyaziyyatın əsaslandırılması problemini də gündəmə gətirmiş və müasir anlamda riyaziyyatın fəlsəfəsi meydana gəlmişdir. Bu işlər D.Hilbertin (formalizm), Q.Freqe-A.Uaythed-B.Rassel (məntiqçilik), L.E.J.Brauerdir (intusionizm) kimi riyaziyyatçı filosofların adları ilə bağlıdır.

***Riyaziyyat nədir?*** Adi gündəlik düşüncəyə görə riyaziyyat hesab və ölçü kimi başa düşülür. Lakin riyaziyyatın mahiyyətinin fərqli çalarları da var , hansı ki, onlar tamamilə hesab və ölçmə-biçmə ilə xarakterizə oluna bilmir. Riyaziyyatı bütünlüklə ədədlərə reduksiya etmək mümkün deyil. Necə ki, maddələr elementar zərrəciklərdən ibarət olsa da, onların tam mahiyyəti yalnız molekulyar quruluşunda açılır. Çünki Kainatda hər şey elementar zərrəciklərdən yarandığından, fərqlilik yalnız sonrakı təşkilatlanmada üzə çıxır. Daşla ağac son nəticədə eyni zərrəciklərdən ibarət olsa da, onları daş və ağac edən zərrəciklərin, atomların, molekulların sonrakı mərhələdə necə təşkilatlanmasından asılıdır. Analoji olaraq ədədlər, hesab və ölçü riyaziyyatın "atomları" olsa da, riyaziyyatın mahiyyəti riyazi obyektlərin sonrakı təşkilatlanmasında üzə çıxır. Bizim mənalandırdığımız obyektlər yalnız sonrakı təşkilatlanmaya aiddir. Müəyyən əlaqə və münasibətlərdən "hörülmüş" kontekst bir bütünə çevrilərək bizim üçün məna daşıyır. Hegelin təbirincə desək, yalnız bütöv olan mənaya malikdir.

Riyaziyyat bütün həyatımızda, adi gündəlik hesabdan raket texnologiyasına qədər, mobil və kompüter texnologiyalarına qədər daxil olmuşdur desək doğru səslənməz, çünki bunlar əslində riyaziyyatın üzərində qurulmuşdur. Hətta əgər burada fizikanın və müasir texnoloji elmlərin payı çoxdursa da, yenə də dolayısı ilə bu riyaziyyatdan qidalanır. Çünki müasir dövrdə sadalanan sahələr xeyli dərəcədə riyaziləşmişdir. Mübaliğə ilə desək, riyaziyyat arxa fonda dünyanı idarə edir. Müasir iqtisadiyyatın, texnologiyaların, bəlkə də ümumilikdə ağıl üzərində qurulmuş sivilizasiyanın təməlində riyaziyyat dayanır. Antik Yunan düşüncəsinin varisi olan Qərb sivilizasiyası bunun bariz nümunəsidir. Elə Kainatın da əsasında riyaziyyatın dayandığını, onun riyazi qanunlar üzərində bərqərar olduğunu müxtəlif dövrlərdə mütəfəkkirlər vurğulamışlar. Məsələn, hələ e.ə.V əsrdə Pifaqorçular hər şeyin ədədlərdən ibarət olduğuna inanırdılar. Təxminən 900 il fəaliyyət göstərmiş Platonun Akademiyasının giriş qapısında "Həndəsəni bilməyən evimizə girə bilməz" şüarı yazılmışdı. Hətta XX əsrin görkəmli riyaziyyatçısı və filosofu A.Uaydhed Pifarorçuları haqlı hesab edirdi. Az qala hamımızın əzbər bildiyi Q.Qalileyin Kainat qarşımızda geniş açılmış bir kitabdır, bu kitabın dili isə riyaziyyatdır, deyimi də bu qəbildəndir. Bunların sayını kifayət qədər artırmaq olar. Yəni hər şeyin bir ölçü və nizamla yaradılması bilinən bir gerçəkdir və bu gerçəyi bəşəriyyət yarandığı

vaxtdan üzü bəri, günbəgün təsdiq etməkdədir. Bu ölçü, bu nizam isə ən gözəl şəkildə və mükəmməl şəkildə riyazi dildə ifadə oluna bilir. Çünki hələlik Kainatın və yaradılışın sirlərini bizə damla-damla agah edən riyaziyyatdır. Tanınmış riyaziyyatçı, fizik və kosmoloq R.Penrouzun təbirincə desək: "Əgər həqiqəti Platon mənada başa düşsək, onda riyaziyyat – həqiqəti qəbul edən ən təmiz, saf formadır" (13).

Riyaziyyat qədim elm olmaqla bərabər həm də bir elm nümunəsi olmuşdur. Müxtəlif vaxtlarda müxtəlif elmləri riyaziyyat kimi qurmağa çalışmışlar. Bəzən fəlsəfi təlimlər də riyaziyyatsayağı qurulmuş, onun metodologiyası örnək alınmışdır. Mifoloji düşüncədən loqosa, əqli düşüncəyə keçiddə yunanların kəşf etdiyi deduktiv düşüncənin rolu böyükdür və bəlkə də həlledicidir. Evklidin "Başlanğıcı"nı doğurdan da nəzəri sistemlərin başlanğıcı hesab etmək olar. Həm ilk nəzəriyyə kimi, həm də bir metod kimi. Günümüzdən geriyə boylananda Evklidin "Başlanğıcı"ın nəzəriyyələrə metodik quruluş nümunəsi olmasını görürük. Yəni riyaziyyatın strukturu həmişə elm üçün metodik paradiqma olmuşdur. Məsələn, Spinoza özünün məşhur əsərini, "Etika"-nı Evklid həndəsəsi üslubunda yazmışdır. O, burada teoremlər verir və isbat edir. Riyaziyyat daim dəqiqlik, ciddilik, elmilik nümunəsi olmuşdur. Kant elmin yalnız riyaziyyat daxil olan hissəsini elm sayırdı: "Belə ki, bütün hallarda təbiət haqqında təlimlərdə sözün məxsusi mənasında elm deyə biləcəyimiz hissəsi - yalnız riyaziyyatın ona daxil olan hissəsi qədərdir" (14, s. 59).

Beləliklə, riyaziyyatın bütün bu "möcüzələrini" (bəlkə də dırnaqsız yazmalıyam) saymaqla bitməz. Və əgər belədirsə, onda riyaziyyat özü nədir? Doğurdan da bu sualın cavabı elə riyaziyyatın öz yaşı qədərdir. Riyaziyyatı mistikləşdirib ona pərəstiş edən Pifaqorçulardan üzü bu tərəfə, riyaziyyatın təbiəti ilə bağlı müxtəlif görüşlər irəli sürülmüşdür. Lakin birmənalı qəbul ediləcək cavab yoxdur. Əgər XX əsrin görkəmli riyaziyyatçısı Q.Veylin təbirincə desək: "Riyaziyyatın nə olması barədə sual son nəticədə açıq qalmışdır. Biz hər hansı istiqamət seçə bilmirik, hansı ki, bu suala qəti cavab versin və bütün riyaziyyatçılar tərəfindən qəbul olunsun. Və ümumiyyətlə belə bir şeyin olacağı da məlum deyil. "Riyaziləşmə" musiqi və bədii ədəbiyyat kimi insanın yaradıcı fəaliyyətinin bir məhsulu olmaqla qalacaq, lakin onun tarixi taleyini rasiollaşdırmaq olmur və eyni zamanda obyektiv də olmur" (15, s. 12). Odur ki, riyaziyyatı bir neçə cümlə ilə tərif etmək olmur. Bu məqalədə məqalənin məqsədinə uyğun olmadığından, riyaziyyat haqqında ardıcıl fəlsəfi konsepsiyalara toxunamayacağıq. Lakin, müxtəlif riyaziyyatçıların, fiziklərin, filosofların və ümumiyyətlə düşüncə adamlarının riyaziyyata dair fikirlərini sadalamaqla kifayətlənirik. Bunlar, riyaziyyat haqqında mütəfəkkirlərin riyaziyyatın ruhundan xəbər verən tək-tük fikirləridir. Bunların bəziləri, riyaziyyatın fəlsəfəsinin müxtəlif istiqamətlərinin əsas tezisləridir, onları kursivlə verəcəyik. E.Veçtemov bunları çox gözəl yığcam şəkildə toplayıb:

*"Riyaziyyat ətraf aləmin kəmiyyət münasibətləri və fəza formaları haqqında elmdir (Fridrix Engels);* Riyaziyyat kəmiyyət haqqında təlimdir (Qalileo Qaliley); *Riyaziyyatın mahiyyəti ədədlərdədir (Pifaqorçular)*; Riyaziyyat forma haqqında elmdir; Riyaziyyat ölçü və nizam haqqında elmdir (Rene Dekart); Riyaziyyat hər şeyin ölçüsüdür; Riyaziyyat məntiqin bir hissəsidir (məntiqçilər); Riyaziyyat *simvollarla oyundur (formalistlər);* Riyaziyyat elə bir predmetdir ki, nə haqqında danışdığımızı, bunun doğru və yanlış olduğunu bilmirik (Bertran Rassel); *Riyaziyyat xüsusi növ intellektual fəaliyyətdir (intusionistlər);* Riyaziyyat isbat deməkdir (Nikola Burbaki); *Riyaziyyat riyazi strukturları öyrənir (Nikola Burbaki)*; Riyaziyyat sonsuzluq haqqında elmdir (German Veyl, David Hilbert); Riyaziyyat müxtəlif şeyləri eyni adla adlandırmaq sənətidir (Anri Puankare); Riyaziyyat həmçinin eyni şeyi müxtəlif cür adlandırmaq sənətidir (folklor); Riyaziyyat universal abstraksiyanı araşdırır; Riyaziyyatda hər şey var (nəzəri fiziklər); Riyaziyyat özü özünü öyrənir (folklor); Riyaziyyat nəhəng metaforadır; Riyaziyyat ən sadə və eyni zamanda ən çətin elmlərdən biridir; Riyaziyyat

şəxsiyyəti tərbiyyə edir (etik aspekt); Riyaziyyat şərti olan, məntiq isə mütləq olan haqqındadır; Riyaziyyat hadisələr haqqında elmdir, fenomelogiyadır" (16, s. 18).

Azərbaycanda riyaziyyatın fəlsəfəsi ilə yalnız bir nəfər, mərhum riyaziyyatçı və filosof Marif Əkbərov məşğul olmuşdur. Lakin məlum olduğu kimi, bizim elm də sovet elminin tərkibində olduğundan və sərt ideologiyanın, dialektik materializmin çərçivəsindən kənara çıxmamaq şərtilə Marif müəllim də riyaziyyat haqqında bütün sovet riyaziyyatçılarının qəbul etdiyi Engels-Kolmoqorov tərifini qəbul etmişdir (17). Bu tərifin tarixçəsi və o dövrün ab-havası haqqında N.Baransev və A.Veryovkin yazırlar: "1930-cu ildə ideoloji atmosferdə A.N.Kolmoqorov Böyük Sovet Ensiklopediyası (BSE) üçün "Riyaziyyat" məqaləsini yazmağa başladı. Bu məqalə 1938-ci ildə çap olundu. Kolmoqorovun elmi nüfuzu imkan verirdi ki, bu işi görmək ona həvalə olunsun. Burada o, riyaziyyata, növbəti nəsillər üçün on illərlə baza rolunu oynayacaq, riyaziyyatın inkişafının yeni tendensiyalarını Engels tərifi ilə birləşdirən tərif verir. Lakin buna baxmayaraq bir qədər əvvəl, 1929-cu ildə Kolmoqorov riyaziyyatın fəlsəfəsinə dair məqalə yazır, hansı ki burada intuisionizmə meyil edir, simpatiya duyur... BSE-nin birinci nəşri üçün yazılan məqalədə Kolmoqorov riyaziyyata belə tərif verir: "Riyaziyyat kəmiyyət və fəza formaları, real dünya münasibətləri haqqında elmdir". Amma buna baxmayaraq ideoloji tənqidlər nəticəsində artıq 1954-cü ildə BSE-nin ikinci nəşrində tərif dəyişdirilir. Demək olar ki, Kolmoqorov Engelsin 1877-ci ildə verdiyi tərifi təkrarlayır: "Riyaziyyat gerçək dünyanın kəmiyyət münasibətləri və fəza formaları haqqında elmdir"... Göründüyü kimi birinci tərifi daha geniş şərh etmək olar. Kolmoqorov "gerçək dünya münasibətləri" dedikdə bura müxtəlif, səbəb - nəticə, məntiqi, struktur, bioloji, sosial, iqtisadi münasibətləri nəzərdə tuturdu, hansı ki, Engelsdə yalnız kəmiyyət münasibətləridir" (18, s. 99-104).

***Simvolik dil.*** Riyaziyyat xüsusi simvolik dilə malikdir. Bu dil adi danışıq dilindən fərqlənir. Bu simvolika imkan verir ki, adi danışıq dilində ifadə oluna bilməyən fikirlər "sıxılmış" şəkildə simvolik dildə ifadə oluna bilsin. Q.Leybnis deyirdi ki, simvolik dil zehnin yükünü azaldır: "Elə etmək lazımdır ki, işarələr kəşflər üçün rahat olsun, bunun qayğısına qalmaq lazımdır. Bu, ən yaxşı halda o zaman əldə edilir ki, simvollar şeyin təbiətini qısa şəkildə, amma dərin ifadə etsin. Belə olduqda heyrətamiz şəkildə təfəkkürün işi yüngülləşir" (19, s. 156). Həm də Leybnisə görə: "Simvollar məlum şeylərdir; onların köməyilə məlum olmayanlar arasındakı qarşılıqlı münasibətlər tapılır. Simvolların tədqiqi bu sonunculara görə həmişə asan olur" (20, стр. 57).

Adi danışıq dili həmişə xəttidir. Səbəb-nəticə zənciri ardıcıllıqla izlənir. Amma riyazi dil mürəkkəb quruluşa malikdir. Bu dil xətti yox, üçölçülü struktur quruluşa malikdir. Bu cür konstruksiya imkan verir ki, düşüncələr düz xətt üzrə yox, əyrixətli trayektoriyalar üzrə hərəkət edə bilsin. Hər bir riyazi fikir özündən əvvəlki və sonrakı fikirləri sanki canında saxlayır. Bu cür quruluşa malik olmaq imkan verir ki, riyazi dil ən mürəkkəb fikirləri ifadə edə bilsin. Riyaziyyat belə sabit simvolik dili hesabına başqa elmlərdən fərqli olaraq minilliklər arasında ünsiyyət qura bilir. Demək olar ki, yazıya köçürülmüş bütün riyazi düşüncələr tam aydınlığı ilə başa düşülür. Eyni zamanda biz simvolik dilin hesabına 2500 il bundan öncə yazmış Evklidi çox asanlıqla və aydınlığı ilə başa düşürük. Simvolik dil minilliklər arasında ünsiyyət rolunu oynayır. Lakin başqa elmlər adi danışıq dilindən istifadə etdiyindən və ən əsası da tərcümələr zamanı məna çalarlarının itməsi bəzi fikirlərin də yoxa çıxmasına səbəb olmuşdur. Amma riyazi simvolika heç nə itirmədən çox mürəkkəb fikirləri yığcam, sıxılmış şəkildə ifadə edə bilir. Müasir təbiətşünaslıq riyaziyyatın onlara verdiyi bu imtiyazı çox gözəl şəkildə təsdiqləyir. Daosizm kimi Şərq fəlsəfi təlimləri ilə müasir fizika arasında paralellik aparan tanınmış amerikalı fizik F.Kapra yazır: "Əsrin başlanğıcında maddənin atomlarını araşdırarkən, elmi mühitlərdə belə bir təsəvvür yaranmışdı ki, bütün elmi nəzəriyyələr və modellər

təxminidir və dilimizin natamamlığından əziyyət çəkirlər. Yeni kəşflər fizikləri məcbur etdi ki, onlar qəbul etsinlər ki, atom və subatom səviyyəsindəki gerçəklik üçün adi insan danışıq dili qətiyyən yararlı deyil. Müasir fizikanın iki sütunu olan, kvant fizikası və nisbilik nəzəriyyəsi, məlum oldu ki, klassik məntiqin qanunlarına tabe olmur. Belə ki, kvant fizikasının yaradıcısı V.Heyzenberq yazır ki, adi danışıq dili ilə kvant fizikası haqqında danışmaq olmur, necə edəsən, hansı sözü işlədəsən riyazi simvolların əvəzinə, məlum deyil; yalnız bir şey aydındır ki, adi danışıq dili atom quruluşunu təsvir etmək üçün yetərsizdir" (21, s. 40).

Adi danışıq dilində sözlərin və fikirlərin arxasında intuisiya bolluğu dayanır. Sanki adi dil bu fon üzərində "gəzişir". Belə intuisiya bolluğunun meydana gətirdiyi assosiasiyalar danışıq dilinin birmənalı və dəqiq olmasına mane olur. Məsələn, humanitar düşüncədə bunu asanlıqla müşahidə etmək olar. Belə ki, humanitar sahələrdə sözlərin və cümlələrin müxtəlif yozumları mümkündür. Lakin riyazi dilə tərcümə olunmuş, riyazi simvolikaya köçürülmüş düşüncələr intuisiya bolluğundan və müxtəlif məna çalarlarından qurtulmuş olur. Pifaqor teoreminin mənası dəqiqdir, onun bir yozumu var və neçə minillərdir də bu belədir və belə də qalacaq. Başqa sözlə, idrak intuisiya labirintindən çıxaraq simvolların mühitinə düşür, onun qrammatikasına tabe olur. Çünki intuisiya bolluğu münasibətləri bir-birindən çox da uzaqlaşmağa qoymur, bu münasibətlərin tərkibi müxtəlif tellərlə bir-birinə bağlanmış olur. Lakin simvolların konkret mənası olduğundan belə problemlər yaşanmır. Nəticədə, simvolik dil bir-birindən çox uzaq olan münasibətlər arasında əlaqə qura bilir. Görkəmli fizik, kvant mexanikasının digər banisi N.Bor deyirdi ki, riyaziyyat mürəkkəb ifadələrin ifadəsi üçün nəzərdə tutulmuş dilə çox bənzəyir. "Elmin yaratdığı fundamental anlayışlar son nəticədə simvollardır. Hansı ki, yaradıcı ruh onu hisslərlə birbaşa verilən məlumata qarşı qoyur. Məhz bu nəzəri idrak, tamamilə simvollaşmış konstruksiya bizə hadisələri əvvəldən görməyə imkan verir (20, стр. 57).

Fikrimizcə, bunlarla yanaşı simvolik dilin ən əsas üstünlüyü ondadır ki, o, riyazi yaradıcılıqda yüksək instrumental effektə malikdir və əks-əlaqə mexanizmi yaradır. Bu işləyən riyaziyyatçı ilə kağıza köçmüş yazı arasında baş verir. Yəni kağıza köçmüş simvollarla düşüncə mexanizmlər arasında əks-əlaqə və dialektika baş tutur. Sanki kağıza köçmüş fikirlər özgələşir, onlar üzərində yenidən refleksiya etmək mümkün olur. Yuxarıda qeyd etdiyimiz kimi, simvolik dil intuisiya bolluğundan sərf-nəzər olunduğundan o eyni dərəcədə müxtəlif bilik sahələrinə tətbiq oluna bilmək imkanı qazanır. Həmin sahədə biz düşünərkən eyni düşüncə mexanizmlərindən istifadə edirik, lakin bu sahə riyaziyyata daxil olanda, həmin düşüncə mexanizmlərinin uzantısı olan simvollar, riyaziyyatın simvolik dili işə düşür, hansı ki, bu dil daha çox düşüncə mexanizmləri arasında münasibət qura bildiyindən, nəticədə deyilən effekt alınır. Yəni əslində düşüncə mexanizmləri eynidir, lakin üçüncü bir vasitə olan simvolik dil köməyə çatır. Bizcə idrak özü - öz üzərində refleksiya etməsinin üsullarından biri, onun simvolik dilə və ümumiyyətlə dilə köçməsidir. Dilə köçən fikirlər maddiləşir. Artıq maddiləşmiş obyektlər üzərində idrak yenidən fikir əməliyyatları apara bilir. Başqa sözlə, bu mexanizm idrakın özü - öz üzərində refleksiya aparmasının mexanizmi sayıla bilər. Əgər bu fikri daha da ümumiləşdirsək, cəsarətlə demək olar ki, bəşəriyyət yazının övladıdır. O, öz keçmişini, qazandığı təcrübəni dilin köməyilə maddiləşdirib saxlayır, sonradan onun üzərində, özü öz keçmişi üzərində refleksiya edə bilir. Yəni bəşər düşüncəsi hər dəfə yenidən yox, qaldığı yerdən davam edir. Simvolların fəlsəfəsini araşdırmış tanınmış alman filosofu E.Kassirer yazır: "Təfəkkür üçün onun özündən ilkin şey ola bilməz" (22, s. 158). Təfəkkür isə yalnız simvollara, yazıya köçəndən sonra özü üçün obyekt ola bilir.

Başqa sözlə, biz öz düşüncə mexanizmlərimiz arasında münasibətlər aşkar etməklə məşğuluq, bunun üçün də onu başqa müstəviyə proyeksiya edirik. Yəni düşüncə mexanizmləri üzərində refleksiya etmək üçün onlar başqa bir müstəviyə köçürülür ki, yenə də eyni

mexanizmlərlə refleksiya oluna bilsinlər. Fikrimizcə, bu çox vacib məqamdır. Riyaziyyatın daxilində geniş istifadə olunan koordinatlama ideyası da bu mexanizmə söykənir. Yuxarıda da qeyd etdiyimiz kimi, idrakın özü öz üzərində refleksiya etməsi problemi fəlsəfədə mühüm problemlərdən biridir. Bizim diqqət çəkdiyimiz məqam isə bu problemə müəyyən aspektdən işıq saçır. Düşüncə mexanizmlərini məntiqin uzantısı kimi qəbul etsək, riyaziyyat həm də məntiqə oxşayır. Bundan başqa o, simvolik dildən istifadə etməklə bu məntiq üzərində refleksiya edə bilir. Nəticədə, riyaziyyat həm də iki böyük sahənin - məntiq və simvolik dilin vəhdətinə çevrilir. Bu deyilənlərdən belə alınır ki, riyaziyyat demək, elə dil deməkdir. Məsələn, "C.U.Gibbs müasir fizikanın statistik mexanika, riyaziyyatın vektor hesabı kimi konsepsiyalarının banilərindən hesab olunur. On illərlə işlədiyi Yel Universitetində az danışan adam kimi tanınıb, iclaslarda heç vaxt çıxış etməzmiş. Lakin onu məşhurlaşdıran bir replikası olur. İclasların birində müzakirə olunurmuş ki, riyaziyyata daha çox diqqət ayrılsın, yoxsa qədim dillərə. Birdən Gibbs yerdən müdaxilə edir - Axı riyaziyyat da dildir!" (23, s. 8). Məhz bu məqam, yəni riyaziyyatın elmdən çox dil olmasını, daha doğrusu təbiət elmlərinin dili olması fikrini daha çox təbiətşünas alimlər, xüsusən də fiziklər səsləndirirlər. Lakin riyaziyyat bu aspektə doğurdan da xeyli parlaq görünsə də, onun mahiyyəti bununla məhdudlaşmır. O, fərqli tərkibə və mahiyyətə malikdir.

Beləliklə, simvolik dil sanki müstəqilləşərək inkişaf nəticəsində öz qaydalarını, qanunları, qrammatikasını yaradır. Simvolik dil imkan verir ki, riyaziyyatın müxtəlif sahələri eyni məsələnin həllində səfərbər olunsun. Çünki simvollar içərik daşımadığından onlar obyektlərin özlərini yox, onlar arasındakı münasibətləri daşıya bilir. Bu da imkan verir ki, eyni düşüncə mexanizmləri, eyni ideyalar simvollar araçılığı ilə bir məsələdən digərinə daşına bilsin. Nəticədə isə riyaziyyatın bir-birindən çox uzaq görünən sahələri çox faydalı şəkildə eyni işə yardım edə bilir. Məsələn, eyni məsələdə funksiyalar, topoloji fəza, kompleks ədədlər və.s yeri gəldikcə və ya cəlb olunduqca heç bir ziddiyyət olmadan tətbiq oluna bilir. Başqa sözlə, riyaziyyat heç vaxt özü-özünə zidd gəlmir. O, bütöv bir orqanizmə çevrilir. A.Puankarenin obrazlı təbirincə desək, “riyaziyyat insan kimi mükəmməldir, toplum isə natamamdır” (16, s. 267).

Beyinin işi, yaradıcılıq prosesi sinergetikdir. Yaradıcılıq məntiqin sərt qanunlarına tabe olmur. Bizim fikrimizcə, məntiq beyindən çöldədir, yazıdadır. O, çöldən öz qanunları ilə içəriyə, şüur proseslərinə yön verərək, onun yenidən təşkilatlanmasına səbəb olur. Əgər məntiq beynin və şüurun özünə immanet xas olsa idi, onda Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi yarana bilməzdi və uğurla tətbiq oluna bilməzdi. Yeri gəlmişkən, A.Uaythed Aristotelin formal məntiqini təhlil edərkən, onun elmə xeyirdən çox ziyan vurmasını deyirdi (24 s. 198). Məlumdur ki, məntiq qanunlarını ilk dəfə sistematikləşdirən, kateqoriyalar şəklinə salan Aristotel olmuşdur. Və elmə daxil olan bu məntiqi kateqoriyalar sonrakı elmi düşüncəyə də təsir etmişdir. Məsələn, riyaziyyatda ən çox istifadə olunan "üçüncünü istisna qanunu" hələ də müzakirə mövzusudur. Bu müzakirələr nə az nə çox, riyaziyyatın fəlsəfəsində intusionizm kimi cərəyanın ayrılmasına səbəb olmuşdur. Məntiq daha çox elmdə saxlanır. Sosioloji baxımdan elm adamının adi adamdan düşüncə stilindəki fərqi də bu baxımdan izah etmək olar. Elmin öz dili var və çox zaman da elm adamı bu dilə tabe olur. Bu dilin çərçivəsi, "qrammatikası" məhz məntiqi qanunlarıdır. Sanki mədəniyyət, yazı bizi uşaqlıqdan məntiqi düşünməyə öyrədir. Sözlərinin arasında heç bir rabitə olmayan, danışanda yuxuda gördükləri ilə real həyatda gördüklərini çox rahat bir-birinə qarışdırıb danışan uşagın, böyüdükcə necə düşünəcəyini mədəniyyət ona təqlid edir. Məntiqin ontologiyası bu paraqrafın məqsədindən kənara çıxdığı üçün biz onu uzun-uzadı əsaslandırmırıq və sadalanan arqumentlərlə kifayətlənirik. Lakin məntiqin ontologiyasının yazıda olmasını problem kimi irəli sürürük.

**Açar sözlər:** riyaziyyatın tarixi, Xarəzmi, riyaziyyat nədir, simvolik dil, refleksiya aləti.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Пуанкаре А. О науке. М., Наука, 1990, 736 с.
2. Лакатос И. Избранные произведения по философии и методологии науки. М., Академический проект. Трикста, 2008, 475 с.
3. David M. Burton. The History of Mathematics An Introduction. New York, McGraw-Hill, 2011, 819 p.
4. Ali Ülger. Matematiğin kısa tarihi / Matematik dünyası dergisi. 2003, №3, s.53-56.
5. Roger L. The history of mathematics A brief course. John Wiley & Sons Inc., 2013, 615 p.
6. Нейгебауэр О. Точные науки в древности. М:Наука, 1968, 224 с.
7. Аристотель. Метафизика.М., Институт философии, теологии и истории св. Фомы, 2006, 232 с.
8. Ван дер Варден Б.Л. Пробуждающаяся наука. Математика Девнего Египта, Вавилона и Греции. М.: Наука, 1959, 456 с.
9. Ali Ülger. Matematiğin kısa tarihi / Matematik dünyası dergisi. 2003, №4.
10. Krantz S.G. An Episodic History of Mathematics. Mathematical Culture through Problem Solving. Mathematical Association of America, 2010, 381 p.
11. Merzbach U.C., Boyer C.B. A History of Mathematics. Wiley, 2011, 688 p.
12. Стройк Д.Я. Краткий очерк истории математики. М:Наука,1990.
13. Пенроуз Р. Картина мира на листе бумаги // Наука и жизнь. 2013, №6.
14. Кант И. Собрание сочинений В 6 т т.М: Мысл,1966,743 с.
15. Клайн М. Математика: Утрата определенности. М:РИМИС, 2007, 640 с.
16. Вечтомов Е.М. Метафизика математики. Киров:Изд-во ВятГГУ, 2006, 508 с.
17. Əkbərov M. Riyaziyyat nədir? Bakı:Nurlar, 2003, 448 s.
18. Баранец Н.Г., Верёвкин А.Б. Образы математики. Советские математики о науке. Ульяновск-Издатель Качалин А.В., 2015. - 328 с.
19. Юшкевич А.П. Лейбниц и основание исчисления бесконечно малых // Успехи математических наук,1948. т3, № 1(23).
20. Вейль Г. Математическое мышление. М: Наука,1989, 400 с.
21. Капра Ф. Дао физики. СПб., ОРИС, ЯНА-ПРИНТ. 1994, 302 с.
22. Кассирер Э. Философия символических форм. Т.1. Язык. М., СПб, 2002, 272 с.
23. Яглом И.М. Математика и реальный мир. М:КомКнига, 2007, 64 с.
24. Уайтхед А.Н. Приключения идей. М:ИФРАН, 2009, 383 с.

**Эльдар АМИРОВ**

## МАТЕМАТИЧЕСКОЕ ПОЗНАНИЕ И ЕГО СПЕЦИФИЧЕСКИЕ ХАРАКТЕРИСТИКИ

### Резюме

В статье выдвинуты некоторые соображения о формировании общих представлении математике, которая является великолепной страницей истории человеческого мышления. Вначале даются краткие, но содержательные сведении об истории математики и подчеркиваются ее поворотные пункты в ее развитии. Далее

автор излагает свои мысли о природе математики, ее особенностях и конкретном символическом языке. Отмечается, что математика является не только вычислением, она обладает разными значениями и эта область имеет уникальный символический язык, который является основным рефлексивным инструментом математики.

**Ключевые слова:** история математики, Хорезми, что такое математика, символический язык, рефлексивный инструмент.

**Eldar AMIROV**

## MATHEMATICAL COGNITION AND ITS SPECIFIC CHARACTERISTICS

### Summary

The main aim of the article is to put forward a discussion in order to formulate a general imagination about mathematics, which is considered one of the main captions of the history of though of humanity. Therefore, initially, it takes the brief but comprehensive glance to the history of mathematics and highlights its turning points and opportunities throughout history. Then, discusses the essence of mathematics, its peculiar characteristics, and possession of special symbolic language. The article indicates that mathematics is not only arithmetic, but also possesses different meaning and there is peculiar symbolic language in this field. Meanwhile, it is emphasized that this peculiar language is the main reflection tool of mathematic.

**Keywords:** History of mathematics, Kharezmi, what is mathematics, symbolic language, reflection tool.

UOT 18.001.12

**Günay ZEYNALOVA**
*Doktorant,*
*AMEA Fəlsəfə İnstitutu*

# ESTETİK İDEYALARIN KONTRASTI: ANTİK ESTETİK TƏFƏKKÜR VƏ YENİ DÖVR*

Məlumdur ki, kosmoloji təsəvvürlər və onların üzərində qurulan kosmosentrizm dünyagörüşü hələ qədim dünyada artıq öz ifadəsini tapmışdı. Məsələn, bunu qədim Çinin ictimai fikrində də müşahidə etmək olar. Çin estetik fikri Qədim dövrün sonunda – Orta əsrlər dövrünün başlanğıcında öz inkişaf zirvəsinə çatmışdı. Burada xüsusi estetik tədqiqatlar aparılmasa da, bədii fikirdə, incəsənətin bütün sahələrində estetik ideyalar və prinsiplər dolayısı ilə olsa da öz ifadəsini tapmışdı. Nümunə olaraq b.e. I əsrində yaşamış Van Çunun yaradıcılığına müraciət edək. V.A.Krivtsov qeyd edir ki, Van Çun özünün "Tənqidi mülahizələr" əsərində estetikada formalizmə qarşı çıxış edərək həqiqətin, o cümlədən estetik təsəvvürlərin meyarının praktikada olmasını bəyan etmişdir. Van Çunun yaşadığı dövrdə konfutsiçilik rəsmi dövlət ideologiyası olmuşdur. Tərkidünyalıq və ehkamçılıq bədii fikirdə hökm sürürdü. Bununla belə, tarixi elmin vüsət alıb inkişaf etməsi də qeyd olunmalıdır (1, s. 217). Gözəllik haqqında təsəvvürlərin meydana gəlməsi kosmosentrizmin insanların dünyagörüşündə oynadığı rol ilə bağlı idi.

Elə Qədim dövrdən etibarən kosmosentrizm, burada dünya, insan haqqında formalaşan təsəvvürlər, həmin təsəvvürlər sırasında harmoniya, tarazlıq, bərabərlik, uyğunluq haqqında fikirlər estetik şüurun, bunun da daxilində gözəllik haqqında təsəvvürlərin formalaşmasına təsir göstərmişdir. Bu barədə qədim Yunanıstanda Aristotel, Lukian, Çində Konfutsiy, Van Çun, kosmoloji fikrin Yeni dövrdə tədqiqatçıları Q.Qaliley, N.Kopernik, C.Bruno, İ.Nyuton, müasir dövrdə estetik fikir tarixini dərindən öyrənən V.Asmus, A.A.Taxo-Qodi, D.Litman, P.Trofimov və digər tədqiqatçıların adlarını qeyd etmək olar. Müasir dövrdə də bu problemə maraq azalmır. Bunun səbəbi dünyanın bütövləşmə, qarşılıqlı asılılıq müstəvisinə keçməsidir. İnsanlar öz təbii köklərini bərpa etmək, dünya qanunlarını öyrənməklə onun möhtəşəmliyinin vahid tərkib hissəsinə çevrilmək istəyirlər.

Məqalədə müxtəlif mənbələrə və elmi-nəzəri ədəbiyyata istinadən kosmosentrizm mərhələsində estetik ideyaların formalaşması xüsusiyyətləri araşdırılır, indiki estetika elminin Qədim dövrdə formalaşmış müqəddəm şərtləri üzə çıxarılır.

**Əsas hissə.** Qədim dövrdə kosmosentrizm ideyaları və prinsipi tədricən formalaşdıqca ona uyğun olaraq insanların bədii dünyagörüşü, estetik təxəyyülü və zövqü də meydana gəlməyə başladı. Bunu ədəbiyyatın, incəsənətin müxtəlif sahələrinin inkişafında görmək olar. Eyni zamanda bu sahədə elmi fikir də öz təşəkkülünü tapdı. Burada ilk növbədə Aristotelin adı çəkilməlidir.

Tədqiqatçıların haqlı hesab etdiyi kimi, gözəlliyin realist estetikasını Aristotel birbaşa estetik pedaqogika və sosial-siyasi baxışları ilə əlaqələndirir. Burada "katarsis" (faciədə təmizlənmə, paklanma) anlayışı da sosial mənada istifadə olunur (2, s. 114). Aristotel həm də estetik zövq və estetik tələbat haqqında fikir irəli sürmüşdür. Bu anlayışlara (yəni zövqə və tələbata) uyğun olaraq ədəbi janrlarda, səhnə üçün yazılan əsərlərdə vəhdət və bütövlülük

* Məqalə fəlsəfə ü.e.d. Adil Əsədov tərəfindən çapa məsləhət görülüb.

baxımından fabula və süjet gözlənilməlidir: vahid məkan, bir problem və onun ətrafında aparılan hərəkətlərin nəticəsində onun həlli.

Estetik ideyaların inkişaf tarixinin daha bir nümayəndəsi eramızın II əsrində yaşamış Lukian olmuşdur. Tədqiqatçılar vurğulayırlar ki, qədim Yunanıstan və Roma ərazilərində mifoloji təsəvvürlər Şərq inamların təsiri altında tədricən dağılmağa başlamışdı. Demokratik azadlıqlar, vətəndaş hüquqları arxa plana çəkilirdi (3, s. 184).

Məlumdur ki, ellinizm mərhələsində gözəllik anlayışı musiqidə, ədəbiyyatda, natiqlik sənətində daha çox formal ölçülər əsasında araşdırılır və təyin olunurdu. Musiqidə metrika və ladlar sistemi mürəkkəb qruplaşdırmalar şəklində izah olunurdu (3, s. 185).

İlk növbədə Lukian Hesiodu tənqid atəşinə tutaraq qeyd edir ki, incəsənəti dindən ayırmaq lazımdır. Yəni Hesiodun muzalardan ilhamlanıb əkinçilərə necə və nə vaxt əkib-becərməyini öyrətməsi lazım deyil. Yaradıcılıq və azadlıq imkanlarını insanların əlindən almaq lazım deyil. Digər tərəfdən elm ilə incəsənəti də fərqləndirmək lazımdır. İncəsənət özünəməxsus yaradıcılıq fəaliyyətidir. Burada yaradıcı təxəyyülün rolu olduqca böyükdür. Hər hansı bir sənət nümunəsinin qiymətləndirilməsində estetik meyarı gözləmək lazımdır. İlk növbədə gözəlliyin qavranılmasına hazır olmaq lazımdır. Bədii tərbiyə və savad olmadan estetik duyumu düzgün formalaşdırmaq mümkün deyil (3, s. 191-192).

Lukian gözəllik kateqoriyasının özünəməxsusluğunu harmoniya, ölçü, müxtəliflik anlayışlarında axtarırdı. O qeyd edirdi ki, gözəllik dedikdə harmoniya və ölçünün qavranılması və bunlardan zövq alınması nəzərdə tutulur. Yəni Antik dövrün klassik mərhələsində gözəlliyin real həyatda, real ifadədə öyrənilməsinə üstünlük verilirdi. Mükəmməl gözəlliyin vəsfi ruhun xeyirxahlığını bədənin biçilmiş gözəlliyi ilə birləşdirməkdir (3, s. 194-196). Burada real gözəlliyin idealı formalaşdırılır. Lukian "Xaridem və yaxud gözəllik haqqında" əsərində göstərir ki, gözəlliyə sevgini ilk növbədə allahlar və ilahələr ifadə etməyə çalışırdı.

O yazır ki, Səma sakinləri (yəni allahlar) gözəlliyə açıq şəkildə dəstək verirdilər. İnsanlar üçün də gözəllik İlahi mənşəli və olduqca cazibəlidir. Gözəllik öz təbiətinə görə bütün varlıqlara ahəng və nizam gətirir. Nəhayət, gözəllik duyumu elə olur ki, gözəl insanlar səcdə obyekti olur, onlara qarşı paxıllıq oyanır, nifrət yaradılır. Heç kəsin söz qüdrəti çatmaz ki, gözəlliyi lazım olduğu kimi vəsf etsin. Dünyada nə varsa, hətta ilahilik baxımından, gözəllik onların hamısından üstündür (4).

Kosmosentrizm ideyasının dünyanın müxtəlif regionlarında estetik təsəvvürlərə təsirinin öyrənilməsini Hindistan timsalında davam edək. Tədqiqatçıların belə bir qənaətini qeyd edək ki, hind fəlsəfə sistemi qədim hind darşanlar prinsiplərinə əsaslanır, induizm dini etiqadlar və inanclar kompleksinə söykənir, ontoloji təsəvvürlərdə böyük müxtəliflik müşahidə olunsa da, advayta – vedanta burada üstünlük təşkil edirdi. İlahi reallığın dərk olunmasında hisslər, ağıl və praktika əslində kömək edə bilmirlər, bunu yalnız mistik ekstaz, vəhy, intuisiya yolu ilə etmək olar (5). Hər bir fəlsəfə məktəbində olduğu kimi, hind fəlsəfəsində də müxtəlif yanaşmalar, cərəyanlar, ənənələr var ki, həmin mövqedən ontologiya, qnoseologiya, digər sahələr qiymətləndirilir. Aparıcı cərəyan olan advayta – vedantanın ontoloji və qnoseoloji yanaşmaları həm də özündə kosmoloji və estetik ideyaları, o cümlədən gözəllik anlayışını əhatə edir.

Qədim mənbələrdən biri olan "Upanişadlarda" yeganə universal, ideal xarakterli varlıq Brahmandır, çünki o, mütləq, əbədi, hərəkətsiz, keyfiyyətləri olmayan, sonsuz, amorfdur. O, təbiətin səbəbidir ki, özünü hadisələr və predmetlərdə nisbi olana, ötüb keçənə, hərəkət edənə, sona məhkum forması olana çevrilir. Brahman təbiətə çevrilmək üçün mütləq olaraq zaman, məkan, səbəbiyyət imkanlarından istifadə edir, universuma (bütün dəyişikliklərin cəmi) əsaslanır. Mütləqin təbiətə çevrilməsi prosesi bir sirrdir, bu suala heç kəs cavab verə bilməz. Brahmana qovuşmaq üçün ruhu maddi aləmin "buxovundan" azad etmək lazımdır (6).

Brahman dedikdə, qədim hindlilər onun adı ilə öz həyatlarında olan ən yaxşı olanları, məziyyətləri əlaqələndirirdilər. İlk növbədə işığın saçılması, onun parıltısı, insanın qəlbində işıqlı anların yaşanması, rəng çalarları, göy cisimlərinin parıltısı və işıq saçması, isti günəş işığı və s. ilə bağlı olan estetik təsəvvürlər həmin dövrdə insanların təfəkküründə üstünlük təşkil edirdi. Hətta "ali və pak Brahmanın" vəhyi belə böyük sevinc, həzzalma kimi qiymətləndirilirdi. Ali işıq, işıqlar işığı olan Brahman işıq və gözəllik mənbəyidir (7). Həmin və sonrakı dövrlərdə hind mədəniyyətində ədəbiyyat və incəsənətin hansı zirvəyə gəlib çıxması hamıya bəllidir. Dünya şöhrətli "Ramayana", "Maharabharata" və digər əsərləri misal olaraq göstərmək kifayət edər.

Çin fəlsəfəsində də dünya, varlıq haqqında təsəvvürlər müəyyən kosmoloji biliklər üzərində qurulurdu. Aparıcı nəzəriyyələr olan daosizm və buddizmdə varlığın illüzor, xəyali bir dünya olduğunu, ruhun ölməzliyi və onun reinkarnasiyası, əbədi dünyaya olan yolun özünüdərkin kamilləşdirilməsi olması kimi ideyalar müdafiə olunurdu. Konfutsiçilik və neokonfutsiçilik nəzəriyyəsində də "Li" (forma, qanun) və "tsi" (maddə, materiya) arasında münasibətlər araşdırılırdı. "Li" – ağıllı başlanğıc, birincilikdir, "tsi" isə ikinci dərəcəli olaraq konkret cisimlərin formalarını yaradır, onları idarə edir. "Li" obyektiv və dərkolunmazdır, insanda müsbət keyfiyyətləri, "tsi" isə - mənfiləri əmələ gətirir.

Neokonfutsiçilər həm də hesab edirdilər ki, varlıqda olan ilkin forma "taysu"dur, yəni bu, "tsi" xırda hissəcikləri olan sonsuz fəzadır. Sonradan "tayxe" mərhələləri formalaşır və burada "böyük harmoniya" əmələ gəlir. Burada hissəciklər fəal və passiv hissələrə bölünərək predmetləri yaradır. Nəticədə, inkişaf və dəyişiklik fəal və passiv şəkildə həyata keçir (in, yan). Sonda bütün hərəkətin inkişafının nəticəsi olan barışıq, ümumi razılıq əldə edilir (8). Demək olar ki, Çin fəlsəfəsinin də əsasında cəmiyyət və təbiətin qanunauyğunluqları, onların dərk edilməsi və onlara riayət edilməsi durur. Burada dünyanın möhtəşəmliyində və insanın daxili əzəmətində estetik ideal da axtarılırdı.

Bu sahədə daosizmi və konfutsiçiliyi xüsusi olaraq qeyd etmək lazımdır. İnsan həyatında söykəndiyi uyğunluq, bərabərlik, analogiya, simmetriya, əksliklər və harmoniya anlayışları demək olar ki, tam olaraq kosmoloji və ontoloji təsəvvürlərdə öz əksini tapmışdı. Fəlsəfi təlimlərin nümayəndələri estetik idealı etik idealdan ayrı təsəvvür edə bilmirdilər. Daoçular hesab edirdilər ki, insan və cəmiyyət o zaman gözəl sayıla bilərlər ki, özlərini obyektiv aləmin gözəlliyinə uyğunlaşdıra bilsinlər. Konfutsinin isə tətbiq etdiyi "mey" anlayışı həm gözəl, həm də xeyirxah mənaları özündə daşıyırdı (9).

Bildiyimiz kimi, Qədim Çin fəlsəfəsində tədqiqat problematikası daha çox insan və cəmiyyətlə bağlı idi. Kosmologiya ilə bağlı ideyalar burada da kifayət qədər zəngin və dərin idi, eyni zamanda artıq məlum bir fakt kimi qəbul olunaraq sosial sahədəki ideyaların mühüm əsasını təşkil edirdi. Bunu daha qabarıq şəkildə Konfutsinin yaradıcılığında görmək olar. Comərd insan olmaq, fəzilətli həyat tərzi sürmək Konfutsinin əsas tələbidir. Konfutsi öz əsərlərində müsbət insani keyfiyyətlərini təbliğ edirdi (10, s.28).

Van Çunun kosmoloji təsəvvürləri onun estetik konsepsiyasına əsaslı şəkildə təsir göstərmişdir. Dünya maddi və realdır, onun əsasında "tsi" adlanan maddi substansiya durur. Səmavi "tsi" ən kamil (pak) olduğu üçün o, bütün qalan varlığın yaradıcısı hesab olunmalıdır. Bütün varlığın yaradıcısı olan "pak tsi" həm də gözəlliyn əsasında durur. İnsanın da maddi həyat enerjisinin əsasını həmin element təşkil edir. İnsan işıqlı və qaranlıq "tsi"nin vəhdətindən əmələ gəlir. İşıqlı tsi mənəvi qüvvə olaraq insanı, o cümlədən onun estetik şüurunu idarə edir. Van Çun və onun davamçılarının estetik prinsiplərindən ən vacib olanı təbiilik anlayışıdır, yəni hər bir şey qanunauyğun və təbii inkişaf edir və inkişaf etməlidir. İnsan davranışı, onun gözəlliyə münasibəti real səbəblər və şərait üzündən formalaşır (1, s. 218-219). Çinlilərin

gözəlliyə münasibəti iki sözlə ifadə olunurdu: formasını "mey", məzmununu isə "şan" bildirirdi. Van Çun "şan" anlayışına daha yüksək dəyər verirdi, gözəllik, ilk növbədə, predmet və hadisələrin məzmunundadır.

Van Çunun böyük xidmətlərindən biri də o olmuşdur ki, o "şi" – doğruluq anlayışını estetik kateqoriyalar sisteminə daxil etdi. "Şi" hər hansı bir ədəbi əsərin meyarıdır. Beləliklə, doğru olan, təbii olan gözəl adlandırıla bilər. İnsan öz həyatında fəal şəkildə gözəl və doğru olanlar uğrunda mübarizə aparmalıdır (1, s. 222-223). Bədii əsərlərdə təsvirçilik, yalan, reallıqdan uzaqlaşma kimi hallar yığışdırılmalıdır. Van Çun konfutsiçilər kimi hesab etmirdi ki, yalnız keçmiş dövr, mifoloji dövr gözəl və ləyaqətli sayılmalıdır. Özünə müasir olan dövrün əhəmiyyətini (estetik mənada) o yüksək dəyərləndirirdi.

Beləliklə, qədim Çin estetik fikri kosmosentrizm ilə sıx bağlı idi. Burada hökm sürən kosmoloji təsəvvürlər həm də estetik təfəkkürə öz təsirini göstərirdi. Estetik ideyaların formalaşması və inkişafı prosesi çətin və mürəkkəb olmuşdur. Burada gözəllik kateqoriyasına da münasibət bildirilmişdir. Estetik əsərlərdə məzmun və forma, realizm və idealizm tendensiyaları formalaşaraq və öz aralarında mübarizə aparırdılar.

Kosmologiya haqqında təsəvvürlərin inkişafına İntibah və Yeni dövrdə elmin yeni kəşfləri də təsir etmişdir. Fizika və riyaziyyat elminin yeni zirvəyə çıxmasında Q.Qaliley, N.Kopernik, C.Bruno, İ.Nyuton kimi dahilərin fəaliyyəti və yaradıcılığı olduqca böyük rol oynamışdır. Eksperiment, müşahidə yolu ilə riyazi metodlardan istifadə edərək bu mütəfəkkirlər belə bir qənaətə gəlmişdilər ki, Yer üzərində və Kainatda hər bir şeyi fizika qanunları idarə edir, bu qanunlara planetlər, ulduzlar və digər göy cisimlərinin hərəkəti də tabedir. Bunların hamısı vahid bir sistem təşkil edir. Məhz Qaliley dünya quruluşunu riyazi, rasional mövqedən izah etməyə çalışmışdır (11, s.28).

Bildiyimiz kimi, Q.Qaliley ilə yanaşı, geosentrik sistemdən heliosentrik sistemə keçidi bəyan edənlərdən biri də N.Kopernik olmuşdur. Məlum olduğu kimi, qədim sivilizasiyalarda belə bir təsəvvür var idi ki, ulduzlara, onların göy üzərində hərəkətinə görə insan öz taleyini öyrənə bilər. Babilistanda, Misirdə, Çində alimlər planetlərin yerdəyişməsinə ciddi şəkildə nəzarət edirdilər. Hətta düşünürdülər ki, göy cisimləri öz hərəkətləri zamanı xətləri və sözləri yazır. Yapon dilində "astronomiya" sözü "Kainatın nitqləri" kimi tərcümə olunur. Astronomların vəzifəsi İlahi xəbərləri ulduzların dilindən insan dilinə çevirmək idi. Primitiv şəkildə olsa da, qədim insanlar Kainatın ümumi mənzərəsini düşünüb ifadə ediblər. Hələ qədim yunanlar heliosentrizmi (Aristoteldən və Hipparxdan başqa) qəbul edirdilər. Buna baxmayaraq geosentrizm uzun müddət hakim mövqe tuturdu, o cümlədən katolik kilsəsi tərəfindən də qəbul olunmuşdu. Bu ideyaların əsasında K.Ptolomey tərəfindən aparılan hesablamalar dururdu (12, s.22).

Orta əsr mütəfəkkiri, İslam Şərqinin tanınmış dini xadimi Əbu Həmid əl Qəzalinin də yaradıcılığında insan və dünya, insan və kosmos məsələsi dini formada öz ifadəsini tapmışdı. Hesab olunur ki, onun "İslam dünyasında tənqid fəlsəfəsinin banisi" olaraq Qərb fəlsəfəsinə təsiri olduqca böyük olmuşdur. Qəzalinin şah əsərlərindən biri sayılan "Kimyayi səadət" (Səadət kimyası) əsərində insan və kosmos arasında əlaqə və münasibətlərindən bəhs edilir. Əsas məzmunu insan həyatı, onun davranışı, sosial əlaqələr və burada dinin rolu olsa da, Uca Haqq, Tanrı, Allah, Quran, Rəsul, səma, dünya problemlərinə də müraciət olunur və bunlara münasibət bildirilir. Onun dünyaya verdiyi qiymət sırf kosmosentrist olmasa da, onun bəzi elementlərini burada görmək olar (13). O, dünyaya belə tərif verir: "bil ki, dünya din yolunda yerləşən mənzillərdən biri olmaqla müsafirləri İlahi dərgaha doğru aparan bir keçiddir... Dünya və axirət gerçəkliyin iki halından ibarətdir: ölümdən qabaqkı hal və sənə yaxın olan bir məqam dünya adlanır, ölümdən sonrakı hal isə axirət adlanır... İnsan mələkuf aləminə xas olan surəti öz ürəyinə həkk edə bilər və İlahi dərgaha layiq ola bilər (13, I cild, s. 138-139).

Əl-Qəzalinin fikrincə, dünyanın bu mənada gözəlliyi, cazibəsi tanınmalıdır, "insan su və torpaqdan ibarət aləmə ona görə düşdü ki, buradan səfər sursatı götürərək Uca Haqqı tanısın. Bu mərifətin açarı nəfsin tanınması və hisslər vasitəsilə xarici aləmdəki varlıqların tanınmasından ibarətdir" (13, I cild, s. 139). Dünya sevgisini bütün günahların mənbəyi kimi göstərən mütəfəkkir hesab edirdi ki, "dünya bütün şər və hərisliyin başlanğıcı və mənşəyidir, onu sevmək isə bütün günahların kökündə dayanır" (13, II cild, s. 141). Bununla belə, müsbət əxlaqi keyfiyyətləri əldə etməklə insan dünya sevgisindən Uca Haqq sevgisini daha yüksək tuta bilərdi.

Belə bir nəticə çıxarmaq olar ki, dünyanın qavranılması insana ona görə lazımdır ki, o, Allaha doğru aparan yolu tanısın və gələcəkdə ona qovuşsun. Deməli, insan real dünyanı mükəmməl saymaya da bilər, bu, axirət dünyası adlanan daha gözəl və daha mükəmməl bir aləmə keçid üçün bir hazırlıqdır. Dünyaya olan sevgi Uca Haqqa, Tanrıya olan sevgi ilə əvəzlənməlidir. Bu mənada insan harmoniyaya, mükəmməlliyə doğru addım atmış olar. Bu barədə sufilərin fikirləri daha qətidir.

Yeni dövrdə estetik təsəvvürlər daha çox incəsənətin bir çox sahələrinin inkişafı və genişlənməsi hesabına formalaşmışdır. Poeziya, rəssamlıq, heykəltəraşlıq, memarlıq və tətbiqi sənət sahələrində böyük yüksəliş müşahidə olunurdu. Həmin dövrün bədii ədəbiyyatında Svift, Riçardson, Fildinq, Smollett, Holdsmit, Şeridan, Berns kimi görkəmli mütəxəssislərin adlarını çəkmək olar. Həm nəzəri, həm də praktiki səviyyələrdə adı çəkilən və digər sənətkarlar estetikanın bir çox kateqoriyalarına öz münasibətini bildirmişlər. Tədqiqatçıların tutduğu mövqe dövrün siyasi, iqtisadi və mənəvi xüsusiyyətləri ilə təyin olunur. Kapitalizm mərhələsinin sənaye dövrü sosial proseslərə dərin təsir göstərirdi. Sosial – mənəvi dəyərlər əsasən ailə-məişət və əxlaqla bağlı idi. Bununla yanaşı, "estetik təfəkkürdə incəsənətin bədii normalarının axtarışı, bədii yaradıcılığın əsas istiqamətlərinin təhlili aparılırdı" (14, s. 4-5).

E.Berk yazdığı traktatında empirizm və sensualizm ideyalarından irəli gələrək göstərir ki, intellekt bütövlükdə hisslərə, duyğulara əsaslanır: ümumiyyətlə, o belə hesab edir ki, hər hansı bir təbii hadisə, mürəkkəb predmet sistem-struktur yanaşması baxımından öyrənilib təhlil olunmalıdır. Təhlil həm də müqayisəli metod əsasında aparılmalıdır. Bədii zövq haqqında da Berkin ideyaları müəyyən maraq doğurur. O düşünür ki, həm zövq, həm də təxəyyül müəyyən prinsiplər əsasında təhlil olunmalıdır. Sənətkar hesab edir ki, gözəllik və təxəyyül insanların duyğularından irəli gələrək formalaşır. Zövqlə bağlı müəllif bildirir ki, bu, mürəkkəb ideya olaraq hissi həzlərin qavranılmasından ibarətdir. Buraya həm də təxəyyül həzləri və düşüncə fəaliyyətinin qənaətləri daxildir (15). Duymaq və düşünmək – bu iki aktın birləşməsi zövqü yaradır. Yanlış zövq yanlış fundament üzərində qurulur (16).

Zövq vasitəsilə insan hissi həzləri ilə yanaşı ehtirasları, davranış normalarını və insanların hərəkətlərini də qavrayır. Nə qədər ki, insanlar təbiətə yaxın idilər, insan zövqünə musiqinin, incəsənətin təsiri daha dərin olmuşdur. Lakin zaman keçdikcə insan zövqü təkmilləşir və inkişaf edir (16). Berk həm də "uca hisslər" anlayışına münasibət bildirmişdir. Uca hisslər estetik mahiyyət daşıyır və estetik olmayan hisslər üzərində qurulur. Onlar hamıya xasdır.

Gözəllik probleminin təhlili ilə bağlı E.Berkin xidməti ondan ibarətdir ki, o, ilk növbədə gözəl olanın mahiyyətini, təbiətini öyrənməyə çağırırdı. Berk hesab edirdi ki, gözəllik obyektiv bir xasiyyətdir, bu həm təbiətə, həm də cəmiyyətə xasdır. O, insanda sevinc və həzz hisslərini oyadır, zəriflik və incəlik halını əmələ gətirir (15). Gözəllik düşünülmür, o birbaşa qavranılır. Gözəllik fayda verməsə də, gözəlliyində qalır. Bu, bir obyektiv reallıqdır, gözəllik həyatiliyin və hərəkətin daşıyıcısıdır.

**Nəticə**. Estetik ideyalar Yeni dövrdən etibarən yeni elmi-nəzəri zəmin üzərində formalaşıb inkişaf etməyə başlamışdır. Nəticədə, estetika elmi meydana gəldi. İndi də onun

dərin kökləri öz əsasını kosmosentrizmdə tapır. Əsrlər boyu yüksək göylərin təsiri altında insanlarda kosmos, ətraf mühit haqqında təsəvvürlər formalaşıb. Bunların içində hələ qədim dövrdə öz cücərtisini verən estetik ideyalar insanların bədii təfəkkürünün formalaşmasına, yeni elm sahəsi olan estetikanın meydana gəlməsinə səbəb olmuşdur. İnsanın kosmosla vəhdət təşkil etməsi sonuncuya xas olan bir çox əlamətlərin, ilk növbədə, harmoniya və gözəlliyin mənalarının axtarıb tapılması ilə nəticələnmişdir.

**Açar sözlər**: kosmosentrizm, estetik ideyalar, gözəllik anlayışı, estetika tarixi və nəzəriyyəsi.

## İstifadə olunmuş ədəbiyyat

1. Кривцов В.А.Эстетические взгляды Ван Чуна// Из истории эстетической мысли древности и средневековья. М.: Изд. АН СССР, 1961.
2. Асмус В. Искусство и действительность в эстетике Аристотеля //Из истории эстетической мысли древности и средневековья. М.: Изд. АН СССР, 1961.
3. Тахо-Годи А.А. Некоторые вопросы эстетики Лукиана //Из истории эстетической мысли древности и средневековья. М.: Изд. АН СССР, 1961.
4. Лукиан. Собрание сочинений в двух томах. Пер. под ред. с комментариями Б.Л.Богаевского. Статьи Б.Л.Богаевского, П.Ф.Преображенского. Серия: Античная литература. М.-Л: Academia, 1935.
5. Литман А.Д. Философия в независимой Индии. Проблемы, противоречия, дискуссии. М.,1988.
6. Небеса Брахмы // http://abhidharma.ru
7. Ведическая культура и мировоззрение // http://harekrishna.ru/
8. Неоконфуцианство – «ортодоксальная идеология феодального Китая» //http://philosophy-books.info/
9. drevnimir.ru
10. Конфуций. 100 человек, которые изменили ход истории. № 46. М., 2009.
11. Галилей Г. 100 человек, которые изменили ход истории. № 9. М., 2008.
12. Коперник Н. 100 человек, которые изменили ход истории. М.: Де Агостини, 2009.
13. Əl-Qəzali əbu Həmid. Kimyayi səadət (Səadət kimyası). 2 cilddə. Tərcüməsi N.Göyüşov. Bakı.: Şərq-Qərb, 2012.
14. Трофимов П.С. Возвышенное и прекрасное в эстетике Э.Берка //Из истории эстетической мысли нового времени. М.: Изд. АН СССР, 1959.
15. Берк Э. Философское исследование происхождения наших идей возвышенного и красота. М.: Искусство, 1979.
16. Волков С.Н. Неомистицизм на современном этапе //XXI век: итоги прошлого и проблемы настоящего. Выпуск 06(28), Т.2. 2015.

**Гюнай ЗЕЙНАЛОВА**

## КОНТРАСТЫ ЭСТЕТИЧЕСКИХ ИДЕЙ: АНТИЧНАЯ ЭСТЕТИЧЕСКАЯ МЫСЛЬ И НОВОЕ ВРЕМЯ

### Резюме

В Древней Греции и в других исторических регионах собирали подробную информацию о космосе, Вселенной, движении небесных тел, о воздействии их на жизнь на Земле, выдвигали различные гипотезы. Несмотря на огромные размеры Вселенной, люди обратили внимание на существующий в ней порядок, четкость, гармонию, которые становились для них примером и источником подражания. Сущность космоцентрического подхода заключается в том, что при оценке мира и жизни, мерилом выступают небесный порядок и целостность. В истории философии данная проблема нашла свое выражение в различных учениях, произведениях искусства, исследованиях. В формировании и развитии эстетики как науки и практической духовной сферы роль космоцентризма велика.

**Ключевые слова**: космоцентризм, эстетические идеи, понятие красоты, история и теория эстетики.

**Gunay ZEYNALOVA**

## CONTRASTS OF AESTHETICAL IDEAS: ANTIQUE AESTHETICAL THOUGHT AND A NEW PERIOD

### Summary

In ancient Greece and in other historical regions they gathered all-round information on Cosmos, the Universe, movement of celestial bodies, on their impact on life on Earth, put forfard the various hypotheses. Despite a huge sizes of the Universe the people paid attention to the order existing there, clearness and harmony which turned to be an example and source of imitation for them. An essence of cosmocentric approaches in that at estimation of the world and life the criteria come to be a heaving order and values. In history of philosophy the given problem found its expression in different teachings, works of art, investigations. In the formation and development of aesthetics as science and practical spiritual sphere the role of cosmocentrism is great.

**Keywords**: cosmocentrism, aesthetic ideas, the concept of beauty, history and theory of aesthetics.

**UOT 101.1**

**Rəşadət YAQUBLU**
*dissertant,*
*Naxçıvan Dövlət Universiteti*

# DAVAMLI İNSAN İNKİŞAFI KONSEPSİYASININ SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ*

XX əsrin sonlarında meydana gəlmiş davamlı inkişaf konsepsiyası qısa zaman ərzində çoxsaylı tərəfdar toplamaqla yanaşı, özünün konkret tətbiqini də tapmışdır. Formal baxımdan öz tərkibinə görə iqtisadi, ekoloji və sosial hissələrdən ibarət olan bu konsepsiyanın əsas məqsədi iqtisadi inkişafın dəstəklənməsi, onun davamlı olmasını təmin etməkdən ibarətdir. Sonrakı mərhələdə bu konsepsiyanın davamı olaraq, davamlı inkişaf konsepsiyası təklif edilmişdir. İnsan amilini ön plana çəkən yeni konsepsiyanın mahiyyətini aşkarlamaq və onun cəmiyyətdə sosial problemlərin həllində rolunu göstərmək üçün ilk növbədə "insan inkişafı" anlayışına aydınlıq gətirmək zəruridir.

Davamlı insan inkişafı konsepsiyası ilk dəfə 1990-cı ildə BMT tərəfindən irəli sürülmüşdür. Davamlı insan inkişafı konsepsiyası sosial tərəqqi tendensiyalarını təşkil etməklə cəmiyyətdə hər bir fərdin vəziyyətinin müxtəlif indikatorlar vasitəsilə çoxcəhətli dəyərləndirilməsinə əsaslanır.Digər inkişaf konsepsiyalarından fərqli olaraq Davamlı insan inkişafı konsepsiyası insan həyatının təkcə iqtisadi tərəflərini yox, eyni zamanda onun sosial aspektlərini də (təhsil, səhiyyə, ekologiya, demoqrafiya, mədəniyyət, ailə və məişət və s.) əhatə edir (1, s.79).

Davamlı insan inkişafı konsepsiyası, ümumiyyətlə, inkişafa digər yanaşmalardan fərqlənir və bir sıra paralel konsepsiyalarla eyniləşdirilə bilməz. Deməli, insan inkişafı paradiqma olub, inkişaf problemləri və strategiyalarına yeni prizmadan, insan maraqlarından çıxış etməklə yenidən baxmağı tələb edir. Konsepsiyanın əsas müddəasını belə də formulə etmək olar: insan iqtisadi inkişafın nəinki əsas vasitəsi, ilk növbədə bu inkişafın əsas məqsədidir.

BMT Baş Assambleyasının qəbul etdiyi Ümumi İnsan Haqları Bəyannaməsi inkişafın başlıca məqsədinin insan rifahı olmasını təsdiq edir. Son illərdə BMT-nin himayəsi altında Davamlı insan inkişafının müxtəlif aspektlərinə həsr olunmuş və insana istiqamətlənən inkişaf prinsipini bəyan edən bir sıra forum və konfranslar keçirilmişdir. BMT tərəfindən hazırlanmış məruzələrdən birində bu haqda yazılmışdır: "Millətlərin əsl sərvəti onun insanlarıdır. İnkişafın məqsədi insanların uzunömürlü, sağlam və yaradıcı həyatı üçün əlverişli mühitin yaradılmasıdır. Bu sadə, lakin son dərəcə vacib həqiqət maddi və maliyyə uğurlarının qazanılması prosesində çox tez-tez unudulur" (2, s.10).

Bu vaxta qədər «insan inkişafı» anlayışına müxtəlif təriflər verilmişdir. Fəlsəfə üzrə elmlər doktoru S.Y.Hüseynova görə "insan inkişafı həyatın bütün sahələrində fərdin inkişaf imkanlarının genişlənməsi prosesinin əsas istiqamətlərinin göstəricisidir"(1, s.79). Tərifdən göründüyü kimi, bu anlayış sırf iqtisadi deyil, eyni zamanda həm də mənəvi amilə - insanın inkişaf imkanına yönəlir. Digər tədqiqatçı-alim, akademik U.Ələkbərova görə isə insan inkişafı "istehsalın genişləndirilməsi və iqtisadi göstəricilərin artması deyil, insanlara seçim üçün geniş imkanlar yaradılmasıdır. Bu imkanlara daha məzmunlu, yaradıcı və məhsuldar fəaliyyət göstərmək, uzun, sağlam və dolğun həyat sürmək, tarix boyu toplanmış bilgilərə yiyələnmək,

---

* Məqalə fəlsəfə ü.e.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

qaçıla bilən xəstəliklərdən azad olmaq və s. aiddir. Başqa sözlə, «insan inkişafı» anlayışı azadlıq deməkdir”(3, s.37). Burada da inkişaf anlayışı insanın mənəvi-psixoloji ölçülərinə müncər edilmişdir.

Qeyd etmək lazımdır ki, Davamlı insan inkişafı, bir anlayış kimi, BMT-nin rəsmi sənədlərində də özünəməxsus tərifini almışdır. Adı yuxarıda çəkilmiş məruzədə insan inkişafına belə tərif verilib: “Davamlı insan inkişafı - insanların daha geniş seçim imkanları ilə təmin olunma prosesidir” (2, s.10).

Davamlı insan inkişafına yuxarıda verilmiş tərifləri belə ümumiləşdirmək olar: Davamlı insan inkişafı - insanları həyatın bütün aspektlərində daha geniş seçim imkanları ilə təminetmə prosesidir. Bu imkanların ən mühümləri: uzun və sağlam həyat, bilik əldə etmə və layiqli həyat səviyyəsi üçün zəruri olan resurslara əlyetərlik imkanı. Lakin bu amillər Davamlı insan inkişafını heç də bütövlükdə əhatə etmir. Bu anlayışın əlavə aspektləri siyasi, iqtisadi və sosial azadlıqlardan yararlanmaq və istehsal etmək imkanlarına, şəxsi ləyaqət hissi və insan hüquqlarına qədər dəyişir.

Davamlı insan inkişafı konsepsiyasının sosial fəlsəfi təhlili bu konsepsiyanın təkamül prosesini tədqiq etməyi zərurətə çevirir. İlk növbədə onu qeyd edək ki, tərəqqi anlayışı sosiologiya, fəlsəfə və iqtisadiyyatda fərqli şərh olunur. Tərəqqinin bu formada anlaşılması onun əsasında hansı meyarların - azadlıq şüuru, iqtisadi inkişaf səviyyəsi, elm və texnikanın nailiyyətləri - qəbulundan asılıdır. Məsələn, tərəqqi idealı bərabərlik və sosial ədalətdən ayrılmazdır. Bu prinsip Davamlı insan inkişafı konsepsiyasının ən mühüm aspektlərindən olub Volter, J.J.Russo, Hegel, qədim Şərq mütəfəkkirləri kimi böyük filosof-humanistlərin əsərlərində ətraflı təhlil edilmişdir.

Lakin onu da qeyd edək ki, Davamlı insan inkişafının ictimai tərəqqinin məqsəd və meyarı olmasına əsaslanan yanaşma heç də birdən-birə meydana gəlməmişdir. XX əsrin sonlarına qədər yuxarıda adları çəkilmiş elmlərin hər biri inkişafın özünəməxsus meyarlarını seçmişlər ki, bu da öz növbəsində “iqtisadi inkişaf”, “sosial inkişaf”, “demokratik inkişaf” və “ictimai tərəqqi” anlayışlarının süni bölgüsünə, daha doğrusu bir-birindən fərqləndirilməsinə gətirib çıxarmışdır. Yalnız Davamlı insan inkişafı konsepsiyasında inkişafın bu resursları birləşdirilmişdir; əsas indikator kimi insan inkişafında tərəqqi çıxış edir. Konsepsiyanın formalaşması isə inkişafın vahid, ümumbəşəri, humanist təmayüllü meyarların axtarışı nəticəsində gerçəkləşmişdir. Belə bir meyar isə özündə həm iqtisadi inkişaf səviyyəsini, həm elmi nailiyyətləri, idarəetmə prinsiplərini və cəmiyyətin sosial-siyasi vəziyyətini, təhsil və səhiyyənin səviyyəsini, ətraf mühitin vəziyyətini, həm də əxlaqi şüur və dünyagörüşü də daxil olmaqla, həyat tərzini də təcəssüm etdirir. Deməli, Davamlı insan inkişafı konsepsiyası gerçəkdən əhatəli inkişaf konsepsiyası olub məqsəd və vasitə, məhsuldarlıq və ədalət, iqtisadi və sosial inkişaf, maddi nemətlər və sosial təminat amillərini əhatə edir.

Davamlı insan inkişafı konsepsiyasını şərtləndirən, onu həyata səsləyən bir sıra inkişaf konsepsiyaları vardır. Əsas etibarilə iqtisadi məqsədlər güdən bu konsepsiyaların bəzilərini qısa şəkildə nəzərdən keçirək.

XX əsrin 60-cı illərində baş verən inkişaf təcrübəsi göstərmişdir ki, genişmiqyaslı sosial proqramları həyata keçirmədən həyat keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə, sosial-demokratik problemlərin həllinə, produktiv məşğulluq sisteminin yaradılmasına və yoxsulluğun miqyasının azaldılmasına nail olmaq sadəcə, mümkünsüzdür. Beləliklə, çox keçmir ki, “iqtisadi inkişaf ” anlayışı yeni-yeni keyfiyyət əlamətləri ilə zənginləşir. Sonrakı mərhələdə inkişafın iqtisadi araşdırılması daha da genişləndikcə o, daha çox çoxplanlı proses kimi nəzərdən keçirilməyə başlayır. Bu zaman inkişafa sosial və siyasi tərtibli amillər böyük təsir göstərir. Məhz bu zaman Davamlı insan inkişafı nəzəriyyəsinin konseptual əsasları kimi çıxış edəcək yeni paradiqma və prinsiplər meydana gəlir. Onlara əsas ehtiyaclar konsepsiyasını, ye-

nidən paylanma konsepsiyasını, insan kapitalı nəzəriyyəsini nümunə göstərmək olar. Bu konsepsiyaların hər birini qısa şəkildə nəzərdən keçirək.

Ötən əsrin 70-ci illərində inkişafın iqtisadi konsepsiyasının əsas diqqəti iqtisadi və sosial inkişafın qarşılıqlı təsiri gəlir əldə etmə və maddi nemətlərin bölünməsi probleminə, publik sektorun rolunun yüksəldilməsinə doğru istiqamətlənmişdi. Nəticədə, "artım hesabına yenidən paylanma" adını almış konsepsiya irəli sürülür. Bu konsepsiyanın əsas məqsədi insanların, ilk növbədə, yoxsul insanların maddi rifahının təmin olunması idi. Maddi rifahın təmin olunması isə, ilk növbədə, əmək tutumlu istehsalın genişləndirilməsi, deməli, adambaşına düşən ümumi daxili məhsulun (ÜDM-in) artırılması, əməkhaqları və əhalinin gəlirlərinin artırılması, sosial sferaya genişmiqyaslı dövlət dəstəyi və geniş əhali kütlələrinin planlaşdırmada iştirakının təmin edilməsi vasitəsilə baş tutmalı idi. Bu isə öz növbəsində varlıların gəlirləri və aktivlərinə ziyan gətirmədən nemətlərin paylanmasını yaxşılaşdırmalı idi.

Ötən əsrin 70-ci illərində başqa bir konsepsiya – "Əsas ehtiyaclar konsepsiyası" hazırlanır. Bu konsepsiya Beynəlxalq Əmək Təşkilatının (BƏT) 1976-cı ildə hazırlanmış məşhur "Məşğulluq, artım və əsas ehtiyatlar" adlı məruzəsinin əsasında dayanmışdır. "Əsas ehtiyaclar konsepsiyası"nın əsas prinsipini belə ifadə etmək olar: dövlət siyasəti əhalinin sosial xidmət və məhsullara əlyetərliyin təmin olunmasına istiqamətlənməlidir. Konsepsiya 3 əsas elementi ehtiva edir: gəlir, sosial xidmətlər, iştirak.

Dövlət siyasətinin gerçəkləşməsi əhalinin "əsas tələbatlar" adlandırılan sosial məhsul və xidmətlərə əlyetərliyini iki yolla təmin etməlidir. Birincisi, ailələrin qida, geyim və mənzilə olan tələbatlarının qəti və tam şəkildə ödənilməsidir. İkincisi, içməli su, yaşayış yerinin sanitar vəziyyəti, səhiyyə və nəqliyyat sahəsində ictimai xidmətlərin göstərilməsi yaxşılaşdırılmalıdır. Sonra "iştirak vasitəsilə inkişaf" prinsipi gerçəkləşdirilməlidir, yəni istər qərarların qəbulu, istərsə də onların gerçəkləşdirilməsi sahəsində insanların təşəbbüskarlığına şərait yaradılmalıdır.

"Əsas ehtiyaclar konsepsiyası"nın praktiki gerçəkləşdirilməsi dövlət tərəfindən mərkəzləşdirilmiş qaydada məhsul və xidmətlərin göstərilməsi ilə üst-üstə düşür. Davamlı insan inkişafı konsepsiyasından fərqli olaraq "əsas ehtiyaclar konsepsiyası" yalnız yoxsullara xidmətlə məhdudlaşmır. Bu konsepsiyanın əsas məqsədi insana seçim imkanları yaratmaq yox, istehsalın iqtisadi artımından yaranan faydanın yenidən bölgüsünü təmin etməkdir.

"Əsas ehtiyaclar konsepsiyası" ilkin tələbatların ödənilməsini problem kimi kəskin şəkildə qoymuşdur. Lakin bu konsepsiya çərçivəsində mövcud göstəricilər sistemi şəxsiyyətin inkişafını səciyyələndirən əlamətləri bütövlükdə əks etdirməmişdir. Bununla belə, konsepsiyanın problemə çoxölçülü yanaşması, bu və ya digər ölkənin inkişaf səviyyəsini daha dəqiqliklə əks etdirməyə yardımcı olmuşdur. Ən vacibi isə, burada şəxsiyyətin inkişafı bütövlükdə cəmiyyətin inkişaf ölçüsü kimi qəbul edilən uzunmüddətli məqsəd kimi götürülmüşdür. Lakin iqtisadi artım və insanların həyat keyfiyyəti arasında qarşılıqlı əlaqə bütöv və əhatəli şəkildə aşkarlanmamışdır.

İqtisadi artım nəzəriyyələri ilə insan inkişafı nəzəriyyələri arasında bağlayıcı həlqə kimi çıxış edən insan kapitalı nəzəriyyəsidir. İnsan kapitalı nəzəriyyəsinin banisi hesab edilən Teodor Şults ötən əsrin 50-60-cı illərində apardığı tədqiqatlarda bu konsepsiyanı formulə etmişdir. O, əsas ideyalarını "Təhsil vasitəsilə kapitalın toplanması" (1960) və "İnsan kapitalına sərmayələr" (1961) adlı əsərlərində şərh etmişdir. İqtisadi artımın yeni amillərini axtaran Şults belə bir məsələyə diqqət yetirmişdir ki, məhz təhsil sadə icraçını yaradıcı fəhləyə çevirir, onu situasiyanı təhlil etməyə və istehsalat problemlərinin optimal həll yollarını tapmağa vadar edir. Onun fikrincə, insan kapitalına qoyulan sərmayə təkcə təhsilə verilən xərclərlə məhdudlaşmır, eyni zamanda şəxsiyyətin özünü təkmilləşdirməsi, elm və səhiyyənin inkişaf etdirilməsi də böyük əhəmiyyət kəsb edir.

İnsan kapitalı nəzəriyyəsinə öz töhfəsini vermiş tədqiqatçılardan biri də amerikalı alim G.Bekker olmuşdur. O, yazdığı fundamental "İnsan kapitalı" adlı əsərində insan kapitalına qoyulmuş investisiyaya təkcə təhsilə qoyulmuş investisiyanın yox, həm də səhiyyə, informasiya, iş axtarışı, uşaqların tərbiyəsi, bir sözlə, insanın məhsuldarlıq qüvvəsini artıran bütün tərəfləri aid etmişdir (5.s.132).

Yuxarıda deyilənləri ümumiləşdirməklə insan kapitalı anlayışını belə təyin etmək olar: İnsan kapitalı dedikdə, sərmayə qoyuluşu nəticəsində müəyyən qabiliyyətlərin formalaşdırılması başa düşülür. Bu qabiliyyətlər: onun bilik ehtiyatları, sağlamlığı, peşəkar vərdişlər və əmək bacarığı – bütün bu qabiliyyətlər əməyin məhsuldarlığının artmasına və gəlirlərin çoxalmasına səbəb olur. İnsan əməyinin səriştəliliyi artdıqca onun kapitalı da artır və deməli, bu kapital üzrə gəlirlər (əmək haqqı) də artır. İnsan kapitalı iqtisadi artımın və iqtisadi potensialın genişləndirilməsi üçün mühüm amillərdən hesab olunur. Belə yanaşma zamanı inkişafı iqtisadi artım tempinin sadəcə yüksəlişi kimi yox, insan kapitalına investisiya və yoxsulluğun ləğvi kimi nəzərdən keçirilir.

XX əsrin sonlarında faktiki olaraq bütün mütəxəssislər üçün aydın olur ki, özlüyündə iqtisadi artım dəyər kimi qəbul edilə bilməz. Eyni zamanda bir çox ölkələrdə iqtisadi artım tempinin azalması və struktur böhranlar müşahidə edilir. Buna müvafiq olaraq bəzi ölkələr inkişaf strategiyalarında yeni prioritetləri ön plana çıxarırlar: dövlət borcu və məsrəflərin ixtisarı, iqtisadi böhranın qarşısının alınması. İqtisadiyyatın liberallaşdırılması isə öz növbəsində əvvəllər təklif edilmiş və təhsil, səhiyyə, istehsalın əsas amili kimi qəbul edilən insanda yeni bacarıq və qabiliyyətlərin aşılanması istiqamətində sərmayə qoyuluşunun iqtisadi faydalılığını əsaslandıran insan kapitalı nəzəriyyəsinə diqqəti artırır. Lakin bu konsepsiya nə yoxsulluq, nə də digər mühüm sosial problemlərin həlli üçün konkret faktor göstərmirdi. Bəzi ölkələrdə keçirilən struktur yenidənqurmaya UNİEFS-in himayəsi altında A.C.Kornea, F.Stüart və R.Colli tərəfindən cavab hazırlanır. "İnsan sifətli yenidənqurma" adlandırılan bu sənəddə struktur yenidənqurmanı heç də inkar etməyən müəlliflər Beynəlxalq Valyuta Fondu və Dünya Bankının yoxsulluq və insanların həyat şəraitinin yaxşılaşdırılmasına daha böyük diqqət ayırmağa çağırırlar. Sənəddə əsas prinsip olaraq göstərilir ki, sosial aspektlər struktur yenidənqurma strategiyası paketinə sadəcə əlavə olunmamalı, bütövlükdə inkişafın əsas amillərindən biri kimi qəbul edilməlidir.

1987-ci ildə BMT-nin İnkişafın Planlaşdırılması Komitəsi növbəti il üçün nəzərdə tutulmuş məruzəsində struktur yenidənqurmanın insan məsrəflərinin xüsusi təhlil olunmasını qərara alır. Bu qərar tədqiqatçılardan - M.U.Haqq, K.Qriffin və C.Naytın rəhbərliyi altında bir sıra araşdırmalar aparılmasına stimul vermişdir. Onların tədqiqatları "İnsan potensialının inkişafı: inkişaf strategiyasının unudulmuş ölçüsü" adlı məruzə layihəsində dərc edilmişdir.

İnsan potensialının inkişafı sahəsində 1988-ci ildə iqtisadiyyat üzrə Nobel mükafatı almış Ammortin Senin nəzəri tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. Onun "Resurslar, dəyərlər və inkişaf" (1984), "Yenidən tədqiq olunmuş bərabərsizlik" (1992), "İnkişaf azadlıq kimi" (1998) adlı əsərlərində mövzu üzrə ciddi problemlər araşdırılmışdır.

A.Senin "İnkişaf azadlıq kimi" əsəri davamlı insan inkişafının hazırlanmasında xüsusi əhəmiyyət kəsb edir. Tədqiqatçı azadlığın kompleks anlaşılmasını təklif edir. Ona görə "azadlıq iki səbəbdən inkişaf prosesində mərkəzi mövqe tutur:

1) azadlığın dəyəri: inkişaf prosesinə nail olmaq ilk növbədə cəmiyyətdə insanın hüquqlarının nə qədər genişlənməsi və möhkəmlənməsi üzrə dəyərləndirilir;

2) azadlığın səmərəsi: inkişafın səviyyəsi cəmiyyət üzvlərinin azad fəaliyyətindən birbaşa asılıdır" (6, s.92).

Məhz bu baxımdan A.Sen hüquq və azadlıqları başlıca məqsəd kimi yox, inkişafın əsas amili kimi nəzərdən keçirmişdir. "İnkişaf - imkanların genişləndirilməsi kimi" adlı əsərində isə

o, “imkanlar nöqteyi-nəzərindən yanaşma” adlı metoddan istifadə edir. A.Sen inkişaf prosesinə insan imkanlarının genişlənməsi kimi baxır, burada maddi və yaxud iqtisadi rifah ikinci plana keçirilir. Onun fikrinə görə, cəmiyyətdə həyatın səviyyəsi gəlirlərin orta səviyyəsi ilə yox, insanların layiqli hesab etdikləri həyat tərzi keçirmək imkanları ilə ölçülməlidir. İctimai inkişafın məqsədi isə istehsalın hüdudsuz genişləndirilməsi yox, insan seçimlərini genişləndirmək üçün imkanlar yaradılması olmalıdır, məsələn: daha böyük işlər görmə, uzunömürlü həyat, biliklərə yiyələnmək və s. seçimlər.

A.Senin konsepsiyası əsasında inkişafa mərkəzində insanın dayandığı proses kimi tərif verilmişdir. Bu və buna yaxın ideyalar BMT-nin İnkişaf Proqramının ekspertlər qrupu tərəfindən ümumiləşdirilmiş, 1990-cı ildə İnsan İnkişafı Haqqında Qlobal Məruzədə öz əksini tapmışdır.

Təbii resursların intensiv istismarına əsaslanan sürətli iqtisadi artım müəyyən problemlər yarada bilər. Belə problemlərə misal kimi ekoloji, resursların tükənməsi, biomüxtəlifliyin azalması və s. göstərilə bilər. Bundan əlavə, sürətli artım tempi heç də məşğulluğun artmasını şərtləndirmir. Davamlı insan inkişafı konsepsiyasına görə iqtisadi artım təkcə adam başına düşən gəlirlərin artmasını deyil, eyni zamanda sosial sferaya ayrılan vəsaitlərin də artmasını təmin etməli, bununla da insan kapitalının inkişafını stimullaşdırmalıdır.

İnsan inkişafı konsepsiyaları çərçivəsində hazırlanmış davamlı insan inkişafı konsepiyası xüsusi əhəmiyyət kəsb edir. Davamlılıq insan və onun potensialının mühüm elementlərindən biri hesab edilir. Bu konsepsiyanın sosial-fəlsəfi mahiyyəti inkişaf imkanlarına həm indi, həm də gələcəkdə bərabər əlyetərliyin təmin edilməsidir. BMT-nin 1994-cü il üçün hazırladığı İnsan inkişafı haqqındakı məruzəsində davamlı insan inkişafına belə tərif verilmişdir: “Davamlı insan inkişafı elə bir inkişafdır ki, o təkcə iqtisadi artıma gətirmir, həm də bu artımın ədalətli bölgüsünü təmin edir, ətraf mühiti məhv yox, onu bərpa edir, insanları ruhsuz icraçılara çevirməyərək, onlarda məsuliyyət hissini gücləndirir. Belə inkişaf, ilk növbədə, yoxsullara birinci dərəcəli diqqət göstərir, onların imkanlarını artırmaqla yanaşı, həyatlarına təsir göstərəcək qərarların qəbulunda iştiraklarını təmin edir. Belə inkişaf insanlar üçün, təbiət üçün, iş yerlərinin sayının artırılması üçün və cəmiyyətdə qadınların vəziyyətinin yaxşılaşdırılması üçün inkişafdır” (7, s.14).

Aydındır ki, öz tələbatlarını ödəmək istəyən bəşər övladı bir sıra problemləri həll etməlidir: iqtisadi, sosial, ekoloji. Lakin cəmiyyətin inkişafının uzun müddət davam etməsi üçün, eyni zamanda bu inkişafın gələcək nəsillərin öz tələbatlarını ödəməyə mane olmaması üçün yuxarıda adı çəkilmiş problemlərin müəyyən balansına nail olmaq zəruridir. Göstərilmiş üç komponentdən birinin inkarı həm gələcək iqtisadi artımı həm də bütövlükdə cəmiyyətin inkişafını təhlükə altına sala bilər.

Məlum olduğu kimi, davamlılıq “bütün nəsillər üçün bərabər imkanlar” prinsipinə əsaslanır. Başqa sözlə desək, davamlı inkişaf insanlar qarşısında belə bir mənəvi öhdəlik qoyur: gələcək nəsillər üçün minimum indiki halda mövcud olan inkişaf imkanlarını saxlamalı. Bu prinsip də öz növbəsində aşağıda göstərilən üç amilin gerçəkləşdirilməsini ehtiva edir:

- başqalarının (gələcək nəsillərin) ödəməli olacaqları iqtisadi borc öhdəliklərinin götürülməsi;
- gələcək nəsillər qarşısında sosial borc kimi götürülən təhsil və səhiyyə sahəsinə kifayət qədər investisiyaların qoyulması;
- təbii resurslardan elə istifadə edilməlidir ki, onlar tükənməməli və “ekoloji borc” yaranmamalıdır.

Davamlı insan inkişafının tədqiq və təhlilinə həsr edilmiş elmi ədəbiyyatların və problemə aid olan beynəlxalq sənədlərin təhlilinə əsaslanaraq bu konsepsiyanın ümumi prinsiplərini, bir qayda olaraq, aşağıdakı kimi qruplaşdırmaq məqsədəmüvafiq hesab edilir:

1. Davamlı insan inkişafı konsepsiyası indiki və gələcək nəsillərin həyati tələbatlarını ödəmək və öz qabiliyyətlərini təzahür etdirmək üçün bütün insanlara bərabər imkanların yaradılmasını təmin edən inkişafı nəzərdə tutur.

2. Davamlı insan inkişafı insan hüquqlarının qorunduğu demokratik cəmiyyətlərdə sosial ədaləti, sosial bərabərlik və ekoloji təhlükəsizliyi özündə ehtiva edən davamlı iqtisadi inkişafa əsaslanır.

3. Davamlı insan inkişafı ictimai şüur dəyərləri sistemində ictimai inkişafın və təbiətdən istifadənin idarə edilməsində köklü dəyişikliklərin həyata keçirilməsini tələb edir. İctimai şüurda baş verən köklü dəyişikliklər noosfer sivilizasiyasına keçilməsinə imkan yaradacaqdır.

4. Dünya xalqlarında sosial-ekoloji dəyərlər sisteminə əsaslanan mentalitetin formalaşması - yeni noosfer sivilizasiyasına keçilməsinin əsas şərtidir.

5. Yer kürəsində bəşər sivilizasiyasının davamlı inkişafının əsas amili - adamların ümumi ekoloji maarifləndirilməsi və insanların mövcudluğunun özlərindən asılı olması fikrinin təbliğ edilməsidir.

6. Davamlı insan inkişafı konsepsiyası BMT İnkişaf Proqramının müəyyənləşdirdiyi universallıq etikasına əsaslanır ki, bu anlayış etika kodeksi ilə sıx əlaqədardır. Universallıq etikası - həyatın bütün (iqtisadi, sosial, ekoloji, mədəni, siyasi və s.) sahələrində indiki və gələcək nəsillərə öz potensial qabiliyyətlərindən geniş istifadə etmək imkanı verən "həyati tələbatın universallığı" kateqoriyasına əsaslanır (8. s.85).

Davamlı insan inkişafı konsepsiyası cəmiyyət həyatının bir sıra fundamental problemlərini həll etməyə, meydana çıxa biləcək bəzi sosial, iqtisadi və ekoloji problemləri önləməyə hesablanıb. Xüsusilə qlobal iqtisadi böhranın kəskinləşdiyi müasir dövrdə davamlı insan inkişafı konsepsiyasını nəzəri layihədən praktiki fəaliyyət proqramına çevirmək həyati vacib problemə çevrilmişdir.

**Açar sözlər:** davamlı insan inkişafı, tərəqqi, sosial aspektlər, təbii resurslar, insan kapitalı.

## İstifadə olunmuş ədəbiyyat

1. Hüseynov S. Davamlı insan inkişafının strateji istiqamətləri. Bakı: Adiloğlu, 2003.
2. Доклад о человеческом развитии за 1990 г.
3. Ələkbərov U. Davamlı insan inkişafı və ekoloji sivilizasiyaların əsasları. Bakı: Təhsil, 2013.
4. Экономическая энциклопедия. М.: Экономика, 1999.
5. Becker G.S. Human Capital. N.Y: Columbia Univ. Press, 1993.
6. Sen A. Development as Freedom. N.Y. 2000.
7. Доклад о развитии человека. 1994. М.: Изд-во «Весь мир», 1995.

**Рашадат ЯКУБЛУ**

## СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ СУЩНОСТЬ КОНЦЕПЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЧЕЛОВЕКА

**Резюме**

В статье проанализированы причины возникновения социально-философской сущности концепции устойчивого развития человека. В первую очередь, была внесена ясность в самоопределение тех факторов, которые обусловливают необходимость этой концепции. Далее был проведен ее сравнительный анализ с другими концепциями развития с учетом обнаруженных между ними сходств и различий, а также выявлены важность и перспективы изучения данной концепции, в частности изучения работ азербайджанских и западных исследователей в этой области.

**Ключевые слова:** устойчивое развитие человека, прогресс, социальные аспекты, природные ресурсы, человеческий капитал.

**Rashadat YAGUBLU**

## SOCIAL AND PHILOSOPHICAL ESSENCE OF THE CONCEPT OF SUSTAINABLE HUMAN DEVELOPMENT

**Summary**

In the article is analysis is made of the social and philosophical essence of the concept of sustainable human development. There was made clear first self-determination of these factors which condition of necessity of this conception. Then, the has been provided the comparative analysis of this concept with other ones of development, taking into account the similarities and distinctions revealed between them.And also on the basis of the international documents concerning the human developmentit there were revealed the necessity and perspectives of stated concept, in particular studying the works by Azerbaijan.

**Keywords:** sustainable human development, progress, social aspects, natural resources, human capital.

**UOT 101.1**

**Aytən CƏFƏROVA**
*Doktorant,*
*Azərbaycan Universiteti*

# GENDER BƏRABƏRLİYİ VƏ ONUN TƏHSİLİN İNKİŞAF DİNAMİKASINDA ROLU*

Gender tədqiqatlarının əsas anlayışlarından biri olan "gender bərabərliyi" cəmiyyətdə qadın və kişilərin bütün sahələrdə (siyasi, iqtisadi, mədəni, sosial) paralel iştirakını, bərabər hüquqlarını nəzərdə tutur. Beynəlxalq gender bərabərsizliyi indeksində gerilik və irəlilik səviyyəsi göstəriciləri cinslərin cəmiyyətin təhsil, iqtisadiyyat, siyasət, sağlamlıq və uzunömürlülük sahəsində iştirakı ilə müəyyənləşir:

1. *Təhsil səviyyəsi*

- kişi və qadınların savadlılıq səviyyəsinin müqayisəsi;
- kişi və qadınların ibtidai təhsil səviyyəsinin müqayisəsi;
- kişi və qadınların orta təhsil səviyyəsinin müqayisəsi;
- kişi və qadınların ali təhsil səviyyəsinin müqayisəsi.

2. *İqtisadi fəallıq və imkan səviyyəsi*

- kişi və qadınların məşğulluq səviyyəsinin müqayisəsi;
- kişi və qadınların bərabər əmək fəaliyyətində aldıqları məvacib səviyyəsinin müqayisəsi;
- kişi və qadınların ümumi məvacib səviyyəsinin müqayisəsi;
- kişi və qadınların qanunvericilər, menecerlər, məmurlar arasında müqayisəsi;
- kişi və qadınların mütəxəssislər arasında müqayisəsi.

3. *Sağlamlıq və uzunömürlülük*

- kişi və qadınların arasında sağlamlıq və uzunömürlülük səviyyəsinin müqayisəsi;
- doğuşda cinslərin müqayisəsi.

4. *Siyasətdə iştirak səviyyəsi*

- kişi və qadınların parlamentdə təmsil olunma səviyyəsinin müqayisəsi;
- kişi və qadınların nazir vəzifəsində olma səviyyəsinin müqayisəsi;
- qadınların dövlət rəhbərliyində olmasının il göstəricisi (son 50 il).

Araşdırmalar göstərir ki, dünyada gender bərabərsizliyinin indeksində təhsil və sağlamlıq sahəsində müəyyən inkişaf müşahidə olunsa da, siyasət və iqtisadiyyat sahəsində bunu söyləmək mümkün deyildir.

**Şəkil 2. Gender bərabərsizliyinin dörd sahə üzrə qlobal indeksi (2016)**
**(100 – tam bərabərlik, 0- tam bərabərsizlik) [1]**

* Məqalə fəlsəfə ü.f.d. Rauf Məmmədov tərəfindən çapa məsləhət görülüb.




**Mənbə: Countries by Gender Inequality Index 2014.**

Beynəlxalq gender indeksinə görə gender bərabərsizliyinin olduğu ölkələrin çoxu Afrika və Asiya qitələrində olan müsəlman ölkələrin, həmçinin bir çox Cənub Asiya ölkələrinin, qismən Cənubi Amerika qitəsinin şimalındakı ölkələrin payına düşür. Gender bərabərliyinin ən yüksək səviyyədə qorunduğu ölkələrin başında Qərbi və Mərkəzi Avropa ölkələri gəlir. Bu günün özündə də bir çox müsəlman ölkələrində qız və oğlanların ayrılıqda təhsil aldıqları, qızların təhsil almaq hüququndan məhrum olduqları, qadınların ölkənin siyasi və iqtisadi həyatında rol oynamadıqları məlumdur. Müsəlman ölkələri arasında Azərbaycan və Türkiyə digərlərindən seçilir.

**Şəkil 1. Ölkələrə görə gender bərabərsizliyi [1]**
**(gender bərabərsizliyinin yüksək göstəricisi qırmızı, aşağı göstərici yaşıl rəngdədir)**




2016-cı il araşdırmalarına görə gender bərabərsizliyinin ən aşağı olduğu ölkələrin başında İsveç, Norvegiya, Finlandiya, İslandiya gəlirsə, sonunda Yəmən (0,516), Çad (0,587), Səudiyyə Ərəbistanı (0,583) kimi ölkələr gəlir.

2016-cı il araşdırmalarına görə Azərbaycan gender bərabərsizliyi indeksində ümumən 86-cı yerdə 0.684 göstəricisi ilə yer tutmuşdur. İqtisadiyyatda bu göstərici 0.728 (38-ci yer), təhsildə 0.988 (83-cü yer), sağlamlıq və uzunömürlülükdə 0.950 (138-ci yer), siyasətdə 0.069 (124-cü yer) rəqəmləridir (cədvəl 1).

**Gender bərabərsizliyinin dörd sahə üzrə qlobal indeksi (2016) [2]**

Cədvəl 1

| | GLOBAL INDEX | | ECONOMIC PARTICIPATION AND OPPORTUNITY | | EDUCATIONAL ATTAINMENT | | HEALTH AND SURVIVAL | | POLITICAL EMPOWERMENT | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Country | Rank | Score | Rank | Score | Rank | Score | Rank | Score | Rank | Score |
| Macedonia, FYR | 73 | 0.696 | 79 | 0.658 | 91 | 0.982 | 119 | 0.967 | 67 | 0.178 |
| Venezuela | 74 | 0.694 | 71 | 0.669 | 33 | 0.999 | 1 | 0.980 | 89 | 0.127 |
| Russian Federation | 75 | 0.691 | 41 | 0.722 | 45 | 0.997 | 40 | 0.979 | 129 | 0.066 |
| Romania | 76 | 0.690 | 54 | 0.699 | 68 | 0.992 | 40 | 0.979 | 112 | 0.090 |
| Czech Republic | 77 | 0.690 | 89 | 0.647 | 1 | 1.000 | 40 | 0.979 | 85 | 0.134 |
| Honduras | 78 | 0.690 | 96 | 0.623 | 1 | 1.000 | 59 | 0.976 | 75 | 0.160 |
| Brazil | 79 | 0.687 | 91 | 0.640 | 42 | 0.998 | 1 | 0.980 | 86 | 0.132 |
| Peru | 80 | 0.687 | 111 | 0.594 | 80 | 0.989 | 100 | 0.970 | 60 | 0.194 |
| Kyrgyz Republic | 81 | 0.687 | 83 | 0.651 | 72 | 0.991 | 76 | 0.973 | 87 | 0.132 |
| Senegal | 82 | 0.685 | 94 | 0.628 | 133 | 0.830 | 123 | 0.967 | 27 | 0.316 |
| Bosnia and Herzegovina* | 83 | 0.685 | 113 | 0.581 | 50 | 0.996 | 76 | 0.973 | 62 | 0.191 |
| Cyprus | 84 | 0.684 | 75 | 0.665 | 41 | 0.998 | 71 | 0.974 | 105 | 0.100 |
| Cameroon | 85 | 0.684 | 39 | 0.727 | 130 | 0.862 | 114 | 0.968 | 65 | 0.180 |
| Azerbaijan | 86 | 0.684 | 38 | 0.728 | 83 | 0.988 | 138 | 0.950 | 124 | 0.069 |
| India | 87 | 0.683 | 136 | 0.408 | 113 | 0.950 | 142 | 0.942 | 9 | 0.433 |

Aparılan araşdırmalar göstərir ki, gender bərabərliyinin yüksək olduğu ölkələrdə demokratiyanın, iqtisadi inkişafın, insan hüquqlarının səviyyəsi də yüksəkdir. Gender

bərabərliyinin aşağı səviyyədə olduğu ölkələrdə isə əksini müşahidə edirik. Bu göstəricilər bir daha göstərir ki, cəmiyyətin inkişafında gender bərabərliyinin özünəməxsus yeri və rolu vardır.

Cəmiyyətin inkişafında əsas aparıcı rollardan ən başlıcasını təhsil tutur. Çünki təhsilin inkişafını təmin etmədən nə güclü iqtisadiyyatı, nə də güclü vətəndaş cəmiyyətini qurmaq olar. Çünki hər iki amili ortaya çıxaran insan resurslarıdırsa, insanı da cəmiyyət üçün yetişdirən təhsil sistemidir. Bu baxımdan təhsil sahəsində innovasiyalar və qoyulan investisiyalar böyük strateji əhəmiyyətə malikdir.

Statistik göstəricilər təsdiq edir ki, təhsildə gender bərabərliyinin yüksək olduğu ölkələrdə təhsil də yüksək səviyyədədir. Təhsildə gender bərabərliyinin aşağı səviyyədə olduğu ölkələrdə isə əksinə. Bu bir daha sübut edir ki, təhsil sahəsində innovativ yanaşmalardan olan gender pedaqogikası da təhsilin inkişafında mühüm rol oynayır.

Biz bu gün XXI əsrdə yaşadığımıza baxmayaraq dünyada elə ölkələr vardır ki, orada təhsilin səviyyəsi Orta əsrlər səviyyəsindən irəliyə getməmişdir. Bir çox Asiya və Afrika ölkələrində qız və oğlanlar ayrılıqda təhsil alır, hər kəsin təhsil almaq imkanları olmur, xüsusilə qızlar təhsil almaq hüququndan məhrum olurlar. Xüsusilə qızların təhsildən məhrum olmalarının əsas səbəbi erkən nikahlardır. Əfqanıstan, Pakistan, Hindistan kimi bir çox ölkələrdə qızların təhsil almadan erkən yaşlarda ərə verildikləri faktları kifayət qədərdir. Araşdırmalar göstərir ki, erkən nikahlar qızları təhsil hüququndan məhrum edir.

Dünyanın müxtəlif dinində, irqində və etnik mənsubiyyətində olan insanlar arasında bu cür evlilik nümunələri kifayət qədərdir. Bu baxımdan bunu hər hansı bir dinə, irqə və etnosa aid etmək yanlış olardı. Lakin bəzi istisnalar da mümkündür. Məsələn, qaraçılar 18-19 yaşına gələn qızlara qarımış qız kimi baxdıqları üçün onları daha tez ərə verirlər (oğlanları da kiçik yaşda evləndirirlər). Bu, qaraçılar arasında bir adət şəklinə düşdüyü üçün geniş yayılmışdır. Buna görə də qaraçılar kütləvi şəkildə təhsildən yayınırlar.

**Ölkələrdə erkən evliliklərin ümumi nikahlarda faiz ilə pay göstəricisi:**

Cədvəl 2

| | | |
|---|---|---|
| Nigeriya - 76 %<br>Mərkəzi Afrika Respub - 68 %<br>Çad - 68 %<br>Banqladeş - 65 % | Mali - 55 %<br>Qvineya - 52 %<br>Cənubi Sudan - 52 % | Burkina Faso - 52 %<br>Malavi - 50 %<br>Mozambiq - 48 % |

İngiltərədə "*Save the Children*" uşaqlara yardım təşkilatı tərəfindən 2016-cı ildə erkən evliliklərlə bağlı hesabat hazırlanmışdır. Hesabata görə dünyada 18 yaşın altında evləndirilən 700 milyon qız uşağı var. Əfqanıstan, Yəmən, Hindistan, Somali kimi ölkələrdə qız uşaqları 10 yaşında evləndirilir. Bu cür evliliklər Cənubi Asiya, Səhra-altı Afrika, Cənubi Amerika və Cənub-Şərqi Asiya ölkələrində digər bölgələrdən daha yüksəkdir. Erkən evliliklərin sayına görə dünyada ilk onluqda olan dövlətlərin diaqramı təqdim olunmuşdur.

**Diaqram 2. Erkən nikahın ən çox yayıldığı ilk on ölkə [3]**




Qız uşaqlarının hüquqlarının ən yüksək qorunduğu ölkələr sırasında birinci yeri İsveç, sonra Finlandiya, Norveç, Hollandiya və Belçika ilk beşdə yer alan ölkələrdir. Bu ölkələrdə təhsilin səviyyəsi və təhsildə gender bərabərliyi səviyyəsi yüksəkdir.

Türkiyə 144 ölkə arasında 55-ci sıradadır. Siyahının sonunda yer alan ölkələr Mərkəzi Afrika Respublikası, Çad və Nigeriyadır. Erkən evliliklərin sayına görə Hindistan 40% ilə birinci yerdədir (13-16 yaş 20%, 13-dən aşağı isə 2-6%).

Müsəlman ölkələrində də erkən evlilik göstəriciləri yüksəkdir. Bu özünü daha çox erkən evliliklərin ümumi nikahlarda faiz ilə pay göstəricisi yüksək olan ölkələrdə büruzə verir. Bu siyahıda liderlik edən ölkələr arasında Banqladeş, Nigeriya, Çad, Pakistan (16 yaşadək 70%), İndoneziya, Burkina Faso, Əfqanıstan (53%. Onlardan 15 yaşadək evlənən qızlar 21%-dir), Yəmən (52%), Misir, Səudiyyə Ərəbistanı və digər bu kimi ölkələr xüsusi yer tutur. İranda İslam inqilabından dərhal sonra 1979-cu ildə qızlar üçün evlilik yaşı 9, oğlanlar üçün 14 müəyyənləşdirilmişdi. 2002-ci ildə qızlar üçün bu yaş 13-ə, sonra isə 16 yaşa qaldırıldı. İranda hal-hazırda gec evlilik (35-40), subaylıq halları daha da artmışdır. Erkən evlilik halı ən çox Cənubi Azərbaycan ərazisində geniş yayılmışdır.

Keşmiş postsovet müsəlman ölkələri arasında bu sahədə liderlik Orta Asiya ölkələrinə aiddir. Əfqanıstan, Pakistan kimi ölkələrin kənd yerlərində 5-12 yaş arasında qızların bir borc və ya bir cinayət qarşılığında ödəniş qismində qarşı tərəfə ərə verilməsi adəti vardır. Əksər hallarda bu cür evliliklərdə yaş fərqləri də böyük olur. Bu mübahisəli işlər ağsaqqallar vasitəsilə həll olunur. Səudiyyə Ərəbistanı, Qətər, Küveyt kimi zəngin ərəb ölkələrində erkən evlilik halları geniş yayılmışdır. Səudiyyə Ərəbistanında sələfi etiqadında olan ruhanilər 9 yaşında qızların nikahının bağlanmasını şəriət hökmü kimi dəstəkləyirlər. Bu ölkədə 2011-ci ilədək nikah üçün rəsmi yaş həddi qoyulmamışdır.

Lakin erkən evlilik məsələsini İslam dini ilə əlaqələndirmək doğru olmazdı. Çünki araşdırmalar göstərir ki, buddizm, hinduizm, xristianlıq, yəhudilik və başqa dinlərə etiqad edən insanlar arasında erkən evlilik faktları kifayət qədərdir. Erkən evlilik məsələsində liderlik edən Hindistan və Nepal (28.8%) kimi buddizmə və hinduizmə etiqad edən ölkələri, eyni zamanda xristianlıq (xüsusilə katoliklik) əqidəsində olan və dördüncü sırada yer alan Braziliya və sonra Meksikanı göstərə bilərik. Braziliya 15 yaşadək olan nikahlara görə dünyada 4-cü, Meksika 9-cudur. Bu ölkələr həmçinin uşaq seksinə görə dünyada lider ölkələrdir. ABŞ-da ispandillilər arasında 15-19 arası evliliklər 13%-dir (15-17 yaş 6.6%). İspaniyada yalnız 2015-ci ildə nikah yaşı 14-dən 16-ya qaldırılmışdır.

Bu faktlar ona dəlalət etmir ki, həmin dinin nümayəndələri erkən evliliyi dini hökm kimi qəbul etdikləri üçün bu addımı atırlar. Halbuki bu erkən evlilik İslam dininin təməl

prinsiplərinə ziddir [4]. Onlar bu addımı ona görə atırlar ki, bu cəmiyyətin mədəniyyətində kök salmış bir ənənədir. Ənənələr isə həmişə dini olduğu kimi əks etdirmir, əksər hallarda dinə təsir göstərərək onun təhrif olunmasına şərait yaradır. Bu baxımdan din və mədəniyyət anlayışlarını eyniləşdirmək yalnış metoddur.

Beynəlxalq təşkilatların insan hüquqları çərçivəsində apardığı araşdırmaların nəticələri göstərir ki, erkən evlilik ən çox sosial-iqtisadi və təhsil problemlərinin çox aşağı səviyyədə olduğu ölkələrdə və regionlarda geniş yayılmışdır. Bu ölkələrdə problemin həlli üçün gender mədəniyyətinin yayılması və təhsildə gender bərabərliyinin tətbiq olunmasını zəruri edir.

Həqiqətən də erkən evliliklərin yayıldığı ölkələrdə dərin sosial-iqtisadi (yoxsulluq, işsizlik), hüquqi (qadınların mülkiyyət, təhsil və digər hüquqlarının olmaması) və təhsil problemlərinin olduğu müşahidə olunur. Bu evliliklər adətən sivilizasiyadan kənarda olan və ciddi sosial-iqtisadi, hüquqi və təhsil problemləri ilə üzləşən kənd yerlərində yaşayan ailələrdə baş verir. Erkən evliliyin yüksək göstəriciləri olan Konqo, Nigeriya, Əfqanıstan, Banqladeş kimi ölkələrdə münaqişələr və müstəmləkəçilik siyasətinin nəticəsi olaraq sosial-iqtisadi, hüquqi və təhsil problemləri acınacaqlı durumdadır. Yaşayış və təhsil səviyyəsi yüksək olan ABŞ-da 15-19 yaş qrupundakı qız uşaqlarının erkən evliliyi 4%, İngiltərədə 2%, digər Qərbi Avropa ölkələrində də çox aşağı faizlər təşkil edir. Bu faktlar ölkələrin rifah, sosial ədalət və təhsil səviyyəsi ilə evlənmə yaşı arasındakı əlaqənin olduğunu ortaya qoyur.

Qadının cəmiyyətə inteqrasiya olunmasında və sosial inkişafında sosial-tarixi proseslərin və görülən bir çox tədbirlərin öz rolu olmuşdur:

- XIX əsrin ortalarından başlayaraq iqtisadi inkişafda ucuz işçi qüvvəsi kimi qadın əməyinin ənənəvi ev həyatından sosial həyata cəlb olunması;
- elmi-texniki inkişaf ilə qadınların ev işlərinin qismən yüngülləşməsi nəticəsində onların sosial işlərdə iştirakı;
- seksual inqilab nəticəsində patriarxal stereotiplərin qismən iflas etməsi;
- I və II Dünya müharibəsində kişilərin kütləvi şəkildə həlak olması və arxa cəbhədə qadınların sosial-iqtisadi həyatda fəallaşması;
- müharibələrdə atadan məhrum olan bir çox ailələrin qadınların tərbiyəsi altında formalaşması və onların himayəsində bir nəslin ortaya çıxması;
- XX əsrin 60-cı illərində feminizm hərəkatının bir çox Qərb cəmiyyətlərində siyasi gücə çevrilməsi və qadın hüquqları sahəsində bir çox irəliləyişlərin əldə olunması;
- postmodernist fəlsəfə bazasında feminist nəzəriyyələrin inkişaf etməsi və onun nəzəri əsasları üzərində gender tədqiqatlarının meydana çıxması;
- gender bərabərliyi kimi anlayışların beynəlxalq hüquq normalarının əsas prinsiplərindən birinə çevrilməsi (Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında konvensiya (CEDAW) 1979; BMT-nin Qadınların IV Ümumdünya Konfransı Pekin Fəaliyyət Platforması 1995).

Bu gün müasir dünyada qız və oğlanların birgə təhsil sistemi XX əsrin əvvəllərindən başlamışdır. XX əsrin 20-ci illərindən başlayaraq SSRİ ərazisində tətbiq olunan kütləvi və birgə təhsil sisteminə paralel olaraq Rusiyada seksual inqilab tədbirləri də həyata keçirilmişdir. Bu dövrdə SSRİ-də olan müsəlman respublikaların ərazisində qadın hərəkatları dinə, hicaba qarşı kütləvi etiraz hərəkatları həyata keçirmiş və qadınların sosial həyatda sosializm quruculuğuna kütləvi şəkildə cəlb edilməsi hərəkatı başlamışdır. Bunlar, qadınların kütləvi şəkildə və kişilərlə birgə təhsil sisteminə cəlb olunması və onların əməyinin sosial-iqtisadi inkişafda istifadə olunması məqsədilə edilmişdir. Bu gün müasir dünyada mövcud olan birgə təhsil sistemi formal olaraq həmin dövrdə olan birgə təhsil sisteminin (1943–1954-cü illər arası istisna olmaqla) davamıdır.

Gender pedaqogikasında cinsi tərbiyə metodları ənənəvi metodlardan köklü şəkildə fərqlənir. Cinsi tərbiyə məsələsində ənənəvi pedaqogika bioloji səbəbə əsaslanaraq qadın və kişi arasında qeyri-bərabər əmək bölgüsü aparırsa, yeni yanaşmada "sosial-cins" anlayışına istinad edərək cinsindən asılı olmayaraq diskriminasiyaya daha çox məruz qalanların sosial hüquqları müdafiə olunur. Qadınların sosial rollarının məhdudlaşdırılması, onların əsasən reproduktiv əməklə məşğul olması və bir çox ölkələrdə qadınların təhsil almaq, işləmək hüququndan məhrum olması onların yeni sistemdə daha çox müdafiə olunmasına və onların hüquqlarının təmin olunması istiqamətində beynəlxalq təşkilatların daha fəal olmasına səbəb olmuşdur. Təbii ki, bütün bu işlərin əsası qadınların bərabərhüquqlu və gender ölçülərinə uyğun təhsil almaq imkanlarına bağlıdır.

Gender pedaqogikası elmdə yeni bir anlayış olsa da, təlim-tərbiyə məsələlərinin cinsi baxımdan dəyərləndirilməsi məsələsi fəlsəfə və psixologiya sahəsinin daim diqqətində olmuşdur. Lakin XIX əsrin ortalarından başlayaraq feminist fəlsəfəsinin meydana çıxdığı dövrə kimi problemə "bioloji cins" və "sosial cins" münasibətləri kontekstində baxılmamış və cinslərin sosial rolları, onların bioloji varlığının davamı kimi dəyərləndirilmişdir. Gender pedaqogikası çərçivəsində yerinə yetirilən tədqiqatlar isə "bioloji cins" və "sosial cins" anlayışlarını metodoloji olaraq bir-birindən ayırır. Çox vaxt "gender tərbiyəsi", "gender təhsili" anlayışları adı altında aparılan müasir tədqiqatlar da "gender pedaqogikası" kontekstində həyata keçirilən araşdırmalarla uzlaşır.

Ənənəvi təhsil sistemində "cinsi tərbiyə" anlayışı mövcuddur. Bu anlayış cinslərin ailə həyatına mənəvi hazırlığı ilə bağlı maarifləndirmə işlərini nəzərdə tutur. Gender yanaşmasında olan "gender tərbiyəsi" və yaxud "cinsi rolun tərbiyəsi" anlayışının "cinsi tərbiyə" anlayışından fərqli olub-olmaması barədə tədqiqatçılar arasında mübahisə vardır. Lakin daha çox mənəvi və tibbi maarifləndirmə ilə bağlı olan "cinsi tərbiyə" anlayışından fərqli olaraq "gender tərbiyəsi" anlayışı daha çox psixoloji və sosial-psixoloji problemlərlə əlaqədar olan sosial-mədəni xarakter daşıyır.

Gender pedaqogikası cinsi unifikasiyon deyil, cinsi differensial təhsil sisteminin tərəfdarıdır. XX əsrdə qız və oğlanların unifikasiya olunmuş "qeyri-cinsi tərbiyə" prinsipinə əsaslanan təhsil sistemi 80-90-cı illərdən başlayaraq bir çox Qərb ölkələrində "gender tərbiyəsi" metodu ilə əvəz olundu. Yeni təhsil prosesində cinslərin özünəməxsusluğu nəzərə alınır və onlara fərqli yanaşmalar tətbiq olunur. Qadınlarda qadınlıq, kişilərdə kişilik keyfiyyətlərinin inkişaf etdirilməsi şəxsiyyətin formalaşmasının əsas şərti kimi qəbul edilir.

Şagirdə, tələbəyə differensial və fərdi yanaşma metodlarının tətbiqi differensial təhsil barədə də fikirlərin ortaya çıxmasına səbəb olur. Biz, SSRİ dövrünə qədər Azərbaycanda bu cür təhsil sisteminin olduğunu bilirik. Lakin gender pedaqogikası eyni sistemə qayıtmağı nəzərdə tutmur. Birincisi, köhnə təhsil sisteminin patriarxal parametrlər üzərində qurulması gender metodikası ilə ziddiyyət təşkil edir. İkincisi, gender pedaqogikası differensial təhsili deyil, differensial tərbiyəni nəzərdə tutur.

**Təhsildə gender və cinsi rol yanaşmalarının xarakteri**

Cədvəl 3

| Gender yanaşması | Cinsi rol yanaşması |
|---|---|
| Cinslər arasında fərqlərin yumşaldılmasına və neytrallaşdırılmasına istiqamətlənmək | Cinslər arasında fərqlərin qabardılmasına istiqamətlənmək |
| Gender identikliyinin sərbəst seçimi ruhunda tərbiyə | Cinsi identikliyin sərt (önmühakimə ) seçimi ruhunda tərbiyə |
| Qadın və kişilərin "öncədən seçilmiş rolları" yoxdur. | Qadın və kişilərin "öncədən seçilmiş rolları" vardır. |

| | |
|---|---|
| Şəxsin maraqlarına uyğun fəaliyyət növlərinin dəstəklənməsi | Cinsə uyğun olan fəaliyyət növlərinin dəstəklənməsi |
| Konkret vəziyyətə uyğun davranış növünün seçilməsi | Cinsi mənsubiyyətə uyğun davranış növünün seçilməsi |
| Cinsə görə təlim-tərbiyənin düzgün olmadığını əsaslandırmaq | Cinsə görə təlim-tərbiyənin düzgün olduğunu əsaslandırmaq |
| Mədəniyyətin formalaşdırdığı gender sxeminin ortadan qaldırılması tendensiyası | Mədəniyyətin formalaşdırdığı gender sxeminin sərtləşdirilməsi tendensiyası |
| Cəmiyyətin ənənəvi patriarxal modellərindən imtina imkanları | Cəmiyyətin ənənəvi patriarxal modellərindən imtinanın tənqid olunması |

Gender məsələlərindən bəhs olunanda patriarxal sistemlərin zülmündən daha çox əziyyət çəkən qadınların hüquqları ön plana çəkilir. Gender pedaqogikasının da meydana çıxmasının əsas səbəblərindən biri və ən əsası mövcud sosial-mədəni durumu dəyişmək və onu təkmilləşdirməkdir. Ənənəvi təhsil sistemi də həmin cəmiyyətin ayrılmaz bir hissəsi olduğu üçün onun da dəyişməsi zərurətə çevrilir. Gender pedaqogikasına görə ənənəvi "qeyri-cinsi tərbiyə" "cinsi tərbiyə" prinsipi ilə əvəz olunmalıdır.

Pedaqogikanın genderoloji təhlili maraqlı məsələlərin ortaya çıxmasına şərait yaradır. Bu yanaşmaya görə "cins" kateqoriyası yalnız təbii şərtlərdə meydana çıxan bioloji deyil, həmçinin mədəni yolla ötürülən sosial fenomen olduğu üçün mürəkkəb bir struktura malikdir. Bu struktur özündə müəyyən stereotipləri, arxetipləri daşıyır və onları sosial davranış normalarında, dünyagörüşündə əks etdirir. Genderşünaslar hesab edirlər ki, mədəniyyət vasitəsilə ötürülən bu kodlar cinsi identiklik anlayışını formalaşdırır. Bunun üçün fərdin bioloji cinsi ilə sosial cinsinin eyniləşdirilməsi doğru deyildir. Yəni fərdin bioloji cinsini təbiət formalaşdırırsa, onun sosial cinsini cəmiyyət formalaşdırır. Bunlar isə, əksər hallarda, üst-üstə düşmürlər. Bu isə şəxsiyyətin formalaşmasına mənfi təsir göstərir.

Ənənəvi təhsildə bir nəslin əldə etdiyi, yaşatdığı bilik və təcrübənin digərinə ötürülməsi əsas şərtdirsə, yeni yanaşmada ötürülən bütün sosial-mədəni ənənələr patriarxallıq elementi kimi ciddi tənqid süzgəcindən keçirilir. Burada öyrədən və öyrənən arasındakı ənənəvi münasibətlər yeni feminist fəlsəfəsi baxımından dəyərləndirilir. Çünki hesab edilir ki, ənənəvi təhsil sisteminin məktəbəqədər dövründən başlayaraq bütün pillələrində hökm sürən gender assimmetriyası, patriarxal ənənələrin dərsliklərdə, təlim-tərbiyə prosesində əks olunması cinslərin özünüdərkinə və normal psixoloji inkşafına maneçilik törədir. Yeni təhsil sisteminin tətbiqi isə yeni pedaqoqlar nəslinin yetişdirilməsini və onların yeni metodlarla işləmək təcrübəsinin formalaşmasını tələb edir.

***Açar sözlər***:gender tədqiqatları, stereotip, klassik, postmodernizm, feminizm.

## İstifadə olunmuş ədəbiyyat

1. Countries by Gender Inequality Index.2014.
2. http://reports.weforum.org/global-gender-gap-report-2016/results-and-analysis
3. http://www.economist.com/blogs/dailychart/2011/02/child_brides
4. http://az.islam.az/article/a-885.html
5. Захарова С. Н. Гендерное воспитание детей и учащейся молодежи:Учеб. -метод. пособие / С. Н. Захарова, В. В. Чечет. – Минск: БГУ, 2011.
6. http://studopedia.info/2-14066.html
7. http://domik-v-internete.ru/2012/02/gender_iden/#.WRn1TlWGPIU

**Айтен ДЖАФАРОВА**

## РОЛЬ ГЕНДЕРНОГО РАВЕНСТВА И ЕГО ДИНАМИКА В РАЗВИТИИ ОБРАЗОВАНИЯ

### Резюме

Если основной целью традиционной системы образования является формирование личности, как единого целого в физическом, интеллектуальном и нравственном смысле, то основной целью гендерной педагогики является представление личности как полового, социально-культурного феномена. Вопрос половой идентификации личности определяет суть новой системы образования. В новом образовательном процессе, коренным образом отличающемся а традиционной системы образования, где женское и мужское начало объединяется в феномене единой «личности» и к обоим полам выражается одинаковое отношение, на первый план выдвигаются психологические отличия девочек и мальчиков, их воспитание различными методами.

***Ключевые слова***: гендерные исследования, стереотип, классический, постмодернизм, феминизм.

**Ayten JAFAROVA**

## THE ROLE OF GENDER EQUALITY AND ITS DYNAMICS IN THE DEVELOP-MENT OF EDUCATION

### Summary

If the main goal of the traditional education is the upbringing of a personality as an integral whole in the physical, intellectual and moral sens, however gender education focuses on the individual’s gender and socio-cultural phenomenon distinction. The essence of the innovated education system is defined by the gender identity of the individual. İn contrast to the traditional education where male and female gender phenomenon is taken as an integral whole, the innovated gender education puts forward male-female psychological differences and brings up the differentiated methods in the process of male-female upbringing.

**Keywords**: gender researches, stereotype, classic, postmodenizm, feminism.

## XARİCİ ÖLKƏ TƏDQİQATLARI

**Цуй ВЭЙХАН**

*Институт Философии*
*Китайской Академии*
*социальных наук, профессор*

# ПОЛОЖЕНИЕ И ЗАДАЧИ СОВРЕМЕННОЙ КИТАЙСКОЙ ФИЛОСОФИИ *

Хочу рассказать о положении, связанном с изучением современной китайской философии и важнейших задачах, стоящих перед ней.

Рассмотрим первый вопрос: основная ситуация с изучением современной китайской философии. Современная китайская философия в основном состоит из трех частей: 1) марксистской философии, 2) зарубежной философии и 3) китайской философии.

1) Марксистская философия. В современной китайской философии марксистская философия занимает ведущее положение и имеет особо важное значение. В Китай она проникла из бывшей СССР, поэтому в огромной степени испытала влияние советской марксистской философии. В течение довольно длительного периода времени "Краткий курс по истории ВКП (б)", особенно его второй раздел четвертой главы о диалектическом материализме и историческом материализме, оказали большое влияние на изучение китайской марксистской философии.

Начавшийся в 1978 году большой спор о критериях истины имеет крайне важное значение для изучения китайской философии. Идеологическая эмансипация как движение, имеющее историческое значение, в корне способствовало всестороннему освобождению китайской философии от советской модели обучения, а также ее обновлению. С тех пор китайская марксистская философия начинает сознательно опираться на современную китайскую социальную практику, по-своему постигать и выражать сущность духа времени, переосмысливать самую основную практическую деятельность китайского народа в процессе модернизации, а затем строить современную китайскую форму марксистской философии с "китайской спецификой, китайским стилем, китайским обликом".

В последнее время в марксистской философии появилась тенденция к диверсификации. С точки зрения перспективы исследований, ученые рассматривают марксистскую философию с таких аспектов, как философское мировоззрение, онтология, теория познания, теория стоимости, взгляд на историю, герменевтика и др.

Исходя из круга исследуемых вопросов, кроме дальнейшей разработки таких классических философских вопросов, как мировоззрение, онтология, взгляд на историю и другие, ученые значительно расширили круг вопросов, постоянно возникающих в реальной жизни, некоторые из которых становятся актуальными проблемами философии, как например, традиция и современность, развитие и цена, справедливость и эффективность, истина и ценность.

Следует отметить, что ученые по-разному подходят к вопросам изучения философии марксизма: это исследование классических текстов в марксистской

* Məqalə fəlsəfə ü.e.d., prof. İlham Məmmədzadə tərəfindən çapa məsləhət görülüb.

философии; творческий диалог между марксистской философией, современной западной философией и китайской традиционной философией; выявление и применение идеологических и теоретических ресурсов зарубежной марсистской философии; раскрытие и объяснение современного значения марскистской философии; освоение новых сфер и границ в изучении марксистской философии на пересечении теории и практики и т.д.

В целом, хотя в изучении современной китайской марксистской философии наблюдается тенденция к диверсификации воззрений, круга тем и подходов, однако основная цель одна. Она заключается в том, что к изучаемому вопросу необходимо подходить с позиции практики и времени, опираться на объект исследования, обобщать теоретические познания и идеологические ресурсы, удовлетворяющие потребностям времени, раскрывать и объяснять современное значение марсистской философии с точки зрения мира, чтобы построить ее современную китайскую форму. Это и общая проблема, и общая задача, и общая цель, над которой размышляют все исследователи марксистской философии.

2) Изучение зарубежной философии. В современном Китае изучение зарубежной философии сосредоточено в основном на западной философии, а именно большое внимание уделяется англо-американской философии и немецко-французской философии, и в этом направлении достигнуты хорошие результаты. Что касается изучения философии других стран, то работа ведется и развивается в разных аспектах, но по своему масштабу и уровню, в особенности по своему влиянию на современную китайскую философию, она не может сравниться с исследованиями философии этих четырех стран.

Ознакомление с системой западной философии и ее изучение в Китае началось в конце XIX - и начале XX века. За более чем 100 лет в Китае сменилось несколько поколений исследователей западной философии, достигнуты плодотворные результаты, сложилась особенная традиция, придающая равное значение как переводу, так и самому исследованию. В китайской философии возник феномен, заслуживающий внимания - это то, что выдающиеся исследователи часто являются переводчиками классических произведений, и наоборот.

При изучении западной философии китайские ученые как представители восточной страны, в первую очередь сталкиваются с проблемой перевода. Перевод классических произведений на китайский язык - необходимая базовая работа, и целый ряд китайских ученых, приложив огромные усилия, достигли эффективных результатов в этом направлении. К настоящему времени на китайский язык переведены: “Полное собрание сочинений Платона”, “Полное собрание сочинений Аристотеля”, “Полное собрание сочинений Канта”, “Полное собрание сочинений Витгенштейна”, “Избранные сочинения Фихте”, “Сборник сочинений Ницше”. Из классических трудов, которые в данный момент находятся на стадии перевода, можно назвать “Полное собрание сочинений Гегеля”, “Собрание сочинений Гегеля”, “Сборник сочинений Хайдеггера”. Путем долгих усилий в настоящее время основные произведения западной философии переведены на китайский язык, многие из которых имеют несколько вариантов перевода, например, существует пять различных изданий “Критики чистого разума” И. Канта.

С исследовательской точки зрения, китайские ученые обладают сравнительно глубокими знаниями об основных течениях, представителях и произведениях различных периодов в истории развития западной философии. Важное место занимают исследования в области древнегреческой философии, немецкой классической

философии, феноменологии и философии бытия, особое внимание уделяется таким философам, как Платон, Аристотель, Кант, Гегель, Хайдеггер и Ницше, каждый год печатается и издается множество научных работ и статей по этим темам. Китайские ученые составили также сборники по истории философии, охватывающие основные течения западной философии и их представителей и демонстрирующие закономерности и внутреннюю логику ее развития. Самыми значимыми среди них являются “История западной философии” в 8 томах под редакцией Института философии Китайской академии общественных наук, “Общая история западной философии” в 10 томах под редакцией Философского института Фуданьского университета, которые представляют собой знания и поиски китайских ученых в области западной философии.

3) Китайская философия. Под китайской философией подразумеваются философские мысли в традиционной китайской культуре, ее можно назвать также китайской традиционной философией. В отличие от марксистской и зарубежной философий, китайская философия - это философская мысль, зародившаяся на территории Китая. Здесь необходимо отметить, что философия как современная научная система является «импортным товаром» для Китая. Хотя Китайская цивилизация восходит к незапамятным временам, содержит в себе очень богатую философскую мудрость, однако не имеет цельной системы философии как дисциплины. В современную эпоху китайская традиционная цивилизационная система столкнулась с серьезным вызовом западной цивилизации. Западная философская мысль, наряду с современной наукой и техникой, начинает проникать в Китай, что приводит к формированию европейски ориентированной китайской философии.

Центральной проблемой китайской философии является проблема ее легитимности, то есть существует или нет в Китае философский вопрос. Уже в начале 30-х годов XX века некоторые ученые разграничили понятия “китайская философия” и “философия в Китае”. И это было сделано на основании универсалистской концепции западной философии, исходя из которой философская мудрость, содержащаяся в китайской традиционной мысли является философской формой не в чистом виде, иными словами, это философский материал, требующий построения. Чтобы придать китайской философии еще более чисто философский характер, необходимо при помощи стандартов и методов западной философии заново организовать и изложить китайскую мысль, а затем обнаружив содержание философской природы, сформировать “китайскую философию” в чисто философском смысле. Подобная китайская философия, в сущности является результатом измерения и сокращения естественной китайской философии с помощью стандартов западной философии, конкретнее, выявление и упорядочение содержания философской природы в китайской мысли, затем построение и формирование научной дисциплины путем теоретической систематизации. Если рассматривать китайскую философию таким образом, то это будет означать, что в Китае не существует философии, а есть только философский материал.

Другие ученые считают, что необходимо покончить с монопольным положением универсализма в западной философии и установить основы легитимности самой китайской философии. Китайская философия обладает собственным способом понимания универсальности. Гуманность - это основная концепция китайской философии, она не есть обоснование универсального характера и понятие более высокого уровня, а есть сила, порождающая чувство единения и равенства между разными индивидами. Способ установления гуманности и ее ценности выражает самобытный характер китайской философии. Можно сказать, что она предоставила другую возможность для философии, не зависящей от какой-либо общей философии и

универсальных предпосылок, а также нашла философский способ сделать общность возможной.

Перейдем к рассмотрению второго вопроса: важным задачам современной китайской философии.

Политика реформ и открытости, начатая в 1978 году, открыла новую эпоху в современном Китае. После почти 40 лет интенсивных поисков китайская экономика добилась успехов, привлекающих внимание всего мира, избрала путь развития с китайской спецификой. Развитие экономики, перемены, произошедшие в стране, с одной стороны, способствовали и создали условия для развития философии. Создание собственной философской теории китайского народа с китайской спецификой и чертой эпохи стало главной задачей, стоящей перед современной китайской философией. Чтобы выполнить эту задачу, научное философское сообщество должно вести поиски в трех нижеизложенных аспектах.

В первую очередь – это опора на социальную практику современного Китая. В любой стране процесс построения национальной философии не отделим от своей собственной социальной практики. С точки зрения истории философии, зарождение и развитие каждой новой философии всегда зиждется на основе глубоких раздумий и разумных решений главных вопросов социальной практики. Практическая деятельность по осуществлению политики реформ и открытости на протяжении почти 40 лет проложила китайский путь, сформировала китайский опыт. Это реальная основа для построения современной китайской философии. Китайские ученые, руководствуясь чувством исторического долга, должны прочно опираться на китайскую практику, глубоко проникать в интерпретацию китайского пути, действительно повышать китайский опыт; активный очаг философских размышлений сконцентрировать на важных теоретических и практических вопросах, возникающих в социальной практике; в своих исследованиях должны выработать новые концепции и термины, чтобы построить современную китайскую философию с китайской спецификой, китайским стилем, китайским обликом.

Во-вторых -это усвоение основных характеристик эпохи глобализации. На протяжении человеческой истории эволюция философии происходила по собственным законам, однако в конечном счете, подчинялась законам эволюции социальной практики. Эволюция философии – это концентрированное отражение эпохальных и общественных перемен в области идей. История показывает, что эпоха великих социальных перемен очень часто - это эпоха большого развития философии. Сегодня в мире происходят самые широкие и глубокие в истории социальные преобразования, наблюдается тенденция к многополярности мира и глобализации экономики, продолжается процесс многообразия культуры и информатизации общества. Можно сказать, что сегодня, более чем когда-либо, нам необходимо глубоко понять и точно выразить дух времени. Для того, чтобы построить современную китайскую философскую теорию, мы должны проникнуть в глубины времени, переосмыслить вопросы эпохи, понять особенности эпохи, кристаллизовать дух времени. Это важные задачи, требующие долгих и мучительных усилий.

В-третьих - это содействие диалогу между китайской традиционной философией, западной философией и марксистской философией. Построение любой важной философии должно основываться на идеологических ресурсах. Что касается современного Китая, то существующие идеологические ресурсы в основном сложились из китайской традиционной философии, западной философии и марксистской философии. Чтобы построить современную китайскую философию, необходимо

полностью раскрыть положительные факторы этих трех идеологических ресурсов, содействовать контактам и общению между ними, используя в качестве посредника важные вопросы, волнующие всех, а также заимствовать положительный опыт и синтезировать нововведения.

История развития человеческой цивилизации показывает, что величайшие результаты, достигнутые путем тяжелой мыслительной деятельности, всегда преодолевали языковые и культурные барьеры и становились духовным богаством всего человечества. Что касается построения современной китайской философии, то мы должны подойти k нему с открытостью и широким взглядом на мир, смело и умело использовать все выдающиеся достижения мировой цивилизации. Необходимо отметить, что при заимствовании зарубежного опыта, мы должны стоять на позиции своей страны, и не забывать, что наша цель состоит в том, чтобы с помощью заимствованной научной теории, продвигать собственные исследования. Во время философских размышлений мы обязаны всегда помнить, что должны мыслить по китайски и не должны отрываться от своих китайских корней. Как великан Антей из древнегреческой мифологии, который был непобедим, касаясь земле, но терял силу, если отрывался от нее. Опираясь только на свои корни, китайские ученые могут обрести неиссякаемые духовные силы и создавать прекрасное будущее китайской философии.

Спасибо за внимание! Доклад сделан на Первом Международном философском конгрессе в Минске.

**Ключевые слова:** китайская философия, современная китайская философия, иностранная философия, марксизм, онтология, гуманизм, универсал.

**Suy VEYXAN**

## MÜASİR ÇİN FƏLSƏFƏSININ MÖVCUD VƏZIYYƏTI VƏ VƏZIFƏLƏRI

### Xülasə

Məqalədə müasir Çin fəlsəfəsinin mövcud vəziyyəti və qarşısında duran vəzifələr ətraflı təhlil olunur. Müəllifin fikrincə, müasir Çin fəlsəfəsi 3 hissədən ibarətdir: 1) marksist fəlsəfə, 2) xarici fəlsəfə, 3) Çin fəlsəfəsi. Bildirilir ki, Çinə marksist fəlsəfə sabiq SSRİ-dən keçib və Çin fəlsəfəsinə böyük təsir göstərib. Marksist fəlsəfənin öyrənilməsində məqsəd onun daha da genişləndirilməsindən irəli gəlirdisə , əsas məqsəd müasir marksist fəlsəfənin yaranması idi.

Müəllif eyni zamanda bu fikirdədir ki, müasir Çin fəlsəfəsinə ingilis-amerika və alman-fransız fəlsəfəsinin böyük təsiri olmuşdur. Qərb fəlsəfəsinin tərcüməsinə nəzər yetirən müəllif yazır ki, Çində daha çox Platon, Aristotel, Kant, Hegel, Haydegger və Hitsşenin əsərləri tərcümə olunur. Ənənəvi Çin fəlsəfəsi və onun əhəmiyyətinə diqqəti yönəldən müəllif bu fəlsəfənin universallığı və humanizmi barədə fikirlərini irəli sürür. Müasir Çin fəlsəfəsinin qarşısında duran əsas vəzifə Çin özünəməxsusluğu ifadə edən fəlsəfi nəzəriyyənin yaradılmasıdır.

**Açar sözlər:** ənənəvi Çin fəlsəfəsi, müasir Çin fəlsəfəsi, xarici fəlsəfə, marksizm, ontologiya, universallıq, humanizm.

**Tsuy VAYKHAN**

## A STATE AND TASKS OF MODERN CHINESE PHILOSOPHY

**Summary**

The author considers a state and tasks of the modern Chinese philosophy. He notes that modern Chinese philosophy consists of tree parts: Marxist philosohpy, foreign philosophy, Chinese philosophy. Marxist philosophy spread in China from the former USSR and exerted a great influence on studying the Chinese philosophy. On a whole, although in study of modern Marxist philosophy the tendency to diversication in the points of view, however, there is one purpose to establish a modern form of Marxist philosophy.

Stating on study of foreign philosophy in modern China, the author notes that a great attention is to Anglo-American, German-French philosophy. As well, a great attention is paid to the translations of works by Western philosophers: Plato, Aristotle, Kant, Hegel, Haiderger, Nit. The Chinese philosophy means philosophical reflections in the traditional Chinese culture, tracing back from time immemorial. The Chinese philosophy possesses its own way of understanding of universality and humanity is a basic conception of the Chinese philosophy. Creation of own philosophical theory of the Chinese people with Chinese specific feature of epoch has become the main task put before modern Chinese philosophy.

**Keywords:** Chinese philosophy, modern Chinese philosophy, foreign philosophy, Marxism, ontology, universality, humanism.

**UDC 130.2:329(477)**

**Oleksandra KACHMAR**
*PhD in pedagogy, Associate Professor,*
*The Department of Professional Methods*
*and Primary Education Technologies*
*Vasyl Stefanyk Precarpathian National University*
*(Ukraine, Ivano-Frankivsk)*

# RITUAL AS A METHOD OF MANAGEMENT OF AGGRESSION*

The article considers the place of ritual in a communication culture. Definitions of ritual and the main problems of its interpretation are analyzed. The approaches regarding the identification and distinction of the concepts of rite and ritual by different researchers are considered. Special attention is paid to the importance of ritual as an element of the communication culture in the context of management of aggressive behavior at different levels of individual and social life.

**Statement of the problem in general and connection with important scientific or practical tasks.** The topic of this article is multidimensional and has connection with psycholinguistic, cognitive linguistics, and structural linguistics. In addition, traditionally the ritual has been the subject of cultural studies, philosophy, sociology, and anthropology. It is regarded by these sciences as a phenomenon of culture as well as semiotic structure, "complex symbolic education," "powerful communicative system", "a special form of communication between people and a specific way of regulation of their social relations." Analysis of language is only one aspect of the study of a ritual as a cultural phenomenon or as a specific way of behavior (10).

Only partial detection of significant and determinative sides of the phenomenon of "ritual" takes place at the present stage of its study. Many researchers pay attention only to the symbolic nature of the ritual, its pragmatic and utilitarian side, as well as psychological one – overcoming aggression and harmonization of human relations. However, the fact that the ritual in the development of culture acquires information values, and does not only retain, but renders the information is insufficiently investigated.

**Analysis of the recent studies and publications.** For the first time a comprehensive analysis of the functions of ritual was carried out by **E.Durkheim**. His detailed classification of rituals, based on the opposition of "sacred"-"profane", became the source for the formation of the concepts of ritual in paradigms of functionalism (**E.Hoffmann, M.Douglas, B.Malinovskyi, A.Radcliffe-Brown, W.Warner** and others) and psychoanalysis (**S.Freud, E.Fromm, K.-G.Jung** and others). Equally important to the disclosure of the nature of ritual are its structuralistic interpretations. In accordance with this approach, ritual is a structure that contains certain information that must be decoded (**A.Gennep, C.Levi-Strauss, E.Leach, V.Turner,** etc.). Thus, **V.Turner** defines a ritual as a language, with symbols being its basic structures. Along with the works of sociologists and anthropologists, the concept of ritual is among the objects of the study of the philosophy, culture studies and semiotics (**A.Baiburin, I.Eibl-Eibesfeldt, M.Eliade, G.Girard, G.Simmel, L.Ionin, E.Cassirer, C.Kuhn, V.Toporov, E.Cepl,** and others).

---

* Məqalə fəlsəfə ü.f.d. Mətləb Mahmudov tərəfindən çapa məsləhət görülüb.

The **aim** of the article is to reveal the importance of ritual as an element of the communication culture in the context of management of aggressive behavior at different levels of individual and social life.

**Presentation of the basic material of the research.** New standards of living require changes in the dynamics of improvement of human relations, development of communication culture that contributes to emerging of new forms of communication.

Communication is the condition and universal way of human and society existence, in the process of which exchange of experiences, material and spiritual values takes place, and common norms, principles, ideals, and attitudes in different spheres of life are formed.

**F.Batsevych** emphasizes that a good command of the language through which communication occurs, knowledge of the laws of its use, and the like is of crucial importance for the parties to the communication. This refers to the phonetic and phonologic, semantic (lexical and grammatical), and structural and syntactic knowledge of the language. That is, the parties to the communication must know the language at all levels, be familiar with all the elements of the phonetics of the language in which communication occurs, know the laws of combination of allophones in speech, the grammatical categories and rules of connecting them. They should also understand the meaning of a huge number of words (constituting the lexical basis of the language) and know the rules of their combination and derivation, be able to form a sentence (message) of different semantic and structural types. Without such knowledge and skills, it is impossible to create even simple discourses and texts (4, p. 123).

Throughout its existence, the humanity has developed different ways of communication, which, reflecting the objective requirements of the collective lifestyle of people became more diverse due to the development of society itself. They constitute the spiritual foundation of life, history and culture of human society being traditional values. This process is associated with the creation of new rituals, which as many centuries ago, record and shape value-based potential through a system of sustainable recurring collective actions of ritual character (14).

In the archaic preliterate society ritual performed particularly important, we might say, one of the most important functions: it acted as a way to formalize the norms and rules of conduct. It facilitated the communication in archaic communities, as well as adoption of its axiological determinants. With the emergence of writing there appears a text which in the traditional culture is beginning to replace the ritual becoming "a guard of the most important knowledge and meanings that have sacred status" (18, p. 381). Written culture makes it possible for interpersonal communication, which to a certain extent withstands the spoken language with its dialects and semantic differences. National culture that includes symbols, beliefs, values, norms and patterns of behavior that characterize a human community in a particular country is gradually developing in its framework. Under the influence of information theory and linguistics today, the ritual should be viewed as a communicative act. As a result, the theory of opposition of the rational and the irrational in the ritual evolves. English anthropologist **E.Leach** insists that the ritual act performs the expressive function (13, p. 67).

***H.Penner*** in Encyclopedia Britannica gives a following definition: «ritual, the performance of ceremonial acts prescribed by tradition or by sacerdotal decree. Ritual is a specific, observable mode of behavior exhibited by all known societies. It is thus possible to view ritual as a way of defining or describing humans» (22). In other dictionary sources, the ritual is presented as "historically developed form acquired, intended, socially–sanctioned well-ordered symbolic behavior in which the method and order of execution of actions are strictly standardized and do not lend themselves to rational explanation in terms of means and objectives". With the concept of "ritual" are closely connected concepts of "ceremony", "rite", "custom", and "etiquette." As noted by **V.V.Yemelianov**, in modern culture the word "ritual" is pro-

nounced as often as the word "culture". They say that ritual is a rite, ritual is magic, ritual is the basis of all religions, ritual is synonymous with etiquette, good manners, and that the whole culture of mankind begins with the ritual. The concept of ritual in ordinary consciousness is associated with celebration and sorrow, with any ceremony, but if to summarize, it is the alignment of events in a certain order and the care that this order is never violated (8, p. 12-13). From the point of view of etymology, this word originates in Sanskrit, which has the root **ar** meaning "to move."

The participle of this verb **ryta** as an adjective means "suitable, appropriate, correct, righteous", as a noun – "the law (of the revolving universe)", "order", "true", "sacred rite", "sacrifice" (8, p. 14).

The ritual has been studied by researchers – anthropologists, ethnographers, sociologists primarily as an archaic form, associated with religious practices, the concept of myth, syncretic forms of culture (**R.Smith, E.Tylor, G.Dumezil**). The famous French scientist **E.Durkheim** in his work «Elementary forms of the religious life» first stimulated considerable interest in ritual forms of religious life from the standpoint of sociology. From the point of view of the scientist, "quite naturally religious phenomena fall into two fundamental categories: beliefs and rituals. The first are the states of public opinion, they exist in the representations; the second are certain ways of action. Between these two types of factors, there is that very difference that distinguishes opinion from movement. Rituals can be defined and different from other human acts, in particular moral, by only the essence of their subject. Indeed, moral right the same as ritual attributes to us practices, but ones that are addressed to subjects of various kinds. Therefore, it would be necessary to characterize the object of the ritual, to be able to characterize the ritual itself. In short, one can define the ritual, only after identifying (7, p. 36-37). In this very work, **E.Durkheim** develops a fairly detailed classification of rituals, which include prohibitions, reproductive, commemorative and expiatory rituals and ceremonies.

In 1912, **E.Durkheim**, studying the general theory of religion, pointed out some of the functions of ritual. The main ones are: 1) the function of socialization of the individual (discipline and preparatory): teaches the individual such vital qualities as self-control, self-denial, obedience to the requirements of the team; 2) integrative function: by means of rituals, a team asserts itself, unites. In the process of ritual action, people do not only communicate with one another, but also communicate with the ancestors, descendants, present and past; 3) reproductive function: provides updating and maintaining of the collective traditions, norms, and values. This function is very important, because, according to the scientist, the main function of ritual is a reenactment of the past and transforming it into modern times; 4) psychotherapeutic function: ritual creates certain conditions for psychological comfort of social life, "euphoria". This function unites the team in critical situations (natural disasters, the death of the members of the team). All four functions should be combined, since only then the ritual is able to provide such psychological setting, the result of which will be the unity needed to preserve the team in time (3, p. 31).

Regarding the fourth function of the ritual, the opinions of scientists on this issue differ. In particular, **A.Huxley** believes that the rituals relieve emotional tension, "catalyze aggression" (20). On the other hand, **A.R.Radcliffe-Brown** entertained an idea that the psychological task of the ritual is to evoke a sense of danger (21, p. 148-149). **A.K.Baiburin** introduces the term "primary tension" (e.g. birth, death), which is removed in the appropriate ritual, but later a new tension appears due to the doubts about the effectiveness and correctness of the ritual. To get rid of this, people turn to a new ritual (e.g. purification) (3, p. 32-33).

Not least important for our study is the linguistic content of the ritual, because any action or the text used in the ritual, has not the value that would be inherent in the same text outside of

a ritual. According to **M.G.Izvekova,** the specifics of ritual discourse is that it is not a one-way phenomenon as other types of discourse, although the ritual characteristics are inherent to other types of communication (9, p. 7). It is noted that the religious and legal discourses are the thorniest ones. Attention is drawn to a special formality and standardization of the religious discourse. The main features of the religious discourse are: 1) special communicative tone; 2) the transition of participants to a new status, staginess; 3) the status inequality; 4) a limited freedom in the choice of language (9, p. 180).

A similar view of ritual language is expressed by **S.M.Tolstaia**, arguing that ritual language is special. Among the discursive characteristics, they distinguish the presence of refrains, inserts, full of clichés form, impact on the reality in general and address to higher powers (16, p. 594-595).

In the lexical aspect ritual texts are characterized by the frequent usage of abstract vocabulary that gives them a special formal character, encourages participants to generalization and expansion of their statements (9, p. 183).

The issue of implementation of the ritual, in reality, requires special attention. There are two points of view on this problem. Some believe that ritual is a sacred act, which creates a situation of the emergence of the Cosmos out of Chaos (17, p. 517), other scholars characterize ritual as a phenomenon primarily festive, and its festive character it obtained due to numerous transformations, being higher dramatic unit (15, c. 32).

According to **V.N.Toporov**, the characteristic feature of the ritual is the connection with the sacred, Holy, that is considered the treasure of tradition, which manifests itself in the highest type of conduct called Holiness (17, p. 35). Thus, we should notice a definite connection of sacred and ritual: in the process of performing the ritual, the most favorable environment to reveal the sacred and its types is formed. One should not discard the sacred traits of ritual. In particular, in the definition of **N.A.Khrenov** ritual appears as a concentrated expression of the sacred values. Sacredness can be correlated with a hypersensitive reality - the world of the ancestors, deities, cultural heroes (19, c. 61). Therefore, sacredness is the specific feature of the ritual.

**R.** and **K.Berndt** define ritual as a rite, magical or religious, which is a stylized and symbolic action; however, this action is performed to achieve certain goals in the mortal life, or the afterlife. In the definition of **V.Fuchs**, the ritual is a socially adjustable, collective sequence of actions that do not give rise to new objectivity and do not change the situation in the physical sense, but recycle symbols and lead to the symbolic change of a situation. According to **G. and A.Teodorson**, a ritual is: 1) a culturally standardized set of actions with symbolic content that is performed in situations alleged by traditions; 2) a symbolic behavior that is repeated in certain periods of time, expressing certain values or concerns of the group (or individuals) in a stylized explicit form (8, p. 15).

Ritual as a type of public behavior correlates in this perspective with the concept of communicative behavior, because it is a symbolic form of communication with supernatural forces and entities, members of one’s own community, other communities and social institutions (2).

In her thesis "Phenomenon of the ritual in society (social and philosophical analysis),” **O.Lisina** notes that ritual is not a specific behavioral act or an algorithm that requires reproduction to be called a "ritual". The origin of the ritual, like its existence, is deeply metaphysical. The ritual as a phenomenon generates in individuals and social groups the number of existential needs, which in turn can influence the system of value orientations and models of behavior that are established in a particular society as a "rule", "norm", "stereotype" and similar categories. That is, the ritual is not a memorized simple mechanical sequence of specific for-

mulas: words, gestures, intonations and movements. Thus, it would have no meaning and would include no emotional stress. However, in many cultures, the ritual is a reflection of the micro and macrocosm of the ethnic group, its ontological and axiological views and contains elements of explanation of the world (12).

A set of interactions, which is manifested in ritualized behavior, helps the individual to socialize and to adapt. Owing to the reproduction of rituals in which values, attitudes, preferences, are priorities are hidden, cultural patterns provide the ability to adjust and adapt the behavior of individuals. Adherence to them provides a stable interpersonal relationship, which relieves stress and anxiety. When speaking about the communicative purpose of the ritual, it is necessary to point to its role in the system of social control. The mechanism of social control acts as an organizer or creator of status roles that limit and direct the behavior of people depending on the goals and objectives of the social order. Whatever the communication according to its characteristics (spontaneous or consciously managed and organized), it is located in the system of regulators, which can be rituals as sustained collective actions, ceremonies, customs (**E. Durkheim**) or believes and faith (**M.Weber**).

Collective ritual activities, acquiring a mass character, give the individual new, previously alien features of communication, thanks to which he becomes more relaxed. Depersonalization of responsibility that is being transferred to another and divided between all takes place. Because this process always has the collective up front, the renunciation of personal occurs, and all actions of participants have a high degree of imitation being unconscious in nature. In this situation, the ritual communication has a high emotional charge that has an absolute character.

All rituals are divided into positive and negative ones (**E.Hoffman, E.Durkheim**). The first, in fact, are the metaphor of the proximity of the participant to the sphere of the sacred (for example, the ritual of laying flowers to the memorial of the unknown soldier, the individual act of voting). The second are based on the system of prohibitions that aims to divide the sacred and vulgar (for example, the prohibition of the desecration of state symbols). The division of rituals into crisis rites and calendar rites is widespread (**A.Rayburn, E.Durkheim**). Thus, crisis rituals (a collection of the family at the funeral or the President's address to the nation during natural disasters) have always been and remain the most effective and the only possible means of individual and collective experience of extreme situations. Calendar rituals, by contrast, are clearly tied to a specific date. Their regular from year to year repetition, in fact, consolidates the feeling of inviolability of the social and political order (New Year, another election campaign). As **A.Baiburin** notes, the articulation of time through ritual suggests that, despite the natural changes, the world stays the way it was fixed by the last ritual (3, p. 123). In addition, rituals can be classified according to massiveness and the degree of structure, the sequence of elements of amorphousness and structuredness, the characteristics of the group performing the ritual, and for which it is performed (**L.Ionin**). Rituals of transition or initiation rituals (**E.Durkheim**) (5) play an important role in the social life. They aim at establishing a new individual or collective identity, fixation of personal and group status, integration of major status groups (receiving a passport of the citizen of the country, the ritual of the oath of the newly elected member of Parliament and the like).

Sensory hunger, physical stress, alienation of man from man, lack of emotional communication, blocking of emotions, caused by technocratic ideology, lead to the fact that the emotions being the energy foundation of the person search for a workaround for the release. This usually does not lead to harmonization, yet to unbalance of the relations of the individual with himself and the environment. This is expressed in aggressiveness, hostility towards others, and can lead to psychological disorders, psychoses. Often unrealized energy directs impact on inner

automatically controlled processes, which leads to disruption of their functioning and causes various pathologies in the human body. In fact, fear of suffering failure in "live" communication with others leads to isolation of the individual, the impossibility of its successful social realization, building harmonious relationships in the family, etc. (6).

Therefore, the question of management of the emotional states of personality, overcoming emotional imbalances, ensuring the discharge of accumulated aggression in socially acceptable ways arises. There are a number of mechanisms to do this: reorientation of aggression, legitimization of possible conflict situations; the sublimation of aggression in socially useful activities of a social nature (moving furniture, agricultural work, and the like); ritualized forms of intraspecific aggression – sports, including extreme (as an alternatives to addictive behavior), para-athletics (fans), militant (scout) camps. By the way, the frustration of inherent need for initiation, ritualized forms of which exist in any traditional society, and have been previously met in the conditions of the pioneer and Komsomol organizations, has led to the intense emergence of aggressive juvenile gangs that implement all the basic mechanisms of initiation, but in asocial form.

The emotional component of the management of aggressive behavior should go beyond immediate reactions: from the feeling of overcoming frustrations to feelings of victory, triumph. Learning to experience emotions, reformatting emotional states and reactions from aggressive into non-aggressive ones (e.g., laughter is a cultural alternative to aggression).

According to **O.Astafieva**, the new principles for the creation, dissemination and preservation of information form in the socio-cultural environment special value-semantic fields, which do not always correspond to democratic tendencies. In this regard, the problem of preservation of the humanistic axiological foundations of the culture in the new informational–communicative space is becoming urgent. This happens because the modern generation of people lives in a situation of socio-cultural risks that are determined by the dynamics of the spread of information and communication systems and technology and are associated with the conflict between the particular and the universal in the culture.

**O. Astafieva** proposes to classify these risks into the following groups:

- "lag" of cultural development that creates information and communication inequality;
- exceeding the scope and role of information flows;
- the loss of the basic characteristics of ethnic cultures and, consequently, the transformation of the models of ethnocultural identity, the "dispersion" of identity;
- the activation of negative self-organization and missed opportunities for development in the absence of the concept of national (state) cultural policy (1, p. 169).

Education of ability to intercultural communication involves the solution of a number of problems that are bound to arise during contact of different cultures. A central position among these problems is occupied by the problem of understanding the Other (11, p. 282).

Ritual is conceived as a way of organizing the life of society, as well as a non-verbal component of the field of culture and has a communicative and playful nature. It can be interpreted as a fragment of the existential element, ontological principle of streamlining and harmonization of social life and is mostly cyclical in nature.

In the ritual, as well as in the individual and collective psychotherapy they use the influence on humans of various forms, most often comprehensively. Accordingly, the changes in a person occur at different levels of interaction between "I" - "Other." Therefore, individual and group psychotherapies confront pathological trends, strive to overcome misunderstandings, inconsistencies, desynchronization of a person with himself/herself and others, improve communication skills, and develop the ability to communicate. In other words, the implementation of "therapeutic" ritual activity helps to shape the ability of a person to the realization of opportu-

nities that he/she contains. Being symbolic in nature, ritual performs the function of a language that has a unity of verbal and non-verbal side. A ritual, so to speak, becomes an intermediary in the communication, which may not occur if a symbolic encoding does not become universal, understandable for everyone (14).

Due to the actualization of axiological dominants of communication, the issue of the preservation and cultivation of personalized communication, which is based on the interpersonal contact in interaction, is of a paramount importance. Exploring the impact on the state of relations in the society, Professor of the University of Tokyo **T.Imamichi**, states that in the age of the machines ecudation relationship begins to dominate over the dative one caused by someone else's gift. In industrial society, everyone can get the desired without verbal communication. Therefore, the problem of preservation of the live communication is currently pressing, as the new generations may not be able to implement it from the point of view of etiquette forms.

**Conclusions and prospects for further research.** Thus, we can say that the ritual, being a communicator, acts as an intermediary in the dialogue between the parties. The synthesis of the verbal and nonverbal sides of communication takes place with its help. It also dialogizes the relations between its participants, thus solving the problem of preservation and cultivation of personalized communication, which is based on the interpersonal contact in interaction. In the ritual there is an exchange of signals, signs, enabling the parties to the communication understand each other at.

**Keywords:** communication culture, ritual, aggression, management of aggression.

## References

1. Астафьева О. Информационно-коммуникативная доминанта современной культуры /О.Астафьева // Единство и многообразие в религии и культуре : Философские и психологические корни глобальных противоречий. Вып. 22. [Гл.ред. Л.Морева]. Санкт-Петербург : Изд-во «ЭЙДОС», 2006.

2. Афанасьєва О. Поняття ритуалу в соціокомунікативному вимірі /О.Афанасьєва [Електронний ресурс]. Режим доступу: http://papers.univ.kiev.ua/1/inozemna_filologja/articles/afanasyeva-o-the-notion-of-ritual-in-social-and-communicative-terms_24730.pdf.

3. Байбурин А. Ритуал в традиционной культуре : структурно-семантический анализ восточнославянских обрядов /А.Байбурин. СПб. : Наука, 1993.

4. Бацевич Ф.С. Основи комунікативної лінгвістики /Ф.С.Бацевич. К.: Видавничий центр «Академія», 2004.

5. Геннеп А. ван. Обряды перехода: Систематическое изучение обрядов /А. ван Геннеп; пер. с фр. Ин-т этнологии и антропологии им. Н.Н.Миклухо-Маклая РАН. М.: Восточная литература, 1999.

6. Гордін Л. Е. Спілкування як сенс екзистенції людини /Л.Е.Гордін, Е.А.Мельник [Електронний ресурс]. Режим доступу: http://www.khai.edu/csp/nauchportal/rhiv/CH/014-GCH414/pdf/6.pdf.

7. Дюркгайм Е. Первісні форми релігійного життя. Тотемна система в Австралії /Еміль Дюркгайм. К.: Юніверс, 2002, 423 с.

8. Емельянов В.В. Ритуал в древней Мессопотамии /В. В. Емельянов. СПб.: Азбука-классика; Петербургское Востоковедение, 2003.

9. Извекова М.Г. Прагмалингвистические характеристики ритуального дискурса: дис.... канд. филол. наук : 10.02.19 /Извекова М. Г. Волгоград, 2006.

10. Калиновська О.В. Вербальний ритуал в українському політичному дискурсі 70-х років XX століття /О.В.Калиновська [Електронний ресурс]. Режим доступу: http://www.nbuv.gov.ua/old_jrn/soc_gum/naukma/Fil/2004_34/03_kalynovska_ov.pdf.

11. Коломієць О.Г. Філософська парадигма упередження агресивності в сучасному суспільстві. Дисертація на здобуття наукового ступеня доктора філософських наук /О.Г.Коломієць. К., 2015.

12. Лисина Е.А. Феномен ритуала в жизни общества (социально-философский анализ): автореф. дис.... канд. филос. наук: 09.00.11 /Е.А.Лисина. Оренбург, 2008.

13. Лич Э. Культура и коммуникация: логика взаимосвязи символов. К использованию структурного анализа в социальной антропологии /Эдмунд Лич. М.: Изд. фирма «Восточная литература» РАН, 2001.

14. Мельник Е.А. Ритуал як засіб створення стереотипів культурних форм спілкування та поведінки /Е.А.Мельник [Електронний ресурс]. Режим доступу: http://www.khai.edu/csp/nauchportal/Arhiv/GCH/2013/GCH113/pdf/08.pdf.

15. Сарингулян К.С. Культура и регуляция деятельности /К.С.Сарингулян. М.: Изд-во АМ АрмССР,1986.

16. Толстая С.М. Вербальные ритуалы в славянской народной культуре /С.М.Толстая //Логический анализ языка: Язык речевых действий. М.:[б. и.], 1994.

17. Топоров В.Н. Миф. Ритуал. Символ. Образ /В.Н.Топоров. М.: Прогресс, Культура, 1995.

18. Хоруженко К.М. Культурология. Энциклопедический словарь /К.М.Хоруженко. Ростов н/Д.: Феникс, 1997.

19. Хренов Н.А. Ритуал в контексте переходных эпох /Н.А.Хренов //Мир психологии. 2003, № 1.

20. Huxley J. Philosophical Transactions of the Royal Society of London /J.Huxley. Series B: Biological Sciences 251.

21. Radcliff-Brown A.R. Structure and function in primitive society /A.R.Radcliff–Brown. London : Cohen and West, 1952.

22. Ritual [Electronic resource]. Mode of access: http://www.britanica.com/Bcheced/t-pic/504688/ritual.

**/References/**

1. Astafieva O. Informatsionno–kommunikatyvnaia dominant sovremennoi kul`tury / O. Astafieva // Edinstvo i mnogoobraziie v religii i kul`ture : Filosofskiie i psykholoczeskiie korni global`nyh protivoreczii. — Vyp. 22. — [Gl. red. L. Moreva]. — Sankt–Peterburg : Izd–vo «EIDOS», 2006. — S. 164–176.

2. Afanasieva O. Poniattia ritual v sotsiokomunikatyvnomu vymiri / O. Afanasieva. — Rezhym dostupu : http://papers.univ.kiev.ua/1/inozemna_filologija/articles/afanasyeva-o-the-notion-of-ritual-in-social-and-communicative-terms_24730.pdf.

3. Baiburin A. Ritual v traditsijnnoi kul`ture : strukturno–semanticzeskii analiz vostocznoslavians`kih obriadov / A. Baiburin. — Spb. : Nauka, 1993. — 240 s.

4. Batsevycz F. S. Osnovy komunikatyvnoi lingvistyky / F. S. Batsevycz. — K. : Vydavnyczyi tsentr «Akademiia», 2004. — 344 s.

5. Gennep A. van. Obriady perehoda : Systematiczeskoie izuczeniie obriadov /A. van Gennep; per. s fr. In–t etnologii i antropologii im. N. N. Mykluho–Maklaia RAN. — M. : Vostocznaia literatura, 1999. — 198 s.

6. Gordin L. E. Spilkuvannia iak sens ekzistentsii liudyny / L. E. Gordin, E. A. Mel`nyk [Elektronnii resurs]. — Rezhym dostupu : http://www.khai.-edu/csp/nauchportal/Arhiv/GCH/2014/GCH414/pdf/6.pdf.

7. Diurkgaim E. Pervisni formy religijnogo zhyttia. Totemna systema v Avstralii / Emil` Diurkgaim. — К. : Iunivers, 2002. — 423 s.

8. Emelianov V. V. Ritual v drevnei Messopotamii / Vladimir Vladimirovicz Emelianov. — Spb. : Azbuka–klassika; Peterbyrgskoie Vostokovedenie, 2003. — 320 s.

9. Izvekova M. G. Pragmalingvisticzeskie kharakteristiky ritual`nogo diskursa : dis. ... kand. filol. nauk : 10.02.19 / Izvekova Marina Gennadievna. — Volgograd, 2006. — 204 s.

10. Kalynovs`ka O. V. Verbal`nyi ritual v ukrains`komu politycznomu dyskursi 70–h rokiv XX stolittia / O. V. Kalynovs`ka [Elektronnii resurs]. —Rezhym dostupu : http://www.nbuv.gov.ua/old_jrn/soc_gum/naukma/Fil/2004_34/03_kalynovska_ov.pdf.

11. Kolomiets` O. G. Filosofs`ka paradygma uperedzhennia agresyvnosti v suczasnomu suspil`stvi. Dysertatsiia na zdobuttia naukovogo stupenia doktora filosofs`kuh nauk / O. G. Kolomiets`. — К., 2015. — 396 s.

12. Lisina E. A. Fenomen rituala v zhyzni obszczestva (sotsial`no–filosofskii analiz) : avtoref. dis. ... kand. filos. nauk : 09.00.11 / E. A. Lisina. — Orenburg, 2008. — 22 s.

13. Licz E. Kul`tura i kommunikatsiia : logika vzaimosviazi symvoliv. К ispol`zovaniiu strukturnogo analiza v sotsial`noi antropologii / Edmund Licz. — M. : Izd. firma «Vostocznaia lit–ra» RAN, 2001. — 144 s.

14. Mel`nyk E. A. Ritual iak zasib stvorennia stereotypiv kul`turnykh form spilkuvannia ta povedinky / E. A. Mel`nyk [Elektronnii resurs]. —Rezhym dostupu : http://www.khai.edu/csp/nauchportal/Arhiv/GCH/2013/GCH113/pdf/08.pdf.

15. Saringulian K. S. Kul`tura i reguliatsia deiatel`nosti / K. S. Saringulian. — M. : Izd–vo AM ArmSSR,1986. — 158 s.

16. Tolstaia S. M. Verbal`nyie ritualy v slavians`koi narodnoi kul`ture / S. M. Tolstaia // Logiczeskii analiz iazyka : Iazyk reczevyh dejstvii. — M. : [b. i.], 1994. — S. 172–177.

17. Toporov V. N. Mif. Ritual. Symvol. Obraz / V. N. Toporov. — M. : Progress, Kul`tura, 1995. — 621 s.

18. Khoruzhenko K. M. Kul`turologiia. Entsyklopediczeskii slovar` / K. M. Khoruzhenko. — Rostov n/D. : Feniks, 1997. — 640 s.

19. Khrenov N. A. Ritual v kontekste perehodnykh epokh / N. A. Khrenov // Mir psykhologii. — 2003. — № 1. — S. 26–55.

20. Huxley J. ***Philosophical Transactions*** of the ***Royal Society*** of ***London /*** J. Huxley. — ***Series B*** : Biological Sciences 251 : P. 249–272.

21. Radcliff–Brown A. R. Structure and function in primitive society / A. R. Radcliff–Brown. — London : Cohen and West, 1952.

22. Ritual [Electronic resource]. — Mode of access : http://www.britannica.com/EBchecked/topic/504688/ritual.

**Олександра КАЧМАР**

## РИТУАЛ КАК СРЕДСТВО УПРАВЛЕНИЯ АГРЕССИЕЙ

### Резюме

В статье анализируется место ритуала в коммуникативной культуре. Проанализированы дефиниции ритуала, основные проблемы его трактовки. Рассмотрены подходы к отождествлению и различению понятий обряда и ритуала различных исследователей. Особое внимание уделено значению ритуала как элемента коммуникативной культуры в контексте управления агрессивным поведением на различных уровнях индивидуального и общественного бытия.

**Ключевые слова:** коммуникативная культура, ритуал, агрессия, управление агрессией.

**Oleksandra KAÇMAR**

## MƏRASİM TƏCAVÜZLƏRİN İDARƏETMƏ VASİTƏSİ KİMİ

### Xülasə

Məqalədə mərasimin kommunikativ mədəniyyətdə tutduğu yerinə baxılır. Bununla bağlı mərasimin müəyyənləşdirilməsi, onun təsnifatının əsas problemləri təhlil edilib. Müxtəlif tədqiqatçılar tərəfindən mərasim anlayışının eyniləşdirmə və fərqləndirilməsinə dair yanaşmalar nəzərdən keçirilib. Eyni zamanda fərdi və ictimai varlığın müxtəlif səviyyələrində, təcavüzkar davranışın idarəetmə kontekstində mərasimin kommunikativ mədəniyyətinin elementi kimi oynadığı rolun əhəmiyyətinə diqqət yetirilmişdir.

**Açar sözlər:** kommunikativ mədəniyyət, mərasim, təcavüz, idarəetmə təcavüzü.

**УДК 316.4**

**Николай ТУЛЕНКОВ**
профессор кафедры отраслевой социологии Киевского
национального университета имени Тараса Шевченко,
доктор социологических наук

**Сергей ЯРЕМЧУК**
докторант кафедры отраслевой социологии Киевского
национального университета имени Тараса Шевченко,
кандидат исторических наук, доцент

*«Ваши убеждения становятся вашими мыслями,*
*ваши мысли становятся вашими словами,*
*ваши слова становятся вашими действиями,*
*ваши действия становятся вашими привычками,*
*ваши привычки становятся вашими ценностями,*
*ваши ценности становятся вашей судьбой»*
*(Махатма Ганди)*

## СОЦИАЛЬНЫЕ ПРАКТИКИ В ФОКУСЕ СОЦИОЛОГИЧЕСКОЙ АНАЛИТИКИ*

Прежде всего следует отметить, что известный английский философ Д.Юм одним из первых акцентировал внимание на том, что привычка (habit) или обычай (custom) могут с успехом заменять любые перворoдные принципы (first principles) для обоснования человеческого мышления и человеческих поступков (5, с.13). Он также считал, что в повседневной жизни именно так и происходит, поскольку привычка или обыкновение думать и действовать определенным образом служат достаточным обоснованием всех последующих человеческих действий. Мышление или действие «по привычке» – это не только первое, но и наиболее консервативное понимание социальной практики – дает возможность человеку совершать определенные действия, не прибегая к их философским, логическим, моральным или другим обоснованиям.

Современный интерес к социальным практикам как наиболее важному общественному феномену вызван главным образом особым вниманием теоретической социологии к стремительному развитию и выделению социологии повседневности не только в самостоятельную отрасль социологического знания, но и в ведущее направление исследования современного общества. В этом контексте российский социолог В.Волков отмечает, что, с одной стороны, социальные практики все чаще фигурируют в качестве основной категории в антропологии, философии, истории, социологии, политической теории, теории языка и литературной теории – и в этом смысле формируется некая общая для социальных наук научная парадигма, а с другой стороны, для каждого предмета характерно свое, отличное от других, включение этого понятия в исследовательскую традицию, то есть свой способ концептуализации» (6, с.12).

*Məqalə fəlsəfə ü. f.d. Mətləb Mahmudov tərəfindən çapa məsləhət görülüb.

В социологической теории, по мнению В.Волкова, термин «практика» на начальном этапе символизировал поиски компромисса между объективизмом системно-структуралистского подхода и субъективизмом феноменологии, сочетая различные попытки заменить представление о структурно-функциональной, культурной или экономической детерминации человеческой деятельности на более «гуманистическую» картину социальной реальности, подчеркивая при этом активную роль коллективной человеческой деятельности в воспроизводстве и изменении социальной системы. Овладеть социальной практикой, подчеркивает ученый, значит овладеть смыслом, не задумываясь о том, что на самом деле реализуется в последовательности социальных действий (5, с.9).

Как показывает анализ, социологическое изучение проблемы социальных практик начинается в середине 70-х годов XX века после выхода в свет двух известных работ: книги французского социолога П.Бурдье «Очерк теории практики» и исследования американского социолога К.Гирца «Интерпретация культур». В этих работах категория социальных практик актуализирована в качестве важного инструмента социологического теоретизирования, что послужило толчком для дальнейшего использования данной категории в рамках социологии.

При этом важно подчеркнуть, что особая роль в концептуализации социальных практик принадлежит прежде всего методологии генетического структурализма П.Бурдье, теории структурации Э.Гидденса и этнометодологической концепции Г.Гарфинкеля. Наряду с этим, теоритические основы социальных практик нашли свое дальнейшее развитие и в работах известных западных социологов, например, П.Бергера, И.Гофмана, Н.Элиаса, М.Мосса, Т.Лукмана, Т.Парсонса, М.Фуко, Т.Шацки и А.Шюца. В отечественной социологии данная проблематика широко представлена в работах Н.Антоновой, В.Волкова, И.Глушко, Т.Заславской, Л.Ионина, Н.Козловой, В.Лукова, А.Хархордина, С.Шугальського и многих других.

Исследование социальных практик в контексте социологической аналитики предполагает прежде всего решение таких конкретных задач, как раскрытие сущностно-содержательных и структурно-функциональных аспектов социальных практик, выявление их концептуальных основ и процессуальных форм, а также механизмов формирования и развития социальных практик как институциональных форм современного общества.

Прежде всего необходимо отметить, что термин «социальная практика» определяется в «Социологическом энциклопедическом словаре», вышедшем под редакцией Г.Осипова в 1998 году в Москве в нескольких смысловых значениях: 1) как деятельность людей, которая направлена на преобразование общественных отношений, обеспечивающих создание необходимых условий для существования и развития общества; 2) как приемы и навыки какой-либо работы; 3) как применение и закрепление на деле знаний, полученных теоретическим путем; 4) как работа или занятие по специальности на основе опыта или умения.

Вместе с тем, в целях реализации исследовательских задач представляется весьма логичным и целесообразным рассмотреть в данной статье понятие социальных практик в контексте трех ключевых концепций: методологии генетического структурализма П.Бурдье, теории структурации Э.Гидденса и этнометодологии Г.Гарфинкеля, которые, как показывает проведенный анализ, положили начало социологическому изучению этого весьма важного для развития общества социального феномена.

Что касается концепции П.Бурдье, то в ней автор рассматривает социальные практики как способность социальных субъектов сверять свои поведенческие акты на

соответствие установившимся представлениям об окружающей действительности. Эти практики, с точки зрения ученого, определяют способ мыслей и поведения в соответствии с индикаторами доступного и недоступного, того, что «для нас» и «не для нас», тем самым заставляя социальных субъектов приспосабливаться к настоящему и будущему. Социальной практикой, с точки зрения П.Бурдье, можно считать как целенаправленные действия индивидов по превращению социального мира, так и ежедневные, привычные поступки, которые не требуют объяснения и зачастую кажутся внешнему наблюдателю лишенными смысла или нелогичными (3).

Исходя из этого, П. Бурдье вводит в свою концепцию весьма важную для понимания социальных практик категорию «габитус», которую он определяет как «систему устойчивых и переходных диспозиций, структурированных структур, которые склонны работать как структурирующие структуры, то есть как принципы, порождающие практики и представления людей» (4, с.102). Габитус, по замыслу автора концепции, является продуктом истории и в то же время основой индивидуального и группового практического действия, порождающего новую историю. Он представляет собой возникшую на основе прошлого опыта систему схем восприятия, осмысления и действия, которая обеспечивает преемственность социальной практики. «Габитус как искусство изобретения является тем, что позволяет производить бесконечно большое количество практик» (4, с.108). Понять, что такое габитус, считает П.Бурдье, «можно только при условии соотнесения социальных условий, в которых он формировался, с социальными условиями, в которых он был приведен в действие, то есть необходимо провести научную работу по установлению связи между двумя состояниями социального мира, реализуемые габитусом, который устанавливает эту связь с помощью практики и в практике» (4, с.109). Габитус – это и условие, и принцип реализации социальных практик, социологическое измерение которого невозможно, поскольку он проявляется исключительно через практики социальных агентов.

По мнению П.Бурдье, социальные практики имеют двойную структуру: с одной стороны, они детерминируются социальной средой, то есть существуют как объективные структуры, которые влияют на практику, а с другой, – они влияют на социальную среду, изменяя ее структуру, то есть социальные агенты влияют на социальную действительность через практики и таким образом трансформируют социальные структуры (1, с.93). Итак, П.Бурдье для анализа социальной реальности предлагает социально-праксиологический подход (сочетающий в себе структуралистский и конструктивистский подходы), который, с одной стороны, дистанцируется от обыденных представлений с целью построения объективных социальных структур (пространство позиций) и установления для распределения различных видов капитала. А с другой, – он вводит непосредственный опыт социальных агентов с целью выявления категории бессознательного восприятия и оценивания (диспозиции), которые «изнутри» структурируют поведение социального агента.

В теории структурации британского социолога Э.Гидденса, которая позволяет нетрадиционно интерпретировать взаимосвязь социальной структуры и социального действия, социальные практики возникают своеобразной основой, способной преодолеть разрыв между макро- и микроуровнями социальной реальности, то есть социальная реальность в контексте данной теории предстает в виде сплетения социальных практик или систем социальных действий. По мнению Э.Гидденса, социальные практики – это основа формирования и социального субъекта, и социального объекта (8, с.15-17). Все социальные практики, которые формируют социальные структуры, считает ученый, не могут происходить «где бы то ни было», они всегда упорядочены в пространстве и во

времени, они всегда привязаны к определенному контексту, социальному фону. При этом он особо подчеркивает, что социальная практика не создается социальными акторами, а лишь постоянно воспроизводится ими. Более того, Е.Гидденс утверждает, что, «согласно нашей теории, предметом социальных наук является не опыт индивидуального социального актора и не существование какой-либо социетальной тотальности, а именно социальные практики» (8, с.40).

Как видим, социальная повседневность переосмысливается Э.Гидденсом через общепринятые практики (или рутины), то есть через действия, которые осуществляются привычным образом в ходе повседневной деятельности (8, с.185). При этом «рутина обеспечивает целостность личности социального актора в процессе его (или ее) повседневной деятельности, а также является важной составляющей социальных структур (институтов) общества, причем лишь при условии своего непрерывного воспроизведения» (8, с.111). Отсюда вытекает и принцип дуальности структуры, согласно которому структура рассматривается одновременно как средство и как результат социальных практик, регулируемых ею. Таким образом, воспроизводимость и рутинизация социальных практик, по Гидденсу, свидетельствуют о стабильности не только социальных структур, но и самой социальной жизни в современном обществе.

Важно отметить, что основные формальные черты социальных практик в контексте этнометодологической концепции американского социолога Г.Гарфинкеля – это прежде всего «пояснительность социальных практик, их рефлексивный характер, когда действия, через которые индивиды создают ситуации организованной повседневной деятельности и управляют ими, идентичны процедурам, к которым индивиды прибегают для того, чтобы сделать эти ситуации объяснимыми, а смысл поведения при этом должен быть найден в самом поведении» (7, с.9). Социальные практики в рамках данной концепции понимаются: как фоновое знание; как конкретная деятельность, которая сочетает слова и действия, как искусство решения практических задач в ситуации неопределенности.

В этой связи Г.Гарфинкель считает, что социальные практики, во-первых, «состоят из бесконечного, непрерывного, контингентного обучения; во-вторых, они осуществляются с помощью рутинных действий и вызываются как события в тех же рутинных действиях, которые они описывают; в-третьих, они производятся индивидами в тех ситуациях, от знания которых и от навыков действий в которых (то есть от компетентности) индивиды признают, используют и воспринимают данность; в-четвертых, и то, что индивиды воспринимают свою компетентность как данность, само по себе обеспечивает участников практик знанием об отличительных и специфических характеристиках ситуации и, следовательно, обеспечивает их также ресурсами, проблемами, проектами и т.д.» (7, с.9).

Наряду с этим, американские социологи П.Бергер и Т.Лукман в работе «Социальное конструирование реальности» обосновывают положение о том, что любая человеческая деятельность подвергается габитуализации (то есть опривычиванию), которая предусматривает стабильную основу для воспроизведения человеческой деятельности с минимизацией усилий для ее институционализации (2, с.89-92). Понятие габитуализации, введенное данными исследователями, легло в основу многих институциональных исследований в социологии с целью выявления механизмов формирования реальных социальных практик. Более того, они определяют социальный институт как «взаимную типизацию принятых действий социальными акторами разного рода» (2, с.92). Опривычивание социальных действий при этом означает, что два индивида сконструировали общий фундамент, который служит целям стабилизации их

взаимоотношений, в результате чего их взаимодействие становится устойчивым и предсказуемым (2, с.56).

Этот факт не обошел своим вниманием и российско-американский социолог П.Сорокин, который подчеркивал, что «...люди постепенно приспосабливались друг к другу. Определенные взаимоотношения между ними все чаще и чаще повторялись. Повторяющиеся взаимоотношения становились привычными» (12, с.40-41). При этом психологический смысл «опривычивания» заключается в том, что оно вызывает набор действий и освобождает индивида от необходимости постоянного решения одинаковых вопросов, тем самым давая ему ощущение стабильности жизненного мира. Поэтому процессы габитуализации социальной деятельности предшествуют любой институциализации социальных практик. При этом «институциализация имеет место везде, где осуществляется взаимная типизация принятых действий социальными акторами разного рода» (2, с.89-90).

Социологический анализ теоретических подходов к изучению социальных практик позволяет констатировать, что на начальном уровне любое действие, которое осуществляется индивидом в обществе, приобретает значение социального. Далее социальное действие, которое часто повторяется, проходит стадию опривычивания и становится социальной практикой (общепринятые социальные действия и образцы социального поведения закрепляются в социальных практиках), которая на последней стадии выходит на более высокий, институциональный уровень и становится социальным институтом (2, с.78-81). Этот процесс основатель феноменологической социологии А. Шюц описывает так: «То, что сначала было только результатом повторяющихся действий социальной группы, следующим поколением воспринимается уже как данность, которая подлежит лишь повторению; эта данность столь же естественна для индивида в окружающем пространстве, как и физические объекты, присутствующие в нем» (15, с.156-157).

Необходимо при этом акцентировать внимание на показательном примере социальной практики, который приводят российские социологи В.Добреньков и А.Кравченко. Говоря о примере социальной практики, они указывают на очередь в магазине, когда за товаром выстраивается цепочка случайных покупателей, следующая определенным неформальным правилам социального поведения. Никакие министерства не устанавливали этих правил, однако люди добровольно им подчиняются. Поэтому такая очередь – это специфическая институциональная форма социального поведения или социальная практика (10, с.78). Но данная очередь – это только один из многочисленных примеров разнообразных социальных практик, которые встречаются в повседневной жизни каждого индивида.

Обобщая основные положения концепций изучения повседневных практических действий, можно определить понятие «*социальная практика*» как совокупность конкретных опривыченных (или рутинных) и повторяющихся действий индивидов (групп, сообществ, организаций) в реальном времени и пространстве, которая обеспечивает устойчивое функционирование социальных институтов (14, с.278). Следовательно, социальная практика – это вид практики, в процессе которой конкретный исторический социальный субъект использует различные социальные институты, организации и другие социальные структуры для воздействия на систему общественных отношений с целью изменения и развития общества и самого себя.

В связи с этим следует подчеркнуть, что социальные практики являются одновременно и формами функционирования и развития социальных институтов. По этому поводу известный российский социолог Т.Заславская отмечала, что «социальные

практики представляют собой конкретные формы функционирования общественных институтов, при этом общей формой реализации каждого института служит... совокупность соответствующих социальных практик. Институты, как любая сущность, глубже и устойчивее форм своей реализации, поэтому практики могут меняться, не затрагивая их сущности. И наоборот, преобразование институтов неизбежно сопровождается изменением социальных практик, причем последнее служит надежным критерием настоящих институциональных сдвигов» (11, с.7).

Что касается соотношения социальных практик и социальных институтов, то, по мнению российского социолога М.Шабановой, «социальные институты соотносятся с социальными практиками как содержание с формой или сущность с явлением. Институты как сущности глубже и устойчивее своих форм. Практики как формы более конкретны» (13, с.19). Вообще понятия институционализации и социального института, как считают многие исследователи, созвучны понятию социальных практик. Например, в работах известных социологов А.Миллера, Э.Гидденса и других порождение социальных институтов является результатом потребностей социальной практики. В этом контексте А.Миллер справедливо уточняет, что социальный институт – это совокупность организационных форм и функций, которые позволяют отдельным группам и обществу в целом реализовывать потребности и регулировать поведение людей, направленных на выполнение важных для общества функций, а именно осуществлять интеграцию стремлений, действий и отношений, то есть поддерживают сплоченность общества. Более определенно по этому поводу высказался и классик социологии Э.Дюркгейм, который считал социальными институтами «все постоянные, типичные отношения в обществе» (9, с.67). Вместе с тем анализ показывает, что социальные практики имеют и пространственно-временную локализацию. Категории пространства и времени «работают» на социальные практики как обладающие и физическим, и социальным смыслом. Имеется в виду следующее: во-первых, социальные практики как формы социальных институтов отличаются в разные исторические периоды, поскольку индивиды в течение своей жизни могут использовать как формальные, так и неформальные социальные практики в рамках одного и того же социального института; во-вторых, место проживания или размещения индивидов (например, климат, государственное устройство или др.) также существенно влияют на их социальные практики; в-третьих, социальные практики могут отличаться и в пространстве занимаемых индивидами социальных статусов и выполняемых ими социальных ролей; в-четвертых, субъектами социальных практик могут выступать не только отдельные индивиды, но и социальные институты, социальные организации и социальные группы.

Результаты социологического анализа феномена социальных практик дают основания для следующих *выводов:*

1. Понятие «социальные практики» в результате своего познавательного, обяснительного и эвристического потенциала заняло сегодня свое достойное место среди фундаментальных категорий не только социологии, но и практически всех социальных наук. Современные социологи используют понятие «социальные практики» в качестве инструмента, который позволяет раскрывать широкий спектр явлений и событий общественной жизни как разновидностей социальных практик. Социальные практики в равной степени применимы как для описания повседневного (локального) социального жизненного пространства, так и для рассмотрения глобальных (масштабных) социальных процессов и явлений в современном обществе.

2. Основные теоретические подходы социологического понимания социальных практик базируются как правило на синтезе детерминистских и конструктивистских научных парадигм и сфокусированы главным образом на выявлении внутренних социальных механизмов и ключевых тенденций современного общественного развития, то есть на том, как привычные социальные действия в повседневной жизни людей влияют на изменение форм и содержания социальных институтов и социальной структуры общества в целом.

3. Социальная реальность, как показывает анализ, это живое и постоянно изменяющееся переплетение разнообразных социальных практик, которые позволяют более предметно представлять социальную ткань общества в целом. Социологическое изучение поведения и деятельности людей в современном обществе в контексте социальных практик базируется в основном на взаимосвязи теоретических и эмпирических исследований опривыченных (рутинных) человеческих действий в рамках тех или иных социальных институтов и организаций, что говорит о познавательной эффективности дальнейшего развития такой социально-праксиологической парадигмы, которая позволяет выстраивать рациональные концептуальные модели современных социальных практик.

**Ключевые слова**: социальные практики, структура социальных практик, процесс институционализации социальных практик, социальные практики и социальные институты, механизмы функционирования и развития социальных практик.

## Список использованной литературы

1. Антонова Н.Л. Социальная практика: теоретико-методологические основания исследовательского анализа /Н.Л.Антонова //Известия Уральского государственного университета. Сер. 3.- Общественные науки. – 2009, № 4 (70).

2. Бергер П., Лукман Т. Социальное конструирование реальности: трактат по социологии знания /П.Бергер, Т.Лукман. М.: МЕДИУМ, 1995, 323 с.

3. Бурдье П. Начала. Choses dites: пер. с фр. /П.Бурдье. – М.: Socio-Logos, 1994.

4. Бурдье П. Практический смысл: пер. с фр. /П.Бурдье. СПб.: Алетейя, 2001.

5. Волков В. О концепции практик(и) в социальных науках /В.Волков //Социс. – 1997, № 6.

6. Волков В.В.Теория практик /В.Волков, О.Хархордин. СПб.: Изд-во Европ. ун-та в Санкт-Петербурге, 2008, 298 с.

7. Гарфинкель Г. Исследования по этнометодологии /Г.Гарфинкель. СПб.: Питер, 2007.

8. Гидденс Э. Устроение общества: очерк теории структурации /Э.Гидденс. М.: Академический проект, 2003.

9. Давыдов А.А. Системная социология А.А.Давыдов. – М.: Логос, 2006.

10. Добреньков В.И. Социология: в 3-х т.– Т.3: Социальные институты и процессы /В.И.Добреньков, А.И.Кравченко. М.: ИНФРА-М, 2001.

11. Заславская Т.И. О субъектно-деятельностном аспекте трансформационного процесса /Т.И.Заславская //Кто и куда стремится вести Россию? Акторы макро-, мезо- и микроуровней современного трансформационного процесса. М.: МВШСЭН, 2001.

12. Сорокин П.А. Общедоступный учебник по социологии /П.А.Сорокин. М.: Наука, 1994.

13. Шабанова М.А. О некоторых преимуществах интеграции экономического и социологического анализа институциональных изменений: институты, практики, роли /М.А.Шабанова //Экономическая социология: электрон. журн. 2006, т.7, № 4.
14. Шугальский С.С. Социальные практики: интерпретация понятия /С.С.Шугальский //Знание. Понимание. Умение. 2012. № 2.
15. Шюц А. Смысловая структура повседневного мира: очерки по феноменологической социологии /А.Шюц. М.: Институт Фонда «Общественное мнение», 2003.

**Nikolay TULENKOV, Sergey YAREMÇUK**

## SOSİOLOJİ TƏHLİL FOKUSUNDA SOSİAL TƏCRÜBƏLƏR

### Xülasə

Məqalədə sosioloji təhlil fokusunda müasir sosiologiyanın əsas anlayışı olan sosial təcrübənin mahiyyət-məzmunu və struktur-funksional aspektlərindən söhbət açılır. Bununla yanaşı, sosial təcrübələrin genezisi, konseptual əsasları və prosessual formalarının institusionallaşdırılması, həmçinin müasir cəmiyyətdə onların formalaşma mexanizmləri və inkişafı təhlil edilir.

**Açar sözlər:** sosial təcrübələr, sosial təcrübələrin strukturu, sosial təcrübələrin institusionalizasiyası prosesi, sosial təcrübələr və sosial institutlar, sosial təcrübələrin fəaliyyət mexanizmi və inkişafı.

**Nikolay TULENKOV, Sergey YAREMCHUK**

## SOCIAL PRACTICES IN FOCUS OF SOCIOLOGICAL ANALYTICS

### Summary

The article reveals essential, substantive, structural, and functional aspects of social practices as one of the key concepts of modern sociology in the context of social analysis. Furthermore, it substantively analyses the genesis, conceptual framework, procedural forms of institutionalization of social practices and mechanisms of their formation and development in modern society.

**Keywords**: social practices, structure of social practices, process of institutionalization of social practices, social institutions, mechanisms of functioning and development of social practices.

## SOSİOLOGİYA BÖLMƏSİ

UOT 316

**Səadət MƏMMƏDOVA**

*a.e.i.,sosiologiya ü.f.d.,*
*AMEA Elm Tarixi İnstitutu*

# SOSİAL DÖVLƏTİN FORMALAŞMASININ TARİXİ-NƏZƏRİ ƏSASLARİ*

Bəşəriyyətin müasir inkişafı sosial tərəqqinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi zərurətini yaradır. Hazırda dünyanı əhatə edən sosial, iqtisadi, mənəvi-mədəni böhran vəziyyətindən çıxış yollarının axtarışı ölkəmizdə və dünyada yeni ictimai-siyasi idarəetmə forması olan sosial dövlətin inkişafı xüsusiyyətlərinin müəyyənləşdirilməsi problemini aktuallaşdırır. Sosial dövlət inkişaf etmiş dövlətin müasir forması kimi vətəndaşların yüksək səviyyəli sosial müdafiəsinin təşkilinə yönəlir. Sosial dövlətdə hökumət fəal şəkildə sosial, iqtisadi və digər sahələrin idarə edilməsi prosesində iştirak edir, cəmiyyətdə sosial ədalətin bərqərar olmasına çalışır. Sosial dövlət sosial institutların qarşılıqlı münasibətlərinin tənzimlənməsinə, ümumi məqsədlər istiqamətində qarşılıqlı fəaliyyətin formalaşmasına çalışır. Hazırda ilkin inkişaf mərhələsində olan sosial dövlət quruluşunun tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Sosial dövlətin yaranması və inkişafı prosesi uzun və mürəkkəb tarixə malikdir. Türkiyəli tədqiqatçı Süleyman Özdemir sosial rifah dövlətinin formalaşması tarixinin aşağıdakı təsnifatını təqdim edir:

1. 1880-ci ildən əvvəlki dövr Sənaye çevrilişindən əvvələ aid bu dövrdə dövlətin hakim mövqeyini qəbul edən paternalist ideologiya hakim idi. Bu dövrdə problemlərin aradan qaldırılmasında ailələrin, könüllü quruluşların, xeyriyyəçi qurumların, bilavasitə cavabdeh iş təminatçılarının və dövlət gəlir transferlərinin fəaliyyəti daha çox nəzərə çarpır.
2. 1880-1945-ci illər – sənayeləşmə dövrü kimi qəbul edilir. Bu dövrdə işçilər sosial sığorta qurumlarının himayəsi altında idilər.
3. 1945-1975-ci illər Rifah dövlətinin qızıl dövrü, Rifah dövrüdür. Bu dönəmdə sosial sığortalara əlavə olaraq rifah dövlətinin funksiyalarının və qurumlarının genişləndiyi, gəlirin davamlılığını saxlamaq və yaşayış standartlarının yüksəldilməsinin məqsədə çevrilməsi nəzərə çarpır.
4. 1975-ci ildən sonrakı dövr Sosial rifah dövlətinin böhran dövrüdür. Bu dövrdə sosial rifah dövləti yeni mahiyyət kəsb etməyə başlayır [4, s.38-50].

S.V.Kalaşnikov XX əsrin 90-cı illərindən sonrakı dövrü sosial dövlətin yeni inkişaf mərhələsi kimi müəyyən edir və bu mərhələni *liberal sosial dövlətin* yaranması kimi şərh edir. Belə ki, məhz bu dövrdə liberal ideyalar genişlənməyə və dövlətin sosial rolu güclənməyə, cəmiyyət tərəfindən sosial siyasətin səmərəliliyinin artırılması tələbləri səsləndirilməyə, sosial dövlət haqqında yeni təsəvvürlər formalaşmağa başladı [12, s.67-68].

Qeyd edə bilərik ki, sosial dövlət – müasir sivilizasiyanın ayrılmaz hissəsidir, bir çox dünya dövlətləri onun yaradılması yaxud təkmilləşdirilməsi yolu ilə gedirlər [8].

Bir çox müəlliflər qeyd edirlər ki, təmiz formalı sosial dövlət yoxdur. Sosial dövlət klassik əsaslarda inkişaf edən, lakin daha çox sosial siyasətə diqqət ayıran hüquqi dövlətdir [17]. Hüquqi dövlətin mahiyyətini dərk etmək üçün ilk növbədə hüquqi və sosial dövlətin

* Məqalə fəlsəfə ü.f.d., professor Azər Mustafayev tərəfindən çapa məsləhət görülüb.

müqayisəli təhlili vacibdir. Hüquqi dövlətin yaranması bəşəriyyətin mühüm nailiyyətlərindən biridir və insanın vətəndaş və siyasi hüquqları haqqında qanunların inkişafı ilə bağlı olmuşdur. Bu gün hər bir hüquqi dövlət sosial və hər bir sosial dövlət hüquqi əsaslara malikdir. Birlikdə onlar sosial hüquqi dövlətdir. Onları yalnız mücərrəd formada ayırmaq olar. V.İ.Oseyçukun fikrincə, demokratik hüquqi sosial dövlət milli ərazi və siyasi hüquqi təşkilat kimi insanların əsas hüquq və azadlıqlarının reallaşdırılması üçün konstitusion, iqtisadi, sosial, mənəvi şərait yaradır [19, s.22].

*Müasir sosial hüquqi dövlət* – cəmiyyətə xidmət edən, sosial fərqləri minimuma endirməyə çalışan və bu əsasda da cəmiyyətdə sosial sabitliyə nail olan dövlətdir. Sosial hüquqi dövlət konstitusiya əsasında idarə olunur, burada ictimai həyata nəzarət edən inkişaf etmiş hüquq sistemi mövcuddur və əhalinin hüquqi sosial müdafiəsi təmin edilir [10].

Qeyd etmək olar ki, müasir dövlətlərin hər birinin konstitusiyasında sosial siyasətlə bağlı maddələr mövcuddur, lakin bu heç də həmin dövlətin sosial olması demək deyil, belə ki, həmin maddələrin hansı səviyyədə həyata keçirilməsi, insan hüquq və azadlıqlarının, layiqli həyat şəraitinin təmin edilməsi, dövlətin insan və onun rifahı naminə mövcud olması sosial dövlətin əsas ideyası və şərti kimi çıxış edir. Qeyd etmək olar ki, sosial dövlətlə bağlı fərqli yanaşmalardan istifadə edən müəlliflər bir məsələdə ümumi fikrə malikdirlər: sosial dövlət fərdin maraqlarına xidmət etməli, onu yüksək dəyərləndirməli onun rifahının təmin edilməsini ali məqsədə çevirməlidir [11, s.3-5]. Beləliklə, müasir cəmiyyət hüquqi vətəndaş cəmiyyəti kimi qəbul edilir. Müasir elmi ədəbiyyatda vətəndaş cəmiyyəti "bərabərhüquqlu, öz şəxsiyyətini azad ifadə edə bilən, əlavə qadağalardan və üzücü inzibati məhdudiyyətlərdən azad insanların cəmiyyəti kimi xarakterizə olunur" [20, s.230]. Hüquqi vətəndaş cəmiyyətinin əsas xüsusiyyəti onun hüquqa əsaslanmasıdır, burada əsas məqsəd vətəndaşların maraqlarının məqsədəuyğun şəkildə təmin edilməsi ilə bağlıdır. Uyğun olaraq, hüquqi vətəndaş cəmiyyəti elə münasibətlər sistemidir ki, burada bərabərhüquqlu fərdlər və onların yaratdıqları birliklər hüquqi əsaslarda öz maraqlarını reallaşdırırlar. Hüquqi vətəndaş cəmiyyətində şəxsiyyətin həyatının bütün sahələrində və ilk növbədə iqtisadi sahədə onun azad iradəsi, fəaliyyəti və şəxsi maraqları reallaşır.

Hüquqi vətəndaş cəmiyyətinin formalaşması sosial hüquqi dövlətin yaradılmasının əsas şərtidir. Bu iki proses qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır. Məhz sosial hüquqi dövlətin formalaşdırılması hüquqi vətəndaş cəmiyyətinin əsası kimi çıxış edir [9, s.386-390]. Bu baxımdan hüquqi vətəndaş cəmiyyətini sosial hüquqi dövlətin alternativi kimi qəbul etmək olar. Digər tərəfdən sosial hüquqi dövlət və hüquqi vətəndaş cəmiyyəti müxtəlif aspektlərdə təhlil edilə bilər, lakin onların qarşılıqlı münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Mahiyyətinə görə sosial hüquqi dövlət – hüquqi və siyasi institutların konstitusion sistemidir, real olaraq xalqların suveren hüquqlarını və insanın beynəlxalq səviyyədə qəbul edilən hüquqlarını, şəxsiyyətin və cəmiyyətin maraqlarını hüquqi əsaslarda təmin edir. Nəzərə almaq lazımdır ki, hüquq ümumi sosial tənzimləyici kimi şəxsiyyətin və cəmiyyətin maraqlarının ahəngdar uyğunluğuna yönəlir [9, s.386-390].

Sosial hüquqi dövlətin yaranmasının əsas səbəblərindən biri də hüquqi dövlətin insanların hüquq və azadlıqlarını müdafiə etmək iqtidarında olmamasıdır. Bu yalnız böyük əksəriyyət təşkil edən işçi sinfin hüquqları ilə deyil, həm də mülkiyyətçi sinfin hüquqlarının müdafiə edilməməsi ilə bağlıdır [5,s.57-59]. Onu da nəzərə almaq lazımdır ki, sosial hüquqi dövlətin əsas vəzifələri və məqsədi real vətəndaş cəmiyyətinin sosial, iqtisadi və siyasi əsasları olan orta sinfin yaradılmasıdır [9, s.386-390].

XXI əsrin əvvəllərində "sosial hüquqi dövlət" anlayışı ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz əksini tapmasa da, həm Qərbdə, həm də Şərqi Avropa ölkələrində, MDB və Rusiyada sosial hüquqi dövlət mövcuddur.

Sosial hüquqi dövlətin meydana çıxması səbəbləri aşağıdakılarla bağlıdır:

1.XX əsrin əvvəllərində Qərbin siyasi-hüquqi həyatında baş verən böhran.

2.XX əsrin əvvəllərində beynəlxalq hüquq və münasibətlərdə baş verən böhran, iki dünya müharibəsinin qarşısının alınmaması.

3. XX əsrin əvvəllərində bütün dünyanı əhatə edən böhran və depressiya.

4. Azad bazar iqtisadiyyatının və azad rəqabətin formalaşması nəticəsində sosial bərabərsizliyin genişlənməsi və iki düşmən sinfin yaranması.

5.Milli azadlıq hərəkatları və xalq üsyanlarının genişlənməsi və müstəmləkələrin dağılması.

6.Avropada və Asiyada milli demokratik və sosialist inqilabları nəticəsində dünya sosialist sisteminin yaranması [5, s.57-59].

S.S.Alekseyev hüquqi və sosial dövlətin qarşılıqlı münasibətlərində münaqişəli vəziyyətin olduğunu göstərir. Belə ki, sosial dövlət ideyası azad rəqabətə əsaslanan bazar iqtisadiyyatı tələblərinə, demokratik dövlətçilik və hüquqi dövlətin qanunun aliliyi prinsipi isə demokratik cəmiyyətdə insan hüquqları ideyasına ziddir.

Sosial hüquqi dövlətdə hüquqi və sosial əsaslar ziddiyyət təşkil edir, daha dəqiq desək, dialektik ziddiyyətə malikdir, ilk növbədə ona görə ki, bu əsaslar sadə məkan ardıcıllığına deyil, dinamik münasibətlərə malikdir. Belə bir münasibət bu vahidə daxil olan tərəflərin qarşılıqlı fəaliyyətini nəzərdə tutur və özünü ehtiyatların, informasiyanın və digər mənbələrin mübadiləsi ilə ifadə edir, belə ki, onlar sosial hüquqi dövlətdə olduğu kimi vəhdət təşkil edirlər.

Bu qarşılıqlı təsirin xarakteri hüquqi və sosial tərəflərə xas xüsusiyyətlər əsasında müəyyənləşir, bu onu göstərir ki, onlar bir tərəfdən bir-biri ilə bağlıdır, digər tərəfdən isə bir-birini inkar edir.

Qeyd edilənlər hüquqi dövlətin sosial hüquqi dövlət kimi formalaşmasına təsir edərək həm beynəlxalq münasibətlərin hüquqi əsaslarında, həm də hər bir dövlətin sosial siyasi idarəçiliyində müəyyən dəyişikliklərə gətirmişdir [5,s.57-59].

Bugünkü Qərb cəmiyyəti və onun sosial hüquqi dövləti kapitalizm cəmiyyəti deyil, burada sosializm meyilləri də mövcuddur.

Bununla yanaşı sosial-hüquqi dövlətdə qarşılıqlı təsir, qarşılıqlı keçid, qarşılıqlı çevrilmə kimi hüquqi və sosial amillər arasında ziddiyyətlər yaranır. Bu göstərir ki, mövcud ziddiyyətlər sosial dövlətin inkişaf mənbələri, onun özünühərəkət və yeni siyasi-hüquqi vəziyyət və formalara transformasiyası səbəbləri kimi çıxış edir. Hüquqi və sosial əsasların, yəni kapitalist və sosialist elementlərin daimi qarşılıqlı nüfuz etməsi və qarşılıqlı itələməsinə baxmayaraq, sosial hüquqi dövlət hüquqi (liberal) və sosial (kollektiv) istiqamətləri öz hüquqi və iqtisadi siyasəti ilə tənzimləyir. Qərb elmi ədəbiyyatında bu dövlət və cəmiyyət informasiya əsaslı postkapitalist (R.Darendorf və P.Draker), post-istehlak (D.Risman), post-bazar (C.Rifkin), post-burjua (C.Lihtaym), qlobal, postindustrial (D.Bell), postindustrial kapitalizm (R. Heylbroner), post-maddi, şəbəkə, post-müasir, postkapitalizmdən sonrakı (after-postkapitalist), “qlobal”, “informasion”, “şəbəkə” və digər anlayışlarla ifadə edilir və uyğun konsepsiyalar irəli sürülür [5,s.57-59].

Sosial dövlətin formalaşması industrial və post-industrial cəmiyyətlərdə mövcud olan ictimai münasibətlərdə dövlətin sosial rolunun genişlənməsi ilə bağlıdır. Xüsusilə də İkinci Dünya müharibəsindən sonra siyasi institut kimi dövlətin rolunun genişlənməsi, iqtisadi məkanın miqyasının dəyişməsi, inteqrativ, funksional təsnif olunmuş və rasional fəaliyyət göstərən sistemə çevrilməsi nəticəsində vətəndaşlar arasında əmlak bərabərsizliyi genişləndi, əhalinin sosial mövqeyi zəifləməyə, maddi vəziyyəti ağırlaşmağa başladı. Hüquqi dövlətin məhdudluğu yeni tipli sənaye ölkələrinin yaranmasına və inkişafına səbəb oldu. Belə bir

şəraitdə sosial dövlət haqqında təsəvvürlər dəyişməyə, XX əsrin 70 – 80-ci illərində sosial dövlətin yeni konseptual əsasları formalaşmağa başladı [22, s.387-393].

Hazırda sosial yaxud sosial hüquqi dövlət üç səviyyədə mövcuddur:

- elmi yəni ideya və konsepsiyalar səviyyəsində;
- normativ səviyyədə, yəni bir sıra ölkələrin əsas qanunlarında və konstitusiyalarında;
-empirik səviyyədə, yəni bir sıra sosial problemlərin həll edilməsilə bağlı dövlət institutlarının və sosial qrupların real fəaliyyətində [15].

Sosial dövlət haqqında ideyalar Antik mütəfəkkirlərin bütün vətəndaşların ümumi rifahının təmin edilməsinə yönəlmiş ideal dövlət quruluşu haqqında fikirlərinə söykənir. Ümumilikdə sosial dövlət ideyasının altı inkişaf mərhələsi fərqləndirilir:

I mərhələ - XIX əsrin 70-ci illəri – XX əsrin 30-cu illərində sosialist dövləti ideyası.

II mərhələ - XX əsrin 30 – 40-cı illərində hüquqi sosial dövlət ideyası.

III mərhələ - XX əsrin 40 – 60-cı illərində sosial xidmətlər dövləti ideyası.

IV mərhələ - XX əsrin 50 – 80-ci illərində ümumi rifah dövləti ideyası.

V mərhələ - XX əsrin 80 – 90-cı illərində ümumi rifah dövlətinin böhranı ideyası.

VI mərhələ - XX əsrin 90-cı illərindən hazırkı dövrə qədər liberal sosial dövlət ideyası [13].

Ümumilikdə sosial dövlət yaxud rifah dövləti ilə bağlı tədqiqatlarda – "sosial dövlət" anlayışının mahiyyəti və bu anlayışın ayrı-ayrı istiqamətlərinin deformasiyası, həmçinin ayrı-arı mədəni tarixi şəraitlərdə inkişaf dinamikası nəzərdən keçirilir. Onu da qeyd emək lazımdır ki, artıq yüz ildən çox bir müddətdə formalaşan sosial dövlətin müəyyən edilməsi ilə bağlı ümumi qəbul edilmiş konkret anlayış yoxdur [1, s.152].

A.F.Xramtsov sosial dövləti "mühafizəkar, kompromisə gəlmiş mühafizəkar, sosialist və liberal siyasi qüvvələrin tarixi qarşıdurmasının nəticəsi kimi" izah edir [21, s.419]. Görkəmli rus alimi E.N.Naumovanın fikrincə, ümumi mənada sosial dövlət idarəçiliklə bağlı ümumi işləri nizamlayan ictimai institut kimi çıxış edir, dar mənada sosial dövlət şəxsiyyətin müəyyən tələbatlarının təmin edilməsi, onun statusu ilə bağlı formalaşan münasibətləri, digər insanlarla qarşılıqlı münasibətlərini nəzərdə tutur [18, s.49]. L.N.Koçetkovaya görə sosial dövlətin əsas məqsədi şəxsiyyətin şəxsi və ümumi müstəqilliyini təmin etməklə sinfi ziddiyyətlərin yumşaldılmasına, bazar iqtisadiyyatının sabitləşdirilməsinə yönəlir. Sosial dövlət hər bir vətəndaşın maddi həyat fəaliyyəti standartları ilə təmin edilməsinə zəmanət verməlidir [19, s.230].

S.V.Kalaşnikov qeyd edir ki, "sosializmə xas prinsip və məqsədlərin sosial dövlətin atributları ilə üst-üstə düşməsi sosial dövlətin və sosializm ideologiyasının sıx bağlı olduğunu göstərir. Öz mahiyyətinə görə sosial dövlət sosialist ideyaların reallaşdırılması kimi çıxış edir" [14, s.65].

H.Braun və M.Niehaus sosial dövlətin əsas əlamətlərini aşağıdakı kimi təsnif edirlər:

1.Sosial rifah dövləti ideyası yalnız sosial təminatın təyin edilməsi ilə bağlı deyil, həm də bunu daha yaxşı səviyyədə və xüsusilə də hər bir vətəndaşa sosial təminat imkanlarının təqdim edilməsi ilə bağlıdır.

2.Mərkəzləşmiş şəkildə tənzimlənən və yüksək təşkil edilmiş qayğıya söykənən mövcudluq sosial ədalətə uyğun olaraq dəyişmiş iqtisadi liberalizm təsərrüfat sisteminin və müasir demokratiyanın ilkin ictimai reallığı kimi bütün həyat şəraitlərində bütün vətəndaşlara qayğı və xidmət göstərilməsi ilə baglıdır. [1, s.152].

E.A.Lukaşovaya görə sosial dövlət bilavasitə beynəlxalq hüquqi sənədlərdə öz əksini tapan qanunlarla bağlıdır və bu qanunlar ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz təsdiqini tapır [19, s.230].

V.Q.Belov əmindir ki, "özünü sosial elan etmiş dövlət yüksək yaşayış minimumu,

sosial bərabərlik, güvənli sosial təminat və sosial müdafiə, daim yüksələn rifaha təminat verməlidir, yəni öz həcminə və mahiyyətinə görə irimiqyaslı sosial məqsədləri həyata keçirməlidir. Sosial dövlət vətəndaşların mənəvi, mədəni inkişafına yönəlməlidir. O, xeyirxahlıq, inam, humanizm, vətənpərvərlik və mərhəmət ideallarına bağlı olan şəxsiyyətin formalaşmasına çalışmalıdır. Sosial dövlət azadlıq və hakimiyyətin şəxsiyyətin rifahı və cəmiyyətin inkişafı məqsədilə birləşməsinə, əmək məhsullarının bölgüsündə sosial ədalət və həmrəyliyin təmin edilməsinə yönəlməlidir. Bu zaman sosial ədalət və sosial həmrəylik dedikdə nəsillərin və təbəqələrin həmrəy məsuliyyəti – varlıların kasıbların əvəzində, sağlamların xəstələrə ödəniş etməsi; qadın və kişilərin bərabər hüquqlarının və imkanlarının (gender bərabərliyi) təmin edilməsi nəzərdə tutulur. *Sosial dövlətin əsas məqsədi* – cəmiyyət üzvlərinin daim artan maddi və mənəvi tələbatlarının maksimum təmin edilməsi, ardıcıl olaraq əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial qeyri-bərabərliyin aşağı salınması, əsas sosial nemətlərin və ilk növbədə keyfiyyətli təhsil, tibbi və sosial xidmətlərin hamı tərəfindən əldə edilməsi imkanlarının təmin edilməsidir” [5,s.57-59].

S.V.Kalaşnikova görə sosial dövlətin əsas əlamətlərindən biri bütün insanların şəxsiyyət kimi bərabərliyi, “dövlət – cəmiyyət” əvəzinə “şəxsiyyət – dövlət” dixotomiyasının hakimliyi ilə bağlıdır, dövlətin əsas məqsədi isə iqtisadi və sosial tərəqqidir [12, s. 43-49].

O.E.Bessonovaya görə sosial dövlət dedikdə, demokratik əsaslarda qurulan ictimai sistem nəzərdə tutulur, bu zaman iqtisadi səmərəlilik sosial ədalət prinsipi ilə tarazlıqda olur, effektiv institusional matrisa belə bir harmoniyanın əsası kimi çıxış edir və ölkənin insan potensialının tam istifadə edilməsinə və genişləndirilməsinə imkan yaradır [6, s.249-253].

Haydar Baş əmindir ki, sosial dövlət o zaman uğurlu ola bilər ki, o həm də milli dövlət olsun. Burada müəllif “milli dövlət” deyərkən “təməlini millətlərin tarixindəki dəyərlərdən alan, başqa ölkələri təqlid etməkdən uzaq olan və müasir mədəni səviyyəyə istiqamətlənərək bütün digər ölkələrlə rəqabət apara bilən, bütün dünyaya açıq olan, lakin heç bir qüvvəyə ehtiyac hiss etmədən inkişaf edə bilən, yüksəliş üçün yalnız öz mənbələrindən istifadə edən, Milli iqtisadi modelə malik olan, dövləti millətinə görə quran, vətəndaşlarına xidmət edərək sosial müdafiəni və sosial xidməti özünün əsas məqsədinə çevirən, vətəndaşlarının insan hüquqlarını və azadlıqlarını təmin edən, ədalət, bərabərlik və hüquqa söykənən bir dövlət” nəzərdə tutur. Əslində bu fikirlər sosial dövlətin inkişaf prinsiplərini əks etdirir. Müəllifə görə “sosial dövlət olmaq, dövlətin öz vətəndaşlarına ehtiram göstərməsi demək deyil, onun varlığının zərurəti və vəzifəsidir”. Heydər Baş qeyd edir ki, “milli dövlətin şərh etdiyi sosial dövlətin üç əsası vardır: sosial müdafiə, sosial xidmət və sosial dəstək” [3, s.13-136]. Bu fikirlərdən çıxış edərək deyə bilərik ki, özlərini sosial dövlət elan edən inkişaf etmiş ölkələrin idarəçiliyində, sosial siyasətində ümumi mahiyyət əhalinin rifah halının yüksəldilməsi ilə bağlı olsa da, onların fərqli tərəfləri məhz qeyd edilən “milli dövlət” ənənələrini nəzərə alan sosial tərəqqi ilə bağlıdır.

Hazırda sosial dövlət konsepsiyasının “inkişaf edən dövlət” konsepsiyası ilə əvəz edilməsi fikirləri də irəli sürülür [7, s.13]. Bu zaman insan kapitalının inkişafı əsas məqsəd kimi müəyyənləşdirilir. BMT-nin 2016-cı il İnsan inkişafı haqqındakı Məruzəsində qeyd edilir ki, bu konsepsiyanın əsasları “hər bir şəxsin inkişafına” yönəlmə kimi müəyyən edilir. Burada hər bir kəs üçün insan inkişafının əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1.Kollektiv imkanlar (bütünlükdə qrup üçün əlverişsiz şəraitlər kollektiv fəaliyyət, qrupların gücləndirilməsi əsasında daha yaxşı həll edilə bilər).

2.Dayanıqlı inkişaf (bu sosial ədalət məsələsidir, beynəlxalq ədaləti – nəsillərin bugünkü və gələcək azadlığını nəzərdə tutur).

3.Səs və muxtariyyət (həm ikisi də inkişafın sonu deməkdir, həm də onlar arxada qalanların gücləndirilməsi üçün əsasdır).

4.İnsan hüquqları (arxada qalanların gücləndirilməsi üçün vasitə axtarılması və hökumətlərin hesaba alınması üçün güclü alətdir).

5.İnsan təhlükəsizliyi (əlverişsiz şəraitdə və marginal olanların himayə edilməsinə yardım etmək) [2].

Beləliklə, sosial dövlətin nəzəri əsaslarının araşdırılmasına əsasən deyə bilərik ki:

I. Sosial dövlət ideyası XIX əsrdə formalaşsa da, XX əsrin birinci yarısında hüquqi əsaslarda təsdiqlənmiş, XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən reallaşmağa başlamışdır.

II. Müasir sosial dövlətlər əsasən əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı inkişaf prinsiplərini ehtiva edən sosial siyasət həyata keçirir. Bu sosial siyasət dövlət – cəmiyyət – vətəndaş münasibətlərində sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu əsasda əhalinin sosial müdafiəsini və sosial təminatını nəzərdə tutur.

III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına yönəlir və burada heç bir sosial qeyri-bərabərliyə - etnik, mədəni, dini, cinsi, siyasi və digər ayrıseçkiliyinə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni sahələrdə bərabər iştiraka cəlb edilirlər.

**Açar sözlər:** dövlət, hüquqi dövlət, sosial hüquqi dövlət, sosial dövlət, ümumi rifah dövləti

**İstifadə olunmuş ədəbiyyat**

1.Braun H., Niehaus M. Sozialstaat Bundesrepublik Deutchland auf dem Weg nach Europa. Frankfurt am Main; 1990. S 152.

2.Human development report 2016. Human development for everyone © copyright 2017 hudro by the United Nations Development Programme. 1 UN Plaza, New York, NY 10017, USA.

3.Prof.dr. Haydar Baş “Sosyal devlet Milli devlet”. Yayınevi: İctimai Yayıncılık Reklamcılık San.Tic.Ltd.Şti., İstanbul, 2007, 27.

4.Zafer Durdu. Modern devletin dönüşümünde bir ara dönem: sosyal refah devleti. Mugla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009 Sayı 22.

5.Белов В.Г. Социальное государство и гражданское общество. М., 2009.

6.Бессонова О.Э. Сущность социального государства в контексте общей теории институциональных трансформаций // Россия: путь к социальному государству : Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.). - М. : Научный эксперт, 2008.

7.Геец В. М. Какое будущее у социального государства?“Экономика Украины”. 2013, № 7 (612).

8.Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель. – Социально-гуманитарные знания. М., 2000, № 2.

9.Дробязко С.Г. Соотношение правового государства и правового гражданского общества / С.Г. Дробязко // Конституционно-правовые проблемы формирования социального правового государства : материалы Межд. науч.-практ. конф., 30–31 марта 2000 г. – Минск, 2000.

10.Европейская модель социальной экономики - econominfo.ru

11.Игольникова В.А. Социальное правовое государство. Сравнительный анализ подходов к содержанию этого понятия на Западе и России // Государственная власть и местное самоуправление. 2014. № 4.

12.Калашников С.В. Очерк теории социального государства. М., 2006.

13.Калашников С.В. Социальное государство: эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002.

14.Калашников С.В. Функциональная теория социального государства М., 2006.

15.Копташкин С.В. Социальное государство. Научные публикации КФ РГСУ © 2008. // http://kraspubl.ru/content/view/287/68/.

16.Кочеткова Л.Н. Философский дискурс о социальном государстве. М: ИНФРА-М, 2012.

17.Леонов И.В., Социальное государство как предмет теоретико-правового исследования : дисс. … канд юрид. наук. – М., 2006.

18.Наумова Е.Н. Социальное государство в России: проблемы теории и практики : дисс. канд. юрид. Наук. Владимир, 2006.

19.Осейчук В.И. Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : Автореф. … дисс. д-ра юрид. наук. – Тюмень, 2009.

20.Теория государства и права /Под ред. М.Н. Марченко. М., 1996.

21.Храмцов А.Ф.Социальное государство: Россия и европейский опыт. изд.22. ИСПРАН, 2005. Шамова Л.Г. Социальное государство. История. Современность. «Россия: путь к социальному государству». Материалы Всероссийской научной конференции 6 июня 2008 г .

**Саадет МАМЕДОВА**

## ИСТОРИКО-ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ ФОРМИРОВАНИЯ СОЦИАЛЬНОГО ГОСУДАРСТВА

### Резюме

В настоящее время государство как социальное явление приобретает новое значение. Если в начале XX века была актуальна проблема правового государства, то в конце века стали говорить о социальном государстве или о государстве всеобщего благоденствия. Как всякое социальное явление или социальный процесс современное государство соответственно местным условиям и национальным особенностям приобретает свойственные ей черты, и создаются региональные модели социального государства.

История развития социального государства связана с Западом, поэтому для изучения и интерпретации этого типа государства требуется анализ таких понятий, как «государство», «правовое государство», «социально-правовое государство», «социальное государство» и «государство всеобщего благоденствия».

В статье сделана попытка сравнительного анализа приведенных понятий и форм государства.

**Ключевые слова:** государство, правовое государство, социальное государство, государство благоденствия.

**Saadat MAMMADOVA**

## HISTORICAL AND THEORETICAL BASES OF THE FORMATION OF SOCIAL STATE

### Summary

At present the state as the social phenomenon gains a new value. If at the beginning of the XX century the problem of the constitutional state was actual, at the end of the century we speak about the welfare state. As any social phenomenon or social process the modern state according to local conditions and the national characteristics the acquires peculiar features and created regional models of the social state.

History of development of a social state is connected with the West, therefore studying and interpretation of it like the state requires the analysis of such concepts as, "state", "constitutional state", "social constitutional state", "the social state" and "the state of general prosperity".

In the article an attempt is made of the comparative analysis of the aforesaid concepts and state forms.

**Keywords:** state, law state, social law state, social state, welfare state

UOT 316

**Üzeyir ŞƏFİYEV**
*dosent, sosiologiya ü.f.d.,*
*BDU, kafedra müdiri*

# AZƏRBAYCANDA AİLƏ DAYANIQLIĞI: PROBLEMLƏR VƏ QLOBAL ÇAĞIRIŞLAR*

Cəmiyyətin sosial inkişaf dinamikası sosial və bioloji cinslərarası münasibətlərdə əsaslı dəyişiklikləri şərtləndirir. Bu isə öz növbəsində sivilizasiyanın ilk əlaməti kimi təcəlla edən monoqam ailənin struktur və məzmununda ciddi təbəddülatların determinantı kimi çıxış edir. Tarixə ekskurs etsək görərik ki, əvvəllər insanlararası qeyri-məhdud cinsi münasibətlər mövcud olmuş və bu münasibətlər atanın həqiqi şəkildə təyin edilməsi imkanını istisna etdiyi üçün mənşəyi yalnız ana xətti ilə müəyyən etməli olurdular. Bu vəziyyət ailədə qadının (ananın) hökmranlığını tam təmin edirdi.

Poliqamik ailə tipinin üstünlük təşkil etdiyi matriarxat cəmiyyət tədricən estafeti monoqam ailə tipini özündə ehtiva edən patriarxal cəmiyyətə ötürdü. F.Engelsin təbirincə desək, matriarxatın devrilməsi (analıq hüququnun fiaskosu) qadın cinsini dünyada tarixi əhəmiyyətə malik hüququndan məhrum etdi [5,s.182]. Monoqam ailə birmənalı olaraq kişi hakimiyyətinə əsaslanırdı. Daha dəqiq ifadə etsək, monoqamiya bir cinsin digər cins üzərində əsarətini ifadə edir. Birini digəri üçün mülkiyyət formasına çevirirdi. Ailədə ana hakimiyyətinin süqutu qadınların icmada və cəmiyyətdə hüquqlarını tam itirməsinə gətirib çıxardı. Bu proses o həddə qədər irəlilədi ki, hətta qadını iki inəyə dəyişmək mümkün idi və uzun müddət bu münasibət dəyişmədi. Hətta 585-ci ildə Makedoniya kilsəsi qadınların insan olmaması ilə bağlı məsələni ciddi müzakirə obyektinə çevirmişdi. Monoqamik ailələrdə kişi qadının həyat yoldaşı kimi çıxış etsə də, özünü onun sahibi kimi aparırdı. Nəsildən- nəslə keçən belə münasibətlər getdikcə adət halını alır, bir növ arxetipləşirdi. Bəşər tarixinin bir neçə mərhələsini əhatə edən kişi qadın münasibətlərinin, ailədə əsas struktur vahidlərinin bu münasibətləri fonunda cinsi şüur və stereotiplər formalaşmağa başladı. Əlbəttə, yaranmış reallıqda hansı cinsin özünü daha komfortlu hiss etməsi mübahisə obyekti ola bilməzdi. Ancaq tarixi proses yerində dayanmadığından ailənin struktur vahidlərinin rol dəyişiklikləri də qaçılmaz bir gerçəklikdir. İstər cahangirlik savaşları dönəmi, istər sənaye inqilabından yaxın dövrlərə qədər ailədə və cəmiyyətdə qadının rolu, funksiyaları, missiyası kişilərlə müqayisədə ən yaxşı halda kölgədə qalır, kadrarxası görüntülənir, qadın uşaq fabriki (İ. Kant) kimi, kişinin rahatlığının təminatçısı kimi qitmətləndirilirdi.

Sovetlər Birliyi dövründə də qadına "nəzakətlə" yanaşılır, o, zəif deyil, zərif məxluq kimi səciyyələnir, bir qədər önə çəkilir. Ancaq yaranmış yeni cəmiyyət də ailədə və cəmiyyətdə patriarxat əsasları sarsıda bilmədi, kişi - qadın nüfuzu sahəsində olan saldonu qadınların xeyrinə dəyişdirmək gücündə olmadı.

Qlobal miqyasda qadınların patriarxatdan xilas olması hərəkatı feminizm, sufrajizm dalğası gender islahatları şəklində təcəlla etməyə başladı. Onların istifadə etdiyi, üstünlük verdiyi əsas addımlar kimi kişi hakimiyyətindən qurtarmaq üçün qadın korporativ klinikalarının, klubların yaranması, qadının kişidən ayrı keçirdiyi vaxt yerlərinin olmasını tələb etməsini, qadınların qərarqəbuletməyə cəlb olunmasını qeyd etmək olar. Baş verən bu və ya buna bənzər proseslər ailənin məzmun və strukturuna da təsirsiz ötüşmür. Patriarxatın bərqərar olmasından bəri ailə mürəkkəb strukturlu təsisat kimi institutlaşmaqda idi. Daha sonralar, o cümlədən günümüzdə

* Məqalə fəlsəfə ü.f.d.,dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

ailənin geniş əhatə dairəsinə malik olan qohumluqdan "ailə izdivacı" adlı kiçik qrup şəklində məhdudlaşdırılması baş verməkdədir. Baba- nənə institutunun tədricən sıradan çıxması ailə dayanıqlığının taleyində də fəsadlarla müşayiət olunmaqdadır. Bu, ilk növbədə, ailədaxili bəzi dəyərlərin sıradan çıxmasında, sosiallaşma prosesində ailənin funksionallığının azalmasında, nikah və boşanma saldosunun ikincinin xeyirinə dəyişməsində daha çox ifadəsini tapmaqdadır.

Cəmiyyətin sosial simasının substantiv şəkildəyişməsi ilə ailə təsisatının mahiyyəti və strukturunda baş verən fərqliliklər arasında qarşılıqlı səbəb-nəticə əlaqələri mövcuddur. Cəmiyyətin əsas nüvəsi sayılan ailə sosiallaşma agenti kimi cəmiyyətə nə qədər təsir edirsə, cəmiyyətdə və qlobal müstəvidə mövcud proseslər də ailə fəlsəfəsinə müəyyənedici təsir göstərir. Ən ümumi əsaslara görə ailə dayanıqlığına təsir edən amillər kimi ailədə qadının iqtisadi asılılığının azalmasını və deməli, qadının məşğulluq probleminin aradan götürülməsi ilə cəmiyyətin fərdin davranışına nəzarətin zəifləməsinə gətirib çıxardıgını, geniş insan kütləsinin cəmləşdiyi meqapolislərin yaranmasını, matriarxata çağırış edən hərəkatların qadınların "maarifləndirilməsi" sahəsində apardıqları açıq və latent təbliğ, təşviq işlərini və s. qeyd etmək olar.

Nə qədər təəssüfdoğurucu fakt olsa da, belə bir fakt heç kimdə şübhə doğurmur ki, ailə dayanıqlığında qadının məşğulluğu ilə boşanmalar arasında sabit korrelyativ asılılıq mövcuddur. İstər mərkəzdə, istərsə də ucqarlarda qadınların işsizliyi və iqtisadi asılılığı ailədaxili subordinativ konstitusiyanın, ailədaxili nizam-intizamın, ailə dayanıqlığının xidmətdarı kimi çıxış edir. Hərçənd bu o nəticəyə gəlməyə əsas vermir ki, işləyən qadınların hamısı üçün ailə dayanıqlığı prioritet deyildir. Ailənin hər iki üzvünün işlədiyi, bir-birindən iqtisadi asılılığı olmayan, qarşılıqlı anlaşma şəraitində yaşayan kifayət qədər ailə nümunələri vardır.

Ailə dayanıqlığına təsir edən amillərdən biri də uşaq, övlad faktorudur. Məsələn, 2015-ci il statistikasına görə Azərbaycanda 12765 boşanma halı qeydə alınıb ki, bunun da 6950-si uşağı olmayan ailələrin payına düşür [1,s.332]. Sirr deyil ki, uşaq ailədaxili münasibətlərdə birləşdirici həlqədir və bir çox potensial və real boşanmaların qarşısını alır. Təəssüf doğuran hallardan biri budur ki, ailə həyatı obrazına, uşaqların anadan olmasına yönəldilən tələbat azalmaqdadır. Acınacaqlı haldır ki, bu gün istər Avropada, nə qədər təəccüblü olsa da postsovet məkanında, o cümlədən Azərbaycanda ənənəvi ailə obrazına alternativlər özünü göstərməkdədir. Bu gün ABŞ əhalisinin 4-5 %-i konsensual ittifaqda yaşayır. Bunun ən ağır nəticələri cəmiyyətdə ahıl yaşın tənhalığıdır ki, bu da özünü hələ 1989-cu il statistikasına əsasən ABŞ üçün 23 milyon təşkil etməkdə göstərirdi[4,s.110] .

Narahatlıq doğuran məqam nikahdan kənar uşaqların sayının artmasıdır. Belə ki, 2015-ci il statistikasına əsasən Azərbaycanda doğulan uşaqların 24038-i qeydəalınmamış nikahda olan qadınlar tərəfindən dünyaya gəlmişdir ki, bunun da 9411-i şəhər (o cümlədən 2974-ü Bakı), 14627-si isə kənd əhalisinin payına düşür[1.s.232].Həyəcan doğuran məqam odur ki, belə bir tendensiya pis örnəklər yaradır, nəsillərarası sosial varisliyin arzuolunmaz davamını şərtləndirir. Çox az hallarda natamam ailələrdən doğulan uşaqların ailə dayanıqlığı mümükün olur. Belə uşaqların gələcəkdə boşanma ehtimalı birgə yaşayan valideyn uşaqlarından 50% artıqdır. Çünki onlar üçün sələflərindən uğursuz nümunə var. Bu hadisələrin birbaşa və dolayı fəsadlarını yenə də cəmiyyət çəkməli olur. Natamamlıq kompleksi ilə "silahlanmış" belə insanların davranışları üçün müəyyən istisnalar çıxmaq şərtilə kin, qərəz, aqressivlik, qibtə və s.-dən doğan deviant və delikvent davranış fəaliyyəti spesifikdir.Təskinlik tapmağa imkan verməyən daha bir tendensiya isə odur ki, evliliyi həyat məqsədi saymayanların sayı və uzun müddət davam edən münasibəti ən azı evlilik qədər mənalı sayanların sayı durmadan artmaqdadır. Əgər nəzərə alsaq ki, nümunə götürülləsi mədəni-mənəvi coğrafiya Avropadır (burada həmin göstərici 74%-dir), onda problemin narahatlığı kimsədə şübhə doğurmaz.

Təəssüf doğurucudur ki, son illər Azərbaycanda da boşanmaların dinamikasında nəzərə çarpan artım qeydə alınıb. Belə ki, 2016-cı ilin ilk 3 ayı ərzində 2,8 min boşanma qeydə alınıb ki, bu da evlənənlərin 17,4%-ni təşkil edir. Bu bir sıra Avropa ölkələri ilə müqayisədə kiçik rəqəm olsa da, Azərbaycan kimi ənənəvi cəmiyyətlər üçün qeyri-xarakterikdir. Müqayisə üçün bir sıra ölkələrin statistik mənzərəsi ilə tanış olaq. Məsələn, ABŞ üçün boşanma nisbəti 53%-dir, Rusiyada 51%-dir, ateistlərin çoxluq təşkil etdiyi Belçikada 74%-dir, İsveçdə 47%-dir, Ukraynada 42%-dir, Macarstanda 67%-dir və s[4, s.112] .

Boşanma hallarının qoşa və analoji müqayisəli təhlili belə qənaətə gəlməyə əsas verir ki, onu doğuran səbəblər içərisində etnopsixoloji, dini və mədəni determinantlar az rol oynamır. Hərçənd çoxsaylı sosietal səbəblər içərisində iqtisadi, daha doğrusu məşğulluq amili, habelə insan hüququ və azadlıqlarının qadınlar tərəfindən dərk olunacaq patriarxat asılılıqdan xilasolma hərəkatının fəallaşması nəzərə çarpan saldoya malikdir.

Boşanmalarla mübarizədə işi çətinləşdirən amillərdən biri də problemlə bağlı ictimai qınağın zəifliyi, ailələrdə nənə-baba institutlarının kənarda qalmasıdır. Ailədaxili münaqişələr qaçılmazdır. Bəzən belə münaqişələr boşanmalar, kriminalla nəticələnir. Mürəkkəb ailələrdə nənə və babanın müdrik müdaxilələri belə münaqişələri tənzimləyir, cütlüklərə boşanma haqqında düşünməyə imkan vermirdi. Gənc cütlüklər üçün nənə-babanın timsalında dayanıqlı ailə nümunələri var idi. Ailələr nuklearlaşdıqca nəsillərarası bağ, varislik zəifləməyə başladı, gənc cütlüklərin ailələrin taleyilə bağlı qərar verməsində emosiyaların, çılğınlığın diqtəsilə sərbəstlik, məsuliyyətsizlik öz sözünü deməyə başladı. Halbuki nənə-baba institutu nəslin, şəcərənin varisliyini təmin etmək üçün bu məsuliyyəti həmişə öz üzərində görürdü. El qınağı deyilən bir damokl qılıncını başının üstündə hiss edir və ailə dayanıqlığını qorumaq üçün bütün mümkün həll variantlarını müdrikliklə həyata keçirirdi. Məhz bu səbəbə görə yenə də nisbətən müsəlman Şərq ölkələrində hazırkı dövrdə boşanma halları belə institutların tarixə çevrildiyi Avropa, Amerikadan xeyli aşağıdır. Baxmayaraq ki, artıq patriarxal ailələrin üstün olduğu ölkələrdə də oxşar proseslər start götürməkdədir. Belə ki, uzunömürlü ailələri ilə, ailə, nəsl, şəcərə bağlantılarına ultramühafizəkarlığı ilə seçilən Azərbaycanın nikah və boşanma statistikası ailə dayanıqlığı ilə bağlı həyəcan siqnalı çalmaqdadır. 2017-ci ilin 8 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 40256 nikah və 9787 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,2, boşanmaların sayı isə 1,5 olmuşdur[1,s.332].

Ailə dayanıqlığı ilə bağlı medianın üzərinə ictimai qınağı əks etdirmək baxımından böyük məsuliyyət düşür. Bir sıra hallarda efir məkanını ailə cütlüklərini bir-birinə qarşı qoyan, guya gender bərabərliyini təbliğ edən, əslində feminist hərəkat vasitəsilə matriarxata çağrış edən tokşoular, proqramlar zəbt etdiyinin şahidi oluruq. Yaxşı olardı ki, televiziyalar, saytlar, mətbuat uzunömürlü, örnək ailələrlə bağlı proqramlarla işləsin, natamam ailələrlə bağlı problemləri işıqlandırsın, nikahdan kənar və natamam ailələrdə doğulan uşaqlarla bağlı cəmiyyəti təhdid edən risklərdən bəhs etsin, müvafiq ekspertlərin tövsiyələri və sosial layihələri ilə preventiv tədbirləri özündə əks etdirən ciddi addımlar atsın.

Ailələrdə dayanıqlığa təsir edən amillərdən biri də son dövrlər "hesabla" qurulan ailələrin sayının artması, alfonsların uğursuz izdivaclarıdır. Günümüzdə Azərbaycan cəmiyyətinin populyar və ya orta statistik insanlarının nikahlarının müəyyən bir qismi də təmənnalı məram, karyera, zənginliyə sahib çıxmaq amalı ilə qurulduğundan ürəkaçmayan sonluqlarla yekunlaşır. Çünki belə ailələrdə ailənin nüvəsini təşkil edən səmimi münasibətlər, sevgi böhranı yaşandığından məqsəd boşa çıxdığı halda ailə dayanıqlığı xilas ola bilmir.

Bir sıra ölkələrdə boşanma mexanizmi son dərəcə sadələşdiyindən, iş məhkəmə müstəvisindən kənarda, ictimailəşdirilmədən "ağıllı telefonlar", internet vasitəsilə "özün boşan" adlı bir prosedurla gerçəkləşdiyindən boşanma statistikasında sıçrayışlar diqqəti cəlb edir (bax: Birləşmiş Krallıq Statistikası).

Ailələrdə, nikah idarələrində, məhkəmələrdə psixoloq və sosial işçi institutlarının təşkilinin sürətlənməsi də ailə böhranlarının tənzimlənməsində kifayət qədər ümidverici vasitələrdən biridir. Belə institutlar nəinki baş vermiş böhranın tənzimlənməsi və həlli istiqamətində, eləcə də problem baş vermədən öncə qabaqlayıcı tədbirlər görülməsi baxımından da mühüm məna kəsb edir. Unutmaq olmaz ki, sağlam insan və cəmiyyətin ilk və alternativsiz sosiallaşma agenti ailədir. Ailələr nə qədər mükəmməl olarsa, vətəndaş və cəmiyyət, dolayısı ilə dünya evi də sabit və sağlam olacaq.

**Açar sözlər**: ailə, sosiallaşma, boşanma, nikah, cəmiyyət.

**İstifadə olunmuş ədəbiyyat:**

1.Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı, 2017.
2.Rəcəbli H.Azərbaycan Respublikasının sosial müdafiə sistemi .Bakı,2012.
3.Mehbalıyev S.S., İskəndərov R.K. Məşğulluq.Bakı:"Çaşıoğlu", 2001.
4.Дементьева И.Ф Негативные факторы воспитания детей в неполных семьях\\Социс.2001,№11.
5. Маркс К., Энгельс Ф. Соч. 2-е изд. Т. 45.
6.Vahidov F, Ağayev T. Sosiologiya.Bakı,2011.

**Узеир ШАФИЕВ**

## О СОСТОЯНИИ АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬИ: ПРОБЛЕМЫ И ГЛОБАЛЬНЫЕ ВЫЗОВЫ

**Резюме**

В статье семья рассматривается как объект социальной работы и социологии, анализируется ее история, сущностьи, динамика как социального института. Кроме того, также описываются детерминанты изменений в сущности современной семьи и роль семьи как агента социализации. Далее автор приводит сведения о состояние и современной азербайджанской семьи, существующих проблемах и дает соответствующие рекомендации.

**Ключевые слова:**семья,социализация,развод,брак,общество.

**Uzeir SHAFİEV**

## ON STATE OF AZERBAIJAN FAMILY: PROBLEMS AND GLOBAL CHALLENGES

**Summary**

In article the family is considered as object of social work and sociology, the history, an essence, dynamics of family as social institute is analyzed. It also describes the determinants of changes in the nature of the modern family and the role of the family as an agent of socialization. The an thore examines a state of the modern Azerbaijani family, the existing problems and gives appropriate recommendations.

**Keywords:** famly,socialization,divorce, mariage,socety.

UOT 316

**Ülvi ƏLİYEV**
*doktorant, AƏƏSMN Əmək və Sosial Məsələlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzi*

# SOSİAL XİDMƏTLƏ BAĞLI XARİCİ ÖLKƏLƏRİN TƏCRÜBƏSİNİN TƏTBİQİ MƏSƏLƏLƏRİ*

«Sosial xidmət haqqında» 2011-ci il 30 dekabr tarixli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə respublikamızda sosial xidmət sisteminin formalaşmasında yeni mərhələ başlamışdır. Azərbaycan Respublikasında sosial xidmət sisteminin formalaşması üçün Qərbi Avropa ölkələrində əhaliyə sosial xidmət üzrə “konvergensiya” (latın dilində convergere - yaxınlaşmaq, uzlaşmaq deməkdir (7, s. 243)) nəzəriyyəsinin tətbiq olunması vacib rol oynaya bilər. Bu nəzəriyyə iki sosial sistemin: hər birinin müsbət əlamətlərini və xüsusiyyətlərini özündə birləşdirən hər hansı “qarışıq cəmiyyətdə” onların sistemli əlaqəsi ilə kapitalizmin və sosializmin yaxınlaşmasında ictimai inkişafın (XX əsrin 50-70-ci illəri) üstün tendensiyasını nəzərdə tutan sosioloq, politoloq və iqtisadçıların əsərlərində kifayət qədər geniş şəkildə öz əksini tapmışdır (12, s. 271-272).

Təəssüf ki, bu tendensiya keçmiş SSRİ-də “kənardan” təsir hesab edildiyinə görə rədd edilmiş və bu səbəbdən konvergensiya nəzəriyyəsinin “insan şəxsində kapitalizm” və “insan şəxsində sosializm” formasında konkretləşdirilməsi cəhdlərinin inkişafı mümkün olmamışdı. Hüquq elmlərinə gəldikdə isə, xarici ölkələrdən fərqli olaraq, Azərbaycanda konvergensiya nəzəriyyəsinin inkişafı üçün əlverişli mühit formalaşmamışdır.

Bununla yanaşı, bazar iqtisadiyyatına keçid şəraitində bu nəzəriyyə Azərbaycanda da aktuallıq kəsb edir.

Sosial təminat hüquq elminin inkişafı üçün konvergensiya nəzəriyyəsi ona görə əhəmiyyətlidir ki, o, hər şeyi yenidən başlamaq üzrə bütün cəhdləri rədd edərək qanunvericilik və hüquqtətbiqetmə üzrə artıq hazır olan müsbət təcrübənin istifadə edilməsini təklif edir. Hesab edirik ki, belə bir nəzəriyyənin sosial xidmətlə bağlı münasibətlərin tənzim edilməsində istifadə olunması daha düzgün olardı.

Qərb ölkələrinin iqtisadi inkişafını müşayiət edən sosial xidmət sisteminin genişlənməsi üç istiqamətdə həyata keçirilmişdir:

Birincisi, sosial xidmətin təqdim edilməsi risklərinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız müəyyən sosial risklərdən müdafiəni əhatə etsə də, sonralar öz tərkibinə onların geniş dairəsini daxil etməyə başlamışdır.

İkincisi, sosial müdafiə olunan şəxslərin tərkibinin genişlənməsi. Belə ki, sosial xidmət sistemi əvvəlcə yalnız muzdlu işçiləri əhatə edirdi və yalnız tədricən müdafiəyə ehtiyacı olan digər şəxslər qruplarını (məsələn, sənətkarları, işləməyənlərin müəyyən təbəqələrini, reabilitasiya mərhələsində olanları, sosial yardımdan istifadə edənləri) əhatə etməyə başlamışdır.

Üçüncüsü, təqdim edilən sosial xidmət növlərinin kəmiyyətinin çoxalması və səviyyəsinin yüksəlməsi. Belə ki, göstərilən xidmətlərin sayı əvvəllər məhdud olsa da, dövlətin iqtisadi potensialının artması ilə tədricən göstərilən xidmətlərin səviyyəsinin yüksəlməsi də mümkün olmuşdur.

---

* Məqalə hüquq ü.e.d., professor Mayis Əliyev tərəfindən çapa məsləhət görülüb.

Sosial xidmət sisteminin ayrı-ayrı sahələrinin konkret olaraq formalaşması ilə əlaqədar göstərmək olar ki, hər bir ölkənin bazar iqtisadiyyatı ilə uzlaşan alternativ imkanlar mövcuddur. Həmin imkanlar özündə əsas etibarilə sosial xidmətin təşkil edilməsi, sosial müdafiə olunmalı olan şəxslərin dairəsi, sosial xidmətlərin həcmi və forması, onun maliyyələşdirilməsi ilə bağlı aspektləri əhatə edir.

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə sosial təminat probleminin tədqiqatçıları göstərirlər ki, əksər ölkələrdə sosial xidmət sistemi üçün iki prinsip - dövlətin yalnız ictimai birliklərin müəyyən fəaliyyət göstərməsindən sonra sosial xidmət göstərilməsinə dəstək prinsipi, yəni bazar münasibətləri şəraitində funksional mərkəzsizləşmə haqqında danışmağa imkan verən dövlətin səlahiyyətlərinin bir hissəsinin könüllü fəaliyyət göstərən təşkilatlara, yerli hakimiyyətlərə verilməsi və bunun təkcə insan hüquqlarının təmin olunmasına deyil, həm də insanlara normal həyat şəraitinin təmin olunmasına aid olduğu halda əsas rolun və məsuliyyətin dövlətə keçməsi prinsipi xarakterikdir (9, s. 220-222; 13, s. 19-21).

Almaniyanın qanunvericiliyində bundan başqa sosial xidmətin aşağıdakı prinsipləri də təsbit edilmişdir: sığorta prinsipi (sosial xidmətin sosial sığorta ödəmələri hesabına maliyyələşdirilməsi, sosial sığorta ödəmələri ilə sosial xidmət növlərinin həcmi arasında qarşılıqlı əlaqə), təminat prinsipi (vergilər hesabına maliyyələşdirilmə), himayəçilik prinsipi (büdcə hesabına maliyyələşdirilmə və fərdi ehtiyaclara yönəltmə).

Böyük Britaniyada isə sosial xidmətin aşağıdakı prinsipləri təsbit edilmişdir: universallıq (sosial xidmətin ölkənin bütün əhalisinə şamil olunması), ümumilik (bütün sosial risk hallarını əhatə etməsi), idarəetmənin vahidliyi (sosial xidmətin idarə edilməsi ictimai dövlət xidməti tərəfindən həyata keçirilir), göstərilən xidmətlərin eyniliyi (onlar əlavələrə və vəziyyətinə görə eyni olmalıdırlar və gəlirlərin məbləğindən asılı olmamalıdırlar).

ABŞ-da öz tərkibinə bilavasitə sosial işləri daxil edən dövlət sosial xidmət sistemi Avropa ölkələrindən xeyli gec meydana gəlmişdir. Uzun müddət ABŞ sosial xidmət məsələlərinə lazımi formada fikir verilməmişdir. Dövlətin sosial siyasəti daha çox pensiya təminatına və sosial sığortaya yönəlmişdir. ABŞ-da sosial təminat pensiya təminatı, İngiltərədə professonal pensiya təminatı, Avstraliyada superannusiya sistemi, Fransada əlavə professional pensiyalar, AFR-də istehsalat sığortası adlanırdı. Müəyyən müddət keçdikdən sonra istehsalat sosial təminatının strukturu mürəkkəbləşərək öz tərkibinə tibbi xidmətlə yanaşı, sosial xidməti də daxil etməyə başlamışdır.

Hazırda ABŞ-da 1935-ci ildə qəbul edilmiş sosial müdafiə və sosial təminat haqqında qanunlar qüvvədədir. 45 milyon amerikalını əhatə edən və 2002-ci il federal dövlət büdcəsindən 455 milyard dollar məbləğində maliyyələşməni nəzərdə tutan sosial həmrəylik prinsipinə əsaslanan pensiya təminatı sisteminin əsas dövlət proqramında islahatlar aparılması barədə artıq yeni təkliflər irəli sürülmüşdür (1, s. 184). Ölkənin inkişaf tempinə uyğun olaraq həmin qanunlara müxtəlif dövrlərdə müəyyən düzəlişlər olunmuşdur. Məsələn, 1975-ci ildə sosial təminat haqqında qanuna aşağıdakı normaları müəyyən edən 20-ci maddə əlavə olunmuşdur: gəliri müvafiq ştatda adambaşına olan orta gəlirin 80%-dən azını təşkil edən şəxs pulsuz olaraq sosial xidmət növlərindən istifadə edə bilər. Gəlir həmin məbləğdən çox olduqda isə sosial xidmətlərə görə haqq tələb olunur. Sosial xidmət üzrə federal fondlar əhalinin sayına uyğun olaraq ştatlar arasında bölüşdürülür. Dövlət sosial yardım xidmətləri 75% federal vəsaitlər hesabına, 25% isə ştatın vəsaitləri hesabına maliyyələşdirilir (14, s. 151-152).

Yaşlı insanlara göstərilən sosial xidməti tənzimləyən əsas qanun olan «Yaşlı amerikalılar haqqında» qanun isə 1992-ci ildə qəbul olunmuşdur. Həmin qanuna əsasən ayrılan vəsaitlər müxtəlif yardım növlərinin təşkili və göstərilməsi üçün nəzərdə tutulur. Onların arasında yaşayış yerinə görə qocalara xidmət göstərilməsini, həm qrup şəklində, həm də fərdi olaraq qida ilə təmin edilməsini göstərmək olar. Eyni zamanda xüsusi ehtiyaclarla şərtlənən müxtəlif

yardım növlərinin təqdim edilməsi də nəzərdə tutulmuşdur. Qanunda göstərilən həmin xidmətlərin maliyyələşdirilməsinə ayrılmış bütün vəsaitin 70%-i yönəldilir və bu zaman qidalanma məsələsi mərkəzi yer tutur. Belə ki, yaşı 60 və ya ondan çox olan vətəndaşlar qida proqramından istifadə etmək hüququna malikdirlər. Əlillər zərurət olduqda evdə qida əldə edirlər və yaşa görə onlar 60 yaşdan da az ola bilərlər. Qidanın 2/5-dən çoxu yaşayış yeri üzrə verilir, qalan 3/5-i isə yaşayış məntəqələrinə ən yaxın olan ərazilərdə paylanılır.

Federal vəsaitlər hesabına ştatlardan və ayrı-ayrı ərazi vahidlərindən əhəmiyyətli dərəcədə fərqlənən və "son ümid proqramları" adlandırılan ümumi yardım proqramları fəaliyyət göstərir. Bu proqramlar yalnız bir əhali qrupuna, məsələn, əlillərə, əlillərin ailələrinə və s. xidmət göstərilənə qədər həyata keçirilə bilər. Ehtiyacı olan bütün kateqoriya şəxslərə (praktiki olaraq heç bir proqrama aid olmayan əmək qabiliyyətli şəxslər istisna olmaqla) yalnız 10 ştatda xidmət göstərilir.

ABŞ-da ümumi yardım proqramlarından başqa fövqəladə və xüsusi yardım proqramları da mövcuddur. Fövqəladə yardım proqramları ümumi proqramlarda planlaşdırılmayan hallarda sosial dəstəyi nəzərdə tutur. Xüsusi yardım proqramları insanların qeyri-standart ehtiyaclarının ödənilməsinə yönəlir. Proqramların dövlət proqramı olmasına baxmayaraq xüsusi sosial agentliklər də burada iştirak etmək hüququna malikdirlər.

Almaniyada müxtəlif hissələrə bölünən sosial yardım sistemi fəaliyyət göstərir. Sosial təminat (sosial yardım) təşkilatların qarşısında duran əsas vəzifə hər bir insanın layiqli həyat şəraitinin təmin edilməsidir. Sosial xidmətə olan hüquq ölkə əhalisinin əksəriyyətinə aiddir. 1991-ci il yanvarın 1-dən «Müstəqil surətdə özünəxidmətetmə qabiliyyətini itirmiş şəxslər və yaşlı insanlar üçün evdə yardımın göstərilməsi haqqında" qanun qüvvəyə minmişdir. Evdə xidmət göstərilməsi üçün sığorta edilmiş şəxs statusu hazırda və ya keçmişdə əmək fəaliyyətində iştirak edilməsi tələb olunur. Yardımın həcmi vətəndaşlara maksimum dərəcədə ev şəraitində qalmağa imkan verir və sığınacaq institutunda onların yaşaması zəruriyyətini minimuma endirir (xüsusən ona görə ki, orada qalma evdə xidmətdən daha baha başa gəlir).

Niderlandda 1968-ci ildə qəbul edilmiş "Xüsusi tibbi xərclərin sığortalanması haqqında" qanun hələ də qüvvədədir və həmin qanunda sosial xidmətin aşağıdakı formaları təsbit edilmişdir: sığınacaq evləri, stasionar müəssisələr, gündüz və gecə qalmaq üçün evlər, evdə xidmət göstərilməsi (xüsusi milli assosiasiyalar tərəfindən). Sığınacaq institutu pensiya və əlavə gəlirlər (əgər onlar olarsa) hesabına ödənilir. Ancaq dövlət yardıma görə haqqın yüksək həddini müəyyən etmişdir. Yalnız müəyyən müddət üçün nəzərdə tutulan yardım pulsuz olaraq göstərilir (6, s. 360-364).

Böyük Britaniyada "Yardım göstərilməsi haqqında" 1948-ci il qanunu müasir dövrdə də öz əhəmiyyətini saxlamışdır. Həmin qanuna əsasən bütün sosial yardım rejimləri sosial təminat və səhiyyə orqanlarının səlahiyyətindədir. Ehtiyacı olanlara fərdi sosial yardım göstərilir. Yaşlı şəxslərin 97%-i evdə yaşamaqla tibbi və sanitar yardımdan, o cümlədən sosial xidmətdən istifadə edir. Yarımstasionar xidmət mərkəzlərində həkimlər tibbi yardımı göstərirlər, sosial sferanın işçiləri isə qidanı və istirahəti təşkil edirlər. Evdə yaşaya bilməyən şəxslərin 80%-i yerli cəmiyyətlərin, 20%-i isə qeyri-kommersiya birliklərinin və özəl institutların mülkiyyətində olan xüsusi təchiz olunmuş mənzillərdə məskunlaşırlar. Bununla yanaşı, yerli vergilər və hökumət subsidiyaları hesabına maliyyələşdirilən qocalar üçün evlər mövcuddur. Həmin evlərdə yaşayanların çox az bir hissəsi (5%) öz hesablarına sosial xidmətlə təmin edilirlər.

İsveçrənin "Sosial təminat haqqında" 1982-ci il tarixli qanununda göstərilir ki, yaşlı şəxslər yaxınlıqda sosial, kommersiya, tibbi-sanitar və mədəni xidmətlərin göstərilməsi üzrə xidmətləri olan yüksək keyfiyyətli mənzilə malik olmalıdırlar. Sosial xidmət onu göstərən şəxsin sağlamlıq vəziyyətindən və vəsaitlərindən asılıdır. Qanun mənzil müavinətinə olan

hüququ və ya mənzilin təchizatı üçün dotasiya müəyyən edir. Sosial xidmətə ehtiyacı olanlara adi və ya xüsusi təchiz olunmuş mənzil, əlillik dərəcəsi ağır olanlar üçün yüksək səviyyəli rahatlığı olan mənzil təqdim olunur. Qanunda yaşlı şəxslər və səhhəti xüsusilə ağır vəziyyətdə olan şəxslər üçün yataqxanada və ya pansionat evlərdə ayrıca mənzilin verilməsi nəzərdə tutulmuşdur (4, s. 14).

Danimarkada 1987-ci ilin mayında yaşlı şəxslərin ehtiyaclarına uyğun yeni mənzillərin tikintisinə və köhnə mənzillərin yenidən təchiz olunmasına imkan verən "Mənzil haqqında" qanun qəbul olunmuşdur. Qanun onlara hətta lazımi yardıma ehtiyacları olduqda belə evdə yaşamağa icazə verir. Bunun üçün qanun yerli xüsusiyyətləri nəzərə alan mənzillərin tikilməsi zamanı cəmiyyətin və rəhbərliyin subsidiyalaşdırılması qaydasını, yəni yaşlı şəxslər üçün mənzil müavinətlərini nəzərdə tutur. Həmin qanun yaşlı şəxslərin sayının və onunla bağlı dövlətin və cəmiyyətin xərclərinin mütəmadi artmasını, ailə əhatəsində öz müstəqilliyini saxlamaq istəyən yaşlı şəxslərin iradəsini nəzərə alaraq dövlət tərəfindən təqdim olunan evdə yardım və qulluqla bağlı xidmətlərin göstərilməsini təsbit edir.

İspaniya Konstitusiyasına və muxtar cəmiyyətlərdəki ümumi qanunlara müvafiq olaraq vətəndaşların sosial müdafiəsinə yönəlmiş bir sıra qanunvericilik aktları qəbul olunmuşdur. Kastilya və Leonun muxtar cəmiyyəti "Sosial fəaliyyət və sosial xidmət haqqında" 1988-ci il tarixli qanun qəbul etmişdir. Andaluz muxtar cəmiyyəti, Basklar ölkəsi, Kataloniya muxtar cəmiyyəti vətəndaşlara sosial xidməti, yaşlı insanların yaşayış səviyyəsinin yüksəldilməsini, yardımın fərdiləşdirilməsini nəzərdə tutan sosial təminat haqqında qanunlar qəbul etmişlər.

Fransada sərbəstliyini itirmiş, o cümlədən yaşlı şəxslərin və sığınacaq institutlarında olan şəxslərin müdafiəsi 1970-ci il xəstəxana islahatı ilə və 1975, 1978 və 1990-cı illərdə qəbul edilmiş müxtəlif qanunlarla müəyyən olunur. Onlar uzunmüddətli saxlama (internat evləri strukturlarında) zamanı və uzunmüddətli ambulator müalicə (yaşlılar üçün nəzərdə tutulmuş evlərdə) zamanı xidmətlərin ödənilməsinin differensiyalaşdırılmış tariflərini müəyyən edirlər. Evdə yardım göstərilməsi zamanı mümkün xərclərin yüksək hədləri müəyyən edilmişdir, bunlar daha da artdıqda qospitala yerləşdirmə nəzərdə tutulmuşdur. Yüksək gəlirə malik olmayan şəxslər ağır vəziyyətdə olurlar, çünki onlara lazımi yardım göstərilməsindən imtina oluna bilərlər.

Lüksemburqda yaşlı insanlara qulluğun maliyyələşdirilməsi və qulluğun özü sosial təminat orqanlarından deyil, bilavasitə dövlətdən asılıdır. Həmin şəxslərin sığınacaq institutunda və ya ev şəraitində saxlanılan dəyəri, bir qayda olaraq, təsbit edilmiş yüksək həddə müəyyən olunur və ödənişdə vətəndaşların özləri də iştirak edirlər. Nəzərə alsaq ki, ölkədə pensiyaların məbləği yüksəkdir, onda belə xərclərə yaşlı şəxslərin 2/3-nin imkanı çatır. Əgər həmin şəxsin öz gəliri kifayət etmirsə, onun saxlanılması dövlət tərəfindən ailənin iştirakı olmadan maliyyələşdirilir (10, s. 58).

Belçikada yaşlı şəxslərin sosial yardımına yönələn çoxsaylı qanunlar və qərarlar qəbul edilmişdir ki, burada tariflər və ailənin maliyyə ehtiyatlarına münasibətdə sanitar və sosial aspektlər arasında fərqlər müəyyən olunmuşdur. Qəbul edilmiş müəyyən aktlar bəzən bir-birinə uyğun gəlmir və qaydalardan istisnalar doğurur. Ölkədə yaşlı vətəndaşlara evdə qulluq göstərilməsi daha çox inkişaf etsə də, bu xidmətlərin dəyəri xeyli yüksək olaraq qalır. Bununla əlaqədar oxşar xidmətlər, o cümlədən lazımi gerontoloji hazırlığa malik olan kadrlar çatışmır.

Sosial xidmət haqqında xarici qanunvericiliyin təhlili göstərir ki, sosial xidmətə ehtiyacı olan şəxslərin vəziyyəti ayrı-ayrı ölkələrdə müxtəlifdir. Bəzi ölkələrdə sosial xidmət əldə etmək üçün tibbi sığortaya malik olmaq və müəyyən vaxt ərzində sığorta haqlarını ödəmək (Almaniyada, Niderlandda), peşə fəaliyyəti stajına malik olmaq (Almaniya) lazımdır. Yaşlı insanların maraqları naminə bəzi ölkələrin (ABŞ, AFR, Danimarka, İsveç) qanunvericiliyi evdə

sosial xidmətin göstərilməsinə, onların evdə, ailədə yaşaması üçün ən yaxşı şəraitin yaradılmasına yönəlmişdir.

Dövlət sosial xidmətlərindən başqa xarici ölkələrdə dini katolik, protestant və s. fondlar daxil olmaqla yerli fondlar tərəfindən maliyyələşdirilən könüllü qeyri-kommersiya sosial xidmətləri və xüsusi şəxslərin himayə etdiyi özəl kommersiya təşkilatların maliyyələşdirilməsi hesabına sosial xidmətlər həyata keçirilir. Eyni zamanda peşəyə görə birləşən təşkilatlar da mövcuddur.

A.Y.Nekrasovun haqlı olaraq qeyd etdiyi kimi, "qeyri-hökumət təşkilatlarının fəaliyyətində xüsusilə qiymətli olan odur ki, onlar öz fəaliyyətində peşəkar ödənişli xidmətlərlə könüllü xidmətləri əlaqələndirirlər, həmçinin onlar həmin xidmətləri əhaliyə bilavasitə, çətin inzibati prosedurlara əl atmadan təqdim edirlər. Onlar xüsusilə böhran vəziyyətlərində (təbii fəlakətlər, qəzalar və s.) yeni tələbatların meydana gəlməsinə düzgün və operativ reaksiya vermək və hökumət proqramlarını tamamlayaraq əhaliyə təxirəsalınmaz yardım göstərmək imkanındadırlar" (5, s. 75).

İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin əksəriyyətində çoxsaylı assosiasiyalar fəaliyyət göstərir. Assosiasiyalar öz üzvlərinin mənafelərinin müdafiəsi məqsədilə təşkil olunur. Məsələn, Böyük Britaniyada orta məktəb müəllimlərinin, ali təhsil müəssisələrinin və kolleclərin müəllimlərinin, sonrakı təhsil müəllimlərinin assosiasiyaları korporativ marağın, pedoqoji heyət üzvlərinin statusunun sosial təminatı məsələlərini həll edirlər, onlara isə zərurət olduqda sosial xidmət göstərilir. Bununla əlaqədar korporasiyanın imkanları təhsil orqan-larının, xeyli sayda müxtəlif müəllimlərə dəstək fondlarının imkanları çərçivəsində kənara çıxır. Xüsusi olaraq, müəllimlər üçün yardım və qarşılıqlı dəstək cəmiyyətləri yaradılmış və fəaliyyət göstərirlər.

Müəyyən ölkələrdə öz üzvlərinə həmçinin sosial xidməti təmin edən xüsusi sosial təminat təşkilatları mövcuddur (2, s. 6-10). Bununla əlaqədar tam şəkildə muxtariyyətə malik olan xüsusi təşkilatlar yaradılmışdır: şaxtaçılar təşkilatı, SNCF (dəmir yolları milli cəmiyyəti) təşkilatı, RATP (muxtar dövlət Paris nəqliyyat müəssisəsi), peşəkar hərbçilər təşkilatı, fransız bankı təşkilatı və s.

Bir sıra ölkələrdə xüsusi proqramlar qəbul etməklə icmanı təmin edən sosial xidmət praktikası inkişaf etmişdir. Belə ki, ABŞ-da " Gündəlik qayğı " proqramı bütün il ərzində həftənin beş günü (8:00-dan 16:30-a qədər) qüvvədə olur. Bu proqram uşaqları səhər yeməyi, nahar, günortadan sonra iki qəlyanaltı ilə təmin edir. Təhsilə yönələn proqrama əlavə olaraq "Gündəlik qayğı" preventiv tibbi xidmət və ailə məsləhətləşməsini təmin edir.

Son illər "Qoddard-Riversayd" layihəsi həmçinin evsiz tənha insanlar üçün nümunəvi yaşayış yerinə çevrilir. Evsiz insanlarla iş hələ 70-ci illərin sonlarında başlamışdır. O zaman işlənib hazırlanmış layihəyə görə Yuxarı Vest-Saydın park və küçələrinə hər gün evsiz insanlara qida, paltar, xidmət, sığınacaq, emosional dəstək təklif edən işçilər komandası göndərilirdi. Layihə ruhi xəstə olan evsiz insanlarla apardığı işdə qazandığı uğurlar sayəsində dövlət miqyasında diqqəti cəlb etdi (3, s. 198; .8, s. 114).

Analoji funksiyanı həmçinin bəzi ölkələrdə (Finlandiya) yaradılan öz fəaliyyətində müəyyən istiqaməti və məqsədi deviz seçən liqalar həyata keçirir. Məsələn, "Qonşuna kömət et" devizi altında fəaliyyət göstərən liqa minlərlə uşaqları özündə birləşdirir. Məqsəd - bütün səviyyələrdə, yerli səviyyədən dövlət səviyyəsinə qədər uşaqların və anaların sağlamlığının mühafizəsinin inkişafıdır. 1989-cu ildə liqa uşaqların problemləri ilə və uşaqlı ailələrə dəstək məsələsi ilə məşğul olan eston rəhbərləri ilə əməkdaşlıq etməyə başladı. Liqa digər ölkələrdə də uşaqların mühafizəsi üzrə təşkilatlarla əməkdaşlıq edir. Liqanın bütün Finlandiya üzrə 470 yerli şöbəsi vardır. Yerli şöbələrdə liqa üzvləri hökumətə və ictimai rəyə təsir etməyə çalışırlar, müxtəlif tədbirlər təşkil edir və onlarda fəal iştirak edirlər. Burada fəaliyyətin 100 müxtəlif

növü mövcuddur: orada xəstə uşaqlara yardım edirlər, psixoloq-məsləhətçilər, klublar, ilk valideynlər üçün məktəblər və s. vardır.

İsveçrədə sosial xidmət xüsusilə diqqətə layiqdir. A.M.Fişer-Qeyzer ona yüksək qiymət (11, s. 215) verərək göstərir ki, İsveçrədə sosial işin vəziyyəti onun bütün istiqamətlərində dövlətin konfederativ xarakteri ilə müəyyən olunur. Ölkə iyirmi altı kantona bölünüb və onların hər biri öz qanunvericiliyinə uyğun yaşayır. Sosial sfera daxil olmaqla kantonlarda həyata keçirilən bütün ictimai-siyasi, iqtisadi və mədəni fəaliyyət yalnız kantonun əhalisinin rifahına yönəlmişdir. Ancaq yoxsullara və ehtiyacı olanlara dövlət sosial yardımının göstərilməsinə görə məsuliyyəti kanton deyil, icma daşıyır. İsveçrədə cəmi 3050 müstəqil icma vardır ki, onların da yarısı 500 nəfərdən çox olmayan sakinə malikdir.

İsveçrədə sosial xidmət müəssisələri özəl və ya kilsə müəssisələri kimi fəaliyyət göstərirlər. Tarixi ənənələrdən asılı olaraq onlar 3 səviyyədə - konfederasiya, kanton və kommuna (icma) səviyyələrində fəaliyyət göstərirlər. Bununla əlaqədar sosial xidmətlər "dövlətin mümkün qədər az müdaxilə etməsi" prinsipi üzrə idarə olunurlar.

Ölkədə sosial xidmətlərin inkişaf tarixi göstərir ki, onlar əsas etibarilə özəl təşəbbüs nəticəsində meydana gəlmişlər və ittifaqlar, fondlar və cəmiyyətlər tərəfindən idarə olunurlar. Məsələn, Sürix kantonunda bütün təşkilatların təxminən 50%-i özəl şəxslərin əlindədir, 15%-ni kilsə xidmətləri təşkil edir, 30%-i kommunalara və təxminən 5%-i isə kantonlara məxsusdur. Ancaq xüsusi sosial xidmətlərin hamısı bu gün dövlətin, kantonun və ya icmanın verdiyi maliyyə dotasiyaları olmadan mövcud ola bilməz. Sosial xidmət xərcləri çox yüksək olduğu üçün maliyyə məsələsi ciddi çətinliklər doğurur.

Bununla belə, özəl təşkilatların üstünlüyü ondadır ki, onlar dövlət xidmətlərinə nisbətən cəmiyyətdə yaranan problemlərə daha cəld, daha mobil reaksiya vermək, göstərilən sosial xidmətlərə yeniliklər gətirmək imkanına malikdirlər.

Ölkədə sosial xidmət bu prinsip üzrə təşkil olunur: əvvəlcə ailədə olan bütün imkanlardan istifadə edilir, əgər bunlar kifayət etmirsə, onda söhbət özəl və ya kilsə sosial xidmətləri tərəfindən xidmətin göstərilməsinə başlanılır. Yalnız sonuncu halda dövlət təşkilatlarına kömək üçün müraciət olunur.

Təqdim olunan sosial xidmətlər ərazidən - şəhər və ya kənddən asılı olaraq fərqlənir. Böyük şəhərlərdə sosial xidmətlərin artıqlığı müşahidə olunur. Sosial yardım ayrıca şəxslərə, ailələrə, qruplara və kollektivlərə göstərilir. Praktikada sosial iş kompleks xarakterli olduğuna görə bu işin ayrı-ayrı sahələri arasında fərqləndirmə o qədər də dəqiq aparılmayıb. Ona görə də daha çox kantonların mərkəzlərində fəaliyyət göstərən ixtisaslaşmış özəl məsləhətxanalarla yanaşı, çoxprofilli dövlət sosial xidmət mərkəzləri mövcuddur. Onlar, bir qayda olaraq, böyük şəhərlərdə və daha iri icmalarda cəmləşmişlər və bütün həyati məsələlər üzrə: tərbiyə problemləri, qəyyumluq, müxtəlif maliyyə işləri, ailədə əmək kollektivlərində qarşılıqlı münasibətlər, yaşla bağlı problemlərin həlli və s. üzrə xidmətləri və məsləhətləri təklif edirlər.

İri sənaye müəssisələri, univermaqlar, ticarət firmaları, banklar, poçt və teleqraflar, dəmir yolları və s. də öz sosial yardım mərkəzlərinə malikdirlər və həmin müəssisələrdən asılı deyillər və onların rəhbərliyi qarşısında hesabat verməyə bilərlər.

Kilsə vergiləri və verilmiş ianələr sayəsində maliyyə münasibətlərində uğur qazanan çoxlu kilsə icmaları gənclərlə, tənha şəxslərlə, kişilərlə, qadınlarla, analarla, dul şəxslərlə və s. ilə differensiasiyalı şəkildə iş aparan xeyli sosial işçilər qruplarına malikdirlər. Onlar xüsusi layihələri - xeyriyyə naharlarını, qocalar və gənclər üçün görüşləri, uşaqlar üçün istirahəti və s. həyata keçirirlər.

Ölkədə böyük sosial yardım əlillərə, xəstələrə, fiziki və əqli çatışmazlıqları olan şəxslərə, qocalara göstərilir. Həmin kateqoriya şəxslər üçün bütün kantonlarda öz şöbələri olan ümumdövlət sosial yardım mərkəzləri ("Pro Infirmis", "Pro Senectute") fəaliyyət göstərir.

Sosial işçilər əlillərə, xəstələrə gündəlik həyatın çətinliklərinin öhdəsindən öz imkanları həddində necə gəlməyi öyrədirlər. Həmin işçilər münasib mənzil axtarmaqda, internata düzəldilməsində, ərzaq xidmətinin təşkilində, zəruri köməkçi vasitələrin (əl ağacı, uşaq arabaları və s.) alınmasında onlara köməklik edirlər. Tənha şəxslər və qocalar üçün daha gənc insanlar arasından ünsiyyət qura bilən şəxslər seçilir.

Hazırda İsveçrənin bütün iri şəhərlərində qadın evləri açılmışdır. Ərləri tərəfindən döyülən, psixi istirablara məruz qalan qadınlar həmin evlərdə uşaqlarla birlikdə sığınacaq tapa bilərlər. Burada bir neçə həftə qaldıqları müddətdə onlar rahat şəkildə ailələrində mövcud olan vəziyyəti müzakirə edirlər və sosial işçilərlə birlikdə çıxış yolu tapmağa cəhd göstərə bilərlər. Zorakılığın qurbanı olan qadınlara yaşamış olduqları iztirabları unutmaqda, habelə baş vermiş hadisə üzrə məhkəmə baxışının hazırlanmasında və aparılmasında köməklik göstərilir. Qadın məsləhətxanaları arasında ailə planlaşdırması məsələləri üzrə yardım göstərən ixtisaslaşmış mərkəzlər mövcuddur.

İsveçrədə gənclərə yardım xidmətlərində sosial işin bütün politrası ifadə olunmuşdur. Uşaq tərbiyə və gənclər internatları yaradılmişdır. İlk öncə şəhərlərdə yaradılan Robinzon adlı oyun meydançalarında uşaqlar sosial işçilərin rəhbərliyi altında komalar tikmək, nəsə hazırlamaq - öz fantaziyalarını qurmaq imkanına malikdirlər.

Gənclərin görüş məntəqələrində və gənclər mərkəzlərində oğlanlar və qızlar öz boş vaxtlarında birgə tədbirlər keçirirlər, onları maraqlandıran məsələlər haqqında söhbət edirlər. Bu mərkəzlərdə çalışan sosial işçilər gənclərin qruplarına başçılıq edirlər, boş vaxtlarda məşğuliyyət növü və əyləncə təklif edirlər, rəqs gecələri (diskotekalar) və digər mədəni tədbirlər təşkil edirlər. Həmin vaxt ərzində müxtəlif məsələlər üzrə fərdi məsləhətləşmələr aparıla bilər. Ailələrə, azyaşlı və böyük uşaqları olan valideynlərə yardım göstərilməsi üzrə ixtisaslaşan klassik tipli özəl məsləhətxanaların sayı da az deyildir.

İsveçrənin faktiki olaraq bütün kantonlarında öz filiallarına malik olan uşaqlara, yeniyetmələrə, gənclərə yardım üzrə böyük ümumdövlət mərkəzi mövcuddur. Burada tələbatdan asılı olaraq xidmətlər göstərilir, habelə uşaqların istirahət düşərgələrində, internatlarda qalması üçün maliyyə dəstəyi göstərilir.

Bundan əlavə bir çox kantonlarda gənclərə məhkəmə icraatı sahəsində yardım üzrə dövlət mərkəzləri fəaliyyət göstərir. Burada sosial işçilər yetkinlik yaşına çatmayan qanun pozanların cəzalandırılması və ya müdafiəsinə dair bütün mövcud hüquqi aktları araşdırırlar. Sosial işçilər və sosial pedaqoqlar məhkəmə icraatı sahəsində gənclər üçün həbsxanalarda və islah müəssisələrində işləyirlər. Burada sosial işçilər qüvvədə olan hüquqi aktları araşdırırlar.

Hələlik ümumdövlət səviyyəsində bu sosial bəla ilə mübarizədə vahid strateji xətt işlənib hazırlanmasa da, İsveçrənin bütün kantonlarında xəstələr-alkoqoliklər və narkomanlar üçün müstəsna məsləhətxanalar mövcuddur. Psixiatriya klinikalarında və ixtisaslaşmış institutlarda müvafiq müalicə kursunu keçdikdən sonra bu növdən olan xəstələri xüsusi terapevtik şöbələrə keçirirlər ki, orada onlar qruplarda yaşayırlar və müxtəlif profilli mütəxəssislər (sosial işçilər, həkimlər, psixoloqlar və s.) onları adi peşəkar və gündəlik həyata qaytarmağa çalışırlar.

Bəzi özəl mərkəzlərin sosial işçiləri sosial hazırlıqdan sonra küçə işi adlı fəaliyyəti həyata keçirirlər. Bu o deməkdir ki, onlar yeniyetmələri, gəncləri müəyyən görüş və yığıncaq yerlərində, məsələn, şəhər parkında, şəhərin mərkəzi meydanında, dəniz kənarında və ya müvafiq bar və kafelərdə saxlayaraq həmin gənclərə bütün sosial məsələlər üzrə lazımi köməklik göstərirlər.

Bu gün İsveçrədə bütün sosial fəaliyyət sferalarında və işəgötürənlərdə sosial işçilər tam şəkildə əmək haqqı almaqla işləyə bilərlər.

Ölkədə ayrı-ayrı kantonlarda sosial işin strukturu və istiqaməti bir-birindən fərqlənsə də, bu işin prinsipləri, onun məqsədləri və fəaliyyyəti bütün sahələrdə eynidir.

Beləliklə, sosial xidmət haqqında xarici ölkələrin qanunvericiliyi bir çox ümumi cəhətlərə malikdir: bir qayda olaraq əlillərə sosial xidmət dövlət tərəfindən təmin olunur. Bu xidmət dövlət və bələdiyyə orqanları tərəfindən maliyyələşdirilir. Pensiyaçılara sosial xidmət dövlət sosial idarələri və həmkarlar ittifaqları assosiasiyaları tərəfindən təmin olunur, çətin həyati şəraitdə yaşayan şəxslərə xidmət isə könüllü cəmiyyətlər, liqalar və icmalar tərəfindən təmin olunur.

Sosial xidmət haqqında xarici ölkələrin qanunvericiliyinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, sosial xidmətin növləri və həcmi əsasən ölkə iqtisadiyyatının səmərəliliyindən asılıdır. İqtisadi cəhətdən zəif ölkələrdə sosial sığorta sistemi artıq, heç olmasa, maliyyələşmə baxımından sosial təminatın yalnız nisbətən aşağı səviyyəsini təmin etmək imkanındadır. İqtisadi səmərəliliyin artması ilə sosial xidmət sistemini də genişləndirmək olur.

Hazırda məcburi dövlət sosial sığortası mülkiyyət və təşkilati-hüquqi formalarından asılı olmayaraq bütün müəssisələrin, o cümlədən məcburi dövlət sosial sığortaya cəlb edilmiş şəxslərin ödədikləri sosial sığorta haqqı ilə Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən həyata keçirilir. Lakin DSMF vəsaitləri hesabına əmək pensiyaları və bəzi sosial müavinətlər (əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, işsizlik müavinəti və s.) ödənilir. Hesab edirik ki, sosial xidmət institutu üzrə də məcburi dövlət sosial sığortası prinsiplərinin tətbiq edilməsi məqsədəmüvafiq olardı. Ona görə ki, hazırda əhaliyə sosial xidmətin səmərəsi bir sıra maliyyə-iqtisadi və təşkilati problemlərlə əlaqədar olaraq aşağı düşmüşdür. Ona görə ki, sosial xidmətin sabitliyi yalnız dövlətin səyləri ilə təmin edilə bilməz, çünki büdcə vəsaiti belə xidmətə ehtiyacı olanların hamısını hətta minimum səviyyədə təmin etməyə imkan vermir. Buna görə də bu prosesdə müasir vətəndaş cəmiyyətinin bütün subyektlərinin - qeyri-dövlət strukturlarının və qeyri-hökumət təşkilatlarının iştirakı zəruridir. Cəmiyyətin sosial sığortaya cəlb edilməli olan üzvlərinin sosial xidmətin maliyyələşdirilməsində iştirakının təmin edilməsi bu gün üçün ən aktual məsələ olaraq qalmaqdadır. Bu baxımdan hesab edirik ki, sosial xidmətin ehtiyaclarına sərf olunacaq bütün vəsaitlərin cəmləşdiriləcəyi büdcədənkənar xüsusi dövlət fondu formalaşdırılmalıdır. Məhz həmin fond vasitəsilə vətəndaşların sosial xidmətin əsas növlərinə olan konstitusion hüquqları reallaşdırıla bilər. Belə ki, sığorta olunanlar sosial xidmətə olan hüquqları çərçivəsində daha keyfiyyətli sosial xidmət və onun daha geniş dairəsini əldə edəcəklər. Onlar sosial xidmətin səmərəliliyinin yüksəldilməsinin ən mühüm üsulu olan sosial sığorta mexanizmi vasitəsilə əldə etdikləri hüquqların real təminatına malik ola biləcəklər. Bazar iqtisadiyyatı şəraitində sosial xidmətin maliyyələşdirilməsinə mərkəzləşdirilmiş mənbələrlə yanaşı, müəyyən maliyyə imkanlarına malik olan şəxslərin və büdcədənkənar əlavə mənbələrin də (məsələn, Dövlət Neft Fondu) cəlb edilməsi məqsədəmüvafiq olar.

Hesab edirik ki, sosial xidmət formalarının daha yüksək şəkildə təqdim edilməsi üçün respublikamızda aşağıdakı yeni tipli sosial xidmət müəssisələrinin yaradılması məqsədəmüvafiq olardı:

- valideyn himayəsindən məhrum uşaqlar üçün yardım mərkəzləri;
- ağır formada əlilliyi olan şəxslər üçün evdə mobil reabilitasiya xidmətləri;
- əhaliyə psixoloji yardım mərkəzləri;
- həddi-buluğa çatmayan və davranış pozuntuları olan uşaqlar üçün xüsusi psixo-sosial reabilitasiya mərkəzləri;
- əlilliyi olan uşaqlar üçün reabilitasiya-inkişaf mərkəzləri;
- ailə əsaslı kiçik qrup evlər;
- uşaqlar üçün ailə əsaslı müvəqqəti sığınacaqları;
- uşaqlara dəstək və inkişaf mərkəzləri;
- himayədar (foster) qayğı xidmətləri;

- ailə məsləhət və təlim mərkəzi;
- uşaq və ailələrə dəstək mərkəzləri;
- insan alverinin qurbanı olmuş və ya zorakılığa məruz qalmış uşaqlar üçün sığınacaq tipli krizis mərkəzləri və s.

**Açar sözlər:** sosial xidmət, qanun, təcrübə, qayğı, fond, peşə, yardım.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Robert L. Makkan. Amerika iqtisadiyyatının əsas cəhətləri //Birləşmiş Ştatların məlumat agentliyi. Bakı: Təknur, 2013.
2. Анализ постановления дан в работе: Пашков А.В. Организация социального обеспечения во Франции. М., 1998.
3. Вул Б. Программа социальной помощи в американской общине //Теория и практика социальной работы. Т. 1. М., Тула, 1993.
4. Зарубежные социальные работы //Российский журнал социальной работы, 1998, № 1/7.
5. Некрасов А.Я. Международный опыт социальной работы. М., 1994.
6. Основы социальной работы. Сб. под. ред. П.Д.Павлинка. М., 2001.
7. Современный словарь иностранных слов. М., 2005.
8. Социальная работа и подготовка социальных работников в Великобритании, Канаде, США. М., 1992.
9. Теория и практика социальной работы: отечественный и зарубежный опыт . Отв. ред. Т.Ф.Яркина. Т.1. М., Тула, 1993.
10. Теория и методика социальной работы //Под. ред. И.Г.Зайчышева. Ч. 2. М., 1994.
11. Фишер-Гейзер А.М. Социальные службы в Швейцарии //Теория и практика социальной работы. Т. 1. М., Тула, 1993.
12. Философский энциклопедический словарь. М., 1983.
13. Элементы системы социального обеспечения в условиях социально ориентированной рыночной экономики. На примере ФРГ. М., 1993.
14. Энциклопедия социальной работы. Пер. с англ. //Гл. ред. Л.Э.Кунельский и др. Т.1. М., 1994.

**Ульви АЛИЕВ**

## ВОПРОСЫ ПРИМЕНЕНИЯ ПРАКТИКИ ЗАРУБЕЖНЫХ СТРАН В ОБЛАСТИ СОЦИАЛЬНОГО ОБСЛУЖИВАНИЯ

### Резюме

В статье автор всесторонне изучает практику зарубежных стран, связанную с социальным обслуживанием и обосновывает необходимость ее применения в Азербайджанской Республике. Он затрагивает вопросы сущности теории «конвергенции», принципов социального обслуживания, применяемых в этих странах. Автор проводит сравнительный анализ вопросов практики применения в области социального обеспечения, социальной политики и социальных услуг в США, Великобритании, Германии, Дании, Швейцарии, Австралии и других странах. Отмечается значимость

программ по претворению в жизнь опекунства над инвалидами в этих странах. Кроме того, в статье отражаются сведения о специальной, медицинской форме социального обслуживания и вносятся дополнения в этой области в законодательство западных стран.

**Ключевые слова:** социальное обслуживание, законодательство, помощь, фонд, забота, профессия.

**Ulvi ALIYEV**

## THE ISSUES OF APPLYING THE PRACTICE OF THE FOREIGN COUNTRIES IN THE FIELD OF SOCIAL SERVICE

### Summary

In the article the author studies all round the practice of the foreign countries, connected with social services, substantiates the necessity of their application in the Republic of Azerbaijan. He touches upon such issues of essence of «theory»of convergention, principles of social service, used in these countries. The author makes a comparative analysis of this practice of using in the field of social provision, social politics and social services in the USA, Great Britain, Germany, France, Switzerland, Australia and other countries. There is noted the necessity of the programmes on bringing to life patership over the disabled in these countries. There is noted the significance of the procers of realization partnership over the disabled persons in these countries. In addition in the article the data of social, medical form of service are offered and supplement in this field are introduced into the legislation of the given countries.

**Keywords:** social services, law, help fund the care profession.

UOT 316

**Aynur BAĞIRLI**
*doktorant,*
*Azərbaycan Turizm və Menecment Universiteti*

# AZTƏMİNATLI AİLƏLƏRİN MƏŞĞULLUĞUNUN TƏMİN EDİLMƏSİ İLƏ BAĞLI DÖVLƏT SİYASƏTİ *

Azərbaycan Respublikasında son illərdə aparılan sosial-iqtisadi siyasətin əsas yönlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən düzgün istifadə edilməsidir.

Aparılan islahatlar nəticəsində ölkəmizdə dinamik iqtisadi inkişaf təmin edilmişdir. Regionların iqtisadi inkişafının təmin olunması, əhalinin rifahı və həyat səviyyəsinin yüksəldilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı istiqamətində görülən tədbirlər əhalinin məşğulluğunun təmin edilməsinə və yeni iş yerlərinin yaradılmasına gətirib çıxarmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünəfəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.

2015-ci ildə ölkədə iqtisadi fəal əhalinin sayı 2005-ci illə müqayisədə 535,2 min nəfər artaraq 4915,3 min nəfər olmuşdur. Onların da 4671,6 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 243,7 min nəfərini isə işsiz əhali təşkil edir.

Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2005-ci ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 30,3 faizini təşkil edirdisə, 2015-ci ildə bu göstərici 25,2 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,2 dəfə artmışdır..

Məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 2016-cı ilin yanvar ayının əvvəlinə 28,9 min nəfər olmuşdur.

Aztəminatlı ailələrin əmək qabiliyyətli üzvlərinə ünvanlı sosial yardım təyin etmədən öncə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işlə təmin olunmaları üçün müvafiq iş yerləri təklif edilir. Vətəndaşlar göstərilən iş yerlərindən hər hansı birini seçə və əmək fəaliyyətini davam etdirə bilərlər. Məşğulluq xidməti məşğul olmayan vətəndaşları məşğulluq xidməti orqanları tərəfindən peşə təliminə göndərir və müəyyən peşələrə yiyələndikdən sonra müvafiq işlərə yönləndirilirlər. İşaxtaran və işsiz vətəndaşların(burada gənclərə xüsusi önəm verilir) işlə təmin olunması sahəsində əhəmiyyətli tədbirlərdən biri də bütün regionlarda hər il təşkil olunan əmək yarmarkalarıdır. Yarmarkaların keçirilməsində qarşıya qoyulmuş məqsəd, işəgötürənlərlə işsiz və bir neçə müddət işaxtaran vətəndaşların qarşılıqlı ünsiyyətinin qurulmasıdır. Bu zaman işəgötürənlərin qısa vaxt ərzində ixtisaslı, peşəkar, təcrübəli kadr seçiminə imkan yaranır,ünsiyyət həmçinin işziz və işaxtaran vətəndaşların vakant iş yerləri haqqında məlumat almalarına və onların müvafiq işlə təmin olunmalarına köməklik edir.

Bununla yanaşı, 2007-ci ildən bu günədək ildə bir dəfə Bakı, Gəncə və Mingəçevir şəhərlərində müxtlif ali təhsil ocaqlarından məzun olan və təhsillərini davam etdirən tələbələrə aldıqları ixtisaslara uyğun olaraq iş yerlərinə cəlb olunmaları üçün "Karyerada ilk addım" devizi altında tədbirlər həyata keçirilir.

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

Bu tipli tədbirlərin keçirilməsində əsas məqsəd tələbələrin əmək bazarına inteqrasiyasını təmin etmək, onların təhsil aldıqları ixtisaslara əmək bazarında nə qədər tələbat oluğunu bildirmək, işəgötürənlərə gələcək kadrların seçilməsində kömək etmək və həmçinin məzun və tələbələrin ixtisasları üzrə boş (vakant) iş yerlərinə yerləşdirilməsinə yardımçı olmaqdır. Əhalinin məşğulluğunun gücləndirilməsi, xüsusən həssas qruplardan olan gənclərin, təqaüdçülərin, əlillərin, qadınların müvəqqəti işlərlə təmin olunması, onların boş vaxtları ərzində yaşamlarına kömək edəcək əlavə qazanc əldə etməsi, müvəqqəti, həmçinin birdəfəlik, qısa müddətli, mövsümü işlərlə təmin edilməsi məqsədi ilə 1999-cu il may ayının 10-da ilk dəfə olaraq Əmək Birjası yaradılmışdır.

Hazırda Sumqayıt (20.02.2001-ci il), Naxçıvan (06.01.2002-ci il), Gəncə (27.12.2004-cü il), Mingəçevir (22.12.2004-cü il) şəhərlərində də Əmək Birjaları yaradılmışdır. Birjalar vətəndaşların sosial müdafiəsinin təminatında əhəmiyyətli rol oynadığından, respublikanın digər şəhər və rayonlarında da yaradılması planlaşdırılir. Əmək Birjası geniş məlumat bankına malikdir.

Əmək Birjası əhalidən və ayrı-ayrı sahibkarlardan müxtəlif növ xidmətlər barədə sifarişlər alır, həmin sifarişlər əsasən müvəqqəti işlərin yerinə yetirilməsi üçün uyğun peşə sahiblərini təcili olaraq həmin ünvana göndərir. Birja öz fəaliyyətini xüsusi proqram təminatı vasitəsi ilə həyata keçirir. Sifarişlər telefonla və ya birbaşa müraciət etməklə qəbul olunur. Birja xidmətləri də pulsuzdur. Əmək Birjalarında sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlara üstünlük verilir.

Dövlət başçısının "Əhalinin özünəməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" 7 aprel 2016-cı il tarixli Sərəncamı aztəminatlı ailələrin aktiv əmək bazarı tədbirlərinə cəlb olunmasına əsaslanır. Dövlətin qarşısında duran ən mühüm məsələ aztəminatlı ailələrin məşğulluğunun, özünəməşğulluğunun təmin edilməsidir. Nazirlər Kabinetinin 2017-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan Prezidenti İlham Əliyev bir daha bu məsələni qeyd edərək, "İnsanlara daha çox imkanlar yaradılmalıdır ki, onlar özləri öz məşğulluğunu təmin etsinlər", - deyə vurğulayıb. O qeyd edib ki, "Yüz mindən çox ailəyə dövlət tərəfindən ünvanlı sosial yardım verilir. Biz bunu ona görə edirik ki, bu insanların maddi təminatı lazımi səviyyədə deyil. Ancaq biz tədricən o aztəminatlı ailələr üçün şərait yaratmalıyıq ki, onlar özləri pul qazansınlar, özləri işlə məşğul olsunlar". Əmək haqqı ilə müxtəlif tipli müavinətlər sırasında dəqiq müəyyən edilmiş nisbət təkcə yoxsulluqla mübarizə üçün deyil, müvafiq stimulları formalaşdırmaqla bağlı sosial yardım, sosial sığorta üzrə müavinətlə və əmək haqqı ilə əlaqələndirilməlidir. İşsiz sosial yardım alanlara iş axtarmaq üçün bütün digər işsizlik müavinətləri alanlar üçün olan tələblər tətbiq olunmalıdır. Müəyyən stimullar strukturunun formalaşdırılması ilə əlaqədar işləyən yoxsulların heç olmasa sosial yardım almağa potensial imkanı olmalıdır. Bu özünəməşğul olanların artan sayı üçün daha aktualdır. Özünəməşğulluq çox tez hərəkət edən dəyişikliklər zamanı xüsusilə risklidir; buna baxmayaraq özünəməşğulluq bazar iqtisadiyyatına keçid prosesinin nailiyyətlərinin mühüm tərkib hissəsidir və onu həvəsləndirmək lazımdır. Özünəməşğul olanların sosial yardım almaq üçün müraciət etmək imkanı onların qarşılaşdığı riski azaldır. Lakin burada inzibati problemlərə qiymət verilməlidir: özünəməşğul olanların gəlirini qiymətləndirmək çox çətindir, bu isə yaşamaq üçün onlarda olan vəsaitin təhlilini mürəkkəbləşdirir.

Aztəminatlı əhalinin sosial reabilitasiyasının həyata keçirilməsi texnologiyalarından biri də "özünüməşğulluq"dur. Onun məqsədi kəndlərdə, rayonlarda, qəsəbələrdə yaşayan, uşaqlardan ibarət aztəminatlı ailələrin həyat şəraitinin və sosial vəziyyətinin yüksəldilməsidir. Bu proqramın əsas xüsusiyyəti ənənəvi yanaşmadan fərqli olaraq aztəminatlı ailələrin durumun yaxşılaşdırılması üçün onlara məqsədli vəsaitin ayrılmasıdır. Bu cür fəaliyyətə şəxsi

təsərrüfatın inkişaf etdirilməsi, məhsulların istehsal olunması, həmçinin ailənin əmək qabiliyyətli üzvünün işə düzəlməsində yaranan problemin aradan qaldırılması ( əmək bazarının tələbinə cavab veren ixtisasöyrətmə və ya ixtisasartırma, ananın işləməsi üçün onun azyaşlı körpəsinin dayə xidməti ilə təmin olunması və s.) daxildir. Bu texnologiyanın tətbiqi sayəsində bir çox nəticələrin əldə olunması mümkün olacaqdır. Belə ki, özünədəstək ailədə pul və ya natural formada əlavə gəlirlərin formalaşmasına, həyat səviyyəsinin yüksəlməsinə, ərzaq məhsullarına, məhsul və xidmətlərə olan tələbin artmasına, ailənin əmək fəaliyyətinin davamlı olmasına gətirib çıxardır.

"Özünədəstək" proqramı kəndlərdə maldarlıq və əkinçilik, şəhər yerlərində isə əmtəə və xidmətlərin istehsalı ilə aztəminatlı ailələrin aktiv formada məşğul olmaları məqsədilə ünvanlı yardım alan ailələrə aldıqları yardımın orta aylıq məbləğinin 12 misli qədər birdəfəlik pul yardımı ödənilməsini nəzərdə tutan proqramdır. Bu proqram ünvanlı yardım ilə birlikdə, paralel fəaliyyət göstərir. Lakin ailələr onlardan yalnız birindən faydalana bilər. Bu ailənin öz seçimindən asılı olur. "Özünədəstək" proqramı aztəminatlı ailələrin iqtisadi, sosial asılılığının aradan qaldırılması, ağır həyat şəraitində yaşayan insanlara maddı yardımın göstərilməsində; aztəminatlı ailələrin dövlətdən və yaxud insanlardan asılılığının aradan qaldırılması, aztəminatlı ailələrin aldıqları vəsaitin düzgün istifadə edilməsi sayəsində həyat keyfiyyətlərinin yüksəldilməsi, sosial reabilitasiyasının həyata keçirilməsi, aztəminatlı ailələrin cəmiyyətə inteqrasiya olunması və uşaqların ailədə dövlətdən pay gözləyən valideynlər timsalında deyil, öz əməyi ilə yaşayan ata-ananı görərək böyüməsi kimi əhəmiyyətli funksiyaları olan proqramdır.

"Özünədəstək" texnologiyasının tətbiqi zamanı aşağıdakı nəticələrin əldə olunması gözləniləndir: ailədə natural və pul formasında əlavə gəlir mənbələri yaranır, ailənin həyat keyfiyyəti artır, ərzaq, məhsul və xidmətlərə tələbi yüksəlir,gələcəkdə ailənin əmək fəaliyyətinin davam etdirilməsi şansı yaranır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin icra etdiyi aztəminatlı vətəndaşlar tərəfindən maraqla qarşılanan "Özünədəstək" proqramı mütərəqqi dünya təcrübəsi əsasında hazırlanıb və hazırda bir sıra ölkələrdə (Braziliya, Meksika, Rusiya, ABŞ və s.) də analoji proqramlar tətbiq olunur. "Özünədəstək" texnologiyası uşağı olan aztəminatlı ailələrin əmək fəaliyyətinə aktiv cəlbi yolu ilə onların həyat keyfiyyətini yaxşılaşdırmaq məqsədi ilə həyata keçirilir.

Bu texnologiyanın tətbiqi zamanı ailəyə verilən vəsait məqsədli xarakter daşıyır. Vəsait ailəyə ona görə verilir ki, ailə bu vəsaitdən şəxsi təsərrüfatının inkişafı və ya məhsul və xidmət istehsalı və yaxud da ailənin işsiz üzvünün işə düzəlməsinə mane olan baryeri aradan qaldırmaq üçün istifadə etsin. Yardımı almaq üçün müraciət edən ailə xüsusi fəaliyyət planı hazırlayır. Həmin planda ailənin hansı əmək fəaliyyəti ilə məşğul olacağı, hansı əmlakı əldə edəcəyi, hansı töhfəni verəcəyi aydın göstərilir. Əgər ailə seçilərsə, vəsait məhz təklif olunan fəaliyyətin həyata keçirilməsi üçün verilir. Bununla da yardımla gözlənilən nəticəyə aparan fəaliyyətlə yardım arasında dəqiq məntiqi əlaqə təmin edilir.

"Özünədəstək" layihəsinin həyata keçirilmsinin həm də üstünlüyü ondadır ki, işləməyən, dövlətdən qayğı gözləyən valideynlər yox, işləyərək zəhməti hesabına yaşayan valideynlərin himayəsində sağlam ruhlu gənclərin yetişdirilməsidir. Dövlət dəstəyi ilə həyata keçiriləcək bu proqram vasitəsilə çoxlu sayda aztəminatlı ailə nisbətən yoxsulluqdan çıxacaq və özünə normal yaşam tərzi quracaqdir.

Bu məqsədlə Naxçıvan Muxtar Respublikasının Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarından olan 8 aztəminatlı ailənin hər birinə fərdi təsərrüfat yaratmaq üçün bir inək və buzov verildiyini qeyd etmək yerinə düşər.

Azərbaycan Respublikası regionlarının tarazlı və davamlı inkişafına nail olmaq məqsədilə qəbul edilmiş və icrasına 2004-cü ildən başlanılmış "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2009-2013-cü illər)" üzrə zəruri tədbirlər həyata keçirilmiş və aşağıdakı istiqamətdə ciddi müsbət nəticələr əldə edilmişdir. Ötən müddətdə Bakı ilə yanaşı regionlarda da turizm komplekslərinin, otellərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi turizmin inkişafına, əhalinin istirahətinə geniş imkanlar yaratmaqla bərabər, aztəminatlı ailələrin işlə təmin olunmasına imkan vermişdi.

Aztəminatlı ailələrin maddi durumunun yaxşılaşdırılmasına yardımçı olacaq vasitələrdən biri də haqqı ödənilən işlərlə təminat məsələsidir. Haqqı ödənilən işlərdə çalışacaq vətəndaşlardan xüsusi peşə hazırlığı tələb olunmadığından onları işlərə cəlb etmək daha asandır. İctimai işlərə aşağıdakıları aid etmək olar:

- ərazinin, küçə, park və meydanların abadlaşdırılması;
- yaşayış əraziləri, xəstəxana, məktəb, məktəbəqədər uşaq müəssisələri, yataqxana və pansionatlar, qocalar və əlillər üçün internat evləri, habelə sosial sferanın digər obyektlərində tikinti və təmir işləri;
- yol və körpülərin, istilik və qazanxana sistemlərinin təmiri və tikintisi;
- kənd təsərrüfatı müəssisələrinə köməklik göstərilməsi ilə əlaqədar işlər;
- təbii fəlakətlərin nəticələrinin aradan qaldırılması işləri;
- qocalara, əlillərə qulluq;
- digər sosialəhəmiyyətli işlər(http://www.ses.gov.az/az/menu-33.html).

Ölkəmizdə aztəminatlı ailələrə yardım məqsədi ilə çoxlu sayda layihələr həyata keçirilir. Müxtəlif başlıqlar altında həyata keçirilən layihələrin məqsədi aztəminatlılığın aradan qaldırılması üçün ailə üzvlərinin işə cəlb edilməsidir. Heydər Əliyev Fondunun dəstəyi ilə İsmayıllı rayonunda meyvə bağları salınaraq üç aztəminatlı ailəyə verilmişdir. Həmin ailələr meyvə bağının ərsəyə gəlməsi və sonradan oradan əldə olunacaq məhsullardan sataraq öz şəraitlərini yaxşılaşdıracaqlar. Həmçinin ölkəmizə kənd təsərüfatı mallarının idxalının da qarşısı zamanla alınacaqdır.

Aztəminatlı ailələrdə problemi yaradan səbəblərdən ən başlıcası peşə hazırlığının, peşə qabiliyyətinin olmamasıdır. Respublika Məşğulluq Xidməti orqanları tərəfindən əmək bazarının real tələbləri nəzərə alınaraq qısa müddətli, çevik tədris proqramları əsasında işaxtaran və işsiz əhalinin peşə hazırlığına, yenidən hazırlığa və ixtisasının artırılmasına cəlb edilməsi və təhsilini başa vurduqdan sonra onların münasib işlə təmin olunması həyata keçirilir. Peşə hazırlığı kursları, bir qayda olaraq, Təhsil Nazirliyinin, tədris bazası olan müəssisə və təşkilatların, eləcə də Məşğulluq Mərkəzlərinin bazasında təşkil edilir. Peşə kurslarının təşkilində müdavimlərin seçilməsi, qruplaşdırılması da mühüm əhəmiyyət kəsb edir. Belə ki, işaxtaranların yeni peşələrə yiyələnməsi üçün onların əvvəlki peşə, ixtisas və iş təcrübəsi, peşə meyilləri, bacarıq və vərdişləri, eləcə də digər sosial-psixoloji faktorlar nəzərə alınmalıdır. Məşğulluq Mərkəzinin mütəxəssisi müdavimləri qruplaşdırarkən onların qarşılıqlı münasibətləri ilə yanaşı, tədris müəssisəsinə ərazi baxımından yaxınlığı və s. bu kimi fərdi xüsusiyyətlər də nəzərə alınmalıdır. Hazırda Məşğulluq Xidməti orqanlarında ənənəvi proqramlarla 55 müxtəlif peşə və ixtisas üzrə hazırlıq kursları təşkil edilir.

Aztəminatlılıq, işsizlik bəzən insanlarda müxtəlif devient davranışların formalaşmasına gətirib çıxardır. "Deviant" davranış dedikdə insanın davranışlarının onların yaşadığı cəmiyyətdə qəbul edilmiş norma və dəyərlərdən kənara çıxmalar nəzərdə tutulur. Gənc asketləri, inqilabçıları, gedonistləri, psixi xəstələri, müqəddəsləşdirilmiş şəxsləri, dahiləri və b. deviant davranışların subyekti kimi qəbul edirlər. Deviant davranışlar addiktiv və delikvient kimi növlərə ayrılır. Bu davranışlara alkoqolizm, narkomaniya, terrorizm, fahişəlik, cinayətkarlıq, intihar, korrupsiya, həmçinin oğurluq və qarət və s. aiddir.

Emil Dyurkheym “Özünəqəsd” adlı əsəri ilə müasir deviantologiya elminin əsasını qoymuş alimlərdəndir.

Deviantlığın əsas mənbəyi sosial sistemdir. Sosial sistem yeniləndikcə, köhnə sistem yenisi ilə əvəz olunduqca yaranan transformasiyalar fərdlərin psixikasına, şüuruna təsir edir. Müasir Azərbaycan cəmiyyətində narkomaniyanın, intihar, oğurluq, korrupsiya və qarət hallarının, həmçinin bu tipli qəbul edilməmiş hərəkətlərin artmasının səbəblərini məhz bu amillərdə axtarmalıyıq.

Alimlər deviantlığı müxtəlif aspektlərdə izah etmişlər. Ziqmund Freyd qeyd edirdi ki, cinayətin əsasında onu edənin zəif “eqo”su durur. V.V.Korolyov isə yazırdı ki, “yeniyetmə və gənclərin törətdiklərinin bir hissəsi baş beyin pozğunluqlarından əziyyət çəkən, bir hissəsi isə müxtəlif xəstəliklərin daşıyıcılarıdırlar. Robert Merton qeyd edirdi ki, deviant hərəkətlər bir növ şəxsin bloklaşdırılan hərəkətləridir. Deviant hərəkətlərə gənclər arasında daha çox rast gəlinir.

2016-cı ildə Azərbaycanda 327 intihar hadisəsi qeydə alınmışdır. Həmçinin 470 nəfərin isə intiharı tamamalanmamış yəni müxtəlif səbəblərdən baş tutmamışdır. Nəzərə alsaq ki, 100 min nəfərə 7 intihar hadisəsi düşür,belə olan halda Azərbaycan intiharların sayına görə digər dövlətlərdən geridir. Statistik göstəricilərə əsasən keçmiş illərlə müqayisədə bu il intihar edənlərin sayı azalmışdır. İntihara səbəb bioloji, psixolojigenetik faktorlarla yanaşı, həm də sosial faktorlardır. Bir qrup insanlar düşdüyü ağır maddi durumdan, banklardan əldə etdiyi kreditləri geri ödəyə bilmədiyindən gərgin psixoloji gərginlik keçirir və intihara cəhd edirlər.

2017-ci ilin I yarısında 6644 cinayət hadisəsi qeydə alınmışdır.Lakin qeyd etmək lazımdır ki, qəsdən adam öldürmə cinayətlərinin sayı artmamışdır.

2016-cı ildə Azərbaycanda 13 114 boşanma halı baş verib. Boşanmaların səbəblərinə diqqət yetirdikdə məişət zorakılığı üstünlük təşkil edir. Övladın olmaması, narkotikə bağımlılıq, aiələyə xəyanət, maddi vəziyyətin yetərli olmaması da boşanmaların səbəblərindəndir.

Azərbaycanda aparılan məşğulluq siyasəti işsizliyin aradan qaldırılmasına təminat verməklə yeni iş yerlərinin açılmasına, peşə hazırlığının həyata keçirilməsinə istiqamətlənmiş və ugurla həyata keçirilməkdədir.

**Açar sözlər**: sosial, aztəminatlılıq, məşğulluq, qanun.

## İstifadə olunmuş ədəbiyyat

1. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması, davamlı inkişafa dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 15 sentyabr 2008-ci il tarixli 3043 nömrəli Sərəncamı // “Azərbaycan” qəzeti, 16 sentyabr 2008-ci il.
2. Abdullayeva R. Sosial sferanın iqtisadiyyatı. Bakı : “Meqa-H” nəşriyyatı, 2009.
3. Ailə problemləri: sosial-demoqrafik aspektlər. Elmi-praktik konfransın materialları. Bakı, 2004.
4. Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında» 2003-cü il 24 noyabr tarixli 4 saylı Fərmanı. Bakı, 2003.
5. Toğrul Q. “Özünədəstək”. Birdəfəlik ünvanlı dövlət sosial yardımı Proqramının səmərəliliyinin qiymətləndirilməsi.Bakı,2013, İqtisadi Tədqiqatlar Mərkəzi.
6. http://www.msp.gov.ua/en/

**Айнур БАГИРЛЫ**

## ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ПО ОБЕСПЕЧЕНИЮ ЗАНЯТОСТИ МАЛООБЕСПЕЧЕННЫХ СЕМЕЙ

**Резюме**

Одним из основных аспектов социально-экономической политики, проводимой в последние годы в Азербайджанской Республике, является развитие рынка труда и надлежащее использование рабочей силы.Благодаря проведенным реформам, в нашей стране обеспечено динамичное экономическое развитие. Экономическое развитие регионов, повышение благосостояния и уровня жизни населения и особенно провоеденные в направлении ненефтяного сектора работы спосовствами обеспечению занятости населения и созданию новых рабочих мест.

В нашей стране с целью содействия семьям с низким доходам под различными названиями осуществлено множество проектов, направленных на обеспечение членов этих семей работой.

**Ключевые слова**: социальный, малообеспеченность, занятость, закон.

**Aynur BAGİRLİ**

## STATE POLİTİCS ON PROVİ DİNG EMPLOYMENT OF THE FAMİLİES OF MODUATE MEANS

**Summary**

In recent years one of the main aspects of the socio-economic policy carried out in the Republic of Azerbaijan is the development of labor market and the proper use of workforce. As a result of the implemented reforms dynamic economic development has been provided in our country.Providing economic development of the regions, raising welfare and living standards of population, especially the works done towards non-oil sector led to the provision of the employment of population and the creation of new jobs.A large number of projects are being implemented in our country in order to contribute tu low-income families. The aim of the projects under various headings is to involve family members to work in order to eliminate low-income.

**Keywords**:social, low-income, employment, law

**UOT 316**

**Musa BƏRATİ**
*dissertant,*
*AMEA Fəlsəfə İnstitutu*

# İRANDA ŞƏHƏRSALMANIN SOSİAL PROBLEMLƏRİ*

XX əsrin 80-ci illərində İran iqtisadiyyatı müharibə şəraitində olan bir ölkənin iqtisadiyyatı səviyyəsində idi. İstehsalın aşağı və keyfiyyətsiz olması, tələb və təklif arasında uyğunsuzluq, nəğd pul problemi, böhran, yalançı məşğulluq, investisiya qoyuluşu zamanı risk, həyatı davam etdirmək qorxusu və ən əsası - əhalinin sürətli artımı həmin illərdə (7 il ərzində əhalinin sayı 20 mln artmışdır) müəyyən sosial problemlər yaradırdı. Belə bir sosial-iqtisadi şəraitdə bərpa və yenidənqurma işləri çox ləng gedir, müharibə nəticəsində mühacirət etmiş adamlar geri qayıtmaq istəmirdilər. Qeyd etmək lazımdır ki, inqilabdan əvvəl dövlətin yürütdüyü yanlış siyasət şəhərətrafı məskunlaşmaya rəvac verdiyinə görə, inqilabdan sonra da bu problemin qarşısı alınmaq əvəzinə onun davamlı şəkildə inkişaf etməsi üçün zəmin yaranmışdı.

Qeyd edək ki, sosioloji baxımdan şəhərsalma prosesində qeyri-rəsmi məskunlaşma həmişə mövcud olmuşdur. Belə ki, qeyri-adi evlər, dar küçələr, yaşayış mühiti problemləri, səhiyyə problemi, əhalinin sıxlığı, təbii hadisələr zamanı zərərçəkmə riskinin yüksək olması, torpaq sahələrinin qeyri-qanuni yollarla tutulması qeyri-rəsmi məskunlaşmanın əsas xüsusiyyətləri hesab olunur (1, s.6-17).

Şəhər ətrafındakı kortəbii məskunlaşma məişət üçün müəyyən təhlükələr yaradır, eyni zamanda bir çox sosial problemin meydana çıxmasına və əsas problemlərin unudulmasına gətirib çıxarırdı. Şəhər rəhbərliyinin əhalinin rifahına nəzər yetirməməsi, orada yaşayan uşaqların istirahət və əyləncəsinə fikir verməməsi sosial-məişət problemlərinin artmasına yol açırdı. Belə şəraitdə narkotizm geniş yayılmağa başlayır, əhalinin, xüsusən yeniyetmə və gənclərin təhlükəsizliyi təmin olunmurdu. Həmçinin yollarda asfalt örtüyünün olmaması, sanitariya qaydalarının pozulması, çay sularının üstünün örtülməməsi, məhəlli kanalizasiyaların olmaması, mədəni, rifah, təhsil səviyyəsinin aşağı olması, şəhər rəhbərliyinin su kəməri çəkilməsinə diqqət yetirməməsi, yaşayış məhəllələrinin sıx olması, əhali sıxlığının çox olması ən mühüm problemlərdən, çətinliklərdən hesab olunurdu (2, s.32-39).

Davamlı inkişaf kontekstində inkişafa cəmiyyətin hərtərəfli meyarları ilə baxılmalıdır. İnkişafa bu istiqamətdə baxış 1970-ci ildə "Prinsiplər bəyannaməsi"ndə öz əksini tapmışdır. Bu bəyannamədə mühitlə inkişaf arasında olan əlaqə müzakirə olunmuş, ictimai, iqtisadi dəyişikliklərlə təbii mənbələr, yaşayış mühiti arasında olan əlaqələr araşdırılmış, inkişafın əsasları və dayaqlarına diqqət yetirilmişdir.

Davamlı inkişafda sırf yaşayış mühitinin qorunması nəzərdə tutulmur. Əksinə bu, elə bir yeni iqtisadi inkişaf məfhumudur ki, ədalət və həyat imkanları bütün dünya xalqlarının məhdud təbəqəsi üçün seçilmişdir (3, s.43-67).

İnkişaf haqqında nəzəriyyələr göstərir ki, bugünkü dövrə yaxınlaşdıqca inkişaf haqqında iki əsas dəyişikliyin şahidi oluruq:

a) birtərəfli baxış hərtərəfli baxışa çevrilir;

b) texniki tərəflər azalır və yaşayış mühitinə ictimai, humanist mühit əlavə olunur.

---

* Məqalə fəlsəfə ü.f.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

O cümlədən davamlı inkişafın icrası üçün cəmiyyətdə mövcud olan əsasən sosial problemlər heç olmasa minimum şəkildə həll olunmalıdır. Tədqiqatçılar bu sosial problemləri aşağıdakı kimi formulə etmişlər:

– yoxsulluğun azaldılması;
– əhali artımının məhdudlaşdırılması;
– yaşayışın məntiqi paylanması;
– sağlamlıq, təhsil, təlim görmüş xalq;
– təmərküzləşmənin aradan qaldırılması;
– 101 azad ticarət sisteminin bərqərar olunması;
– şəhərətrafı məskunlaşmanın nəticələri;
– şəhərətrafı məskunlaşmanın nəticələrinin əhəmiyyəti və statistik məlumatlar (4, s.47-49).

Yoxsulluq mədəniyyəti və ya mədəni yoxsulluq şəhərətrafı məskunlaşmanın həyat tərzinin əsil simasıdır. Cavan əhali, çoxluq, sıxlıq, yoxsulluq, məşğulluq problemi, savadsızlıq, icbari təhsilin olmaması, dava-dalaş, kin-küdurət, istirahət vasitələrinin azlığı, səhiyyənin zəifliyi, narkomanlıq, qeyri-qanuni münasibətlər, kənarda qalmaq, pərişanlıq şəhər ətrafında yaşayanları qanunsuz yollara sürükləyir və şəhərətrafı yerləri bu istiqamətlə tam fəallaşdırır. Şəhər ətrafında məskunlaşanlar iki mədəni sistemlə - kənddən mühacirət etməmişdən əvvəl və şəhərə mühacirət edəndən sonrakı dövr ilə bağlıdırlar (5, s.122-134).

Tədqiqatçıların hamısı bu fikirdədirlər ki, yoxsulluğun davam etməsi və yoxsul fəlakəti əks-təsirsiz olmur və cinayət xarakterli narazılıqları artırır. Məsələn, bu deyilənlərə misal olaraq 1992-1993-cü illərdə Hindistanın Bombey şəhərində yoxsulların məhəlləsindəki iğtişaşlar zamanı minlərlə adam öz həyatını itirdi. Los-Ancelesdə 1992-ci il iğtişaşı da bu nümunələrdən biridir. Çoxsaylı problemlərlə üzləşən ən mühüm əhali təbəqəsi əsasən gənclərdir. Onlar elm öyrənmək, təhsil almaq, hər hansı peşə öyrənmək, hər hansı bir məharət əldə etmək istəyirlər. Bunlara nail olmadıqda gənclər təhsili tərk edir, yarı işsiz olur, mənəviyyatı pozulur, öz daxmalarından qaçır və dələduzluq edirlər (6, s.56-73).

Orta təbəqənin yüksək təbəqəyə doğru diskriminasiyasının, ədalətsizliyin, cah-cəlallıq manevrlərinin və istehlak mədəniyyətinin artması sistemə qarşı etimadsızlığın artmasına səbəb olur, fəsadlar çoxalır və bunlar getdikcə inkişaf edir.

Şəhərətrafı yaşayış məntəqələrində bu cür sosial problemlərlə bağlı olan iğtişaşlar çoxaldıqca şəhər bələdiyyəsi qeyri-qanuni tikintiləri söküb dağıdır. Bəlkə də üçüncü dünya ölkələri üçün ən əsas sosial problem yaşayış məskəni problemidir. Qeyd edək ki, şəhər ətrafında məskunlaşanların evinin dağıdılması şəhərsalma inkişafı baxımından müsibət xarakterlidir.

Bunları nəzərə alaraq demək olar ki, şəhərətrafı məskunlaşma ictimai təhlükəsizliyə təsir edən amillərdən biridir. Özünəməxsus xüsusiyyətlərinin mahiyyətinə görə şəhərətrafı məskunlaşma nizamsızlığın artmasına səbəb olur və ictimai təhlükəsizliyin pozulmasına gətirib çıxarır. Demək olar ki, təhlükəsizliklə şəhərətrafı məskunlaşma arasında qarşılıqlı əlaqə vardır. Bu mənada şəhərətrafı məskunlaşma yerlərində yaşayan əhalinin sayı artdıqca ictimai təhlükəsizliyə qarşı təsir artır. Belə ki, şəhər ətrafında məskunlaşmaların sayı artdıqca ictimai təhlükəsizlik də artır.

İranda XX əsrin 70-ci illərində şəhər əhalisinin tərkibi dəyişməyə başladı. Hal-hazırda dünyada şəhər əhalisinin sayı dünya əhalisinin yarıdan çoxunu təşkil edir.

Qərb ölkələrində sənayenin inkişaf etməsi ilə bu ölkələrdə şəhər əhalisinin sayı xeyli dərəcədə artmışdır. Amma inkişaf etməkdə olan ölkələrdə kənd əhalisinin şəhərlərə miqrasiyası bir problem hesab olunur.

2006-cı il əhalinin və yaşayış yerlərinin ümumi siyahıya alınması göstərir ki, İranda şəhər əhalisinin sayı artmaqdadır və ölkə əhalisinin 2/3 şəhərlərdə yaşayır. Sonrakı illər ərzində də bu prosesin artacağı gözlənilir. Statistik məlumatlar göstərir ki, İranda şəhər əhalisinin əksəriyyəti məhdud çərçivədə böyük şəhərlərdə mərkəzləşmişdir. Əgər ictimai, iqtisadi və əhalinin inkişaf göstəricisi əsas göstəricilərdən biri kimi nəzərə alınsa, şəhər əhalisinin sürətli artımı və onların qeyri-mötədil olaraq məskunlaşması kortəbii olacaq, şəhərlərdə çoxsaylı problemlərə səbəb olacaq və kəndlərdə də ictimai iqtisadi sahələrdə müxtəlif çətinliklər yaradacaqdır (7, s.57-73).

Belə bir proses ölkənin ictimai-iqtisadi inkişafı ilə həmahəng deyil. Dünya səviyyəsində 2008-ci ildə ilk dəfə olaraq şəhərə miqrasiya başlandı. Həqiqətən də dünya əhalisinin 3,3 mlrd nəfəri şəhərlərdə yaşayır. Buna əsasən BMT 2008-ci ili "Şəhər məskunlaşması" ili elan etmişdir. Halbuki İranda bu məsələ 1980-ci ilədək (1359-cu ildən) başlanmışdır. Başqa sözlə desək, keçən 50 il ərzində şəhərdə və kənddə bu proses ortaq meyar xarakteri almışdır. Bax: Cədvəl 1.

**Cədvəl 1. Son yarım əsrdə İranda şəhərdə məskunlaşmanın vəziyyəti**

| Şərh | Ostanların sayı | Şəhərlərin sayı | Hər bir ostanın şəhərlərinin sayı | Şəhərdə məskunlaşmanın nisbəti | 1mln-dan artıq əhalisi olan şəhərlərin sayı |
|---|---|---|---|---|---|
| 1335 (1956) | 13 | 199 | 15.3 | 31.4 | Tehran (1şəhər) |
| 1345 (1966) | 21 | 272 | 13 | 38 | Tehran (1şəhər) |
| 1355 (1976) | 24 | 38.6 | 207 | 54.3 | Tehran, Məşhəd, Təbriz, İsfahan (4şəhər) |
| 1365 (1986) | 26 | 612 | 23.4 | 61.3 | Tehran, Məşhəd, Təbriz,İsfahan Şiraz (5şəhər) |
| 1385 (2006) | 30 | 1012 | 338 | 68.5 | Tehran, Məşhəd, Təbriz,İsfahan Şiraz,Kərəc (6şəhər) |

İranda urbanizasiyanın vəziyyətini şərh etmək üçün aşağıdakı faktlara diqqət yetirmək lazımdır. Əhalinin ümumi siyahıya alınmasının araşdırılması göstərir ki, 1956-2006-cı illər ərzində İranda şəhərdə məskunlaşma prosesi yüksələn xətlə inkişaf etmişdir. Keçən yarım əsr ərzində şəhər əhalisi 8,1 dəfə artmışdır. Halbuki həmin müddət ərzində kənd əhalisi də 1,7 dəfə artmışdır. Bu böyük şəhərlərdə kapital yığımının təmərküzləşməsi kənddə münasib məşğulluğun olmamasıdır. Ona görə də bunun nəticəsində kəndlilər şəhərlərə miqrasiya edirlər. Şəhər ətrafında məskunlaşmalar isə şəhərətrafı kəndlərin şəhərlər tərəfindən assimilyasiya olunmasına səbəb olur. Belə nəzərə çarpır ki, İranda şəhərdə məskunlaşmanın artması davam etmiş və 2011-ci ilin sonunda bu nisbət 75% olmuşdur (8, s.67-77).

Tədqiqatlar göstərir ki, 1996-cı ilin sonunda ölkədə şəhərlərin sayı 612-dən 2006-cı ildə 1016-ya çatmışdır. 2006-cı ildə İranda əhalisi 1 mln.-dan artıq olan şəhərlər Tehran, Məşhəd, İsfəhan, Təbriz, Kərəc və Şiraz şəhərləri idi. Əhalinin 15,8 mln. nəfəri və ya ölkənin əhalisinin 32,8%-i bu şəhərlərdə yaşamışlar. Bu 6 şəhərin əhalisi 1996-cı ildə 13 mln. nəfərdən çox olmuşdur. Bu rəqəmin 35,6% əhalisi şəhərlərdə yaşayırdı. Bax: Cədvəl 2.

**Cədvəl 2.1956-2006-cı illərdə İranın böyük şəhərlərinin əhalisi**

| Sıra | Şəhər | 1956 | 1966 | 1976 | 1986 | 1996 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| 1 | Tehran | 1560934 | 2719730 | 4530223 | 6042583 | 6758845 | 7803883 |
| 2 | Məşhəd | 241989 | 409616 | 667770 | 1463508 | 1887405 | 2427316 |
| 3 | İsfəhan | 254768 | 424045 | 661510 | 986753 | 1366072 | 1602110 |
| 4 | Təbriz | 289996 | 403413 | 597974 | 971482 | 1191043 | 1398060 |
| 5 | Kərəc | 13526 | 44243 | 137926 | 275100 | 940968 | 1386030 |
| 6 | Şiraz | 170659 | 269869 | 425813 | 848289 | 1053035 | 1227331 |

1956-2006-cı illərdə ölkənin 6 böyük şəhəri və bu şəhərlərin əhalisinin ümumi əhalinin sayına olan nisbəti göstərir ki, şəhərlərin sahəsi ilə əhalinin təmərküzləşməsi arasında uyğunluq yoxdur. Belə ki, bu altı şəhərdə ümumi şəhər əhalisinin faiz nisbəti 1956-cı ildə 42,2%, 1966-cı ildə 43,6% , 1976-cı ildə 44,3%, 1986-cı ildə, 1996-2006-cı illərdə müvafiq olaraq 39,4, 35,6 və 32,8% olmuşdur**(Cədvəl 1 və 2).**

**Cədvəl 3.1956-2006-cı illərdə ölkənin şəhərlərin sayının və əhalisinin dəyişməsi**

| İllər | Əhali | Hər dövrdə artım | | Artım göstəricisi 100, 1956 | İlə nisbətən dəyişiklik %-i | İlə nisbətən dəyişiklik faizi | Şəhərlərin sayının artımı |
|---|---|---|---|---|---|---|---|
| | | mütləq | nisbi | | | | |
| 1956 | 6002621 | - | - | 100% | - | - | - |
| 1966 | 9795810 | 2793189 | 63,2 | 163,3 | 63,2 | 272 | 72 |
| 1977 | 15854680 | 6058870 | 61,8 | 235,1 | 125,1 | 272 | 101 |
| 1986 | 36844561 | 10989881 | 69,3 | 393,3 | 194,4 | 39,6 | 123 |
| 1991 | 31836598 | 4992037 | 18,6 | 313 | 313 | 512 | 16 |
| 1996 | 36817789 | 4981191 | 15,6 | 338,6 | 228,6 | 612 | 100 |
| 2006 | 48259963 | 11432175 | 31,0 | 359,6 | 259,6 | 1012 | 400 |

3-cü cədvəldə göründüyü kimi siyahıyaalma zamanı nöqsanların olmasına baxmayaraq bu illər ərzində əhalinin artımı eyni dərəcədə olmamışdır. Bu illər ərzində əhalinin orta illik artımı 5,4%, 1976-1986 cı illərdə minimum artımı isə 2,7% (1996-2006-cı illərdə) olmuşdur.

Kəndlərin həcmində baş verən dəyişikliklər kənd əhalisinin sayı və kəndlərin say cədvəlində araşdırılmış, təsnif olunmuş və xülasəsi verilmişdir. Bu dəyişiklikləri sxemdə də əks etdirmək olar. Yuxarıdakı cədvəllərə uyğun olaraq əhalisi 1000 nəfərdən az olan kəndlər 1966-cı ildə kənd əhalisinin 6,73%-ni, 1976-cı ildə 1,95%-ni, 1986-cı ildə 6,91%-ni, təşkil etmişdir. 1966-cı ildə əhalisi 250-999 olan kəndlər kənd əhalisinin 4,26%, 1976-cı ildə 1,28%, 1966-cı ildə 5,45%-ə çatmışdır. Buna görə də tədricən balans dövlət kəndlərinin xeyrinə dəyişmiş və kəndlərə rifah imkanlarının verilməsini asanlaşdırmışdır. Müxtəlif dövrlərdə kəndlərin sabit qalmasına da göz yummaq olmaz. Hər onillik ərzində ölkədə çoxlu kəndlər tərk edilmiş, nəticədə yeni kəndlər və kiçik şəhərlər yaranmışdır. Xüsusilə də dəyişikliyin kulminasiya nöqtəsini 1976/86-cı illər təşkil edir. Belə ki, müharibənin başlanması ilə xeyli kənd boşaldıldı və onun müqabilində böyük şəhərlər, şəhərciklər, böyük kəndlər və kiçik kəndlər yarandı (7, s.36-39).

Ölkədə əhalinin qeyri-bərabər paylanması müxtəlif səbəblərdən - iqlim, coğrafi şəraitdən, iqtisadi-siyasi təmərküzləşmədən, o cümlədən qeyri-münasib planlaşdırmadan yaranmışdır. Belə ki, bu cür şərait bəzi şəhərlərdə əhalinin həddən artıq təmərküzləşməsinə səbəb olur. 1971, 1986 və 1991-ci illərdə Tehran əhalisinin sayı əhalisi 50 min nəfərdən çox olan kiçik şəhərlərin ümumi sayından çox olmuşdur. 2006-cı ildə bu şəhərin əhalisinin sayı kiçik

şəhərlərin əhalisinin ümumi sayından az olsa da, Tehran şəhərinin əhalisinin ümumi sayı əhalinin 16,17%-ni təşkil etmişdir (7, s.15-18).

İnkişaf etməkdə olan bu cür ölkələrdə kənd təsərrüfatı iqtisadiyyatının sənayedən üstün olması səbəbindən kənd təsərrüfatı sahəsində çalışan işçi qüvvəsinə çox ehtiyac vardır və bu cür ölkələrdə doğum həmişə yüksək olmuşdur. Amma ölüm halları qarşısında həmçinin müharibə, milli münaqişələr, yoluxucu xəstəliklər, tez qocalma yüksək səviyyədə olmuş və bu ölkələrdə təbii balans pozulmuşdur. Amma son iki yüzillikdə kənd təsərrüfatı iqtisadiyyatının məhv olması və asılı iqtisadiyyatın onun yerini tutması (xarici investisiya qoyuluşu ilə) dünya ticarəti, ona uyğun olaraq yeni şəhər məskunlaşması, ümumi səhiyyənin inkişafı, uşaq ölümünün azalması, qocalıq yaş həddinin azalması və s. əhalinin təbii inkişafı mötədilliyini pozmuş və onları demoqrafik partlayışla üz-üzə qoymuşdur. (8, s.190).

Bu şəhərlər ətraf mühitin çirklənməsi, yaşayış mühitinin pisləşməsi qəbilindən olan çoxsaylı ekoloji problemlərdən əlavə nəqliyyat problemləri, avtomobil tıxacları ilə yanaşı cinayətkarlıq ilə də üzləşmişdir. Həmçinin bu şəhərlərdə şəhərətrafı məskunlaşma, gecəqondular, dəmir vərəqlərdən tikilmiş evlər bu şəhərlərin əsas sosial problemlərindən olmuşdur.

Bu şəhərlərin ətrafında yerləşən gecəqonduların əhalisinin sayı bir milyona çatır. Son onilliklər ərzində demoqrafik partlayışlardan yaranan sosial problemlərin meydana çıxması, bəzi milli rəhbərlərin fikrincə, bir növ şəhər məskunlaşmasına zidd nəticələr yaratmışdır. Şübhəsiz, əhalinin paytaxtda qeyri-bərabər sıxlığı inkişaf etməkdə olan ölkələrdə qarşıda duran ən böyük sosial problemlərdən biridir (9, s.11-15).

Şəhərin planlaşdırılmasında miqrasiyanın vəziyyətinin araşdırılması elə bir əhəmiyyətə malikdir ki, ona diqqət yetirmədən və şəhərin gələcək vəziyyətini əvvəlcədən nəzərə almadan həqiqətə yaxınlaşmaq olmaz. Şəhərlərin gələcək əhalisini nəzərə almaq üçün iki amildən - əhalinin təbii və qeyri-təbii inkişafından istifadə olunur. Miqrasiya şəhər əhalisinin qeyri-təbii artımının əsas amilidir. Əhali miqrasiyasının tarixinin qədimliyi müxtəlif formalarda Yer kürəsində insanın həyatı qədər qədimdir. Xalqların (ari) öz əsil vətənindən Hindistana və İrana, Avropaya doğru hərəkəti ən böyük miqrasiya; bir kəndli ailəsinin şəhərə və ya hər hansı bir başqa məkana köçməsi isə kiçik miqrasiya adlanır. Buna görə də kənd-şəhər məskənlərində əhalinin sayının dəyişməsi bütün dünyada və İranda (yerli, regional və milli səviyyədə) əhalinin mühacirətindən yaranır (10, s.56-58).

2006-cı ildə əhalinin ümumi siyahıya alınmasına əsasən şəhər miqrasiyasında cəmi 3068055 nəfər daxili miqrasiya etmiş, 10 il əvvəl isə şəhərlərdən kəndlərə miqrasiya edənlər 3,65%, yəni 2004013 nəfər olmuşdur. Yalnız kənd yerlərində miqrasiya edənlərin 7,34%-i, yəni 1064012 nəfəri bir kənddən başqa bir kəndə miqrasiya etmişlər.

Şəhərətrafı rayonların xüsusiyyətləri aşağıdakılardır:

1) şəhərin arzuolunmaz siması; 2) səhiyyənin aşağı səviyyədə olması, psixoloji, fiziki sağlamlığın qənaətbəxş olmaması; 3) münasib məşğuliyyətin və kifayət dərəcədə gəlirin olmaması; 4) bu rayonlara məxsus mikro mədəniyyətin olması; 5) əhalinin sıxlığı; 6) təhsil, rifah imkanlarının az olması, savad və təhsilin aşağı səviyyədə olması, məktəblərin olmaması; 7) yoxsulluğun yayılması; 8) narkotik maddələrin və narkotizmin yayılması;9) ictimai pozğunluğun, qeyri-qanuni davranışın mənbəyi və mərkəzi halına gəlməsi (11, s.57-59).

Ümumiyyətlə, şəhərətrafı yerlərdə yaşayan əhali üçün 4 əsas xüsusiyyət qeyd olunmuşdur:

1. Təhlükəsizlik.
2. Yaşayış məskənlərində yararsız sosial şəraitin olması.
3. İçməli su və qida məhsullarına olan ehtiyac.
4. Yaşayış məskənlərində həddən artıq əhali sıxlığı (habitaf).

İran İslam Respublikasının Konstitusiyasının birinci bəndində qeyd olunmuşdur ki, İranın hər bir vətəndaşının ehtiyacına uyğun olaraq münasib yaşayış məskəninə malik olmaq hüququ vardır. Həmçinin həmin bəndin 3-cü maddəsində qeyd olunur ki, İran İslam Respublikası hökumətinin əsas vəzifələrindən biri diskriminasiyanı aradan qaldırmaq,həmçinin ölkənin rəsmi ictimai-iqtisadi inkişaf planının məlumatlarına diqqət yetirməkdir. Amma sürətlə irəliləyən cəmiyyətlərlə müqayisədə arada olan fasiləni azaltmağa nə qədər səy göstərilsə də, çox ziddiyyətli bir vəziyyətlə rastlaşırıq. Bu ziddiyyət özünü şəhərlərin simasında aydın şəkildə göstərir.

İran XX əsrin sonlarında şəhər əhalisinin ləng məskunlaşması ilə üzləşmişdi. XX əsrin 60-cı illərində İranın şəhər əhalisi ölkə əhalisinin 53%-ni təşkil edirdi. Aqrar islahatların aparılması, neftdən əldə edilən gəlirin artması ilə şəhərlər sürətlə inkişaf etməyə başladı. Bu zaman Tehran şəhəri xüsusi bir mövqe qazandı. Şəhərlərin inkişafı, kənd əhalisinin mühacirəti, kiçik şəhərlərin inkişafı sürətlə davam etdi. 1978-ci ildə ölkədə şəhər əhalisi ümumi əhalinin 64%-ni təşkil edirdi. Hal-hazırda da tərəzinin gözü şəhər əhalisinin hesabına ağırlıq edir (7, s.23-27).

İranda şəhər ətrafında məskunlaşma XX əsrin 60-cı illərindən başlamışdır. Amma onun inkişafı ləng olmuşdur. Kəndlilərin çoxu şəhərin hüdudlarında ucuz torpaq sahələri almışdılar. Amma bu proses belə davam edə bilməzdi. Şəhərətrafı məskunlaşma əraziləri günbəgün şişməkdədir. 1976-cı ildə Tehranın daxilindəki gecəqondular minlərlə əhalini öz daxilində yerləşdirmişdir. Tehran şəhərinin ətrafında qeyri-rəsmi yaşayış məskənləri yaranmışdır və indi bu ərazilərin özü ayrıca bir şəhərə çevrilmişdir. Şəhər ətrafında qeyri-rəsmi yaşayış məskənləri, yəni İslamşəhr əvvəllər Sadişəhr adlanırdı.

Əvvəllər bu cür yerlərdə yaşayan əhalinin sayı 60000 nəfərdən çox deyildi. Yəni Tehran şəhərinin 1/3-ni təşkil edirdi. Amma 1996-cı ildə Tehran şəhərinin əhalisinin 18,6%-i bu cür qeyri-rəsmi yaşayış məskənlərində yaşayırdı. Yəni təqribən 2 mln. nəfər qeyri-rəsmi yaşayış məskənlərində yaşayırdı. Hal- hazırda isə bu rəqəm 3 mln. nəfərə yaxındır. Əgər saat əqrəbi istiqamətində hərəkət etsək, bu yaşayış məskənləri Tehranın şərqindən cənubi-qərbinədək davam edəcəkdir. Bu vəziyyəti İranın bir çox şəhərlərində görmək mümkündür. Xüsusilə İranın Məşhəd, İsfəhan, Təbriz kimi böyük şəhərlərində bu vəziyyətə olduqca çox təsadüf olunur. Bu yaşayış məskənlərində bəzən kənd mühacirləri və şəhər yoxsulları məskən axtarırlar. Bəzən isə İrana gələn xarici vətəndaşlar (məsələn əfqan mühacirləri) yaşayış məskənləri axtarışında olurlar. Yaşayış evlərinin tikintisi tez-tələsik, tikinti üçün lisenziya olmadan, rəsmi şəhərsalma planı olmadan ibtidai tikinti materialları ilə tikilir. Ucuz torpaq sahələrində güclə təmin olunan maliyyə vəsaiti ilə minimum xərclə yaşayış evləri yaradılır. Azgəlirli əhali təbəqəsi güclə özlərini dolandırırlar və əhalinin ən yoxsul təbəqəsi hesab olunurlar. Bu cür yerlər bir müddət şəhərdən çox aralı olsa da, bəziləri zaman keçdikcə bu boşluğu doldururlar. Amma əvvəldən şəhərlə sıx əlaqədə olur və şəhərin siması ilə ziddiyyət yaradırlar. Şəhər ətrafında məskunlaşanlar aşaği həyat səviyyəsində yaşayır, şəhər xidməti çatışmamazlığı və əhalinin həddən artıq sıx olması bu yerlərin əsas xüsusiyyəti hesab olunur. Məsələn, çox çətin inanmaq olar ki, 5-6 nəfər üzvü olan bir ailə 25-30 $m^2$-lik yaşayış evlərində yaşaya bilir. Hətta 25-30 $m^2$ sahənin müəyyən bir hissəsini ev əşyaları tutur. Pakdəşt adlı şəhər ətrafı ərazidə 100 $m^{2-}$lik çoxlu evlər vardır ki, orada ailələr yaşayırdı. Amma bu evlər indi artıq 3-4 mənzilə bölünmüş və təqribən bu ərazilərdə 4000 nəfər əhali yaşayır. Bu cür yerlərdə çox nadir hallarda mütənasib həyat şəraiti ilə şəxsiyyətin inkişafı üçün imkan yaranır. Pakdəşt rayonunun və Qiyamdəştin vəziyyətinin müşahidəsinə əsasən çoxlu şəhər araşdırmaları aparılmış və bir çox amillər üzə çıxmışdır (12, s.113-120). Bu amilləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Bu rayonlarda müxtəlif şəhərlərdən gələn və müxtəlif milli azlıqlardan ibarət miqrantlar məskunlaşmışlar. Bu cəhətdən həmin rayonlarda adət-ənənə rəngarəngliyi və sosial fərqliliklə üzləşirik. Bu isə ictimai həmrəyliyin arzuolunan səviyyədə formalaşmasına mane olur.

2. Nizamsızlıq, şəhər atmosferinin bir-birinə qarışması, kiçik daxmaların tikilməsi (köhnə və ibtidai tikinti materialları ilə), evlərin əldən-ələ keçməsi, başqa sözlə, köhnə tikililər kimi yeni şəhərətrafı yaşayış məskənləri ilə şəhərlər arasındakı fərqi daha da artırır.

3. Münasib şəhər xidmətinin olmaması unutqanlıq hissi yaradır. Bu xidmət nə qədər çox olarsa, şəhərətrafı yerlərdə məskunlaşan adamlarda bu hiss daha çox olur. Onlar öz cəmiyyətlərini, ailələrini və arzularını unudurlar. Bu məhəllələrə gedəndə dəfələrlə eşidilir ki, bizə diqqət yetirmirlər.

4. İstirahət və əyləncə imkanlarının olmaması bu məhəllələrin əsas xüsusiyyətləridir. Bu məhəllələrdə kitabxanalar, kinoteatrlar, istirahət parkları, uşaqlar və yeniyetmələr üçün oyun meydançaları və idman zallarına demək olar ki rast gəlinmir. İnqilab şəhərciyi, Xatunabad, Forunabad məhəllələrində gəzmək kifayət edər ki, burada yuxarıda qeyd olunanların olmamasını görəsən (2, s.190-201).

5. Regionda mədəni fəaliyyət obyektlərinin olmaması, o cümlədən İslami Təbliğat Komitəsinin, Mədəniyyət Nazirliyinin, İslam Maarifi Nazirliyinin, Milli Gənclər Komitəsinin, Uşaqların və Yeniyetmələrin intellektual tərbiyəsi mərkəzi, Mədəniyyət Mərkəzi Qərargahı, məscidlər yaşayış mühitini hamı üçün çətinləşdirir. Şəhərətrafı məskunlaşma yerlərinin inkişaf etməməsində bütün dövlət strukturları təqsirkardırlar.

6. Pozğunluq, özbaşınalıq və cinayətkarlıq bir tufan kimi bu məhəllələrdə yayılmışdır.

Ümumiyyətlə, İranın qərb hissəsində yerləşən kəndlərdə əhalinin sıxlığı şərq hissəsinə nisbətən daha çoxdur. Həmçinin şimaldan cənuba doğru hərəkət etdikcə kəndlərdə əhalinin sayı daha çox azalır. Başqa sözlə, nə qədər regionun abu-havası mötədil olduqca, rütubət, tropik, quru iqlimi və səhralar olan regionlara getdikcə kəndlər arasında məsafələr çoxalır və əhalinin sıxlığı da azalır.

Böyük kəndlər keçən onilliklər ərzində kiçik şəhərlərə çevrilmişdir. Bəzən cəmiyyətdə sosial-iqtisadi şərait də kənd mühacirlərinin şəhər ətrafına cəlb olunmasına şərait yaradır və kiçik bir kənd də qısa müddətdə böyük bir yaşayış mərkəzinə çevrilir. Məsələn, buna misal olaraq, Fars ostanının Nurabad kəndinin adını çəkmək olar. Onun əhalisi 1956-cı ildə 230 nəfərdən 1986-cı ildə 25 min nəfərə çatmışdır (əhalisi 105 dəfə artmışdır). Bundan başqa, Fərcəkin əhalisi 1956-cı ildə 167 nəfərdən 1986-cı ildə 78 min nəfərə çatmışdır (əhalisi 466 dəfə artmışdır). Bu cür hallar Tehran, Məşhəd, İsfəhan və Təbrizdə də müşahidə olunmuşdur.

**Açar sözlər:** şəhərsalma, İran, sosial problemlər, miqrasiya, sosial-iqtisadi problemlər, kənd-şəhər miqrasiyası.

## İstifadə olunmuş ədəbiyyat

1. İranda qeyri-rəsmi məskunlaşmaya təsir edən amillərin təhlili. Sərrafi, 1381-ci il, 2002.

2. Zəncani Habibullah. Əhali inkişaf kitabı. Mühacirət və şəhərətrafı məskunlaşma. 1382 (2003).

3. Найт Р.В. Устойчивое развитие, устойчивые города //Международный журнал социальных наук, 1993, № 2.

4. Cities and Sosiety. Glencoe, 1957.

5. Sassen S. The Global City: New-York, London, Tokio. Second ed. – Princeton N.J.: Princeton Univercity Press, 2001.
6. Həməndani Rəis Dana, Fəriberz. İran iqtisadiyyatının və inkişafının metodlarının tədqiqi. Tehran, Çeşme nəşriyyatı, 1-ci çap, 1389-cu il (2010).
7. İranın Statistika Mərkəzi 1386-cı il (2007).
8. Etimad, İslam şəhərlərinin daxili strukturuna keçici bir baxış. Məqalələr toplusu. 1381-ci il (2002).
9. Adebin Dərkuş. Yeni şəhərlərin yeni şəhərətrafı məskunlaşmalarda nəzərdə tutulmuş metod, yeni şəhər məskunlaşmasında yeni mədəniyyət. 1368 (1989-cu il). Əmək və sosial təminat Komitəsi.
10. Daxili İşlər Nazirliyi, Tikinti-təmir idarəsi, 1380 (2001-ci il).
11. Seyid Cavad Seyrapur. Birinci inkişaf planından indiyədək inkişaf planının tarixçəsinə bir nəzər.

**Муса БЕРАТИ**

## СОЦИАЛЬНЫЕ ПРОБЛЕМЫ ГРАДОСТРОИТЕЛЬСТВА В ИРАНЕ

### Резюме

В статье анализируются социальные проблемы градостроительства в Иране, начиная с 80-х годов XX века по настоящее время. Автор широко освещает социально-бытовые проблемы, связанные с незаконными постройками, а также миграцией сельского населения в эти районы. Также отмечается рост численности городского населения благодаря миграции в город сельского населения.

Исследования показывают, что в последние годы городское население в Иране в целом все больше растет, деревни же пустеют. Этот процесс, в свою очередь, создает немало социально-экономических проблем, что характерно для многих развивающихся стран. Увеличение сельско-городской миграции привело к возникновению многих социальных проблем в градостроительстве, на устранение которых требуется много времени и значительные ресурсы.

**Ключевые слова:** градостроительство, Иран, социальные проблемы, миграция, социально-экономические проблемы, сельско-городская миграция.

**Musa BERATI**

## SOCIAL PROBLEMS OF TOWN-PLANNING IN IRAN

### Summary

The article is devoted to the analysis of social problems of town-planning in Iran in the period since the 80-s of the XX th century up to present after the 1980. The article highlights social and domestic problems in the process of urban development, caused as a result of illegal buildings, as well as migration of rutal population in these areas. There is also an increase in urban population number as a result of migration of rural population to the city. The social and philosophical studies show that in recent years the urban population in Iran has been growing, whill villages are empty. This process in turn creates a lot of socio-economic problems, what is typical for many developing countries. The increase in rural-urban migration has led to the emergence of many social problems in town-planning. Elimination ot these social problems is one of the issues that require a lot of time and considerable resources.

**Keywords:** town-planning, Iran, social problems, migration, socio-economic problems, rural-urban migration.

UOT 316

**Hüseyn ZÜLQƏDR**
*doktorant,*
*AMEA Fəlsəfə İnstitutu*

# İRAN TELEVİZİYASI VƏ İNFORMASİYA ÇATDIRILMASI SAHƏSİNDƏ RƏQABƏT*

**Giriş**

Milli medianın üfüqlərini genişləndirmək və təşkilatın məqsədlərinə müvafiq çevik, fəal struktur yaradılması məqsədi ilə 1985-ci ildə İran İslam Respublikasının televiziyasının təşkilatı strukturu tədqiq edilmiş, yoxlanılmış və orada bir sıra islahat aparılmışdır. Aşağıda əhəmiyyəti qeyd edilən cəhətlərə malik struktur dəyişiklikləri baş vermişdir: İran İslam Respublikasının televiziyası daxilində monolitlik və bütövlük yaranmış; fəaliyyəti keyfiyyətcə yaxşılaşmış; məntiqi gerçəklik önə keçmiş; bədii, sənədli, animasiya istehsalının kəmiyyət və keyfiyyətcə genişlənməsinə diqqət artmış; televiziyanın pərakəndə mənbələri istehsal və texniki mərkəzdə təmərgüzləşmiş; maarifçi verilişlərin istehsalının gücləndirilməsi üçün ziyalı qruplarının yerinə və mövqeyinə xüsusi diqqət göstərilmiş; şəbəkələrin formalaşmasında forma və məzmuna diqqət artmış; bütün televiziya şəbəkələrində telemətnin kəmiyyət və keyfiyyəti yüksəlmiş.

İranın radio və televiziyasının prezidenti 5 il müddətinə müəyyən olunur. Hər bir dövr başa çatdıqdan sonra rəhbər onu uzada bilər (1, s.12).

**İranda televiziyanın inkişaf tarixi**

İranda qloballaşmanın sütunlarından biri kimi tanınan televiziyanın inkişaf tarixininin müxtəlif dövrlərini başlanğıcdan bu günədək dörd mərhələyə ayırmaq olar:

1. Formalaşma və inkişaf dövrü. İnqilabdan əvvəlki dövrlərə aid formalaşma və inkişaf mərhələsi. Bu mərhələ xüsusi televiziya və İran Milli Televiziyası kimi iki müstəvidə araşdırıla bilər (2, s.54). Bu dövr iki hissədə xüsusi televiziyanın açılışı və milli televiziyanın fəaliyyətə başlaması baxımından araşdırıla bilər. "Asiya ölkələrinin əksəriyyəti televiziyasız olduğu zaman və hələ Hindistanda televiziyanın açılışına 7 il qaldığı bir vaxtda İranda ilk televiziya ötürücüsü açıldı. Həmin il dünyanın yalnız 66 ölkəsində televiziya vardı. Bu teleötürücünün gücü yalnız 3 kilovat idi. Tehranın yalnız 180 kilometrliyində onun ağ-qara təsvirinə baxmaq mümkün idi" (3, s.1147). Bu televiziyanın("İran televiziyası" adlanan) sahibi olan Sabit Pasal Tehranda Pepsi-Kola zavodunun sahibi idi. O, şahın Amerikada yaşayan iranlılarla görüşü zamanı onun diqqətini cəlb edə bilmişdi (3, s.1114). "Bu televiziya bir gün ərzində 4 saat efirə çıxırdı". İranda televiziya təsisindən bir il sonra şah ikinci dəfə nikaha girmək qərarına gəldi. 1958-ci ildə şahın evlənmə mərasimi birbaşa yayımlandı və tehranlılar televiziya vasitəsilə tarixdə ilk dəfə sarayın daxilinə nüfuz edə və şahın görünməz sifətinə baxa bildilər" (3, s.1485). Tehranda televiziyanın təsisindən sonra xüsusi televiziyanın ikinci hadisəsinə növbə çatdı. Tədqiqatçının nəzərincə, birinci İran hiper milli televiziyası Abadana çatdı. "Ola bilsin ki, bunun səbəbi həmin illərdə İraqda dövlət çevrilişinin baş verməsi idi. İranın İraqla münasibətləri yaxşı deyildi" (4, s.91). İran sərhəd camaatının baxdığı Bəsrə televiziyasının xəbərlərinin qarşısını almaq üçün orada bir televiziya təsis etmək üçün Tehrandakı xüsusi televiziyaya kömək etdi. Onun verilişlərinin əksəriyyəti Tehran televiziyasından ötürülməli və həmin regionu əhatə etməli idi. Abadan televiziyasının gücü Tehran televiziyasından 5 dəfə artıq idi. O,

---

* Məqalə fəlsəfə ü.e.d., professor Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

Xuzistanın əksər şəhərlərini, İraqın, Küveytin sərhəd şəhərlərini, bütün Fars körfəzini əhatə edə bilirdi. Abadan televiziyası hər gecə 5 saata qədər proqramlarını yayımlayır və verilişləri iki dildə - fars və ərəb dillərində davam edirdi (3, s.1488-1489). Tədqiqatçının fikrincə (Hüseyn Zülqədr), bu ilk hiper milli televiziya və İran dövlətinin regional və beynəlxalq səviyyədə öz məqsədlərini həyata keçirmək üçün televiziyadan ilk siyasi istifadəsi idi. Bu iş qeyri-müstəqim şəkildə icra olunsa da, İran dövlətinin mənafeyinə xidmət edirdi. Üçüncü xüsusi televiziya Amerikanın 1959-cu ildə İranda təsis etdiyi televiziya oldu. Bu televiziyanın proqramları ingilis dilində yayımlanırdı. Videolentlər və filmlər Amerika ordusunun təyyarələri vasitəsilə Tehrana göndərilirdi. Beləliklə, İran rabitə tarixində ilk dəfə dövlətin iştirakı olmadan iki qeyri-dövlət və bir xarici televiziya tərəfindən İranda televiziya əsri formalaşırdı (3, s.1112). Məqsəd qloballaşma prosesinə İranda sürətli start vermək idi. İran Milli Televiziyası 1955-ci ildə, İranda xüsusi televiziya təsis ediləndən 8 il sonra daimi şəkildə öz proqramlarını yayımlamağa başladı. Dövlət televiziyasının ötürücülük qabiliyyəti xüsusi televiziyankından 3 dəfə çox idi. Həmin televiziyanın bəzi proqramlarının adlarını çəkmək yerinə düşər: “Kiçik bazar altında İran serialı”, “Mavi Amerika serialı”, “Pitun polis serialı”, “Pəhləvanlar serialı”, 2500 illiyə həsr olunmuş bayramların müstəqil yayımı və s. (5, s.42). İran televiziyasından ən mühüm istifadə faktlarından biri xalqa xüsusi təsir edən şahənşahlığın 2500 illik bayramı ilə bağlı veriliş oldu. O, üç gün müddətində müstəqil şəkildə bütün təfərrüatları ilə nümayiş olundu. İki il müddətindən də az bir vaxtdan sonra, yəni 1967-ci ildə Urmiyada birinci Şəhristan Televiziya Mərkəzi fəaliyyətə başladı. Bir neçə aydan sonra Bəndər Abbas Televiziya Mərkəzi efirə çıxdı. Bundan sonra televiziya mərkəzləri bir-birlərinin ardınca fəaliyyətə başladılar. Onların arasında Şiraz, Kirmanşah, Təbriz, Zahidan, Xorasan, Kirman, Senenc, İsfahan televiziya mərkəzlərini göstərə bilərik. Milli televiziya İranın digər şəhərlərində də yayılmağa başladı. 1961-ci ildə İranda əhalisi 100 mindən çox olan bütün şəhərlər İran Milli televiziyasının verilişləri ilə əhatə olundu. Bu verilişlərə İranın şəhər əhalisinin 79 faizi, kənd əhalisinin isə 31 faizi baxa bilirdi (3, s.1114). Bütövlükdə o zaman tamaşaçılar dörd kanal seçmək imkanına malik idilər: Xüsusi televiziya, Amerika televiziyası, milli televiziya və tədris televiziyası.

2. Televiziyanın durğunluq dövrü**.** İnqilab və müharibə illərinə aid durğunluq dövrü (3,s.1147). 1960-ci ildə Milli televiziya birbaşa yayımla 2500 illik müharibələri göstərdi və tarix boyu birinci dəfə televiziya ekranları vasitəsilə xalqın şah sarayının daxili ilə tanış ola bilməsi bir çox gizli həqiqətləri faş etdi, tamaşaçıların şaha və saraya qarşı qəzəbinə səbəb oldu. Bundan sonra televiziya proqramları üzərində şiddətli senzura və xəfiyyə nəzarəti başlandı. Radio-televiziyanın müdiri mühəndis Rza Qütbinin istefasından sonra, yəni 1967-ci ildə radio-televiziya əməkdaşlarının əksəriyyəti bir qətnamə qəbul etdilər. Həmin qətnamədə söz azadlığı, nəzarətin aradan qaldırılması, radio-televiziyanın müstəqil və bitərəf olması tələb olunurdu. Əməkdaşlar istefa verib tətilə başladılar. 1967-ci ildə isə Tehran Universitetinin tələbələri ilə hökumət arasında qanlı əlbəyaxa mübarizə baş verdi. Bu barədə xəbər yayıldıqdan sonra şahın fərmanı ilə televiziyada senzura ləğv olundu. Lakin xəbər ictimai rəyə güclü təsir etmiş və xalqın səbr kasasını doldurmuşdu. Həmin günün səhəri din rəhbərləri və teleradio rəhbərliyi televiziyada çıxış edərək istefa verdiklərini bildirmişdi. Bu dövr İranda televiziya üçün ən böhranlı dövr oldu. Yalnız Ayətulla Təlağaninin xahiş və minnətlərindən sonra tətilçilər öz iş yerinə qaytarılmış, hərbiçilər isə heç kəsi həbs etmədən tanklarını götürərək “Cami Cəmi” kanalını tərk etmişdilər. Həmin gün, yəni 1967-ci ildə günortadan sonra saat 7:20-də texniki işçilər televiziya ötürücüsünü işə sala bilmiş və televiziya yenidən öz fəaliyyətini davam etdirmişdi (3, s.1144). Nəhayət, İslam İnqilabının qələbəsindən sonra televiziyadakı böhran iki səbəbə görə davam etdi: 1) Məzmunda məcburi dəyişiklik etmək səbəbindən: O zaman cəmiyyətdə elə dəyər və normalar formalaşmışdı ki, onların yeni cəmiyyətin mahiyyətinə heç bir aidiyyatı yox idi. Bunu televiziyanın arxiv sənədlərindən də görmək

olar. 2) Televiziyanın yeni məhsul istehsalı üçün texniki, maliyyə vəsaitinə və mütəxəssislərə ehtiyacı var idi. Hər üç sahədə çatışmamazlıq yaranmışdı. Müharibə şəraiti ölkənin iqtisadi imkanlarını son dərəcə məhdudlaşdırmış və dövlətin teleradioya vəsait ayırmağa imkanı qalmamışdı. İnqilabdan əvvəlki dövrdə nümayiş olunan xarici seriallar, mədəni-siyasi proqramlar, xəbərlər, hətta uşaq və yeniyetmələr üçün nəzərdə tutulan verilişlər belə şahlıq dövrünün ideolojisni təbliğ edir və Amerika ruhuna söykənirdi. İnqilabdan sonra hazırlanan proqramlar isə müharibə xəbərlərinin cəbhələrdə hakim olan sənədli təsvirləri – şəhadət, rəşadət, fədakarlıq və sair kimi əsas dəyərləri əks etdirməli idi.

3. Televiziyanın yenidən tərəqqi dövrü. Bu mərhələ milli və ostan kanallarının fəaliyyəti, sahə kanallarının yaranması və milli kanalların qüvvətlənməsi dövrlərini əhatə edir. Bu dövr 1990-cı onilliyi və 2000-ci illərin birinci yarısını əhatə edir. Bu dövrdə səs və görüntü aləmində ciddi dəyişikliklər baş verdi. Onlardan bəzilərini qeyd etmək yerinə düşər:

a) ostan kanallarının çoxalması. Əksər ostanlar özlərinin müstəqil kanallarına sahib oldular;

b) Quran, tədris, idman, xəbər və sair kimi sahə mövzuları üzrə kanalların sayı artdı;

c) inqilabdan əvvəlki dövrdən fərqli məzmuna malik və yeni ideologiyaya uyğun olan beynəlxalq filimlərin alınması və mübadiləsi başlandı;

d) televiziyada yayımlanmış serial və filimlərin təhlilinə həsr olunmuş proqramlar artdı;

e) analitik xəbər proqramlarının sayı çoxaldı;

f) qadınlar üçün ailə proqramlarının keyfiyyət səviyyəsi yaxşılaşdı. Bu dövrdə televiziya milli müstəvidə digər dövrlərdən daha artıq qloballaşmanın bariz faktorlarından birinə çevrildi. Çünki televiziya heç vaxt xalqa üçüncü dövrdəki qədər rəngarəng mövzularla bilgi verməmişdi. Bu dövrdə televiziyada daha ciddi dəyişikliklər baş verdi. Sərhədlər daxilində qloballaşmanın faktorları, komponentləri və prosesləri həyata keçməyə başladı. Televiziya iranlıları o vaxta qədər eşitmədikləri və bilmədikləri hadisələrlə, ölkəni və dünyanın müxtəlif yerləri ilə tanış etdi (6, s.91).

4. Müasir dövr. Fövqəlmilli, regional və beynəlxalq kanalların təsis edilməsi və fəaliyyətə başlamasına aid olan müasir mərhələ. Digər millətlərə və dünya ölkələrinə inqilab xəbərlərini, iranlıların baxış və dünyagörüşlərini çatdırmaq məqsədi ilə İran İslam Respublikasının televiziyasının hiper milli və beynəlxalq kanalları işə düşdü və özünü mediyaların sensasiya dövründə bir növ informasiya müharibəsi gedən siyasi və beynəlxalq proqramların üstünlük təşkil etdiyi peyk, beynəlxalq mediyalarla rəqabət meydanına atdı. Tədqiqatçı (Hüseyn Zülqədr) bu dövrü müasir dövr adlandırır. Həqiqət budur ki, mediyanın gücü təyinedici güc olduğu indiki vaxtda o, hətta hərbi və digər güc komponentləri üzərində də öz təsirini buraxa bilir. Buna görə də mediya, xüsusilə də beynəlxalq və peyk televiziyaları ictimai fikrin istiqamətlənməsində mühüm rol oynayır. Bu prosesdə İran İslam Respublikasının siması (televiziyaları) günün aktual məsələləri və xəbərləri, beynəlxalq məsələlərin şərhi ilə bağlı İran İslam Respublikasının baxışlarının Avropaya, Amerikaya, Asiyaya, Okeaniyaya yayılması məqsədi ilə Press TV, Əl-aləm, "Cami-cəm"in ölkə xaricində yayılan 1,2,3-cü şəbəkələri, "Əl-kövsər", "Səhər" kimi beynəlxalq, peyk və regional kanalları fəaliyyət göstərir. Əlbəttə, bundan əlavə İran İslam Respublikasının 8 ölkədaxili və 32 ostan kanalı da vardır. Üstəlik, İranda və dünyanın müxtəlif yerlərində peyk rabitəsi də mövcuddur. "Əl-aləm" və "Əl-kövsər" kanallarının verilişləri ərəbcə, Press TV-nin proqramları ingiliscə, "Səhər" kanalının verilişləri isə 6 dildə - urdu, ingilis, bosniya, azəri türkcəsi, fransız və kürd dillərində yayımlanır.

**Qloballaşma prosesinə İslam Resbublikasının ümumi baxışı**

Qloballaşma ilə bağlı İranın üç əsas baxışı vardır:

a. **Tam imtina** Bu baxışda qloballaşma həm bir proses və həm də bir layihə kimi hər iki ölçüdə tamamilə mənfi və dağıdıcı bir təzahürat hesab olunur və onunla hər cür zəruri qarşılaşma rədd edilir.

b. **Qəbul və tam təslim** Bu baxışda qloballaşma mütləq bir proses kimi qələmə verilir, onun qərb dövlətləri tərəfindən qloballaşdırma üçün məqsədli layihə kimi planlaşdırıldığını və icra edildiyini inkar edirlər. Bu baxışa görə qloballaşma inkaredilməz bir prosesdir, o, ölkəyə modernizasiyanın bir çox müsbət cəhətlərindən bəhrələnməyə fürsət verir. Buna görə də bu baxışın müəllifləri qloballaşma aləminə daxil olmaq üçün səylər göstərir və bu işi vacib hesab edirlər.

**c. Paralel baxış** Bu baxış qloballaşmanı nə mütləq şəkildə inkar, nə də onun qarşısında mütləq şəkildə təslim olmağı qəbul edir. Əksinə, İslam Respublikasının təhlil və tənqidi ilə qarşılaşır, prosesə mülayim yanaşılır. Qloballaşma bir reallıq növü kimi öz üstünlüyünü dörd əsas faktorla təsdiq edir:

1. Əgər qolaballaşmanı elm və texnologiyanın genişlənməsi kimi qəbul etsək, onda ilahi dünyagörüşün elm və texnologiya, nəticədə isə qloballaşma prosesi ilə heç bir ziddiyyət təşkil etmədiyini görəcəyik. Buna görə də əksər halda bu prosesin bol məziyyətlərindən istifadə etmək lazımdır. Lakin mülahizəyə görə hakimiyyət elm və texnologiya üzərindəki indiki qeyri-İlahi dünyagörüşü nəzərə alaraq, təhlükəsizlik baxımından qloballaşma prosesindən sonra da ehtiyatı əldən verməməlidir.

2. Qloballaşma prosesindən qərəzli və məqsədli şəkildə sui-istifadə növü olan qloballaşma projesi və onun reallaşma üsulu inkişaf etməkdə olan ölkələr üçün məcburi və dönməzdir, həmin ölkələr, xüsusilə də İslam dünyası bu layihəyə uyğunlaşmamaq, onu davamlı şəkildə tənqidi etmək, özündə güc taparaq müqavimət göstərmək siyasəti yeridir.

3. Geniş beynəlxalq informasiya şəraitində heç bir ölkə qloballaşma reallığını inkar edə və "bir ada kimi" təcrid vəziyyətdə qala biləcəyini güman edə bilməz. Çünki qloballaşma günbəgün dünyanı fəth etməkdədir. Ölkələr öz həyatını davam etdirmək üçün qloballaşmaya "dözmək" məcburiyyətindədirlər. Baxmayaraq ki, bu dözüm bir çox məsələlərdə paralelliyi qəbul etmir.

4. Qloballaşma üzərindəki hakim dünyagörüş İslam təfəkkürü ilə uyğun olmasa da, mütləq şəkildə qloballaşmanı inkar etmək, yaxud tamamilə aqressiv mövqedə dayanmaq dünyada müsəlmanların gücü və onların yaradıcı rolunu sürətlə azaldar. Bu prosesdə İslam dünyasının fəal mövqe tutmaması onun rəqabət və oyun müstəvisində nailiyyətləri əldən verməsi deməkdir.

**Qloballaşma qarşısında İslam Respublikasını əsas siyasi xətti**

A. Qloballaşma prosesinin hərtərəfli öyrənilməsi sahəsində şüurluluğun və ayıqlığın yüksəlməsi. Təhdidlər (hədələr) qarşısında şüurluluğun yüksəlməsi qloballaşma müqabilində ölkənin müxtəlif proqramları gerçəkləşdirməsində ümumi iştirak üçün lazımi şərait hazırlayır. Əlbəttə, mənimsəmə səviyyəsinin yüksəldilməsi iki müstəvidə - ölkə rəhbərliyi və ümumxalq səviyyəsində həyata keçməlidir.

B. Təhdidlər və fürsətlər müqabilində fəal mövqe tutmaq. Qloballaşma prosesini aqressiv şəkildə qarşılama ölkələrin əksəriyyəti üçün adi hal olsa da, təhdid və fürsətlərə çevik münasibət bildirməyə, təşəbbüsü ələ almağa çalışmaq təhdidləri azaltmaq və fürsətləri genişləndirmək üçün lazımi gücü ikiqat artırır. Bunun üçün təşəbbüskarlıq metodlarını seçməkdən fəal mövqe nümayiş etdirməyə qədər bütün fəaliyyət üsullarına əhəmiyyət verilməlidir.

C. Digər ölkələrin müvafiq təcrübəsindən istifadə. Qloballaşma ilə qarşılaşma zəminində bəzi ölkələrin uzunmüddətli təcrübələrini, yeni beynəlxalq dəyişikliklərlə qarşılaşan ölkələr barədə məlumatları toplayaraq təhlil etmək və nəticə çıxarmaq lazımdır.

D. Əlaqəli və həmahəng iqtisadi, siyasi və mədəni siyasətlərin qəbul edilməsi. Ölkənin müxtəlif regionları, məsul orqanlardan asılı olmayaraq, qloballaşma ilə bağlı iqtisadi, siyasi, mədəni sahələrdə qərar qəbul etməyə və onun icrasına başladıqları zaman adıçəkilən sahələrin bir-biri ilə sıx əlaqələrini nəzərə alaraq, bir tərəfdən siyasi xətt yürütməkdə, digər tərəfdən də proqramlar hazırlamaq və onları reallaşdırmaqda həmahəngliyə nail olmaq məqsədilə, ali və məsul siyasətyürüdücü, proqramlaşdırıcı və icraedici orqanların hamısının mərkəzləşmiş əlaqələndirici və rəhbərlikedici bir departamentdə birləşməsi lazımdır. Bu, fəaliyyətlərin həmahəngliyi, xüsusilə də, layihələrin himayə edilməsi və onlara səmərəli nəzarətin həyata keçirilməsi üçün adətən əhəmiyyətli olur.

E. Beynəlxalq hadisələrlə qarşılaşmada ölkənin qəbul etdiyi qərarların və tədbirlərin əsaslı tədqiqi. Ölkənin bu ikiqat əsas məsələ baxımından metodik və səmərəli qərarlar və proqramlar qəbul etmək üçün əsaslanmağa tədqiqat işləri və məsul elmi-mədəni orqanları olmadıqda, universitet və sahə tədqiqatçılarının ciddi iştirakı ilə hazırlanan və tədqiqi layihələrin icrası ilə bağlı qəbul edilmiş elmi standartlara uyğyn olan bir araşdırmanın təklif kimi irəli sürdüyü ümumi fəaliyyət prinsiplərinin icra olunması mümkündür.

**Peyk şəbəkələri müqabilində milli mediyanın fəaliyyəti**

Rəqib peyk şəbəkələrinin yayımladığı məhsulların müqabilində nəzərəçarpacaq rəqabət keyfiyyətinin yaradılması məqsədilə mediyanın iş proqramına aşağıdakı tədbirlərin daxil edilməsinə ciddi ehtiyac vardır (5, s.72):

- çoxtərkibli tamaşaçıların ehtiyaclarını nəzərə alaraq onlarda qürur hissi yarada bilən rəngarəng daxili seriallların istehsalı və yayımının keyfiyyətinin və kəmiyyətini yüksəldilməsi;
- milli mediya və mədəniyyətin ehtiyaclarına uyğun olan aktual və xarici məzmunlu cəlbedici göstəri proqramlarının təmin edilməsi;
- film və seriallların yayımı üçün ixtisaslaşmış kanalın yaradılmasına başlanması;

Radio və televiziya proqramlarının keyfiyyətinin yüksəlməsi, tamaşaçı və dinləyicilərin cəlb edilməsi daxili şəbəkələrin kəmiyyətcə genişlənməsinə, onlardan düzgün istifadə edilməsinə, bu sahə ilə bağlı bölmənin imkanlarından məqsədli şəkildə faydalanmaya daha çox ehtiyac yaradır. Belə olduqda milli mediyanın rəhbərlik və nəzarəti altında xüsusi bölmənin fəallaşdırılması, ölkənin ictimai dəyərləri, təlimatları, konstitusion qanunları, siyasəti, milli mediyasının prinsipləri çərçivəsində onun fəaliyyəti xarici şəbəkələr üzərində layiqli təsirə malik olacaq.

**Nəticə**

Qeyd edildiyi kimi, İslam İnqilabından sonra 1358-ci ilin azər ayında referendum yolu ilə təsdiqlənən İran İslam Respublikasının Konsititusiyasının müqəddiməsində radio-televiziyanın yeri barədə deyilir: "Kütləvi informasiya vasitələri (radio və televiziya) İslam inqilabının təkamülü məqsədi ilə islam ideallarının yayılmasının xidmətində durmalı və bu zəmində sağlam mübarizə və fərqli düşüncələrdən faydalanmalı, təxribatçı və islama zidd cəhətlərin təbliğindən və yayılmasından ciddi surətdə çəkinməlidir (7, s.112). Şəksiz, indiki dövrdə televiziya yeni bilik və məlumatların, ötürülməsi, fikir mübadiləsi yolu ilə cəmiyyətin tərəqqisində mühüm rol oynayır. Rabitə əsrinin başlanması ilə bəşər cəmiyyəti dəyişikliklər astanasına qədəm qoymuşdur. Bu dəyişikliklərin ən mühüm nəticələrindən biri əqidələrdəki, həyat yolunun və tərzinin dəyişməsidir. İran televiziyası ümumi və xəlqi bir mediya olmaqla həm ictimai, iqtisadi və mədəni dəyişikliklərin təsiri altındadır, həm də bu dəyişiklikləri özündə əks etdirir. Bu mənada onun qarşısında çox əsaslı və həyati bir vəzifə dayanır. Qloballaşma prosesi İran İslam Respublikasının televiziyası üzərində diqqətəlayiq təsirə malikdir , daxili və xarici istiqamətdə 6 mühüm strategiya qəbul etmişdir.

1) rəngarənglik və üstünlük (kanallar, proqramlar, mahiyyətlər);
2) əxlaqi və dini məzmuna söykənən davranışların genişlənməsi;

3) rəhbərliyin tövsiyələri əsasında fəaliyyət göstərən xəbər departamenti;
4) gəlirin artımı;
5) tələbata əsaslanan mediya;
6) təşkilatın yaranması.

**Açar sözlər**: İran televiziyası, qloballaşma, proqram, struktur, texnologiya, peyk şəbəkələri, media, informasiya.

### İstifadə olunmuş ədəbiyyat


1- گزارش عملکرد سال صدا و سیمای جمهوری اسلامی ایران، اداره کل ارزیابی و عملکرد، تهران، 1387. 166 ص

2- صلاح زاده، فرشاد، تلویزیون و نقش آن در جهانی شدن، تهران ، 1388 . 86 ص

3- محسنیان‌راد، ایران در چهار کهکشان ارتباطي ، جلد 3 ، تهران، انتشارات سروش، 1384. 1502 ص

4- روزشمار تاریخ ایران، کتابخانه ملی ایران، تهران، 1379

5- نشریه تماشا، سال سوم، شماره 123، مرداد 1352 . 102 ص

6- روزشمار تاریخ ایران، کتابخانه ملی ایران، تهران، 1379 . 218 ص

7- جعفری، علی. منشور رسانه: اهداف، سیاستها و مسولیتهای رسانه ملی از منظر بنیانگذاری جمهوری اسلامی ایران و مقام معظم رهبری، تهران، سروش، 1388. 157 ص


**Гусейн ЗЮЛГАДР**

## ИРАНСКОЕ ТЕЛЕВИДЕНИЕ И КОНКУРЕНЦИЯ В ОБЛАСТИ ДОСТАВКИ ИНФОРМАЦИИ

### Резюме


В 2006 г. была заново рассмотрена и скорректирована структура организации телевидения Иранской Исламской Республики. Новая структура была построена для устранения политики глобализации и негативного влияния спутниковых сетей.

В данной статье история изменений и усовершенствований Иранского телевидения делится на четыре периода. Это периоды создания и развития, кризиса, нового развития и, наконец, современный период, что связано с построением и введением в строй международных, региональных и глобальных каналов.


**Ключевые слова:** Иранское телевидение, глобализация, программа, структура, технология, спутниковые сети, медиа, информация.

**Huseyn ZULGADR**

# IRANIAN TELEVISION AND COMPETITION IN THE FIELD OF BROADCASTING INFORMATION

**Summary**

In 2006 there was considered anew and corrected a structure of organization of television in the Islamic Iranian Republic. The new structure has been established to avoid globalization policy and the negative effect of satellite networks. In the present article the history of changes and improving Iranian television is divided into four periods. These are the periods of emergence and formation, crisis, new development and, finally, the modern period that is connected with building and introducing the international, regional and global channels.

**Keywords:** Iran‘an television, globalization, programme, structure, technology, satellite networks, media, information.

**UOT 316.33**

**Tural SALIFOV**
*doktorant,*
*Azərbaycan Turizm və Menecment Universiteti*

# ƏHALİNİN MƏŞĞULLUĞUNDA TURİZMİN ROLU*

Kütləvi turizm cəmiyyətin sosial həyatını təkbaşına dəyişdirmək iqtidarında deyildir. Buna şəhərləşmə, sənayeləşmə, əmək miqrasiyası kimi bir çox sosial amillər də paralel şəkildə təsir edirlər. Turizmin inkişafı ilə əlaqədar olaraq bölgələrdə əhali kənardan gələn turistlərin və işçilərin hesabına artır. Turizm sənayesinin inkişaf etdiyi ərazilərdə yerli əhalinin ənənəvi peşə və məşğulatlardan əl çəkib turizm sahəsində çalışmaları kütləvi xarakter aldıqda və turistlərlə əhalinin mədəni bağlılığı gücləndikcə həmin cəmiyyətin sosial-mədəni durumu tədricən dəyişir. Lakin bu proses öz davamlılığını qorumaq iqtidarında olmayanda, əhali yenidən ənənəvi sosial-mədəni durumuna qayıdır. Sosial amillər bir yandan turisti səyahətin müxtəlif növ və formalarına yönləndirir, digər tərəfdən onların inkişafını təmin edir. Bunu müəyyənləşdirmək üçün turizm sosiologiyası çərçivəsində araşdırmaların aparılmasına ehtiyac vardır. Biz sosial amillər çərçivəsində turizmdə boş vaxt, şəhərləşmə, sosial status, peşə, yaş həddi, cinsi, ailə vəziyyəti, təhsil səviyyəsi və digər məsələlərə nəzər yetirəcəyik.

- *Şəhərləşmə amili*:

XX əsrdə dünya əhalisi beş dəfə artmış və onlar arasında turizmdə daha fəal olan inkişaf etmiş ölkələrin şəhər əhalisi üstünlük təşkil etmişdir. Sənayeləşmə ilə paralel şəkildə artan şəhərləşmə prosesi şəhər əhalisinin kənd və digər qeyri-ənənəvi turizm formalarına (macəra, idman, gəzinti turizmi) meylini artırır. Statistikaya görə, əhali artdıqca turizmə meyil artır, azaldıqca azalır. Şəhər əhalisi kənd əhalisinə nisbətən daha çox gəlirə malik olduğu, ünsiyyət qıtlığı, stress aldığı və təbiətdən uzaq qaldığı üçün onların turizmdə iştirakı yüksəkdir (1, s.119).

Şəhər əhalisinin turizmdə daha çox təmsil olunma səbəblərindən biri yadlaşma, özgələşmə, tənhalıq, qapalılıqdır. Çünki şəhər əhalisi adətən ömrünün böyük hissəsini qapalı məkanlarda keçirərək (bina evləri, idarələr, avtobus, avtomobil), səmimi qonşuluq və qohumluq əlaqələrindən məhrum olur. Son dövrlərdə internetin və kompyuter texnologiyasının bütün müəssisələrdə yayılması və bütün işlərin elektron şəkildə həyata keçirilməsi, iş yerlərində kollektiv arasında, hətta ailədə ailə üzvləri arasında münasibətlərdə məhdudiyyətlər yaradır. Müasir informasiya cəmiyyətində insanlar sanki real aləmdən ayrılaraq virtual aləmdə yaşamağa üstünlük verirlər (yaxud adətkar olurlar). Digər tərəfdən də günü-gündən artan zəhərli tullantılar, səs-küy və digər bu kimi amillər fiziki-psixoloji durumu gərginləşdirir. Bu proses getdikcə dərinləşir. Buna görə də, şəhər əhalisi bu durumdan qurtulmağı təmin edən turizm obyektlərinə səyahət etməyə və ya həftəsonu tətilləri şəhər kənarındakı bağ evlərində keçirməyə (yaxud orada yaşamağa) üstünlük verirlər (2, s.13-14). Bununla yanaşı, onlar digər şəhərlərə tarixi-mədəni səyahət edir, elmi konfranslarda, tədbirlərdə, sərgilərdə, idman oyunlarında iştirak edirlər. Bu da təbiidir. Çünki əksər şəhər əhalisi elm, təhsil və mədəni səviyyəsinə görə bu turizm növlərində təmsil olunurlar.

Turizmin yayıldığı ərazilərdə şəhərləşmə prosesi sürətlənir və həmçinin tədricən təbəqələşmə prosesləri özünü göstərir. Çünki turizm nəhəng bir xidmət sahəsi kimi çoxlu iş yerlərinin açılmasına və yerli əhalinin bu işlərə cəlb olunmasına şərait yaradır. Buna görə də

---

* Məqalə fəlsəfə ü.f.d. Rauf Məmmədov tərəfindən çapa məsləhət görülüb.

yerli əhali turizm sahəsində təcrübə əldə edərək ənənəvi sənətindən (bağbançılıq, əkinçilik, maldarlıq) uzaqlaşır və nəticədə, yerli əhalinin şəhərləşmə, təbəqələşmə prosesi başlayır. Əgər bu proses mövsümi xarakter daşıyırsa, onda onun təsiri zəif olacaqdır. Lakin bu turist obyektləri ucqar sivilizasiyadan uzaq bölgələrdə fəaliyyət göstərirsə, o zaman yerli əhalinin bu sahədə işə cəlb olunmasında problemlər yaranır. Buna görə də buradakı işçilərin kənardan gətirilməsi zərurətə çevrilir. Bu isə, bəzən yerli əhali ilə turizm qrupları arasında münaqişəyə səbəb olur.

- *Boş vaxt amili*:

İkinci Dünya müharibəsindən sonra insanlara boş vaxt amili yeni iş həftəsinə başlamaq üçün fiziki və əqli gücün səfərbər edilməsi idisə, 60-70-ci illərdə bu əsasən istehlak və maddi əşyaların toplanması sayılırdısa (əmlak, cəvahirat, ticarət malları, ev əşyaları), 80-ci illərdən sonra isə maddi əşyalar əldə etmək tendensiyası əsasən turizm səfərləri ilə mənəvi zövq almaq tendensiyası ilə dəyişir və boş vaxt amili dəyərləndirilərək iş saatlarından tamamilə fərqli bir həyat tərzinin formalaşmasına, insanın özünüdərkinə, özünü tanımasına şərait yaradır. Bu şüur dəyişikliyi turizmin inkişafında mühüm bir mərhələ oldu və turizmin mədəni əsaslarını təşkil etdi.

Əhalinin artımı və sənaye texnologiyasının inkişafı nəticəsində əldə olunan yüksək məhsuldarlıq, mal və xidmətlərin istehsalı üçün boş vaxt amilini artırmışdır. Bu tendensiya inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə boş vaxt amilini dəyərləndirməyə və ona insanların sosial hüquqları çərçivəsində önəm verməyə səbəb olmuşdur. Dünyada demokratiya, insan hüquqları, gender, sevgi azadlığı, tolerantlıq, dünyapərəstlik, qeyri-ənənəvilik, liberallıq, fərdiyyətçilik amilləri inkişaf etdikcə turizmin inkişaf dinamikası da artan xətt üzrə inkişaf etmiş, həmçinin beynəlxalq turizm irəli getdikcə bu amillər də daha geniş şəkildə yayılmağa başlamışdır. Bu gün dünyada əhalinin artması, şəhərləşmə və sənayeləşmə proseslərinin sürətlənməsi, boş vaxtın və gəlirlərin artması, həmçinin qeyd etdiyimiz digər amillərin genişlənməsi gələcəkdə beynəlxalq turizmin daha da inkişaf edəcəyini proznozlaşdırmağa imkan verir.

Boş vaxt iş günündən sonra olan saatlar, həftə sonu tətili, illik ödənişli məzuniyyətlər və təqaüd dövrünü əhatə edir. Son dövrlərdə gündəlik 8 saatlıq iş günü, həftədə iki günlük tətil, bayram günləri, daha erkən yaşda təqaüd, sağlıq xidmətlərinin keyfiyyətcə yaxşılaşması nəticəsində uzunömürlülüyün artması, sürətli və ucuz nəqliyyat, turizm obyektlərinin orta təbəqənin gəlirlərinə uyğun olması və digər dəyişikliklər dünyada boş vaxtın artmasına və onun dəyərləndirilməsinə şərait yaratmışdır. Bu sahədə həmkarlar ittifaqları böyük səy göstərmiş və əlverişli əmək hüquqlarının təmin olunmasına çalışmışlar. Almaniyada 1950-2004-cü illər arasında iş saatı 2350-dən 1716 saata qədər düşmüşdür. Dünyada son dönəmlərdə boş vaxt amilinin artırılması istiqamətində bəzi işlər görülməkdədir (3, s.34).

- *Yaş amili:*

İnkişaf etmiş ölkələrin əhalisi turizmdə daha çox təmsil olunurlar. Urbanizasiya prosesinin yüksək səviyyədə olduğu Şimali Amerika (77%) və Avropa ölkələri (71%) dünya turizmində əsas kütləni təşkil edirlər. Yaş amili səfər edən turistlərin təmsil etdikləri ölkə və regiona görə dəyişir. Adətən, turizmdə ən fəal kütlə gənclərdir. Statistik araşdırmalar göstərir ki, yaş artdıqca turizmə meyl azalır. Quş adasında aparılan araşdırmalar da bunu təsdiq etmişdir **(**4, s.318**)**. Əksər dünya ölkələrini təmsil edən turistlərin ən fəalları gənclərdir (məsələn, Almaniyadan 14-18, Yaponiyadan 20-29 yaş həddində olan turistlər ümumi turistlərin təqribən 40%-ni təşkil edirlər). Onlar arasında səyahət edən gənclərlə yanaşı, təhsil və mədəniyyət proqramları çərçivəsində tələbələrin, şagirdlərin və digər gənclərin həyata keçirdikləri turizm səfərləri də vardır. Bunun əsas səbəbi gənclərin sərbəstliyi və onların əsas məqsədinin səfərə çıxması ilə bağlıdır. Yəni gənclər üçün nəqliyyatın növü, yolun uzaqlığı və çətinliyi,

yerləşdikləri yerin şəraiti o qədər də maraqlı deyildir. Gənc turistlər sadə, ucuz xidmətlərə üstünlük versələr də, daha çox kollektiv mühiti, dinamikanı, macəranı təmin edən və fərqli həyat tərzini nümayiş etdirən aktiv, ekstremal turizm növlərini və müəssisələrini seçirlər (3, s.45).

Turistləri qəbul edən yerli əhali arasında əsasən gənclər onlara qarşı daha tolerantdırlar. Gəncləri cəlb edən turistlərin meşşan həyat tərzi, əyləncələr, cinsi əlaqələr, diskotekalar, gecə klubları, həmçinin turizm mühitində işlə təmin olunmaqdır. Onların çoxları turistlərin qısa müddətli yaşam tərzinin daim davam etdiyini düşünürlər. Buna görə də, onlarla əlaqə qurmaq və bəzən onların vasitəsilə yaşadığı ölkəni tərk edərək Avropa ölkələrinə miqrasiya etməyə cəhd göstərirlər. Turistlərlə yerli gənclər arasında qurulan münasibətlər əksər hallarda intim münasibətlərə çevrilir. Bu kimi halların genişləndiyi yerlərdə turizmin mənfəətə əsaslanan intim növü formalaşmağa başlayır. Bu xüsusilə, gənc oğlanlarla başqa ölkələrdən gələn qadınların arasında baş verən əlaqələrdən yaranır (Tunis, Kipr). Çünki qızlar adətən daha çox ərə getməyə cəhd göstərir və belə hallara onlar arasında daha az təsadüf olunur. Bu yerli mühitdə əxlaqsızlığın, fahişəliyin artmasına və gənc nəslin mənəvi tənəzzülünə şərait yaradır. Bəzi yerlərdə yerli əhali buna göz yumaraq mənfəət kimi dəyərləndirdiyi halda (Siciliya), bəzilərində buna qarşı ciddi etirazlar doğur (5, s.224).

Yaşlıların turizmdə az təmsil olunma səbəbləri isə, onların səfərə çıxmazdan əvvəl səhhətləri və gəlirləri ilə bağlı olaraq nəqliyyatın növü, yolun uzaqlığı və yoruculuğu, yerləşdikləri yerin şəraiti, təhlükəsizliyi və digər məsələlərlə əlaqədar daha çox götürqoy etmələri ilə bağlıdır. Onlar daha çox öz səhhətləri ilə əlaqədar olaraq müalicəvi turizmə üstünlük verirlər. Ən çox yaşlı turizm, xüsusilə boş vaxta və yüksək təqaüdə malik olan, həmçinin yüksək sağlamlıq xidmətləri ilə təchiz olunan gümrah qoca əhalinin əksəriyyət təşkil etdiyi ABŞ və Avropa ölkələrinə (65-70%) aiddir. ABŞ-dan gələn turistlərin orta yaş həddi 65-dən yüksəkdir (6, s.14).

UTT beynəlxalq turizmdə qoca əhalinin (orta yaş 60) üstünlük təşkil etdiyini nəzərə alaraq, müəyyən xidmətlərin (təhlükəsizlik, tibbi, xüsusi qulluq, xüsusi pəhriz yeməkləri və s) tətbiq olunmasını tövsiyə etmişdir. Bu kateqoriya turistlərə vaxt məsələsi problem olmadığı üçün, onlar ilin müxtəlif vaxtlarında sərfəli endirimlər ərəfəsində səyahət etməyə üstünlük verirlər. Onlar istirahət etməkdən daha çox, darıxdırıcı qocalıq həyatından onların həyatına yeni rənglər gətirən şux turizm həyatına cəhd göstərirlər (3, s.38).

- S*osial status amili*:

Turistlərin sosial statusu əsasən onların gəlirləri, tutduğu vəzifə və cəmiyyətdə çalışdıqları sahədə qazandıqları ad ilə ölçülür. Məhz bu göstəricilər turistlərin sosial statusuna görə elit, kütlə və xalq turizminə bölünməsinə şərait yaradır. Beynəlxalq turizmdə təmsil olunan əsas əhali kütləvi turizmi təmsil edən orta təbəqədən təşkil olunmuşdur. Onların ucuz və standart tələblərinə (turlar, kütləvi səfərlər, tətil kəndlərində istirahət, standart hotel və restoran xidmətləri) uyğunlaşdırılan bu turizm daha çox yayılır. Elit (aristokrat və ya lüks) turizm yüksək gəlirli və məşhur adamlardan ibarət olduğu və onların xüsusi maraqlarına, xobbilərinə yönəldiyi üçün özünəməxsusluğu (yüksək səviyyəli hotellər, restoranlar, yeməklər, əyləncələr, kazinolar) ilə seçilir. Əksər hallarda bu tip turistlər öz yaxınlarıyla kollektiv səyahətə çıxaraq gözəl tətil yerlərində böyük bir villanı və ya adanı kirayə götürürlər (yaxud satın alırlar). Lakin beynəlxalq turizmdə bu turistlərin sayı çox azdır. Yüksək gəlir və statusu olan şəxslərin az olması, yoxsul təbəqənin isə gəlirlərinin az olması onların turizmdə iştirakını məhdudlaşdırır.

Sosial statusuna görə ən aşağı səviyyədə olan turistlər xalq turizmini təmsil edirlər. Onların həm gəlir səviyyəsi, həm də boş vaxtları çox məhduddur. Bu tip turistlər dövlətin, həmkarlar təşkilatlarının yardımı ilə ucuz yerlərdə istirahət edirlər (tələbə və şagird düşərgələri, istirahət evləri, kempiclər, kənd evləri və s). Buna bəzi dövlət müəssisələrinin öz işçiləri üçün açdıqları,

universitetlərin tələbə və müəllimlər üçün tikdirdiyi istirahət yerlərini misal göstərmək olar. Buna görə də bu turizm sahəsi bəzən sosial turizm kimi də səciyyələndirilir.

Turizm səfərində daha çox iştirak etmə həm gəlirlə, həm boş vaxt, həm də həyat tərzi amili ilə bağlıdır. Lakin bu amillərin hamısı bir-biriylə uzlaşmır. Turistlər arasında ən çox səfərə çıxanlar yüksək gəlirli sərbəst işə malik olanlardır (iş adamları, vəkillər, həkimlər). Lakin onlar da işlərini uzun müddət tərk edə bilmədikləri üçün qısa müddətli istirahətə üstünlük verirlər. Ən az turizmdə iştirak edən kənd əhalisidir. Bu, həm onların gəlirlərinin və sosial hüquqlarının aşağı olması, həm də yay aylarında torpaq sahəsində işləmələri və yaşadıqları mühitin təbiətlə sıx bağlı olmasıyla əlaqədardır (1, s.123).

Turizm müxtəlif sosial status və peşə sahiblərini, müxtəlif davranış və həyat tərzlərini, müxtəlif qruplaşmaları (dini, milli, etnik, peşə, ixtisas, dini, maraqlar, ailə vəziyyəti, yaş, cins, gəlir səviyyəsi və s) özündə birləşdirən və həm də onlara təsir etməyi bacaran bir sahədir. Turistlər bir bütün halında yerli əhaliyə nəzərən də bir qrup hesab olunur. Turistlərin sosial statusuna və peşəsinə görə istirahət maraqları bir-birindən fərqlidir. Ağır fiziki işlə məşğul olan turistlər daha çox yatmağa, TV izləməyə və diskotekalarda iştirak etməyə üstünlük verirlərsə, inzibati işlərdə çalışan insanlar adətən səssiz istirahəti seçirlər. Fərqli sosial status, maraq, məqsəd, davranış və dünyagörüşləri təmsil edən turistlərin bir arada toqquşması ehtimalı çox yüksəkdir. Buna görə də turizmdə fərqli maraqları təmsil edən turizm növlərinin yaradılmasıyla, onlar arasında toqquşma ehtimalı ortadan qaldırılır.

Turizmin varlılarla yoxsullar arasında uçurumun dərinləşməsinə və təbəqələşməyə şərait yaratması, həmçinin zəngin ölkələrin yoxsul ölkələri turizm vasitəsilə sosial-mədəni baxımdan istismar etməsi və ənənəvi dəyərlərin yerinə inkişaf etmiş ölkələrin dəyərlərinin gətirilməsi, beynəlxalq turizmin yeni bir müstəmləkəçilik siyasəti olması barədə fikirlərin ortaya çıxmasına səbəb olmuşdur. Adətən, yaşlı nəsil arasında belə fikirlər formalaşır. Lakin, gənc nəsil bunun əksini iddia edir. Onlara görə turizm, geri qalmış ölkələri, cəmiyyətləri durğunluq durumundan çıxarır və gətirdiyi yeniliklərlə onların sosial-iqtisadi, sosial-mədəni (məsələn, yerli ənənəvi sənətlərin, oyunların və tarixi dəyərlərin canlanmasına) inkişafına zəmin yaradır.

*- Ailə vəziyyəti amili:*

Ölkədə turizmin inkişafı ailə vəziyyətinə bağlı olduğu kimi, ailənin də durumu ölkənin sosial-iqtisadi siyasətinə bağlıdır. Bunlar qarşılıqlı şəkildə bir-birinə mənfi və ya müsbət tərəfdən təsir göstərirlər. Tədqiqiatçılar turizmin yerli xalqın ailə vəziyyətinə göstərdiyi təsirin müsbət və mənfi tərəfləri barədə sosioloji tədqiqatlar aparmış və müəyyən qənaətlər əldə etmişlər.

Məlum olduğu kimi, sənayeləşmə və şəhərləşmə prosesi sürətləndikcə, şəhərlərdə böyük ailələr kiçik ailələrə parçalanmış, kollektivləşmə fərdiləşmə ilə əvəz olunmuşdur. Bu gün bu proses elə bir həddə çatmışdır ki, ailədaxili bağlar zəifləməyə başlamış və əksər ailə üzvləri eqoist fərdi həyat fəlsəfəsini özləri üçün həyat tərzinə çevirmişlər. Ənənəvi ailə institutu daxilində baş verən bu hadisələr sosial dinamikanın artmasına və bu da öz növbəsində turizmin kütləviləşməsinə səbəb olmuşdur. Çünki gəlir və məsrəf baxımından fərdi turizm ailəvi turizmdən daha dinamikdir.

Bir çox Avropa tədqiqatçıları turizmin yerli ənənəvi ailələrə mənfi təsir göstərdiyini göstərirlər. Onlara görə turizm mərkəzlərindəki əyləncələr, diskotekalar gəncləri özünə çəkir, gənclər bu yerlərdə əylənməyə, işləməyə üstünlük verir, həmçinin bu yerlərdə əcnəbi vətəndaşlarla tanış olur və bəzən də onlarla evlənirlər. Bu bir tərəfdən onları öz ənənələrindən uzaqlaşmasına, digər tərəfdən isə, onların tolerant olmasına şərait yaradır. J. Boissevain bu durumun nəsillərarası toqquşmaya səbəb olduğunu söyləyir (7, s.275)

Son dövrdə uşaqsız, bir və ya iki uşaqdan ibarət ailələrin sayı artmaqdadır. Bu, tələbatların artması və gəlirlərin tələbatlara uyğun gəlməməsi ilə, insanların eqoist mədəniyyət

daşıyıcılarına çevrilmələri ilə, həmçinin ailə planlaşdırılması təbliğatının oynadığı rol ilə əlaqədar ortaya çıxır. Kiçik ailələr böyük ailələrə nisbətən daha dinamikdirlər. Bu ailələrdə adambaşına düşən gəlir səviyyəsi yüksək olduğu üçün, onların turizmdə iştirak etmək imkanları daha çoxdur. Həmçinin kiçik ailələr ortaq maraq və boş vaxt amilini daha asan şəkildə bir araya gətirmək baxımından daha geniş imkanlara sahibdirlər. Buna görə də əksər ailələr (xüsusilə, böyük ailələr) öz gəlirinə və boş vaxtına nəzərən yerli ucuz turizmə və ya daha çox bölgələrdə yaşayan qohumlarının evlərini ziyarət etməyə üstünlük verirlər. Deməli, turizmin inkişafı və ya kütləviləşməsi, dolayı olaraq ailələrin kiçilməsini və fərdiləşməni tələb edir. Buna görə də turizmə daha çox meyil edən və bunun üçün kifayət qədər pul xərcləyənlər imkanlı subaylar, tənha insanlar, boşananlar və ya toy səyahətinə çıxan gec evlənənlərdir. Şəhərləşmə prosesinin artmasıyla bu kimi tənha şəxslərin sayı getdikcə artır. Buna görə də məşhur "Aralıq dənizi klubu" tənha şəxslərin ixtisaslaşmış turizmini təşkil etmişdir. Yunanıstan, Tunis, İspaniya və İtaliyada ailəli insanların olmadığı və yanlız bu kimi tənha insanların təmsil olunduğu beş turizm kəndi açmışdır (8, s.103).

Ailəvi turizm ailə üzvlərinin bir-birinə daha da yaxınlaşmasına, onlar arasında mehribançılığın artmasına şərait yaradır. Lakin bəzi hallarda, adətən Qərb ölkələrindən gələn ailələrdə bunun əksi də müşahidə olunur. Çünki onlar işlədikləri müddətdə evdə bir-birlərini az görür və günün əksər hissəsini sərbəst yaşayırlar. Ancaq turizm səyahətində onlar bir-birini daim nəzarət altında saxladıqları və bir-birinin sərbəstliklərinə mane olduqları üçün münaqişə yaranır (9, s.72).

Ənənəvi ölkələrdən fərqli olaraq inkişaf etmiş ölkələrdə kişi və qadın turistlərin nisbətində fərq müşahidə olunmur. Çünki bu gün qadınların sərbəst səfərə çıxmasına keçmişdə olduğu kimi nə fiziki, nə də sosial maneələr mövcuddur. Lakin bu məsələyə maneçilik törədən bəzi mədəni amillər mövcuddur. Məsələn, şəriət qanunlarının güclü olduğu ölkələrdə, dindar və ənənələrə bağlı olan konservativ ailələrdə qadınların sərbəst olaraq uzun səfərə çıxması məqbul hesab olunmur. Onlar yalnız öz məhrəmləri (ərləri, ataları, qardaşları) ilə bu səfərlərdə iştirak edə bilərlər. Lakin avropalılar üçün belə bir hədd və maneə mövcud deyildir. Məhz Avropa dəyərlərinin Şərqdə yayılması və Avropa qadınlarının turizmdə fəal iştirakı digər Şərq qadınlarının da tədricən turizmdə fəal olmasına şərait yaratmışdır.

Turizmin inkişafında qadınların rolu böyük olduğu kimi, turizmin inkişafı da qadınların cəmiyyətdə rolunu artırır, onların ənənəvi gender rollarının dəyişməsinə şərait yaradır. Sənayeləşmə və şəhərləşmə prosesi sürətləndikcə, ailənin təminatı ilə əlaqədar olaraq qadınların kişilərlə birgə işləməsi zərurəti ortaya çıxmışdır. Buna görə də qadınlar sosial həyata qatılmaq üçün hər çür şərtlərlə razılaşırlar. Lakin qadınların turizmə cəlb olunmasında əsas maraq, onların az məvacibə, təhlükəsiz şəraitə, adətən təmizlik işlərinə və qeyri-rəsmi işləməyə razı olmalarıdır. Turizm sənayesində əsas idarəetmə heyəti və yüksək gəlirli şəxslər kişilərdən təşkil olunmuşdur. Qadınlar ailədə ənənəvi olaraq gördükləri işləri, turizm obyektlərində də hotel nömrələrinin təmizlənməsi, qabların yuyulması kimi işlərlə davam etdirirlər. Lakin qadınların sosial həyatda fəallaşması və iqtisadi müstəqilliyi, həmçinin beynəlxalq səviyyədə tətbiq olunan gender siyasəti onların ənənəvi gender rollarından qurtulmalarına və sərbəst seçim etmələrinə şərait yaratmışdır. Qadınların yeni gender rolları ənənəvi cəmiyyətlərdə boşanmalara, subaylığın artmasına, gec evlənmələrə səbəb olur. Bu amillər digər tərəfdən də qadınların turizmdə daha fəal olmasına şərait yaradır (10, s.64). Mayer, bunun hotellərdə təmizlik işlərini yerinə yetirən xidmətçi müsəlman qadınlarının ənənəvi rollarının dəyişməsinə və iqtisadi baxımdan müstəqil olmasına daha çox təsir göstərdiyini qeyd edir. Çünki müsəlman ölkələrdə qadınların turizm obyektlərində bu kimi işlərlə məşğul olması və ailənin maddi təminatında məsuliyyət daşıması ənənələrə ziddir. Bu kimi hallar İspanya, Portuqaliya, İtaliya

kimi Avropa ölkələrinin mədəni həyatına və ənənələrinə öz mənfi və müsbət təsirlərini göstərir (5, s.224).

Adətən inkişaf etmiş ölkələr yoxsul ölkələri hərtərəfli şəkildə istismar etməklə, onların ekoloji və sosial-mədəni həyatına böyük zərbələr vururlar. Dünyada təbii, sosial-mədəni həyat bir-biriylə üzvi şəkildə bağlı olduğu üçün dolayı olaraq bu problemlər özünü istənilən coğrafiyada üzə çıxarır. Bu özünü turizmdə də göstərir. İnsanlığın gələcəyini təhlükə altında qoyan bu disbalans durumundan çıxış yolu kimi davamlı inkişaf anlayışı və bu anlayışın əsasında da davamlı turizm və ya ekoturizm növü yaranmışdır. Bu turizmdə əsas məqsəd bölgənin təbii, sosial-mədəni özünəməxsusluğunu, gözəlliyini qoruyub saxlamaq və bölgənin insanları, rəhbərləri, turizm sənayesi sahəsində çalışanları üzərində böyük məsuliyyət hissini aşılamaqdan ibarətdir. Çünki bu turizm bölgənin davamlı olaraq hərtərəfli inkişafını, yerli cəmiyyətin həyat səviyyəsinin artırılmasını, nəsillərarası və nəsildaxili bərabərlik prinsipinin qorunmasını, ekoloji sistemin və bioloji müxtəlifliyin varlığını qorumaqla ətraf mühiti mühafizə etməyi, cəmiyyətlərin sosial-mədəni inteqrasiyasını və turistlərə keyfiyyətli istirahəti təmin edir. Bunun üçün təbii ehtiyatların davamlı istifadəsi, ifrat istehlak və tullantıların azaldılması, müxtəlifliyin qorunması, turizm planlaşdırılması məhdudiyyətinin aparılması, yerli sosial-iqtisadi durumun dəstəklənməsi, onlarla qruplar halında məsləhət şuralarının yaradılması, işçilərin təlim-tərbiyəsi, məsul turizm marketinqinin yaradılması və bu sahədə geniş tədqiqatların aparılması kimi tədbirlərin həyata keçirilməsinin vacibliyi irəli sürülmüşdür.

Movfort və Munt davamlı turizmlə əlaqədar aşağıdakı ideyaların həyata keçirilməsini zəruri hesab etmişlər (11, s.95):

- regional qoruq (müəyyən bir bölgənin milli park və ya qoruq elan edilməsi);
- sektor təcrübəsi (bir bölgədə çoxsaylı müəssisələrin fəaliyyətinin təşkili);
- ziyarətçi idarəetmə mexanizmi (qiymətləndirmə və ya motorlu nəqliyyat vasitələrinin girib-çıxması ilə turistlərin sayının tənzimlənməsi);
- ətraf mühitin ölçülməsi (fayda-maliyyə təhlili və müxtəlif təcrübə mexanizmləriylə təbii resursların istifadəsinin nəzarət altına alınması);
- daşınma həcminin hesablanması (bir bölgənin imkanları daxilində turist qəbul etməsiylə bağlı hesablama);
- məsləhət və iştirak mexanizmləri (yerli xalqın qərarvermə ərəfəsində öz təkliflərini irəli sürmək üçün müxtəlif texniki metodlar);
- davranış qaydaları (müəyyən bir turizm bölgəsində mövcud quruluşun qorunmasına yönələn davranışın əvvəlcədən qaydalarla tənzimlənməsi).

**Açar sözlər:** turizm, sosial, inkişaf, amil, şəhərləşmə, status, əhali, turist

**İstifadə olunmuş ədəbiyyat**


1. Toskay T. Turizm olayına genel yaklaşım. İstanbul "İF" 1978.
2. Güler Ş. Turizm sosyolojisi. Ankara (TCTTB). 1979.
3. Doğan H. Z. *Turizmin Sosyo-Kültürel Temelleri.* Detay Yayıncılık, 2. Baskı, Ankara 2004.
4. Topay M. Turizmin sosyo-ekonomik ve demografik özelliklerle ilişkisi. Turizm işletmeciliği dergisi 1981, 2 (9).
5. Wilson D. The early effects of tourism in the Seychelles. Tourism: Passport to devolopment. Ed. By Kadt E. Oxford University. 1979. Press.

6. Akın A. T. Bazı yönleriyle ABD turizmi ve Cornell Universitesi otel yöneticiliği bölümü. Ankara, 1975.
7. Boissevain J., İnglott P. S. Tourism in Malta. Tourism: passport to devolopment. Ed. By Kadt E. Oxford University. 1979. Press.
8. Александрова. А. Ю. Международный туризм. М., 2002.
9. Rubenstein C. Survey report an how Americans view vacations. Psychology today 1980, 13 (12).
10. Kadt E. Tourism: passport to devolopment. Ed. By Kadt E. Oxford University. 1979. Press.
11. Muammer Tuna, Aslıhan Yanardağ. Anadolu Universitesi. Eskişehir, 2012.

**Турал Салыфов**

## РОЛЬ ТУРИЗМА В ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ

### Резюме

В статье рассматриваются вопросы взаимодействия досуга, урбанизации, социального статуса, уровень дохода, возрастного ценза, семейного положения, пола и других социальных факторов в развитии туризма. На основе полеченных данных можно прийти к выводу, что социальные факторы имеют важное значение в туризме, определяют направление его развития и создают новые виды туризма. Сегодня туризм играет определенный роль в формировании мирового порядка как нового социокультурного явления.

**Ключевые слова:** туризм, социальный, развитие, фактор, урбанизация, статус, население, турист

**Tural Salifov**

## THE ROLE OF TOURISM IN MANAGING EMPLOYMENT

### Summary

The article examines the interaction of leisure, urbanization, social status, income, age, marital status, gender and other social factors in the development of tourism. On the basis of obtained scientific findings it is possible to grow indicate that social factors are important in tourism, determine the direction of tourism development, and create new tourism types. In modern times, tourism plays a decisive role in shaping the world order as a new socio-cultural phenomenon.

**Keywords:** tourism, social, development, factor, urbanization, status, population, tourist

# PSİXOLOGİYA BÖLMƏSİ

UOT 159.9

**Südabə HÜSEYNOVA**
*e. i., ps.ü.f.d.,*
*AMEA Fəlsəfə İnstitutu*

## HÜQUQİ ŞÜURUN STRUKTURU VƏ FUNKSİYALARI*

İctimai şüur - cəmiyyətin mənəvi istehsalının böyük bir hissəsini təşkil edən ictimai varlığın inikasıdır. Sosial hadisələrin inikasına və onun məna dərinliyinə görə adi və nəzəri şüur da bir-birindən fərqləndirilir. Adi gündəlik şüur ictimai şüurun ən kütləvi forması olmaq etibarı ilə konkret ictimai varlığa, adi gündəlik həyata münasibətdə fərdlərin əldə etdikləri konkret biliklərə, təsəvvürlərə, insan birgəyaşayışına, milli və etnoqrafik xüsusiyyətlərinə, əxlaq normalarına, ailə və məişətə, həyat şəraitinə aid olan şüur səviyyəsidir. Elmi-nəzəri şüur sosial gerçəkliyin elmi və nəzəri cəhətdən sistemli və ümumiləşdirilmiş inikasıdır. O, daxili mahiyyətli qanun və kateqoriyalar vasitəsilə ifadə olunur.

Şüur əvvəldən verilmiş yaxud mövcud olan beyin potensialı və bu potensialın düzgün istiqamətləndirilməsi ilə bağlıdırsa, ictimai şüur daha çox tərbiyə və cəmiyyət həyatında mövcud olan həyat tərzi ilə bağlıdır. Şüur amili ictimai şüur üçün əhəmiyyətli rol oynayır. Lakin ictimai şüur daha çox fərdin ictimailəşməsi yaxud sosiallaşması ilə bağlıdır. Belə ki, sosiallaşmayan yüksək səviyyəli fərdi şüur daha çox zərər verə bilər. Sosiallaşmış yaxud ictimailəşmiş şüur isə həm lokal, həm də universal əhəmiyyətli şüurdur. İctimai şüuru gündəlik həyatla, bu həyatın aşıladığı empirik, adi yaxud kütlə şüurundan fərqləndirmək lazımdır. Bu baxımdan ictimai varlığın yaratdığı şüur heç də hələ ictimai şüur deyil. Adi, empirik yaxud kütlə şüurudur. Bu şüurun tərkibində olan ictimailik elementləri isə adət-ənənə, arxetipiklik və mentalitetlə bağlıdır. Hərçənd bunlar heç də həmişəlik sabitliyə malik deyillər. Ya onların məzmununda tarixən bu və ya digər dəyişiklik əmələ gəlir, ya da bütövlükdə dəyişirlər. Buna görə nə adət-ənənəni, nə də mentaliteti və ona uyğun olaraq arxetipliyi mütləqləşdirmək, toxunulmaz bir şey kimi qəbul etmək olmaz (13).

İctimai şüur formaları eyni vaxtda meydana gəlməmiş, ictimai varlığın mürəkkəbləşməsi və insanın idrak qabiliyyətlərinin inkişafı və təkmilləşməsi nəticəsində bərqərar olmuşdur. Sosial funksiyalarına görə ictimai şüur formalarını 2 qrupa ayırmaq olar:

1) sosial gerçəkliyin mənəvi-praktik mənimsənilməsinin baş verdiyi formalara (əxlaq, siyasi və hüquqi şüur);

2) bütün ətraf aləmin mənəvi mənimsənilməsi formalarına (incəsənət, fəlsəfə, din, elm).

Hüquqi şüur – adamların, sosial qrupların, siniflərin hüquqa, qanunçuluğa, ədalət mühakiməsinə münasibətini, onların nəyin hüquqi və nəyin hüquqazidd olması haqqında təsəvvürlərini ifadə edən görüşlərin, ideyaların məcmusudur. İctimai şüur forması kimi hüquqi şüur hüquqi ideologiya, müəyyən sosial və elmi mövqelərə əsaslanan hüquqi görüşlər sistemidir. Adamların hüquqi hadisələrə münasibətdə vərdişləri, hissləri, emosiyaları hüquqi şüurun psixoloji cəhətidir. Hüquqi şüur ictimai şüurun ümumi inkişaf qanunauyğunluqlarına tabedir. Hüquqi şüur cəmiyyətin, siniflərin və fərdlərin ictimai istehsal sistemində və sosial-

* Məqalə fəlsəfə ü.e.d. Rəfiqə Əzimova tərəfindən çapa məsləhət görülüb.

siyasi quruluşda vəziyyətinin spesifik ifadəsidir. İctimai şüurun digər formaları, ilk növbədə, siyasi şüur və əxlaq, habelə ictimai psixologiya da hüquqi şüura mühüm təsir göstərir (4, s.72).

İctimai şüurun əsas formalarından olan hüquqi şüurun struktur və funksiyalarının müəyyənləşdirilməsi üçün şüurun strukturu və funksiyalarını nəzərdən keçirmək lazımdır. Əlbəttə, nəzərdən qaçırmaq olmaz ki, geniş məzmunlu elmi anlayış kimi şüur, ilk növbədə, psixologiya elminin ayrı-ayrı sahələrində, eləcə də fəlsəfə elminin müxtəlif sahələrində araşdırılır və onun elmi mahiyyəti açılır. Lakin hüquq psixologiyasında şüur anlayışının ümumi fəlsəfi aspektlərindən daha çox onun psixoloji məzmununa, fərdi şüurun inkişaf səviyyəsinə və təzahür xüsusiyyətlərinə diqqət yetirilir. Hüquq psixologiyasında bu cəhətə xüsusi diqqət yetirilməsi həm də şüurun ali idrak prosesi kimi əsas funksiyaları ilə əlaqədardır.

Şüur - psixi inikasın və özünütənzimlənmənin yüksək səviyyəsi olub, yalnız ictimai-tarixi varlıq olan insana xasdır. Empirik səviyyədə şüur fasiləsiz olaraq dəyişən hissi və əqli təsəvvürlər kompleksi, həmçinin subyektin şəxsi təcrübələrinin təzahürü kimi çıxış edir (10, s.264). Şüurun əsas xüsusiyyətləri aşağıdakı kimi müəyyənləşdirilir:

1) şüur xarici aləm haqqında biliklərin məcmusundan ibarətdir;

2) şüurun mühüm bir cəhəti mənlik şüuru ilə bağlıdır: insan özünü dərk edir, «Mən»ini, «qeyri-Mən»dən ayırır, öz əməllərini və bütövlükdə özünü şüurlu surətdə qiymətləndirir;

3) insan qarşısına məqsəd qoyur və öz fəaliyyətini həmin məqsəd əsasında tənzim edir;

4) insanın münasibətləri şüurun mühüm bir cəhətini təşkil edir: şüurda intellektual olan affektiv olanla üzvü surətdə birləşir (2, s.30).

Şüurun strukturu sosial mədəni xarakterə malikdir. Fərdin şüurunun strukturu erkən yaş dövrlərində uşağın böyüklərlə ünsiyyəti prosesində formalaşır. İnsanların birgə fəaliyyəti fərdi şüurun strukturunu inkişaf etdirir. Şüurun strukturunun mahiyyəti aşağıdakı amillər əsasında müəyyənləşir: sosial xüsusiyyət, refleksiya bacarığı və daxili dialogizm, predmetlilik (8, s.96).

Şüurun strukturunun formalaşması əsas üç funksiya ilə bağlıdır: koqnitiv, tənzimetmə və kommunikativ. Bu funksiyalar bu və ya digər formada psixi inkişafın bütün mərhələlərində təzahür edir, lakin şüurun əmələ gəlməsi və inkişafı ilə onlar keyfiyyətcə yeni xüsusiyyətlər kəsb edir. Koqnitiv funksiya yalnız şüur səviyyəsində biliklərin fəal, məqsədyönlü mənimsənilməsi kimi özünü göstərir. Koqnitiv funksiya fərdi şüurun ictimai şüurla üzvü əlaqəsini ifadə edir.

Tənzimetmə funksiyasının şüur səviyyəsində əsas xarakteristikası onun ixtiyari xarakter daşıması ilə bağlıdır. Şüurun tənzimetmə funksiyası müxtəlif formalarda həyata keçirilir: a) şüurlu məqsəd fəaliyyət prosesində özünəməxsus etalon rolunu ifadə edir, insan öz işinin nəticəsini onunla tutuşdurur, öz səhvlərini müəyyən edir və onları aradan qaldırır, yəni əks əlaqə yaradır; b) insanın fəaliyyəti onun iradəsinin təzahürü kimi həyata keçirilir, o, iradi səy göstərərək qarşıya çıxan çətinlikləri aradan qaldırır, onun bütün bilik və istedadını şüurlu məqsədin həyata keçirilməsinə tabe edir.

Şüurun kommunikativ funksiyası isə insanların bir-birilə ünsiyyəti prosesində formalaşır. Kommunikativ funksiya bir tərəfdən insanlar arasında bilik mübadiləsi, onların bir-birinin təcrübəsini mənimsəməsi, digər tərəfdən bir-birinin davranışını qarşılıqlı surətdə tənzim etməsi prosesi kimi həyata keçirilir, yəni bir adamın şüurunun formalaşmasında onlarla adam iştirak edir (2, s.30).

Nəzərə almaq lazımdır ki, şüurun ayrı-ayrı funksiyaları hüquqi şüur kontekstində özünəməxsus təzahürlərə malik olur. İctimai şüurun forması kimi çıxış edən hüquqi şüur özünün tənzimetmə, kommunikativ funksiyalarını sosial normalar daxilində deyil, hüquqi normalar aspektində təzahür etdirir. Bu baxımdan Q.Allahverdiyev haqlı olaraq göstərir: "Hüquqi şüur təkcə məcburetmə demək deyildir. O, mövcud cəmiyyətdəki ictimai münasibətlərin spesifik hüquqi növünün ideya ifadəsi olmaqla, mürəkkəb məzmuna malikdir.

Burada hüquqa və qanuna hörmət etmək məharəti, fərdin dövlətə və digər insanlara münasibətdə öz öhdəliklərini yerinə yetirməsi, həyatını cinayətdən kənarda qurması mühüm yer tutur. Deyilənlərlə yanaşı, hüquqi şüur şəxsi ləyaqət hissini, vicdanı, daxili iradəni, intizamı, insanların bir-birinə və dövlətə hörmətini, habelə dövlətin onlara ehtiramını əhatə edir" (1, s.166).

Müəllifin fikirləri ilə razılaşmamaq olmur. Lakin bir məqamı qeyd etmək lazımdır ki, hüquqi şüura mövcud cəmiyyətdəki ictimai münasibətlərin spesifik hüquqi növünün ideya ifadəsi olması ilə yanaşı, həm də fərdin özünəmünasibətini cəmiyyətə münasibətinə transformasiya etmək cəhdi kimi də qiymətləndirmək olar. İnsanın hüquq normalarına münasibəti onun tələbatları kontekstindən də qiymətləndirilməlidir. Çox zaman ortaya çıxan çatışmazlıqlar fərdin münasibətlər sistemi və sosial imperativləri ilə şərtlənmiş tələbatların ödənməməsindən qaynaqlana bilər.

Şüurun bütün funksiyaları hər hansı bir fərddə normal səviyyədə özünü büruzə verirsə, onda heç şübhəsiz, hüquqi şüur da öz yerində olacaqdır və belə şəxsdən hüquqa, qanuna, əxlaqazidd davranış gözləmək çətindir. Lakin başqa şəxslərdə, məsələn, şüurun tənzimetmə funksiyası ya lazımi səviyyədə inkişaf etməzsə yaxud pozulmuş olarsa, onda belələrində cinayət şüurunun əmələ gəlməsi və təzahürü üçün əlverişli zəmin yaranmış olur. Bununla bərabər, həmin şəxslərdə hüquqi şüurun lazımi səviyyədə inkişaf edəcəyini, onların davranış və rəftarında özünü mütəmadi surətdə büruzə verəcəyini də gözləmək çətindir. Çünki belələrində "şüurlu məqsəd" və həmin məqsədə uyğun olaraq davranış və hərəkətlərini tənzim etmək özünü zəif surətdə büruzə verir.

Bu baxımdan professor Ə.S.Bayramov və professor B.H.Əliyev göstərirlər ki, "şüurun tənzimetmə funksiyasındakı çatışmazlıqlar cinayət şüurunun və cinayi davranışın təzahürləri üçün zəmin ola bilir. Ayrı-ayrı şəxslər öz hüquq və vəzifələrini müxtəlif səviyyədə dərk edir və bir-birindən fərqli şəkildə yerinə yetirirlər. Çünki hər bir şəxs davranış və fəaliyyətin hüquqi tənzim sisteminə özünəməxsus şəkildə və ya səviyyədə qoşulur. Bəzi şəxslər buna fəal surətdə qoşulur, bu halda onların müəyyən maraq və meyilləri, daxili təhrikləri onların davranış və əməllərinin xarakter və istiqamətini təyin edir, başqa sözlə, onlarda hüquqi şüur öz tənzimləyici funksiyasını müvəffəqiyyətlə yerinə yetirir" (3, s.355).

Lakin hər bir konkret şəraitdə xarici və daxili amillərin təsirinin çulğalaşması başqa-başqa ola bilər. Yəni şəxsiyyətin davranış və əməllərinin hüquqi cəhətdən şərtlənməsi ilk növbədə hüquq qaydalarının məzmun və formasından, müəyyən sanksiyaların mövcudluğundan, həm də hüquq-mühafizə orqanlarının həmin qaydalara əməl edilməsini həm təşkilati, həm də məcburetmə yollarının köməyi ilə həyata keçirməsindən asılıdır. Burada adamlarda hüquqi şüurun inkişafına istər məktəb illərində, istərsə də müəyyən fəaliyyət sahəsi ilə məşğul olduğu dövrdə hüquqi davranış qaydaları və hüquq normaları barədə dəqiq və aydın məlumatların çatdırılması da çox böyük əhəmiyyət kəsb edir. Çünki bir sıra hallarda ayrı-ayrı şəxslərdə hüquqazidd davranışın, əməl və hərəkətlərin özünü büruzə verməsi onların hüquq normalarına nabələdliyindən irəli gəlir. Bəzən belələrini hüquqa zidd davranışına yaxud əməl və hərəkətinə görə cəzalandırmağa çalışırlar. Lakin ona hüquq normaları barədə, yəni onun müxtəlif şəraitlərdə özünü necə aparmaq qaydaları barədə məlumat verilmir, ən başlıcası ona izah edilmir ki, həmin qaydalara əməl etməmək nə kimi hüquqazidd nəticələrə gətirib çıxara bilər.

Qeyd olunmalıdır ki, hüquqi şüurun formalaşmasında mənlik şüuru da mühüm rol oynayır. Fərdin mənlik şüurunun adekvat istiqamətdə formalaşması, onun özü haqqında təsəvvürlərinin düzgünlüyü bu və ya digər səviyyədə hüquq şüura təsir göstərir. Təbii ki, burada hüququn və əxlaqın azadlığı da mühüm rol oynayır. Hüququn və əxlaqın azadlıq ilə qarşılıqlı əlaqələrinin möhkəmlənməsində subyektin mənlik şüuruda çox əhəmiyyətlidir. Bu

onunla şərtlənir ki, fərdin hüquqi və mənəvi ünsiyyəti, fəaliyyəti prosesində ondan kənarda qərarlaşan sosiomədəni formalar mənlik şüuru vasitəsilə insanın daxili aləminə yönəlir. Mənlik şüurunda fərdin ümumi yetkinliyi, cəmiyyətdə yeri, hərəkətlərinin törədə biləcəyi nəticələr haqqında daha dəqiq təsəvvür və qiymətləndirmə həyata keçirilir. Bu pillədə insan cəmiyyətin onun davranışına verdiyi tələbləri, öz ictimai borcunu və məsuliyyətini daha dərindən başa düşür. Bu məqam onda hüquq və əxlaqın qovuşaraq azadlığa yaxınlaşmasına müsbət təsir göstərir (1, s.167).

Hüquqi şüur ümumi - koqnitiv, tənzimetmə və kommunikativ funksiyalarla yanaşı, xüsusi - dərketmə, qiymətləndirmə və hüquqi tənzimləmə funksiyalarını da həyata keçirir. Hüquqi şüurun əsas funksiyaları ilə yanaşı, əlavə funksiyaları kimi proqnostik, tərbiyələndirici, praktiki, modelləşdirmə və digər fuksiyaları da mövcuddur. Hüquqi şüurun dinamikasının öyrənilməsi onun funksiyalarının analizi ilə bağlıdır (10, s.289).

Hüquqi şüur ictimai şüura xas olan ümumi xüsusiyyətlərə malikdir. Hüquqi şüur hüquqi biliklər, hüquqa münasibət və hüquqi davranışlar əsasında formalaşır. Hüquqi şüurun strukturu və funksiyaları ictimai şüurun strukturu və funksiyalarını daşımaqla yanaşı, özünəməxsus funksiyalara da malikdir. Hüququ şüurun strukturu erkən yaş dövrlərində, insanın daxil olduğu sosial qrupların, ictimai və mədəni mühitin təsiri altında formalaşır. Hüquqi şüurun strukturu sosial xüsusiyyətə malikdir (11, s.201).

Hüquq psixologiyası üzrə tanınmış mütəxəssis V.L.Vasilyev hüquqi şüurun əsas komponentlərini aşağıdakı kimi ümumiləşdirir:

- maddi aləm (obyekt, əşyalar) mənsubluq (yəni xüsusi, şəxsi və dövlətə mənsubluq) keyfiyyəti kəsb edir, insan şüurunun inkişafı sayəsində bu cəhəti aydın dərk edir;
- başqa insanlar hüquq normalarına uyğun olaraq özünün mövcudluğu, tamlığı və mənəvi ləyaqəti ilə vəhdətdə dərk edilir;
- şəxsiyyət öz əməllərini və mənəvi keyfiyyətlərini cəmiyyətin hüquq normaları və qanunlarına uyğun olaraq dərk edir. Yəni əməl və hərəkətlərində qanunun tələblərinə riayət edir (3, s.209).

V.L.Vasilyev ictimai şüurun formalarından biri kimi hüququ şüurun aşağıdakı əlamətlərə malik olduğunu qeyd edir:

- hüquqi şüur nəinki sosial gerçəkliyi əks etdirir, həm də ona fərqli surətdə təsir edir və insanların sosial-iqtisadi münasibətlərinin yüksək inikas səviyyəsi olub, həmin insanların yaşadığı cəmiyyətin qanunlarında öz ifadəsini tapır;
- hüquqi şüur həmişə ikinci siqnal sistemi vasitəsilə ifadə olunur, yəni insanların nitq vasitəsilə ifadə olunan fikri fəaliyyəti hüquqi şüurun mexanizmini təşkil edir, bununla da o, ictimai münasibətləri tənzim edən hüquqi biliklər və anlayışlar sistemini əks etdirir;
- hüquqi şüur onun konkret daşıyıcıları olan konkret insan şəxsiyyəti, qrup və cəmiyyət olmadan mövcud ola bilməz. Hüquqi normaların dərk olunmasının ümumi cəhətlərinə görə cəmiyyətdə müəyyən insan qrupları əmələ gəlir və bu zəmində də qrup müəyyən sosial biliklər, tarixi dövrlər üçün xarakterik olan qrup hüquqi şüur kateqoriyası əmələ gəlir (3, s.211).

Deyilənlərdən aydın olur ki, hüquqi şüur nəinki öz mexanizminə görə, həm də öz sosial məzmununa görə çox mürəkkəb struktura malikdir.

Şəxsiyyətin hüquqi şüurunun nəticəsi olan hüquqi davranışın strukturunu müəyyən edən əsas amillər aşağıdakılardan ibarətdir:

1. Koqnitiv – bilik.
2. Emosional – qiymətləndirmə.
3. Davranış münasibətləri.

Tədqiqatçılardan A.R.Ratinov isə hüquqi şüurun funksional strukturunu aşağıdakı kimi müəyyənləşdirir (11, s.211):

**Hüquqi şüurun funksional strukturu**

| Hüquqi şüurun əsas funksiyaları | Psixoloji amilləri | Funksiyalaşmanın nəticələri | Empirik göstəriciləri | Kəmiyyət xüsusiyyətləri |
|---|---|---|---|---|
| İdraki | İntellektual | Hüquqi hazırlıq | Hüquqi biliklər və bacarıqlar | Məlumatlılıq səviyyəsi |
| Qiymətləndirmə | İntellektual-emosional | Hüquqa və onun praktiki tətbiqinə qiymətləndirici münasibət | Qiymətləndirici mühakimələr (rəylər) | Həmrəylik səviyyəsi |
| Tənzimləmə | İntellektual-emosional-iradi | Hüquqi meyillər və yönümlər | Davranış mövqeləri (qərarlar) | Sabitlik səviyyəsi |

Hüquqi şüurun bir sıra formaları fərqləndirilir: elmi hüquqi şüur, gündəlik hüquqi şüur, peşəkar hüquqi şüur. Gündəlik hüquqi şüur əsasən mövcud həyat şəraitinin təsiri və şəxsi təcrübələr əsasında formalaşır. Bu zaman hisslər, emosiyalar kimi psixoloji elementlər əsaslı rola malik olur. Elmi hüquqi şüur geniş və dərin hüquqi ünsiyyət əsasında formalaşır və onun mahiyyəti nəzəri hüquqi biliklərlə bağlı olur. Peşəkar hüquqi şüur hüquqşünaslara xas olub ümumi təhsil və təcrübi hazırlıq tələb edir. Bu zaman mənəvi elementlərlə hüquqi normaların praktik dərk edilməsi və tətbiqinə dair bilik və bacarıqlarla əlaqəli olur.

Subyektiv əsaslarda hüquqi şüurun ictimai, qrup və fərdi formaları da fərqləndirilir (12, s. 87).

Qeyd etmək lazımdır ki, hüquqi şüurun formalaşması həm də şəxsiyyətin fərdi xarakteri ilə sıx bağlıdır, lakin araşdırmalar göstərir ki, bəzən həm sağlam hüquqi şüura və hüquqi davranışa malik olan insanlar, həm də hüquqazidd, cinayətkar davranışlı insanlar eyni xarakterə malik ola bilərlər, onların davranışlarındakı fərq bilavasitə sosial mühitlə bağlı olur. Bununla yanaşı cəmiyyətdə referent yaxud qeyri-referent qruplarda fərqli fərdi-psixoloji xarakterə, lakin uyğun davranış yönümünə malik insanlara daha çox rast gəlmək mümkündür. Məsələn, ailə, iş, məktəb kollektivi və s. sosial qruplarda yüksək hüquqi şüur və davranışa malik fərqli fərdi xüsusiyyətli insanlar olur, həmçinin hər hansı bir cinayətkar qrupa daxil olan insanlar fərqli fərdi xüsusiyyətlərə malik olurlar.

Deyilənlərə əsasən qeyd etmək olar ki, fərdi hüquqi şüur biliklər, tərbiyə, ənənələr, fərdin böyüdüyü sosial mühitin mənəvi xüsusiyyətləri əsasında formalaşır. Hüquqa riayət edən insanlarla hüquqazidd davranışlı şəxslərin hüquqi şüurunda fərqlər müəyyən edilmişdir.

Bu sahədə aparıcı tədqiqatçılardan olan hüquq elmləri doktoru, professor F.Y.Səməndərov hüquqi şüurun ünsürlərini müəyyənləşdirərkən belə qeyd edir: "Hüquqi şüurun ünsürü kimi ictimai iradənin formalaşması ictimai mənafenin idrakı ilə bağlıdır. Bu kifayət qədər yetkinliyə malik olan cinayət hüquqi şüurun püxtələşməsini nəzərdə tutur… Cinayət hüquqi şüur, onun qiymətləndirici elementi ancaq iradəvi ünsür vasitəsilə fəallaşır. Cinayət hüquqi şüur ictimai şüurun formaları içərisində siyasi və mənəvi şüurla yaxın əlaqədədir… Cinayət hüquqi şüur mənəviyyatla sıx əlaqədə inkişaf edir. İnsanların sosial fəaliyyətinə, onların davranışına, eləcə də hüquqi fəaliyyətinə həmişə mənəviyyatla qiymət verilir. Buna görə də ictimai həyatda insanların cinayət hüquqi ideyaları və baxışları eyni zamanda onların mənəvi baxışlarını, təsəvvürlərini ifadə edir… Mənəvi prinsiplərin cinayət hüquqi baxışlarda ifadə olunması həm də cinayət hüquqi şüurla mənəvi şüurun birləşməsi, eyni məna kəsb etməsi deyildir. Mənəviyyat insanların ictimai həyatda bütün iradəvi davranışına qiymət verir. Mənəviyyat cəmiyyətdə qənimətçiliyi, müftəxorluğu, şərəf və ləyaqətə ziyan yetirən hər cür əməli pisləyir" (6, s.93).

Sonda belə bir nəticəyə gələ bilərik ki, hüquqi şüurun strukturunda şüurun funksiyaları mühüm yer tutur. Bu qənaət ona görədir ki, hüquqi şüur ictimai şüurun bir formasıdır və

ictimai şüurda baş verən dəyişikliklər, o cümlədən sosial imperativlər və koqnitiv metamorfozların dəyişməsi insanların adaptasiya qabiliyyətini zəiflədir və onların yeni hüquqi sistemin normativlərini mənimsəməsini çətinləşdirir.

**Açar sözlər:** şüur, ictimai şüur, hüquq, hüquqi şüur.

### İstifadə olunmuş ədəbiyyat

1. Allahverdiyev Q. Hüquqla əxlaqın qarşılıqlı tamamlanması və onun azadlığa təsiri // Dövlət idarəçiliyi. Bakı, 2009, №1.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 2003.
3. Bayramov Ə.S., Əliyev B.H. Hüquq psixologiyası. Bakı: Təhsil, 2012.
4. Hüquq ensiklopedik lüğəti. Bakı, 1991.
5. Məmmədzadə V. Hüquq düşüncəsi və cəmiyyətin hüquqi savadı. Palitra qəz., Bakı, 2011.
6. Səməndərov F.İ. Hüquqi şüur və cinayət hüquq yaradıcılığı. Bakı: Qanun, 1996.
7. Səməndərov F.İ. Cinayət hüquqi şüur və onun funksiyaları haqqında // Bakı Universitetinin Xəbərləri, Bakı, 1995, № 1.
8. Белканов Е.А. Структура и функции правосознания. Дис … канд. юрид. наук. Екатеринбург, 1996.
9. Платанов К.К. О системе психологии. М., 1972.
10. Психология. Словарь. М., Политическая литература, 1990.
11. Ратинов А.Р. Структура правосознания и некоторые методы его исследования. М., 1981.
12. Суслов В.А. Структура правосознания //Правоведение, 1997, № 2.
13. www.xalqqazeti.com/az/news/analytics

**Судаба ГУСЕЙНОВА**

## СТРУКТУРА И ФУНКЦИИ ПРАВОСОЗНАНИЯ

### Резюме

В статье анализируются структура и функции правосознания как формы общественного сознания. Отмечается, что формирование структуры сознания связано с тремя функциями: познавательной, регулятивной и коммуникативной. Если все функции сознания проявляются у индивида на приемлемом уровне, то, без сомнения, правосознание у него будет в норме и от такого человека трудно ожидать поведения, противоречащеего законам морали. В случае же недостаточного развития или нарушения какой-либо функции сознания, создается благоприятная почва для возникновения преступного сознания.

**Ключевые слова:** сознание, общественное сознание, право, правосознание.

**Sudaba HUSEYNOVA**

## STRUCTURE AND FUNCTIONS OF LEGAL AWARENESS

**Summary**

The article analyzes the structure and functions of the sense of justice as a form of social consciousness. It is noted that the formation of the structure of consciousness is associated with three functions: cognitive, regulative and communicative. If all the functions of consciousness appear in the individual at an acceptable level, then, without a doubt, his sense of justice will be normal and it is be difficult to expect from such a person behavior contrary to the laws of morality. In the case of insufficient development or violation of any function of consciousness, a favorable ground is created for the emergence of criminal consciousness.

**Keywords:** consciousness, social consciousness, law, legal consciousness.

**УДК 159.9**

**Джамиля САФАРОВА**
*диссертант, БГУ*

# НЕКОТОРЫЕ ПОДХОДЫ К ИЗУЧЕНИЮ ЭТНИЧЕСКОГО САМОСОЗНАНИЯ, Я-КОНЦЕПЦИИ*

Новые реалии миропорядка, процесс глобализации, трансформация ценностей, новые смыслы и нарративы современности, изменения социальной, этнокультурной стратегической составляющей привели к новым социальным противоречиям, породившим поиск менталитета, самосознания, идентичности, Я-концепции, которая значима как прошлое, настоящее и будущее национальной самости. Ведь были государства, народы, которые не выжили в стихийных бедствиях, войнах, или какое-то вероломство Троянского коня или безумие стали причиной гибели целых народов. Как же выжить современным народам в условиях войны государств, идеологий, мировоззрений и не раствориться, не уйти в небытие в сложных условиях глобализации, кризиса экологии, ресурсов и т.п.

Социальная жизнь, неотъемлемым фактором которой является взаимодействие образования и культуры, создаёт, развивает достаточно стабильные во времени условия и нормы их гармоничного функционирования.

Принципиальным становится вопрос о соотношении и взаимозависимости этнопедагогики и культуры. Этнос, характеризующий в первую очередь стабильные особенности культуры на определённой территории для устойчивой совокупности людей – существенный фактор образовательного процесса.

Как следствие активного взаимодействия культур можно назвать и полиэтничность общества, которая является, по мнению многих ученых, неотъемлемой характеристикой практически всех государств: «в человеческой истории практически нет национально чистых (моноэтничных) государств» (13, с. 378).

Вообще, проблема этнического сознания, как проблема общего и частного, оставалась актуальной во все времена. Труды по психологии и исследования сознания и самосознания личности составляют значительное место среди психологической литературы.

Этническое самосознание - это относительно устойчивая система осознанных представлений и оценок объективно существующих компонентов жизнедеятельности этносов. Итогом формирования этой системы является осознание человеком своей принадлежности к этнической общности. Учет особенностей этнического сознания необходим для более качественного образования и воспитания молодежи (2, с. 92).

Первые идеи в области психологии народов были сформированы Гиппократом в его трактате «О воздухе, воде, местности». Автор полагал, что различия между народами, включая и разницу «народного духа», обусловлены местонахождением страны, климатом и другими природными факторами.

Душа понимается Аристотелем как организующая форма, которая дает смысл и направленность жизни. Добродетель рассудочной души связана у Аристотеля с общественной жизнью, следовательно, имеет социальную подоплеку и может идентифицироваться с сознанием общности.

* Məqalə psixologiya ü.e.d., professor Rəna Kadırova tərəfindən çapa məsləhət görülüb.

И.Кант подвергает критике интерспективную психологию, построив новое учение о трансцендентальной апперцепции, созвучное с учением Г.В.Лейбница. Кант исходит из предпосылки, что народ - это объединение в одной местности множества людей, составляющих единое целое. Его характер и особенности формируются под влиянием внешних природных, ландшафтных и климатических факторов. Именно они передаются по наследству потомкам как «дух народа».

Теория этничности, включающая в себя и проблемы этнического сознания, разрабатывалась этнопсихологами. Во второй половине XIX века немецкие ученые М.Лацарус и Х.Штейнталь провозгласили «психологию народов» как отдельное научное направление. Они анализировали «народный дух» как психическое сходство индивидов, принадлежащих к определенной нации, и одновременно их самосознание, содержание которого может быть раскрыто путем сравнительного изучения языка, мифологии, морали и культуры.

В результате функционирования в жизненном пространстве членов единого духовного сообщества духовных продуктов культуры: языка, мифов, нравов образуется единство этнопсихологических процессов. Для определения такого «единого духовного сообщества» было введено понятие «духовного коммунитета» (В.Вундт). Возникновение производных народной души сводится к сумме энергии множества индивидов, находящихся во взаимодействии, «и покоится на духовном взаимодействии многих, которые относятся к названным процессам подобно тому, как элементы представления и воли относятся к сложным представлениям и волевым действиям индивида». Творческая коллективная деятельность народа, по мнению В.Вундта, может и должна изучаться. Сделать это можно, работая в двух направлениях: абстрактном и конкретном. Первый путь подразумевает исследование души народа через те связи, которые существуют между индивидами, предположив, что мифы - это чувства народа, обычаи - воля и нравственные принципы. Второй путь предполагает изучение конкретного народа, с приложением к нему результатов исследования по первому варианту.

У.Джемс - основатель функционализма создал теорию личности в психологии и выделил в ее структуре социальную составляющую, которая понимается как форма принятия личности в каждом индивиде со стороны остальных людей. У.Джемс начал разрабатывать проблематику Я-концепции. Глобальное, личностное Я он рассматривал как двойственное образование, в котором соединяются Я-сознание и Я как объект. Это две стороны одного целого, всегда существующие одновременно. Одна из них являет собой чистый опыт (Я-сознание), а другая - содержание этого опыта (Я как объект). Джемс рассматривал Я как объект так: это все то, что человек может назвать своим. В этой области Джемс выделяет четыре составляющие и располагает их в порядке значимости: духовное-Я, материальное-Я, социальное-Я, физическое-Я.

Понятие самосознание, особенно групповое, общественное вплетено у З.Фрейда в понятие идентичность. «Идентификация» впервые упоминается им в эссе «Психология масс и анализ «Я». Слово «идентичность» восходит к латинскому термину idem - тот же самый. Посредством этого термина обозначается тождественность, одинаковость, совпадение чего-либо с чем-нибудь.

З.Фрейд как и С.Московичи определяет идентификацию подобно «ассимиляции одного «Я» другим, в результате которой первое «Я» ведет себя в определенном отношении так же, как и второе, имитирует его и в некотором смысле вбирает его в себя» (8, с.37). По мнению З.Фрейда, каждый индивид - это частица множества масс, связанных посредством целой сети идентификаций. Поэтому человек конструирует свой

идеал «Я», основанный на множестве образцов и моделей поведения, которые он выбирает сознательно.

Интерес представляет толкование идентичности Э.Эриксоном и формулируется им как интеграция всех предыдущих идентификаций и Я-образов. Формирование идентичности – это процесс переустройства, структурной реорганизации всех прежних идентификаций в контексте будущего. Политическая идентификация, по выражению Э.Эриксона, признается «всеобщей и универсальной категорией» (14, с.45).

В теории Э.Эриксона проблема Я-концепции рассматривается сквозь призму эгоидентичности, понимаемой как возникающий на биологической основе продукт определенной культуры. Формирование идентичности - Я - процесс, который служит основой постоянного расширения самосознания и самопознания.

В свою очередь, К.Роджерс понимает под понятием Я-концепции сложную структурированную картину, существующую в сознании индивида как самостоятельная фигура и собственно Я, включенные в фон.

Ч.Х.Кули, Д.Г.Мид подчеркивают, что человеческое Я формируется в ходе социального взаимодействия и язык играет здесь главную роль. Ученые утверждают, что самосознание и ценностная ориентация личности зеркально отражают реакцию на нее окружающих людей. Таким образом, возникает идея самости из социального окружения и вследствие наличия множества социальных сред появляется возможность развития различных типов самостей. Изучая Я-концепцию, Р.Бернс отмечал, что становление ее у индивида происходит только под действием механизма взаимного обогащения.

В психологической литературе субъект и «Я», а также его самосознание рассматриваются в единстве (С.Л.Рубинштейн, А.Г.Спиркин, И.С.Кон, Ф.Т.Михайлов, В.В.Столин). «Я» - ядро личности. Прежде всего признается, что это действующее на среду, познающее мир и самосознающее себя «лицо». «Я» как предмет самосознания предполагает единство субъекта и объекта... Неразделенность двух форм, в которых «Я» противопоставляет себя себе самому, составляет собственную природу понятия «Я», - указывал С.Л.Рубинштейн (10, с.334).

«Я» - осознанное, опознанное, многократно проверенное собою в деятельности и общении специфическое образование. Детерминантой и основной причиной осознания субъектом своего «Я» выступает необходимость в самоопределении через деятельность и общение в предметном, социальном мире, необходимость разобраться не только в целях и способах своей деятельности, но и в собственных индивидуальных, субъектных качествах, ценности своих деяний для окружающих. «Я» — результат и определенный итог социального развития субъекта, поэтому оно более позднее образование, чем субъект деятельности и знания. Оно может быть понято как результат самопознания, а самопознание как процесс, направленный не только на знание себя, но и себя как активного начала (самосозидатель, самопреобразователь, саморегулирующий и самореализующий субъект). Но когда говорят о самопознании, речь идет не о знаниях о себе и не о самопредставлениях, которые становятся фактом сознания ещё в процессе предметной деятельности ребёнка, а об осознании себя как деятеля, созидателя, преобразователя. Только в этом смысле «Я» соответствует субъекту-деятелю.

Осознание своего сознания – это знание о своем знании о вещах, предметах, явлениях, одним словом, соотнесение сторон, элементов окружающего мира. Оно также включает в себя познание, суждение о своих знаниях, т.е. оно рефлексивное мышление. «Я» - целостное образование, включающее в себя осознание не только своего предметного «Я» и его активного начала, но и заключенности в этом конкретном, частном «Я» всеобщего «Я» (10, с.335).

Именно эта особенность «Я» - результат осознания субъектом своей производности от «Мы», которые являются носителем элементов совокупности общественных отношений. Кроме того, «Я» включает осознание субъектом себя как носителя и деятеля социально ценных качеств, вносящих в систему общественных отношений свой вклад. Вот почему вслед за А.Н.Леонтьевым можно утверждать, что осознание своего «Я» - есть результат и продукт становления субъекта как личности (6, с.227).

Если сознание ориентировано на весь объективный мир, то объектом самосознания является сама личность. В самосознании она выступает и как субъект, и как объект познания и отношения. Самосознание выступает как особо сложный процесс (самоосознавание), динамическое образование психики, которое находится в постоянном движении не только в онтогенезе, но и в повседневном функционировании. Результатом процесса самосознания является Я-концепция, понимаемая как совокупность установок, направленных на самого себя. Я-концепция при этом выступает не просто как продукт самосознания, но и как важный фактор детерминации поведения человека. Такое соотношение понятий «Я-концепция» и «самосознание» достаточно традиционно, однако есть и другие трактовки. Согласно К.А.Абульхановой, «Я-концепция» составляет ядро самосознания, в котором обобщаются основные жизненные отношения личности в первую очередь к себе, к другим и других к себе. В этих обобщениях проявляется жизненное мировоззрение личности, однако оценивающее не саму по себе действительность, а себя в действительности, свой способ жизни, то, что и ради чего удалось – не удалось достичь в жизни (1, с. 42).

Как считает В.С.Мерлин, самосознание – это сложная психологическая структура, включающая в себя в качестве особых компонентов, во-первых, сознание своей тождественности; во-вторых, сознание своего собственного «Я» как активного, деятельного начала; в-третьих, осознание своих психических свойств и качеств и, в-четвертых, осознание определенной системы социально-нравственных самооценок. Все эти элементы связаны друг с другом функционально и генетически, но формируются они не одновременно (7, с.32). Зачаток сознания тождественности появляется уже у младенца, когда он начинает различать ощущения, вызванные внешними предметами, и внутренние ощущения, сознание «Я» – примерно с трех лет, когда ребенок начинает правильно употреблять личные местоимения. Осознание своих психических качеств и самооценка приобретают наибольшее значение в подростковом и юношеском возрасте. Но поскольку все эти компоненты взаимосвязаны, обогащение одного из них неизбежно видоизменяет всю систему.

Далее приведем структуру самосознания, предложенную В.С.Мухиной. Она выделяет пять ее звеньев. Первое звено – имя собственное, вокруг которого формируется сознаваемая человеком собственная сущность. Идентификация с именем происходит с первых лет – ребенку трудно думать о себе вне имени, оно ложится в основу самосознания, приобретает особый личностный смысл. Благодаря имени, ребенок получает возможность представить себя как обособленного от других уникального индивида. Второе звено – это притязание на признание. С раннего возраста ребенок понимает, что все поступки делятся на «хорошие» и «плохие». Так как все хорошее эмоционально поощряется, то у ребенка появляется стремление быть хорошим, стремление к признанию себя хорошим. Реализуя притязание на признание во всем многообразии видов деятельности в человеке утверждается чувство собственного достоинства и самоценности. Половая идентификация – третье звено в структуре самосознания, которое включает психологическое признание своей идентичности со

своим полом в физическом, социальном и психологическом плане. Психологическое время личности – четвертое звено в структуре самосознания человека, связанное с построением субъективной картины жизненного пути. Социальное пространство личности – пятое звено в структуре самосознания. Это сфера прав и обязанностей человека, определяющая стиль и содержание общения в контексте культуры, к которой он принадлежит (9, с.56).

Опираясь на представление У.Джеймса о наличии в едином и целостном Self двух неразрывных составляющих – чистого опыта («Я» как субъект) и содержание этого опыта («Я» как объект), – Д. Харт и М. Ейтс (Hart, Yates, 1997. Цит. по: Капрара, Сервон, 2003) выделяют два аспекта в Я-системе – самосознание и самопонимание, каждый из которых содержит свои компоненты. Самосознание, по их мнению, образует два компонента: бесстрастное сосредоточение на собственном «Я» и более эмоциональная идентификация со своими качествами. Самопонимание имеет три аспекта: 1) личные воспоминания; 2) когнитивные образы своих атрибутов, которые могут функционально не зависеть от воспоминаний; 3) теории «Я», выполняющих функцию интеграции множества личных воспоминаний и образов. Таким образом, Я-концепция базируется на воспоминаниях о совершенных в жизни поступках и действиях, на зафиксированных в автобиографической памяти случаях из жизни, отношениях и оценках других и своих реакциях на них. И в то же время только при участии «Я», осмысливающем и творящем отношения прошлого, настоящего и будущего своей жизни, история индивидуального бытия становится автобиографией.

Дж.Капрара и Д.Сервон на основе обзора работ, посвященных Я-концепции, выделили пять ее аспектов:

1) образы личных качеств и атрибутов, т.е. разнообразные представления о себе, которые постепенно связываются и упорядочиваются;

2) оценки самоценности или самооценки. У человека формируется представление не только о собственных атрибутах как таковых, но и об их ценности. В аффективных моделях самоценность связывается преимущественно с эмоциональными состояниями, концентрирующимися вокруг чувства принятия и достижения. В когнитивных моделях самооценка рассматривается в связи с сознательными мыслительными процессами, когда человек, по сути, «вычисляет» свою самоценность, складывая сильные и слабые стороны и взвешивая их с такими критериями, как личная значимость;

3) представление о самоэффективности, т.е. восприятие собственной компетентности; представление о способности совершить определенные действия, которые приведут к успеху;

4) метакогнитивные знания и стратегии самоконтроля, т.е. знания о собственных мыслительных процессах и о факторах, влияющих на поведение, а также способность контролировать свои эмоции и побуждения, обусловливающие те или иные тенденции поведения;

5) стандарты самооценки, т.е. личные критерии того, насколько достойно то или иное действие. Содержание стандартов во многом определяется социальными факторами. В процессе развития происходит интериоризация оценочных стандартов, которые начинают выступать в качестве основы для самооценок.

Дж.Капрара и Д.Сервон подчеркивают, что перечисленные аспекты «Я», хотя и представляют собой самостоятельные психические процессы, однако функционируют согласованно, как целостная система, образуя интегрированную Я-систему (5, с.29).

Некоторые авторы рассматривают самосознание, выделяя его компоненты. Так, например, существует мнение о трехкомпонентном строении самосознания, включающем когнитивную, аффективно-оценочную и регулятивную составляющие.

Итоговым результатом работы единства когнитивной и эмоциональной сторон самосознания является образ-Я, Я-концепция. Для разграничения данных феноменов существует два подхода. Первый заключается в определении этих понятий как синонимичных, второй же - в поиске фиксированных различий. В русле этого подхода наибольший интерес представляет мнение А.В.Захаровой. Она разделяет образ-Я и Я-концепцию по степени их структурной организованности и устойчивости, динамичности во времени. Образ-Я, по ее мнению, есть некое «…динамичное многообразие функционирующих в непрерывном единстве представлений субъекта о себе», а «Я-концепция, отражает функционирование знаний субъекта о себе на более высоком уровне как сложившейся, иерархически организованной, относительно устойчивой системы. Я-концепция - константный компонент самосознания, определяющий общее отношение личности к себе, ее самочувствие, детерминирующий не только восприятие ею разных сторон собственной личности, но и окружающего мира» (3, с.43).

По мнению Е.Т.Соколовой, образ-Я - интегративное установочное образование, включающее следующие компоненты: когнитивный как образ своих качеств, способностей, возможностей, социальной значимости, внешности и т.д.; аффективный как отношение к самому себе (самоуважение, себялюбие, самоунижение и т.д.), в том числе и как к обладателю этих качеств; поведенческий как реализация на практике мотивов, целей и условий в соответствующих поведенческих актах (11, с.45).

В.В.Столин рассматривает вертикальное строение самосознания в трех уровнях: индивидном, социальном и личностном. Индивидному уровню присуще самосознание «человека Природного», выражающее осознавание человеком своих индивидных свойств. На социальном уровне имеем самосознание «человека Социального», выражающее осознание им своих социальных норм и ролей, приобретенных социальных установок и ценностных ориентаций. Личностный уровень представлен самосознанием «человека Личности», выражающего осознание им своих личностных свойств: характера, способностей, мотивов, личностного выбора, жизненного смысла и др. В.В.Столин также различает и единицы самосознания соответственно трем уровням: «на уровне органического самосознания такая единица имеет сенсорно-перцептивную природу; на уровне индивидуального самосознания предполагает оценку человека окружающими и его самооценку; на уровне личностного самосознания такая единица полагает конфликтный смысл Я, проясняющей для личности значение ее же собственных свойств и сигнализирующей об этом в форме эмоционально-ценностного отношения к себе» (12, с.68).

Под самосознанием, таким образом, понимается процесс познания человеком самого себя, в результате которого образуется представление о себе в качестве субъекта действий и переживаний (образ-Я) и складывается эмоционально-ценностное отношение к себе. Самосознание является не только процессом, не только свойством, не только результатом, но и предпосылкой, важнейшим условием психического развития человека.

Проблема самосознания относится к центральным, основополагающим научным изысканиям в отечественной и зарубежной психологии. Определение ключевых позиций о природе, сущности, структуре самосознания и его роли в развитии человека является основанием анализа проблемы изучения особенностей «образа-Я».

Для характеристики самосознания психологи используют различные термины и объяснительные принципы: «Я», «Я-концепция», «образ-Я»,«самость» и др., которые

тесно связаны между собой чаще всего как свойство, процесс и результат. Обратимся к анализу ключевых вопросов о природе и сущности самосознания в современной психологической науке.

Таким образом, национальная идентичность, этническое самосознание, Я-концепция как форма самопознающего, самоутверждающего сознания в саморепрезентации человека и в истории народа выполняет особую роль. Выявление общей закономерности функционирования этого феномена в общественно-историческом процессе способствует более глубокому пониманию внутренних источников духовной жизни, жизнеспособности этноса, особенно в поликультурных условиях гуманитарного образования.

Итак, научное значение исследуемой проблемы обусловливается значимостью концептуального решения проблемы статуса национального самосознания для конкретно-научного исследования духовных феноменов этнического менталитета, национальной психологии.

В современных условиях необходим особый подход к проблеме самосознания, особенно в полиэтнических государствах. Обязательно становление мультикультуральных ценностей через национальное и общечеловеческое, обеспечивающее интеграцию знаний о жизненном пути человека в целях педагогического образования и воспитания личности.

**Ключевые слова:** этническое самосознание, Я-концепция, глобализация, национальная идентичность, самооценка, самопонимание, народный дух, культура, осознанные представления, этнопедагогика.

## Список использованной литературы

1. Абульханова К.А. Сознание как жизненная способность личности. //Психологический журнал. Т.30. 2009.

2. Бекова Ш.Дж. Особенности этнического самосознания и учет его в социализации личности. Актуальные вопросы психологической науки. Материалы III Международной конференции. Челябинск, 2015.

3. Захарова А.В. Генезис самооценки. Автореф. докт. дис. М., 1989.

4. Исламшина Т.Г. Этнические ценности полиэтнического общества. Казань: Изд-во КГТУ (КАИ), 2008.

5. Капрара Дж., Сервон Д. Психология личности. СПб., 2003.

6. Леонтьев А.Н. Деятельность. Сознание. Личность. М., 1975.

7. Мерлин В.С. Проблемы интегрального исследования индивидуальности. Пермь, 1977.

8. Московичи С. Век толп. Исторический трактат по психологии масс. /Пер. с франц. М.: Центр психологии и психотерапии, 1998.

9. Мухина В.С. Возрастная психология: феноменология развития, детство, отрочество. М., 1999.

10. Рубинштейн С.Л. Основы общей психологии, 1946.

11. Соколова Е.Т. Самосознание и самооценка при аномалиях личности. М.: Изд-во МГУ, 1989.

12. Столин В. В. Самосознание личности. М.: Изд-во МГУ, 1983.

13. Тульчинский Г.Л. Постчеловеческая персонология. Новые перспективы свободы и рациональности. СПб.: Алетейя, 2002.

14. Эриксон Э. Идентичность: юность и кризис /Пер. с англ. М.: Прогресс, 1995.

**Cəmilə SƏFƏROVA**

## ETNİK MƏNLİK ŞÜURUN, «MƏN» KONSEPSİYASININ ÖYRƏNİLMƏSİNƏ BƏZİ YANAŞMALAR

### Xülasə

Məqalədə qloballaşma şəraitində etnik mənlik şüurunun və «Mən» konsepsiyasının formalaşması xüsusiyyətləri nəzərdən keçirilir. Milli və etnik mənlik şüurunun ümumi ilə xüsusinin nisbəti problemi kimi araşdırılması ciddi aktuallıq kəsb edən məsələdir.

Müəllif qarşıya qoyulmuş məqsədə uyğun olaraq Z.Freyd, E.Erikson, S.L.Rubinşteyn, B.S.Muxina, V.V.Stolin, E.T.Sokolova və başqa məşhur psixoloqların işlərini nəzərdən keçirir.

Məqalədə ictimai-tarixi prosesdə bu fenomenin fəaliyyətinin ümumi qanunauyğunluqlarının üzə çıxarılmasının mənəvi həyatın daxili mənbələrini, etnosun, xüsusən humanitar təhsilin çoxmədəniyyətlilik şəraitində yaşam qabiliyyətini daha dərindən başa düşməyə kömək etdiyi qeyd edilir.

**Açar sözlər:** etnik mənlik şüuru, Mən-konsepsiya, qloballaşma, milli identiklik, özünüqiymətləndirmə, özünüdərketmə, xalq ruhu, mədəniyyət, dərk olunmuş təsəvvürlər, etnopedaqogika.

**Jamalya SAFAROVA**

## SOME APPROACHES TO STUDYING ETHNIC SELF-CONSCIOUSNESS, ME-CONCEPT

### Summary

In us noted that studying ethnic self-consciousness with in the bounds of the national and multicultural may be considered as the problem of the general and private which always presented considerable urgency.

In connection with an object in view the author analyzes works by such known authors, as Z.Freud, E.Erikson, Rubinshtejn S.L., Mukhina V.S., Stolin V.V., Sokolova E.T.

In the article it is noticed that revealing the general regularities law of functioning this phenomenon in socio-historical process promotes deeper understanding of internal sources of a spiritual life, viability of ethnos, especially in polycultural conditions of numanities education.

**Keywords:** ethnic consciousness, Me-concept, globalisation, national identity, self-estimation, self-understanding, national spirit, the culture, the realised representations, eth-nopedagogics.

UOT 159.9

**Fatimə BAYRAMOVA**
*doktorant, BDU,*
*k. e. i., AMEA İqtisadiyyat İnstitutu*

# İNTUİSİYANIN QƏRAR QƏBULUNDA ROLUNUN ELMİ–NƏZƏRİ CƏHƏTLƏRİ*

Müasir həyat həddindən artıq dinamikdir. Siyasətdə, iqtisadiyyatda, gündəlik həyatımızda baş verən hadisələr, proseslər bizim düşünməmiz üçün zaman buraxmır. Zaman azlığı bizi problemləri "indi və burda" prinsipi ilə həll etməyimizə sövq edir. Məhdud zaman da tez bir şəkildə qərar qəbulu tələb edir. Bir qrup alimin fikrincə, stressli anlarda insan öyrəndiyi hər şeyi unudur, özündə olmayan məlumatlar əsasında çıxış edərək qərarlar qəbul edir. Bu an intuisiyamız qətiyyətli addım atmağımıza yardım edir. Digər qrup alimlər, rəhbər və liderlərdə intuisiyanın vacib keyfiyyətlərdən biri olduğunu qeyd edirlər. İntuisiyanı mükəmməl təhsildən, ensiklopedik bilikdən üstün tuturlar. Qərar qəbulunun mümkün variantlarının dərin analizi üçün hər zaman vaxtımız və vəsaitimiz olmur. Nəticə etibarilə biz etiraf etməliyik ki, qeyri – müəyyən və çoxfaktorlu şəraitdə ənənəvi metodlar faydasızdır. Alətlər metodu, sınaq və səhvlər metodu keçmişdə qalıb, buna nə zaman var, nə də lazımi vəsait. Düzgün qərar ani şəkildə insanı tamamilə yüksək bir səviyyəyə qaldırdığı kimi, eyni zamanda səhv addım da ideyanı, onun müəlliflərini və icraçılarını məhv edə bilər. Bu səbəbdən də qərar qəbulu prosesi özlüyündə çox mürəkkəb bir prosesdir.

Cəmiyyət intuisiyanı insanın yüksək keyfiyyəti kimi qiymətləndirir, lakin bu keyfiyyətin özünəməxsus iş mexanizmi, insanda həmin keyfiyyətin ölçülməsi metodu və s. kimi bir informasiya olmadığında, intuisiyaya bir qədər ehtiyatla yanaşılır. Adətən intuisiyaya heç bir çıxış variantı tapmadıqda müraciət edirlər. Dövrümüzün spesifik xüsusiyyətlərindən biri praktik olaraq hər kəsdən (məktəblidən, təqaüdçüdən, icraçıdan və ya rəhbərdən) intuitiv səviyyədə ani qərar qəbulu tələb etməkdir. Faktiki olaraq hər birimiz öz həyatımızın top – menecerik və hər birimiz daim qərar qəbul edir, nəyi necə etmək, növbəti addımı hansı tərəfə atmaq və s. kimi qərarlar həyata keçiririk.

Alim və mütəxəssislər məntiqə əsaslanaraq elmi kəşf edə bilməzlər. Axı istinad olunan məntiqi kəşflərin özünün də müəyyən çərçivələri və hüdudları vardır. İntuisiyanın insanda hansı səviyyədə olması barəsində müəyyən testlər aparmaqla öyrənmək mümkündür. İntuisiya istiqamətlənmiş və "peşəkarlaşmış" kimi xüsusiyyətlərə məxsusdur. Aydındır ki, intuisiyanın köməyi ilə insanın parametr xüsusiyyətlərini öyrənmək mümkündür. Onların bir təbiəti var, o da mənəvilikdir. Geriyə yalnız mənəvi dünyanı dərk etmək üçün intuisiyadan düzgün istifadə etmək qalır.

Fəlsəfə fikir tarixinin bütün dönəmlərində intuisiya fenomeni diqqət obyekti olmuşdur. Rasionalistlər (XVII – XVIII ) intuisiyanı həqiqəti aşkarlamanın intellektual növü kimi səciyyələndirirdilərsə, XIX əsrdə intuisiya – intellektdən əvvəl gələn və ondan asılı olmayan kimi şərh edilirdi.

Məhz XIX - əsrdə intuitiv dərketmə problematikası bazasında yeni fəlsəfi cərəyan – intuitivizm ( A.Berqson) meydana çıxdı. Bu cərəyanın əsas mahiyyəti ondan ibarət idi ki, intuisiya və intellekt qarşı – qarşıya qoyulurdu. Yeri gəlmişkən qeyd edək ki, psixologiyada hər iki element vahid prosesin ünsürləri kimi qəbul edilir.

---

* Məqalə fəlsəfə.ü.f.d. dosent. Mayis Gülalıyev tərəfindən çapa məsləhət görülüb.

Ümumiyyətlə, fəlsəfi fikir uzunmüddətli dövr ərzində intuisiya “konsepsiyasını” – onun qnoseoloji, psixoloji və “məişət” xarakterli interpretasiyalarına fikir vermədən – deduktiv əqli – nəticələrlə formalaşdırmağa çalışmışdır. Şübhə yoxdur ki, müasir epistemologiyada intuisiya anlayışı anlamanın elmi (rasional) mexanizmlərinə istinadla səciyyələndirilməli və yuxarıda qeyd etdiyimiz üçlüyün fərqli fenomenlər olduğu faktına xüsusi diqqət yetirilməlidir.

Qeyd etmək lazımdır ki, psixologiya intuisiya fenomenini yaxın zamanlardan etibarən nəzərdən keçirməyə başlamışdır. Aktuallaşma – Qərb psixoloqlarının intuisiyaya verdiyi önəmdən sonra daha da yüksəlmişdir.

İntuisiya, latınca intuitio – sözündən götürülüb, “diqqətlə baxmaq” anlamını verir. İntuisiya – təxəyyül, empatiya, əvvəlki təcrübə, “hiss” və diqqətliliyə istinadla məsələlərin eynianlı şüuraltı nəticələr (qənaətlər) vasitəsi ilə həlli metodudur. İntuitiv qərarın formalaşması prosesi birbaşa şüurlu nəzarətdən kənarda baş verir.

K.Yunqun psixoloji konsepsiyasında intuisiya – insanın özünə və ətraf mühitə münasibətini müəyyənləşdirən, həyati əhəmiyyətli qərarların qəbulu üsulu kimi 4 əsas psixoloji funksiyadan biri keyfiyyətində xarakterizə olunur.

Analitik psixologiyanın banisi (K.Yunq) intuisiyanı şüursuzluqla bağlı yaradıcılığın gizli ilkin mənbəyi kimi xarakterizə edir: “... O, hissi qavramanın irrasional funskiyası olmaqla... hissedən subyektə şüursuzluq yolu ilə ötürülür” (1,s.324-329). K.Yunq, eyni zamanda, intuisiyanın konkret və abstrakt formalarını fərqləndirir. Əgər intuisiya – faktiki olaraq görünən şeylərə aiddirsə, yəni hissetmədən birbaşa asılıdırsa, onda konkret hesab olunur. Yox, əgər söhbət ideal əlaqələrə münasibətdən gedirsə, bu halda intuisiyanın abstrakt forması ön plana çıxır.

D.Kanemana görə intuisiya – məntiqi mühakimələr və sübut olmadan həqiqətin birbaşa aşkarlanması üsuludur [2, s.42]. Digər yanaşmaya görə intuisiya həqiqətin hiss orqanları tərəfindən qavranılmayan və digər həqiqətlərdən məntiqi təhlil vasitəsilə əldə edilməyən birbaşa ağılla aşkarlanmasıdır.

K.Yunqdan fərqli olaraq (intuisiya – kollektiv şüursuzun insana münasibətdə müstəqil şəkildə mövcud olan arxetiplərini ifadə edir) A.Maslou insanın kreativlik qabiliyyətinə daha böyük diqqət yetirir və onun interpretasiyasında intuisiya – “insan təbiətinin dərinliklərində” gizlənən yeni ideyaların toplanması, ümumiləşdirilməsi mənbəyi keyfiyyətində çıxış edir [3,s.90]. Bir sözlə, intuisiyanın təzahürü şəxsiyyətin inkişaf səviyyəsi, fantaziyası, yuxugörmələri, bədii yaradıcılığı ilə birbaşa bağlıdır. Digər yanaşmalarda da oxşar mövqelər müşahidə edilir [4,s.90]. Yəni əsas diqqət intuitivliyin şüursuz xarakteri üzərinə yönəldilir və bu aspektdən də intuisiya – idrakın əsas formalarından ( hissi və rasional) ayrılır. Amma əksər tədqiqatlarda da qeyd edildiyi kimi, yaradıcı intuisiya və məntiq idrak prosesində üzvi vəhdət halında olur.

İntuisiyanın təbiəti ilə bağlı çoxlu sayda müxtəlif səciyyəli interpretasiyalar mövcuddur. Bu anlamda hər hansı bir birmənalılıqdan danışmaq mümkün deyildir [5, s.145].

M. Yaroşevski yazır ki, “... intuisiyanın yeni anlamına ehtiyac var. Elə anlam ki, həm dahi, həm də meymuna xas olan “münasibətlərin qəflətən anlaşılması” kimi aktla və effektlərlə məhdudlaşmasın” [6,s.14].

-İntuisiya: əldə edilməsi yolları və şərtləri dərkedilmədən yaranan bilikdir. Belə qəbildən olan bilik subyektin “bilavasitə baxışının” nəticəsi kimi meydana çıxır [7,s.127].

-İntuisiya: heç bir sübut olmadan birbaşa baxışla həqiqətin əldə edilməsi qabiliyyətidir. Psixoloji aspektdən intuisiya real dünyanın predmetləri və hadisələri arasındakı əlaqələri bilavasitə əks etdirir [8,s.48].

-İntuisiya: məntiqi bağlılığı yaxud məntiqi nəticə əldə etmək üçün kifayətedici əsas olmadan axtarış oriyentirləri əsasında məsələlərin həllinin tapılmasını ehtiva edən evristik prosesdir.

-İntuisiya: şüurlu düşüncə və mühakimə olmadan birbaşa yolla bilik əldə edilməsi yaxud anlama üsuludur. Onun iki müxtəlif konnotasiyası mövcuddur:

1.Bu proses birbaşa baş verir və müəyyən dərəcədə mistik səciyyə daşıyır.

2.Ən incə siqnal və əlaqələrə cavab reaksiyası kimi çıxış edir.

Təbii ki, bütün definisiyaların hamısını əks etdirməyə lüzum yoxdur. Problemin qeyri – müəyyənliyi, müxtəlif cür yozumların olması yekdil yanaşmanın yoxluğunu anlamaq aspektindən sadalananları kifayətedici hesab etmək olar.

Aparılan tədqiqatlar göstərir ki, yüksək səviyyəli menecerlərin böyük əksəriyyəti (80%-i) fəaliyyətlərində hər hansı bir ciddi problemin yarandığını "qeyri-formal informasiya mübadiləsi və intuisiya" əsasında anlaya biliblər [9,s.75-76].

P.Simonov yazır ki, iki qəbildən olan hadisələr idrak sferasından kənardadır:

1. Sırf individual təyinatlı uyğunlaşma reaksiyası: daxili orqanların requlyasiyası, hərəkətin anlaşılmayan detalları, emosional çalarlar və onların zahiri təzahürü.

2. Beyinin dərkedilməyən fəaliyyət formaları, yaradıcılıq mexanizmi, hipotezlər, öngörmələr, fəhm.

İntuitiv təfəkkür emosional və fizioloji sferaların məcmu reaksiyası əsasında meydana çıxır. Əslində intuisiyanın "qəflətən" gəlişi uzunsürən və gizli idrak prosesinin sonunda özünə yer alır. Onun əsas vəzifəsi – optimal həll variantının tapılması və şüurun yenı tapılana yönəldilməsidir.

İntuisiyanın iki müxtəlif fəaliyyət mexanizmi mövcuddur: "... situasiyanın ani təhlili əsasında ekspertin düşüncə prosesinin yekunlaşması; subyektin şüurlu niyyəti ilə bahəm dərkedilməyən, amma fəaliyyət səviyyəsində təzahür edən təcrübəsi" [10,s.78].

Q.Saymon hesab edirdi ki, intuisiyanın təbiəti müvafiq strukturlaşmış təcrübənin mövcudluğu bazasında situasiyanın ani olaraq "yaxalanmasında gizlənibdir".

Bundan fərqli olaraq, məntiqi təfəkkürdə "anilik" yoxdur. Məntiqi təfəkkür nəticəyə yalnız ardıcıl şəkildə formalaşdırılan əqli nəticələr "zənciri " vasitəsilə gələ bilir. Eyni zamanda onlardan ya biri, ya da digəri "işə" düşür. Yəni məntiqi və intuitiv təfəkkür heç vaxt birlikdə fəaliyyətdə olmurlar. İntuitiv təcrübə subyektin iradəsindən və diqqətindən kənarda olandır. Qeyd edilən müxtəliflik yaxud birlikdə olmamaq təsbiti Y. Ponamaryevin apardığı eksperimental tədqiqatda sübuta yetirilmişdir.

Xarici psixoloqların bir qrupu (Bover K., Parker K. və b.) hesab edir ki, intuitiv və rasional təcrübə antaqonist məzmunlu deyildir [11,s.72]. İdarəetmənin müasir neorasional yanaşması rakursundan isə intuisiya qərarların rasional qəbulu üsulu kimi qəbul edilir.

Müasir idarəetmə təcrübəsinin ifrat dərəcədə mürəkkəbləşməsi, qeyri – müəyyənliyin əhatə dairəsinin genişlənməsi şəraitində intuitiv yanaşma xüsusilə mühüm əhəmiyyət kəsb edir. Belə ki, heç bir situasiya ilə bağlı tam həcmli informasiya əldə etmək prinsipcə mümkün deyildir. Digər tərəfdən vaxtında qəbul edilməyən qərar – düzgünlük dərəcəsindən asılı olmayaraq keyfiyyətini itirir. Həm də qərarın düzgünlüyü yaxud effektivliyi, bir qayda olaraq, yekunda, nəticədə bəlli olur. Buna görə də öngörmə qabiliyyəti, situasiyanın dəyişməyə meyilliliyi və onu yaradan səbəblər əsas təmayüllərin nədən ibarət olması haqqında məlumatlara böyük ehtiyac yaranır ki, bu da mahiyyət etibari ilə intuisiyanın təzahürü aspektindən gerçəkləşə bilər.

Bir sıra araşdırmalarda intuisiya – psixika sferasında obraz və anlayışların müstəqil fəaliyyəti əsasında formalaşmış yüksək intellektual yaranış kimi interpretasiya olunur. Bu halda intuisiya mexanizmləri hansısa bir ideal konstruktlar kimi götürülür ki, onların da hərəkəti şüuraltı proseslərin xüsusi məntiqi ilə aşkara çıxarılır. İntuisiyanı anlamaq ( yaranma mexanizmi nöqteyi – nəzərdən) üçün "... şüuraltı təfəkkürün məntiqi strukturunu xüsusi olaraq araşdırmaq və mümkündürsə şüuraltı intellektual proseslərin formal məntiqi sistemini

yaratmaq" lazımdır. Göründüyü kimi, bu yanaşmada da intuisiyanın yaranma mexanizmi və intuitiv qərar qəbulunun inkişafından deyil, artıq hazır intuitiv üsullardan bəhs edilir. Və aydın olmur ki, şüurlu məntiqdən şüuraltına və əksinə keçid necə baş verir.

Q.Klakson yazır ki, intuisiya çox müxtəlif ola bilir. Əgər biz intuisiyanı – panika vəziyyətində impulsiv reaksiya kimi "işə salırıqsa", onda , ona etibar etmək olmaz... İntuisiyanı inkişaf etdirmək və "qidalandırmaq" lazımdır. Onun fikrincə, intuisiyanın daha yaxşı "işləməsi" üçün aşağıdakı şərtlərə diqqət yetirmək zəruridir.

1. İntuisiyanın mühümlüyü hamının qəbul etdiyi, anladığı mühit, eləcə də zəkanın fəaliyyətinin elə rejimləridir ki, intuisiya "işə düşə bilir".

2. Qərar qəbul edə biləcək liderlərin mövcudluğu.

İntuisiyanın fenomenoloji xarakteristikalarını iki qrupda birləşdirmək olar:

3. Subyektin özünün nöqteyi – nəzərindən yaradıcı təfəkkür proseslərinin "axınının" təsviri:

- Birbaşalıq: yaxud problemi müzakirəyə çıxarmadan həll etmək;
- Reduksiya: həllin axtarışı prosesi əqli – nəticələr zəncirinin yaradılmasına deyil, inteqrativ obraz yaxud "açar" anlayışının formalaşdırılmasına yönəlir;
- Qapanma yaxud prosesin (axtarış prosesinin) son nəticəsi istisna olmaqla, gedişi yaddaşda saxlanmır.

4. İntuitiv prosesin müvəffəqiyyətli gedişi üçün zəruri olan xarici, obyektiv şərtlərin təsviri.

- Bilavasitəlilik: subyektin müəyyən biliyə malik olması (növbəti yaradıcı addımın mümkünləşməsi imkanları ilə bağlı) zəruriliyi;
- Dərkedilməklik: şüurlu axtarış gərginliyinin yaradılması (həqiqi həllin müqəddəm şərti kimi);
- Məntiqilik: ümumqəbul edilmiş məntiqi struktur formasında alınan qərarların obyektivləşdirilməsi.

Bəzi tədqiqatçılar yaradıcı prosesi, intuisiya mexanizmlərini ilham, kombinə etmə, sıçrayış, fantaziya və s. kimi anlayışlarla şərh etməyə cəhd göstərirlər.

T.Oyzerman intuisiyadakı gözlənilməz nəticəni "... Fasiləsizlikdə özünəxas fasilə (dialektik sıçrayışda)" kimi interpretasiya edir. Amma bu halda da fenomenoloji yanaşma çərçivəsindən kənara çıxılmır. Və yenə də məlum olmur ki, intuisiya necə sıçrayış edir. Onun genezisi və təbiəti necədir sualı yenə də açıq qalır.

Psixoloqlar, bir qayda olaraq, intuisiyanın "fəaliyyətə" keçməsini baş beynin sağ və sol yarımkürələri ilə əlaqələndirirlər: "... Obyektlərin əlaqələri və münasibətləri haqqında yeni informasiyanın əldə olunmasına gətirib çıxan fikri (düşüncə) proses həmişə hər iki yarımkürənin iştirakını tələb edir" [12,s.313]. Və bu proses bir neçə etapdan ibarət olur ki, buna uyğun olaraq da yarımkürələrdən ya biri, ya da o birisi dominant mövqeyə keçir. Bir sıra araşdırmalarda sol və sağ yarımkürələrin vəhdətdə olmasını toplanmış sosial təcrübə ilə əlaqələndirirlər. Yəni intuisiya və məntiqin bağlılığı "...hissi əyaninin abstrakt anlayışa transformasiya və əksinə", tipli proses kimi səciyyələndirilir.

Q.Stepanova Qərb psixologiyasında intuisiya probleminə müasir yanaşmaları təhlil edərək belə bir qənaətə gəlir ki, fenomenə ikili baxış formalaşmışdır.

1. Şəxsiyyətin individual xassəsi. Bu halda fenomen haqqında təsəvvür K.Yunqun şəxsiyyətin tipologiyasına əsaslanır. Yəni intuisiya şəxsi xarakteristika, hadisələri hissi qavrama üsulu kimi anlaşılır.

2. Koqnitiv üslubun parametri kimi. Burada intuisiya informasiya emalının – intuitiv yaxud analitik – birinə üstünlük vermə kimi səciyyələndirilir.

Elə burada da qeyd etmək istərdik ki, koqnitiv üslubun hər iki üsulunun qarşılıqlı əlaqədə olması ehtimalı kifayət qədər yüksəkdir.

Şübhə yoxdur ki, intuisiyanı "hərəkətə" gətirənlər insanın tələbatları, motivasiyasıdır. Amma ... "təkan" prosesi təkcə bunlarla yekunlaşa bilməz. Bu problemlə bağlı aparılan tədqiqatların nəticələri göstərir ki, deyilənlərlə bahəm, xalis informasiya səviyyəsində də

hansısa bir hərəkətlilik mövcuddur. Başqa sözlə, intuisiyanın xalis fiziki hərəkəti ilə yanaşı, xalis informativ hərəkəti də reallıqdır. Eyni zamanda, bunların hər ikisi monolit birlikdədir.

İntuisiya – məntiqi şərhin yetərli olmadığı şəraitdə situasiyanın şüuraltı təhlili vasitəsilə qarşıya qoyulan məsələlərin (problemlərin) həllinə gətirib çıxaran mühakimədir. İntuisiya – məntiqi mühakiməni inkar etmir. Əksinə, məntiqlə birlikdə intellektual yaradıcı fəaliyyətə tamlıq, sistemlilik xassəsi verir.

İntuisiya anlayışı – istifadə sferasından asılı olaraq müxtəlif məna çalarları daşıya bilər... İntuisiya – müəyyən qanunauyğunluqların, məntiqi "zəncir"lərin hiss edilməsini, konkret şərtlər yaxud informasiyanın olmadığı şəraitdə təhlil aparma qabiliyyətini, təcrübə ilə determinləşmiş düzgün qərarların ani olaraq qəbulunu və s. özündə ehtiva edir. İntuisiyanın reallaşma üsulları, təzahür formaları şəxsi xüsusiyyətlərdən, təfəkkürün xarakterindən asılı olaraq formalaşır. Bu anlamda intuisiyanın üç növünü fərqləndirirlər:

1) Emosional – cavablar obrazlar şəklində gəlir;
2) Fiziki – seçim zəruriliyi yaxud baş verən hadisə hisslərdəki müəyyən dəyişiklikləri ortalığa çıxarır;
3) Fikri intuisiya – müxtəlif informasiyalar əsasında formalaşır.

R. Qarifullin intuisiya və yaradıcılığın psixologiyası sferasında apardığı araşdırmalara istinadla göstərir ki, psixologiyada iki yanaşma mövcuddur:

1. Şəhredən psixologiya – təbiətşünaslıq elmlərinin prinsip, anlayış və metodlarına əsaslanır. Bu və ya digər psixi hadisənin şərhini psixoloji terminlərə söykənməklə deyil, təbiətşünaslığın metodikasında istifadə etməklə verir.

2. Təsvirçi psixologiya – yalnız psixi reallıqdan çıxış etməklə hadisənin (prosesin) təsvirini verir. Bu bölgünün şərti xarakter daşıdığı şübhəsizdir. Belə ki, mənbənin necəliyindən asılı olmayaraq, anlayışlar dünyası istənilən halda subyektiv məzmun daşıyır. Amma bu heç də o anlama gəlmir ki, hər ikisi "eynigüclüdür". Əslində şərhedən psixologiya bütövlükdə psixika üçün faydasızdır. O, praktiki psixologiyaya heç nə vermir. Praktiki psixologiya – tam şəkildə təsvirçi psixologiyadan qidalanır. Başqa sözlə, təsvirçi psixologiya daha effektivdir. Məsələ burasındadır ki, psixi proseslərin təbiətşünaslıq metodikası ilə şərhi əslində psixikanı deyil, hansısa fiziki prosesləri əhatə edir.

Başqa sözlə, şəhredən psixologiya psixi proseslərə deyil, əsəb proseslərinə istinad edir. Buna görə də, hər iki yanaşma arasında bərabərlik işarəsi qoyula bilməz. R. Qarifullin intuisiyaya bədii yaradıcılığın müxtəlif yanaşmaları bazasında münasibət bildirir və həmin yanaşmalara adekvat şəkildə intuisiyanın növ müxtəlifliyini ortalığa qoyur:

1.Psixoanalitik intuisiya – informasiya, hansı ki, müalicə edir, gərginliyi, əsəbi situasiyanı aradan qaldırır, ruhi vəziyyəti yüngülləşdiri;

2.Arxetipik intuisiya – həqiqətin aşkarlanması xarici informasiyanın psixikanın matrislərində yer alan arxetiplə bağlı informasiya ilə üst – üstə düşməsidir;

3.Dialektik – materialist intuisiya – izmorfizm prinsipinə söykənən intuisiya. Başqa sözlə, nəzərdə tutulur ki, ən kiçik hissəcikdə belə tam haqqında informasiya mövcuddur. Və əsas vəzifə ondan ibarətdir ki, vaxtilə xarici dünyadan bizim şüurumuza daxil olan və şüuraltı səviyyədə yer alan həqiqəti aşkara çıxarmaq mümkün olsun.

Müasir interpretasiyalarda intuisiya "insanın daxilindən inkişaf edən anlama, gerçəkliyin yaşanması, kəşf" kimi şərh edilir. İntuitiv bilik – intuisiya vasitəsilə predmetin mahiyyətini anlama, şeyin mahiyyətinə birbaşa varma, dərketmə deməkdir.

Bu qəbildən olan konseptual baxışlarda intuisiya şəxsiyyətin yaradıcılıq qabiliyyəti nöqteyi – nəzərindən özünü aktuallaşdırma, daxili bütövlük və harmoniya əldəetmə rakursunda nəzərdən keçirilir.

Qeyd etmək lazımdır ki, intuisiyanın təbiəti ilə bağlı məsələ bu gün də açıq qalmaqdadır. Koqnitiv elmlər nöqteyi – nəzərindən intuisiya:

1.Baş-beynin sağ yarımkürəsinin bütövlü, tamlı strategiyalarla, ssenarilərlə işləməsidir;
2.Uzunmüddətli yaddaşın aktivləşməsidir;
3.Dərin qatlarda yerləşən genetik yaddaşın aktivləşməsidir;
4.Hadisə və proseslərin dərin laylarında ("yaradıcı" mexanizmlərində) yerləşən informasiya ilə həmin hadisə və proseslərin maddi səviyyəsi arasında əlaqə yaradandır.

Şübhə yoxdur ki, intuitiv biliyin əsas əlaməti onun izahının olmaması yaxud izahın mümkünsüzlüyüdür. İntuisiyanın müxtəlif koqnitiv mexanizmləri arasında onun əsas tiplərini seçmək olar:

1. Dizpozisiyalı – şüursuza istinadla;
2. Perseptiv – hissi səciyyəli;
3. Assosiativ;
4. Məntiqi;
5. İntellektual intuisiya – izahsızlıq, dərketmənin mümkünsüzlüyü əsas əlamət kimi bütün bu müxtəlifliyi intuisiya adı altında birləşdirir, onun ümumi psixoloji xarakteri kimi çıxış edir.

Yuxarıda göstərilən koqnitiv mexanizmlərin birincisi və ikincisi idrak prosesinin əvvəlki təcrübədən asılılığını müəyyənləşdirən xüsusi şərt kimi təzahür edirlər. Perseptiv intuisiya – hissi idrakın strukturuna daxil olmaqla meydana çıxan əyani obrazların bir sıra xüsusiyyətlərini müəyyənləşdirir. Assosiativ və məntiqi intuisiya isə obrazlı və məntiqi təfəkkürün qanunları çərçivəsində gedən proses kimi səciyyələndirilir. Bir fərqlə ki, subyekt prosesin bütün həlqələrini dərk edə bilmir. Assosiativ intuisiyada fikir əyani – obrazlı təfəkkür, məntiqi intuisiyada isə abstrakt – anlayışlı müstəvidə hərəkətə keçirsə, intellektual intuisiyada (konseptual və eydotik) fikrin (düşüncənin) hərəkəti bir müstəvidən digərinə və əksinə "sıçramaqla" baş verir. Baş beynin yarımkürələri arasındakı fərqliliyi nəzərə almaqla, demək olar ki, bu halda informasiyanın qarşılıqlı mübadiləsi gedir ki, bu mübadilənin nəticəsi olaraq da fikri proseslərin xüsusi tipi – intuitiv təfəkkür formalaşır.

Müəyyən şəraitin formalaşdığı halda intuitiv təfəkkürdə kreativ (yaradıcı) intuisiya "partlayışı" baş verir.

Kreativ intuisiyanın spesifik özəlliyi ondan ibarətdir ki, bu halda anlayış və onun əyani obrazları arasında yalnız əvvəllər mövcud olmuş əlaqələr yenidən bərpa olunmur, eyni zamanda onlar arasında yeni "bağlılıq" formalaşır. Və yekun olaraq, tamamilə yeni anlayışlar və yeni obrazlar meydana çıxır.

Ümumiləşdirmə mövqeyindən çıxış etməklə qeyd etmək olar ki, intuisiyanın psixologiyasında əks istiqamətdə dayanan iki yanaşma mövcuddur:

1) İzomorfizm prinsipi bazasında yanaşma: Ən kiçik hissəcik belə bütöv, tam haqqında informasiya daşıyıcısıdır. Leybnisdə olduğu kimi (monado), hər bir kiçik hissəcikdə bütün dünya mövcuddur. Buna görə də hesab edilir ki, əgər psixikaya xarici reallığın ən kiçik hissəciyi daxil olursa, deməli, eyni qaydada bütün dünya haqqında informasiya qəbul edilir. Amma... ilkin vaxtlarda insan həmin həqiqəti dərk etmir. Yalnız sonralar həqiqət intuitiv formada ortalığa qoyulur.

2) İkinci yanaşmanın konkret mənası ondan ibarətdir ki, tam haqqında biliklər (informasiya) əvvəlcədən psixikada yer almaqdadır. Yəni tam anlayışı – xarici aləmin deyil, psixikanın fenomenidir.

Geniş spektrli baxış hər iki yanaşmanın (müxtəliflik dərəcəsinə baxmayaraq) bir – birini tamamladığını, daha doğrusu ikincinin birincinin təqlidi olduğunu, birincinin – obyekt, ikincinin isə obyektin inikası olduğunu ortalığa qoyur.

Beləliklə, intuisiya:

1) "Aşkar olmayan bilik" kimi çıxış edir: Həqiqətə çıxış prosesi dərkedilmir, onun təsviri çox çətindir, amma əvvəlcədən aparılan şüurlu fəaliyyət və rasional səviyyədə informasiyanın toplanmasını nəzərdə tutur.

2) İntuisiya – şüursuzda yer alan müxtəlif məzmunlu informasiyaları emal edir, müxtəlif assosiyasiyalar, analogiyaları , kiçik detallarda (hansı ki, son ana qədər dərk edilmir), bir sözlə, obrazlar vasitəsilə aktuallaşır.

3) İrrasional başlanğıc keyfiyyətində çıxış edən intuisiya zəkanın fəaliyyətinin buraxılış mexanizmi kimi ənənəvi şablonlar və əvvəlcədən verilmiş (məlum olan) sxemlərdən "azad" olmasını təmin edir.

4) Məhz intuisiyada rasional – irrasional – intuitiv qarşılıqlı təsir və qarşılıqlı keçidin mürəkkəb prosesi formalaşır. Nəticədə, əldə olunan yeni bilik rasional xarakter daşıyır və eyni zamanda, həqiqiliyin əsaslandırılmasına lüzum yaranır. Başqa sözlə, intuitiv bilik – ehtimallı bilik kimi sonrakı verifikasiyaya ehtiyac duyur.

5) İntuisiya – şüurlu və şüursuz başlanğıcın qarşılıqlı çulğalaşması bazasında dünya haqqında tam təsəvvürün formalaşması üsuludur.

6) Nəhayət, intuisiya həqiqətin aşkarlanması üçün yetərlidir. Lakin həmin şeyin həqiqət olduğunu həm özünə, həm də digərlərinə inandırmaq baxımından yetərli deyildir. Bunun üçün sübut lazımdır, adekvat formalı daxili psixi proses təşkil olunmalıdır. Arxetipik intuisiyadan fərqli olaraq (həqiqət əvvəlcədən verilib, psixikada "oturub"), həqiqət aramsız olaraq xarici dünyadan bizim psixikamıza daxil olmaqdadır.

7) Postmodernist intuisiya ; Müxtəlif reallıqların, müxtəlif keyfiyyətlərin, müxtəlif dünyaların qarşılıqlı təsirinə əsaslanır. Məhz bu "toqquşma" müəyyən informasiya doğurur və yeni biliklərə yol açır.

8) Empirik intuisiya; Xarici dünya ilə qarşılıqlı təsirdən doğur.

9) Ruhi – mənalı intuisiya; Öz mahiyyəti etibari ilə intuisiyanın bu növü universal deyil, unikal xarakterli həqiqət və mənanın axtarışı üzərində qərarlaşır. Bu halda söhbət ekzistensiyadan gedir. Ekzistensiya – dünya ilə ruhi bötüvləşmə, elə dünyanın özü, yeganə həqiqət kimi səciyyələndirilir. Yəni essensiyadan fərqli olaraq, konkret varlığın özünəməxsusluğu, özünə oxşarlığın heç birində olmayan spesifik özəllikləri – ekzistensiyadır.

10) Manipulyativ intuisiya; Manipulyasiyaya əsaslanan intuisiya. Məlumdur ki, ümumiyyətlə, intuisiyanın əsasında özünüyanıltma və yanılmaların konstruksiyası prosesləri dayanır. Manipulyasiya da məhz bu anlamda meydana çıxır.

İntuisiyaya – həm müsbət, həm də mənfi yönümlü baxışlar yer almaqdadır. Onu, bəzi müəlliflər [13,s.121], ələlxüsus menecment sferasında, "... Çoxsaylı firmaların bəlalarından biri" kimi səciyyələndirirlər. İntuitiv yanaşmanı kortəbiiliklə, xaotikliklə, "necə alınar – alınar" prinsipi ilə bağlayırlar ki, burada da iki haldan biri yekunlaşır: "... Ya mənfətin, ya da başqa formada firmanın rifahının azalması" ilə!

Bu anlam o deməkdir ki, intuisiyaya əsaslanmaqla həyata keçirilən idarəetmə, qərarların qəbulu rasional deyil, sistemlilikdən uzaqdır.

Amma bir məqam inkar edilməzdir ki, şüursuzun şüur sferasına keçidinin (əlverişli situasiyalarda) potensial imkanlılığı mövcuddur. Və ehtimal etmək olar ki, istənilən şüursuz prosesdə şüurlu elementlər olur və müəyyən situasiyalarda intuisiyanı dərkedilən hala gətirə bilir.

İntuitivliyin yüksəlişinə (qərar qəbulu prosesində) dəstək verənlər sırasına aşağıdakılar aid edirlir:

7. Subyektiv qeyri – müəyyənliyin yüksək səviyyəsi.
8. Faktoloji biliyin məhdudluğu.
9. Məsələnin mürəkkəb struktura malikliyi.
10. Proqnoz hesablamalarının aparıldığı dəyişənlərin davranışı.
11. Zaman pressinqi.
12. Oxşar situasiyalarda qərar qəbulu presendentlərinin məhdudluğu.

Beləliklə, idarəetmə qərarlarında intuisiya, bir qayda olaraq iki formada təzahür edir: intellektual və hissi intuisiya.

Eyni zamanda, müasir psixologiya əksər intellektual qabiliyyətləri, o cümlədən intuisiyanı həm təbii, həm də sosial komponentləri olan məhsul (intellektual məhsul) hesab edir.

## NƏTİCƏ

Elmi – nəzəri istiqamətdə aparılmış tədqiqatdan aşağıdakı nəticələri əldə etmişik:

1. İntuisiya əvvəlki təcrübəyə və yığılmış biliyə əsaslanır.

Qərar qəbul edilən sahədə təcrübə nə qədər çoxdursa, bir o qədər intuisiya dəqiq qərar verməyə yardım edəcəkdir. Ətrafdakılarla məsləhətləşmək də xeyir gətirər, lakin onlar hər zaman sizin üçün doğru olanı bilmirlər. Bütün məsləhətləri qəbul edin, lakin sonda öz ürəyinizə etibar edin.

2. İntuisiya beyin ilə ayrılmaz əlaqəlidir və özündə baş verən hadisələri və sizin həyəcanınızı əks etdirir. Məhz bu səbəbdən də digərlərin məsləhətindən daha çox öz intuisiyanıza güvənməlisiz. İntuisiya sizin bədəninizlə, ağlınızla və ruhunuzla əlaqəlidir, həmçinin sadalananların keçmiş halları ilə sizə bağlıdır. Əgər doğru qərar qəbul etməli olsanız, siz narahatçılıq və həyəcan hiss edəcəksiniz, əgər seçim yalnışdırsa, o zaman sizi gücsüzlük, təşviş və qorxu bürüyəcəkdir.

3. İntuisiya bədənin bütün sinir hüceyrələri ilə bağlıdır. Vacib qərar qəbulu zamanı “daxildə kəpənəklərin uçması” hissi milyonlarla sinir hüceyrələrinin fəaliyyətinin nəticəsidir. Şüuraltı beyin onlara siqnal ötürür və nəticədə siz əsmə və həyəcan keçirirsiniz. Nəticə etibari ilə deyə bilərik ki, nə qədər çox öz intuisiyanıza inanacaqsınız, o qədər sizin intuisiyanız güclü və dəqiq olacaqdır. Tələsməyi dayandıraraq öz daxili səsinizi dinləyə bilərsiniz.

***Açar sözlər:*** qərar qəbulu, intuisiya, psixoanalitik intuisiya, kreativ intuisiya,intuitiv bilik, təcrübə

### İstifadə olunmuş ədəbiyyat

1. Юнг К. Психологические типы. М.: Прогресс – Универс, 1996, 526 с.
2. Канеман Д. Исследования психики: интуиция. Принстон, 2009.
3. Маслоу А. Новые рубежи человеческой природы. М.: Смысл, 1999.
4. Гроф С. Психология будущего. М., 2003.
5. Науменко Е.А. Введение в теорию интуиции и интуитивности. Тюмень, 2013.
6. Ярошевский М.Г. О трех способах интерпретации научного творчества// Научное творчество, М., 1969.
7. Краткий психологический словарь/ Сост. Л.А.Карпенко. М,1985.
8. Платонов К.К.Краткий словарь системы психологических понятий. 2-е изд. М.; Высш.шк,1984.
9. Булатова Е.А. Интуитивные управленческие решения// Проблемы многоуровневого образования. Тез. докл. XV Междунар.науч.–метод. kонф: Н.Новгород, 2012.
10. Ушаков Д.В. Одаренность, творчество, интуиция//Основные современные концепции творчества и одаренности// Под ред. Д.Б.Богоявленской, 1997.
11. Bowers R.S., Regher C.,Balthazard C., Parker K “ Intuition in the context of Discovery// Coqnitive Psychology. N.Y.,1990: vol.22,№1. P.72
12. Лойфман И.Я. Основы гносеологии. Екатеринбург.Ураль, ГУ,1996.
13. Илатовский В.В. Противодействие интуитивистскому управлению в сервисной организации: организационные механизмы// Менеджмент в России и за рубежом, 2006, №6.

Фатима БАЙРАМОВА

# НАУЧНО - ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ РОЛИ ИНТУИЦИИ В ПРИНЯТИИ РЕШЕНИЙ

## Резюме

В статье изучены теоретические направления психологических аспектов роли интуиции в принятии решений. Следует отметить, что интуиция является ключевым инструментом в процессе принятия решений. Несмотря на то что логического объяснения метода и методологии интуиции в науке нет, она играет важную роль в научных открытиях. Нельзя достигнуть результатов, основываясь лишь на логике. В статье также широко исследована роль интуиции в принятии решений, с теоретической точки зрения были проанализированы и резюмированы результаты.

***Ключевые слова:*** принятие решений, интуиция, психоаналитическая интуиция, креативная интуиция, интуитивное знание, практика

Fatima BAYRAMOVA

# SCIENTIFIC - THEORETICAL ASPECTS OF THE ROLE OF INTUITION IN DECISION-MAKING

## Summary

The theoretical directions of psychological aspects of the role of intuition in decision-making are studied in the article. It should be noted that intuition is a key tool in the decision-making process. Despite the fact that there is no logical explanation, method and methodology of intuition in science, intuition plays an important role in scientific discoveries. Achievements can not be obtained based only on logic. In addition, in the article, with the theoretical direction, the role of intuition in decision-making has been widely studied, the results have been analyzed and summarized.

***Keywords:*** decision making, intuition, psychoanalytic intuition, creative intuition, intuitive knowledge, practice

# SİYASİ ELMLƏR BÖLMƏSİ

**UOT 32**

**Zaur ƏLİYEV**
*elmi katib, s. e. ü. f. d, dosent,*
*AMEA Elm Tarixi İnstitutu*

## QARABAĞ XANLIĞI İLƏ OSMANLI DÖVLƏTİNİN DİPLOMATİK ƏLAQƏLƏRİ*

GİRİŞ: *Osmanlı imperiyasının Azərbaycana qarşı yeritdiyi siyasət XVII-XVIII əsrlərdə ciddi dəyişikliyə uğramışdı. Məlumdur ki, Osmanlı imperiyası çox qüdrətli olduğu XIV-XVI əsrlərdə Avropada daha fəal siyasət yeridir və əsas səylərini orada möhkəmlənməyə yönəldirdi. Yalnız Səfəvi dövləti ilə müharibəyə başladığı zaman Osmanlı imperiyası müəyyən müddətdə öz qüvvələrini Azərbaycana və İrana qarşı göndərməli olmuşdu. XVIII əsrin əvvəllərinə yaxın vəziyyət əsaslı şəkildə dəyişdi. Daxilən zəifləmiş Osmanlı imperiyası XVII yüzilliyin sonlarında Avropa dövlətlərinin blokuna qarşı mübarizədə məğlub oldu və xeyli ərazi itirdi. Avropada fəal xarici siyasət yeritmək imkanını itirən Osmanlı dövləti nəzərlərini Azərbaycana və İrana qarşı yönəltdi. Bu zaman həmin ölkələrin daxil olduğu Səfəvi dövləti faktiki olaraq dağıldığından onları tutmaq çətin iş deyildi. Rus çarı I Pyotrun Cənubi Qafqazı və İranı zəbt etməyə və bununla da Osmanlı imperiyasının şərq cinahını təhlükə altına almağa yönəldilmiş siyasəti də osmanlıları bu rayonu ələ keçirməyə təhrik edirdi. Qeyd edək ki, bir sıra Azərbaycan xanlıqları yarandıqları gündən Osmanlı imperiyası ilə sıx münasibətlər yaratmağa, onun dəstəyini qazanmağa çalışırdı. Şəkili Hacı Çələbi xan artıq 1747-ci ildə Osmanlı baş vəzirinə məktub göndərərək, Şirvan və Dağıstan əhalisinin İrana qarşı üsyan etdiyini, bu əsnada Nadir şahın öldürüldüyünü yazır, yeni bir şah taxta çıxdığı halda rusların və qızılbaşların müdaxiləsinə qarşı onların müdafiə olunmasının zəruriliyini vurğulayırdı.*

Əsası 1747-ci ildə qoyulmuş və 1822-ci illədək mövcud olmuş Qarabağ xanlığının dövlətçilik tariximizdə rolu və yeri danılmazdır. Nadir şah öldürüldükdən sonra onun yaratdığı imperiya dağıldı. Nadir şah imperiyasının dağılması nəticəsində Azərbaycan ərazisində xırda feodal dövlətlər yarandı. Bunlar ayrı-ayrı xanlıqlar idi. Bu xanlıqların timsalında Azərbaycan özünün dövlət müstəqilliyini bərpa etdi. Gəncə xanlığı ərazisində iki xanlıq – Gəncə və Qarabağ xanlıqları yarandı. Beləliklə də Azərbaycan ərazisində iyirmiyə qədər müstəqil və yarımmüstəqil feodal xanlıqlar təşəkkül taparaq öz varlıqları uğrunda tarix səhnəsinə çıxdılar. Olduqca çətin tarixi şəraitdə Ağdamın Sarcalı oymağından olan, Cavanşirlər sülaləsinin nümayəndəsi, görkəmli dövlət xadimi və sərkərdə olan Pənahəli bəy Qarabağ xanlığının əsasını qoydu.

Kiçik Qaynarca (1774) müqaviləsinə əsasən Osmanlı dövləti Krımı itirdikdən sonra, itirilmiş mövqelərini bərpa etməyin ən mühüm istiqamətlərindən biri kimi Cənubi Qafqazda nəzarətini gücləndirməkdə görürdü. Çünki Kiçik Qaynarca sülhü ilə qane olmayan II Yekaterina "Yunan layihəsi" adlanan layihə irəli sürmüşdü. Bu layihəyə əsasən türklər Avropadan qovulmalı və "Yunan imperiyası" bərpa olunmalı idi. Osmanlı dövlətinin əvvəlki qüdrətinin sarsıldığını bilən II Yekaterina bundan istifadə edərək Osmanlı dövlətini məhv etmək qənaətinə gəlmişdi. Bunun üçün Qara dənizə çıxmaq və Krımı Rusiyaya ilhaq etmək, daha sonra isə İstanbulu və Egey dənizindəki adaları Rusiyanın himayəsi altına alaraq sözdə bir yunan dövləti qurmağı planlaşdırmışdı.

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb

Elə buna görə də Osmanlı dövləti ona yardım üçün müraciət edən Azərbaycan xanlıqları ilə əlaqələrin genişləndirilməsinə diqqətini daha da gücləndirir.Qeyd edək ki, Qarabağ xanlığına Osmanlı imperiyası ərazisindən meyvə qurusu, müxtəlif örtüklər, ipək mallar və kofe, Tiflisdən - müxtəlif parçalar, mahud, çay, qənd, rom gətirilirdi.[1]

Qeyd etmək lazımdırki, Osmanlı sarayında və əhali arasında Qarabağ barədə ətraflı məlumat var idi. O illərdə sarayda xidmət edən və eyni zamanda məktəblərdə dərs deyən qarabağlı alim və mütəfəkkirlər sayəsində Qarabağ kifayət qədər tanına bilmişdi.Bunların sırasında Sənanəddin Yusif, Dədə Ömər Rövşəni, İbrahim Gülşəni, Məhəmməd Bərdəi, Məhyəddin Məhəmməd və sairələrinin adını çəkmək olar. Eyni zamanda III Murad (1574-1595) dövründə Qarabağ ərazisi 1590-cı ildə Osmanlı dövləti ilə Səfəvilər arasında imzalanan İstanbul sülh müqaviləsinə əsasən Osmanlı idarəsinə alınmışdır (3,s.215-233).

Qarabağ xanlığı ilə Osmanlı dövləti arasında ilk yazışmalar 1769-cu ildən başlanmışdır . 1768-1774-ci illər rus-türk müharibəsində Azərbaycan xanlıqlarının dəstəyini almaq istəyən Osmanlı dövlətinin təşəbbüsləri sayəsində iki tərəf arasında diplomatik əlaqələr qurulmuşdu. Qarabağ xanlığına gələn Osmanlı elçisinin məktubunda ruslara qarşı birlikdə mübarizə aparmaq istədikləri bildirilmişdi.

Bu məqsədə nail olmaq üçün Osmanlı sultanı I Əbdülhəmid Qarabağ hökmdarı İbrahimxəlil xana məktub göndərir (5,s.44-50).

Məktubda İbrahimxəlil xana Rusiya imperiyasına qarşı vuruşmağa hazır olmaq təklif olunurdu. Məktubda ona eyni zamanda Şəki xanı Məhəmmədhəsən xana, Təbriz xanı Xudadat xana, Ərdəbil xanı Əli xana, Quba xanı Fətəli xana və başqalarına müraciət edib, onları da bu işə qoşmağın zəruriliyi dönə-dönə xatırladılırdı. Osmanlı imperiyasının Azərbaycan xanlıqlarından yardım gələ biləcəyinə şübhə ilə baxmağa əsası var idi. Belə ki, bu dövrdə də Azərbaycan xanlıqları arasında kifayət qədər gərgin qarşılıqlı münasibətlər yaranmışdı. XVIII əsrin lap ortalarından yenicə meydana çıxmış Azərbaycan xanlıqları arasında demək olar ki, həmişə mövcud olmuş mürəkkəb münasibətlərin gərginliyi əsrin son rübündə xarici qüvvələr tərəfindən məxsusi olaraq qızışdırılırdı.

1783-cü ildə Azərbaycan və Qafqaz müsəlmanlarına Osmanlı sultanı I Əbdülhəmid tərəfindən imzalanan fərman verilmişdi. Bu fərmanda onların himayə edilməsi əmr olunmuşdur. Bu isə Azərbaycan xanlıqları ilə olan münasibətlərin qorunub saxlanılmasının şəxsən padşahın özünün diqqət mərkəzində olduğunu göstərirdi (6,s.114).

1787-ci ildə Qarabağ xanı İbrahimxəlil xanın məktubu əsasında Ərzurum və Çıldır valiləri, Qars mühafizə və Bəyazid mütəsərriflərinin adından İstanbula göndərilən məktubda xanlar arasındakı münasibətlərdən bəhs olunurdu.

Osmanlı dövləti Rusiyaya qarşı müharibədə Azərbaycan xanlarının da hərbi qüvvəsindən istifadə etmək istəyirdi. Bu məqsədlə 1784-cü ildə qəbul olunmuş xətti-hümayunda «ləzgi əsgərləri və Azərbaycan xanlarının Dövləti-Aliyyəyə cəlb olunmasına səyin gərək» olduğu göstərilirdi.

Qarabağ hökmdarı İbrahimxəlil xan 1794-cü ildə sultana göndərdiyi məktubda İranda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd xan Qacarın Azərbaycan xanlıqlarını tutmaq niyyətindən xəbər verir, xanlıqların bu təhlükəni sovuşdurmaqda Osmanlı sultanının yardımına ehtiyacları olduğunu qeyd edirdi.

1791-ci ildə Osmanlı sarayında İbrahimxəlil xan və Avar hakimi Ümmə xanın elçiləri yüksək ehtiramla qəbul olunmuşdu. Bu barədə sultana edilən məruzədə göstərilirdi:

*"Şövkətli, Kəramətli, Əzəmətli, Qüdrətli Vəliyyi-Nemətim, Əfəndim, Padşahım, Dağıstan xanlarından Ümmə xanla Şuşa xanı İbrahimxəlil xanın bu dəfə hərəsi bir nəfər adamıyla Əlahəzrət şahanələrinə məruzə və təqdim üçün ərəb və fars dillərində yazılmış qısa məruzələri və qulunuz tərəfindən də məruzə edilən (söylənilən) məktubları mövcud olmaqla bütünlüklə tərcümə*

*etdirilib və rəsmi şəkildə məlumatları olan adamların da digər məlumatları yazılaraq yüksək mərtəbənizə təqdim edildi. Fərman mübarək istəyinə uyğun olaraq şövkətli, kəramətli, əzəmətli, qüdrətli, vəli nemətim əfəndim həzrətlərinindir"(7).*

Diplomatik danışıqlar zamanı, əlbəttə biz Osmanlı sarayında xidmət göstərən erməniləri yaddan çıxarmalı deyilik. Məlumdur ki. Osmanlı dövründə imperiya ərazisində İslamı qəbul edən ermənilər yaşayırdılar.

*İ*slam dininə etiqad edən erməniləri hemşinlər adlandırırlar və onlar şərq, qərb və şimal olaraq üç qrupa bölünürlər:

Şərqi hemşinlər (Homşetsi): Artvin ilinin Hopa (xüsusilə Kemalpaşa) və Borçka rayonlarında yaşayan ana dili erməni dilinin Qərb dialektlərindən biri olub yerli dildə Homşetsi olaraq adlandırılan sünni müsəlman qrupudur. Dil üzrə mütəxəssisVaux bu dili Homşetsma olaraq adlandırmışdır.

Qərbi hemşinlər (Armeni): Rizənin Hemşin və Çamlıhemşin bölgələrinin və az miqdarda da Fındıqlı, Çayeli, Bazar, Ardeşen və İkizdere bölgələrinin yüksək və dağlıq bölgələrində yaşayan, erməni əsilli lakin ana dili türk dili olan sünni müsəlman qrupudur.

Bu ermənilərdən bəziləri sarayda mühüm vəzifələr tuturdular. Zahirən müti olan ermənilər o zaman Osmanlı sarayında diplomatlar, həkimlər, tərcüməçilər kimi möhkəm mövqeləri öz əllərində saxlayırdılar. Rusiya, Fransa, İngiltərə və İrana gizli casusluq edən ermənilər Osmanlı sarayında baş verənləri dərhal o dövlətlərə xəbər edirdilər. XVII-XVIII əsrin sonlarına gəldikdə Fransa, İngiltərə, Avstriya, Danimarka, Hollandiya, Dubrovnik və iki Siciliya dövlətinin Osmanlı dövlətində konsulluqları vardı. Bu səfirlik və konsulluqlarda çalışan tərcüməçi sayı 194-ə çatmışdı. Tərcüməçilər Osmanlı siyasi həyatında mühüm rol oynamağa başlayıblar. İlk başlarda elçilərin yanında görünən türk tərcüməçilərinin yerini zamanla Xristian Osmanlı vətəndaşları almağa başlamışdır. Xüsusilə də Osmanlı dövlətinə məxsus torpaqlar üzərində imperialist əməllər bəsləyən dövlətlər, bu erməni məmur və tərcüməçilərə daha da maraq göstərməyə başlamışdır. Bu marağın səbəbində Osmanlı idarəsində özlərinə casus yetişdirmək dururdu.

Bu ermənilər Azərbaycan xanlıqlarının Osmanlı sarayı ilə yazışmaları zamanı Sultana təsir göstərmək imkanları əldə etməyə cəhd edirdilər. Osmanlı sarayının xanlıqlara dəstək göstərməsinin dövlət üçün böyük təhlükə yaradacağını iddia edirdilər. Hətta onlar Rusiya və İrana qarşı çıxmamaları üçün xristian ermənilərin sakitliklərinə təminat belə verirdilər.

XVIII əsrin II yarısında Osmanlı dövləti Rusiya ilə apardığı müharibələrdə itkilərə məruz qalaraq hərbi cəhətdən zəiflədiyinə görə Ağa Məhəmməd xan tərəfindən sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün onunla müqavilə bağlamışdı. Bu müqavilənin pozulmaması üçün ermənilər ciddi cəhdlə çalışdılar və elə buna görə də İbrahim xanın Osmanlı imperiyasının himayəsi altına keçmək niyyətini bildirdiyi məktubları İstanbulda müsbət qarşılansa da, Osmanlı sarayının Qarabağ xanına real yardım göstərməsi qeyri-mümkün idi.

Son olaraq qeyd edək ki, İbrahimxəlil xanın sultan III Səlimin baş vəzirinə yazdığı məktubdakı "*..Sizdən ricamız budur ki, bizləri qoruyub, bizə kömək və inayətinizi əsirgəməyəsiniz...*" sözlərə cavab olaraq Osmanlı sarayından aşağıdakı məzmunda: "*İranla Dövləti-Aliyyə arasında sülh olduğundan, Ağa Məhəmməd şah Qacarın sülhü pozar bir hərəkəti görülmədikcə Osmanlı dövləti tərəfindən İran hövzəsinə əsgərlə müdaxilə edilməyəcək*" deyərək Qarabağın ruslar tərəfindən işğal edilməsinə qarşı çıxmasına hərbi-siyasi gücü yetərincə deyil idi.

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktiki olaraq Rusiyaya ilhaq edildi. İmzalanan 11 maddədən ibarət müqavilənin şərtlərinə görə Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir, müstəqil xarici siyasət hüququndan məhrum edilir.

**Açar sözlər:** Qarabağ xanlığı, Osmanlı imperiyası, diplomatiya, siyasət, Rusiya, İran

**İstifadə olunmuş ədəbiyyat**

1.Переписка Екатерины II с Иосифом П // Русский архив. 1880. Кн 1, С. 285. Письмо Иосифа II Екатерине.II от 13 ноября 1782 г.//РГВИА. Ф.52 О 2 Д 2. Л.6300-68 об, РГВИА. Ф. 52. Оп. 2. Д. 2. Л. 47-62; Переписка Екатерины П с Иосифом II // Русский архив. 1880. Кн. 1. С. 281-291.

2.Обозрение Российских владений за Кавказом в статистическом, этнографическом и финансовом отношениях.СПб.,: Типография департамента внешней торговли, 1836, ч.3, 392 с.

3. Başbakanlık Osmanlı Arşivi (BOA), Ali Emiri, I Abdülhamid, Nr.6549.

4. Osmanlı ilə Azərbaycan türk xanlıklan arasında münasibetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy. (1578-1914). Ankara, Başbakanlik Basımevi, 1992, c.I. 427 s; c. 2. 481 s

5. Polatcı. T. (2009). Osmanlı Devleti'nde Sefaret Tercümanları. Basılmamış Doktora Tezi, Samsun.

6. "Azərbaycan tarixi XIX-XXI əsrin əvvəli, Bakı Universiteti Nəşriyyatı, 2010.

**Заур АЛИЕВ**

## ДИПЛОМАТИЧЕСКИЕ СВЯЗИ МЕЖДУ КАРАБАХСКИМ ХАНСТВОМ И ОСМАНСКИМ ГОСУДАРСТВОМ

**Резюме**

Достоверные источники утверждает,что Османская империя многократно обращалась к Карабахскому ханству с просьбой совместно выступать против оккупантов. Однако эти обращения не дали никаких результатов и в конце XVIII века влияние Османской империи на Кавказе навсегда ослабло. Правда, Османская империя не прерывала связей с азербайджанскими ханствами, однако, несмотря на это, она не могла оказать военную помощь. Именно поэтому Карабахское ханство при интервенции Российской империи фактически осталось без союзника, что намного облегчило осуществить захватническую политику России и Ирана. К сожалению, не только Карабахское ханство, ,но и весь тюркский мусульманский регион не смог выступить совместно с Османской империй. И это стало причиной многих трагедий не только в истории Азербайджана и Османской империи.

**Ключевые слова:** Карабахское ханство, Османская империя, дипломатия, политика, Россия, Иран.

**Zaur ALIYEV**

## DIPLOMATIK TIES BETWEEN KARABAGH KHANATE AND OTTOMAN EMPIRE

### Summary

The trustworthy sources affirm that Karabagh khanate addressed repeatedly to Ottoman Empire with request to come against agressors.However,it didn occur.The author notes that these refers didn't give any results,and in the end of the XVII the influense of Ottoman Empire in the Caucasus weakened for a long time,though the Ottoman Emprie continues its ties with Azerbaijani khanates.However,despite this it conldn't render the military aid to them.Namely,because of it during intervention of Russian Empire, Karabagh khanate was left, in fact,w;thout the ally.And this mostly made easy to realize the expansionist policy of Russia and Iran.

Thus,the sources confirm that,unfortunately,no only Karabagh khanate but also the Moscow Turkic region on the whole conldn't come out jointly with Ottom Empire.And this became a cause of many tragedies in history of Azerbaijan and Ottoman Empire.

**Keywords:** Karabakh khanate, the Ottoman empire, diplomacy, politics, Russia, Iran

UOT 32

**Etibar ƏSƏDOV**
*e. i. , s.e.ü.f.d.*
*AMEA Fəlsəfə İnstitutu*

# SİYASİ MƏDƏNİYYƏTİN TARİXİ VƏ ONUN MÜASİR İNKİŞAFINA YENİ YANAŞMA *

XX əsrin ortalarında siyasi mədəniyyət anlayışı ilə bağlı ilk kateqoriya meydana gəlmişdi. Müasir siyasi elmdə siyasi mədəniyyət bir kateqoriya kimi ABŞ-da professor X.Fayerin "Böyük Avropa dövlətlərinin idarəçilik sistemi" adlı əsərində ilk dəfə nəzərdən keçirilir. Əsərdə "Böyük Britaniya, Fransa, Almaniya və Sovet İttifaqının idarəetmə sistemi və siyasət anlayışının ilkin konseptual əsasları" verilir. Lakin nəzərə çatdıraq ki, adı çəkilən əsərdə siyasi mədəniyyət anlayışının tam şərhinə, onun başlıca müddəalarına bütünlüklə baxılmamışdır. Siyasi mədəniyyət haqqında ilk əsaslı tədqiqatın banisi Q.Almond hesab olunur. 1956-cı ildə Q.Almondun "Müqayisəli siyasi sistemlər" adlı məqaləsində siyasi mədəniyyət anlayışının təhlili aparılır və müxtəlif ölkələrdə onun tədqiqat prinsipləri və metodları açıqlanır. Bu tədqiqatlar öz sonrakı inkşafını Q.Almond və S.Verbanm birgə işi olan "Vətəndaş mədəniyyəti" adlı əsərində tapır. Siyasi mədəniyyət nəzəriyyəsinin formalaşmasında ən önəmli mərhələ onların 1965-ci ildə işıq üzü görən "Siyasi mədəniyyət və siyasi inkişaf" adlı kitabı idi. Kitabda 13 ölkənin siyasi mədəniyyətlərinin təhlili aparılır.

ABŞ tədqiqatçılarının siyasi mədəniyyət fenomeni ətrafında araşdırdığı problemlər öz-özlüyündə siyasi elm üçün yenilik deyildi. İngilis politoloqu S.Uaytın "Political Culture and Soviet Politics" əsərinə istinad etsək "siyasi mədəniyyət" anlayışını ilk dəfə XVIII əsrdə alman maarifçi filosofu İ.Herder işlətmişdir (24, s. 43). Bu fikrin həqiqiliyini yoxlamaq üçün onu deyə bilərik ki, Herderin "Bəşər tarixinin fəlsəfəsinə dair ideya" əsərinin yəhudilərin və yunanların həyat tərzinin təhlili ilə bağlı hissələrində bu anlayışdan ilk dəfə istifadə edilib. Əlbəttə, anlayışın istifadəsi hələ o demək deyil ki, siyasi mədəniyyətin siyasi elmin mühüm kateqoriyası kimi banisi İ.Herderdir. Əvvəla onu qeyd edək ki, XVIII əsrin Avropa ictimai-siyasi və fəlsəfi fikrində belə bir anlayışın mühüm bir tədqiqat obyektinə çevrilməsi qeyri-realdır. "Əslində XVIII əsrdə "mədəniyyət" anlayışının özü yeni tətbiq edilməyə başlamışdı və bu fenomenin sosial-etik mənada təhlili qeyri-sistematik xarakter daşıyırdı. Bu səbəbdən "siyasi mədəniyyət" anlayışının özünün müasir dövr üçün qəbul olunacaq şəkildə açıqlanması real ola bilməzdi" (25, s.98).

Herderin şərhində siyasi mədəniyyət anlayışı "milli ruhun" mühüm elementidir. Bu siyasi mədəniyyət xalqın özünüdərk izidir, o milli adətlərin xalq tərəfindən qorunmasında, milli yaddaşda və həmrəy olmaq bacarığında özünü büruzə verir. Herder siyasi mədəniyyətin bu gün bir sıra mütəfəkkirlər tərəfindən tədqiq olunan problem və istiqamətlərini əhatə etmişdir (26, s. 22).

Herderdən daha öncə Platon və Aristotelin, sonradan T.Hobbs, Ş.L.Monteskye və Hegelin əsərlərində siyasi sistemə malik olan, müxtəlif əxlaqi tərbiyə görmüş, müxtəlif tarixi təcrübəyə malik olan insanların eyni siyasi şəraitdə özlərini müxtəlif cür aparma səbəbləri araşdırılır. Lakin istər Qədim dövrün mütəfəkkirləri, istərsə də Yeni dövrün ideyaları və ümumiyyətlə XIX əsrdə siyasi mədəniyyətin konkret olaraq özü təhlil olunmamışdır. Siyasi

* Məqalə fəlsəfə ü.e.d., professor.Əlikram Tağıyev tərəfindən çapa məsləhət görülüb.

mədəniyyət anlayışının müxtəlif problemləri K.Marksın və F.Engelsin "Lui Bonapartın on səkkiz brümeri", "Fransada vətəndaş müharibəsi" əsərlərində nəzərdən keçirilib (28, s. 112).

Siyasi mədəniyyətin nəzəri problemlərinin araşdırılmasında Qərb fəlsəfəsi, sosiologiya və psixologiyasının mühüm əhəmiyyəti vardır. C.S.Mill, M.Veber, T.Veblan, U.Tomas, Ç.Meriam, T.Adorno, T.Parsons kimi Qərb mütəfəkkirlərinin cəhdləri və əməyi sayəsində siyasi mədəniyyətin konkret nəzəri əsaslarının formalaşması üçün fundamental əsas yaranırdı (29, s. 92).

Siyasi mədəniyyət konsepsiyasının meydana gəlməsi üçün müharibədən sonrakı illərdə Avropa və onun koloniyalarında sosial qrupların psixoloji təşkilinin müxtəlif formaları barədə təhlillərin aparılması mühüm rol oynadı. Hakimiyyət (dövlət) və cəmiyyətin qarşılıqlı münasibətlərinin xarakter və normalarına təsir göstərən insanların fəaliyyətinin kollektiv təzahürləri, tarixi təcrübə, stereotip və digər psixoloji amilləri "milli psixologiya", "milli ruh", "milli xarakter" və fundamental milli dəyərlər kimi kateqoriyalarla tam uzlaşırdı. Aparılan bu sosial-psixoloji araşdırmaları politoloqlar siyasi həqiqətlərin subyektiv tərəflərinin daha ümumiləşdirilmiş modellərinə olan tələbatla izah edirdilər. Bu əsl humanitar sıçrayış idi.

Beləliklə, siyasi təcrübənin tələbatları ilə stimullaşan elmi biliyin məntiqi elə bir müstəqil tədqiqat sahəsinin yaranmasına gətirib çıxarırdı ki, o politologiya ilə yanaşı sosiologiya, psixologiya və kulturologiyanı əhatə edə bilsin (22, s. 64). XX əsrin əvvəlində siyasi mədəniyyət ətrafında tədqiqatların aparılması üçün yalnız sosioloji tədqiqat metodları və texnikası hesabına toplana bilən kifayət qədər geniş empirik və statistik məlumat hazırlanmışdı. Xatırlamaq lazımdır ki, bu sahədə tətbiq edilən empirik tədqiqatlar, məmurların statistika əsasında işləməsi, şkala təşkili metodu yalnız İkinci Dünya müharibəsindən sonra siyasi elmdə istifadə edilməyə başladı (21, s. 117).

1999-cu ildə Rusiyada siyasi mədəniyyətlə bağlı tədqiqat aparan L.N.Verçenov qeyd edir ki, "siyasi mədəniyyət" anlayışının nəzəriyyə halına gəlməsi iki mühüm impulsla bağlıdır: Veymar Respublikasının süqutu və nasional-sosializmin qələbə çalması ilə bağlı diskussiyaların aparılması. Bu zaman tədqiqatçıların diqqət mərkəzində duran məsələ insanların irrasional davranışı və subyektiv amillərin siyasətə təsiri ilə bağlı suallar və problemlər idi. İkinci impuls 50-ci illərin əvvəllərində dünyanın siyasi səhnəsində mövcud olan durum və Asiya, Afrikada yeni müstəqil dövlətlərin yaranması idi. Tədqiqatçılar, ilk növbədə, "niyə bu ölkələrdə Qərb siyasi modelləri qurula bilmir və əgər qurulursa başqa bir prinsipial məzmuna malik olmur və bu ölkələrdə stabillik yaratmaq olmur?" kimi suallara cavab axtarırdılar (20, s. 164).

Bu ideyalar dalğası üzərində XX əsrin 50-ci illərində Q.Almond və S.Verba tərəfindən siyasi mədəniyyətin nəzəri əsasları qoyulur.

Q.Almond və S.Verbanın siyasi mədəniyyət probleminə olan yanaşmasını fərqləndirən xüsusi cəhət ondan ibarətdir ki, onlar bu fenomeni psixoloji amillər çərçivəsində məhdudlaşdırırdılar. Q.Almond və S.Verba yazır ki, "siyasi mədəniyyət" termini dedikdə siyasi sistem və onun hissələri arasında, bu sistemdə öz rolumuzla bağlı münasibətlərin meyilləri və oriyentasiyalar başa düşülməlidir. "Biz cəmiyyətin siyasi sistemi barədə danışarkən, ilk növbədə, onun üzvlərinin biliyi, hissləri və qiymətləndirilməsində təzahür olunan siyasi sistem kimi başa düşməliyik. Bu oriyentasiyalar üç hissədən ibarətdir:

1. **Koqnitiv oriyentasiya** – siyasi sistem, onun funksiyaları və bu funksiyaların kimlər tərəfindən həyata keçirilməsi barədə biliyin olması.

2. **Affektiv oriyentasiya** – siyasi sistem, onun funksiyaları, vəzifəli şəxslər və onların fəaliyyət metodları ilə bağlı hisslər.

3. **Qiymətləndirmə oriyentasiyası** – yaxud siyasi obyektlər barədə mövqe" (30, s. 83).

Amerikalı mütəxəssislər siyasi mədəniyyətin, ilk növbədə, tipologiyasını araşdırırlar. Bu tipologiyanın əsasında insanların siyasi obyektlərə oriyentasiyası dururdu. Bu obyektlərə Almond aşağıdakıları aid edirdi:

1) bütövlükdə siyasi sistem;
2) sistemin giriş kanalları;
3) sistemin çıxış kanalları;
4) sistem daxilində fərdlərin özünün oriyentasiyası.

**Giriş kanalları** dedikdə cəmiyyət və onun üzvlərinin tələblərini dövlət orqanlarının siyasi qərarına çevirən mexanizmlər başa düşülür. Çıxış kanallarına isə hakimiyyətin davranışı, siyasi qərarları, hüquqi və siyasi normalar aid edilir.

Q.Almond və S.Verba hesab edirlər ki, nəzəri cəhətdən hər bir mümkün siyasi mədəniyyət tipi yalnız onun özünəməxsus olan oriyentasiyalar hesabına müəyyən oluna bilər. Bunların əsasında onlar siyasi mədəniyyətin üç "qarışıq" və üç "təmiz" tipini ayırırlar.

**1. "Patriarxal"** siyasi mədəniyyət əhalidə siyasi sistem haqqında məlumatın olmaması ilə xarakterizə olunur. Xalqın siyasi oriyentasiyası bu cür siyasi mədəniyyət tipində sosioloji, iqtisadi və dini oriyentasiyaları ayıra bilmir. Ölkənin zəif iqtisadi səviyyəsi ona gətirib çıxarır ki, vətəndaşlar siyasi sistemdən heç bir dəyişiklik gözləmir və onu özlərinə yad sayır. Cəmiyyət üzvlərinin dövlət haqqında bilikləri sıfıra bərabərdir.

**2. Təhkimçi** tipli siyasi mədəniyyət əhalinin passiv siyasi davranışı ilə fərqlənir. Belə bir formada cəmiyyətdə müəyyən növ dəyərlərə yüksək oriyentasiya olsa belə onların zəif qavranılması baş verir. Vətəndaşların siyasi fəallığı aşağı düşür. Vətəndaş özünü siyasi prosesin subyekti deyil, dövlət tərəfindən təsirin obyekti hesab edir. Dövlət normaları yuxarıdan aşağıya süzülür, müəyyən reqlament olur ki, ona tabe olurlar.

**3. Partisipar** siyasi mədəniyyət (yaxud iştirak siyasi mədəniyyəti) vətəndaşların siyasi həyatda fəal iştirakı, onların qərarlarının qəbulu prosesinə müdaxilə etmək cəhdləri ilə, öz siyasi maraqlarını aydın seçə bilmək bacarığı ilə seçilir. Mərkəzi hakimiyyətə yuxarıdan aşağıya göstəriş verən və eyni zamanda aşağı təbəqələrə qərarların qəbulu prosesində iştirak etmək imkanı verən mexanizm kimi baxılır (30, s. 91).

Almond və Verba iddia edirdilər ki, "təmiz formada bu tip siyasi mədəniyyət mövcud deyil. İstənilən ölkənin siyasi mədəniyyəti öz-özlüyündə müəyyən tiplərin kombinasiyasından ibarətdir. Adətən bu kombinasiyalara aşağıdakılar aid edilir:

1. Patriarxal-təhkimçi – Əhalinin əksər hissəsi hakimiyyətlə münasibətə girmir, ixtisaslaşmış dövlət strukturlarının fəaliyyətinə loyallıq göstərir.

2. Təhkimçi-iştirakçılıq – Əhalinin bir hissəsində aktiv özünü yönəltmə baş verir. Bu zaman yerdə qalan hissədə avtoritar idarəçilik meylləri qalır və onlar siyasi həyatda passiv olurlar.

3. Patriarxal-aktivist – Əhali üçün birinci yerdə lokal dəyərlər durur. Bütövlükdə dövlətin siyasi mədəniyyəti əyalət fraqmentli olması ilə seçilir.

Almond və Verba qarışıq tiplərə "vətəndaş mədəniyyətini" də aid edir. Vətəndaş mədəniyyəti real tarixi tip kimi nə müasir, nə də ənənəvi olub özündə hər ikisini birləşdirir. O ilk dəfə İngiltərədə yaranmış və sonradan ABŞ-a nüfuz etmişdir.

ABŞ tədqiqatçıları belə bir nəticəyə gəliblər ki, aktiv iştirak mədəniyyətinin passiv iştirak mədəniyyəti ilə bir cəmiyyətdə uzlaşması demokratik cəmiyyət üçün idealdır. Q.Almond və S.Verba tərəfindən bu kombinasiya "balanslaşdırılmış siyasi mədəniyyət" adlandırılırdı. Bu növ mədəniyyətdə lokal dəyərlərə münasibətdə öhdəlikli, ənənəvi, passiv vətəndaşların siyasi aktivliyi, rasionallığı hiss olunur. Belə siyasi mədəniyyətdə oriyentasiya sferasında "etiraz və razılıq" arasında balans mövcuddur. Belə ki, vətəndaş siyasi qərarların qəbulu prosesində öz

vacibliyini ölçməli, lakin bu ölçü aktiv siyasi fəaliyyətlə möhkəmlənməlidir.Vətəndaş mədəniyyətinin çərçivəsi daxilində mövcud olan vətəndaş siyasi sistemə təsir ehtiyatlarına malikdir. O, daim siyasi prosesdə iştirak etməsə də, siyasi qərarlar qəbul edən vəzifəli şəxsin fəaliyyətini izləyir. Siyasi qərarı qəbul edən şəxs vətəndaşın təsir imkanlarının olmasına inanmalıdır. Bundan əlavə, tarazlıq siyasi prosesdə iştirak edənlərin mövqelərinin bərabər bölgüsü ilə tarazlaşdırıla bilər. “Bu və ya digər problemin əhəmiyyəti bütün vətəndaşlar üçün eyni vaxtda artmır”. Yəni vətəndaşların bir hissəsinin aktivliyi digər hissəsinin passivliyi ilə tarazlaşır.

Almond və Verba eyni zamanda vətəndaş mədəniyyətində “razılıq və etiraz” arasında balansdan danışırlar. “Siyasi səviyyədə baş verən münaqişələr həmrəyliyə, eynifikirliyə olan meyillərin partiya maraqlarından mühüm olması hesabına məhdudlaşır”.

Belə tip siyasi mədəniyyət ən yaxşı və yaxud, Almond və Verbanın dili ilə desək, idealdır və demokratik inkişaf yolu seçmiş bütün dövlətlər ona can atmalıdırlar. Verba tərəfindən işlənən bu nəzəriyyə əhalidə vətandaş şüurunun formalaşması yollarını da nəzərdən keçirir. Bu gün dünya birliyi vətəndaş cəmiyyəti, vətəndaş şüuru, vətəndaş mədəniyyəti kimi problemləri fəal şəkildə müzakirə edir və bu diskussiyalarda Almond və Verbanın fikirləri qəbul edildiyi kimi, gah da inkar edilir. Eyni zamanda bu və ya digər region yaxud dövlətdə mövcud siyasi mədəniyyətin təhlili aparılarkən onu, ilk növbədə, Almond və Verbanın “ideal vətəndaş mədəniyyəti” ilə müqayisə edirlər.

Almond və Verbanın siyasi mədəniyyət konsepsiyası bir sıra politoloqlar tərəfindən müsbət qarşılandı. ABŞ-da yeni bir məktəb - davranış (bixevior) yanaşmasının əsası qoyuldu. Siyasi mədəniyyət konsepsiyasının müqayisəli mifologiyada belə sürətlə özünə yer tapmasına şərh verən ABŞ politoloqu R.Taker qeyd edirdi ki, “bu gün siyasi-mədəni yanaşma amerikan siyasi elminin mədəniyyətinə olduqca güclü nüfuz edir (8, s.26).

Almond və Verba vətəndaşların siyasi davranışında psixoloji keyfiyyətin əhəmiyyətini göstərmiş, müxtəlif ölkələrin siyasi mədəniyyətlərinin keyfiyyət göstəricilərini ayırd etmiş, siyasi təhlilin metodologiyasına siyasi-mədəni yanaşmanı göstərmişlər. Müxtəlif ölkələri siyasətin subyektiv göstəricisinə əsasən fərqləndirə bilirdilər. Müasir dünyada siyasi mədəniyyət sahəsində aparılan tədqiqatlar, ilk növbədə, bu yanaşmaya uyğunlaşır.

Bir sıra müddəalarına görə Almond və Verbanın “siyasi mədəniyyət” nəzəriyyəsi bir sıra politoloqlar tərəfindən tənqidə məruz qalır. İlk növbədə ona görə ki, onlar siyasi mədəniyyətin predmeti olan oriyentasiyadan statistik fenomen kimi istifadə edirlər (siyasi görüşlər dəyişməz olub, onların ideoloji uyğunluğu nəzərə alınır). Belə interpretasiya dar məzmuna malik olub, siyasi mədəniyyətin məzmunu və mahiyyətini tam açıqlamır. Bir sıra tənqidçilərə görə yalnız bir kriteriya yaxud komponent üzərində həddən ziyadə durmaq əhalinin real siyasi davranışının təhlilinin rolunu tam qiymətləndirməyə imkan vermir (7, s. 210).

İngilis politoloqları Almond və Verbanın siyasi mədəniyyətlə bağlı tipologiyasını ona görə tənqid edirlər ki, bu tipologiya analitik deyil, təsviri kriteriyalara əsaslanır. Bu tipologiyada nəzəri hipotez yoxdur və bu səbəbdən bu tipologiyanın köməyi ilə heç nəyi proqnozlaşdırmaq mümkün deyil.

Bu nəzəriyyədə “vətəndaş mədəniyyəti”nin rolu o qədər yüksəldilib ki, digər tiplərin rolu aşağı düşür. Vətəndaş cəmiyyətinin bir etalona çevrilməsi, demokratik dövlətlərin bu etalona can atması heç də düzgün deyil. N.Petro hesab edir ki, “siyasi mədəniyyət” konsepsiyasının ilkin məqsədlərindən biri ictimai elmlərin siyasi aktivliyini yüksəltmək idi. Başqa sözlə, demokratikləşmə siyasətinin eksportunu təşkil etmək (2, s. 114).

Eyni zamanda bu nəzəriyyənin birtərəfli olaraq **bixeviorizm** cərəyanına söykənməsi bir nöqsan kimi qəbul olunur.

Rusiya politoloqu M.V.Strejneva Almond və Verbanın “siyasi mədəniyyət” nəzəriyyəsinə olan tənqidi yanaşmanı tamamlamağa çalışaraq bu nəzəriyyənin nöqsanlarının vacib səbəblərindən biri kimi siyasi mədəniyyətin struktur-funksional yanaşma ilə özülü cəhdlərində görür. Bu yanaşma, onun fikrincə, şəxsiyyətlərarası kommunikasiyanın əhəmiyyətini nəzərə almır. Bu kommunikasiyalar isə siyasət iştirakçıları üçün siyasi fəaliyyətin ortaq fəaliyyətinin ortaya çıxmasına kömək edir. Bu isə öz növbəsində mədəniyyət və davranış normaları arasında əlaqə yaradır. Digər mühüm problem milli mədəniyyət və dillərdə eyni siyasi terminlərin müxtəlif məna verə bilmə ehtimalının qaçırılmasıdır (9, s. 54).

1980-cı illərin əvvəlində Almond və Verba etiraf edirdilər ki, onların 60-cı illərdə siyasi mədəniyyətin tədqiqi ilə ilə bağlı gəldikləri nəticələrə yenidən baxmaq lazımdır və eyni zamanda həmin dövrdə siyasi mədəniyyətin verilmiş tipləri bu zaman ərzində müəyyən transformasiyaya uğramışdır. Onlar siyasi mədəniyyətlə bağlı tədqiqatlarında müəyyən dəyişiklik aparmış, siyasi mədəniyyəti plastik ölçülü dəyişkən fenomen kimi yenidən təhlil etmiş və sonda iddia etmişlər ki, bu fenomen siyasi sferada baş verən struktur dəyişikliklərə qarşı çox həssasdır. Almond qeyd edirdi ki, siyasi mədəniyyət nəzəriyyə deyil, o dəyişkən bir fenomendir. Bu fenomendən nəzəriyyənin hazırlanmasında istifadə edilə bilər. Siyasi mədəniyyət anlayışı siyasətin subyektiv və psixoloji ölçülərinə bir sıra dəyişiklikləri izah etməyə kömək edir. Lakin bunu deyək ki, Almond və Verbanın siyasi mədəniyyətlə bağlı hazırladığı tipologiya bir sıra ölkələrin siyasi mədəniyyətinin öyrənilməsində kriteriya olaraq qalır.

Bunu da demək lazımdır ki, siyasi mədəniyyətin Almond və Verba məktəblərinin nümayəndələri Xirspurs və Hyunks 90-cı illərin ortalarında siyasi mədəniyyətin tipologiyasını təkmilləşdirərkən buna yeni tiplər gətirdilər.

“Vətəndaş partisipar mədəniyyəti” – bu tip siyasi mədəniyyət üçün dövlət qulluqçularına inamın olmaması, subyektiv siyasi marağın yüksək olması xarakterikdir. Başqa sözlə, vətəndaş siyasətlə maraqlanır, lakin hakimiyyətə inanmır.

“Müştəri mədəniyyəti” – burada siyasətə marağın aşağı səviyyəsi və siyasətə təsir imkanları barədə subyektiv mövqenin olması nəzərdə tutulur.

“Avtonom mədəniyyət” – hakimiyyətə etibarın olmaması və siyasətə cüzi marağın olmasını nəzərdə tutur.

“Etirazlı siyasi mədəniyyət” – aşağı səviyyəli siyasətə maraq, etimadsızlıq və siyasi aksiyalarda fəal iştirakla seçilir.

Əslində onu deyək ki, siyasi mədəniyyətin bütün tiplərini ümumiləşdirib onları iki tipə bölmək mümkündür: passiv (tabeçilik və müşahidə mədəniyyəti) və aktiv (etiraz, avtonom, vətəndaş və iştirak mədəniyyəti). Birinci qrupa aid edilənlər siyasətə təsir etmək imkanı hiss etmirlər və siyasi prosesdə iştirak etməyə can atmırlar. İkinci qrupa aid edilən insanlar əksinə olaraq inanırlar ki, siyasətə təsir imkanlarına malikdirlər və daim siyasi prosesdə iştirak etməyə can atırlar (11, s.63).

Baxmayaraq ki, uzun illər siyasi mədəniyyət əksərən davranış yanaşması ilə izah olunurdu (L.Pay, D.Devayu, D.Elaraz, S.Xantioktan, A.Braun, R.İnqlhart) (29, s.36), XX əsrin 80-ci illərindən başlayaraq siyasi elmdə simvolik yaxud interpretasiyalı yanaşmadan geniş istifadə edilməyə başlandı. Bu yanaşmanı M.Tompson, A.Vildavski, V.Dithmayer, D.Pol, U.Rozenbaum, X.Viarda və R.Taker kimi tədqiqatçılar inkişaf etdirirdilər.

İnterpretasiyaçılar bixeviorçulardan fərqli olaraq siyasi mədəniyyətin təhlilində mədəniyyət probleminin inkişafına daha geniş yer verirdilər. Robert Taker qeyd edirdi ki, “Siyasət - mədəniyyətin tərkib hissəsidir. Mədəniyyət mənəvi məhsul olub tarixi xarakter daşıyır. Onu ideyalar, modellər və dəyərlər təşkil edir, o seçimə, simvollara əsaslanıb, insan davranışının xarakteridir” (60, s. 79).

Bu yanaşmanın tərəfdarları iddia edirlər ki, vətəndaşların siyasi davranış formaları və onların xarakteri bir-birinə təsir göstərir, bu təmas nəticəsində siyasi mədəniyyət formalaşır. K.Qirts interpretasiyalı yanaşma haqqında yazır ki, "əgər Maks Veberə görə insanın əhəmiyyət torlarına bürünmüş heyvan olduğuna inansaq mən bu torları mədəniyyət adlandırardım" (1, s.75). Mədəniyyəti eksperiment yolu ilə deyil, interpretasiyalı elmin köməyi ilə araşdırmaq lazımdır. Birinci qanunlar, ikinci isə əhəmiyyət axtarışındadır. "Siyasətdə subyektiv oriyentasiya ilə məhdudlaşmayaraq interpretasiyaçılar siyasi mədəniyyəti həyatın öyrənilmiş və ötürülən sahəsi kimi nəzərdən keçirirlər". Bu həyatın açıq (cəmiyyətdə müşahidə olunan davranış nümunələri) və qapalı amilləri var. Bu qapalı amillər cəmiyyətin elementlərinin malik olduqları və nəsildən-nəsilə ötürdükləri bilik, münasibət və dəyərləri əhatə edir. Mövcud yanaşma dəyər determinantlarının daha uzun zaman intervalında araşdırılmasını tələb edir.

Simvolik yanaşmanın əhəmiyyəti elmi cəmiyyət tərəfindən artıq qəbul edilmişdir. L.Ditmer simvolları idarəçiliyin teatrrallaşdırılmış forması adlandırır. O hesab edirdi ki, cəmiyyətdə simvolik struktur müəyyən kodlar yığını kimi çıxış edərək verilən informasiyanı açıqlamaq funksiyasını yerinə yetirir (1, s. 97).

Qirts isə hesab edir ki, simvolları siyasi həyatda baş verən digər proseslər kimi qəbul etmək lazımdır. Onlar "nikah" kimi, "kənd təsərrüfatı" kimi müşahidə ediləndir.

Bütövlükdə, interpretativ yaxud simvolik yanaşma tərəfdarlarının fikrincə, siyasi mədəniyyət ümumi olaraq ictimai siyasətin əsasında duran simvollar, dəyərlər və davranış formalarından, o cümlədən təsisatlardan ibarətdir.Öz növbəsində bu yanaşmanın müəyyən çatışmamazlıqları var. İlk növbədə onu deyək ki, interpretasiyalı yanaşmanın tərəfdarları simvollara daha çox diqqət yetirirlər, davranış formalarını ön plana gətirirlər. Onların apardıqları tədqiqatlar zamanı tarixi keçmişin bu və ya digər ölkələrin siyasi mədəniyyətinə təsirinə o qədər fikir verilmir. Eyni zamanda burada müsbət cəhətləri də yaddan çıxartmaq olmaz. Siyasi mədəniyyətin tərkibinə simvolların, davranış stereotiplərinin daxil edilməsi əhalinin müxtəlif qruplarının və bütövlükdə ölkələrin siyasi mədəniyyətlərinin spesifikliyini araşdırmağa imkan verdi. Siyasi mədəniyyətin təhlilində yeni metodlar yarandı.

Qərb politologiyasında bu iki yanaşmadan başqa siyasi mədəniyyət anlayışının müxtəlif müstəqil açıqlamaları da vardır.

İngilis politoloqu D.Kavanax bu nəzəriyyə və yanaşmaları aşağıdakı kimi qruplaşdırır:

Siyasi mədəniyyətin xüsusi interpretasiyası onu insanların siyasi obyektlərə oriyentasiyalarının məcmusu kimi xarakterizə edir. Bu oriyentasiyalar siyasi şüur və siyasi psixologiya ilə məhdudlaşır.

Siyasi mədəniyyətin əhatəli şərhi - psixoloji amillər və onlara uyğun olaraq insanların subyektiv davranışlarıdır (5, s. 167).

Qərb siyasi elmində siyasi mədəniyyətin təhlili ilə bağlı apardığımız tədqiqatların sonunda aşağıdakıları qeyd etmək lazımdır:

1. Siyasi mədəniyyət nəzəriyyəsinin əsası Q.Almond və S.Verba tərəfindən qoyulub.
2. Siyasi mədəniyyət nəzəriyyəsinin yaranması cəmiyyətin siyasi həyatının siyasi və s. aspektlərinin öyrənilməsi ilə əlaqədar olmuşdur.
3. Bu gün Qərb siyasi elmində siyasi mədəniyyətin izahına dair iki nəzəri istiqamət var. Davranış yaxud subyektiv və simvolik yaxud interpretasiyalı yanaşma.
4. Bu yanaşmaların hər birinin özünəməxsus çatışmamazlıqları var. Ümumilikdə siyasi mədəniyyətin təhlilində hər iki yanaşmadan istifadə etmək olar.

Son dövrlərdə siyasi mədəniyyətin təhlili ilə bağlı Rusiya siyasi elmində mühüm araşdırmalar aparılır. Qeyd edək ki, sovet sistemində siyasi mədəniyyətin təhlili zamanı V.İ.Lenin tərəfindən Rusiya siyasi elminə gətirilmiş marksist yanaşmadan istifadə edilirdi. Leninizmin siyasi mədəniyyətin izahının əsasında siyasətin və mədəniyyətin vəhdəti ideyası

durur. Siyasi mədəniyyət iri sosial qrupların siyasi maraqlarını əks etdirir. Marksist yanaşmaya görə hər bir milli siyasi mədəniyyətdə proletar və burjua siyasi mədəniyyəti var. Lenin siyasi mədəniyyət anlayışından xalqını siyasi prosesdə iştirakı zamanı kütlənin şüur səviyyəsinin təhlili üçün istifadə edirdi. Siyasi mədəniyyətin əlamətləri insanın ideoloji yetkinliyini, siyasi qərarların qəbulunda iştirakını, ictimai fəallığını əks etdirir. 1920-ci ildə Lenin qurultayda öz çıxışında iddia edirdi ki, siyasi mədəniyyətin vəzifəsi yalana qalib gəlməyi bacaran və zəhmətkeş kütlələrə köhnə qaydaları yenisi ilə əvəz etməkdə yardım edən əsl kommunistlər yetişdirməkdir (26, s.135).

Rusiyada, o cümlədən keçmiş sovet məkanında siyasi mədəniyyətin təhlilinin ilkin mərhələsində normativ yanaşma aparıcı yer tutur. Bir sıra müəlliflərin əsərlərində siyasi mədəniyyət siyasi şüur və sinfi ideologiya ilə eyniləşdirilir. Bəzən isə onu insanların mədəni və təhsil səviyyəsi ilə, özünü müvafiq olaraq aparma qabiliyyəti ilə, siyasi mövqeləri dəqiq formulə edə bilmək qabiliyyəti ilə eyniləşdirirlər.

Aparılan tədqiqatlar zamanı siyasi mədəniyyətin ideal sovet modeli yaradılmışdır.

80-ci illərin sonlarında sovet siyasi ədəbiyyatına politologiya elmi daxil olur və özü ilə birgə müqayisəli politologiyanın mühüm istiqaməti olan siyasi mədəniyyəti möhkəmləndirir.

Sonda onu da qeyd edək ki, siyasi mədəniyyətlə bağlı işlərin Qərb və istərsə də Rusiya siyasi elmində aparılan tədqiqatlar və elmi əsərlərin həddən ziyadə çox olması bizə bütün bu ədəbiyyatları nəzərdən keçirməyə imkan vermir. Bu baxımdan bütün bu tədqiqatlar qruplaşdırılaraq siyasi mədəniyyətin anlayışı və mahiyyəti ilə bağlı başlıca istiqamətlərin təhlilinə üstünlük verilmişdir.

**Açar sözlər:** siyasi mədəniyyət, qarışıq tipli siyasi mədəniyyət, dövlət, siyasi sistemlər, vətəndaş davranışı və müasir siyasi elm

### İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycanın ictimai-siyasi fikrində sosial ədalət ideyası. Monoqrafiya/ A.İ.Quliyev; elmi red. M.Ə.Cəfərquliyev; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu. Bakı: Səda, 2008.
2. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004.
3. Cəfərov İ. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2001.
4. Cəfərov N. Azərbaycan mədəniyyəti məsələləri. Bakı: BDU, 2000.
5. Cəfərzadə Z.N. Şərq mədəniyyətlərinin tarixi tipologiyasının metodoloji problemləri. Kulturologiya elm.nam....dis. avtoref. Bakı, 2008.
6. Əfəndiyev M. Siyasi elm / M.Ə.Əfəndiyev; elmi red. Ə.Abdullayev. Bakı: Siyasi nəşriyyatı, 2010.
7. Əfəndiyev M.Ə. Şəxsiyyət-mədəniyyət sistemi: sosial fəlsəfi təhlil. Mon. Bakı: Elm, 2008.
8. Ələkbərova N. Siyasi elmin tarixi və metodologiyası. Bakı, 2004.
9. Əliyev Q. Müasir demokratik proseslər: sosial-fəlsəfi təhlil. F.e.d. alimlik dərəcəsi almaq üçün təqdim edilən doktorluq dissertasiyası. B.,1998.
10. Əlizadə A. Milli mədəniyyətdə tarixilik (dərs vəsaiti). Bakı: Mars-Print, 2000.
11. İsmayıl D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı: Adiloğlu, 2005.
12. İsmayılov İ. Azərbaycan xalqının siyasi mədəniyyəti: XX əsr / İ.İsmayılov. Bakı: Zaman, 2002.

13. Mehdiyev R. Azərbaycan tarixi: İrs və müstəqillik fəlsəfəsi. Bakı, 2001
14. Mehdiyev R. Vətəndaş Cəmiyyətinə yol açan ideyalar. Bakı, 2006.
15. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Bakı, 1997.
16. Şükürov A. Kulturologiya (Dərslik). Bakı: Adiloğlu, 2003.
17. Tağıyev Ə. Kulturologiya. Bakı: Adiloğlu, 2003.
18. Tağıyev Ə., Əliyev Q. Kulturologiya (Dərs vəsaiti). Bakı: Təbib, 1997.
19. Xəlilov S. Lider, Dövlət, Cəmiyyət.
20. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Azərbaycan Universiteti, 1999.
21. Həsənova V. Qloballaşma prosesinin mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı dialoquna təsiri. "Mədəniyyət dünyası". X buraxılış.
22. Mehdi N., Mehdi D. Mədəniyyətdən total narazılıq. "Mədəniyyət dünyası". IV burazılış. Bakı: ADMİU, 2002.
23. Mehdiyev R. Qloballaşma dövründə dövlət və cəmiyyət. Dirçəliş – XXI əsr. 2007, №114-115
24. Баталов Э.Я. Политическая культура современного американского общества. М: Наука, 1990.
25. Беккер К. Словарь тактической реальности. Культурная интеллигенция и социальный контроль. М: 2004.
26. Гаджиев К.С. Политическая культура: концептуальный аспект // Полис. 1992, №3
27. Гаджиев К.С. О смене общественно-политических парадигм // Вестник МГУ. Сер 12, 1993. №3.
28. Kavanagh D. Political Science and Political Behavior. London: Allen & Unwin, 1983.
29. Mead L.M. State Political Culture and Welfare Reform // Policy Studies Journal. 2004, Vol. 32, №2.
30. Pye L. Cultural and Political Science / L. Pye – Social science quarterly, 1972, vol. 53, №2.

**Этибар АСАДОВ**

## ИСТОРИЯ ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ И НОВЫЙ ПОДХОД К ЕЕ СОВРЕМЕННОМУ РАЗВИТИЮ

### Резюме

В статье с научной точки зрения изучается история политической культуры и ее направления развития. Вместе с тем широко комментируются многосторонние аспекты политической культуры, а также проблемы ее развития в различные эпохи и в различных обществах. Кроме того, автор приводит различные формы политической культуры, анализирует ее роль в развитии общества и системе государственного управления. Далее он широко анализирует подход Альмонта и Вербантина к проблеме политической культуры.

**Ключевые слова**: политическая культура, политическая культура смешанного типа, государство, политические системы, современная политическая наука и гражданское поведение.

**Etibar ASADOV**

# THE HISTORY OF POLITICAL CULTURE AND A NEW APPROACH TO ITS MODERN DEVELOPMENT

**Summary**

In the article the history of political culture and its directions of development are under study. With this there are widely commented the multilateral aspects of political culture, problems of its advancement in different societies from the political point of view. Alongside with displaying the forms of political culture the author makes the political analysis of its role in the development of society and system of government. In addition the author broadly analyzed an approach of Almond and Verbantin to the problem of political culture to the problem of political culture in development of political culture in their different works.

**Keywords**: political culture, political culture of mixed type, state, political systems, modern political culture, state and citizen’s behavior.

**UOT 327**

**Fazilə HÜSEYNLİ**
*müəllim, Azərbaycan Dövlət
Pedaqoji Universiteti*

# AVROPA ŞURASI VƏ AZƏRBAYCAN RESPUBLİKASI QANUNVERİCİLİYİNDƏ İNSAN ALVERİ İLƏ MÜBARİZƏNİN SİYASİ ASPEKTLƏRİ*

İnsan alveri köləliyin müasir forması olmaqla insan hüquqlarının pozulması, həm şəxsiyyət, həm də dövlət əleyhinə yönəlmiş bir cinayətdir. Bunun qəbul edilməsi zəruridir və sözügedən cinayət əməlinin törədilməsi qanunvericilik vasitələrlə cəzalandırılmalıdır. Qeyd olunması çox böyük əhəmiyyət kəsb edən məqamlardan biri də odur ki, insan alveri insanın təhlükəsizliyinə qarşı yönəlmiş bir cinayət olduğu kimi, dövlətin təhlükəsizliyinə də zərbə vurur. Belə ki, insan alverinin qarşısının alınması bu qəbildən olan cinayətlərin törədilməsində günahkar olan cinayət təqibinin həyata keçirilməsi və zərərçəkənlərin müdafiəsi məqsədi ilə görülən tədbirlər təkcə dövlətin deyil, insanın da şəxsi təhlükəsizliyinin təmin edilməsinə yönəldilməlidir. İnsan alveri onun daha çox qurbanı olan qadınlara və uşaqlara qarşı zorakılığın formalarından biridir. İnsan alveri həm də beynəlxalq ailə hüququ sferasına qanunazidd müdaxilələrin formalarından biri kimi dəyərləndirilə bilər. Belə ki, onun ayrı-ayrı növləri qanuni ailə qaydalarının təhrif olunması və vicdansızcasına istifadəsi ilə əlaqədardır. Adi praktikanın müəyyən dairələrdə mahiyyətinə görə insan hüquqlarına və ləyaqətinə zərər yetirən kimi qəbul edilən bəzi növləri də insan alverinin yayılmasına rəvac verə bilər.

Mütəşəkkil transmilli cinayətkarlığın müasir vəziyyətinin və strukturunun təhlili göstərir ki, sözügedən cinayət fəaliyyətinin ayrı-ayrı növləri kifayət qədər aktiv inkişaf edir. Müasir zamanda gəlirli biznesə çevrilən insan alverinin həyata keçirilməsi bu qəbildən olan fəaliyyət iyerarxiyasında xüsusi yer tutur və mütəşəkkil transmilli cinayətkar qrupların başlıca gəlir mənbəyini təşkil edir. Yaranmış vəziyyət xarici ölkə mütəxəssislərinin tədqiqatları ilə də təsdiq olunur. Belə ki, alman alimi Leo Kaydel apardığı elmi tədqiqatlar nəticəsində belə bir fikrə gəlmişdir ki, insan alveri cinayətkar qrupların əsas fəaliyyət növlərindən biridir və kriminal fəallıq iyerarxiyasında beşinci yeri tutur (10). Qadın alveri və qadın əmək miqrasiyası problemləri üzrə ilk sosioloji tədqiqatlar Y.V.Tyuryukanova və M.M.Malışeva tərəfindən aparılmışdır. Burada müasir qadın əmək miqrasiyası, onun başlıca ünsürləri, strukturu, istiqamətləri təhlil edilir (5).

Qeyd olunmalıdır ki, müasir cinayət hüququ və kriminologiya elmində insan alveri ilə bağlı mövzunun problemini tam əhatə edən fundamental tədqiqatlar son vaxtlara qədər demək olar ki, yox idi. Mövcud tədqiqatlar arasında, ilk növbədə, Ümumdünya şəbəkəsinin «Alınmışlar və satılmışlar» (7) adlanan məlum məruzəsini qeyd etmək olar. Problemin beynəlxalq-hüquqi bazası insan alverinə qarşı yönəlmiş bir sıra regional sazişlərlə tamamlanır. İnsan alverinə qarşı fəaliyyət haqqında Avropa Şurasının 2005-ci ildə qəbul edilmiş Konvensiyası da bu sıraya aiddir. Konvensiyada insan alveri qurbanlarına daha çox yardım göstərilməsinə və onların müdafiəsinin təmin olunmasına cəhd göstərilir. Sözügedən Konvensiya təkcə Avropa Şurasına üzv olan dövlətlər deyil, həm də Avropa birliyinin üzv olmayan, sənədin hazırlanmasında iştirak edən dövlətləri üçün də açıqdır.

---

* Məqalə hüquq ü.f.d. Mirafərim Seyidov tərəfindən çapa məsləhət görülüb.

Birləşmiş Millətlər Təşkilatının köləliyin müasir formaları üzrə İşçi qrupu insan hüquqlarının pozulması siyahısını hazırlamışdır ki, bunlar da müasir köləliyin formaları hesab olunur:

- uşaqların alınıb-satılması;
- uşaq fahişəliyi;
- uşaq pornoqrafiyası;
- uşaq əməyi;
- seksual turizm;
- uşaqlardan silahlı qüvvələrdə istifadə olunması;
- əmək miqrantlarının istismarı;
- qeyri-qanuni oğulluğa götürmə;
- insan alveri;
- insan orqanları ilə ticarət;
- başqa şəxslərin fahişəliklə istismarı;
- qadınlara münasibətdə zorakılıq;
- nikaha girməyə məcburedilmə;
- borc asılılığı;
- məcburi əmək.

Hal-hazırda insan alverinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq intensiv inkişaf edir. Bu da öz növbəsində həmin sahədə mütəşəkkil beynəlxalq qrupların qurbanlarının sayının artması və dövlətlərin milli təhlükəsizliyinə təhdidlərlə şərtlənir. İnsan alverinə qarşı mübarizəyə yönəlmiş fəal kodifikasiya prosesi də məhz bununla bağlıdır. Belə ki, yuxarıda qeyd edildiyi kimi, may 2005-ci ildə Avropa Şurasının Nazirlər Kabineti «Açıq xarakterli insan alverinə qarşı fəaliyyət haqqında» Konvensiya qəbul etmişdir. Böyük əhəmiyyətinə baxmayaraq sözügedən sənəd hələ də müfəssəl elmi tədqiqat obyekti olmamışdır (8).

Konvensiyanın hazırlanmasının əsas səbəblərindən biri regional səviyyədə elə bir icbari hüquqi sənədin işlənməsi olmuşdur ki, bu sənəd insan alveri qurbanlarının müdafiəsini, insan ləyaqətinə hörmətlə yanaşılmasını təmin etsin və hüquqazidd fəaliyyətlə məşğul olan şəxslərin cənayət təqibi və insan hüquqları məsələlərini tənzimləyə bilsin (b.29). Konvensiya universal və regional səviyyələrdə qəbul edilmiş digər aktlarla rəqabət aparmır, lakin onların təmin etdiyi müdafiəni yaxşılaşdırır, əhatə etdikləri standartların mahiyyətini açır. İnsan alverinin qarşısının alınmasına, günahkar şəxslərin təqib olunmasına və cəzalandırılmasına, cinayət əməlinin qurbanlarının müdafiəsinə, habelə göstərilən sahələrdə beynəlxalq əməkdaşlığın stimullaşdırılmasına yönəlmiş Konvensiya alverdən zərər çəkmiş insanların xidmətlərinə olan tələbin azaldılması üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur. Konvensiyanı milli və transmilli insan alverinin mütəşəkkil cinayətkarlıqla bu və ya digər dərəcədə əlaqədar olan bütün formalarına tətbiq etmək mümkündür.

Konvensiyaya görə «qurban dedikdə, insan alverinə məruz qalan istənilən fiziki şəxs nəzərdə tutulur» (m. 4, b. (e)). Konvensiyada əsas diqqət dövlətin insan alverinin qarşısının alınması üzrə preventiv fəaliyyətinin müxtəlif formalarına yönəldilir, bununla mübarizə üçün məsuliyyət daşıyan müxtəlif orqanlar arasında əlaqələndirmənin gücləndirilməsi risk qrupuna daxil olan şəxslər üçün onların hüquqlarının, uşaqların maraqlarının, qadınlarla kişilər arasında bərabərliyin qorunması şərti ilə müxtəlif səviyyəli tədqiqatların, təhsil və informasiya xarakterli kampaniyaların aparılması tövsiyə edilir (m. 5). Konvensiya iştirakçı dövlətlər üzərinə müvafiq orqanlar tərəfindən qanuni mühacirət etməyə imkan verən şərtlər haqqında səhih məlumatların yayılması yolu ilə zəruri tədbirlərin həyata keçirilməsi vəzifəsini qoyur. Konvensiya dövlətdən qurbanların

müəyyən edilməsi üzrə xüsusi prosedurların qəbul olunmasını tələb edir (m. 10). İnsan alveri qurbanlarının müəyyən edilməsi onların əsas hüquqlarının qəbul olunmasına, vaxtında yardım göstərilməsinə, habelə qurbanlarla cinayətkar, qeyri-leqal miqrant kimi rəftar edilməsinin qarşısının alınmasına imkan yaradır. Konvensiyanın qurbanlara yardım göstərilməsi üzrə tədbirlər siyahısı da kifayət qədər genişdir (m. 12). Buraya insan alveri qurbanına bərpa olunmaq üçün 30 günlük müddətin (m. 13), yaşamaq üçün icazənin (m. 14) verilməsi də daxildir (9).

Öz qurbanlarını tələyə salan insan alveri ümumdünya qul ticarətinin müasir formasıdır. Burada insanlara adi alqı-satqı predmeti kimi yanaşılır, onları əsasən seksual xidmətlər sahəsində, habelə kənd təsərrüfatı sektorunda, gizli və leqal emalatxanalarda havayı və ya cüzi əmək haqqı ilə işləməyə məcbur edirlər. İdentifikasiya edilmiş insan alveri qurbanlarının böyük hissəsini qadınlar təşkil edirlər, lakin buraya kişilər də daxil ola bilərlər.

«İnsan alveri» anlayışının beynəlxalq səviyyədə hüquqi tərifi (Avropa Şurası Konvensiyasının da qəbul etdiyi - müəl.) Palermo protokolunda verilmişdir (Konvensiyanın 4-cü maddəsinin şərhi). Bu mərhələdə qeyd olunmalıdır ki, insan alveri anlayışı «qeyri-qanuni miqrant qaçaqçılığı»ndan fərqlənir. Sonuncu, BMT-nin mütəşəkkil transmilli cinayətkarlıqla mübarizə Konvensiyasının ayrıca protokolunun tənzimlənmə obyektidir (BMT-nin mütəşəkkil transmilli cinayətkarlıqla mübarizə Konvensiyasını tamamlayan miqrantların quru, dəniz və hava yolu ilə qaçaqçılığına qarşı Protokol). Miqrantların qanunsuz qaçaqçılığının əsas məqsədini onları birbaşa və ya dolayı yolla gəlir yaxud digər maddi fayda əldə etmək üçün sərhəddən keçirmək təşkil edirsə, insan alverinin başlıca məqsədi istismardır. Bundan başqa, insan alverinə yalnız milli səviyyədə mümkün olan transsərhəd elementinin daxil olması vacib deyil. Bu sahədə mövcud təcrübə göstərir ki, milli səviyyədə müvafiq hüquqi alətlərin tətbiq olunması dünya birliyi miqyasında həyata keçirilən tədbirlərin güclənməsinə imkan yaradır.

İnsan alveri mütəşəkkil cinayətkar qruplar tərəfindən qanundan yan keçmək və gəlirləri gizlətmək üçün korrupsiya əlaqələrindən istifadə edilməklə, çirkli pulluran yuyulması məqsədi ilə həyata keçirilə bilən bir fəaliyyətdir. Lakin qeyd olunmalıdır ki, bu fəaliyyət göstərilən kontekstdən kənara da çıxa bilər. Elə buna görə də bu sahədə Avropa Şurası tərəfindən işlənib hazırlanmış başqa hüquqi alətlər, xüsusilə insan hüquqlarını, uşaq hüquqlarını, sosial hüquqları, insan alveri qurbanlarının hüquqlarını qorumaq, habelə korrupsiya, çirkli pulların yuyulmasını, kibercinayətkarlıqla mübarizə məqsədləri güdən sənədlər, o cümlədən hüquqi sahədə beynəlxalq əməkdaşlıq haqqında müxtəlif müqavilələr də tətbiq oluna bilərlər.

Avropa Şurasının Parlament Assambleyası özünün qadın alveri və fahişəliklə əlaqədar miqrasiya haqqında 1610 saylı (2003-cü il) Tövsiyəsində bu məsələyə münasibət bildirir. Bu Tövsiyədə Parlament Assambleyası Nazirlər Kabinetinə aşağıdakıları məsləhət görmüşdür:

a) Avropa Şurasının bu sahədə mövcud olan digər beynəlxalq sənədləri tamamlayan insan alveri ilə bağlı və insan hüquqlarının qorunmasına yönəlik Konvensiyanın işlənib hazırlanmasına mümkün qədər tez başlamaq;

b) Avropa Şurasının Konvensiyasında insan alveri ilə bağlı aşağıdakı müddəaların olmasını təmin etmək:

- insan alveri cinayətinin Avropa Şurasına üzv-dövlətlərinin cinayət qanunvericiliyinə daxil edilməsi;
- insan alverinə tətbiq olunan cəzaların harmonizasiyası;
- insan alverində şübhəli bilinən şəxslərə münasibətdə səmərəli yurisdiksiyanın müəyyən edilməsini təhvilverilmə prosedurlarının sadələşdirilməsi və insan alveri ilə

əlaqədar olan bütün məsələlərə dedere aut judicare prinsipinin tətbiq olunmasını təmin etmək.

İnsan alverinin birbaşa və ya dolayı yolla insan hüquqlarının pozulması kimi qəbul edilməsinə bir çox beynəlxalq bəyannamələrdə və hüquqi sənədlərdə rast gəlinir. Avropa İttifaqının 19 iyul 2002-ci il tarixli Çərçivə qərarında bildirilir ki, «insan alveri şəxsiyyətin əsas hüquqlarının və insan ləyaqətinin pozulmasıdır...» (paraqraf 3). BMT-nin nəzarət orqanları, o cümlədən İnsan hüquqları üzrə Komitə və Qadınlara münasibətdə ayrıseçkiliyin aradan qaldırılması üzrə Komitə də insan alverini insan hüquqlarının pozulması kimi qiymətləndirir (2, 3).

Müasir dünyada insan alveri əsl fəlakətə çevrilmişdir. Kişilərə, qadınlara və uşaqlara da təsir göstərən bu fenomen görünməmiş miqyas almışdır və faktiki olaraq köləliyin yeni bir formasına çevrilmişdir. İnsan hüquqları haqqında Avropa Konvensiyasının 4-cü maddəsində köləlik və məcburi əmək qadağan olunur və qeyd edilir ki, «heç kim köləlikdə və ya asılı vəziyyətdə saxlanıla bilməz. Heç kəs məcburi və icbari əməyə (11) cəlb edilə bilməz». İnsan alverinin bu Konvensiyanın 4-cü maddəsində verilən tərifində «kölǝlik» anlayışına istinad edilir.

Nəticədə, Avropa Şurasının bu Konvensiyasını digər beynəlxalq hüquqi sənədlərə münasibətdə aşağıdakı kimi yekunlaşdırmaq olar:

- insan alverini insan hüquqlarının pozulması kimi qəbul etmək;
- insan alveri qurbanlarına yardım göstərilməsinə və onların müdafiəsinə xüsusi diqqət vermək;
- insan alverinin bütün formalarını - transmilli və ya milli, mütəşəkkil cinayətkarlıqla əlaqəsi olan və ya olmayan növlərini əhatə edən sahə kimi qəbul etmək;
- Konvensiya insan alverinin qurbanı olmuş bütün şəxslərə – uşaqlara, qadınlara və kişilərə tətbiq olunur;
- qurbanların və şahidlərin müdafiəsinin təmin olunması üçün kompleks şəklində hüquqi çərçivənin müəyyən olunması;
- səmərəli və müstəqil nəzarət mexanizmlərinin müəyyən olunması. Təcrübə göstərir ki, belə mexanizmlərin tətbiq olunduğu sahələrdə (məsələn, işgəncələrə qarşı mübarizə, milli azlıqların hüquqlarının müdafiəsi və s.) iştirakçı dövlətlər tərəfindən onlara böyük etimad göstərilir.

İnsan alverinin profilaktikasının hüquqi və təşkilati əsaslarının müəyyən edilməsi və Azərbaycan Respublikasında insan alveri qurbanlarının müdafiəsi məsələlərinin tənzimlənməsi üçün 28 iyun 2005-ci il tarixində Azərbaycan Respublikasının «İnsan alverinə qarşı mübarizə haqqında» Qanunu qəbul edilmişdir. Azərbaycan Respublikasının «İnsan alverinə qarşı mübarizə haqqında» Qanununa uyğun olaraq və Milli fəaliyyət planında göstərilən vəzifələrin yerinə yetirilməsinin səmərəliliyinə nail olunması, insan alveri qurbanlarının təhlükəsizliyinin təmin olunması, onlara peşəkar yardımın göstərilməsi, insan alveri ilə mübarizə sahəsində məlumatların xüsusi təlim keçmiş peşəkar polis əməkdaşları və polis strukturlarında toplanması və saxlanması, onların zəruri avadanlıqla təchiz edilməsi məqsədi ilə Daxili İşlər Nazirliyi strukturunda xüsusi polis strukturu yaradılmışdır. Azərbaycan Respublikasının «İnsan alverinə qarşı mübarizə haqqında» Qanununda insan alveri anlayışı belə müəyyən edilir. Qanunun 1.0.1-ci maddəsinə görə insan alveri zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsindən ibarət olan əməl-

ləri əhatə edir (uşağın istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi bu maddədə göstərilən üsullardan istifadə olunmasa da insan alveri hesab edilir) (1).

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1-ci maddəsinin dispozisiyasında insan alveri cinayətinə aşağıdakı kimi anlayış verilir: «İnsan alveri, yəni şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhəddindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi». Göründüyü kimi, adı çəkilən Qanunda insan alverinə verilən anlayış Cinayət Məcəlləsinin 144-1-ci maddəsində verilən anlayışdan daha geniş məzmundadır. Hesab edirik ki, adı çəkilən Qanunda insan alverinə cinayət-hüquqi baxımdan, o cümlədən əməlin tövsifinin düzgün həyata keçirilməsi yönündən daha dolğun və dürüst anlayış təsbit edilmişdir.

Azərbaycan Respublikasında insan alveri ilə mübarizə sahəsində əsas tədbirlər həyata keçirilmişdir. Belə ki, 6 may 2004-cü il tarixində insan alveri ilə mübarizə üzrə Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Məhz bu Plana uyğun olaraq Azərbaycan Respublikasının «İnsan alverinə qarşı mübarizə haqqında» Qanunu qəbul edilmiş, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə müvafiq əlavələr və düzəlişlər edilmişdir. İnsan alveri ilə mübarizənin əsaslarının təşkili məqsədi ilə insan alveri ilə mübarizə üzrə məsuliyyətli şəxs - Milli Koordinator təyin edilmişdir. Milli Fəaliyyət Planının iştirakçılarının vahid əməkdaşlıq və onlar arasında informasiya mübadiləsi sisteminin yaradılması məqsədi ilə mərkəzi icra hakimiyyəti orqanlarının nümayəndələrindən ibarət İşçi qrupu yaradılmışdır (4). Eyni zamanda İnsan Alveri ilə Mübarizə ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən bir sıra normativ-hüquqi aktlar qəbul edilmişdir. 2004-cü ildə Daxili İşlər Nazirliyinin Mütəşəkkil Cinayətkarlıqla Mübarizə Baş İdarəsi bazasında insan alveri ilə mübarizə İdarəsi yaradılmışdır. İnsan alveri ilə ədaqədar cinayətlər haqqında məlumatların toplanması, ümumiləşdirilməsi və təhlili məqsədi ilə İnsan Alveri ilə Mübarizə İdarəsində mərkəzləşdirilmiş məlumat bazası yaradılmışdır (məlumatların məxfiliyinə təminat verilir - müəl.). Ölkə ərazisində «Qaynar xətt» telefon xidməti yaradılmışdır ki, insan alveri qurbanlarına və potensial qurbanlara pulsuz xidmət göstərir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində bu qəbildən olan cinayətlərlə mübarizəni tənzimləyən müvafiq maddələr nəzərdə tutulmuş, potensial cinayət subyektləri hesab olunan qadınların və uşaqların hüquqlarının və azadlıqlarının müdafiəsinə yönəlmiş bir sıra normativ-hüquqi aktlar qəbul olunmuşdur: maddə 106 (Köləlik), maddə 137 (İnsan orqanlarının və toxumalarının alqı-satqısı), maddə 144-1 (İnsan alveri), maddə 144-2 (Məcburi əmək), maddə 150-1 (Sərnişinlərin sənədsiz daşınması), maddə 171 (Yetkinlik yaşına çatmayanların fahişəliyə və ya pozğunluğa cəlb edilməsi), maddə 244 (Fahişəxanaların saxlanması), maddə 316-1 (İnsan alverindən zərər çəkmiş şəxs haqqında məxfi məlumatların yayılması).

**Açar sözlər:** insan alveri, köləlik, zorakılıq, borc asılılığı, məcburi əmək, kodifikasiya.

**İstifadə olunmuş ədəbiyyat**

1. Закон Азербайджанской Республики о борьбе с торговлей людьми. Баку, 28 июня 2005г.URL:http://www.base.spinform.ru.

2. О плане действий ОБСЕ по борьбе с торговлей людьми от 24 июля 2003 года: решение №557 Постоянного совета ОБСЕ от 19-21 марта 2003 г. URL:http://www.-humanrts.tj/public.

3. Об общественном здоровье и торговле людьми: Будапештская декларация от 19-21 марта 2003 г. URL: http://www.coe.int/t/dg2/trafficking.

4. План Национального Действия по борьбе с торговлей людьми Азербайджанской Республики, май 2004 г. URL: http://iadmi.gov.az.

5. Тюрюканова Е. В., Малышева М. М. Женщина. Миграция. Государство. М., 2001.

6. Уголовный кодекс Азербайджанской Республики: утв. Законом Азербайджанской Республики от 30 дек. 1999 г.; вступил в силу с 1 сент. 2000 г. URL:http://www.crime.v1.ru.

7. Caldwell G., Galster S., Steinzor N. Crime & Servitude: An Expose of the Trafficin Women for Prostitution from Newly Independent States //Trends in Organized Crime. New Brunswick, Summer 1998. Vol. 3. №4.

8. Council of Europe Convention on Action against Trafficking in Human Beings [Electron-ic resource] //Council of Europe. Mode of access: URL: http://conven-tions.coe. int/T reaty/EN/T reatie s/Html/197. htm.

9. Explanatory Report to the Council of Europe Convention on Action against Trafficking in Human Beings [Electronic resource] //Council of Europe. Mode of access: URL: http://conventions.coe.int/Treaty/EN/Reports/Ht.ml/197.htm.

10. Keidel L. Menschenhandel als Phenomen Organi-sierter Kriminalitdt. Kriminalistik, no. 5, p. 325.

11. Trafficking in Human Beings [Electronic resource] //Council of Europe. Mode ofaccess: URL:http://conventions.coe.int/Treaty/EN/Treaties/Html/197.htm.

**Фазиля ГУСЕЙНЛИ**

## ЕВРОПЕЙСКИЙ СОВЕТ И ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ БОРЬБЫ С ТОРГОВЛЕЙ ЛЮДЬМИ В ЗАКОНОДАТЕЛЬСТВЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Резюме**

Являясь современной формой рабства, торговля людьми – это преступление, направленное против нарушения прав человека, а также личности и государства, наказуемо в законодательном порядке. Предложанная статья посвящена вопросам борьбы с торговлей людьми, зафиксированных в решениях Совета Европы, а также в законодательстве Азербайджанской Республики. Автор исследовал Конвенцию Совета Европы о противодействии торговле людьми и различные решения Совета Европы по борьбе с торговлей людьми, а также законодательство и нормативно-правовые акты Азербайджанской Республики, касающиеся этих вопросов.

**Ключевые слова:** торговля людьми, рабство, насилие, долговая зависимость, насильственный труд, кодификация.

**Fazilya HUSEYNLI**

# THE EUROPEAN COUNCIL AND POLITICAL ASPECTS OF THE STRUGGLE AGAINST HUMAN TRADE IN THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN

**Summary**

Been a modern form of slavehood, human trade is a crime directed at the human rights, as well of personality and state, profitable in the legislative order. The present article is dedicated to the issues of human trade banned in the countries of European Council as well in the legislation of the Republic of Azerbaijan. The author investigated the Convention of the European Council on protection of human trade and different resolutions of the European Council on stuggle against human trade as well as the legislation and normative-legal statutes of the Republic of Azerbaijan, concerning these issies.

**Keywords:** human trade, slavehood, violence, debt dependence, forcedlabour, confiscation.

**UOT 327-027.21**

**Pərvanə İSLAMOVA**
*doktorant, AMEA Hüquq və*
*İnsan Haqları İnstitutu*

# RUSİYA VƏ ABŞ-IN XƏZƏR HÖVZƏSİNƏ DAİR TƏHLÜKƏSİZLİK KONSEPSİYALARININ MAHİYYƏTİ VƏ DİGƏR HÖVZƏ ÖLKƏLƏRİNİN MÖVQEYİ*

2008-ci ilin iyulunda inaqurasiyasından bir neçə ay keçəndən sonra Rusiya prezidenti Dmitri Medvedev öz hakimiyyət illərində ən mühüm təhlükəsizlik sənədi olan Xarici Siyasət Konsepsiyasının hazırlanmasına göstəriş verdi. 2009-cu il may ayının 12-də Medvedev Rusiyanın ilk Milli Təhlükəsizlik Strategiyasını ratifikasiya etdi. Strategiya üzərində işlər 2004-cü ildən başlamışdı. Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev yenilənmiş variant üzərində uzun müddət işləmişdi, lakin müxtəlif səbəblərə görə onun qəbulu gecikirdi (1). 2009-cu ilin 24 martında Təhlükəsizlik Şurasının iclasında Strategiyanın qəbulu gözlənilirdi, lakin bəzi təzadlı fikir və təkliflər onun qəbulunu təxirə saldı və aprelin 24-nə kimi bir ay müddətində dəyişikliklərin olunması üçün qaytarıldı. Son anda təklif olunan dəyişikliklər əsasən Barak Obamanın hakimiyyəti illərində ABŞ-la münasibətlərə və insan hüquqlarına aid idi (2). 2009-cu ildə qəbul edilmiş strategiya 1997-ci ildə Yeltsinin və 2000-ci ildə Putinin qəbul etdiyi Milli Təhlükəsizlik Konsepsiyalarını təkmil formada əvəz etdi.

Medvedevə görə Milli Təhlükəsizlik Konsepsiyası "fundamental sənəd olaraq dövlət idarəçiliyinin səviyyəsini yüksəltmək məqsədi daşıyırdı" (3). 2000-ci ildə qəbul edilmiş konsepsiyaya oxşar olaraq bu strategiya da strateji və təhlükəsizlik məsələlərinə Rusiyanın dövlət yanaşmasını əks etdirirdi. Strategiya strateji məqsədləri və görüləcək tədbirləri özündə əks etdirən sənəddir. Patruşevə görə, "konsepsiyadakı məqsəd və tədbirlər qısa müddətli 2012-ci ilədək, orta müddətli 2013-2015-ci illər və uzun müddətli 2020-ci ilədək olan dövrü əhatə edir (1).

Sənədin başlığında əks olunan ən vacib məsələ Rusiyanın beynəlxalq statusu, Avro-Atlantik təhlükəsizlik strukturları və Şərq dövlətləri ilə təhlükəsizlik sahəsində əməkdaşlığın faydalarıdır. Beynəlxalq arenadakı hazırkı roluna görə Xarici Siyasət Konsepsiyası Rusiyanı qlobal məsələlərdə müstəsna rola və təsiretmə gücünə malik mərkəz kimi təsvir edir. "Super" dövlət statusuna malik olan Rusiya beynəlxalq məsələlərin həllində böyük iddialar irəli sürür. Güclü beynəlxalq mövqeyinə görə Konsepsiyada deyilir ki, Rusiya xaricdəki vətəndaşlarının hüquqlarını və qanuni maraqlarını qorumaq iqtidarındadır.

Avro-Atlantik təhlükəsizliyi ilə bağlı sənəddə göstərilirdi ki, rəsmi Moskva Qərbin yaratdığı kollektiv təhlükəsizlik və əməkdaşlıq sistemlərindən fərqli olaraq müxtəlif təhlükəsizlik sistemlərinin yaradılmasını dəstəkləyir. Bundan başqa, Xarici Siyasət Konsepsiyası NATO-nun daha da genişlənməsini istəmir, xüsusilə Gürcüstan və Ukraynanın təşkilata üzv qəbul olunmasına qarşıdır.

Sənəddə Rusiyanın Şərqlə, xüsusilə Çin və Hindistanla əməkdaşlığının inkişafı diqqətə çatdırılır. Buna əlavə olaraq, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı və Müstəqil Dövlətlər Birliyi keçmiş MDB məkanında stabillik və təhlükəsizliyin təmin olunmasında açar rolunu oynayan təşkilat kimi qeyd olunur. Rusiya,Çin və dörd Mərkəzi Asiya ölkəsindən ibarət

---

* Məqalə siyasət e.ü.f.d. Rəşad Hüseynov tərəfindən çapa məsləhət görülüb.

siyasi, iqtisadi və təhlükəsizlik qurumu Şanxay Təhlükəsizlik Təşkilatı və bu təşkilatın Asiya-Sakit okean regionundakı rolu yüksək qiymətləndirilir.

2009-cu ildə qəbul edilmiş bu sənəd ilə Moskvanın siyasi prioritetləri də dəqiqləşdirildi. Konsepsiyada deyilirdi ki, "Rusiya başqa dövlətlərin təsiri olmadan beynəlxalq məsələlərdə öz milli maraqlarını ortaya qoya bilir. 2008-ci ilin Rusiya-Gürcüstan münaqişəsi bu fikri aydın göstərir. Bu münaqişədən dərhal sonra 31 avqust tarixində prezident Medvedev televiziyaya müsahibəsində xarici və təhlükəsizlik siyasəti haqqında fikirlərini ümumiləşdirərək Rusiyanın fəaliyyətini əks etdirəcək beş prinsipi elan edir və bu prinsiplər Konsepsiyanın əsas hissəsinə çevrilir:

- Beynəlxalq hüquq üstün olmalıdır.
- Çoxqütblü dünya ABŞ-ın hakim olduğu təkqütblü dünyanı əvəz etməlidir.
- Rusiya özünü təcrid etmək niyyətində deyil, əksinə Qərblə dost münasibətlərin inkişafını dəstəkləyir.
- Rusiya öz vətəndaşlarının müdafiəsini vacib hesab edir və onlara qarşı törədilən istənilən aqressiv hərəkətə cavab verəcək.
- Rusiyanın müəyyən regionlarda üstün maraqları var (4, s.3).
- Vətəndaşlarının müdafiəsi ilə bağlı olan hissəni qeyd etməkdə əsas məqsəd Abxaziya və Cənubi Osetiyadakı Rusiya vətəndaşlarını qorumaq, Gürcüstanın işğalını qanuniləşdirməkdir.

Rusiya hökumətinin qəbul etdiyi Milli Təhlükəsizlik Konsepsiyası yalnız hərbi təhlükəsizliyi nəzərdə tutmurdu. Prezident Medvedev bu haqda qeyd edirdi ki, "təhlükəsizlik yalnız xarici siyasətlə əlaqəli deyil, bu həm də iqtisadi təhlükəsizlikdir... iqtisadi təhlükəsizlik bizim strategiyanın mühüm tərkib hissəsidir" (5, s.19). Strategiyanın hazırlanmasında əməyi olan Rusiya Milli Elmlər Akademiyasının Beynəlxalq İqtisadiyyat və Siyasət İnstitutunun rəhbəri Ruslan Grinberq daha da irəli gedərək bildirdi ki, "iqtisadi təhlükəsizlik sənədin prioritet hissəsi olaraq ənənəvi təhlükəsizlik problemlərini arxada qoyur" (1).

2000-ci ildə qəbul edilmiş Konsepsiya ilə 2009-cu ildə qəbul edilmiş Milli Təhlükəsizlik Konsepsiyası arasında oxşarlıqlar çoxdur. Məsələn, 2000-ci il konsepsiyası göstərirdi ki, xarici siyasətin məqsədi siyasi, iqtisadi və digər yollarla xaricdəki Rusiya vətəndaşlarının hüquqlarını və maraqlarını qorumaqdır. 2009-cu ilin strategiyasında isə bu haqda qeyd olunur ki, sənədin məqsədi xaricdəki Rusiya vətəndaşlarının hüquqlarının və qanuni maraqlarının qorunmasının effektivliyini artırmaqdır (6, s.8).

2000-ci ildə qəbul edilmiş strategiyada ən önəmli məsələlərdən biri də "iqtisadi böhranın" nəticələrini aradan qaldırmaq üçün müəyyən tədbirlərin görülməsi idi. Medvedevin imzaladığı sənəddə isə Rusiyanın iqtisadi cəhətdən daha da inkişaf etdirilməsi, orta müddət ərzində ÜDM-un səviyyəsinə görə beş ölkədən birinə çevrilməsi məqsəd olaraq müəyyən edilmişdir. Bir il əvvəl V.Putin bildirmişdi ki, Rusiya Böyük Britaniyanı keçməli, onun altıncı sırada yer almasına nail olmalıdır (7). Beynəlxalq Valyuta Fondu və Mərkəzi Kəşfiyyat İdarəsinin 2008-ci il məlumatına görə Rusiya iqtisadi inkişaf səviyyəsinə görə səkkizinci yerdə dururdu.

"Təhlükəsizlik" sözünün bir "vəziyyət" kimi gündəlik anlamı onu göstərir ki, bu gün müasir dünyada təhlükəsizlik həmişə predmetli olub, nəyə isə aid olmaqla xaricdən və yaxud daxildən real qorxunun, təhlükənin obyektiv mövcudluğunu göstərir (8, s.12). Bu mənada Xəzər dənizinin və ümumilikdə Qafqaz regionunun təhlükəsizliyinin nə dərəcədə əhəmiyyətli olduğu çox vacib məsələdir. Məhz bu mühüm xüsusiyyətdən irəli gələrək regionda hegemon ölkə olan Rusiya öz təhlükəsizlik konsepsiyasında Xəzər dənizi və Qafqaz regionuna xüsusi hissə həsr etmişdir. Sənədin ən dəyərli hissəsi isə rusiyalı analitiklərin növbəti onillikdə baş

verə biləcək hadisələrlə bağlı irəli sürdükləri bir qisim proqnozlar olmuşdur. Və burada göstərilirdi ki, çox da uzaqda olmayan bir dövrdən başlayaraq dünyada enerji mənbələrinə nəzarət uğrunda mübarizə həddən artıq kəskinləşməyə başlayacaq. Bu mübarizənin əsas obyektləri isə a) Yaxın Şərq, b) Barens dənizi şelfi, c) Arktikanın digər regionları, d) Xəzər hövzəsi və e) Mərkəzi Asiya regionu olacaqdır (9, s.6-7). Konsepsiyada enerji məsələləri, xüsusilə onun təhlükəsizliyi və resurslar diqqət mərkəzində saxlanılır. Rəsmi Moskva enerji amilindən Ukrayna ilə olan qaz böhranı zamanı bir vasitə kimi istifadə edir. Sənəddə göstərilir ki, enerji resursları uğrunda artmaqda olan rəqabət Rusiyanın sərhədlərində və qonşu ölkələrdə böyük ziddiyyətlər yarada bilər.

Azərbaycan həm qonşu ölkə olaraq, həm də enerji mənbəyi və regionda balanslı siyasət yeridən ölkə kimi Rusiyanın maraqlarında özünəməxsus yer tutur. Bu baxımdan 2009-cu ildə Rusiyanın strateji əhəmiyyət kəsb edən konsepsiyası hazırlanarkən Xəzər hövzəsi haqqında müəyyən fikirlər irəli sürülmüşdür. Bu fikirlər sırasında Xəzər hövzəsinin enerji mənbəyi olaraq beynəlxalq rəqabət mərkəzinə çevriləcəyi, bu rəqabət fonunda Rusiyanın regiondakı nüfuzunun güclənəcəyi xüsusi qeyd edilmişdir.

Azərbaycan və Amerika Birləşmiş Ştatlarının 1919-cu ildən etibarən diplomatik münasibətləri var (10). Həmin vaxtlarda yenicə müstəqillik qazanmış Azərbaycan tezliklə Sovet Rusiyasının işğalına məruz qaldı və uzun müddət imperiyanın tərkibində vassal oldu. 1991-ci il dekabrın 25-də SSRİ-nin dağılması ilə on iki postsovet ölkəsi, o cümlədən ölkəmiz də müstəqilliyini bərpa etdi. Bunun ardınca Azərbaycanın Vaşinqtonda və ABŞ-ın Bakıda səfirliyi açıldı və münasibətlər daha da intensivləşdi. ABŞ hökuməti tədricən Azərbaycanın əhəmiyyətini daha yaxşı anlamağa başlayırdı. 2009-cu ilin sentyabrında Corctaun Universitetində Azərbaycan-ABŞ münasibətlərindən bəhs edən konfransda dövlət katibinin müavini William.J.Burns Amerika Birləşmiş Ştatlarının Azərbaycanla ikitərəfli münasibətlərində ABŞ üçün üç sahədə əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını vurğuladı: təhlükəsizlik, enerji, iqtisadi və demoqrafik islahatlar (11, s.4). ABŞ-ın Azərbaycanla təhlükəsizlik sahəsində əməkdaşlığı bir neçə il bundan əvvəl ölkəmizin NATO-nun “Sülh naminə tərəfdaşlıq” proqramında və ABŞ-ın rəhbərliyi ilə olan Kosovo, Əfqanıstan və İraq əməliyyatları ilə başladı. NATO rəhbərliyi çalışırdı Azərbaycan, Qazaxıstan və Türkmənistanla sıx hərbi münasibətlər yaratsın, çünki bu ölkələrlə ABŞ-ın enerji müqavilələri mövcud idi. 1996-cı ildə NATO rəsmiləri bildirdilər ki, enerji ehtiyatlarının daşınmasında iştirak etmək istəyirlər. Sonralar, 1998-ci ildə Xəzər regionu ABŞ-ın cavabdeh olduğu ərazi elan edildi (12, s.29).

Sovet imperiyasının dağılmasından sonra Avrasiyanın mərkəzində yerləşən, karbohidrogen resursları ilə zəngin olan Xəzər regionu uğrunda Rusiya, ABŞ və Çin arasında siyasi və iqtisadi rəqabət başladı. 2001-ci il sentyabrın 11-dən sonra ABŞ hökuməti Xəzər regionunda hərbi baxımdan mövcudluğunu artırmaq üçün müstəqillik qazanmış ölkələrlə hərbi əməkdaşlığa başladı (12, s.29). ABŞ-nın bu addımını Rusiya özünün regiondakı maraqlarına birbaşa təhlükə hesab etdi.

Xəzər regionunun əhəmiyyətini ABŞ-ın enerji məsələləri üzrə dövlət katibi Bill Riçardson bildirirdi ki, “Xəzər regionu bizi tamamilə Yaxın Şərq neftindən asılı olmaqdan xilas edəcəkdir” (13). Amerikanın və Qərbin enerji şirkətlərinin Xəzər regionuna cəlb edilməsi 1990-cı illərin əvvəllərində Sovet İttifaqının dağılmasından sonra başladı. 1993-cü ildə Şevron Qazaxıstanla ilk müqaviləsini imzaladı və ən böyük neft yataqlarından biri Tengizin istismarını reallaşdırdı; digər Xəzəryanı ölkələr olan Azərbaycan və Türkmənistana təsirini artırdı (14, s.52). Bunun ardınca Qərb şirkətləri və Azərbaycan hökuməti 20 sentyabr 1994-cü ildə Əsrin müqaviləsini imzaladılar və Azəri-Çıraq-Günəşli neft yataqlarının istismarına start verildi (15, s.19). Lakin enerji resurslarının istismarı, resursların regiondan daşınması baxımından

problemlə üzləşdi, çünki Xəzər regionu çıxışı olmayan, qapalı ərazi idi. Baxmayaraq ki, Sovet İttifaqı süqut etmişdi, Rusiya hələ də regiondan dünya bazarına çıxışı olan bütün kəmərlərə nəzarət edirdi. Bu problemdən qaynaqlanaraq ABŞ Rusiyadan yan keçəcək alternativ kəmərlər layihəsinə dəstək olmağa başladı. Bu baxımdan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisi Rusiyanın regiondakı siyasətinə ciddi zərbə idi. 2005-ci ildə rəsmi açılışı olan bu kəmər haqda C.Buş belə deyirdi, "Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası Xəzər hövzəsinin inkişafında tarixi irəliləyiş və yeni eranın baçlanğıcıdır" (16).

Bunun ardınca uzunluğu 692km olan Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin inşası başlanıldı. Eyni zamanda Cənubi Qafqaz kəməri adlanan bu kəmər 2006-cı ildən etibarən Azərbaycanın qaz ehtiyatlarını Avropa bazarına çıxarır (17).

ABŞ-ın Xəzər regionunda enerji məqsədlərindən biri də OPEK-in üzvü olan İranı regiondakı enerji layihələrindən kənarda saxlamaqdır. Baxmayaraq ki, İran iqtisadi baxımdan Xəzər regionu enerji ehtiyatlarının daşınmasında ən optimal variantdır, BTC-nin inşası zamanı ABŞ kəmərin İrandan keçməsinə etiraz etdi. ABŞ qorxurdu ki, "İran regional gücə çevrilər, İsrailə hərbi təhlükə yarada bilər və Türkiyə ilə rəqabətə qoşular" (18, s.31).

2001-ci il 11 sentyabr terroru ABŞ-ın Xəzər regionu təhlükəsizlik siyasətində dönüş nöqtəsi oldu. Bu hadisə Xəzər regionunun ABŞ-ın qlobal strategiyasında əhəmiyyətini təkcə iqtisadi və enerji baxımından deyil, həm də siyasi və təhlükəsizlik baxımından artırmış oldu. Əfqanıstana yaxınlığı amili Xəzər regionunu daim diqqətdə saxlayırdı. ABŞ-ın regionda əsas strateji marağı enerji və təhlükəsizliklə bağlı idi. Xəzərin enerji amilinin əhəmiyyəti onunla izah olunurdu ki, ABŞ enerji mənbələrinin şaxələndirilməsini həyata keçirsin və Yaxın Şərq neftindən asılılığı azalsın; təhlükəsizlik amilinin əhəmiyyəti isə Əfqanıstanda terrorizmə qarşı mübarizə ilə əlaqəli idi (18, s.31). Bəzi siyasətçilər demokratiyanın yayılmasını, insan hüquqları və azadlıqları, regionda azad və ədalətli seçkiləri də ABŞ-ın məqsədlərinə daxil edirlər. Lakin demokratikləşmə siyasi vasitə kimi ABŞ-a zəif regionun siyasi və iqtisadi işlərinə müdaxilə etməyə və öz maraqlarını təmin etməyə yardım edir. 1997-ci ilin martında Klinton administrasiyasının Milli Təhlükəsizlik üzrə məsləhətçisi Sandy Berger Xəzər regionunu ABŞ-ın xarici siyasətinin əsas obyektlərindən biri kimi qeyd edirdi. Eyni ilin iyulunda Dövlət Katibi Strobe Talbott göstərirdi ki, "Xəzər regionuna enerji təhlükəsizliyi məsələsində aktiv müdaxilə onu göstərir ki, bu region ABŞ üçün çox əhəmiyyətlidir və hətta ABŞ-ın Rusiya ilə əməkdaşlığına bəzən kölgə salır "(19, s.19).

Bütün bu fikirlərdən çıxış edərək ABŞ-ın Xəzər regionunda xarici siyasət prioritetlərini ümumiləşdirib qeyd etmək olar ki, Sovet ittifaqının dağılmasından sonra regionun enerji resurslarına çıxış əldə etmək, nəqliyyat yollarına nəzarət etmək, əsas regional güc dövlətləri Rusiya və Çini regionda hər hansı iqtisadi və geosiyasi üstünlük qazanmaqdan məhrum etmək, region ölkələri ilə ikitərəfli və çoxtərəfli siyasi və iqtisadi münasibətlər yaratmaq, regionda digər xarici qüvvələrin hərbi baza yaratmasına yol verməmək və özünün hərbi qüvvələrini regionda yerləşdirməklə terrorizmə qarşı mübarizəsini asanlaşdırmaq və təhlükəsizliyini daha yaxşı təmin etmək ABŞ-ın əsas məqsədləridir.

ABŞ-ın əsas enerji istehlakı Kanada və Meksika körfəzinin payına düşür. ABŞ qlobal siyasətdə özünün ən mühüm siyasi və iqtisadi tərəfdaşı olan Avropa Birliyinin enerji təhlükəsizliyinin təminatında Xəzər regionunun əhəmiyyətini yüksək qiymətləndirir. Qeyd edək ki, Avropa Birliyi ən böyük enerji idxalçısıdır. 80%neft və 57% qaz idxal edir (20). Rusiya və Yaxın Şərq Avropa Birliyi regionunun əsas enerji təminatçısıdır. 2007-ci ilin statistikası göstərir ki, Avropa Birliyi neftin 30%-ni, qazın 50%-ni Rusiyadan idxal edir. Avropa Komissiyasının hesablamalarına görə, 2030-cu ildə enerjiyə tələbatın artması ilə əlaqədar Avropa enerji ehtiyacının ⅔ hissəsini idxal edəcəkdir. İdxal olunan neftin həcminin 94%, qazın həcminin isə 84% təşkil edəcəyi güman edilir (20, s.9). Xəzəryanı ölkələrdən

Azərbaycan və Türkmənistan ABŞ-nın NATO ilə birlikdə Əfqanıstanda terrorizmə qarşı apardığı mübarizədə mühüm rol oynayır. Bu ölkələr ABŞ Mərkəzi Komandanlığını yanacaqla təmin edirdi. ABŞ, NATO Azərbaycan və Türkmənistandan enerji idxalına görə heç bir gömrük ödəmirdi. Müdafiə agentliyinin sözçüsü bu haqda qeyd edirdi ki, "Türkmənistan və Azərbaycan NATO-nun Sülh naminə tərəfdaşlıq proqramında iştirak etdiyinə görə bu ölkələrdən alınan yanacaq yerli vergi və mükəlləfiyyətlərdən azaddır" (21).

Rusiya və ABŞ-nın Xəzər hövzəsindəki təhlükəsizlik konsepsiyalarına sahilyanı ölkələr fərqli mövqedən yanaşırlar. Azərbaycan balanslı siyasət aparan, əlverişli coğrafi mövqeyə və enerji resurslarına malik ölkə olaraq həm ABŞ, həm də Rusiya ilə əməkdaşlıqda maraqlıdır. Azərbaycan respublikası keçmiş sovet ölkəsi olsa da bir çox sahələrdə Mərkəzi Asiya ölkələrindən fərqli olaraq müstəqil siyasət aparmaqda qətiyyətlidir. Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatına və Avrasiya İqtisadi Birliyinə üzv olmamağı bu siyasətin əyani göstəricisidir. Hazırda ölkəmizdən həm Qərbə, həm də Rusiyaya enerji resursları ixrac edilir. Azərbaycan Rusiya ilə qarşılıqlı sıx münasibətlərin qurulmasında maraqlıdır, eynilə ABŞ ilə həm NATO çərçivəsində, həm də ikitərəfli əməkdaşlıqda fəallıq göstərir.

Qazaxıstan Kollektiv Təhlükəsizlik Müqaviləsi təşkilatının və Avrasiya İqtisadi ittifaqının üzvüdür və bir çox məsələlərdə Rusiya ilə eyni mövqedən çıxış edərək onu dəstəkləyir. Xəzərin dibinin bölüşdürülməsi üçün Qazaxıstan Rusiya və Azərbaycanla razılığa gəlib. Bu baxımdan Xəzər regionunda apardığı siyasətə Qazaxıstan neytral yanaşır.

Türkmənistan Rusiyanı strateji tərəfdaş hesab etsə də Rusiyanın rəhbərliyi ilə yaradılan Avrasiya İqtisadi İttifaqına qoşulmaq niyyətində deyil, MDB-nin assosiativ üzvüdür. Bu iki ölkə arasında 5 milyard dollarlıq mal dövriyyəsi var. Onlar bəzi məsələlərdə ortaq mövqedən çıxış edir, lakin qaz qiymətlərinə görə narazılıqları da istisna deyil. Türkmənistan da keçmiş Sovet ölkəsi kimi Rusiyanın Xəzər regionundakı siyasətinə sərt münasibət göstərmir. Rəsmi Aşqabad daha çox Rusiyanın işlərinə qarışmamaq mövqeyini tutur.

İran Xəzərdəki nüfuzunu itirməmək, bu regiondakı mövqeyini möhkəmləndirmək baxımından fəal siyasət yeridir. İran üçün Xəzər dənizi enerji resurslarından daha çox geosiyasi, geostrateji baxımdan əhəmiyyətlidir. Rəsmi Tehran Xəzər regionunda kənar qüvvələrin mövcudluğunu qəti olaraq istəmir, xüsusilə ABŞ-ın fəal xarici siyasəti İran hökumətini narahat edir. Rusiya isə İrana uranı zənginləşdirməkdə kömək edir, İrana silah satışını həyata keçirir. İki ölkə arasında əməkdaşlıq daha çox hərbi sahəni əhatə edir. Bu baxımdan İran da öz növbəsində Rusiyanın Xəzər regionu siyasətində bəzi hallarda Moskvaya dəstək verir.

**Açar sözlər:** Rusiya, ABŞ, təhlükəsizlik, konsepsiya, rəqabət.

### İstifadə olunmuş ədəbiyyat

1. Transcript of beginning of 24 March 2009 Security Council meeting. http://kremlin.ru/appears/2009/03/24/1541type63378type82634 214272.shtml

2. Kommersant,14 May 2009.

3. Xəzər regionunda təhlükəsizlik problemlərinə müxtəlif yanaşmalar.

4. Süleymanov M.Ə. Məmmədov K.S. Bakı Universitetinin Xəbərləri, Sosial-siyasi elmlər seriyası, 2010, №2 http://static.bsu.az/w8/Xeberler%20Jurnali/Sosial%202010%202/31-37.pdf

5. Russia's National Security Strategy, Russian Analytical Digest, №62, 18 İyun 2008, s.3.

6. Xinhua, 14 May 2009.

7. Keir Giles. Russia's National Security Strategy to 2020. İyun 2009, s. 8.
8. Krasnaya Zvezda, 25 Mart 2009.
9. Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun elmi əməkdaşı, siyasi şərhçi Ərəstun Baxşəliyevin "Təzadlar"a müsahibəsi. Elnur Eltürk, Təzadlar, 2012, 22 noyabr.
10. Bulletin d'Information de l'Azerbaidjan, № I, 1 Sentyabr, 1919, s. 6-7.
11. Burns William J. "Remarks: U.S.-Azerbaijan Relations". Georgetown University: Department of State. 18 sentyabr, 2009.
12. Richard K. Betts. U.S. National Security Strategy: Lenses and landmarks. Woodrow Wilson School of Public and International Affairs. Noyabr.
13. Laruelle Marlene & Peyrouse Sebastien. "The Militarization of the Caspian Sea: "Great Games" and "Small Games" Over the Caspian Fleets", China and Eurasia Forum Quarterly, Vol. 7, №2, 2009.
14. Goldberg Jeffrey. "The Crude Face of Global Capitalism", The New York Times, 4 Oktyabr 1998; (http://www.nytimes.com/1998/10/04/magazine/the-crude-face-of-globalcapitalism.html)
15. Nikolaev Sergei. "Central Asia in Geopolitics: The American Vector (1991-2008)", International Affairs: A Russian Journal of World Politics, Diplomacy and International Relations, № 2, 2011.
16. Karagiannis Emmanuel. Energy and security in the Caucasus (London, Routledge Curzon, 28 Mart 2002).
17. Nation R. Craig. "US Interests in the New Eurasia", in "Russian Security Strategy under Putin: U.S. and Russian Perspectives", Strategic Studies Institute: United Studies Army War Collage, 2007 noyabr.
http://www.strategicstudiesinstitute.army.mil/Pubs/display.cfm?pubid=829
18. SCP Commissioning Commences", Press release, 1 iyun 2006. http://www.bp.com/genericarticle.do?categoryId=9006615&contentId=7018471
19. Zeynep Oktav Özden. "American Policies Towards the Caspian Sea and The Baku-Tbilisi-Ceyhan Pipeline", Perceptions: Journal of international Affairs, Vol. 10 (1), 2005.
20. Jonson Lena. "The new geopolitical situation in the Caspian region", in Ghufrin, Gennady ed., The security of the Caspian Sea region (Oxford University Press, 2001), s. 19.
21. Lupu Catalina. "Russia and EU at crossroads: The role of the Black Sea region in the European Energy security", Trieste, 2009.
22. Tynan Deirdre. "Turkmenistan: Ashgabat Playing Key US/NATO Support Role in Afghan War", EURASIANET.org, 10 yanvar 2011; (http://www.eurasianet.org/node/62683)

**Парвана ИСЛАМОВА**

## СУЩНОСТЬ КОНЦЕПЦИЙ БЕЗОПАСНОСТИ РОССИИ И США ПО КАСПИЙСКОМУ БАССЕЙНУ И ПОЗИЦИЯ ДРУГИХ ПРИКАСПИЙСКИХ ГОСУДАРСТВ

### Резюме

В данной работе автор исследует политику и концепции безопасности двух супердержав по Каспийскому морю. В настоящее время растущий спрос на энергоресурсы и вопросы безопасности увеличивает важность Каспийского региона. Являясь преемником СССР, Россия старается укрепить свое влияние в регионе

Каспийского моря и предотвратить попытки вовлечения некаспийских стран в процессы, связанные с Каспийским бассейном. США в свою очередь прилагают усилия для развития отношений с некоторыми прикаспийскими странами в контексте их политики по энергетической безопасности, а также борьбе с терроризмом и организованной преступностью.

**Ключевые слова:** Россия, США, безопасность, концепция, конкуренция.

**Parvana ISLAMOVA**

## THE ESSENCE OF SECURITY CONCEPTS OF RUSSIA AND THE UNITED STATES ON THE CASPIAN BASIN AND POSITIONS OF OTHER LITTORAL STATES

### Summary

The research paper studies policies and security concepts of two global powers over the Caspian Sea. Currently, the growing demand for energy and security issues increase the importance of the Caspian region. Being the successor of the USSR, Russia tries to strengthen its influence in the Caspian Sea region and prevent involvement of the non-littoral states to the Caspian Sea-related processes. The United States in their puts lots of efforts to develop its ties and co-operate with certain Caspian littoral states, as a part of its energy policy and combatting terrorism and organized criminality.

**Keywords:** Russia, USA, security, conception, competition.

UOT 32

**Leyla ABIYEVA**
*dissertant,*
*AMEA Fəlsəfə İnstitutu*

# ELİTA VƏ ELİTA NƏZƏRİYYƏLƏRİNƏ FƏLSƏFİ BAXIŞ*

Bəşər tarixinin – konkret olaraq ictimai bərabərsizliyin yarandığı andan dövlət hüququnun normaları elita nümayəndələrinin hüquq və vəzifələrindən doğaraq formalaşmışdır. Elita cəmiyyət qarşısında müəyyən hüquqi sistemin yaradılmasına qədər həmin hüquq və vəzifələrə malik olur. Elita nümayəndəsinin üzərində qoyulan məsuliyyət onu müəyyən prinsiplərlə işləməyə, hüquqi prinsipləri əsas tutmağa sövq edir. Həmin prinsipləri əsas tutmadan dövlət idarəçiliyini nəzarətdə saxlamaq qeyri-mümkündür. Ona görə də elə həmin hüququ tam əsasla «elitar hüquq» adlandırmaq olar. O, «Sıravi insana» dövlət zərurəti hesab olunur. O nə vaxtsa dövlətlə birbaşa kontakta girir. Məsələn, ABŞ-ın Konstitusiyası «vətəndaşlıq» prinsipini insanın dövlət hakimiyyətinə tabeliyi kimi müəyyən edir (XIV düzəliş, 1 bölmə). Aristotel yazırdı ki, kim öz təbiətinə görə dövlətdən kənarda yaşayırsa, əgər bu təsadüfi hadisələrlə bağlı deyildirsə, deməli, o ya mənəvi cəhətdən tam inkişaf etməmiş varlıqdır və yaxud da fövqəlinsandır» (1, s.378). Birinci halda kütlədən, qanunlardan kənarda «vətəndaş» kimi yaşaya bilmir, ikinci halda isə elitadan söhbət gedir ki, onlar özlərinin qoyduğu qanunlardan kənarda olan qanunlarla yaşamağa cəhd edirlər. Bu gün, etiraf etmək lazımdır ki, kütləyə də cəmiyyətdə hökm sürən elitadan asılılıq səviyyəsinə görə hüquq və dövlət lazımdır. Həmin prinsipin nəzərə alınması dövlət və hüququn genezisinin elitar nəzəriyyəsi sistemini təşkil edir. «Hüquqi elitologiya»-hakimiyyət elitasının sosio-siyasi ağalığını təmin edən hüquqi normalar haqqında elmdir. Alman filosofu F.Nitsşe elita adamının şüurunda qüdrət və əzəmət hissinin yüksəlməsi ilə hüququ birbaşa əlaqələndirmişdir. Ona görə də dövlət hüququnun başlıca subyekti bütövlükdə cəmiyyət deyil, konkret olaraq tək bir elitadır. Çünki dövlət və hüququn yaradıcısı da elə o özüdür (2, s.248). Elita özündə dövlət hüququnun həm subyekti, həm də obyektini yerləşdirə bilir. Bu fakt dövlət və hüququn yaranmasının elitoloji konsepsiyasının xeyrinə olan daha bir faktdır. «Sıravi vətəndaş» dövlət hüququnun subyekti kimi müvəqqəti olaraq (məsələn, «demokratik» və ya bir sıra hallarda formal seçimlər zamanı) dövlətin hakimiyyət strukturlarına siyasi elitanın nümayəndələrinin seçilməsi zamanı ola bilər. Lakin hətta bu zaman da kütlə dövlət hüququnun fəaliyyətinə bu və ya digər dərəcədə təsir göstərə bilməz. Elita qabaqcadan «sadə vətəndaşın bu işlə məşğul olmasının qarşısını alaraq həmin işi yalnız professionallara tapşırır. Hakimiyyət elitası nümayəndələrinin formalaşmasının konstitusiya prinsipi iki tez-tez rast gəldiyimiz qayda ilə ifadə oluna bilər: a) elektorat-elita və b) elita-elektorat. Birincisi qapalı tip elita prinsipini ifadə edir; ikincisi onun açıq olmasını göstərir. Birinci prinsip konstitusiyalarda adətən aşağıdakı kimi verilir: «vətəndaş dövlət hakimiyyəti orqanlarına seçmək və seçilmək hüququna malikdir». İkinci prinsip isə belə ifadə olunur: «hər bir seçici deputat seçilə bilər». İlk baxışdan belə görünür ki, birinci variant demokratik prinsipi əks etdirir. İkinci isə tam elitarist təsir bağışlayır. Lakin bütün bu nəticələrin həmin formulların arasında duran elitanın psixoloji tiplərini aydınlaşdırarkən tamamilə yanlış olduğu aşkar olur. Elita konsepsiyalarında qeyd edilir ki, vətəndaş hər şeydən əvvəl seçici olmalıdır, sonra isə seçilmiş ola bilər. Vətəndaşın funksiyası onunla müəyyən edilir ki, o seçilməkdən çox seçmək hüququna malikdir. O, birinci növbədə seçicidir, seçilən deyildir. Elektorat psixologiyası seçilmək şüurunu əzir. Kütlə adamının şüurunda belə bir ideya möhkəm

* Məqalə fəlsəfə ü.e.d. Lalə Mövsümova tərəfindən çapa məsləhət görülüb.

yer tutur ki, o, elektoratın ayrılmaz hissəsidir və seçilmiş elitanın tərkibinə daxil olmaq potensialına malik deyildir. Bu mövqe bir sıra konsepsiyalarda öz əksini tapa bilmişdir.

«Elmi anarxizm» nümayəndələrinin (J.P.Prudon, M.Bakunin, P.Kropotkin) qeyd etdiyi kimi, «elektoratiya»nın yox olması dövlətin məhv edilməsi ilə mümkün ola bilər. Dövlət məhv olana qədər həm dövlət, həm də elita ayrılmaz surətdə mövcud olacaq konkret sosial-siyasi və mədəni şəraitdən asılı olaraq bir-birinə modernizə edəcəkdir. Cəmiyyətin demokratikləşməsi seçki prosedurasını aktual edir, seçki hüququnun texnologiyası isə universal siyasi instrumentə çevrilir. Konstitusiya hüququnun personallaşdırılması hüququ kimi seçki hüququ elitaya birbaşa çıxışa malikdir. Bundan əlavə «elita» və «seçki» sözləri öz əhəmiyyətinə görə birmənalı olub, seçkiləri sosiumun ən fəal və məhsuldar hissəsinin elitizasiyası aktı kimi başa düşməyə imkan verir. Elitologiya tərəfindən aparılan elita qruplarının təsnifatı onların ictimai statusunu, rolunu və funksiyasını dəqiq surətdə müəyyənləşdirməyə imkan verir.

Aydındır ki, şəxsiyyətin yetişməsi yalnız cəmiyyətin tələbatı ilə deyil, həmçinin vaxtı çatmış tarixi vəzifələri yerinə yetirmək üçün o anda cəmiyyətə, sinfə lazım olan adamların qabiliyyəti, istedadı və şəxsi keyfiyyətləri ilə də bağlıdır. Görkəmli tarixi şəxsiyyətlər - yeni tarixi şəraiti, ictimai inkişafın tələbatını hamıdan əvvəl, hamıdan aydın və hamıdan mükəmməl başa düşənlər və kütlələrin hərəkatına başçılıq edənlərdir.

Şəxsiyyətin mahiyyəti mövcud sosial mühitin, ictimai münasibətlərin bir növ personifikasiyası deməkdir. Digər tərəfdən hər hansı konkret şəxsiyyət fərdi formada özünün ictimai mahiyyətini ifadə edə bilər. Həmin forma onun müstəqil fəaliyyət subyekti kimi varlığının ifadə üsulunu ifadə etməklə konkret şəxsiyyətin mühüm səciyyəsini təşkil edir. Şəxsiyyət ilə sosial mühit sadəcə qarşılıqlı əlaqədə olmayıb, həm də qarşılıqlı surətdə biri digərini şərtləndirir. Ümumiyyətlə, insanın şəxsi keyfiyyətlərinin formalaşması onun fərdi mənlik şüurunun inkişafı ilə sıx bağlıdır. Sonuncuya görə mövcud sosial şərait təsir göstərir. Çünki sözügedən proses təkcə fərdin cəmiyyətdə tutduğu yerdən deyil, həm də onun buradakı öz vəziyyətinə bəslədiyi fərdi münasibətdən asılıdır. Buna görə də eyni bir sosial mühitdə müxtəlif şəxsiyyət tipləri mövcud ola bilər. Müasir siyasi elmdə elita probleminin tədqiqinə bir neçə yanaşmadan istifadə edirlər. Bütövlükdə onları iki əsas yanaşmada birləşdirmək olar: Meritokratik - (lat. meritis - ən yaxşı və yunanca cratos- hakimiyyət) və hakimiyyət yanaşmaları. Birinci yanaşma öz tarixini V.Paretonun elita nəzəriyyəsindən götürür. Onun kre-dosunu K.Mannheym uğurlu formulə etmişdir. «Elita» - öz nailiyyətlərinə əsaslanan- «iyerarxiyadır». Meritokratik yanaşma çərçivəsində texnokratik və təşkilati- idarəçilik istiqamətləri mövcuddur. Pareto elitanı idarəetmə metoduna görə «şirlərə» və «tülkülərə» bölür. Birincilər maddi və yaxud dini gücə arxalanır, onlara ağalığı həyata keçirmək üçün əsasən zorakılıqdan istifadə etməyə üstünlük verməsi səciyyəvidir. Birinci tip elitaya o tiranlıq dövründə və Sparta dövründə yunan polis dövlətlərini, eləcə də Romada Avqust və Tibariyanın hakimiyyətlərini, bir çox Avropa dövlətlərində absolyutizm dövrünü aid edir. «Şirlər» elitasının hakimiyyəti son nəticədə cəmiyyəti durğunluğa aparıb çıxarır. «Tülkülər» hakimiyyəti möhkəmləndirmək üçün başlıca olaraq biclik, yalan, kütləni inandırmaq bacarığından və siyasi kombinasiyalardan istifadə edir. «Tülkülər» elitasına Pareto Afina demaqoqlarını, Roma aristokratiyasını, bütün respublikaların hökumətlərini aid etmişdir. Bu tip elitalar daha çox dinamikdir, onu təşkil edən adamlar enerjili, praqmatik düşünən nümayəndə və novatorlardan ibarətdir.

Elita və kütlə arasında daim mübadilə baş verir. Elitaların bir hissəsi aşağı təbəqəyə keçir, daha çox bacarıqlıları isə «sosial pilləkanla» yuxarı yüksəlir və elitanın tərkibinə daxil olur. Bu proses zamanı elitaların sirkulyasiyası baş verir. Bu isə cəmiyyətdə sosial və siyasi sabitliyin saxlanılmasına xidmət edir. Ali stratada (təbəqədə) sirkulyasiyanın yubanması deqredasiya elementlərinin yığılıb toplanmasına imkan verir, bu zaman aşağı stratalarda

yüksək keyfiyyətli elementləri toplanır. Pareto elitaların əvəzlənməsini tarixi prosesin başlıca fenomenlərindən biri hesab etmişdir (3).

Digər italyan sosioloqu Q.Moska (1853-1941) tarixi metoda əsaslanaraq belə bir nəticəyə gəlmişdir və onu aşağıdakı kimi formulə etmişdir: «Bütün cəmiyyətlərdə az inkişaf etmiş və az sivilizasiyalı cəmiyyətlərdən tutmuş ən çox inkişaf etmiş və qüdrətli cəmiyyətlərə qədər hər yerdə adamlar iki sinfə-idarə edən və idarə olunanlar siniflərindən ibarət olur. Birincisi, həmişə azsaylı olur, bütün siyasi funksiyaları öz üzərinə götürür, hakimiyyəti inhisarına keçirir, ordan gələn üstünlüklərdən istifadə edir. İkincisi həmişə çoxsaylı olub birinci tərəfdən rəhbərliklə idarə olunur. Bu bəzən az-çox qanuni olur, bəzən isə daha çox volyuntarist və zorakılığa meyilli olur» (4). Elitaya açıq qapının kimlərə müəssər olduğunu, onu fərqləndirən keyfiyyətlər sırasında Q.Moska hərbi qəhrəmanlığı var-dövləti, mənşəni, şəxsi xüsusiyyətləri (ağıl, talant, təhsil) idarəçilik qabiliyyətini xüsusi qeyd etmişdir. Siyasi sinif cəmiyyətdə hakim mövqe tutur və təşkil olunması sayəsində (təşkil olunmamış çoxluqdan fərqli olaraq) hakimiyyət funksiyalarını yerinə yetirir. İdarəçilik sənətinə yiyələndiyindən və özünün hakim rolunu ideoloji cəhətdən əsaslandırmaq qabiliyyəti olduğundan bütün bu deyilənləri o yerinə yetirə bilir. Cəmiyyətdə hakimiyyəti yerinə yetirmək əksər halda hakim sinfin istehsal üsulundan asılıdır. İtalyan alimi bu cür üç üsulu ayırır: irsən alınma, seçkilər və kooptasiya (hər hansı bir seçilən orqanın öz heyətinə seçkisiz olaraq yeni üzv daxil etməsi) hər bir siyasi sinif hakimiyyətin irsi yolla saxlanılması və davam etdirilməsinə daha çox meyilli olur (əgər de-yure olmasa da, o zaman de-fakto). Bu tendensiyanı o aristokratik tendensiya adlandırmışdır. Eyni zamanda cəmiyyətdə həmişə elə siyasi qüvvələr olur ki, hakimiyyətə can atır, bunun üçün isə onlar seçki sistemindən istifadə edirlər. İkinci tendensiya demokratik tendensiya adlanır. Əgər birinci tendensiya üstünlük əldə edirsə, o zaman Moskanın ifadəsi ilə desək, hakim siniflə «bağlı kristallaşması» baş verir. Bu isə onu bağlılığa, durğunluğa, cırlaşmaya aparır. Demokratik tendensiyanın üstünlüyü şəraitində hakim sinfin tərkibi bacarıqlı aşağı sinif üzvləri ilə doldurulur. Bu isə onun dinamizmini, həyat qabiliyyətini, enerjisini müəyyən edir. Moskanın siyasi simpatiyası cəmiyyətdə hər iki tendensiyanın bir-birinin tarazlaşmasına meyli olması ilə fərqlənmişdir.

Elita nəzəriyyəsinin inkişafına ən böyük töhfəsini alman politoloqu R.Mixels (1876-1936) vermişdir. Sosial münasibətləri tədqiq edərək o tam demokratiyanın mümkünlüyü, kütlələrin tam hakimiyyətinə inanmamaq nəticəsini çıxarmışdır. Maraqların, qərarların qəbulu və reallaşması üçün xüsusi təşkilatlar (partiyalar, həmkarlar ittifaqları və s.) tələb olunur. Təşkilatların fəaliyyəti isə özünün xüsusi qanunları ilə baş verir. Hər bir institutun inkişafı iyerarxiyanın formalaşması və xüsusi idarə edən təbəqənin yetişməsi ilə bağlı olur. Zaman keçdikcə həmin təbəqə hakimiyyəti inhisara alır, kütlələrdən uzaqlaşır, oliqarxiyaya çevrilir, yalnız öz vəziyyətinin qorunub saxlanılmasına qayğı göstərir. Bu tendensiyanı Mixels «oliqarxlaşmanın dəmir qanunu» adlandırmışdır. Eyni zamanda qeyd etmişdir ki, idarə edən təbəqənin formalaşması zəruridir. Bunun üçün isə onların hər hansı bir təşkilatda, hər hansı bir cəmiyyətdə özlərinin spesifik maraqları olur.

Siyasi elitanı hakimiyyətlə bağlı qərarları həyata keçirən qruplar və siyasi liderlər təşkil edirlər. Hakimiyyət səlahiyyətlərinin kriteriyası əsasında siyasi elitanın: ali, orta və inzibati növləri fəaliyyət göstərir. Ali siyasi elita mühüm qərarların qəbul edilməsi sistemində strateji mövqelər tutan rəhbərləri özünə daxil edir. Elitanın bu tipinə prezident və onun ətrafı, hökumət başçıları, ali məhkəmə orqanlarının üzvləri, nüfuzlu partiyaların liderləri, parlamentin spikeri, iri parlament fraksiyalarının başçıları və s. aiddir. Orta elitaya hakimiyyətin seçkili orqanlarında müəyyən vəzifə tutan - deputatlar, regional elitanın nümayəndələri, siyasi partiyaların və hərəkatların liderləri və s. daxildir. İnzibati elitanın tərkibinə hökumət üzvləri, həmçinin dövlət xidmətçilərinin ali təbəqəsi daxildir. İqtisadi elitanın tərkibində cəmiyyətin varlı adam-

ları-iri sahibkarlar, bankirlər, maliyyə-sənaye qruplarının rəhbərləri, aparıcı korporasiyaların rəhbərləri, böyük kapital sahibləri də mühüm rol oynayırlar. İqtisadi elitanın maraqları bilvasitə və yaxud bilavasitə siyasi elitanın qəbul etdiyi qərarların xarakterinə təsir göstərir.

Siyasi və iqtisadi elitaların qarşılıqlı münasibətlərinin təhlili zamanı politoloqlar iki qrupa bölünür. Bəzi alimlər təsdiq edirlər ki, siyasi elita nisbətən avtonomdur və qərarların qəbul edilməsi prosesində müstəqildir, iqtisadi elita isə ona dolayı olaraq təsir edir. Digər mövqenin tərəfdarları isə təsdiq edirlər ki, cəmiyyətdə həlledici əhəmiyyətə iqtisadi elita malikdir. Çünki o öz əlində həm də mühüm və qeyri-mümkün resursları cəmləşdirir.

**Açar sözlər:** elita, dövlət, elita nəzəriyyəsi, xalq, cəmiyyət.

### İstifadə olunmuş ədəbiyyat

1. Аристотель. Сочинения: В 4-х тт..4 М.: Мысль, 1983.
2. Ницше Ф. Воля к власти: опыт переоценки всех ценностей. М.: “РЕФЛ-боок”, 1994.
3. Pareto V. Rise and Fall of the Elites: An application of theoretica Sociology. Totowa: Bedminstar Press, 1968.
4. Mosca G. The Ruling Class. New-York: Mc Graw-Hill, 1939.
5. Этнос, нация, общность. Этнологический словарь. М., 1996.

**Лейла АБИЕВА**

## ЭЛИТА И ФИЛОСОФСКИЙ ВЗГЛЯД НА ТЕОРИИ ЭЛИТ

### Резюме

В статье проводится сравнительный анализ теории элит. Рассматривается особая роль творческой элиты в развитии общества. Вносится ясность в типологию элит со времени возникновения истории человечества. Анализируются меритократические и властные подходы к изучению проблемы жлит. В то же время с новой точки зрения рассматриваются теории элит В.Парето, К.Маннхейма, Г.Моска и Р.Михельса.

**Ключевые слова:** элита, общество, теория элиты, народ.

**Leyla ABIYEVA**

## AN ELITE AND PHILOSOPHICAL VIEW OF ELITE THEORY

### Summary

In the article the comparative analysis is made of elite theory. The particular role of the artistic elite in the development of society is examined. Typology of the elites from the very emergence of history of the mankind is being clarified and meritocratic and administrative approaches to the study of elite problem are analyzed. At the same time the elite theories by V.Pareto, K.Mannheim, G.Mosca and R. Michels are considered from the new point of view.

**Keywords:** elite, state, theory of elite, nation, society.

UOT 32

**Rüfət CƏFƏROV**
*dissertant, AR Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*

# DEMOKRATİK DÖVLƏT İDARƏÇİLİYİNDƏ KEYFİYYƏTİN YÜKSƏLDİLMƏSİNİN FƏRQLİ XÜSUSİYYƏTLƏRİ*

Demokratik dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsinin fərqli xüsusiyyətləri vardır. Bu, hər şeydən əvvəl, idarəetmə sisteminin növlərinə olan münasibətdə özünü daha çox büruzə verir. Belə ki, idarəetmənin totalitar, avtoritar və demokratik formaları içərisində keyfiyyətin yüksəldilməsi üçün ən əlverişli şərait demokratik dövlət idarəçiliyində mövcuddur.

Demokratik siyasi rejim dövlət tərəfindən müdafiə olunan və onunla bərabər hüquqlu münasibətlərdə olan vətəndaş cəmiyyəti institutlarının inkişafını nəzərdə tutur. Demokratiyanın atributiv əlamətləri hakimiyyət bölgüsü prinsiplərinə riayət olunması, bütün hakimiyyət orqanlarının formalaşmasında vətəndaşların tamhüquqlu iştirakı, siyasi azadlıqların (söz azadlığı, çoxpartiyalılıq, ümumi və bərabər seçki hüququ və s.) mövcud olmasıdır (14, s.22). Demokratik dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsinin başlıca amillərindən biri vətəndaşların dövlət idarəçiliyində və yerli özünüidarəetmədə yaxından və fəal iştirak etməsidir.

Vətəndaşların cəmiyyətin və dövlətin siyasi həyatında iştirakı siyasi demokratiyanın ən başlıca prinsiplərindən biridir. Vətəndaşların siyasi həyatda iştirakının zəruriliyi ideyası alimlər tərəfindən müxtəlif cür dərk edilir. Belə ki, bəzi nəzəriyyəçilər (yeni sollar - L.Qudmen, T.Xeyden, F.Fonom) vətəndaşların “simvolik” siyasətdə (yəni səsvermədə) iştirakının kifayət etmədiyini bildirir və əhalinin qərarların qəbul edilməsi prosesinə cəlb edilməsini tələb edirlər. Bu cür ideyalar müasir partisipator (ingiliscə *partisipation* - iştirak etmək deməkdir) demokratiya nəzəriyyələrində də irəli sürülür.

Həmin ideyaya görə demokratiyanın siyasi təşkilinin mahiyyəti bundan ibarətdir ki, siyasi sistemin bütün səviyyələrində cəmiyyət və dövlət işlərinin idarə olunması üçün bütün vətəndaşlar bu və ya digər funksiyaları mütləq icra etməlidirlər (məsələn, dövlət qərarlarının qəbulunda, icmalara, ayrıca ərazilərə aid qərarların qəbul edilməsində) (3, s.171-172).

Xalqın suverenliyi demokratiyanın ən mühüm əlamətidir. İdarəetmədə xalqın necə iştirak etməsindən, hakimiyyət funksiyalarını kimin və necə bilavasitə yerinə yetirməsindən asılı olaraq demokratiya birbaşa, plebisit və nümayəndəli (reprezentativ) demokratiyaya bölünür.

Xalq hakimiyyətinin birbaşa formasında vətəndaşların özləri bilavasitə qərarların hazırlanmasında, müzakirələrdə və qərarların qəbul edilməsində iştirak edirlər. Dövlətin idarəedilməsində iştirakçılığın bu forması antik demokratiyalarda hakim olmuşdur. Praktiki olaraq iştirak demokratiyası kiçik kollektivlərdə (istehsal müəssisələrində, icmalarda, şəhərlərdə və i.a.) mümkündür. Çünki belə hallarda qərar qəbul edilməsi olduqca sadədir və qərarların hazırlanmasında və müzakirəsində xüsusi mütəxəssislərə ehtiyac olmur. Müasir dövrdə birbaşa demokratiyaya başlıca olaraq yerli özünüidarəetmə səviyyəsində, məsələn, Amerika və İsveçrə icmalarında, İsrail kubutsalarında (kommunist tipli yaşayış yerlərində) və i.a. rast gəlinir.

Vətəndaşların hakimiyyətin həyata keçirilməsində iştirakının ikinci ən mühüm forması plebisit demokratiyadır. Birbaşa demokratiya ilə plebisit demokratiya arasındakı fərq həmişə

* Məqalə fəlsəfə ü.e.d., professor Zaur Bağırov tərəfindən çapa məsləhət görülüb.

olmur. Plebisit demokratiya xalqın açıq iradəsini nəzərdə tutur, lakin qərarın hazırlanmasının yalnız müəyyən mərhələsi ilə bağlıdır. Məsələn, dövlət başçısı və vətəndaşlar qrupu tərəfindən çıxarılan qərarın, qanun layihəsinin bəyənilməsi və ya inkar edilməsi buna misal ola bilər. Ona görə səsvermənin nəticələri həmişə məcburi hesab edilmir, qəbul olunan qərarın hüquqi nəticəsi yalnız hakim dairələr tərəfindən nəzərə alınır.

Demokratik prosesin əhəmiyyətli istiqamətlərindən biri nümayəndəli (seçki hüququnu əks etdirən) demokratiyadır. Real demokratiya xalq tərəfindən seçilən insanların hakimiyyətidir. Belə hakimyyət nümayəndəli demokratiya adlanır.

Nümayəndəli demokratiya vətəndaşların siyasi iştirakçılığının daha mürəkkəb formasıdır. Çünki bütün xalqın həyata keçirə biləcəyi siyasi hakimiyyət, başqa sözlə, bilavasitə demokratiya şəraiti yalnız idealdır. Nümayəndəli demokratiya vətəndaşların qanunverici və ya icraedici hakimiyyətə yaxud müxtəlif vasitəli strukturlara (partiyalar, həmkarlar ittifaqları, hərəkatlar) seçdikləri nümayəndələr vasitəsilə qərarların qəbulu prosesinə bilavasitə (dolayısı ilə) cəlb olunmalarıdır. Bu mexanizm əslində əsasən demokratik idarəçiliyin strukturunu təşkil edir. Lakin nümayəndəli demokratiyanın başlıca problemi siyasi mübarizənin reprezentativliyini (nümayəndəliyini) təmin etməklə bağlıdır, başqa sözlə, elə şərait yaradılmalıdır ki, onun vasitəsilə bu və ya digər şəxslərin seçilməsi əhalinin əhval-ruhiyyəsinə və mənafeyinə uyğun gəlsin.

Siyasi demokratiya ideal fenomen deyil. Onun da çoxlu çatışmayan cəhətləri və qüsurları vardır ki, onlar tədqiqatçılar tərəfindən araşdırılaraq üzə çıxarılmış və tənqid edilmişdir. Belə tədqiqatçılardan biri də Amerika sosioloqu, tarixçi və Yel Universitetinin fəlsəfə doktoru Maykl Parentidir (1933). M.Parenti "Seçilmişlər üçün demokratiya" adlı kitabına yazdığı ön sözdə deyir: "Seçilmişlər üçün demokratiya" kitabının məqsədi bərabərliyi təmin etməkdir. Burada "demokratiya bugünkü kapitalizmlə bir araya sığmır", "kapitalist ictimai düzəni daim demokratiyanı pozur", "xalq qüvvələri mübarizəni necə davam etdirir və çox vaxt qələbə qazanırlar" kimi məsələlərin izahını verməyə cəhd göstərmişəm...

Kitabda nəinki "kim idarə edir?" həmçinin "kim nə alır?" məsələləri, başqa sözlə, ictimai-siyasi sistemin fəaliyyətinin nəticələri də tənqidi analizə məruz qalıb. Bir çox tədqiqatlarda olduğu kimi, fikrimi istisnasız olaraq dövlət idarəçiliyi prosesində cəmləmək əvəzinə, mən həmçinin dövlət idarəçiliyi təcrübəsinin məzmun və mahiyyətinə diqqət ayırıram. Beləliklə, kitabda əsas vurğu dövlət idarəçiliyinin siyasi iqtisadiyyatı üzərinə salınır. Dövlət idarəçiliyi sisteminin mənası yekunda onun strukturu ilə deyil, onun nə etməsi, siyasətinin ölkə daxilində və xaricində insanlara necə təsir etməsi ilə ölçülür (6, s.8-9).

Beləliklə, siyasi demokratiya ilə bağlı deyilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, demokratiyanın idarəetmə forması kimi müsbət cəhətləri çoxdur, ancaq tədqiqatçıların qeyd etdiyi kimi, çatışmayan cəhətləri də vardır. XX əsrin görkəmli siyasi xadimi Uinston Çörçillin sözləri ilə desək: "İdarəetmə formaları içərisində ən pisi demokratiyadır. Lakin nə deyəsən ki, bəşəriyyət bundan yaxşısını əldə edə bilməyib" (3, s.187).

Siyasi demokratiya özündə siyasi və ictimai institutları əks etdirir. Məhz bu institutlar vasitəsilə demokratiya prinsipləri və demokratiyanın digər dəyərləri reallaşdırılır. Bu institutlara aşağıdakılar aiddir: nümayəndəli və bilavasitə (birbaşa) demokratiya institutları, icra və məhkəmə hakimiyyəti, hüquq institutu, siyasi partiyalar və digər ictimai-siyasi təşkilatlar, KİV, yerli özünüidarə orqanları və b. Bu institutlardan hər biri cəmiyyətin tarixi təkamülünün müəyyən mərhələsində yaranır və demokratik prosesin əsas üzvünə çevrilir. Məsələn, siyasi partiyalar Qərb ölkələrində parlamentin fəaliyyət göstərdiyi və ümumi seçki sisteminin yarandığı şəraitdə meydana gəlmişdir. Öz növbəsində siyasi partiyaların meydana çıxması ilə parlamentarizm yeni keyfiyyət kəsb edir, çünki partiyalar müxtəlif sosial qrupların qanunverici hakimiyyət sistemində təşkil olunmuş nümayəndəliyini təmsil edir.

Demokratik dövlətin ən mühüm kriteriyası - hakim qüvvələrin, seçkilər nəticəsində yaranmış demokratik institutların siyasətinin xalq tərəfindən dəstəklənməsidir. Bu cür dəstəyin daimi xarakter daşıması demokratiyanın əsasıdır. Bu da demokratik dövlət idarəçiliyində keyfiyyətin yüksəldilməsinin mühüm xüsusiyyətini təşkil edir.

Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüquq Azərbaycan Respublikasının 1995-ci ildə ümummilli lider Heydər Əliyevin rəhbərliyi və ümumxalq referendumu yolu ilə qəbul edilmiş Konstitusiyasında aşağıdakı kimi təsbit olunmuşdur: "Maddə 54.1. Azərbaycan Respublikası vətəndaşlarının cəmiyyətin və dövlətin siyasi həyatında maneəsiz iştirak etmək hüququ vardır.

Maddə 55.1. Azərbaycan Respublikası vətəndaşlarının dövlətin idarə olunmasında iştirak etmək hüququ vardır. Bu hüququ onlar bilavasitə və ya nümayəndələri vasitəsilə həyata keçirə bilərlər" (1, s.26-27).

"Beləliklə, 1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsi siyasi plüralizmi, söz, yığıncaqlar və assosiasiyalar azadlığını, dövlət idarəetmə orqanlarının, seçkili olması qaydasını legitimləşdirən, habelə vətəndaşların əsas hüquq və azadlıqlarına zəmanət verən möhkəm demokratik baza yaradılması yolunda əsaslı addım oldu" (8, s.584).

Azərbaycan Respublikası Konstitusiyasının bu maddələri "İnsan hüquqlarının ümumi Bəyannaməsi"nin 21-ci maddəsinin, "Vətəndaş və siyasi hüquqlar haqqında beynəlxalq akt"ın 25-ci maddəsinin müddəalarına əsaslanır. Həmin aktlar vətəndaşların heç bir maneə və əsassız məhdudiyyət qoyulmadan dövlətin idarə olunmasında iştirak etmək hüququnu təsbit edir.

Vətəndaşların dövlətin idarə edilməsində istər bilavasitə, istərsə də dövlət hakimiyyət orqanlarına seçdikləri nümayəndələr vasitəsilə iştirakı xalqın suverenliyinin ifadəsi, xalq hakimiyyətinin həyata keçirilməsi formasıdır.

Demokratiyanın prinsipləri və institutları siyasi təcrübədə işlənib hazırlanmış müxtəlif prosedurlarda (demokratiya texnologiyalarında) reallaşır. Bu prosedurlar isə seçkilər, səsvermə, plebisit, referendumlar, danışıqlar və kompromislərdir. Qeyd etmək lazımdır ki, demokratiyada, ən ümumi prosedur kimi, mühüm əhəmiyyəti seçkilər kəsb edir. Demokratiyanın tamlığı seçkilərin özünün texnikasından, ali qanunverici hakimiyyət orqanın hansı yolla seçilməsindən, ondan aşağıda duran hakimiyyət və idarəetmə orqanlarının seçilməsi qaydalarından, seçicilərin seçmək hüququnun nə dərəcədə bərabər olmasından, seçki hüququnun hamı üçün nə dərəcədə ümumi olmasından, səsvermənin açıq və ya gizli olmasından, seçkilərin dövri olaraq keçirilib-keçirilməməsindən, vətəndaşların azad iradəsinin ifadə olunmasının dərəcəsindən asılıdır. Akademik R.Mehdiyev yazır: "Bir şeyi başa düşmək vacibdir ki, demokratiya təkcə müəyyən olunmuş gündə səsvermə qutularına yaxınlaşıb səs verməkdən ibarət deyildir. Demokratiya cəmiyyətin həyatının bir hissəsi, onun üzvlərinin təvəkkür tərzi, cəmiyyət daxilində onun üzvləri arasında qarşılıqlı əlaqənin formasıdır. Bu proses dövlətin tənəzzülünə deyil, onun güclənməsinə və inkişafına imkan yaradır (7, s.40).

Vətəndaşlar öz iradələrini dövlət hakimiyyətinə, yerli özünüidarə orqanlarına keçirilən demokratik, azad seçkilər vasitəsilə həyata keçirir. Dövlət həyatının ən mühüm problemləri ilə bağlı məsələlərdə öz fikrini idarəetmə - referenduma aiddir. Seçki və referendum vətəndaşların dövlətin və cəmiyyətin idarə olunmasında iştirakının dünyada ən geniş yayılmış formasıdır.

Totalitar idarəçilik prinsiplərindən demokratik idarəçilik prinsiplərinin ən başlıca fərqli xüsusiyyəti xalqın hakimiyyətin həqiqi mənbəyi olmasıdır. Hər hansı bir ölkədə demokratik və ya qeyri-demokratik rejimin olması xalqın hakimiyyətin formalaşmasında və ona nəzarətdə iştirakı dərəcəsindən asılıdır. Demokratik dövlətdə hakimiyyət xalqa məxsus olur.

Azərbaycan Respublikasının Konstitusiyasında xalqın hakimiyyətin mənbəyi olması və suverenliyi aşağıdakı kimi ifadə olunmuşdur: "Maddə 1.1. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqıdır.

Maddə 2.1. Sərbəst və müstəqil öz müqəddəratını həll etmək və öz idarəetmə formasını müəyyən etmək Azərbaycan xalqının suveren hüququdur" (1,s.4).

Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının geniş şəkildə təsbit edilməsi, demokratik idarəçilik mexanizminin əsas prinsip və normalarının müəyyənləşdirilməsi, hakimiyyət bölgüsü prinsipi, ümumiyyətlə demokratik idarəetmə institutları və onların fəaliyyət mexanizminin əsas istiqamətləri öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuş demokratik idarəetmə ilə bağlı olan dəyərlərə uyğun olaraq təsisatların yaradılması demokratik idarəetmə sahəsində aparılan islahatların başlıca istiqaməti kimi səciyyələndirilə bilər. Konstitusiya Azərbaycan dövlətinin həyatında, onun siyasi, iqtisadi, mənəvi sahələrində baş verən köklü dəyişiklikləri özündə əks etdirmişdir.

İdarəetmə münasibətlərinin demokratikləşməsi sahəsində aparılan islahatlar nəticəsində insanların dövlət və cəmiyyətin idarəçiliyi sahələrində fəal iştirakı üçün başlıca şərt onlara demokratik azadlıq, bərabərlik hüquqlarının verilməsidir.

Demokratiya azadlıq olmadan dərk olunan deyil. Azadlıq prinsipi demokratiyanın canıdır. Siyasi kontekstdə azadlıq, hər şeydən əvvəl, şəxsi azadlıq kimi, habelə sosial qrupların onlar üzərində hökmranlıq edən istənilən siyasi qüvvələrdən azad olması kimi məna daşıyır. Demokratiya heç də fərdin və ya başqa subyektin ümumiyyətlə hakimiyyətdən azad olması demək deyildir. Hakimiyyətdən hüdudsuz azadlıq cəmiyyət üçün çox təhlükəlidir. Demokratiya heç də total azadlığa çağırış deyil, əksinə, sahmana salınmış azadlığın qorunması və bərabər bölünməsidir.

Heç bir cəmiyyət insana məhdudiyyətsiz azadlıq verə bilməz. Çünki bu anarxiyaya, fərdi maraqların sonsuz toqquşmalarına, münaqişələrə səbəb ola bilər. Buna görə də insan və vətəndaş hüquqları sistemi obyektiv olaraq elə qurulur ki, bir tərəfdən şəxslərin qanuni maraqları təmin olunsun, digər tərəfdən isə həmin hüquqların başqa şəxslər tərəfindən pozulmasının qarşısı alınsın.

Tarixi təcrübə göstərir ki, o dövlət güclü olur ki, orada insanın azadlıq və hüquqlarının sərhədləri qanunla ciddi şəkildə müəyyən edilir, hakimiyyət isə insanın hüquq və azadlıqlarının təminatı və reallaşdırılması aləti kimi qanuna xidmət edir. Bu şərait olmadan demokratiya anarxiyaya çevrilir.

Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmuş insan hüquq və azadlıqları insan hüquqları konsepsiyasına, insanın və dövlətin qarşılıqlı münasibətlərini müəyyən edən demokratik prinsiplərə əsaslanır. Konstitusiyada demokratik dünya təcrübəsi nəzərə alınmaqla insan hüquq və azadlıqlarına geniş yer verilmiş, onların həyata keçirilməsi üçün zəruri təminatlar, strukturlar və mexanizmlər nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarına, xüsusilə də vicdan, fikir və söz azadlığına təminat verir. Ancaq demokratiyanın ilkin şərtləri olan bu azadlıqların bütün mədəni cəmiyyətlər üçün şübhəsiz ki, müəyyən hədləri vardır - irqi, milli, dini ədavət və düşmənçilik oyadan təbliğat və təşviqata yol verilmir.

Azərbaycan Respublikasında şəxsiyyətin konstitusion statusu cəmiyyətin demokratik dəyişikliklər yolunda əldə etdiyi mühüm nailiyyətdir. ümummilli lider Heydər Əliyev və onun demokratik siyasi ideyalarının davamçısı Prezident İlham Əliyev tərəfindən ölkəmizdə siyasi demokratiya, siyasi və ideoloji plüralizm, çoxpartiyalılıq, iqtisadiyyatın liberallaşdırılması, fikir və söz azadlığının təmin edilməsi sahəsində mühüm işlər görülmüşdür. Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin edilməsi ilə bağlı qanunvericilik bazasını yaratdı, beynəlxalq konvensiya və sazişlərə qoşuldu.

Demokratik idarəetmənin formalaşması və inkişafı sahəsində aparılan başlıca islahatlardan biri də azad və demokratik seçkilərin keçirilməsidir. Azad və demokratik seçki sisteminin mövcudluğu demokratik idarəetmənin başlıca təminatıdır.

İdarəetmə münasibətlərinin demokratikləşdirilməsi üçün son dərəcə vacib olan islahatlardan ən əhəmiyyətlisi Azərbaycan Respublikasının seçki məcəlləsinin qəbul edilməsidir. Bu məcəllə ölkədə keçirilən parlament, prezident və bələdiyyə seçkilərinin əsas mexanizmlərini müəyyən etmişdir.

Seçkilər müasir demokratik cəmiyyətdə siyasi prosesin ayrılmaz hissəsidir. Seçki sistemi siyasi hakimiyyətin nümayəndəli dövlət orqanlarının legitim təşəkkülünü təmin edən və tənzimləyən qaydaların, üsulların və proseslərin məcmusudur. Seçki sistemlərinin üç başlıca tipi fərqləndirilir: majoritar (mütləq və nisbi çoxluq), proporsional və qarışıq. Bu seçki tiplərinin hər birinin özünün müsbət və çatışmayan cəhətləri vardır.

Azərbaycan Respublikasında hazırda majoritar seçki sistemidir. Majoritar seçki sisteminin üstün və çatışmayan cəhətləri vardır. Ancaq majoritar seçki sistemi müasir demokratik Azərbaycan şəraitində özünü doğruldur.

Konstitusiyaya görə Azərbaycanda demokratik idarəetmənin prezidentlik institutu fəaliyyət göstərir.

Müstəqilliyimizin 25 ildən artıq olan təcrübəsi və keçirilən prezident seçkiləri güclü Prezidentlik İnstitutunun demokratik Azərbaycan Respublikası üçün məqbul olduğunu sübut edir.

**Açar sözlər:** dövlət idarəçiliyi, keyfiyyətin yüksəldilməsi, demokratiya, hakimiyyət, hüquq, qanun, vətəndaş.

### İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2011.
2. Dahl R. Demokratiya haqqında. Bakı, 2004.
3. Əfəndiyev M. Politologiya. Dərslik. Bakı, 2011, 492 s.
4. İsmayılov D. Azərbaycanın transformasiya prosesində ideologiyalar: konservatizm, liberalizm, sosial-demokratiya. Bakı, 2005.
5. İsmayılov D. Liberalizm. Bakı, 2013.
6. Maykl Parenti. Seçilmişlər üçün demokratiya. Bakı, 2008.
7. Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı, 2008.
8. Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. Bakı, 2008.
9. Даль Р. Полиархия, плюрализм и пространство //Вопросы философии, 1994, №3.
10. Дарендорф Р.Г. Дорога к свободе: демократизация и ее проблемы в Восточной Европе //Вопросы философии, 1990, № 9.
11. Политическая социология. Ростов-на-Дону, 1997.
12. Пугачев В.П., Соловьев. Введение в политологию. М., 2001.
13. Токвиль Алексис де. Демократия в Америке. М., 2000.
14. Рой М.О. Система государственного и муниципального управления. 2-е изд. СПБ.: Питер, 2006.

**Руфат ДЖАФАРОВ**

## ОТЛИЧИТЕЛЬНЫЕ ОСОБЕННОСТИ ПОВЫШЕНИЯ КАЧЕСТВА В ДЕМОКРАТИЧЕСКОМ ГОСУДАРСТВЕННОМ УПРАВЛЕНИИ

**Резюме**

В статье автор анализирует факторы, необходимые для повышения качества государственного управления, показывает свое отношение к их особенностям. По его мнению, одним из основных факторов повышения качества управления является активное участие граждан в государственном управлении и местных органах самоуправления. Автор обращается к трудам известных ученых (Л.Гудмен, Т.Хейден, Ф.Фоном, М.Паренти), исследовавших эту проблему, рассматривает их точки зрения, выдвигает новые рекомендации.

**Ключевые слова:** государственное управление, повышение качества, демократия, власть, право, закон, гражданин.

**Rufat JAFAROV**

## THE DISTINCTIVE FEATURES OF IMPROVING THE QUALITY IN MODERNIZATION OF STATE GOVERNMENT

**Summary**

In the article the author makes the analysis of the factors, necessary for improving for improving the quality of state government, shows his attitude to the pecularities. In the author's opinion one of the basic factors of improving the quality of governing is an active participation of the citizens in administration and the local bodies of self-government. The author refers to the works of the famous scientists (L.Goodman, T.Heiden, F.Fonon, M.Porenti), having researched this problem, considers their points of view, puts for ward the new recommendations.

**Keywords:** state government, improving the quality, democracy, power, right, law, citizen.

UOT-341.24.047

# MÜSTƏQİLLİYİN İLK DÖVRLƏRİNDƏ ABŞ –AZƏRBAYCAN MÜNASİBƏTLƏRİ *

**Şəhriyar MƏMMƏDOV**
*Doktorant,*
*Xəzər Universiteti*

1991-ci ildə ABŞ Azərbaycan Respublikasının müstəqilliyini tanımışdır. 1992-ci il mart ayının 18 dən etibarən isə iki dövlət arasında diplomatik əlaqələr qurulmuşdur. Elə bu dövrdən etibarən Azərbaycan hökuməti ilə ABŞ arasındakı münasibətlərdə neft diplomatiyası önəmli əhəmiyyət kəsb etmişdir. Bu dövrdə ABŞ-ın xarici siyasətində Yaxın Şərq neftindən asılılığı azaltmaq, öz enerji təhlükəsizliyini təmin etmək üçün yeni alternativ yollardan istifadəyə üstünlük verilirdi. Amerikalı analitik Pol Qoblun təbiri ilə desək : "Demokratikləşdirmə və iqtisadi islahatlar, ölkənin enerji sahəsinin inkişafı deməyə imkan verir ki, yaxın gələcəkdə Azərbaycan dünyanın ən zəngin ölkələrindən birinə çevriləcək. Yaxın Şərqdən asılılığa son qoymaq üçün neftdən istifadənin vacibliyi ABŞ qarşısında mühüm məsələ kimi dururdu”(1). Neft sahəsində ilk danışıqlar hələ 1990-ci illərə təsadüf edir ki, bu zaman Qərbin nəhəng neft şirkətləri ilə əlaqələr qurulmuş , neft sahələrinin istismarı ilə bağlı yeni texnologiyaların ölkəyə cəlb edilməsi haqqında ilkin müzakirələr aparılmışdır. Amma qeyd etmək lazımdır ki, bu danışıqlar sistemsiz aparılmış və xarici siyasət kursunun tam müəyyənləşməməsi ucbatından konkret nəticələrə gətirib çıxarmamışdır. Həmçinin Mütəllibov hökumətinin dövründə ölkə daxilindəki qeyri-sabitlik və siyasi xaos neft strategiyasının formalaşmasına mane olmuş xarici investisiyaların ölkəyə cəlb edilməsi istiqamətindəki işləri çətinləşdirmişdir. Qeyd etmək lazımdır ki, həmin vaxt ölkəyə rəhbərlik etmiş A.Mütəllibovun idarəçiliyində Rusiyadan daha çox asılı olaraq siyasi xətt yeritməsi , Qarabağ məsələsi ilə əlaqədar olaraq, erməni lobbisinin antiazərbaycan fəaliyyəti də ABŞ –Azərbaycan əlaqələrinin qurulması işini ləngidən amillər kimi çıxış etmişdir. Mütəllibovun devrilməsindən sonra hakimiyyətə gələn Xalq Cəbhəsi hökuməti neft amilindən istifadəyə çalışmış və 1992-ci ildə Oman və Qazaxıstanın təşəbbüsü ilə Xəzər neft borusu konsorsiumuna imza atmışdı(2). Amma bu istiqamətdə antirusiya mövqeyi tutan Xalq Cəbhəsi hökumətinin yeritdiyi xarici siyasət ciddi ziddiyyətlərin əsasını qoymuşdur. Həmçinin İrana qarşı da eyni mövqe bu istiqamətdə uğurlu siyasəti mümkün etməmişdir. Tədqiqatçı Cahangir Xəlilov haqlı olaraq qeyd edir ki,məhz bu dövrdən etibarən neft siyasi müstəviyə cıxaraq artıq təkcə iqtisadi deyil, geosiyasi bir anlama gəlmişdir.(3)

Həmin dövrdə Elçibəy hökuməti açıq şəkildə İran və Rusiyaya öz antipatiyasını göstərərək, Türkiyə və Qərbi Avropaya meyilli siyasət qurmağa çalışırdı. Elçibəy hökuməti xarici investisiyaların ölkəyə cəlb edilməsi ilə bağlı qəti addımlar atmağa çalışaraq, ABŞ-ın “Penzoyl” şirkəti ilə “Çıraq”, “Günəşli”, “Şahdəniz” neft yataqlarınnın istisması ilə bağlı kontraktların layihələrinin hazırlanması məsələlərinə geniş yer ayırmağa çalışırdı. Ölkə daxilində isə vəziyyətin gərgin olaraq qalması, Qarabağ müharibəsində olan döyüşlər, həmçinin hakimiyyət uğrunda daxili çəkişmələr xarici siyasətdə dalbadal uğursuzluqlara gətirib çıxarmışdı. Məhz bunların nəticəsində ABŞ 24 oktyabr 1992-ci ildə “907-ci maddə “ni qəbul etdi ki, bu mahiyyətcə Azərbaycanı ABŞ-ın hər cür yardımından məhrum etmək demək idi. Massaçusets ştatından olan senator Con Kerrinin təqdim etdiyi bu düzəliş Azərbaycanı ABŞ-ın dövlət səviyyəsində olan yardımından məhrum etmiş, sülh və təhlükəsizliyin yaranmasını çətinləşdirmiş, insan hüquqlarının qorunması problemində ədalətsizliyə yol acmış, ən əsası isə

---

* Məqalə siyasi e. ü.f.d.,Sənan Həsənov tərəfindən çapa məsləhət görülüb.

Azərbaycan Respublikasının beynəlxalq imicinə zərbə vurmağa yönəlmişdir. Tarixci Musa Qasımlı haqlı olaraq bu sənədin qəbulunun əsas səbəblərindən biri kimi Azərbaycan reallıqlarının ABŞ-da tanınmaması, ölkədə baş verən proseslərdən, ən mühümü isə Qarabağ məsələsində obyektiv gerçəkliklərin ABŞ ictimaiyyətı tərəfindən düzgün qiymətləndirilməməsi ilə bağlayır (4,s.156). Azərbaycan Respublikası Milli Məclisi bu qərara etiraz olaraq 1992-ci il dekabrın 23-də ABŞ Senatına müraciət edərək bu sənədin qeyri-obyektiv olduğunu bildirir və Qarabağın Azərbaycan torpağı olduğu burada qeyd olunurdu. Həmçinin qaçqınların Azərbaycana gəlməsi, bu köçürmə siyasəti zamanı Ermənistanın mono-etnik dövlətə çevrilməsi, Azərbaycanda isə 25000-dən çox erməni yaşaması məsələləri əks olunmuşdu.

Azərbaycan hökuməti bu dövrdə, münasibətlərin belə çətin bir vaxtında ABŞ-la qarşıya çıxan anlaşılmazlıqları həll etmək üçün daha bir addım atdı ki, bu yaxın gələcəkdə Azərbaycan reallıqlarının ABŞ-da tanınmasına imkanlar açdı. Bu addım Vaşinqtonda Azərbaycan səfirliyinin yaradılması idi. Azərbaycan Respublikası prezidentinin 1992-ci il 13 noyabrlı fərmanı ilə Hafiz Mircəlal oğlu Paşayev ABŞ-da fövqəladə və səlahiyyətli səfir təyin olundu (5,42-43). Səfirlik ilk növbədə ABŞ-Azərbaycan münasibətlərinin qaydaya salınması və "907-ci maddənin" ləğvinə nail olmalı idi. Bu məqsədlə səfir Hafiz Paşayev aktiv fəaliyyətə başlayaraq bir sıra çox mühüm görüşlər keçirdi. Onlara misal olaraq 1993-cü il martın 6-da konqresmen Gilman ilə olan görüşü, martın 8-də ABŞ konqresinin Avropada təhlükəsizlik və əməkdaşlıq komissiyasının qarşısındakı çıxışı, martın 9-da ABŞ konqresinin Helsinki komissiyasının dinləmələrində iştirakı, martın 12-də ABŞ Dövlət Departamentinin xüsusi nümayəndəsi səfir Con Marseka ilə görüşü iki dövlət arasında münasibətlərin tənzimində mühüm addımlar kimi qiymətləndirmək olar. Bu çıxışların hər birində Qarabağ problemindəki reallıqların üzə çıxarılması, qaçqınlar məsələsi, Azərbaycanın ağır ictimai-siyasi vəziyyəti ön plana çəkilərək onlara diqqətin vacibliyi qeyd olunurdu. Bu diplomatik fəaliyyət bir neçə nəticə verdi ki, onlara aşağıdakılar aid edilə bilər:

- bəzi konqresmenlər Qarabağ münaqişəsinə yanaşmada tərəfsiz, neytral mövqelər nümayiş etdirməyə başladılar;
- qaçqınlar məsələsi ABŞ-da gündəmə gətirildi və ona daha diqqətlə yanaşmağa başladılar;
- mətbuatla əlaqələrin qurulmasını asanlaşdırdı;
- ABŞ tərəfi Naxçıvana 800 min dollarlıq tibbi ləvazimat göndərdi (385);
- gələcəkdə erməni işğallarının pislənməsi və onların qarşısının alınmasında müəyyən addımların atılması üçün zəmin yaratdı;
- Digər sahələrdə də əməkdaşlıq üçün şərait yaratdı;

Məhz bu fəaliyyətin nəticəsində 1993-cü il aprelin 6-da ABŞ dövlət departamenti Kəlbəcərin işğalını pislədi, erməni qüvvələrinin Kəlbəcərdən çıxarılmasını tələb etdi. Bill Klinton da Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyə məktub göndərərək Kəlbəcərin işğalını pislədi (4, s.163)

Bir qədər sonra isə BMT Təhlükəsizlik Şurası 822 saylı qətnaməni qəbul etdi ki, burada da erməni işğalı pislənirdi. ABŞ tərəfi Minsk qrupunun fəaliyyətinin aktivləşdirilməsi, ATƏM çərçivəsində, danışıqlar yolu ilə Qarabağ probleminin həllində maraqlı olduğunu bildirərək, bu istiqamətdəki fəaliyyətdə Azərbaycana yardım edəcəyini nümayiş etdirdi. Bu məqsədlə ATƏM müşahidəçilərinin regiona 2 milyon dollarıdək vəsait ayırmağa hazır olduğunu bildirdi (4,163)

1993-cü il aprelin 14-də Hafiz Paşayev etimadnaməsini ABŞ prezidenti Bill Klintona təqdim etdi və 25 dəqiqəlik təqdimat mərasimində səfir Azərbaycan reallıqları ilə ABŞ prezidentini tanış etdi, Qarabağ münaqişəsindəki vəziyyəti, Azərbaycan-ABŞ münasibətlərinin gələcəyi haqqında fikirləri bölüşdürdü.

Bu görüşün nəticəsində ABŞ Dövlət Departamentinin Dağlıq Qarabağ üzrə danışıqlarda nümayəndəsi Con Marseka (6), yeni müstəqil dövlət üzrə müşavir Stroub Talbott Bakıya gəldilər (7). ABŞ-Azərbaycan münasibətlərində müəyyən normallaşma nəzərə çarpsa da bir sıra amillər bu münasibətlərin dərinləşməsinə mane olurdu. Bunu ilk növbədə Elçibəy hökumətinin ABŞ-da yaratdığı sərt imiclə, erməni lobbisinin anti-azərbaycan fəaliyyəti ilə, eyni zamanda Azərbaycan Respublikasındakı daxili siyasi böhranla əlaqələndirmək olar. Tarixci-alim Əli Həsənov haqlı olaraq "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ" kitabında Ə. Elçibəy hökumətinin ABŞ-da yaratdığı imici belə səciyyələndirir.

"...Vaşinqton Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi ilə bağlı 1993-cü ilin sonuna qədər dəfələrlə Ermənistanın mövqeyini əks etdirən, onu münaqişədə haqlı hesab edən bəyanatlar yaymış, bu ölkəyə həm mənəvi,həm siyasi, həm də maddi yardımlar göstərmişdir. Azərbaycana münasibətdə isə, əksinə, müxtəlif cəza tədbirləri görmüş, haqq işi uğrunda ədalətli mübarizə apardığı halda onu günahlandırmışdır" (8, s.152).

Digər tədqiqatçı Cahangir Xəlilov Elçibəy hökumətinin xaricdə pis imic yaratmasını hökumət başçısının panturkist ideyalarını yayması ilə əlaqələndirir (3): " Burada söhbət Elçibəy tərəfindən hakimiyyətdən getməsindən sonra və əvvəllərdə dəfələrlə ifadə etdiyi Adriatik dənizindən Böyük Çin səddinə qədər vahid türk dövlətinin yaradılmasından gedir". Bu fikri təsdiq etmək üçün ABŞ jurnalisti xanım Xanterin müsahibələrinin birində ifadə etdiyi fikri göstərir. Xanter müsahibəsində bildirdi ki, " Müasir atmosferada Azərbaycan, adətən, panturkist və yetraturkist tərəf kimi çıxış edir" (3).

Digər tərəfdən Xalq Cəbhəsi hökumətinin səriştəsizliyi Azərbaycanın haqq işi uğrunda apardığı mübarizənin qeyri-adekvat şəkildə dünyaya təqdim etməsi ilə bağlıdır ki, bunun da əsas səbəbi kimi idarəetmə bacarığının azlığı, fəal xarici siyasət apara bilməməklə əlaqədardır. Yuxarıda göstərilən nümunə bunu bir daha sübut edir. Çünki istənilən ifrat millətçilik meylləri hər bir dövlət və ictimai qruplar tərəfindən çox pis qarşılanır və antipatiya yaradaraq hər bir dövlətin imicinə zərbə kimi çıxış edir. Dövlət başçısının belə bir mövqe tutub onu açıq bəyan etməsi təbii ki, hər bir qarşılıqlı əlaqə yaradan tərəf üçün problemlərə yol açır, Azərbaycana qarşı inamsızlğa gətirib çıxarırdı. Digər tərəfdən erməni lobbisi də Azərbaycan hökumətinin belə addımlarından öz məqsədləri ücün istifadə edir, özlərinin ədalətsiz mövqelərinə dünyada haqq qazandırmağa çalışırdılar. Dahi siyasi xadim Heydər Əliyevin respublikaya rəhbərlik etməsindən başlayaraq artıq ABŞ-Azərbaycan münasibətlərində ciddi dəyişikliklər yaranmağa başladı. Bu, ilk növbədə, ümummilli liderin balanslaşdırılmış və məqsədəuyğun siyasət aparması ilə əlaqədar olmuşdur. Baxmayaraq ki, 1993-cü ildə Azərbaycanda daxili xaos, hakimiyyət uğrunda müxtəlif qruplar arasında mübarizə hələ də davam edirdi. Erməni təcavüzü isə yeni mərhələyə qədəm qoymuşdu. Bu zaman Azərbaycan Respublikasının xarici siyasətində əsas məsələ kimi müstəqilliyimizin, ərazi bütövlüyümüzün qorunması məsələsi ən mühüm amilə çevrilmişdi ( 4, s.165). Bu məsələlərin həlli çevik xarici siyasət yeritməkdən son dərəcə asılı idi. Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev Heydər Əliyevin tapşırığı ilə ABŞ-ın vitse prezidenti Albert Qora və dövlət katibi Uorren Kristoferə məktub göndərərək ABŞ-ı Azərbaycana humanitar yardım etməyə, erməni təcavüzü və qaçqın problemlərinin həlli ilə əlaqədar məsələlərdə obyektiv mövqe tutmağa çağırdı (9,s.57,59). Qeyd etmək lazımdır ki, ABŞ konqresindəki ermənipərəst qüvvələr hər bir vəchlə ABŞ-ın Azərbaycana olan münasibətinin normallaşmasına imkan yaratmaq istəmir, buna daim mane olmağa çalışırdılar. Ermənistan dövlət səviyyəsində ABŞ-ın Azərbaycana qarşı təcavüzkar siyasətini pərdələməyə çalışırdı. Ancaq Azərbaycanın iqtisadi potensialı və regiondakı mövqeyi, ABŞ-ın buradakı iqtisadi-maraqları, eyni zamanda Azərbaycan tərəfinin apardığı aktiv siyasət iki dövlət arasında münasibətlərin yeni kontekstlər çərçivəsində həllini zəruri edirdi. Bunu Stroub Talbottun 1993-cü il sentyabrın 9-da etdiyi çıxış bir daha təsdiqləyir. O, burada bildirirdi:" Azərbaycana

yardım proqramının məhdudlaşdırılması xarici siyasət məqsədlərimizə mane olur”(4,s.167). Qeyd etmək lazımdır ki, ABŞ-ın regiona fəal təsirinin olmaması təkcə onun iqtisadi maraqlarının deyil, eləcə də siyasi mənafeyinə uyğun deyildi. Bu regionda Rusiya və İran təsirinin güclənməsinə gətirib çıxara bilər və nəticə etibarı ilə ABŞ-ın regiondakı milli maraqlarına zərbə ola bilərdi. Bill Klinton adminstransiyası bütün bunları nəzərə alaraq ümummilli lider Heydər Əliyevə cavab məktubu göndərir. Bu məktubda Azərbaycanda olan mövcud şəraitə münasibət bildirilir və iki dövlət arasındakı münasibətlərin yaxşılaşdırılması istiqamətində işlərin aparılması məsələləri qoyulurdu. Bu danışıqların yekun nəticəsi kimi isə ABŞ-ın Azərbaycana qeyri-hökumət təşkilatları vasitəsilə yardımına nail olundu (4, s.168). Ən mühüm addımlardan biri isə oktyabrda aparılan siyasət nəticəsində iqtisadi münasibətlərin formalaşdırılması, ABŞ-ın enerji siyasətində Azərbaycanın yerinin müəyyənləşdirilməsi idi. Bu baxımdan ABŞ-ın energetika nazirinin müavini Uilyam Uaytın Azərbaycana səfəri mühüm rol oynadı. Siyasi baxımdan uğurlardan biri isə ABŞ Departamentinin Ermənistan silahlı qüvvələrinin hücumlarından narahat olduğunu bildirməsi və onların pislənməsi, eyni zamanda işğal olunmuş ərazilərin boşaldılmasının tələb edilməsi idi (10). Beləliklə artıq 1993-cü ilin II yarısından başlayaraq ABŞ-Azərbaycan münasibətlərində müəyyən canlanma yaranır, ABŞ-ın Azərbaycana olan diqqəti artmağa başlayırdı. 1993- cü ili bir sıra tədqiqatçılar axtarışlar və yaxından tanınma ili kimi qəbul edirlər (4, 169). Fikrimizcə, bu dövrü Azərbaycanın öz məqsədyönlü xarici siyasət xəttini müəyyənləşdirməsi, xarici dövlətlərlə konkret maraqlar çərçivəsində münasibətlərin əsasının qoyulması ili kimi də qəbul etmək olar.

Tədqiqatçılardan Ə.Bayramova, Ə.Həsənov, O.İ.Çernyayevski də ABŞ-Azərbaycan münasibətlərinin qurulmasında və gələcək siyasi xəttin formalaşmasında bu dövrdəki fəaliyyəti xüsusilə yüksək qiymətləndirirlər. Çünki məhz 1993-cü ildə ABŞ Azərbaycan Respublikası ilə həm iqtisadi, həm də siyasi sahədə münasibətlərini yeni kontekstdə qurmağa başlamış və gələcək siyasi münasibətlərin cizgiləri müəyyənləşmişdir.

1994-cü ildən etibarən isə daha konkret, dəqiq maraqlar və məqsədlər çərçivəsində siyasi xətt aparmağa başlayan Azərbaycan Respublikası bu siyasətin reallaşmasında ABŞ-ın dəstəyindən maksimum istifadəyə çalışmışdır. ümummilli lider Heydər Əliyev iki dövlət arasında münasibətlərin möhkəmləndirilməsi məqsədilə bir sıra addımlar atmağa başlamışdı ki, onlardan ən mühümü xarici iqtisadi əlaqələrin möhkəmləndirilməsi idi. Qeyd etmək lazımdır ki, hakimiyyətə gəldiyi ilk gündən etibarən Heydər Əliyev xarici neft şirkətləri ilə danışıqlara başlamış və neft strategiyasının formalaşdırılmasına , eləcə də iqtisadi amildən xarici siyasi əlaqələrin möhkəmləndirilməsi üçün istifadə etməyə çalışmışdır. Bu zaman Ümummilli lider bəzi xarici neft şirkətləri ilə danışıqlar aparmış, yalnız Azərbaycanın xeyrinə olan, milli maraqlarımıza uyğun olan şərtlər daxilində xarici şirkətlərin cəlb edilməsinə üstünlük verilmişdir.

Doğrudur 1993-cü ilin sonuna qədər Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ABŞ-ın Ermənistan mənafeyini əks etdirən bəyanatları hələ davam etsə də, artıq Azərbaycan mənafeyinin tanınması ilə bağlı fikirlər də okeanın o tayından eşidilməkdə idi. Əli Həsənovun təbiri ilə desək, “ermənilər bu dövrdə istəklərinə qismən nail olsalar da, Azərbaycanda 1993-cü ilin yayında baş verən ictimai-siyasi dəyişikliklər və bunun nəticəsində Heydər Əliyevin yenidən rəhbərliyə qayıtması onların çirkin əməllərinin qarşısına sipər çəkdi” (8, s.151)

Heydər Əliyev 1993-cü ilin sentyabr ayında ABŞ prezidenti Bill Klinton, vitse-prezident Albert Qor və digər konqresmenlərə məktublar göndərərək Azərbaycan gerçəkliklərinin mahiyyətini açıqlayır və onların obyektiv mövqe tutmasını xahiş etmişdir. Elə bu məqsədyönlü addımların nəticəsində ABŞ-Azərbaycan münasibətlərində buz əriməyə başlamış və erməni təsirlərinə qarşı etibarlı sipər çəkilməyə başlanmışdır. Buna misal olaraq, 1993-cü ilin sentyabrında ABŞ Dövlət Katibinin yeni müstəqil dövlətlər üzrə müşaviri Stroub Talbottun

Azərbaycan rəhbərliyinə təqdim etdiyi ABŞ prezidentinin cavab məktubunu göstərmək olar. Bu məktubda ABŞ-ın Azərbaycandakı vəziyyətdən narahatçılığı ifadə olunmaqla bərabər, ərazi bütövlüyümüzün təhlükədə qalması pislənir, həmçinin 907-ci düzəliş qalmaqla bərabər, qeyri-hökumət təşkilatlar xətti ilə Azərbaycana kömək göstəriləcəyinə söz verildi (11).

1994-cü il ABŞ-Azərbaycan münasibətlərini araşdıran tədqiqatçılar tərəfindən Azərbaycan ABŞ mövqelərinin yaxınlaşması (4,s.169), ikitərəfli münasibətlərin yüksələn xəttlə inkişafı (8, s.155) dövrü kimi xarakterizə olunur. Məhz bu ildə ABŞ Azərbaycana yeni səfirini – Riçard Kozlaniçi təyin etdi.

1994-cü il iyunun 10-da Heydər Əliyevin Türkiyəyə səfəri zamanı ABŞ Dövlət Katibi Uorren Kristoferlə görüşü (12) iki dövlət arasında yaxınlaşmağa təkan verdi. Burada bir sıra məsələlər araşdırıldı ki, onlara aşağıdakılar aid edilə bilər:

- Qarabağ münaqişəsi bir dövlətin inhisarında deyil, beynəlxalq sülh səyləri ilə həll edilməlidir;
- Azərbaycan ABŞ-ın regiondakı siyasətinin fəallaşdırılmasında maraqlıdır;
- iki ölkə arasında münasibətlərin dərinləşdirilməsi qarşılıqlı faydalı əməkdaşlıq, beynəlxalq prinsiplər çərçivəsində aparılmalıdır;
- enerji təhlükəsizliyi məsələlərində qarşılıqlı mənafelər işlənib hazırlanmalıdır.

Bu danışıqların nəticələri özünü çox gözlətmədi. Tezliklə ABŞ-ın

Azərbaycana marağının artmasını göstərən siyasi-iqtisadi addımlar atılmağa başlandı. Bu siyasi addımlar ilk növbədə enerji təhlükəsizliyi problemlərinin həll istiqamətində oldu. Buna misal olaraq ABŞ prezidenti Bill Klintonun Xəzər siyasəti ilə məşğul olan işçi qrup yaratmasını, 1994-cü ilin sentyabrın 3-də ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Madlen Olbraytın Azərbaycana səfərini göstərmək olar. Bu görüşdə mövcud vəziyyət müzakirə olunaraq təcrübəli siyasətçi Heydər Əliyevin Azərbaycanı demokratik respublika olaraq qurmaq əzmi alqışlanmış, həmçinin Qarabağ münaqişəsinin həlli məsələsində başlıca rolun Rusiyadan ATƏM-ə keçməsinə hər cür yardım göstəriləcəyi qeyd olunmuş, Xəzər dənizinin Azərbaycan sektorundakı neft hasilatına dair müqavilənin imzalanmasının vacibliyi vurğulanmışdır(13). İki dövlət arasında münasibətlərin yaxşılaşdırılmasında 1994-cü ilin sentyabrın 6-da Qahirədə ABŞ-ın vitse-prezidenti Albert Qor ilə görüşün də mühüm əhəmiyyəti olmuş, burada bir daha Azərbaycanın ərazi bütövlüyü məsələsi gündəmə gətirilmiş, neft müqaviləsinin imzalanması məsələlərinə toxunulmuşdur. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsinin" imzalanması ilə iki dövlət arasındakı münasibətlər yeni mərhələyə keçərək strateji əməkdaşlıq səviyyəsi almışdır. 1994-cü ilin sentyabrında Nyu-Yorkda BMT Baş Məclisinin 49-cu sessiyası dövründə Heydər Əliyevlə Bill Klintonun görüşü ABŞ-Azərbaycan münasibətlərində ən mühüm addımlardan biri hesab edilə bilər. Burada ABŞ prezidenti ilk dəfə olaraq rəsmi şəkildə bildirdi ki, Qarabağ münaqişəsində Azərbaycanınmövqeyini müdafiə edir, münaqişə tərəfi kimi isə Ermənistanı görür.

Beləliklə, 1993-1994-cü illər ABŞ-Azərbaycan münasibətlərində çox əhəmiyyətli bir mərtəbə kimi nəzərə alınmalıdır. Professor Hafiz Paşayev bu dövrü iki dövlət arasında tanışlıq dövrü kimi qiymətləndirərək yazır:"... bu görüş (1994-cü il Nyu-Yorkda BMT-nin 49-cu sessiyası çərçivəsində Heydər Əliyevlə Bill Klintonun görüşü-Ş.Məmmədov) ABŞ ilə Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin ilk araşdırma mərhələsini başa çatdırdı" ( 9, s. 82).

Musa Qasımov isə bu mərhələni belə səciyyələndirir (4,173):

"- ABŞ-da erməni təbliğatına dair alternativ fikir yaranmağa başladı;
- Ermənistan-Azərbaycan münaqişəsinin əsl mahiyyəti bilindi;
- münaqişənin aradan qaldırılması üçün diplomatik səylər genişləndi;
- ABŞ-ın Azərbaycanda maraqları tam aydınlaşdı;

- ABŞ ilə qarşılıqlı faydalı əməkdaşlıq qurmaq üçün əlavə imkanlar əldə edildi;
- "Əsrin müqaviləsi"nin imzalanması ilə maddi təməllər möhkəmləndirildi."

Professor Əli Həsənov bu dövrü belə qiymətləndirir: "... 1993-cü ildən ABŞ-la münasibətlər sahəsində Azərbaycanın xarici siyasəti qarşısında qoyulmuş bütün strateji və taktiki vəzifələr müvəffəqiyyətlə həyata keçirilib və bu sahədə nəzərdə tutulan bütün məqsədlərə nail olunub" (8, s. 183).

Sonradan müəllif əldə olunan nəticələri belə qiymətləndirir ( 8, 183):"Azərbaycan Amerikanın Qafqaz bölgəsində əsas siyasi, iqtisadi partnyoru və arzuolunan dövlətlər qrupuna müvəffəqiyyətlə daxil olmuşdur"

Digər tədqiqatçılar da 1993-1994-cü illər dönəmini Azərbaycan Respublikasının ABŞ münasibətlərində dönüş illəri kimi qiymətləndirərək, Azərbaycanın xarici siyasətində müəyyənləşmiş və aydın xarici siyasət strategiyasının formalaşması mərhələsi kimi qəbul edirlər.

Beləliklə, 1993-1994-cü illərdə aparılmış məqsədyönlü və balanslaşan xarici siyasət nəticəsində ABŞ-Azərbaycan münasibətlərində aşağıdakılara nail olundu:

- Azərbaycan Respublikası ABŞ tərəfindən əsas siyasi, iqtisadi müttəfiq kimi qəbul edilməyə başladı;
- Qarabağ münaqişəsində Azərbaycanın mövqeyi aydın şəkildə ABŞ-a çatdırıldı;
- Erməni lobbisinin antiazərbaycan təbliğatının qarşısı alınmağa başladı;
- ABŞ-ın hakim dairələrində azərbaycanpərəst qüvvələrin formalaşdırılmasına başlandı;
- Qafqaz regionunda ABŞ-ın əsas diqqət yetirməli olduğu dövlətlərdən biri olmasına nail olundu;
- Qafqazda ABŞ-Rusiya, ABŞ-İran rəqabətindən Azərbaycanın xeyrinə istifadə etmək üçün gələcək siyasətin bünövrəsi qoyuldu;
-Azərbaycan Respublikası öz geosiyasi və geoiqtisadi əhəmiyyətliliyini təsdiq etdi.

***Açar sözlər:*** müstəqillik, neft, konqres, münaqişə,enerji təhlükəsizliyi, milli maraqlar, Qafqaz.

**İstifadə olunmuş ədəbiyyat**

1. http://www.ca-c.org/journal/cac-08-2000/05.kohen.shtml
2. Кулиев Г.Трубопровод - стратегия Азербайджана геополитическая реалность "трубы"//Центральная Азия и Кавказ , 2001, N1.
3. Халилов Дж. Азербайджан - геополитическая точка опоры США. //URL:http://ethnoglobus.az/index.php/vse-novosti/item/878-азербайджан-геополитическая-точка-опоры-сша
4. Qasımlı M. Azərbaycan Respublikasının xarici siyasəti. Bakı, Mütərcim. 2015.
5. Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarında səfirliyinin açılması haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarı.23 sentyabr1992. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı,30 sentyabr1992- ci il.Bakı ,1992,N18(187).
6. ABŞ-ın nümayəndə heyəti Bakıya gəlmişdir."Azərbaycan qəzeti," 15 may,1993.
7. Прокладывая путь к миру.// «Бакинский рабочий», Баку ,3июня,1993.
8. Həsənov Ə. Azərbaycan Beynəlxalq münasibətlərdə. Bakı: "Azərnəşr"2006, s.538.
9. Paşayev H. M. Yüksəkliyə doğru. Azərbaycanın Amerika Birləşmiş Ştatlarındakı ilk səfirinin seçilmiş məqalələri. Azərbaycan Marketinq cəmiyyəti. Bakı, 2008.
10. Azərbaycan qəzeti, Bakı ,1993, 9 oktyabr, №189.
11. Azərbaycan qəzeti, 14 sentyabr 1993, №176.
12. Azərbaycan qəzeti, Bakı 1994,14 iyun, №156.

**Шахрияр МАМЕДОВ**

## АМЕРИКАНО-АЗЕРБАЙДЖАНСКИЕ ОТНОШЕНИЯ НА РАННИХ ЭТАПАХ НЕЗАВИСИМОСТИ

**Резюме**

После обретения независимости Азербайджанская Республика придала большое значение отношениям с США. В статье раскрыты особенности отношений США и Азербайджана в начальный период независимости, а также исследованы пути решения возникших проблем. Период сближения отношений между двумя странами после прихода к власти общенационального лидера Гейдара Алиева автор рассматривает как большой исторический период.

***Ключевые слова:*** нефть, контракт, реальность, конгресс, конфликт, энергетическая безопасность, национальные интересы, Кавказ,независимость.

**Shahriyar MAMMADOV**

## USA-AZERBAIJAN RELATIONS IN THE EARLIER STAGES OF INDEPENDENCE

**Summary**

After gaining its independence the Republic of Azerbaijan paid a great importance to the relations with USA. In the article the author characterized the feature of relations of US and Azerbaijan in the earlier period of independence, and explores the ways of solving the problem emerged. The period of reapproaching the relations between the countries after coming to power of Haydar Aliyev is considered by the author as a great important historical period.

***Keywords:*** independence,oil, realities, congress, conflict, energy security, national interests, the Caucasus

UOT 32

**Sənan FƏRƏCOV**
*doktorant,*
*AMEA Fəlsəfə İnstitutu*

# XARİCİ ÖLKƏLƏRİN İMMİQRANTLARIN İNTEQRASİYASINA DAİR ASSİMİLYASİYA VƏ MULTİKULTURALİZM SİYASƏTİ*

Xarici ölkələrin immiqrasiya siyasəti müxtəlif və çoxşaxəlidir, hər bir ölkə belə siyasəti öz xüsusiyyətlərindən irəli gələrək müvafiq formada həyata keçirir. Ədəbiyyatda, bir qayda olaraq, sosio-mədəni inteqrasiyanın iki geniş yayılmış modelləri və ya strategiyaları göstərilir. Bunlar inteqrasiyanın assimilyasiya və multikulturalizm modelləridir [6]. Hər iki strategiyanın əsas məqsədi etnik və mədəni zəmində münaqişələrin olmadığı və minimal olduğu inteqrasiya olunmuş cəmiyyət formalaşdırmaqdan ibarətdir. Lakin bu strategiyalar çərçivəsində məqsədə nail olmağın və əlaqələrin qurulması prinsipləri fərqlidirlər, bir çox hallarda isə bir-birinə ziddirlər.

Odur ki, Qərb ölkələrində digər sivilizasiya və mədəniyyət ənənələrinə malik olan immiqrantların inteqrasiya məsələsi vacib siyasi və ictimai müzakirələrə çevrilib. İ.Semenenko qeyd edir ki, Qərb demokratiyasının həyat qabiliyyətliliyi və Avropa sivilizasiyası ənənələrinin davamlılığı əsasən immiqrasiyanın tənzimlənməsi problemlərinin müvəffəqiyyətlə həllindən, miqrantların və onların övladlarının inteqrasiyası üçün effektli mexanizmlərin yaradılmasından asılıdır [3, s. 58].

Qeyd edilməlidir ki, müxtəlif tarixi mərhələlərdə bir dövlətin immiqrasiya siyasəti çərçivəsində bir-birinə əks olan assimilyasiya və multikulturalizm strategiyaları biri-birini əvəz edə bilər. Buna nümunə kimi, ABŞ-ın inteqrasiya siyasətini göstərmək olar. ABŞ-ın bu siyasətini birinci mərhələ XIX əsrdən XX əsrin 60-cı illərinədək immiqrantların assimilyasiyası strategiyasından, ikinci mərhələ isə XX əsrin 60-cı illərindən indiyədək multikulturalizm strategiyasından ibarət olmaqla iki mərhələyə bölmək olar. Belə ki, ABŞ-da 1960-cı illərdə liberal immiqrasiya qanunları qəbul edilənədək bu ölkədə immiqrantlarla bağlı sərt assimilyasiya siyasəti həyata keçirilirdi və bu siyasət "ərimə qazanı" konsepsiyası adını almışdı. Bu konsepsiyanın əsas postulatı immiqrantların ingilis-protestant mədəniyyəti əsasında mədəniyyətlərini dəyişməkdən (*acculturation*) və Amerika siyasi sisteminin dəyərlərini qəbul etməkdən ibarət idi. Bununla bağlı S.Hantinqton yazır ki, Amerika tarixi boyunca ağ ingilis-sakson protestantlara mənsub olmayan insanlar yalnız ingilis-protestant mədəniyyətini və siyasi dəyərlərini qəbul etdikdən sonra amerikalı ola bilərdilər. O, daha sonra qeyd edir ki, millionlarla immiqrant və onların övladları yalnız dominant mədəniyyətə assimilya olunmaları səbəbindən Amerika cəmiyyətində sərvətə, var-dövlətə, etimada nail oldular [7, s.107-108].

Assimilyasiya strategiyası müasir Amerika millətini formalaşdırdı. Belə ki, immiqrasiya elə bir miqyas almışdı ki, immiqrantların assimilyasiyasına yönəlmiş sərt tədbirlər həyata keçirilmədən müasir ABŞ tamam başqa bir ölkə olardı. Məhz sərt assimilyasiya siyasəti ingilis dilinin milli dil qismində qorunub saxlanılmasına, protestant dini dəyərlərinin isə ölkənin ictimai və siyasi həyatını müəyyən etməsinə şərait yaratdı.

Qeyd edilməlidir ki, assimilyasiya prosesində təhsil xüsusi rol oynayırdı və məktəblərdə milli tarixin tədrisinə və müxtəlif vətənpərvərlik mərasimlərinin keçirilməsinə əhəmiyyətli

* Məqalə s.e.ü.e.d. Ramiz Sevdimalıyev tərəfindən çapa məsləhət görülüb

dərəcədə yer ayrılırdı. Təhsil almaq ABŞ-da şagirdlərə ingilis-amerikalı protestant dəyərlərini aşılamaq üçün ən yaxşı vasitə hesab edilirdi [9, s.161-162].

İmmiqrantların assimilyasiyası (amerikanlaşması) prosesində dövlət orqanları ilə yanaşı ictimai təşkilatlar və biznes strukturları da iştirak edirdi. S.Hantinqton "Biz kimik?: Amerika milli identikliyinin çağırışları" əsərində yazır ki, iri sənaye korporasiyalarına işçi qüvvə tələb olunurdu və immiqrantlar buna məmnuniyyətlə razılaşırdılar, ona görə də korporasiyalar fabrikyanı məktəblər təşkil edirdilər, burada immiqrantlara ingilis dilini öyrədirdilər və onlara Amerika dəyərlərini aşılayırdılar [7, s.210].

Qeyd etmək lazımdır ki, immiqrantların assimilyasiya edilməsi hərəkatı əsasən ictimai təşkilat və özəl təşkilatlardan başlayırdı, onlar yerli hakimiyyətə təzyiq göstərirdilər. Bu təzyiqlər sayəsində 30-dan artıq ştatda "amerikanlaşdırma" proqramları qəbul edilmişdi. Federal hökumət assimilyasiya prosesində yalnız sonradan 1910-cu ildən başlayaraq iştirak etməyə başladı, 1910-1920-ci illərdə Naturallaşdırma Bürosu və Təhsil Bürosu özlərinin assimilyasiya proqramlarını işləyib hazırladılar.

Lakin 1960-cı illərdə immiqrasiya qanunvericiliyinin liberallaşması, irqi və etnik azlıqlara qarşı ayrıseçkiliyi qadağan edən qanunların qəbul edilməsi ilə Amerika cəmiyyətində tədricən multikulturalizm doktrinası hökmranlıq etməyə başladı. Latın Amerikası və Asiyadan immiqrantların sayının kütləvi xarakter alması və ölkə daxilində etnik qrupların sayının artması ilə immiqrantların öz milli identikliyini saxlamağa imkan verən siyasət – multikulturalizm siyasəti həyata keçirilməyə başladı. Multikulturalizm siyasətinin əsas nəticələrindən biri kimi ölkənin ictimai həyatında ingilis dili ilə yanaşı digər dillər də geniş yayıldı. Bu praktikada ABŞ ərazisində əsas dilin ingilis dili deyil, digər dillər, əsasən də ispan dili olan bir sıra anklav ərazilərin yaranmasına gətirib çıxardı. Nəticədə, orta və ali təhsilin cəmiyyətdə rolu köklü şəkildə dəyişdi. S. Hantinqtonun qeyd etdiyi kimi, müasir ABŞ-da XIX əsr və XX əsrin birinci yarısından fərqli olaraq, təhsil müxtəlifliyi təqdir edilir və praktiki olaraq immiqrantların Amerika mədəniyyətinə cəlb edilməsi və onların amerika dəyərləri və ənənələrini qəbul etmələri üçün heç bir səy göstərilmir. Hətta məktəblərdə xarici dillərdə təhsilə icazə verilmiş, seçki məntəqələrində səsvermə bülletenləri bir neçə geniş yayılmış dillərdə tərtib edilərək paylanılır və s. [7, 319].

Qeyd edilməlidir ki, ABŞ-da etnik və irqi azlıqlara sosial sferada prioritetlik verilməsi dövlət siyasətinin əsas istiqamətidir. Misal üçün göstərmək olar ki, ABŞ-ın etnik və irqi azlıqlara münasibətdə "pozitiv diskriminasiya" adlandırılan bu siyasəti azlıqlara işə qəbul edilərkən müəyyən imtiyazların verilməsini və ya tədris müəssisələrinə qəbul zamanı isə kvotların ayrılmasını nəzərdə tutur. Eyni zamanda vurğulanmalıdır ki, ABŞ cəmiyyətində həm "ağ" çoxluq arasında, həm də azlıqların nümayəndələri arasında dövlətin "pozitiv diskriminasiya" siyasətinə etiraz edənlər var. Onlar hesab edirlər ki, "pozitiv diskriminasiya" siyasəti qrupların hüquqlarını individual hüquqlardan üstün tutur, bu isə hüquqi dövlət prinsipinə ziddir.

Beləliklə, ABŞ-ın inteqrasiya siyasəti təcrübəsi belə bir nəticəyə gəlməyə imkan verir ki, məhz immiqrantlarla bağlı assimilyasiya strategiyası müasir Amerika cəmiyyətini formalaşdırmışdır. Lakin assimilyasiya siyasətindən multikulturalizm strategiyasının xeyrinə imtina edilməsi ABŞ dövləti üçün bir sıra yeni problemlərin meydana gəlməsini qaçılmaz edir.

Qeyd edilməlidir ki, Avstraliya, Argentina, Braziliya və digər ölkələr də sərt assimilyasiya strategiyası həyata keçirmişlər. Misal üçün, XIX əsrin sonları və XX əsrin əvvəllrində Argentinaya İspaniyadan gələn immiqrantlar sayca İtaliyadan gələnlərdən ciddi şəkildə az olmasına baxmayaraq, həyata keçirilən assimilyasiya siyasəti bu ölkədə ispan dilini dövlət dili qismində saxlamağa imkan verdi [2].

Maraqlıdır ki, göstərilən ölkələrdə keçmişdə assimilyasiya siyasətinin uğurla həyata keçirilməsi informasiya kommunikasiya texnologiyalarının zəif inkişafı ilə şərtlənirdi. Belə ki, ucuz və sürətli rabitə və nəqliyat vasitələrinin olmaması immiqrantların donor ölkə ilə informasiya və mədəni əlaqələrinin qorunub saxlanılmasını, demək olar ki, qeyri-mümkün edirdi. Lakin rabitə və kommunikasiya vasitələrinin inkişafının müasir mərhələsində immiqrantlar öz vətəni ilə praktiki olaraq informasiya və mədəni əlaqələrini tam həcmdə saxlamağa qadirdirlər. Kommunikasiya vasitələrinin texniki inkişafının etno-mədəni siyasətin liberallaşması ilə məcmusu Qərb ölkələrində multimədəni (multikultural) cəmiyyətin formalaşmasına və milli identiklik böhranına gətirib çıxardı.

Müasir dövrdə kifayət qədər immiqrant qəbul etmiş ölkələrin hamısı rəsmi şəkildə elan etməsələr də, onlarda faktiki olaraq multikulturalizm siyasəti həyata keçirilir. Multikulturalizm Kanada, Avstraliya, Böyük Britaniya, Niderland və bir neçə ölkədə rəsmi dövlət siyasətidir.

Hesab edilir ki, Kanada ilk olaraq multikulturalizmi dövlət siyasəti elan edən ölkə olmuşdur. Kvebekdə fransız dilli çoxluğun separatçılıq meyillərinin tənzimlənməsi problemləri Kanada hökumətini 1960-cı illərdə multikulturalizmi dövlət siyasəti elan etməyə məcbur etdi. Hazırda bu ölkədə mədəniyyətlər bib-birinə qarışır, dinc yanaşı mövcud olurlar, onlar ingilis-sakson ənənələrinə meyilli olan dominant mədəniyyətin içində əriyərək yoxa çıxmırlar [4, s.58].

Bu Kanada milli statistikası ilə tam öz təsdiqini tapır. Belə ki, 2011-ci il statistik məlumatlara əsasən Kanada əhalisinin təxminən hər 5 nəfərindən biri (20.6%) xaricdə anadan olub. Bu məlumatlara əsasən ölkədə 200 müxtəlif etnik mənşəyə malik olan qruplar məskunlaşmışdır ki, bunlardan 13 etnik qrup ən böyük qruplardır və hər birinin tərkibi 1 milyondan artıqdır. Bununla belə, Cənubi asiyalılar, çinlilər və qara dərililərdən ibarət etnik azlıqlar ən böyük qruplardır və onlar etnik azlıqların 61,3%-ni təşkil edirlər. Bu qruplardan sonra sayına görə filippinlilər, Latın amerikalıları, Cənubi-Şərqi asiyalılar, Qərbi asiyalılar, koreyalılar və yaponlardan ibarət qruplar ən böyük etnik qruplardır. İmmiqrantların 23,8%-i ingilis dilini, 3,4%-i isə fransız dilini ana dili hesab edirlər. Bu dillər rəsmi dillər olsa da, onlarla bərabər Çin, Taqaloq, Filippin, ispan və pəncab dilləri daha geniş istifadə edilir. Kanada əhalisinin üçdə ikisi xristianlardır və katoliklər ən geniş yayılmış xristian qrupudur. Əhalinin 1 milyondan bir qədər çoxu, təxminən 3,2%–i özünü müsəlman kimi identifikasiya edir. Əhalinin 1,5%-i induslardan, 1,4%-i sikxlərdən, 1,1% buddistlər və 1,0%-i yəhudilərdən ibarətdir, 7,8 milyon insan və ya əhalinin təxminən 23,9%-nin isə dini mənsubiyyətləri yoxdur [8].

Qeyd edilməlidir ki, Avstraliya da multikulturalizm siyasətinin xeyrinə assimilyasiya siyasətindən imtina etmiş ölkədir. Bu ölkə qeyri-avropalı immiqrantlara qarşı daha uzunmüddətli ayrıseçkilik siyasəti həyata keçirmişdir. Belə ki, bu ölkədə Britaniya mənşəli olmayan avropalı immiqrantlara qarşı assimilyasiya siyasəti həyata keçirildiyi halda, digər irqi qruplardan olan immiqrantlar isə seqreqasiyaya məruz qalırdılar.

Asiya-Sakit okean hövzəsi regionu ilə iqtisadi əlaqələrin inkişaf etdirilməsi və "ağ Avstraliya" siyasətindən imtina bu ölkənin immiqrasiya siyasətinin liberallaşması və multikulturalizm siyasətinin həyata keçirilməsi ilə nəticələndi. Avstraliyada multikulturalizm siyasəti Britaniya mənşəli olmayan immiqrantlardan ibarət cəmiyyətlərin etnik identikliklərinin qorunub saxlanılmasına və möhkəmləndirilməsinə yönəlib.

Vurğulamaq lazımdır ki, 1960-cı illərdən multikulturalizm siyasəti həyata keçirən və ənənəvi immiqrantlar ölkəsi olan ABŞ, Kanada və Avstraliyadan fərqli olaraq, Avropa ölkələri kütləvi immiqrasiya ilə yalnız İkinci Dünya müharibəsindən sonra qarşılaşdılar. Odur ki, ABŞ, Kanada və Avstraliyadan fərqli olaraq, immiqrasiyanın Avropada milli dövlətlərin mədəni və sosial vahidliyinə təsiri başqa effekt verdi.

Keçmişdə millətlərarası münasibətlər sferasında zəngin neqativ təcrübəsi olan Avropa ölkələri kütləvi və tarixi baxımdan çox sürətli şəkildə öz ərazilərində fərqli etnik və dini identikliyə malik olan digər mədəniyyətə malik cəmiyyətlərin meydana gəlməsi ilə üzləşdilər. Belə bir şəraitdə dominant millətlərlə "əyalət"etnosları münasibətlərindəki problemlər (misal üçün, Böyük Britaniyada irlandlar və şotlandlar, Fransada korsikalılar, İspaniyada basklar və katalonlar və s.) öz yerlərini bəzi ölkələrdə de-fakto "paralel cəmiyyətlər" yaratmış böyük immiqrant icmaları ilə münasibətlər məsələsinə verərək arxa plana keçdi.

Qeyd edilməlidir ki, Avropa İttifaqı çərçivəsində yüksək dərəcəli inteqrasiyaya baxmayaraq, Avropa dövlətləri arasında immiqrantların inteqrasiyası ilə bağlı indiyədək vahid mövqe mövcud deyil. Bununla belə, vurğulamaq lazımdır ki, immiqrantların inteqrasiyası ilə bağlı multikultural siyasət həyata keçirən ilk Avropa dövlətləri Böyük Britaniya və Niderland olmuşdur. İ.Semenenkoya görə multikulturalizm siyasəti tərəfdarları müxtəlif dəyərlərin, təsəvvürlərin, ənənələrin, həyat tərzlərinin "mülki" millət çərçivəsində birləşdirilməsi mexanizmləri vasitəsilə fərqli mədəni və dini yönümlü individlərin, qrupların, cəmiyyətlərin birgə yaşayışının və qarşılıaqlı təsirinin təşkilini bu siyasətin əsas məqsədləri hesab edirlər [3, s.65].

Bununla belə, Böyük Britaniyada immiqrantların multikulturalizm strategiyası əsasında inteqrasiyası siyasətinə dair vahid mövqe formalaşmayıb. Hətta dövlətin immiqrasiya siyasəti və onun multikultural strategiyası ölkədə siyasi mübarizə obyektinə çevrildi. Multikultural strategiya tərəfdarları hesab edirlər ki, dövlət immiqrantların mədəni və digər identikliyinin tək qorunub saxlanılmasına deyil, həmçinin onların inkişafına yardım göstərməlidir. Başqa sözlə, dövlət milli azlıqların sosio-mədəni identikliyini dəstəkləyərək, cəmiyyətin differensiasiyasını stimullaşdırmalı və gücləndirməlidir.

Multikultural strategiyanın əleyhdarları bildirirlər ki, etnik azlıqlara, əsasən də qaradərililərə və asiyalı immiqrantlara əlavə xidmətlərin göstərilməsinə yönəlmiş multikultural proqramlar yersizdir və etnik cəmiyyətlərin nümayəndələri arasında fikir ayrılıqlarına və nifaqlara səbəb olur, bununla da etnik cəmiyyətləri bir-birinə qarşı qoyur. İmmiqrantların inteqrasiyasına dair multikultural strategiya cəmiyyətdə gərginlik atmosferinin və etnik, irqi və ya dini zəmində anklavların yaranmasına gətirib çıxarır [1, s.227].

Nəticədə, bir çox Avropa ölkələrində, o cümlədən Böyük Britaniyada dövlətin sosial və bəzən də hüquqi müstəvisindən kənar başqa mədəniyyət və sivilizasiya yönümlü cəmiyyətlər formalaşdı. Əsasən tək etnik deyil, həm də dini mənsubiyyət əsasında formalaşmış bu cəmiyyətlər öz mədəniyyətlərini yad əhatədə hiss edirlər.

Hesab edirik ki, multikulturalizm siyasətinin əsas neqativ nəticəsi vahid milli identikliyin olmamasıdır. Belə ki, vahid milli identiklik cəmiyyətə nəinki müvəffəqiyyətlə inkişaf etmək, həm də böhranlı hadisələrin qarşısını almaq imkanları yaradır. Multikultural strategiyanın tərəfdarları da vahid identikliyin mövcudluğunu zəruri hesab edirlər, lakin onlar identiklik adı altında siyasi identikliyi başa düşürlər. Buna dair B.Pareks qeyd edir ki, "Multikultural cəmiyyətin hər bir cəmiyyət kimi özünü qoruyub saxlamaq üçün çoxluğun bölüşdüyü dəyərlərə ehtiyacı var... Öz tərkibi çoxlu mədəniyyətlərdən ibarət olan belə mədəniyyət yalnız onların qarşılıqlı təsiri nəticəsində meydana gələ bilər və mədəni müxtəlifliyi dəstəkləməlidir" [10, s.7]. Beləliklə, bu yaxınlaşmaya əsasən multikultural cəmiyyətdə milli identiklik deyil, siyasi identiklik nəzərdə tutulur və hesab edilir ki, multikultural strategiya cəmiyyətdə etnik və mədəni müxtəlifliyi qoruyub saxlamaqla, mülki və ya siyasi millət institutunun formalaşmasına və möhkəmlənməsinə şərait yaradır.

Eyni zamanda qeyd edilməlidir ki, Fransa və Almaniya kimi Avropa ölkələrinin inteqrasiya siyasəti təcrübəsini assimilyasiya və multikulturalizm paradiqmaları çərçivəsində müəyyən etmək çətindir. Belə ki, misal üçün, Fransada inteqrasiya siyasəti immiqrantlar

birliyinə deyil, individuma yönəlib. Başqa sözlə, Fransada immiqrantların millətin tərkibinə daxil edilməsi onların inteqrasiyasının başlıca istiqamətidir. Fransa etnik dövlət prinsipini inkar edir və onu vətəndaşları fransız demokratiyası və liberalizmi prinsiplərini bölüşən dövlət ilə əvəz edir. Fransız dilini qəbul etmək və bilmək bu dövlətə mənsub olmanın yeganə sosiomədəni şərti hesab edilir. Rusiya tədqiqatçısı İ.Tsapenko bu inteqrasiya modelini “siyasi assimilyasiya” adlandırır. İ.Tsapenkoya görə siyasi assimilyasiyanın mahiyyəti ondan ibarətdir ki, dövlət formal olaraq etnik azlıqların xüsusi ehtiyaclarını tanımır və onları öz təcrübəsində nəzərə almır, bundan əlavə, etnik, mədəni və dini məsələlər immiqrantların sırf şəxsi həyat sferasına aid edilir, yeni vətəndaşların identikliyi isə onların etnomədəni və ya dini kökləri ilə deyil, ölkənin milli siyasi nizamı ilə müəyyən edilir [5, s.59]. Qeyd edilməlidir ki, siyasi assimilyasiya modeli adi və ya klassik assimilyasiya modelindən fərqli olaraq, immiqrantların yerli əhalinin etnosiyasi normalarını mütləq şəkildə qəbul etməsini nəzərdə tutmur.

Beləliklə, qeyd edilməlidir ki, Fransa etnik dövlət prinsipini inkar etməklə, rəsmi səviyyədə etnik və ya irqi qruplara bölünməni inkar etmiş olur. Bu yaxınlaşma kütləvi immiqrasiya nəticəsində ölkədə çoxlu sayda etnik, irqi və dini azlıqların meydana gəlməsinin inkar edilməsi anlamına gəlir. Bu isə ölkədə mövcud olan real vəziyyətlə ziddiyyət təşkil edir. Fransada 2005-ci ildə irqi zəmində baş verən toqquşmalar göstərdi ki, bu ölkədə uzun illərdən bəri həyata keçirilən bu siyasət səmərəli deyil.

Almaniyaya kütləvi immiqrasiya və böyük immiqrant diasporlarının formalaşmasına baxmayaraq hakimiyyət son dövrlərə qədər “etnik millət” prinsipindən imtina etmədi. Öz vətənlərinə repatriasiya olunmuş etnik almanlar inteqrasiya siyasətinin yeganə obyekti olaraq qalırdı. Bu siyasət əsasında XVIII əsrdə Rusiyada məskunlaşmış almanların nəsillərindən olanlar almanlar kimi tanınırlar və Almaniyaya immiqrasiya etdikdə avtomatik olaraq vətəndaşlıq alırlar. Əksinə, misal üçün, Almaniyada böyümüş, orada təhsil almış, alman dilini yaxşı bilən və orada iş tapmış türk immiqrantlarının davamçıları vətəndaşlıq almağa cəhd edərkən böyük problemlərlə üzləşirlər [4, s.65].

Son illər zorakılıq, terrorizm, qeyri-leqal immiqrasiyanın kütləvi xarakter alması və immiqrasiyanın digər neqativ nəticələri Avropa ölkələrində multikulturalizm siyasətinə münasibət dəyişikliklərə məruz qaldı. İnteqrasiya siyasətinin dəyişikliklərinin əsas istiqamətləri immiqrant qruplarına institusional dəstəyin göstərilməsindən imtina edilməsi, o cümlədən immiqrasiya və naturalizasiya sahəsində qanunvericiliyin sərtləşməsini əhatə edir.

Xarici ölkələrin immiqrantların inteqrasiyasına dair təcrübəsinin təhlili inteqrasiyanın hər iki kosepsiyasının – assimilyasiya və multikulturalizm – birmənalı olmadığını və ziddiyyətli olduqlarını göstərir. Hər iki konsepsiyanın neqativ və pozitiv nəticələrinin olmasına baxmayaraq, onların heç biri tam mənada millətin konsolidə olunması və digər mədəniyyətlərə münasibətdə tolerantlığın qorunub saxlanılması üçün kifayət deyil.

**İstifadə olunmuş ədəbiyyat**

1. Антонова В.К. Великобритания обречена на мультикультурализм или мультикультурализм в Великобритании обречен? // Журнал исследований социальной политики. 2003, т.1, №2.

2. Бубликов В.В. Ассимиляция или мультикультурализм – опыт зарубежных стран по интеграции иммигрантов. Вестник Томского Государственного Университета, 2008, №315.

3. Семененко И. Интеграция инокультурных сообществ в развитых странах // Мировая экономика и международные отношения, 2006, № 10.

4. Семененко И. Интеграция инокультурных сообществ в развитых странах // Мировая экономика и международные отношения, 2006, № 11.

5. Цапенко И. Развитые страны: интеграционная политика в отношении иммигрантов // Мировая экономика и международные отношения. 2008, № 3.

6. Щедрина О.В. Возможна ли мультикультурная модель интеграции мигрантов в России? // Социологические исследования, 2004, №11.

7. Хантингтон С. Кто мы?: Вызовы американской национальной идентичности. М.: АСТ; Транзиткнига, 2004.

8. Immigration and Ethnocultural Diversity in Canada // http://www12.statcan.gc.ca/nhs-enm/2011/as-sa/99-010-x/99-010-x2011001-eng.cfm#a2

9. Kaestle C. F. Pillars of the Republic: Common Schools and American Society, 1780-1860. N. Y.: Hill & Wang, 1983.

10. Parekh B. Rethinking Multiculturalism: Cultural Diversity and Political Theory. London: Macmillan.

**Сенан ФАРАДЖЕВ**

## ПОЛИТИКА МУЛЬТИКУЛЬТУРАЛИЗМА И АССИМИЛЯЦИЯ ЗАРУБЕЖНЫХ СТРАН В ОТНОШЕНИИ ИНТЕГРНАЦИИ ИММИГРАНТОВ

### Резюме

В данной статье рассматривается вопрос о миграционной политике в зарубежных странах. Этот процесс на современном этапе обрел ряд факторов, которые в первую очередь предусматривают ассимиляцию культур. Однако, эта политика строится на различных принципах, которые вступают в противоречия. Не случайно, эта политика обрела новый характер.

Например, политика интеграции в США. Первый этап этой политики был осуществлен в конце XIX - до середины XX вв, второй этап – с 60-х годов XX века - по сегодняшний день.

Как указывал С.Хантингтон, в США, лица не принадлежавшие к англосаксам, в последующем приняли культурные ценности данной группы населения и, таким образом, стали американцами и равноправными членами данного общества.

**Ключевые слова: мультикультурализм, ассимиляция, миграционноя политика**

**Senan FARACOV**

## ASSEMBLING AND MULTICULTURALIZATION POLICIES OF INTEGRATION OF FOREIGN COUNTRIES 'IMMIGRANTS

### Summary

In the given article the issue on migration policy in the foreign countries is conceded. This migration policy acquired a new series of the factors in modern stage, which in its turn, forces assimilation of cultures However, this politics has various principles and mainly contradict each their. It is not accidental that interpretation of multiculturalism of the migrants acquired a new character. For example, politics of migration of USA.

The first stage of this politics was realizing in the and of the XIX till the middle of the XX century, II stage – since 60-es of the XX century up to present.

As Huntington indicated, in the USA not belonging to the Anglo-Saxons, in the group of population, and so they have become Americans and equal members of the given society.

**Keywords: assembling, multiculturalization, migration policy**

**İSLAM FƏLSƏFƏSİ və DİNŞÜNASLIQ**

**UOT 297**

**Yasəmən QARAQOYUNLU**
**(MAHMUDOVA)**
*e.i., AMEA Fəlsəfə İnstitutu*

# İslam dövrü Azərbaycan mədəniyyətinin sosial - fəlsəfi xarakteristikası. Heterodoks İslam*.

## *Ortodoks və Heterodoks İslam anlayışı.*

Yaxın zamana qədər tarixdəki dini hərəkətlər "ortodoks" və "heterodoks" deyə iki başlıq altında tədqiq edilmişdir. "Doksi" (doxy) - latınca "dünyagörüş, doktrin, inanış" mənasını verir.

"Ortodoks"- bir cəmiyyətdə böyük əksəriyyətin doğru qəbul etdiyi əsas ana dünyagörüşdür. Qaydaları, qurumları (təşkilatları), kitabı müəyyənləşmiş, yazılmış, yayılmış dünyagörüşdür ( din, məzhəb). İslam cəmiyyətində ortodoks dünyagörüş dedikdə Sünnilik nəzərdə tutulur (6, s.22). "Heterodoks" - əksəriyyət tərəfindən "qəbul edilmiş və qurumlaşmış doktrin və dünyagörüşlə ziddiyyət təşkil edən, uyum halında olmayan" düşüncələrə, cərəyanlara deyilir. Ələvilik (Qızılbaşlıq) bu anlamda "heterodoks" bir məzhəbdir (6, s.22). Ortodoks və hetorodoks islam anlayışı, "İslamda baş verən parçalanma nəticəsində bir-birinə zidd olan 73 təriqətin" ortalığa çıxdığı dövrdən etibarən işlədilməyə başlamışdır. "İslam Təriqətləri haqqında yazan əl-İsfəraini, eş-Şəhristani, əl- Bagdadi kimi alimlər Hz.Məhəmmədə aid edilən, Ümmətin ayrılığa düşməsi haqqında "İsrail oğulları yetmiş bir firqəyə ayrıldılar, xristianlar yetmiş iki firqəyə ayrıldılar, ümmətim isə yetmiş üç firqəyə ayrılacaqdır" (1, s.5) hədisinə, yaxud "İslam Ümməti 73 firqəyə ayrılacaq və Qurtuluşa çatan Firqə (əl-Fırkatu`n-Naciyə) xaricində qalan 72 firqə cəhənnəmə gedəcəkdir" hədisinə istinad etməklə İslam təriqətlərini təsnifləşdirmişlər" (1, s.24). Bu hədisə əsaslanaraq 73 İslam təriqətindən "Cəhənnəmə gedən 72 təriqət"i Hetorodoks, "Cənnətə gedən 1 təriqət"i (**əl-Fırkatu`n-Naciyə**) Ortodoks islam kimi xarakterizə edə bilərik.

Əbu Mənsur əl-Bagdadi "Məzhəblər arasındakı fərqliliklər" əsərində islam təriqətlərini 3 bölümdə qruplaşdırmışdır. 1) Sapıq Təriqətlər; 2) İslama mənsub olmadıqları halda İslama aid edilən təriqətlər; 3) Qurtuluşa çatan təriqətlər.

### I. Sapıq təriqətlər.

**Sapıq təriqətlər bölümü** də 8 başlıq altında qruplaşdırılmışdır.

**1-ci qrup Rafavız:** 1) Zeydiyyə (Carudiyyə, Süleymaniyyə və ya Cəridiyyə, Butriyyə); 2) Keysaniyyə; 3) İmamiyyə (Kamiliyyə, Məhəmmədiyyə, Bakıriyyə, Navusiyyə, Şumeytiyyə, Ammmariyyə, İsmailiyyə, Musəviyyə, Mübarəkiyyə, Qatı`yyə, Hişamiyyə, Zurariyyə,Yunusiyyə, Şeytaniyyə);

**2-ci qrup. Xəvaric:** 1) əl-Muhakkimətul-Ula, 2) Ezarika, 3) Necedat, 4)Sufriyyə, 5) Acaridə- (1.Hzımiyyə, 2.Şuaybiyyə, 3.Xalifiyyə, 4.Malumiyyə- 5.Məchuliyyə), 6.Saltıyyə, 7.Hamziyyə, 8.Sealibə-(1.Mabədiyyə, 2.Ahnesiyyə, 3.Şeybaniyyə, 4.Rüşdiyyə, 5.Mukrimiyyə, 6.İbadiyyə, 7.Hafsıyyə-(1.Harisiyyə , 2.Ashabü Taat, 3.Beyhəsiyyə, 4.Şəbibiyyə)

**3-cü qrup. Qədəriyyə və Mötəzilə:** 1)Vasiliyyə, 2) Amraviyyə, 3) Huzaliyyə, 4) Nazzamiyyə, 5) Esvariyyə, 6) Muamməriyyə, 7) Bişriyyə, 8) Hişamiyyə, 9) Murdariyyə, 10)

---

* Məqalə fəlsəfə.ü.e.d., professor. Sakit Hüseynov tərəfindən çapa məsləhət görülüb.

Cəfəriyyə, 11) İskafiyyə, 12) Sumamiyyə, 13) Cahiziyyə, 14) Şahhamiyyə, 15) Hayyatiyyə, 16) Ka`biyyə, 17) Cubbaiyyə, 18) Behşəmiyyə.

**4-cü Qrup.Mürciə: 1)**Yunissiyyə, 2) Gassaniyyə. 3) Tüməniyyə, 4) Sevbaniyyə, 5) Mərisiyyə.

**5-ci Qrup.Neccariyyə**:1) Burğusiyyə, 2) Zafərniyyə, 3.Müstədrikə

**6-cı Qrup. Cehmiyyə-Bəkriyyə-Dırariyyə:**

**7-ci Qrup. Kerramiyyə:**

**8-ci Qrup.Müşebbihə.**

**II. İslama mənsub olmadıqları halda İslama aid edilən təriqətlər.**

Bu bölümə aşağıdakı qruplar daxildir: 1) Səbəbiyyə, 2) Bəyaniyyə, 3) Muğiriyyə, 4) Harbiyyə, 5) Mansuriyyə, 6) Cenahiyyə, 7) Hattabiyyə, 8) Qurabiyyə-Mufavvıda-Zemmiyye, 9) Şurayiyyə-Nemiriyyə 10) Hüluliyyə (Səbəbiyyə, Bəyaniyyə, Cenahiyyə, Xəttabiyyə, Şurayiyyə-Nəmiriyyə, Rizamiyyə, Mukannaiyyə, Hulmaniyyə, Həllaciyyə, Azafıra), 11) Ashabu`l-İbaha (Babəkiyyə, Maziyariyyə), 12) Ashabut-Tənasüh, 13)Habıtıyyə, 14) Himariyyə, 15) Yezdiyyə, 16) Meymuniyyə, 17) atiniyyə.

**III bölüm. Qurtuluşa çatan təriqət: Fırkay-i Naciyə.**

**Bu bölümə sünnət və camaat əhli (Sünni məzhəbi) daxil edilmişdir.** (1, s.6-8) Prof. Ethem Ruhi Fığlalının yazdığına görə, ədalət və tövhid, vəd, qədər, xeyir və şərin təqdiri, hidayət və dəlalət, iradə və idrak, peyğəmbərlik şərtləri və imamət haqqında fikir ayrılıqları İslamın təriqətlərə parçalanmasına səbəb olmuşdur.

Əl-Bağdadiyə görə, Peyğəmbərin Hədisində Qurtuluşa çatan İslam ümmətinə, "aləmin yaradılmış olduğunu, onu yaradanın birliyini, sifətlərini, ədalətini, hikmətini, Onun hər hansı bir şeyə bənzədiyini rəddetməyi və ...Məhəmmədin peyğəmbərliyini və onun risalətinin bütün insanları əhatə etdiyini, şəriətinin sonsuzluğunu və gətirdiyi şeylərin hamısının doğruluğunu, Quranın şəriət hökmlərinin qaynağı və Kəbənin namaz üçün qiblə olduğunu qəbul və təsdiq edən hər kəs" daxildir. Bütün bu xüsusiyyətləri təsdiq edən və küfrə götürə biləcək olan hər hansı bir bidətə uymayan hər kəs sünnidir və (Allahın Birliyinə inanan) müvahhiddir.

Əgər bu sözünü etdiyimiz məsələlərə, iyrəniləcək (qəbul edilməyəcək-Y.M) bir bidət əlavə edərsə, ...əgər o, Batıniyyə və ya Bəyaniyyə və ya Muğıriyyə və ya bütün İmamların Tanrılıqlarına, ya da bir qism imamların illahlıqlarına inanan Xattabiyyənin bidətlərinə və ya Hülul məzhəblərinə və ya tənasühə inananların firqələrinə və ya qızların qızları və oğulların qızları ilə evlənməyi uyğun görən Xaricilərin Meymuniyyə məzhəbinə və ya İbadiyyənin "İslam şəriəti axır zamanda qaldırılacaqdır" deyənYezidiyyə məzhəbinə inanırsa və ya Quranın haram qıldığını halal sayırsa və ya Quranın izahatında (interperetasiyasında-Y.M) ehtiyac duyulmayacaq bir şəkildə halal qıldığını haram sayırsa, İslam ümmətindən deyildir və onun heç bir dəyəri yoxdur.

Fəqət onun bidəti, Mutəzilənin və ya Xəvaricin və ya Rafızanın İmamiyyə qolunun və ya Zeydiyyə`nin və ya Neccariyyə, Cəhmiyyə, Dırariyyə və ya Mücəssimənin bidətləri cinsindən bir bidət isə, o kimsə bəzi baxımlardan İslam Ümmətindəndir; onun Müsəlman məzarlığına gömülməsinə izn verilir və müsəlmanlarla birlikdə savaşdığı təqdirdə qənimət və feydən payını almasına və məsciddə namaz qılınmasına əngəl olunmaz; amma bunlar xaricindəki hökmlərdə İslam ümmətindən sayılmaz, yəni nə cənazə namazı qılınır, nə də arxasında namaza durulur; nə kəsdiyi halal olur, nə də sünni olan bir qadınla evlənə bilər..." (1, s.13-14) Beləliklə aydın olur ki, Əl-Bağdadinin "Məzhəblər arasındakı Fərqlər" kitabının 1-ci **Sapıq təriqətlər bölümü** ilə 2-ci **İslama mənsub olmadıqları halda İslama aid edilən təriqətlər Heterodoks İslamı, 3-cü Qurtuluşa çatan təriqət isə ortodoksal İslamı təmsil etməkdədir.**

Əl-Bağdadinin “Məzhəblər arasındakı Fərqlər” kitabının türkcə nəşrinə ön söz yazmış türk alimi Ethem Ruhi Fığlalının yazdığına görə “bu hədisdə Peyğəmbər **Fırkay-i Naciyəni** “Mənim getdiyim yola və getdiyim yolda mənimlə bərabər gedən, məni təqib edən əshabımın yoluna uyanlar” adlandırmışdır. (1, s.25)

İmam Qəzali Peyğəmbər Yolunun (**əl-Fırkatun-Naciyə**) üç iman prinsipinin olduğunu yazmışdır: 1) Allaha iman, 2) Nübüvvətə iman ki, Mələklər və kitablara imanı da içinə alır, 3) Axirətə iman. Rəsulullah bu əsaslara inanan şəxslərin müsəlman...və mömin olacağını, bu əsaslardan birini və ya hamısını inkar edənlərin isə nə mömin, nə müsəlman sayılmayacağını bildirmişdir (1, s.25). XII əsr İslam İlahiyyatçısı aş Şəhristaninin (1153-cü ildə ölüb) fikrincə, İslamın dörd təməli vardır.

1.Allahın sifətləri və təkallahlılıq. 2.İnsan taleyinin öncədən müəyyənləşdirilməsi (Qədərə inam) və İlahi ədalət. 3.Vəd, qorxu, adlar, qərar. Bunlar inam, tövbə, qorxu, təxirəsalınma, inamsızlıqda günahlandırmaq məsələlərini əhatə edir. 4.Vəhy, ağıl, Peyğəmbərlik, imamət. Bunlara daxildir yaxşı və bəd əməllər, xeyirxahlıq, ən yaxşı olmaq, İlahi nemət, Peyğəmbərin günahsızlığı, imamətin şərtləri (15, s.28-29). Biz bütün bunları nəzərə alaraq qeyd edirik ki, Əl –Bağdadinin təsnifləşdirməsində qeyd edilən Peyğəmbər Yolu (**əl-Fırkatun-Naciyə**) Rəsmi İslam doktrininə, **Sapıq təriqətlər və İslama mənsub olmadıqları halda İslama aid edilən təriqətlər isə Sufizmin və İslam mistisizminin ( Heterodoks İslam) ideya qaynağına çevrilməklə İslam mədəniyyətinin formalaşmasında önəmli rol oynadılar.**

Yusif Rüstəmov Hilmi Ziya Ülkənə istinad edərək yazır: “Türk filosofu Hilmi Ziya Ülkən İslam dünyasında müxtəlif fikir cərəyanlarının və məzhəblərinin meydana gəlməsini İslamın əsas doktrinlərini təbliğ edən mədrəsə ilə sufizmi yayan və təşkilatlandıran təkkələr arasında yaranan uyğunsuzluqda axtarırdı. “Ona görə də ağılı və ruhu bir sistemdə birləşdirmək mümkün olmadı” (7, s.15). Bizə görə ağıl fiqhi və Mədrəsə İslamını, ruh xalq inanclarını, Təkkə İslamını təmsil edirdi. Türklərin İslam dinini qəbul etməsindən sonra İslam anlayışı türk toplumlarında müxtəlif formalarda izah edilmiş və qəbul edilmişdi. Bunlar Dövlət İslamı və ya Rəsmi İslam; Xalq İslamı və ya Ənənəvi İslam; Mədrəsə İslamı və ya Kitab İslamı; Təkkə İslamı və ya Mistik İslam anlayışlarını ehtiva edirdi. Dövlət İslamı və ya Rəsmi İslam “İslamın siyasiləşmiş formasına deyilməkdədir. Xalq İslamı “siyasi bir xüsusiyyət qazanmamış, yalnız bir sosial həyat tərzi olaraq qəbul edilən, yaşanan, kitaba əsaslanmaqdan çox, cəmiyyətin ənənəvi inanc və həyat tərzinin müəyyənləşdirdiyi, qismən xurafatla qarışıq müsəlmanlıq anlayışı və tərzi kimi qəbul edilməkdədir. Bu “türklərin qədim inanc və ənənələrinin şifahi bir mədəniyyət ünsürü olaraq İslam içində ön plana çıxdığı bir anlayış olub, adına Heterodoks İslam inancı da deyilməkdədir.

Qələndərilik, Bektaşilik, Ələvilik və Qızılbaşlıq bu inanc formasının içindən sıyrılıb çıxmışdır. 1.Osmanlı Dövlətinin yüksəliş illərində türkmənlərin oturaq həyata və hüquq dövlətinə, bürokratik şəhər mədəniyyətinə keçməsi nəticəsində formalaşmış mədrəsə İslamı (Fikh və kəlama əsaslanan islam) ortodoksal İslam anlayışını təmsil edir. Ortodoksal İslam türklər arasında XIV yüzilliyin ikinci yarısından sonra ağırlığını hiss etdirmişdir . Osmanlı dövründə “ ...Əhli-sünnət ənənəçiliyi içində bir şərhçilik və haşiyəçilik (təqlidçilik, yaradıcı yanaşmamaq) yolu müəyyənləşdirilmişdir. Osmanlı Mərkəzi idarəçiliyi müxtəlif siyasi və idarəetmə məqsədlərinin gerçəkləşdirilməsində bundan geniş şəkildə istifadə etmişdir.

Çöllərdə məskunlaşmış köçəri və yarım köçəri türklər arasında yayılaraq sistemləşən Təkkə İslamı, əski türk inancları və xurafatları, mistik hadisələr, ezoterik batini bilgilər üzərində qurulmuş Xalq İslamı anlayışı olub Heterodoks İslamı təmsil edir (8,s.363).

Heterodoks İslamla Ortodoks İslamın Fərqləri:

**Ələvilik-Qızılbaşlıq, Bektaşilik Sufi təriqətlərinin təməl Prinsipləri.**

Ələvi-Qızılbaşlıq İslamın bir məzhəbi kimi göstərilsə də, İslamla Ələviliyin təməl prinsipləri müqayisə edildikdə bu iki dünyagörüşün fərqli dinlər olduğu ortalığa çıxır. Dinlərin ən təməl prinsipləri olan **1.Yaradanın (Allahın,Tanrının) dərki və izahı, Allah haqqında təsəvvürlər; 2.Ölümdən sonrakı həyat (Axirət); 3. Kainatın, Dünyanın yaranması; 4.İnsanın yaranması haqqında ideyalar** qarşılaşdırıldıqda Ələviliklə İslamın fərqli baxışlara malik iki müstəqil dünyagörüş olduğu məlum olur.

**1.Yaradanın (Allahın,Tanrının) dərki və izahı, Allah haqqında təsəvvürlər;** İslam dinində Yaradılışın təməli Allahdır. Allah təkdir, doğmur, doğulmur. Allahdan başqa Allah yoxdur. Bütün Kainatı, dünyanı, İnsanı Allah yaratmışdır. Ələvi inancında isə Vəhdət-i Vücud (Varlığın birliyi) ideyası hakimdir.Yaradanla yaradılan birdir.Yaradılmışların bütünü yaradanın özüdür.

**2.Ölümdən sonrakı həyat**; İslamın təməl prinsipi olan Axirət inancı, Cənnət və Cəhənnəm inancı Ələvilik-Qızılbaşlıq dünyagörüşündə yoxdur. İslama görə dünya iki hissədən ibarətdir. Bu dünya, o biri dünya. Bu dünya insanın yaşadığı dünya, o biri dünya öldükdən sonra gedəcəyi dünyadır. İnsan öldükdən sonra ölməmişdən öncəki dünyada yaşadığı zaman kəsiyində etdiyi yaxşılıqlara görə o biri dünyada Cənnətə, pisliklərə görə isə Cəhənnəmə gedəcəkdir. Cənnət-Cəhənnəm ideyası Zərdüştlükdən alınaraq Sami tək Tanrılı dinlərə keçmişdir. Ələvilik-Qızılbaşlıqda isə Cənnət-Cəhənnəm anlayışı yoxdur, Dövriyyə anlayışı vardır, **Dövriyyəyə** inanılır. Dövriyyə-Reinkarnasyon ideyası, Yunan fəlsəfəsinin Misir kabbalizmi ilə sintezindən doğulmuş neoplatonik təlim olub İslam öncəsi əski təsəvvürlərdə əks olunmuşdur. Dövriyyə inancına görə İnsan öldükdən sonra müxtəlif biçimlərdə (bitki, heyvan, insan) yer üzündə təkrar vücud (bədən) tapacaq və yer üzünə bu gəliş-gedişlər İnsanın kamilləşəcəyinə (insan-ı Kamil) qədər sürəcəyinə və sonunda kamilləşən insanın gəldiyi qaynağa-Yaradana geri dönəcəyinə,Yaradanla bütünləşəcəyinə inanılır. Dövriyyə İslamın qəbul etmədiyi ideyadır. Dövriyyə inancı sufi ayinlərində Səma rəqsi vasitəsilə ifadə edilir.

**3.Dünyanın yaradılması**; İslam inancında Dünyanı, Kainatı Allah yaratmışdır. Ələvilikdə isə Yaradılış Ərşdə asılı duran bir qəndildən (Günəşdən) gələn işığın yer üzünə çatması ilə başlamışdır. İşıq ilə var olmaq Ələvi inancının əsasıdır.

**4.İnsanın yaradılması;** İslam dininə görə Allah ilk insanı, Adəmi torpaqdan yaratmış və Adəmin qabırğasından Həvvanı yaratmışdır. Ələvilikdə isə ilk insan Göydə toplanmış Qırxlar Məclisində Məclisin qərarı ilə Qırxlardan birinin qurban edilməsi və qanının yerdə "seçilmiş varlığa qatılması" ilə yaranmışdır (5, s.49-51). Bütün bu fərqlər ələvi-Qızılbaşlığın İslamın bir məzhəbi olmadığını, İslam içində "Gizlənmiş"qədim bir dünyagörüş olduğunu, özünü qorumaq üçün İslam donuna büründüyünü ortalığa qoyur. Ələvilik mistisizm donuna girərək İslam içində Sufizm hərəkatının doğulmasına səbəb olmuşdur.

Ələvi tədqiqatçısı Erik Cornellin yazdığına görə "...Özünü daha çox Sufi Mistisizmi içində ifadə edən kimi görünən bu dünyagörüş (inanış) Xristianlıq və İslamiyyətə də təsir etməklə bərabər, daha çox mədəniyyətlərin formalaşmasına təsir göstərmişdir. Kökləri çox qədim tarixlərə uzanan mistik bir qardaşlıq təşkilatı ilə yayılan bu dünyagörüş ... bir çox mədəniyyətlərin içinə gizlicə sinmiş və özünü gizliliklə qorumuşdu. Bu dünyagörüşün (inancın) adı Ələvilik və ya Qızılbaşlıqdır.

Ələvi-sufi təriqətləri Ortodoksal İslam müdafiəçiləri tərəfindən daim məruz qaldıqları qətliam və basqılardan qorunmaq məqsədilə, olduqları yerlərdə hakim dinlərlə uzlaşma yaratmaq məcburiyyətində qalmışlar" (5, s.29). Ələvilikdə bir deyim vardır. "**Yol bir, sürək min birdir".** Ələvi-Qızılbaşlıq içində yaranma şərtlərinə, yaşadığı coğrafiyaya və zamana görə formalaşmış Vəfai, Hürufi, Torlak, İşıq, Taxtaçı, Əxilik, Abdal, Qızılbaş, Bədrəddini və başqa adlarla tanınan cox sayda sürəkləri (cərəyanları) olmuşdur (5, s.25). Ələvilər sosial təşkilatlanma sistemi içində "**Ocaq"lara** bağlıdırlar. "Ocaq sistemi" ələvilərin təşkilatlanma

formasıdır. "Ocaq sistemi" içində bu sistemin dini və sosial liderliyini həyata keçirən "**Dədəlik qurumu"** təməl bir əhəmiyyətə (önəmə) malikdir. Dədələr ocaqların və bu ocaqlara bağlı Ələvilərin ruhani liderləridir. Dədəlik bir ailə təşkilatıdır və qan bağlılığına söykənərək irsən atadan oğula keçir. Ələvi dədələrinə Ocaqzadə (ocaqdan doğulan) deyilir. Ələvi dədələri sahib olduqları ruhani səlahiyyət və haqlılıqla Ələvilərin sosial həyatlarını və yaşam prinsiplərini, qanunlarını tənzimləyən yeganə güc olmuşlar. Dədələr və dədələrin rəhbərlik etdiyi ocaqlar üç iyerarxik quruluşa əsaslanaraq təşkilatlanmışlar. Mürşid, Pir, Rəhbər. Rəhbər Pirə, Pir Mürşidə bağlıdır. Bu iyerarxiya bir- birini tamamlayaraq bir bütün yaradır.

Dədəlik-Vəzifə başındakı (posta oturmuş, post-nişin) dədələrin ən əsas vəzifəsi dədəlik vəzifələrinin yerinə yetirilməsidir. Bu vəzifələrə Ələvilər arasında "**Cəm yürütmək və talip görmək"(**Cəm ayinlərini aparmaq və tələbə yetişdirmək) və ya "**Cəm cəmaat görmək**"deyilir. Ələvi ərkanı (seçilmişləri-Y.M) içində Ələvi dədələrinə verilmiş ən önəmli vəzifə, Ələvi inancını yeni nəsillərə gizlilik içində (simvollarla-Y.M) və sirr pərdələri altında çatdırmaqdır. Əsas iş bu vəzifənin yerinə yetirilməsidir. Bu vəzifənin yerinə yetirilməsi üçün gərək olarsa hər şeydən vaz keçilir. Bu təməl düstur Ələvilik içində "**Yol cümlədən uludur**" və ya "**Könül qalsın, yol qalmasın"** cümlələri ilə ifadə edilir. Ələvi yolu içində ocaqlar müstəqildir, biri digərindən üstün tutulmaz, ocaq iyerarxiyası içində ocaqlara "**Əri ərdən seçən kordur**" prinsipi qorunmaqla heç bir fərq qoyulmaz, (4, s.65). Ələvilər özlərini "**Güruh-u Naci**", "**Zümre-i Naci**" və ya "**Ümmet-i Naci"** adlandırırlar ki, mənası seçilmiş və ya qurtarılmış camaat, topluluq deməkdir.

Arzulayıb gəldim devr-i aləmdən
Ey Güruh-u Naci sizə eşq olsun
Nəsihəti böylə aldım dədəmdən
Ey Güruh-u Naci sizə eşq olsun (4, s.64).
*Sərsəm Əli Baba.*

Ancaq Ələvi ata-anadan doğulanlar Ələvi ola bilər. Lakin bu yetərli deyildir. Ələvi ola bilmək üçün eyni zamanda "**Yola Girmək**", "**İkrar vermək"** və "**Müsahib edilmək**" gərəkdir. Ələvi ailəsində doğulan hər bir şəxs bir "rəhbər"lə bərabər ikrar vermə Cəm`ində ikrar verərək yola girər. Yola girən şəxsə "**Talib"** deyilir. İkrar vermə bütün ələvilərin "**Yol"**a qəbul edildikləri mərasimdir. Müsahib edilmək Ələviliyin yeddi Fərzindən biridir. Müsahib edilmək kişi üzvlər arasında fərz qılınmışdır.

İkrar verib Yola girən ələvi bütün yaşayışı boyunca ələvi inancının disiplinlərinə uymaq məcburiyyətindədir. Ələvi yoluna və ərkanına zidd davranan şəxslər "**düşkün**" elan edilərək ələvi cəmiyyətindən xaric edilir. "**Düşkünlük**" ələvilərdə ən agır cəzadır. Ələviliyə qəbul edilən şəxs ələvi yolu içində ələvi inancını öyrənmək üçün dörd qapıdan (dərəcədən) keçmək məcburiyyətindədir. Bu qapılar **Şəriət qapısı, təriqət qapısı, Mərifət qapısı, həqiqət qapısı** adlanır. Hər qapının on məqamı (mərhələsi) var. Bu qapılar Sirr pərdələri kimidir. Ələvi sirlərinə çatmaq üçün dörd qapıdan,qırx məqamdan keçmək gərəkdir. Həqiqət qapısının onuncu məqamında şəxs (Yolçu-Y.M) **Sirr-i Həqiqətə** çatır. Bu məqam şəxsin "**Yaradan içində ərimәsi"** halıdır.

**Şəriət qapısının** müridlərinə "**Bel oğlu" deyilir** və səmavi dinin (İslamın-Y.M) şəriətinə (qayda qanunlarına) uymaq məcburiyyəti sadəcə bu qapıda vardır.

İkinci qapı **Təriqət qapısıdır**. Təriqət yol deməkdir. Bu qapının müridlərinə "**yol oğlu"** və ya sevən dost mənasını verən "**Mühip"** deyilir. Bu qapıda İslam dininin bütün qaydaları (Şəriət) tərk edilir. Üçüncü qapı **Mərifət qapısıdır**. Bu qapının müridlərinə "**Dərviş"**deyilir. Bu qapıda Dərvişlərə Yaradan ilə Yaradılanın Birliyinin (Vəhdət-i vücud) mənaları öyrədilir. Dördüncü qapı **Həqiqət qapısıdır**. Həqiqət qapısı kamil insan dərəcəsidir. Bu qapının müridlərinə "**Baba**", "Ərən" deyilir. Bu qapıda "**İnsan-i kamil**" Yaradan ilə bütünləşmişdir.

İnsan Şəriət qapısında Adəm oğludur
Təriqət qapısında Yol oğludur
Mərifət qapısında Kamil insandır
Həqiqət qapısında Göy oğludur (4, s.64).
Və yaxud Bektaş Əli Təmələ aid olan başqa bir Nəfəsdə deyilir.
Şəriətdə Adəm oğluyam
Təriqətdə yol oğluyam
Mərifətdə Kamal oğluyam
Həqiqətdə göy oğluyam
Atam göy anam Yer (4, s.182).

Ələvi **Ayin-i Cəmi** Ələviliyin təməl daşıdır. Ələviliyi bütün səmavi dinlərdən fərqləndirən iki özünəməxsus inanc təməli vardır. 1.**Yaradılış** 2.**Varlığın Birliyi (Vəhdət-i Vücud).** Ələvi ayin-i Cəmi və Ələvi inancının təməl əsasları hesab olunan Yaradılış və Varlıgın Birliyi ideyaları bir-birini tamamlayan bütünün parçalarıdır. Bir sistemli dünyagörüşdür.

Ələvi nəfəslərində əks olunmuş **Ələviliyin yaradılış inancına görə, yaradılış üç mərhələ, üç dövr keçmişdir; Dünyanın ortaya çıxışı, dövriyyə, insanın yaradılması (xəlq edilməsi).** Ələvi inancına görə Kainatın ortaya çıxması, özündən başqa bütün maddələri yox edəcək, genişlənən və yüksək istilik halında olan işığın partlaması nəticəsində baş vermişdir. Bu partlama nəticəsində bir neçə mərhələdən keçərək günəşdə toplanan enerji, burada yanaraq işığa çevrilmiş və Yer üzünə çataraq dünyada həyatın əsasını qoymuşdur. Yer üzündə həyat, yaşam formaları, təkamül yolu ilə çoxalmış, çeşidlənmiş, öncə cansız varlıqlar (hərəkətsizlər) ortaya çıxmış, sonra bitkilər, heyvanlar və nəhayət insan meydana gəlmişdir. Ələvi inancı yaradılışdakı bu təkamül mərhələlərini **Dövriyyə** adlandırır.

**Ələvi inancında İnsanın yaradılışı.**

**“Tanrı insanı öz surətində yaratdı”.**

***Tövrat-Yaradılış kitabı.***

İnsanın yaradılışı Ələviliyin “**Sirr-i Həqiqət**”lərindən biridir. Bu ilahi bir sirdir və Ələvi yolu içində, dörd qapı (Təriqət, Şəriət, Mərifət, Həqiqət), qırx məqamdan keçərək kamilləşən və aydınlanan, bu sirri daşımağa qadir olan şəxslərə (mürid məqamından mürşid məqamına yüksələnlərə-Y.M) verilir. “**Sekahum sirri”** adlanan bu inanca görə, insan yaradılış təkamülünü bir başqa planetdə tamamladıqdan sonra, özünü Öz ( Mən, Can, Ruh) və surət olaraq, yer üzündəki insanı (insanabənzər-Y.M) varlığa genetik yolla transfer etmiş, onun içində yerləşmiş və beləliklə yer üzünə enmişdir (4, s.72). Ələvi inancına görə insan iki mərhələdən keçərək yaradılmışdır. Birinci mərhələdə insan bədənləşməmiş bir enerjidir, işıqdır (**nur-i kadim).** İkinci mərhələdə insan dövriyyə yolu ilə, təkamül mərhələlərini keçərək vücud (bədən) qazanmış və cism kimi ortaya çıxmışdır. İnsanın bu iki yaranma mərhələsi Ələvi Yunus Əmrə, Pir Sultan Abdal, Qul Nəsimi, Səfil Sadık, Aşıq Sənəm, Yeksani, Qul Himmət, Gufrani, Şah İsmayıl Xətai kimi Ələvi şairlərinin və ozanlarının nəfəslərində, şerlərində əks olunmuşdur (4, s.72). Ələviliyə görə, minlərcə ildir insan nəsnədən bitkiyə, bitkidən heyvana, heyvandan insana, insandan kamil insana doğru bir yol keçib, dövriyyənin tamamlanması qayəsini təmsil edir. Dövriyyə prosesi içində olan insanın yaradılışının tamamlanması üçün dünyadan kənardakı varlıqlar tərəfindən insana genetik müdaxilə olmuşdur. Ələvi inancına görə Göydə külli-aləmi idarə edən Qırxlar Məclisi fəaliyyət göstərir. İnsana genetik müdaxilə bu “Qırxlar məclisi”nin üzvlərindən birinin qurban seçilməsi və qanının Yer planetindəki insana vurulması ilə insanın yaradılması tamamlanmışdır. Insanın yaranması haqqında məhz bu Ələvi düşüncəsi Səmavi dinlərin və elmi nəzəriyyələrin irəli sürdüyü baxışlardan fərqlidir. Bizim fikrimizcə Ələvi inancındakı “Qırxlar məclisi” haqqındakı anlayış paqanist

mədəniyyətin Tək Allahlı mədəniyyət içində gizlicə ifadə olunmasıdır. Ələvi inancına görə ilk insan bir başqa aləmdə, Yaşıl planetdə təkamül yolu ilə ortaya çıxmışdır.Yer planetində ilk insanın ortaya çıxması isə, dünyadan kənardakı insanların (bəzi ələvi deyimlərində isə mələklərin) yer üzündəki təkamül prosesi keçirən insana genetik müdaxiləsi yolu ilə olmuşdur. Bu genetik müdaxilə ilə yer üzündəki insana özünü transfer edən dünyadan kənardakı varlıq bu genetik transfer ilə yer üzündəki insanın içində özünə yer tapmışdır. Lakin sonradan İnsanın yaradılışı və Qırxlar Məclisi haqqındakı bu paqanist inanc İslam ilə sintez olunduğu üçün Qırxlar Məclisinin qərarı ilə Qırxlardan birinin seçilərək qurban edilməsi və qanının insana vurulması ilə insanın yaradılışının tamamlanması prosesində iştirak edən varlıq-qurban, Cəbrayıl adını almışdır. (Bu ideya Xristianlıqda İsanın qurban edilməsi ideyası ilə yaxınlıq təşkil etməkdədir). Beləliklə qeyd edilməlidir ki, Ələvi baxışlarında yaradılışın yer üzündən başqa bir aləmdə başladığı, insanlığın başlanğıcının üzərində yaşadığımız planet olmadığı haqqında təsəvvürlər mövcuddur. Qul Himmət bu təsəvvürü aydın ifadə etmişdir.

“Yox ikən yer ilə göy,
Mən əzəldən var idim” (4, s.88).

Ələvi **nəfəs**lərində dünya mövcud olmamışdan çox əvvəl insanın atasının yaşıl planetdə, cism kimi mövcud oldugu yazılmışdır. yazır.

“...Dünya qurulmadan yüz min il əvvəl
O yaşıl qəndildə cismimiz vardır” (4, s.89).
*Aşıq Devrani*

“Xəlq etmədən ərş-i kürsi aləmi
O yaşıl qəndildə verdik salamı” (4, s.89).
*Pərvanə.*

Saysız Ələvi nəfəslərində insanın qədim atası olan varlığın, ilk öncə yaşıl bir planetdə olduğunu, sonradan məkansız qaldığını və yer üzünə gələrək dünyanı məkan tutduğu təsvir edilir.

“La məkan elindən qonaq gəldim
Bu fani mülkünə basdım qədəmi
Haranın salamını gətirdin desən
Elest-i bəzmindən endik bu dəmə
(Qırxlar toplantısından endik bu zamana)
*Pir sultan Abdal.*

Elmi mülahizələrə görə “Üzərində yaşadığımız Yer planeti 4.6 milyard il öncə yaranmışdır. Insanın bir cism olaraq bu yer üzü qurulmadan öncə mövcud oldugunu önə sürən Ələvi nəfəslərinə görə, insan bu dünyada ən azından 4.6 milyard il öncədən bəri var idi (4, s.90). Ələviliyə görə ilk insan ərşdə qurulmuş **Qırxlar Məclisində** Qırxların qərarı ilə Qırxlardan birinin özünün və surətinin yer üzündən seçilərək ərşə yüksəldilmiş varlığa qatılması ilə yaradılmışdır.

Bu **Qırxlar məclisində** insana qatılmaq üçün seçilmiş qırxlardan biri Ələvi nəfəsində belə anladılır.

Güruh-u Naciyə (Seçilmiş insana-Y.M) özümü qatdım
Insan sifətində çox gəldim getdim
Bülbül oldum firdevs bağında ötdüm
Bir zaman gül için zarə düş oldum
Bir zaman gül üçün Haydar Haydar
Zarə düş oldum (4, s.91).
*Sıdqı Baba*

**Haydar** Ələvilikdə yaradanın xüsusiyyətlərini İnsanda əks etdirən addır. Hay yaradan deməkdir. Dar şəkilçisi sifət sözlər yaratmaq üçün türk dilində işlənən şəkilçidir (bayraq-bayraqdar, möhür-möhürdar). Haydar, Hayı –Yaradanı özündə gəzdirən, əks etdirən mənasındadır. Ələvi nəfəslərində insanın yaradılışı və yaradanla yaradanın birliyi haqqında təsəvvürlər şifahi şəkildə dastanlaşıb və belə təsvir olunur. "Yer və Göy qurulduğu zaman başlanğıcda Tanrısal sirr mənəvi bələdçiyə verildi və ona (Allah tərəfindən-Y.M) "sən kimsən, mən kiməm" sualı verildi, sual soruşulduğu anda O, (Mənəvi bələdçi) qan içində qaldı.

Mənəvi bələdçi olan Cəbrail (Allaha-Y.M) "sən sənsən, mən mənəm" dedi. Bu mürşidinin (Allahın-Y,M) əmrinə uyğun cavab deyildi. (Bələdçi-Y,M) On dörd min il havada dolandıqdan sonra, boyun əymə nöqtəsinə çatdı dayandı. O zaman qaipdən bir səs gəldi, ya Cəbrail sözlərimə inan, sən yaradansan mən yaradılanam de həmən. (Cəbrail bu sözləri dedikdən sonra-Y.M) Qara rəngi qırmızıya boyandı.

Mürşidlər yeddi qat yeri aradılar nə dağ qoydular, nə daş, nə mərmər, yaradan insan da gizləndi, göydə uca məqamı arayanlar boşa yoruldular.

Seçilmiş varlığa (güruh-i naci) özünü qatan "Qırxlardan biri" Yaradanın "sən kimsən, mən kiməm" sualına "Sən sənsən, mən mənəm" cavabını verməklə öncə yaradana asi olmuş, sonra "Sən yaradansan, mən Yaradılanam" deyərək boyun əyərək Qırxlar məclisində hüzura gəlmiş, burda "Qırxların qərarı"ilə seçilərək, qurban edilmiş, qanı axaraq insanla birləşmişdir (4, s.92).

Bu hekayədə insanla birləşən "**Qırxlardan biri**" İslam təsəvvürlərinin Ələvilikdə ağırlıq qazanmağa başladığı XVI əsrdən etibarən **Cəbrail** adlanmışdır. XVI əsrdən əvvəl isə Ələvi deyimi ilə "**Qırxlardan biri"** adlanmışdır. **Cəbrailin** ilk insana (**Heydər/ Adəm**) özünü qatması Ələvi deyimlərində Cəbrailin Adəmə **qardaş olması** və ya **Şahid olması** terminləri ilə ifadə olunur.

Cəbrail Adəmə şahid olmadan,
Qübbe-i Rəhmanda təktik ərənlər (4, s.94).
*Davud Sulari.*

Cəbrailin ilk yaradılmış İnsana (Heydər/Adəm) qardaş olması Ələviliyin içindəki **müsahiblik** adətinin başlanğıcı olmuşdur. **Müsahiblik** adəti (Ənənəsi) Ələvi inancının yeddi təməlindən (Fərz) biridir (4, s.94). İrene Melikoffaya görə "Necə Ayin-i Cəm o biri Aləmdəki "Qırxlar Cəm-inin yerdəki bir təkrarlanışıdırsa, din qardaşlığı-Müsahiblik də zaman və məkan xaricində olmuş və bədənləşmənin (Cəbrailin qurban edilməsi və insanla birləşməsi nəticəsində insanın bədənləşməsinin-Y.M) Dövriyyəsinə (mərhələlərinə-Y.M) görə yaranmaqda olan bir adətin yer üzündəki izidir" (9, s.270). Müsahib Ayin-i Cəmində hər dəfə daim təkrarlanan "**Mənim qanım sənin qanın, mənim ətim sənin ətin, mənim ağlım sənin ağlın, mənim ruhum sənin ruhundur"** sözləri Qırxlar məclisində İnsanın yaradılma Dövriyyəsi içində, özünü "**Yaradanın özü**" qatılmış "**Seçilmiş varlığa" (heydər-insan)** qatan "**Qırxlardan biri"nin (Cəbrail) Heydərə (İnsana**) söylədiyi sözləri əks etdirir (9, s.270). Ələvi Hekayələrində insanın yaradıldıgı (xəlq edilməsi) Qırxlar məclisində "**Özün özə" (**Cəbrailin İnsana qatılması) qatılması üçün "**Qırxlardan biri" (Cəbrail)** qurban edilmişdir. Ələvi deyimlərində, İnsanın yaradılması zamanı başqa dünyanın varlıqlarının (Qırxlar Məclisinin) insana genetik müdaxiləsi (Cəbrailin qanının insana qarışması) baş vermiş, yaradılış tamamlanmışdır. Özün özə qatılması, bir candan başqa cana keçmə (Reinkarnasiya - Cəbrailin, "qırxlardan biri"nin insan bədəninə keçməsi) qan vasitəsilə olmuşdur.

Ələvi nəfəslərində genetik dövriyyənin (davam etmənin) qan vasitəsilə olduğu və qurban edilənin (Qırxlardan birinin) yeni yaranan insanda həyat tapmasına dair çoxlu örnəklər vardır.

Adəm olub insan içinə gəldim
Gerçək nəsib eylərsə Qandan içəri

Məcnun kimi qandan-qana gəzərkən
Bir qana uğradım qandan içəri (4, s.95).
*Virani.*
Qırxların qəlbi durudur
Gələnin qəlbin arıdır
Gəlişin qandan bəridir
Söylə sən kimsən dedilər (4, s.96).
*Xətai.*
Naci derlər bir güruha uğradım
Hər biri birinin almış əlini
Məkanımız qanda dedim söylədim
Məkan tutmuş həqiqətin elimi (4, s.97).
*Xətai.*

İnsanın yaradılarkən "qan yolu ilə edilən genetik dövriyə (Genetik transfer) zamanı genləri (özü və surəti) seçilmiş varlığa transfer edilən Qırxlardan biri qurban edilmişdir. Ancaq bu qurban edilmə bir yox olma demək deyildir, qurban edilən varlıq (qırxlardan biri) bir başqa varlığın (Heydər) içində yaşamaga davam etmişdir. Ələvi deyimləri bu vəziyyəti "**Ölmədən ölmək"** kimi izah edir.

Ölməzdən əvvəl ölmüşük
Vasil-i can olan can olur (4, s.97).
*Xətai.*

Ələvilərdə "**Öncə can, sonra can içindəki can**" deyimləri, qırxlardan birinin Adəmdə yaşaması təsəvvürünü əks etdirir. Hacı Bektaş Vəli Qırxlar məclisində insana edilən bu genetik transferi belə izah etmişdir.

"**Həm can var, həm canın canı var, indi əzizim, can ikidir. Biri candır, biri can-ı candır**" (10, s.60-67).

"Məni məndə demə məndə deyiləm
Bir mən vardır məndə məndən içəri (4, s.100).
*Yunus Əmrə.*
Bir can var canında, o canı ara.
*Cəlaləddin Rumi*

"**Can içindəki can**" inancı ələviliyi səmavi dinlərdən fərqləndirən əsas cəhətlərdən biridir.

"Haq buyurdu, mən səndəyəm, sən məndə (4, s.102).
*Gənc Abdal*

Ələvi inancına görə, Qırxlardan birinin "**Özü" (Məni, Ruhu**) "**seçilmiş varlığa" (Güruh-i Naci), Heydərə (Adəm)** qatılmış və onun canı, seçilmiş varlığın canı içində hər zaman yaşamaya davam etmişdir. Əsas olan, içimizdəki o canı aramaq, tapmaq, hiss etmək, dərk etməkdir (4, s.94). Erdoğan Çınar Ələvilikdəki insanın yaradılma təsəvvürlərinin Şumer dastanlarında əks olunmuş yaradılış təsəvvürləri ilə eyniyyət təşkil etdiyini yazmaqdadır. "Şumerlər eynən ələvilər kimi, ilk insanın dünya xaricindən gələn varlıqlardan birinin özünü yer üzündən seçilmiş bir varlığın içinə qatması ilə xəlq olduğuna inanırdılar...şumer Yaradılış Mifi`ndə belə bir bölüm var.

"Bir Tanrı qurban edilsin
Beləcə Tanrılar onda yıxanıb arınacaq
Onun əti və onun qanıyla
Nintu gili qarışacaq
Beləcə Tanrı və İnsan qarışacaq...

"O tanrının ətində bir ruh vardır
O`nun işarətləri yaşayanlarda açığa çıxacaq
Beləcə bu ruhun var olduğu unudulmayacaq" (4, s.99).

Bu Şumer şer parçasında ifadə olunan fikirlər sonralar Xristianlıqda əks olunaraq İsanın qurban edilməsi ilə insanlığın günahları yuyulmaqdadır fikri kimi qarşımıza çıxmaqdadır..

**Ələvi inancında Kainatın yaradılması.**

Zamandan öncə, çatılması mümkün olan ən qədim keçmişə gedildiyində qarşımıza "**Biq-banq"** deyilən böyük bir partlama çıxar. Kainatın başlanğıcını təşkil edən böyük partlamadan əvvəl, çox parıltılı isti və böyük bir işıq (işıq topası-Y.M) var idi. Kainatda mövcud olan hər şeyin əsli, əsası bu işıqdır. Bu işıq hər şeyin öncəsində, Şərqdən Qərbə, hər yeri qaplamışdı (örtmüşdü).

Yüz iyirmi dörd min peyğəmbər əvvəli
Qurulmadan bu dünyanın təməli
Ay,Gün yayılmazdan(çıxmazdan) əvvəli
Məğribdən məşriqə doğan nur nədir?
*Qul Hümmət.*

Sonra böyük partlama oldu. Böyük partlamadan öncə , mövcud olan işıq topası haqda müxtəlif təsəvvürlər vardır. Jaques Girardon partlamadan əvvəlki bu işıq topası haqda yazır. "O çox təəccüblü bir an idi, böyüklüyü və İstiliyi o qədər yüksək idi ki, maddənin özü belə yarana bilmirdi. İşıqdan başqa bir şey yox idi. Bektaşiliyi sistemləşdirən və Hacı Bektaş Vəlidən sonra Bektaşi təriqətinin Babası olan Balım Sultan özündən başqa hər şeyi udan bu işıq haqqında belə deyir:

"O nəsnə nə idi Cahanı uddu?
Cahanı udandan xəbər ver indi"
*Balım Sultan.*

Ələvi inancına görə, Kainatın yaradılışı "**Uca bir nurdan fışkırma (böyük partlayış-biq banq)** ilə başlamışdır. Bu nurdan gəliş hər şeyin əslinə dönüşünü bildirən ilahi qanunun hökmü gərəyi, Nura geri dönüş ilə nəticələnəcəkdir.

Yunus Əmrə Ələvilikdəki yaradılış inancını belə ifadə etmişdir.

Yeddi göy yaradıldı işıq ilə bünyad oldu.
Torpağa nəzər qıldı, aksırıb durugəldim.
(Yeddi göy gurultu ilə fışqıraraq gələn işıqla yaradıldı) (4, s.73).

Kainatın və dünyadakı yaradılışın başlanğıcdan bu günə qədər olan bütün mərhələləri Ələvi nəfəslərində elmi biliklər şəklində yer almışdır.

Günümüzdən on iki milyard il öncə maddəni əridən o ən geniş, ən parlaq, ən isti işıq partlayaraq dağıldı. Bu partlamadan kainat doğuldu. İnsanlığın bilə bildiyi bu ən qədim keçmişdən sonra ortaya çıxan bir ulduzun daha sonra dağılması ilə yaranan qaz buludundan günəş və dünyamız meydana cıxdı. Günəşdə olan, yanaraq işığa dönən, dünyadakı yaşayışın başlanğıcı və səbəbi olan enerji, böyük partlayışdan öncə əsil qaynaqda idi. Bu enerji böyük partlamadan sonra bir ulduzda toplandı. Bu ulduzun dağılması ilə enerji günəşə keçdi və burada yanaraq işıga döndü və yer üzünə çataraq yaşayışı başlatdı (4, s.74).

Bir qəndildən bir qəndilə atıldım
Turab oldum yer üzünə saçıldım
Bir zaman haqq idim haqq ilə qaldım
Könlümə od düşdü yandım da gəldim
*Xətai.*

Qəndil ələvi terminalogiyası içində ulduz, günəş və planet mənasında işlədilir. Xətai bu dördlüyündə kainatın və yaradılışın qısa xülasəsini ortaya qoymuşdur (4, s.75). Ana qaynaqdan

(İşıq topasından) qopan enerji, 7.4 milyard il boyunca bir və ya bir neçə dəfə, bir günəşdən qoparaq başqa bir günəşdə toplanmışdır. **(Bir qəndildən bir qəndilə atıldım).**

Ələvi inancına görə Yer üzü daha yaxın zamana qədər söyləndiyi kimi soyuyan bir parçanın günəşdən qopması ilə vücuda gəlməmiş, dağılan bir ulduzun toz buludu içindəki mikrondan kiçik kosmik tozlarının bir araya gəlməsi ilə yaranmışdır. (**Toz oldum yer üzünə saçıldım**.)

Günəşin içindəki Hidrogenin yanaraq Heliyuma çevrilməsi ilə ortaya çıxan böyük enerji, işıq şəklində yer üzünə gəlir. (**İçimə atəş düşdü yandım da gəldim).**

Günəş və dünya 4.6 milyard il öncə eyni zamanda ortaya çıxmışdır. Ancaq dünyada yaşayış şərtlərinin yaranması üçün müəyyən bir zamanın keçməsi tələb olmuşdur. Bu zaman ərəfəsində dünyadakı yaşayışın əsli olan enerji günəşdə qalmışdır. (**Bir zaman gerçək idim, gerçək ilə qaldım**) (4, s.76). Başlanğıcda günəşdəki enerjinin dünyada yaşayışın əsasını qoyması üçün uyğun ortamın olmadığı və yer üzündə uyğun şərtlərin olması üçün yüz minlərcə il keçməsi gərəkdiyi bir çox ələvi nəfəsində təkrarlanmışdır.

Neçə yüz min illər qəndildə durdum
Atanın belindən anadan gəldim
*Qul Hümmət*

Günəşdə keçən yüz minlərcə il ərzində, fövqəladə hadisələr yaşandı. Bu fövqəladə hadisələr, yer üzünü və yer üzündəki yaşayışın təməlini qoydu.

Neçə yüz min dəfə kəramət tapdım
Qəndilin içində durduğum zaman
*Pərvanə*

Əsil qaynaqdan qopub gələn və günəşdə toplanan enerjinin yer üzündəki yaşayışın başlanğıcı və əsli olduğu ələvi nəfəslərində ifadə edilmişdir.

Haqq bizi yoxdan var etdi
Şükür yoxdan vara gəldim
Yeddi qat ərşdə asılı
Qəndildəki nura gəldim
*Pir Sultan Abdal*

Ələvilik dünyagörüşündəki Yaradılış haqqında təsəvvürlər bir dini inancdan daha çox elmi mülahizələr xarakteri daşıyır. Ələvilər Yaradılış haqda bu elmi mülahizələrini **"Gerçək"** adlandırırlar. Buna görə də ələvi Gülbənkləri (dua) "Gerçəyin dəminə hu" cümləsi ilə başlayır.

Hu deyəlim gerçəklərin dəminə,
Gerçəklərin dəmi nurdan sayılır (4, s.78).
*Xətayi*

**DÖVRİYYƏ. (Reinkarnasiya).**

Ələvi dünyagörüşündə insan ruhunun əsil qaynağı olan gerçək varlıqdan (Vücud-u Mutlak) ayrılıb, təkrar ona dönənə qədər keçirəcəyi mərhələlərə "Dövriyyə" deyilir.

İnsan, atanın belinə və ananın bətminə düşməmişdən əvvəl, öncə cansızlar (hərəkətsizliklər), sonra bitkilər və heyvanlar aləmindən keçər. İnsan, cansızlar, bitkilər və heyvanlar aləmindən öncə dörd qüvvətin içindədir.

Bu dörd qüvvət torpaq, su, hava və atəş ilə təmsil olunur. İnsanın dörd qüvvətdən öncəki halı isə nurdur (işıqdır). Nur isə **Vücud-u Mütləq**dən (gerçək varlıq) qopmuşdur. Dövriyyə düşüncəsinə görə, **Vücud-u Mütləq**dən qopan nur, göyləri, yeri, təbiəti və dünyanın dörd qüvvəsini yaratdı. Göy ata oldu, Yer və dörd qüvvə ana oldu. Yaradılış prosesi ata ilə ananın birləşməsindən başladı (4, s.80). Ələvi inancına görə, insan ruhunun gəldiyi əsl qaynağa dönüşü ancaq insanın kamilləşmə prosesini tamamlaması ilə olur. Öncə cansız nəsnə, sonra bitki, heyvan və insan bədənlərində ortaya çıxan ruh, **insan-ı kamil** mövqeyinə çatdığı zaman

gəldiyi qaynağa geri dönür. Yaradan ilə bütünləşir, onun içində əriyir. **İnsan-ı kamil**`in gerçək yaradan olan **Vücud-u Mütləq** ilə bütünləşməsi ilə **dövriyyə** tamamlanmış olur. **Dövriyyə** iki yaydan təşkil olan bir dairədir. Bu dairənin gerçək varlıqdan (**Vücud-u mütləq**) qoparaq yer üzündə cansız varlığa gələnə qədərki bölümü əhatə edən mərhələlərə enən yay (**Kavs-ı nuzul**) deyilir. Cansız nəsnədən bitkiyə, heyvana, insana və insandan kamil insana və kamil insandan Yaradana dönüşü əhatə edən mərhələlərə də çıxan yay (**Kavs-ı uruc**) deyilir (4, s.81). Ələvilikdə dövriyyə inancının bir parçası olaraq "**ruhun ölməzliyi**"nə və "**ruh köçü**"nə inanılır. Bu inanca görə ölümlü olan bədəndir, ruhlar ölməz. Bu inanc Ələvilikdə "**Ruh ölməz, Tən ölür**" cümləsi ilə ifadə edilir. Bədənin ölümü ilə ruh bədəndən ayrılaraq başqa bədənlər və şəkillər altında yenidən ortaya çıxar. Ruh yaşamın, həyatın özüdür. Heç bir zaman yox olmayacaq əsil qaynağına geri dönüncəyə qədər müxtəlif şəkillərdə və görüntülərdə daim var olacaqdır. Ancaq **insan-ı kamil** olan insan ruhu gerçək varlığa, əsil qaynağa ( **Vücud-u mütləq**), yəni Yaradana qovuşur, onunla bütünləşir. Ələvi deyimi ilə "**Haqq ilə Haqq olur".** Haqq ilə haqq olmaq, "**gerçək ilə gerçək olmaq**" deməkdir.

Ələvilikdə **İnsan-ı Kamil** mərtəbəsinə çatmış şəxsə "**Ərən**" deyilir. Ərən deyimi, kamilləşmə prosesini tamamlamış, **insan-ı Kamil** olmuş ələvi mürşidlərini, pirlərini tanıdan sifətdir. Bu mərtəbəyə çatmış şəxslərin adları bu sifət ilə bəzənir. (Baba Ərənlər, Xorasan ərənləri, Urum (Rum) ərənləri kimi). Ərənlər ölməzlər "**Haqqa çatarlar**". Bu üzdən ələvi pirləri, mürşitləri, uluları üçün öldü deyilməz, "**haqqa çatdı**" deyilər. Hələ kamilləşməmiş, **insan-ı Kamil** mərtəbəsinə çatmamış şəxslərə "**xam ərvah**" deyilir. Hələ kamilləşməmiş "**xam ərvah**"ların arxasından "**dövriyyəsi asan olsun**" deyə dua edilər. Bu dua ilə kamilləşib yaradanla bütünləşməsi üçün "**Xam ərvah**"a asanlıq dilənir. Ələvi yazılı ədəbiyyatında "**dövriyyə**"ni təsvir edən saysız **nəfəslər** vardır.

"Qətrə idim ümmanlara qarışdım...
Dövrə edib aləmləri dolaşdım..." (4, s.82).

**Varlığın birliyi (Vəhdət -əl vücud).**

Həm Batinəm, həm zahirəm
Həm əvvələm,həm axıram
Həm mən Oyam, həm O mənəm
Həm O Kərim-ü xan mənəm
*Yunus Əmrə.*

Varlığın birliyi anlayışı əsas olaraq, **Yaradan (Xaliq)** və yaradılan (Məxluq) arasında ikiliyi rədd edən, yaradan və yaradılanın tək bir varlıq və tək bir gerçək olduğunu, yaradılanın Yaradandan ayrı bir gerçəklik olmadığını qəbul edən bir dünyagörüşdür (4, s.105). Bu dünyagörüşə sahib olan Ələvilik Yaradan və yaradılanı ayrı qəbul edən (ikilik yardan) islamdan fərqlənir. Islamın təməli olan **Allahdan başqa Tanrı yoxdur (La İlahe illallah)** prinsipi Varlığın Birliyi anlayışı içində **Allahdan başqa varlıq yoxdur (La Mevcude İllallah)** cümləsi ilə ifadə olunur.

Ələvi təsəvvürünə görə varlığı Yaradan və Yaradılana bölmək ikilik yaratmaqdadır.Yaradan və Yaradılan birdir, təkdir. Bir, tək olan Yaradandır. Ancaq İnsan da daxil olmaqla yaradılmış olan hər şey Yaradanın xaricində deyil, içindədir.Yaradandan başqa varlıq yoxdur, yaradılmış olanın tamamı Yaradanın özüdür. Ələvilər bu təsəvvürü qısaca olaraq belə ifadə edirlər. "**Ən böyük, ən kiçikdə gizlidir**". Bu baxımdan insan Yaradanın özüdür. **Varlığın birliyi** inancı ələvilərdə "**Ənə-l Haqq**" **(Allah mənəm)** kimi ifadə olunur. **Ənə-l Haqq**" **(Allah mənəm)** ifadəsini ilk dəfə Mənsur Həllac 911-ci ildə Bağdadda söyləmişdir. Bu təsəvvür İslamın təməl prinsiplərinə zidd olduğu üçün Mənsur Həllac işgəncə ilə öldürülmüşdür.

Varlığın Birliyi inanışına görə yaradan mütləq varlıqdır. Kainatdakı bütün varlıqlar yaradanın yansımasıdır. Varlığın birliyi yaradan ilə Yaradılışı birləşdirən, yaradılış içində dəngə saxlayan ilahi bir haldır. Yaradılışın dəngədə durmasının səbəbidir (4, s.105-107).

**Ayin-i Cəm və Qırxlar Məclisi**.

Ələvi inancına görə ilk **Ayin-i Cəm**, insanın yaradıldığı **Qırxlar Məclisində** yürüdülmüşdür. Ələvilərin yer üzündə yürütdüyü Ayin-i Cəm insanın yaradılması zamanı Ərşdə toplanan Qırxlar Məclisi tərəfindən yürüdülən Cəmin yer üzündəki təkrarıdır (4, s.108).

Ayin-i Cəm Ələvi ibadətinin təməl daşıdır. Ələvilərdə Ayin-i Cəmi ocaqzadə ələvi dədələri idarə edir. Ayin-i cəm Cəm evlərində, təkkələrdə, ələvi dədələrinin evlərində təşkil edilir.

Ayin-i cəm məqsədlərinə görə, müxtəlif adlar altında təşkil olunur ki, bunlar əsasən aşağıdakılardır.

**Görgü Cəmi**-Ələvilərin ən böyük dini mərasimidir.

**Müsahib Cəmi**-iki ələvi gənci arasında Müsahib qardaşlığı və ya axirət qardaşlığı deyilən bağın qurulması üçün müsahib olmaq istəyənlərin tələbləri əsasında yerinə yetirilən Cəmdir.

**İkrar vermə Cəmi**-Bir ələvinin Yola alınma törənidir.Yola alınmayan şəxs ələvi sayılmaz.

**Abdal Musa Cəmi**-bütün kəndin iştirakı ilə həyata keçirilən Cəmdir. Toxumlar torpağa atılmadan öncə keçirilər.

**Loxma Cəmi**-ələvilərdə müqəddəs sayılan Çərşənbə günündən Cümə gününə keçən gecə keçirilər.

**Düşgün qaldırma Cəmi**- düşkün elan edilib təriqətdən xaric edilən şəxsin yola alınması üçün keçirilən Cəmdir.

**Dardan endirmə Cəmi**- ölən şəxsin borcunu-xərcini həll etmək və cəmiyyətin halallığını almaq üçün məsrəfləri uşaqları və müsahibi tərəfindən qarşılanmaqla təşkil olunan Cəmdir (4, s.111-112).

**Ayin-i Cəmdə yerinə yetirilən On iki xidmət**.

Ayin-i cəmin idarə və təşkil edilməsi on iki məsul şəxs tərəfindən həyata keçirilir. Bu şəxslərə on iki xidmətçi deyilir. Bunlar:

**Pir-i mürşid**: Dədə - Ayini Cəmi idarə edir; **Rəhbər-** Cəmdə görgüsü olanlara yol göstərir.; **Gözçü**-Cəmdə qayda-qanunu təmin edir; **Çıraqçı**-Cəmin başlanğıcında **Çırağ uyandırar** (yandırar). Cəmin sonunda **çırağı sır edər** (söndürər); **Zakir-** Cəmdə saz çalar. **Gülbənglər (dua)** və **nəfəslər** (Ələvi dünyagörüşünü əks etdirən şerlər, hekayələr) söylər; **Fərraş-** Süpürgəçi. Cəm evlərini təmizləyər; **Qurbançı və ya süfrəçi-** Qurban kəsilmə və yemək təqdim etmək işlərini tənzimləyər; **Saka-** Cəmdə su paylayar.Yemək bitdikdən sonra təmizlik üçün ibrik, ləyən, havlu gətirər; **Peyik**- Ulaq da deyilir. Cəmin keçiriləcəyi yeri və saatı öncədən iştirakçılara bildirər; **Pərvanə-** Cəm Evinə gələnlər və gedənlərlə ilgilənər; **Niyazçı-** İbrikçi də deyilir. Cəm evinin təmizliyinə baxar; **Qapıçı-** Cəm təşkil olunan yerin qapısını gözləyər.

On iki xidmətçi tərəfindən təşkil olunan Ayin-i Cəm müxtəlif bölümlərdən ibarətdir. **Çıraq Uyarma (Yandırma); Tövhid; Meraclama; Taclama; Mum söndü; Çırağın sır edilməsi (söndürülməsi).**

Ayin-i Cəm içindəki hər bölüm müqəddəs bir rəqs olan səmalarla, zakirlərin oxuduqları coşğun musiqilərlə müşayiət olunan nəfəslərlə və müxtəlif rituallarla bəzənir. Ayin-i Cəm zamanı oxunan gülbənglər (dualar) Ayin-i Cəmin ayrılmaz hissəsidir. Gülbənglər mövzulara görə adlanır. **Cəm yaratma Gülbəngi, Dolu Gülbəngi, Müsahiblik Gülbəngi, Dəm Gülbəngi** v. s. Ayin-i Cəm zamanı dönülən Səmalar oxunan nəfəslərlə və rituallarla dünyanın

yaradılmasını, insanın xəlq olunmasını və yer üzünün keçirdiyi təkamül (Dövriyyə) mərhələlərini simvollarla əks etdirər (4, s.112-113).

**Səma.**

Sən, sən olduqca, səma etməkdəyəm çevrəndə,
Mən, sən olduqca çevrəmdə dönüb durmaqdayam.
*Mövlana Cəlaləddin Rumi.*

Ələvi Ayin-i Cəmlərinin təməl ritualı **Səma** rəqsidir. Səma coşqun musiqinin müşayiəti ilə edilir. Səmanın təməl xüsusiyyəti odur ki, səma rəqsi zamanı bir yandan öz oxu ətrafında fırlanılarkən, bir yandan da bir dairə ətrafında dönərək, dövr edilir. Səma rəqsləri hüceyrə içindəki nüvə ətrafında fırlanan elektronları, həm öz oxu ətrafında, həm də günəş ətrafında dönən planetləri, həm öz çevrələrində, həm də başqa qalaktikaların çevrəsində fırlanan qalaktikaları, ən kiçikdən ən böyüyə, yaradılışın hər mərhələsində mövcud olan təməl dövriyəni simvolizə edir. Planetlərin, ulduzların, ulduz topalarının və qalaktikaların öz oxu ətrafında və daha böyük sistemlər çevrəsində fırlanmalarını əks etdirən bu kosmik rəqsin adı **Səma-göy üzüdür**. Səma rəqsində dönənlərə **Pərvanə** adı verilir. Ələvilikdə Pərvanə planet deməkdir ki, bununla Səmanın Kosmosdakı dövriyyə üzərində qurulduguna işarə edilir. Səma rəqsində Yaradılışın ən təməl qanunu hər şeyin fırlanaraq hərəkət etməsi ifadə edilir. Sonsuz dönməni ifadə edən ritual **Bəngi Səma`sı** adlanır. Bəngi "daim qalacaq olan, ölümsüz" deməkdir (4, s.115). Kainatda hər şeyin dönməsi qanununa Ələvilikdə "**Bütün kainat Səma dönər**" deyilməkdədir (4, s.116). Kainat, kainatda olan hər şeyin fırlanması ilə dəngədə (tarazlıq) durur. Səma ilə Kosmosun bu ruhu, qanunu Ayin-i Cəm içinə daşınır. Səma kainatın dəngəsinin Göy cismlərinin daim fırlanmalarının Ayin-i cəmdəki ifadəsidir. Səma Yaradan ilə bütünləşmənin təsviridir. Hacı Bektaş Vəli Səma haqqında belə demişdir. "**Səma ariflərin aləti, mühiblərin ibadəti, taliblərin maqsududur...**" (4, s.116). Ayin-i cəmlərdə Səma rəqsləri qadınlarla kişilərin bir yerdə iştirakı ilə keçirilər. Səmanın **Qırxlar Səması, Durnalar Səması, Ya Xızır Səması, Könüllər Səması, Əli Nur Səması, Hubyar səması, Çarx Səması, Ərzincan səması** kimi növləri var (4, s.116). Səma zamanı musiqi müşayiəti ilə nəfəslər oxunar, ayaqlar yalın olar, əl-ələ tutulmaz. Səma dönənlər həm öz ətraflarında, həm də dairə ətrafında dönərlər, bu dönüş zamanı, Mürşidin (Pirin, Dədənin) olduğu nöqtəyə gəlincə, buraya arxalarını çevirməzlər. Dədənin durduğu Yer **Çıraq taxtı (İşıq taxtı**) deyilən müqəddəs məkandır. Səma zamanı Pərvanələr əllərini göyə qaldırar və yerə doğru uzadarlar, bu hərəkətlə yaşayışın qaynağı olan Günəşdən qopan İşıgın Yer üzünə yolçuluğu simvolizə edilər. Ələvi inancına görə, Səma ritualı ilk dəfə Ərşdə qurulan Qırxlar Məclisində Qırxlar tərəfindən yerinə yetirilmişdir.Yer üzündə dönülən Səmalar bu Səmanı yad etmək üçündür. Bu üzdən Səma zamanı "**Səmamız Qırxlar səması olsun"** deyə dua edilər. "**Səmahlar saf ola,..Haqq üçün ola, ..döndüyümüz səmalar Qırxların döndüyü səma ola. Birliyimiz, dirliyimiz və bərabərliyimiz qaim ola, daim ola. Dərgah-ı ilahiyə qeyd ola. Gerçəyə hu"** (4, s.117).

**Çıraq Uyarma(ÇıraqYandırmaq).**

On iki xidmətçilərdən biri olan Çıraqçının çıragı yandırması ilə Ayin-i cəm başlayar. Ayin-i Cəmin bir işıq yandırılaraq başladılması kainatın bir işıqdan doğulduğunu və yer üzündə həyatın Günəşin işıqları ilə başlamasını ifadə edir.

Yuhanna İncilində "öncə söz vardi" deyilməkdədir.

Ələvilikdə isə "Öncə işıq vardı," "işıq ilk başlanğıcdır və yaradanın sözüdür" deyilməkdədir. Bektaşi ayin-i cəm`lərində öncə böyük bir çıraq yandırılır və ona "**Xorasan çırağı**" deyilməkdədir. Sonra bu böyük "Xorasan çırağı"ndan alınan odla "on ikilər çıragı" adlanan on iki kiçik çıraqlar yandırılar. Xorasan sözünün mənası Günəşin yeri anlamını bildirir və bu ritualla Günəşdən gələn işığın on iki Yer üzünü aydınlatdığı ifadə edilir. Bəzi Bektaşi təkkələrində isə yalnız bir böyük Çıraq yandırılar və adına ərəbcə bir kəlmə olan "**Sirac-ı**

**Münir**” deyilir ki, bu da günəşi simgələyir. **Sirac-ı münir** aydınlatan işıq deməkdir. Çıraq yandırma ritualı yaradılışın işıqla başladığını, bu işığın qaynağının öncədən var olan əsil qaynaq olduğunu simgələyir. Bu rituala “**dəlil uyarmaq**”(sübut göstərmək) da deyilir. Ələvilikdə “Dəlil uyarmaq” “**İşıq Yaradılışın sübutudur**” düşüncəsinin təsdiq edilməsidir. “Çıraq uyarmaq” ritualı yerinə yetirilərkən zakirlər oxuduqları nəfəslərdə Yaradılışın işıqla başladığını, insanın yerüzündəki həyatının başlanğıcından əvvəl, işıq və enerji formasında günəşin içində olduğu qeyd edilməkdədir (4, s.118-119).

**Tövhid (Varlığın birliyi).**

Ayin-i Cəm`də Çıraq yandırıldıqdan sonra Zakir Dünyanın Yaradılmasını əks etdirən bir nəfəs söyləyər. Sonra Səma rəqsləri edilər. Səma`dan sonra **Tövhid** başlanar. Tövhid bölümündə Ələvi dünyagörüşünün əsası olan “**Varlığın birliyi**” inancı simvollarla, musiqi və rəqslə, nəfəslərlə ifadə edilər. “Vəhdət-i vücud” adlanan “Varlığın Birliyi” inancı varlığın yaradan və yaradılan olaraq ikiyə ayrılmasını rədd edir, varlığın yaradan və yaradılan olaraq ayrılmasını “birliyi pozaraq ikilik yaratmaq” oldugunu və bunun qəbul edilməzliyini irəli sürür.Yaradan və yaradılan eyni bütünün parçalarıdır.Yaradılan Yaradandan gəlmişdir və ona dönəcəkdir. Ən böyük ən kiçikdə mövcuddur. Bu səbəbdən insan, Yaradanın yansıması hesab edilməlidir.

“**Ene-l Haqq” (Mən Allaham**) şəklində ifadə olunan **Varlığın Birliyi (Vədət-i vücud)** inancı həm də “**Allahdan başqa varlıq yoxdur (La Mövcude İllallah)** ifadə edilir. Ayin-i Cəm`in Tövhid bölümündə Ələvilər ekstaz vəziyyətində yaradanla bütünləşirlər, buna görə də Tövhid Ayin-i Cəm`in ən yüksək nöqtəsi hesab olunur. Bu yüksək nöqtədə Yaradan ilə yaradılan birdir, eyni ilahi qanunlara bağlıdır.Yaradılan Yaradanın aynasıdır (güzgüsüdür),ondan gəlmişdir və Ona dönəcəkdir ideyası ilə, Səma rəqsləri edən ələvi Yaradanla bütünləşir, ”Canlar birləşir”, Vəhdət-i Vücud baş verir. Yaradılışın dəngəsi yaradanla Yaradılanın birliyindən doğar (4, s.122).

**Meraclama**

Ayin-i Cəm`in “meraclama” bölümündə insanın yaradılışından öncə, seçilmiş varlığın Göy üzünə alınması və yaradanın özünün (ruhu) və surətinin seçilmiş varlığa qatılması ilə insanın yaradılması hekayə edilir. Ələvi inancında Göyə yüksəldilən varlıq Qırxlar məclisində hüzura alınır. Ərşdə toplanan bu məclisdə göyə yüksəldilən **seçilmiş varlığa (Güruh-i Naci)** yaradanın ruhu və surəti qatılaraq insan yaradılmışdır. İnsan **Qırxlar Məclisində (Ələst-i Bəzmi)** yaradılmışdır. Ərşdə toplanan Qırxlar məclisində yaradılmanın gerçəkləşməsi üçün ilk öncə **seçilmiş varlığın (Güruh-i Naci)** ərşə yüksəldilməsi gərəkdir. Ələvi inancında Güruh-i Nacinin Göyə yüksəldilməsi “**Merac”** adlanır.

Ərəb sözü olan Merac Göyə yüksəlmə mənasında işlədilir. İslam dinində Merac Hz.Məhəmmədin Göyə yüksəldilərək Allahın hüzurunda qəbul edilməsi və Bəkərə surəsinin son ayələrinin burada Peyğəmbərə təbliğ edildiyi və beş vaxt namaz qılmanın fərz oldugunun Peygəmbərə çatdırılması haqqında hədis vardır. Lakin İslam alimləri bu hədisin səhihliyi barədə mübahisələr etməkdədirlər.

Ayin-i Cəm`in merac bölümündə merac hekayəsinə Hz.Məhəmmədin də meracı qatılaraq söylənməkdədir.

Ələvilər özlərinin merac hekayələrini İslama qataraq sirr kimi qorumuş, islam içində yaşatmışlar (4, s.123-125).

**Müsahiblik**

Ayin-i Cəm`də “**Meraclama**” seçilmiş varlığın ərşdə toplanmış Qırxlar Məclisinə yüksəldilməsi ilə bitdikdən sonra, Qırxlar məclisində seçilmiş varlığın-insanın yaradılması hekayəsi “**Müsahib edilmə**” bölümündə anladılır. “Müsahib” və ya “**Din qardaşlığı**” adəti aralarında qan bağı olmayan iki şəxsin arasında “**qan qardaşlığı**”nın yaradılması mərasimidir.

Ələvilikdə Müsahib edilmə inancın yeddi təməlindən (Fərz) biridir. Müsahiblik, Müsahib edilmə cəmi adlanan toplantıda təşkil olunur. Müsahiblik sosial bir təsisatdır və ələvilik inancına görə, Qırxlar məclisində bir mələyin (bu mələk İslam inancında Cəbrayıl, Ələvi inancında Qırxlardan biri adlanır) özünü seçilmiş varlığa (**Güruh-i Naci**) qatmasını, müsahib olmasını əks etdirir.

İrine Melikoffa bu inancı "...Cəbrail ilə Adəm qurşaq qurşanmış, qardaş olmuşlar" kimi təsvir edir. Özünü seçilmiş varlığa qatan mələk yaradılan insana belə deyir. "**Mənim qanım sənin qanın, mənim ətim sənin ətin, mənim ağlım sənin ağlın, mənim ruhum sənin ruhundur**". Burada mələyin insana transfer edilməsi, insana genetik keçməsi təsvir edilir. Ələvi nəfəslərində Mələyin bədən, ruh və idrakın insana keçməsi sırasında mələyin Tanrıya asi olması, sonra isə Ona boyun əyməsi və insanın yaradılması üçün özünü fəda etməsi təsvir edilmişdir. Ərşdə gerçəkləşmiş bu hadisədə Mələk qanını, ətini, aglını, ruhunu insana vermiş və yeni yaranan insanla qardaş olmuşdur. "**Müsahib edilmək**" bu qardaşlığın yer üzündə təkrar canlandırılmasıdır. Yaradanın bütün xüsusiyyətlərini özündə daşıyan bu insana "**Heydər"** deyilmişdir (4, s.126-129).

**Mum söndü.**

**Başlanğıcda söz vardı, söz tanrı ilə birlikdəydi və söz Tanrıydı. Başlanğıcda O Tanrıyla birlikdəydi. Hər şey onun araçılığı ilə var oldu, var olan heç bir şey O`nsuz olmadı. Yaşam O`ndaydı və yaşam insanların işığıydı. İşıq qaranlıqda parıldayar. Qaranlıq O`nu qəbul edə bilmədi (ona paxıllıq etdi-Y.M) (**2, s.1332; 4, s.133).

Ayin-i cəm`in sonlarına doğru icra olunan "**Mum söndü**" bölümündə bir anda çıraq söndürülür və sonra yandırılır. Bununla Dünyanın keçirdiyi qaranlıq dövrlər, təbii fəlakətlər, mədəniyyətlərin və sivilizasiyaların yox olması anladılmaqda, dünyanın təkrar işığa qovuşması, həyatın günəş və işıqla başladığı təsvir edilməkdədir. Lakin "Mum söndü"mərasimi ələvilərin "cinsi sapıqlar" kimi adlandırılmasına səbəb oldugu üçün Ayin-i Cəm mərasimlərindən çıxarılmışdır. Dünyanın qaranlıq dövrünü, işıgın qaranlıqla olan mübarizədən qalib çıxmasını simgələyən "Mum söndü" mərasimi bir çox xalqlarda Yeni il gecəsi işığın söndürülüb yandırılması adəti halında yaşamaqdadır.

**Çırağın "Sır" edilməsi.**

Ayin-i Cəm`in qapanış ritualında çıraqçı çırağı Ayin-i Cəm`in keçirildiyi meydana gətirir. On iki xidmətçi öndə duran Pirin arxasında düzülür. Çıraqçı bu **Gülbəngi (**Dua) oxuyur.

"**Allah, Allah**
**Çox öydüyümüz nurun işığı gizli oldu**
**Məhəmmədin günəş üzü açığa çıxdı**
**Gerçəyə hu".**

Gülbəng oxunduqdan sonra çıraqçı "**çırağı sır edər**"(gizlədər) və Ayin-i Cəm sona çatar. Ayin-i Cəmin bu hüznlü və mistik qapadılma ritualında çıraq üçün söndürmə və ya qapadılma terminləri işlədilməz, "**Sır edilər"(**gizlədilər**)** termini işlədilər ki, bununla Ələvi dininin Məhəmmədin dinində gizlədilərək qorunub saxlanıldığı ,işığın, gerçəyin ortadan qalxmadığı simgələnir (4, s.134).

**Açar sözlər:** Ortodoks, heterodoks, sufizm, Ələvilik, Qızılbaşlıq, Bektaşilik, mədrəsə, təkkə.

## İstifadə olunmuş ədəbiyyat


1. Abdülkahir el-Bağdadi. Mezhepler Arasındaki Farklar.Türkiye Diyanet Vakfı Yayınları\73.Önsöz ve Notlarla Çeviren Prof. Ethem Ruhi Fığlalı.Ankara.2005.
2. Anadoluda İslamiyet Türk İstilasından Sonra Anadolu Tarih-i Dinisine Bir Nazar ve bu Tarihin Menbaları, "Darül-Fünun Edebiyat Fakültəsi Mecmuası",Sene 2,No:4,1338,s.297-310. Prof.Dr. İsmail Mehmetov.Türk Kafkasında siyasi və etnik Yapı. Eski Çaglardan Günümüze Azerbaycan Tarihi. Ötükən nəşriyyatı. İstanbul-2009.
3. Kutsl kitap. "Kitabı mukaddes Şirketi,yeni yaşam Yayınevi, 2 baskı,Şubat 2002,s.1332. Erdoğan Çınar. Aleviliğin gizli tarihi.Kalkedon.2007.
4. Erdoğan Çınar. Aleviliğin gizli tarihi.Kalkedon.2007.
5. Erdoğan Çınar. Aleviliğin Kayıp Bin Yılı.kalkedon.2008.
6. Taha Akyol. Osmanlıda və İranda Mezhep ve Devlet.İstanbul.1999
7. Yusif Rüstəmov. Mövlanə Cəlaləddin Ruminin Sufilik Fəlsəfəsi.Nurlar. Bakı.2006
8. İsmail Mehmetov Prof.Dr..Türk Kafkasında siyasi və etnik Yapı. Eski Çağlardan Günümüze Azerbaycan Tarihi.Ötükən nəşriyyatı.İstanbul-2009.
9. İrene Melikoff. Efsaneden gerçeye Hacı Bektaş, Cumhuriyet kitabevi,Haziran 1999.
10. Sefer Aytekin.Malakat. s.60-67. İstanbul. 1998.
11. Melikoff.İ, "Bektaşilik/Kızılbaşlık: Tarihi Bölünme ve Sonuçları", Alevi kimligi,tarih vakfı Yurt Yay. Istanbul 1999,s.8-9. Prof.Dr. İsmail Mehmetov.Türk Kafkasında siyasi və etnik Yapı. Eski Çaglardan Günümüze Azerbaycan Tarihi.Ötükən nəşriyyatı.İstanbul. 2009.
12. Ocak A.Y, Türklər,Türkiyə və islam, yaklaşım,Yöntəm və yorum denemeleri,iletişim Yay. İstanbul 1999.s.43-44,46. Prof.Dr. İsmail Mehmetov.Türk Kafka-sında siyasi və etnik Yapı. Eski Çaglardan Günümüze Azerbaycan Tarihi. Ötükən nəşriyyatı.İstanbul-2009.
13. Ocak A. Y. Babailər İsyanı: Aleviliyin Tarihi Altyapısı yahut Anadoluda İslam-Türk Heterodoksisinin Teşekkülü, İstanbul 2000(3.bsk).s.63. . Prof.Dr. İsmail Mehmetov.Türk Kafkasında siyasi və etnik Yapı. Eski Çaglardan Günümüze Azerbaycan Tarihi.Ötükən nəşriyyatı.İstanbul-2009.
14. Minorsky V. "Notes sur la secte des Ahl-e Hakk", Revue du monde Musulman,XI,1920,s.20-97. V.Minorsky. "Jihan-Shah Qaraqoyunlu and his poetry", BSOAS,1954,XVI/2, s. 272-276) və A.Gordlevskiyə (V.A. Gordlevskij, "karakoyunlu" İzbrannye socenenija,III, Moscou 1962.
15. Аш-Шахристани. Книга о религиях и сектах. М,1984.

**Ясаман ГАРАГОЮНЛУ (МАХМУДОВА)**

## СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ ХАРАКТЕРИСТИКА АЗЕРБАЙДЖАНСКОЙ КУЛЬТУРЫ ИСЛАМСКОЙ ЭПОХИ. ГЕТЕРОДОКСАЛЬНЫЙ ИСЛАМ

### Резюме

В статье автор исследует два направления процессов развития исламской культуры в рамках ортодоксального и гетеродоксального мировоззрения и приходит к выводу,что азербайджанская культура исламской эпохи обладает гетерогенными свойствами.Учение алавийа-кызылбашлык, являющееся основным направлением азербайджанского суфийского мировоззрения, хотя и нашло развитие в исламе как мировоззрение, однако при сравнении их основных принципов выявляется различие.

При изучении основных принципов монотеистических религий: 1) познание и понимание Творца (Аллаха,Бога). Представления о Боге; 2) жизнь после смерти (загробная жизнь);3) создание вселенной и мира; 4) сопоставление идей о сотворении человека выявляется,что алавийа и ислам два различных самостоятельных мировоззрения. Идеи неоплатонизма, герметизма, каббалы, эзотерического мировоззрения батыния, християнства, зороастризма, даосизма, шаманизма, синтезируясь в алавийа-кызылбашлык, формируют эклектическую систему мировоззрения.

**Ключевые слова**: ортодоксальный, гетеродоксальный, суфизм, алавийа, кызылбашлык, бекташиты, медресе, текке.

**Yasaman QARAQOYUNLU (MAHMUDOVA)**

## SOSIO-PHILOSOPHICAL CHARACTERISTICS OF AZERBAICANI CULTURE OF ISLAMIC EPOCH.HETERODOXICAL ISLAM

### Summary

In the article the author investigates two directions of the processes of development of Islamic culture in the frame of Ortodoxic and heterodoxic world outlook and comes to the conclusion that Azerbaijani culture of Islamic epoch possesses heterogeneous propertics. The scientists of alevite-qizilbashliq, been the bazic direction of Azerbaijani sufist world outlook, although it found the development in Islam as world outlook, however at comparing the man principles the difference is exposed.

At studying the basic principles of monotheistic (religions); 1) cognition and understanding the Prophet (Allah, God) . Images of God, 2) life of God;(mortal life): 3) creation of the Universe and world; 4) comparing the ideas on creation of a man, it is revealed that alevite and Islam are two independent world outlooks. Ideas of neoplatonism, heretism, kabaly, esoteric world outlook, betany, Zoroastrism, Judaism, shamanism synthesizing into alevite-qizilbashliq, forms an eclectic system of world outlook.

**Keywords:** Orthodox, Heterodox, Sufizm, Alewi, Qizilbashlig, Madrasa, Bektashilikh, Takka.

**UOT 297**

**Yeganə RƏHNULLA**
*e.i.,*
*AMEA Əlyazmalar İnstitutu*

# İSLAM DİNİNDƏ "ƏSMAUL-HUSNA" (ALLAHIN GÖZƏL ADLARI) TERMİNİNİN İZAHI*

İslam dinində özünəməxsusluğu ilə seçilən mövzulardan biri olan "Əsmaul-husna" – Allahın gözəl adları haqqında Qurani-Kərimin dörd: Əraf,180; əl-İsra,110; Taha,8; əl-Həşr,24 surələrində söhbət açılır.

و لله الأسماء الحسنى فادعوه بها وذروا الذين يلحدون فى أسمائه سيجزون ما كانو يعملون. [Va lillahi-l-əsməu-l-husna fəduhu bihə va zəru-l-ləzinə yulhədunə fi əsməihi səyuczaunə mə kənu yaməlun]

Ən gözəl adlar Allahındır. O-nu bu adlarla çağırıb dua edin. O-nun adları barəsində küfr edənləri tərk edin. Onlar etdikləri əməllərin cəzasını alacaqdır (əl-Əraf,180) [1,s.145].

"Əsmaul-husna" Qurani-Kərimin müxtəlif ayələrindən və hədislərdən götürülmüş Allaha məxsus 99 ən gözəl adı ifadə edən dini termindir. Burada əsma - cəm şəklində ad bildirən, husna isə ən gözəl söz mənasındadır. Bütün bu adlar Allaha xas olan sifətləri əks etdirir və Allahın hər bir adı yalnız bir sifət bildirir.

İslam dinində bütün mövzularda olduğu kimi, bu mövzuda ilk mənbə kimi Qurani-Kərim göstərilir, lakin Qurani-Kərimlə yanaşı, hədislərdə də bu barədə söhbət açılır. Allahın gözəl adları haqqında ən mükəmməl və dolğun məlumata malik olan Məhəmməd peyğəmbər (s) buyurur: "Allaha məxsus doxsan doqquz ad var, bu adları hər kim sadalasa Cənnətə daxil olar" [2,s.191]. Allahın adları sonsuzdur və onları doxsan doqquz adla məhdudlaşdırmaq olmaz. Əbu Hüreyrə Əbdürrəhman b. Səhr əd-Dəvsidən (öl.h.58/m.678) rəvayət olunan bu hədisdə 99 rəqəminin göstərilməsi məhdudlaşdırılma mənasında qeyd olunmamışdır. Əgər burada məqsəd onların sayını məhdudlaşdırmaq olsaydı, bu ifadə "Allahın adlarının sayı doxsan doqquzdur, kim onları sadalasa Cənnətə daxil olar", yaxud buna oxşar bir şəkildə olardı [3,s.8]. Sadəcə bu, Allahın seçılmiş ən gözəl və ən yaxşı adlarıdır, yəni bu adlar gözəllikdə olduqca yüksək dərəcəyə çatmış adlardır. Çünki bu adlar elə kamil sifətləri izah edir ki, onlarda hər hansı bir nöqsanın və eybin olduğunu zənn etmək olmaz. Məsələn: əl-Kərim adı – Allahın ən gözəl adlarından biridir. Mənası kərəmi, köməyi və ikramı sonsuz olan, heç bir qarşılıq gözləmədən verən, lütf edən, comərdlikdə, əliaçıqlıqda tək olan, hər cür yaxşılığın, fəzilətin sahibi olan deməkdir. Əsmaul-husnaya daxil olan bu ad bütün yaxşılıqların, gözəlliklərin, bağışlamaların və s. sifətlərin kamilliyini zəruri edən ismi-şərifdir.

Dini ədəbiyyatda "Əsmaul-husna"ya daxil olan Allahın doxsan doqquz adı ilə bağlı fərqli qeydlər var. Əli b. Əbu Talibin (öl. m.661) Məhəmməd (s) peyğəmbərdən rəvayət etdiyi hədisdən sonra qeyd olunan adlarla Əbu Hüreyrə Əbdürrəhman b. Səhr əd-Dəvsinin rəvayət etdiyi adlar arasında fərqlər var. Beləki, Əbu Hüreyrədə verilən siyahıda 35 ad (əl- Ğaffar, əl-Qahhar, əl-Xafiz, ər-Rafi, Əl-Muiz, əl-Muzil, əl-Hakəm, əl-Muqit, ər-Raqib, əl-Mucib, əl-Mətin, əl-Vəliyy, əl-Muhsi, əl-Mubdi, əl-Muid, əl-Muhyi, əl-Mumit, əl-Vacid, əl-Məcid, əl-Muqtədir, əl-Muqəddim, əl-Muəxxir əl-Vali, əl-Mutəal, əl-Muntəqim, Məliku l-mulk, Zul

---

* Məqalə ilahiyyat ü.f.d.., dosent. Nailə Süleymanlı tərəfindən çapa məsləhət görülüb

Cəlali vəl ikram, əl-Muqsit, əl-Cami, əl-Muğni, əl-Mani, əd-Darr, ən-Nəfi, ər-Rəşid, əs-Sabur) Əli b. Əbu Talibin rəvayət etdiyi siyahıda rast gəlinmir. Əli b. Əbu Talibin verdiyi 35 ad (Allah, əl-Əla, əl-Əkrəm, əl-Cəvad, əl-Həsib, əl-Xəfiyy, əl-Xəyrun-Nasirin, ər-Rəbb, ər-Rai, əd-Dəyyan, əz-Zari, əs-Seyyid, əs-Subbuh, əş-Şafi, əs-Sadiq, əs-Sani, ət-Tahir, əl-Ğiyas, əl-Fatir, əl-Faliq, əl-Fərd, əl-Qadir, əl-Qazi, əl-Qahir, əl-Qədim, əl-Qərib, əl-Kaşifuz-zur, əl-Kafi, əl-Mubin, əl-Muhiq, əl-Muqit, əl-Mənnan, ən-Nasir, əl-Vitr, əl-Vəfi) Əbu Hüreyrənin rəvayət etdiyi siyahıda verilməyib. Əbu Hüreyrədən fərqli olaraq Əli b.Əbu Talib "Allah" adını "Əsmaul-husna" siyahısına əlavə etmişdir.

Hicri təqviminin II əsrindən etibarən İslam alimləri bu adlardan ibarət siyahı hazırlamağa səy göstərmişdilər. Əl-Hafiz Əbu Məhəmməd ibn Yəzid ibn Macə əl Qəzvini (öl.h.273/m.887), İbn Həcər əl-Əskalani (öl.h.852/m.1449), Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin (öl.h.279/m.892) və başqa alimlər məşhur hədis əsasında "Əsmaul-husna" siyahısı tərtib etmişlər. Bu siyahılar arasında Allahın adları ilə bağlı fərqli fikirlər var. Məs: Tirmizinin siyahısında olan iyirmi beş ad İbn Macənin siyahısında qeyd olunmayıb. İbn Macədə olan iyirmi altı ad isə Tirmizinin siyahısında yer almayıb [4, s.406; 5, s. 56].

İslam aləmində geniş yayılmış siyahılardan biri Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin tərtib etdiyi Allahın doxsan doqquz gözəl adının siyahısıdır. Əbu Hüreyrə Əbdürrəhman b. Səhr əd-Dəvsidən rəvayət olunan "Əsmaul-husna" haqqında olan hədisi qəbul edən on beşə yaxın hədisçi alimlər içərisində yalnız Tirmizi hədisdə verilən Allahın doxsan doqquz adını əhatə edən siyahını qəbul etmişdir [6, s.14]. Bütün müxtəlif görüşlərə baxmayaraq alimlərin qənaəti Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin tərtib etdiyi "Əsmaul-husna" nı qəbul etmək və onun əsasında tədqiqat aparmaq olmuşdur.

Tirmizinin tərtib etdiyi "Allah" adı ilə başlayib "Sabur" adı ilə bitən "Əsmaul-husna" mükəmməl tərtibatı ilə digər alimlərin hazırladığı siyahılardan fərqlənir. Siyahıya daxil olan ilk on dörd ad (Allah, ər-Rəhman, ər-Rəhim, əl-Məlik, əl-Quddus, əl-Salam, əl-Mumin, əl-Muheymin, əl-Əziz, əl-Cabbar, əl-Mutəkəbbir, əl-Xaliq, əl-Bari, əl-Musavvir) Qurani-kərimin "əl-Həşr" surəsinin sonuncu 22-24 ayələrindən ardıcıl olaraq götürülmüşdür.

Burada sadalanan hər bir ad özündən əvvəlki və sonrakı ad ilə məna və məzmun baxımından bağlıdır. Məsələn: Tirmizinin siyahısında əl-Əvvəl- varlığının başlanğıcı olmayan və əl-Axir-varlığının sonu olmayan adları ardıcıl qoyulmuşdur. Allahın hər iki adı Qurani-Kərimin "əl-Hədid" surəsinin 3-cü ayəsindən götürülmüşdür. Bu ayədə də ardıcıl olaraq əz-Zahir-varlığı, qüdrəti ilə aşkar olan və əl-Batin-mahiyəti gizli olan adları da qeyd olunur, Tirmizinin tərtib etdiyi siyahıda da bu dörd adın ardıcıllığı saxlanılmışdır.

Təbii ki, "Əsmaul-husna"nı təşkil edən adların siyahısını hazırlayarkən başlıca olaraq mənbə kimi Quran və hədislərə müraciət olunur. Qurani-kərimə nəzər salanda "əl-Fatihə" surəsindən başlayaraq "ən-Nas" surəsinə qədər Allahın müxtəlif adlarını görmək olar. "Əl-Fatihə" surəsində Allahın ər-Rəhman, ər-Rəhim, əl-Məlik, "ən-Nəs" surəsində ər-Rəbb adları rast gəlinirsə də, "əl-Həşr" surəsinin sonuncu 22-24 ayələrində toplu halında Allahın adlarının sayı on doqquza bərabərdir. İslam alimlərinin Qurandan götürülmüş Allahın adlarının sayı haqqında fikirləri müxtəlifdir. Bir çox mənbələrdə Qurani-Kərimdə müxtəlif ifadələrdə Allaha məxsus olan adların sayı 313-ə qədər olduğu göstərilmişdir [7, s.19]". Bəzi alimlər isə "Covşan-kəbir" duasına əsasən Qurana əsaslanaraq Allahın adlarının sayını yüz iyirmi yeddi olduğunu bildirmişlər. Cəfəri Sadiq "Fatihə" surəsindən "İxlas" surəsinə qədər Allahın yüz on bir adını qeyd etdisə də, Tirmizinin tərtib etdiyi siyahıda bu say doxsan üçə bərabərdir.Onlar aşağıda qeyd olunan adları təşkil edir:

Allah, ər-Rəhman, ər-Rəhim, əl-Məlik, əl-Quddus, əl-Salam, əl-Mumin, əl-Muheymin, əl-Əziz, əl-Cabbar, əl-Mutəkəbbir, əl-Xaliq, əl-Bari, əl-Musavvir- 59/əl-Həşr

Əl-Ğaffar -38/Sad

Əl-Qahhar -12/Yusif
Əl-Vəhhab, əl-Ədl, Məliku l-mulk, əl-Cami-3/Ali-İmran
Ər-Rəzzaq, əl-Mətin-51/əl-Zariyat
Əl-Fəttah-34/Səba
Əl-Alim, əl-Qabid, əl-Basit, əs-Səmi, əl-Bəsir, əl-Hakəm, əl-Həlim, əl-Əzim, əl-Ğafur, əl-Əliyy (Əli), əl-Vasi, əl-Hakim, əl-Vəliyy(Vəli), əl-Həmid, əl-Hayy, əl-Qəyyum, əl-Vahid, əl-Qadir, ət-Təvvab, ər-Rauf, əl-Ğəniyy, əl-Bədii-2/əl-Bəqərə
Əl-Xafiz-15/əl-Hicr
Ər-Rafi-40/əl-Mumin
Əl-Muiz-63/əl-Munafiqun
Əl-Muzil-10/Yunus
Əl-Latif, əl-Xabir-6/əl-Ənam
Əl-Şəkur-35/Fatir
Əl-Kəbir,əl-Vali, əl-Mutəal-13/ər-Rad
Əl-Hafiz, əl-Mucib, əl-Vədud, əl-Məcid, əl-Qaviyy, əl-Məcid ər-Rəşid-11/Hud
Əl-Muqit, əl-Hasib, ər-Raqib, əş-Şəhid, əl-Vəkil, əl-Afuvv-4/Ən-Nisa
Əl-Cəlil, Zul Cəlali vəl ikram, əl-Baqi-55/Ər-Rəhman
Əl-Kərim-23/əl-Muminun
Əl-Bais-16/ən-Nəhl
Əl-Haqq, ən-Nur-24/ən-Nur
Əl-Mubdi, əl-Muid-85/əl-Buruc
Əl-Muhyi, əl-Mumit-7/əl-Əraf
Əs-Saməd-112/əl-İxlas
Əl-Muqtədir-54/əl-Qəmər
Əl-Muqəddim, əl-Muəxxir-21/əl-Ənbiya
Əl-Əvvəl, əl-Axir, əz-Zahir, əl-Batin-57/əl-Hədid
Əl-Bərr-52/ət-Tur
Əl-Muntəqim, əd-Darr-5/əl-Maidə
Əl-Muğni-9/Ət-Tovbə
Əl-Hadi-25/əl-Furqan
Əl-Varis-19/Məryəm

Qalan 6 ad (əl-Muhsi, əl-Vacid, əl-Muqsid, əl-Mani, ən-Nafi və əs-Sabur) isə hədislərdən götürülüb. Onu da qeyd etmək lazımdır ki, Allahın "əs-Sabur" adına yalnız Tirmizinin tərtib etdiyi siyahıda rast gəlmək olar.

Bir çox islam alimləri Tirmizinin "Əsmaul-husna" siyahısına sonradan dəyişiklik edərək yeni tərtibdə Allahın gözəl adlarını hazırlayıblar. Onlardan biri də məşhur alim İbn Hacər əl-Askalininin tərtib etdiyi siyahıdır. İbn Hacər bu siyahıda olub Quranda olmayan adları müəyyənləşdirmiş və onların yerinə Qurandan eyni sayda adlar taparaq yeni siyahı tərtib etmişdir [5, s.57].

Orta əsrlərdə aktual olan bu mövzuda AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda 30-dan çox yazılı abidə qorunmaqdadır. Bu əlyazma nüsxələri ərəb-19, fars-7, türk-2 dillərində olmaqla üç hissəyə ayrılır, həmçinin əlyazma nüsxələrindən əlavə bu mövzuda 3 ərəbdilli, 1 türkdilli əski çap kitabı da mühafizə olunur. Ərəbdilli əlyazmalar içərisində İslam aləmində məşhur olan alimlərin əsərlərindən sufi alimi Sədrəddin Məhəmməd b. İshaq əl-Konəvinin (öl.h.673/m.1274) "Şərhu əsmaillahi-l-husna", Məhəmməd b.İbrahim ibn Yəhya əs-Sədrəddin əş-Şirazinin (öl.h.1050/m.1641) Qurani-kərim və hədislərin təfsirindən bəhs edən "Təfsir əl-Quran", Əbül Abbas Əhməd bin Əli bin Yusif əl-Qureyşi əl-Buninin (öl. h.622/m.1225) "Şəms əl-maarif va at-tarif əl-avarif"; farsdilli əlyazmalar içərisində Mir

Hüseyn Vaiz ən-Nişaburinin (öl. h.904/m.1499) "Muəmmau əsma Allah", Sadiq Rükni Aşiqin Mir Hüseyn Vaiz ən-Nişaburinin "Muəmmau əsma Allah" əsərinə yazdığı "Şərhu muammai əsmallah"; türkdilli əlyazmalar içərisində Mövlanə Lamei Çələbinin (öl. h.938/m.1532) Mir Hüseyn Vaiz ən-Nişaburinin "Muəmmau əsma Allah" əsərinə yazdığı "Şərhu muammai əsmallah"; əski çap kitablarından İbrahim Cudi ət-Trabzoninin (1863-1926) "əl-Kənzu-l-əsna fi şərhi-l-əsmai-l-husna" əsərlərini qeyd etmək olar. Bu nəzm və nəsrdə yazılmış əsərlərdə Allah adlarının mənası, şərhi, dualarda işlənməsi, təsəvvüfdə rolu və şərhi mükəmməl şəkildə tərtib olunaraq yazılmışdır. Əlyazmalar İnstitutunda saxlanılan Allahın adlarından bəhs edən əsərlər arasında adların sayı və bu siyahıya daxil olan adlar haqqında müxtəlif fikirlər var. Məsələn, Sədrəddin Məhəmməd b. İshaq əl-Konəvinin təsəvvüfdə Allahın adlarının şərhindən bəhs edən "Şərhu-l-əsmau-l-husna" əsərində Allahın gözəl adları "Huvə" adından başlayaraq şərhi verilir. Digər əsərlərdən fərqli olaraq bu siyahıda "Huvə" və "Allah" adları da Allahın gözəl adları siyahısına əlavə edilib. Həmçinin, Əsmaul-husnaya daxil olan adların sayı doxsan doqquza bərabər olsa da bir çox adlar; "ər-Rəhman ər-Rəhim", "əl-Muqəddim əl-Muəxxir", "əz-Zahir əl-Batın" və s. iki-iki işlənmişdir [8, s.90b"]. Buradakı əsərlərin əksəriyyətində "Əsmaul-husna" ya daxil olan Allahın gözəl adları və sayı Əbu İsa Məhəmməd ibn İsa ət-Tirmizinin tərtib etdiyi siyahıya uygun gəlir.

İslam aləmində Allahın gözəl adlarından bəhs edən Orta əsrlərdə ərəb, fars, osmanlı türkcəsində olan yazılı abidələrdən əlavə müasir dövrdə də bu mövzuda müxtəlif əsərlər yazılmaqda davam edir. "Əsmaul-husna" İslam dininin çoxşaxəli mövzularından biri olaraq Qurani-Kərim və hədislərlə yanaşı, qədim mənbələr əsasında araşdırılması bu sahənin ətraflı tədqiq olunmasına və öyrənilməsinə təkan verəcəkdir.

***Açar sözlər***: *İslam, Quran, hədis, "Əsmaul-husna" (Allahın gözəl adları), təfsir, təsəvvüf, əlyazma*

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qurani-Kərim. Bünyadov Z., Məmmədəliyev V. Bakı, Azərnəşr, 1991.
2. Əz-Zebidi Z.A. Mütercimi ve şerhi Miras K. Sahih-i Buhari muntasari Tecrid-i Sarih tercemesi ve şerhi. 10 cilddə, VIII c., Ankara. Başbakanlık basımevi, 1980.
3. Üseymin M. S. Allahın sifətlərinə və ən gözəl adlarına dair ideal qaydalar. Bakı: Qızıl Şərq, 1996.
4. İslam Ansiklopedisi. Türkiye Dinanet Vahfi. 44 cilddə, XI c., İstanbul, 1995.
5. Bilgiç A. Hadislerde uluhiyyet. Çukurova Üniversitesi Sosyal Bilimler Enstitüsü Temel İslam Bilimleri Anabilim dalı. Ankara, 2007.
6. Kərimov E. Əsmayi-hüsna (Allahın gözəl adları). Bakı: İpək yolu, 2012.
7. Yurdagür M. Ayet və hadislerde Əsma-i-Hüsna, Allahın İsimleri. İstanbul: Kardeşler, 1999.
8. Konəvi S.M. Şərhu-l-əsmau-l-husna. Əlyazma məcmuəsi, 186v.

**Егяна Рахнулла**

## ОБЬЯСНЕНИЕ ТЕРМИНА «АСМА АЛЬ-ХУСНА» (ПРЕКРАСНЫЕ ИМЕНА АЛЛАХА) В РЕЛИГИИ ИСЛАМА

**Резюме**

«Асма аль-Хусна» это религиозный термин, в котором сосредоточено 99 прекрасных имён Аллаха, взятых из разных хадисов и аятов Корана. В религиозной литературе имеются различные примечания о 99 прекрасных именах Аллаха, входящих в «Асма аль-Хусна». Все эти имена отражают свойства, присущие Аллаху. При подготовке списка имен, составляющих основу «Асма аль-Хусна», главными источниками являлись Коран и хадисы. Некоторые письменные памятники, написанные известными учеными и переписчиками в средние века, которые хранятся в Институте рукописей им. Мухаммеда Физули НАНА, очень многообразны. Среди них хранится свыше 30 произведений относительно "Асма аль-Хусна", в которых говорится о 99 прекрасных именах Аллаха.

**Ключевые слова:** Ислам, Коран, хадис, "Асма аль-Хусна" (прекрасные имена Аллаха) , тафсир (толкование Корана), тасаввуф (суфизм), рукопись

**Yegana Rahnulla**

## EXPLANATION OF THE TERM “ASMA UL-HUSNA” ( THE BEAUTIFUL NAMES OF ALLAH) IN RELIGION OF ISLAM.

**Summary**

“Asma ul-husna” is a religious term expressed 99 the most beautiful names of Allah taken from different ayates and hadiths of Quran. In the religious literary sources there are different notes related to Allah's 99 names entered into “Asma ul-husna”. All these names reflect the faces of Allah. Preparing the list of the names found in “Asma ul-husna” we mainly address of the Quran and hadithes as sources. The written monuments of the medieval centuries by the well-known scholars and scribes preserved in the Institute of Manuscripts named after Mahammad Fuzuli of ANAS are very varied and different. Among these written monuments there are more than thirty works included “Asma ul-husna” that deal with the ninety nine beautiful names of Allah.

**Key words:** *Islam, Quran, hadith, “Asma ul-husna” ( the beautiful names of Allah), tafsir (interpretation of the Quran), tasavvuf (sufism), manuscript,*

# OXUCU RƏYİ

## ETİKA HAQQINDA DƏYƏRLİ DƏRS VƏSAİTİ

Hər bir cəmiyyətin normal fəaliyyəti və inkişafı üçün maddi münasibətlərlə yanaşı müəyyən mənəvi-əxlaqi dəyərlər sisteminin mövcud olması da zəruridir. Belə ki, mənəvi keyfiyyətlər insanın sosial simasını və mahiyyətini əks etdirən başlıca göstəricilərdir. İnsanların davranışında əxlaq normalarına əməl etməyin cəmiyyət üçün son dərəcə vacib olduğunu belə bir fakt da sübut edir ki, onlar cəmiyyət yaranan gündən meydana gəlib fəaliyyət göstərir.

Fəlsəfə elmləri doktoru, professor Qızılgül Yasin qızı Abbasovanın yeni çapdan çıxmış "Etika: tarix, nəzəriyyə və təcrübə" ali məktəblər üçün dərs vəsaiti kimi nəzərdə tutulmuş (Bakı, 2016, 368 s.) adlı kitabı dövrümüz üçün öz aktuallığı ilə diqqəti xüsusi cəlb edən bir problemə həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, etik problemlər xüsusi sosial-fəlsəfi məzmun daşımaqla daha dərindən öyrənilməlidir. Əsərdə etik problemlərin qoyuluşu, etikanın elmi paradiqmasının formalaşması tarixi, etik kateqoriyalar və qanunlar, etikaya aid müxtəlif nəzəriyyə və mülahizələr geniş təhlil olunur. Etik nəzəriyyə və baxışların cəmiyyətin ictimai şüurunun inkişafına, keçmişdə və müasir dövrdə onun təfəkkür, düşüncə tərzinə təsiri davamlı olaraq hiss olunmaqdadır. Bu mühüm məqam professor Q.Abbasovanın tədris vəsaitinin elmi aktuallığını daha da artırır.

Müəllif göstərir ki, fəlsəfi fikir tarixində elə bir mütəfəkkir olmamışdır ki, o etik problemlərə bu və ya digər şəkildə öz münasibətini bildirməsin. Əlbəttə, əsrlər boyu müxtəlif xalqların şüuruna hakim kəsilmiş əxlaq prinsipləri tarixi dövrlərin gedişində dəyişikliyə uğramış və yeni dəyərlərlə zənginləşmişdir. Dərs vəsaitində Qədim yunan, Çin, Hindistanda yaranmış əxlaq nəzəriyyələri ətraflı və müqayisəli təhlil edilmiş, bu nəzəriyyələrin keçdiyi inkişaf yolu dərindən tədqiq edilmiş, araşdırılmışdır.

Qədim Çin fəlsəfəsində ilahiləşdirmədən kənarda qalmayan yeganə obyekt səma olmuşdur. Səmanın rolu qədim dövrlərdə etik dəyərlərin rolu və əhəmiyyətini nəzərə alaraq sosial ahəngdarlığa nail olmasından ibarət idi. Sosial ahəngdarlığa, sosial ideala, real şəkildə davranış qaydalarına, adət-ənənələrinə, ədəb-ərkana necə nail olmaq yolu göstərilirdi. Çində etikanın əsas inkişaf xüsusiyyəti ondan ibarətdir ki, onun elementləri əxlaq sahəsindən başqa həm də ibadətləri, ritualları, mərasimləri, adət-ənənələri, vətəndaş hüququnu əhatə edirdi. Əxlaq burada davranış qaydaları kompleksi olaraq istər sosial və antropoloji, istərsə də qnoseoloji və ontoloji mənalarda anlaşılırdı. Çinlilərin fikrincə, ideal adam odur ki, o özündə bütün emosiyaları basıb qorxmadan ədalətsizliyə, zorakılığa, zülmə qarşı mübarizə apara bilsin.

Xristianlıq dini formalaşdıqdan sonra əxlaq dini əxlaqa çevrildi. Artıq Orta əsrlər Avropa əxlaqı xristian əxlaqı kimi yaşamağa başladı. Xristian əxlaqı bir tərəfdən stoiklərin əxlaqına çox yaxındır. Burada insana sevgi və humanizm ən ali formada ifadə olunur. Xristianlıqdakı universal əxlaqi əlaqələr mulkiyyət və intellektual dəyərləri özünə tabe edir. Bu dövrdə kilsənin rolunun və əhəmiyyətinin dəstəklənməsi xristian etikasının əsas vəzifəsi idi. Kilsə siyasi məqsədini, yəni sosial sülhə nail olmaq məqsədini həyata keçirərkən xüsusi əxlaqi idealını irəli sürür. Xüsusi icma, birlik olan xristianlar digər sosial birliklərdən fərqli olaraq insanları həqiqətən xoşbəxtliyə doğru apardıqlarına inanırdılar.

Qədim Yunanıstanda sofistlər mədəniyyəti, cəmiyyəti təbii hadisələrdən fərqləndirmiş, təbiət qanunlarının əbədiliyini, cəmiyyət qanunlarının isə insan tərəfindən yaradılmasını qeyd etmişlər. Sofistlər birmənalı olaraq bildirirdilər ki, mədəni hadisə olan əxlaqı normalar insan yaradıcılığının məhsulu olduğu üçün ümumi və zəruri halına salına bilməz. Xeyir və Şər arasında fərq həmişə konkret olur. Xeyirxahlığa yeganə bir tərif verilə bilməz. Beləliklə, sofistlər əxlaqın

tarixi xarakterini qeyd edərək bildirirdilər ki, cəmiyyət tərəfindən qəbul olunmuş əxlaqi normalar və davranış qaydaları nisbi xarakter daşıyır.

Klassik yunan fəlsəfəsinin nümayəndələrindən biri olan Sokrat bildirirdi ki, əxlaqda insan mədəniyyətinin elə bir müddəaları vardır ki, onların dərk olunması şəxsiyyətin yaxşı olmasının qarantıdır. Sokrat da klassik fəlsəfənin digər nümayəndələri kimi belə hesab edirdi ki, insanın hər bir əxlaqi hərəkəti düşünülmüş olmalıdır.

Platonun dünyagörüşündə isə real insanın maraq dairəsində olan əxlaqi dəyərlər arxa plana keçir və onu daha çox ideal mahiyyətlər maraqlandırırdı. Buna görə də o, ideal varlıqlar aləmini həmişə dəyərlilik baxımından real aləmdən fərqləndirirdi. Platon ideal aləmdə ən birinci yeri xeyirxahlığa verir və belə hesab edirdi ki, bütün gözəlliklərin və düzgün olanların da səbəbi odur. Antik fəlsəfədə etika sözündən ilk dəfə olaraq istifadə edən, onun tərifini, funksiya və prinsiplərini verən Aristotel olmuşdur. Onun "Nikomax etikası", "Evdem etikası", "Böyük etika" əsərlərində müxtəlif etik kateqoriyaların izahı verilmiş, insan həyatının mənası, xeyirxah insan haqqında təlimin mahiyyəti açılmışdır. Aristotelin fikrincə, insanın əxlaqi məziyyətləri və xasiyyəti təbii müqəddəm şərtlər əsasında və həyat fəaliyyəti nəticəsində formalaşır. O belə hesab edirdi ki, insanda yaxşılığa anadangəlmə meyillilik var. İnsan həm də həzz, ləzzət almağa çox meyillidir. Bu kimi istəklərə qalib gəlmək üçün isə insan daim özünü tərbiyələndirməlidir. Bunu həyata keçirmiş insan isə özünü daha yaxşı idarə edir və əxlaqında orta xətti həmişə saxlamağa üstünlük verir.

Klassik yunan fəlsəfəsində əxlaqda volyuntarizm və fetişizm məsələlərinə geniş yer verilmiş və müxtəlif dövrlərdə fəaliyyət göstərmiş mütəfəkkirlər bu məsələlərdən öz mənafeləri baxımından istifadə etməyə cəhd etmişlər. Volyuntarizm mövqeyinin tərəfdarları belə hesab etmişlər ki, onlar bütün xeyirli və zərərli işləri görərkən hər hansı bir sosial qanunlardan və normalardan asılı olmayaraq, sərbəst şəkildə öz mənəvi davranışını tənzimləyə bilərlər. Beləliklə, bu təlimə görə insan bütün hərəkətləri etməkdə sərbəstdir. Bu hərəkətlər əxlaqi normalara uyğun ola da bilər, olmaya da bilər. Bu mənada volyuntarizm fərdiyyətçilik və nihilizmin əsasında durur.

Klassik fəlsəfədə təşəkkül tapmış əxlaqi prinsiplərdən biri də fatalizmdir. Bu prinsipə görə insan həyatı qabaqcadan Allah, tale tərəfindən müəyyənləşdirilmişdir. İnsan öz həyatının istiqamətini heç bir halda dəyişdirə bilməz və o, kodlaşdırılmış bu həyatı mütləq yaşamalıdır. Əxlaqi baxımdan fatalizm öz həyatı ilə barışma, yazılmış həyat kodlarına tabe olma kimi başa düşülür.

İntibah dövrünün əxlaq nəzəriyyəsində insan azad iradəyə, istədiyi sahədə özünü tam ifadə etmək imkanına malik yaradıcı bir varlıq kimi başa düşürdü. Bu dövrün əxlaq nəzəriyyəsində əxlaqi dəyərlər sırasında ən ali yerdə xeyirxahlıq durur. "Virtu" anlayışı ilə ifadə olunan bu əxlaqi dəyər iradə və ağlın birləşməsi nəticəsində formalaşaraq insanı xoşbəxtliyə doğru aparır. Əxlaqi normanı, onun mükəmməl ifadəsini real həyatda, fəal mövqedə həyata keçirmək nəzərdə tutulmuşdu. Bu dövrdə əxlaqda naturalist anlam tarixi-ictimai xarakter daşıyırdı. Rasionallığa malik ruh vasitəsilə insan öz daxili imkanlarını ifadə edə bilirdi. O, intellekt gücü hesabına digər insanlarla ünsiyyət yaradaraq qarşılıqlı fayda zəminində özünü kamilləşdirirdi.

Monoqrafiyada göstərildiyi kimi, Yeni dövrün əxlaqı Orta əsrlərin miras qoyduğu ideologiyanın inkarından başlayır. Əxlaq transsendental mahiyyətini tədricən empirik, praktik sahəyə yönəldir. Burada əsas rolu insanın həyat təcrübəsi, onun zəkası ilə yanaşı Allah ideyası və abstrakt əxlaqi ideyalar oynayır.

Mişel Monten "Təcrübələr" əsərində (1580) göstərir ki, insan öz təcrübəsini tənqidi şəkildə işləyib qiymətləndirmək bacarığına malik olmalıdır, yəni öz "Mən"ini, öz həyat təcrübəsini fasiləsiz olaraq inkişaf etdirməlidir. Özünüdərk və sağlam düşüncə isə insanın sosial varlıq kimi bütövlüyünü təmin etməlidir.

Rene Dekart insanın sosial həyatında əxlaqi normaları təhlil edərək belə bir fikrə gəlirdi ki, ağıl vasitəsilə insan praktik həyatın ziddiyyətlərini həll etməyə çalışmalıdır. O əmin idi ki, hər bir insan bu məsələnin öhtəsindən gəlmək imkanına malikdir. O eyni zamanda ağıllı davranış üçün həqiqətin dərk edilməsi və ondan faydalı şəkildə istifadəni əsas şərt hesab edirdi.

Con Lokkun fikrincə isə əxlaq fərdlərin istənilən hərəkətlərinə qarşı çıxış edən və həmin hərəkətləri həm onun özünə, həm də cəmiyyətə fayda verə biləcək istiqamətə yönəldən qaydalardır.

Maarifçilik dövründə etik nəzəriyyələrdə əsas məsələ həqiqət və əxlaqiliyin, dərketmə və azadlığın vəhdəti məsələsi idi. Maarifçilər insan zəkasının avtonom, yəni müstəqil olması ideyasını irəli sürürdülər. Bu dövrdə fikir azadlığı və tolerantlıq məsələsi də insan probleminin mərkəzi anlayışlarından biri idi. Maarifçilik dövrünün etikası üçün xarakterik cəhətlərdən biri o idi ki, bu dövrdə hökm sürən empirik yanaşma insanı təbii, emosional, intellektual və estetik tərəflərin toplusu kimi başa düşərək, onun əxlaqi yüksəliş yolunu ağıl və hisslərin uzlaşdırılmasında görürdü.

Emmanuel Kant belə hesab edirdi ki, insan öz mənəvi borcunu yerinə yetirmək üçün özündən uca olan başqa bir varlığa ehtiyac duymur. O dini ağıl üzərində qurulan bir inam kimi qələmə verməyə və bununla da onu kilsə inamından uzaqlaşdırmağa çalışırdı. Kantın etikasında Allah əxlaqı və xoşbəxtliyi birləşdirir, insanı bu yolla daha da fəallaşdırır. Əxlaq avtonom xarakter daşıyır, din də əslində əxlaqi-praktik ağıldan irəli gəlir. Əxlaq dinə məzmun və məna verir. İnsanın əxlaqlılığı avtonom ağıl vasitəsilə ictimai praktikanın dərk edilməsidir. İnsanın əxlaqi imkanları şəxsin ictimai mahiyyətini ifadə edir. Kant müəyyən mənada maarifçilik fəlsəfəsinin əxlaq konsepsiyasını qəbul edirdi. Bu mənada İ.Kant göstərirdi ki, əgər insanın azadlığı olmasaydı, onda heç bir əxlaq qanunu və qanun üzrə mühakimə də olmazdı.

İnsan öz hərəkət və davranışlarında müəyyən azadlığa malik olmalıdır. Mütləq iradə azadlığı olduğu yerdə isə sosial və ya əxlaqi normalara məhəl qoyulmur, bu halda azadlıq deyil, özbaşınalıq hökm sürür. Bununla yanaşı qeyd olunmalıdır ki, əxlaq normalarının mexaniki yerinə yetirilməsi, burada yaradıcılığa yer verilməməsi də əsl azadlıqdan uzaqdır. Mənəvilik, əxlaqilik insanın sosial simasını ifadə edən başlıca əlamətlərdəndir. Əxlaq normalarına əsaslanan davranış və hərəkətlər, bütövlükdə əxlaqi şüur cəmiyyətin mövcudluğu, tərəqqisi və humanistləşməsinin zəruri şərtidir.

Qeyd etmək lazımdır ki, əxlaq normaları insanların həyatında ikitərəfli rol oynayır: bir tərəfdən konkret situasiyada onları düzgün səmtləşdirən vasitələr kimi çıxış edir, digər tərəfdən isə onların hərəkət və əməlləri üzərində nəzarəti həyata keçirir. Bu keyfiyyəti sayəsində onlar azadlıq ilə əlaqələrinə stimullaşdırıcı təsir göstərir. Hər bir cəmiyyətin əxlaqi şüurunda insanların davranış və hərəkətlərinin ümumi tərəfindən qəbul olunmuş normaları və qiymətləndirici mühakimələri əsas yer tutur. Əxlaq normalarının tətbiqi dairəsi universal olub sosial həyatın bütün sferalarını, insanın fəaliyyəti və davranışının hər bir sahəsini əhatə edir. Əxlaq normaları insanların davranışının tənzimlənməsində, fərdi və ictimai maraqların əlaqələndirilməsində müstəsna rol oynayır. Lakin insanların davranışının sosial normalar vasitəsilə tənzimlənməsi fərdin şəxsi azadlığının təzahür sferasını daraltmamalıdır.

Əxlaq normaları insanların davranışında və hərəkətlərində mümkün olan ilə yol verilənin həddlərinin diapazonunu geniş miqyasda götürür, yəni insanlara seçim etməkdə və onu yerinə yetirməkdə əhəmiyyətli dərəcədə müstəqillik verir. Əxlaq normaları yalnız qərarlar və ümumi davranış variantları axtarışının ümumi oriyentiri rolunu oynayır. İnsanın əxlaqi avtonomluğunun əsasında onun keçmişdə analoji vəziyyətdə etdiyi hərəkətin, yerinə yetirmiş olduğu normanın ədalətliliyinə və məqsədəuyğunluğuna dərin inam durur. Qeyd olunan cəhət əxlaq normalarında azad seçim və davranış üçün daha geniş imkanlar olduğunu sübut edir və bu baxımdan mühüm əhəmiyyətə malikdir. Bununla yanaşı nəzərdə tutulmalıdır ki, əsil mənəvviyyata malik olan adam

o şəxsdir ki, o, əxlaq normasında ifadə olunan tələbi kor-koranə deyil, öz daxilində, düşüncə və hisslərindən keçirərək azad yaradıcı surətdə yerinə yetirir.

Əxlaq normalarında bütün davranış və hərəkətlər xeyir və şər mövqeyindən mənalandırılır. İnsanların xoşbəxtliyinə və ictimai tərəqqinin maraqlarına cavab verən əməllər xeyir (fəzilət) hesab olunur. Xeyir öz məzmunu və mahiyyətinə görə azadlıqla sıx bağlıdır. Burada fərdi ilə ictimai marağın uzlaşmasını nəzərdə tutan əxlaqi zərurət özünü göstərir. Sonuncu insanın öz maraqları ilə cəmiyyət qarşısında öhdəliklərinin vəhdətinin dərkində ifadə olunur. Buna görə də insan davranışında azadlıq məqamından daha geniş ifadə edə bilər ki, kənar məcburiyyət normalarına əsaslanmasın. Sırf mənəvi mülahizələrdən (həm də xeyli dərəcədə könüllü) çıxış etməklə qarşısına çıxan məsələləri həll etsin.

Deyilənlərdən fərqli olaraq şər (qəbahət) adı altında, bir qayda olaraq, şəxsi və ictimai baxımdan mənfi xarakterli davranış və hərəkətlər ifadə olunur. Onlar öz məzmununa görə əxlaqi normalara nəinki uyğun olmur, hətta ziddiyyət təşkil edir. Təbiidir ki, belə olan halda hətta müxtəlif qəbahətlərdə müəyyən qədər iradə azadlığı olsa da, onları həqiqi azad seçimə əsaslanan əxlaqi davranış hesab etmək olmaz. Beləliklə, mayası xeyirxahlıq üstə köklənmiş hər bir davranış və hərəkət eyni zamanda azad xarakter daşıyır. Bununla yanaşı nəzərdə tutulmalıdır ki, şüurlu seçimə əsaslanan, yəni əxlaq qaydalarının dərki, onların törətdiyi nəticələri başa düşməklə edilən hərəkətləri heç də həmişə azad hesab etmək doğru olmazdı. Bu onunla izah edilməlidir ki, bəzən təkcə xeyirxahlıq deyil, bədxahlıq (qəbahət) də şüurlu surətdə özünü göstərə bilir. Belə vəziyyətdə əxlaq qaydaları pozulur, iradə pis niyyətə yönəlir və onu reallaşdırır. Sözügedən halda da formal baxımdan azadlıq iştirak edir, lakin onu əsl mənada azad iradənin həyata keçirilməsi adlandırmaq olmaz. Bunun səbəbi odur ki, orada seçim, qərar və deməli, hərəkət, əxlaqi zərurəti ifadə etmir, mənəvi yetkinliyi göstərmir.

Monoqrafiyada Azərbaycan ictimai-fəlsəfi fikir tarixində etik ideyaların formalaşması, inkişafı məsələləri müxtəlif aspektlərdən ətraflı tədqiq edilir. Yeni dövr etikası üçün səciyyəvi olan cəhətlərdən biri də Qərb mədəniyyəti, həyat tərzi, ictimai-iqtisadi dəyərlərinin Şərq xalqlarının əxlaq, baxışlarında öz əksini tapması məsələsi də kitabda şərhini tapmışdır.

Monoqrafiyada göstərilir ki, Azərbaycan maarifçilərinin etik görüşləri, hər şeydən əvvəl, XIX əsrin ortalarında və ikinci yarısında Azərbaycanın ictimai – siyasi və iqtisadi şəraitinin məhsulu və onun inikası idi. Maarifçilərimizin dünyagörüşü, o cümlədən də etik baxışları çar hökuməti, imtiyazlı feodal silkləri ilə zəhmətkeş kəndlilər və şəhər yoxsulları arasında gedən mübarizə zəminində formalaşmışdır. Eyni zamanda Azərbaycan maarifçilərinin etik görüşləri köhnə feodal-patriarxal münasibətlərini qoruyub saxlamağa cəhd edən ideoloji cərəyanlara qarşı mübarizə şəraitində meydana gəlmişdir. Onlar öz yaradıcılıqlarında Azərbaycan etik fikrinin çoxəsrlik tarixi və mütərəqqi ənənələrinə və zəngin ideya irsinə əsaslanmışlar.

Maarifçilərimiz öz sələflərinin əsərlərindəki azadlıq, dərin humanizm, vətənə məhəbbət, digər millətlərə hörmət, sosial ədalətsizliyə qarşı nifrət ideyalarını dərindən əxz etmişlər. Onlar öz etik görüşlərində sələflərinin böyük ruh yüksəkliyi ilə uzun illər boyu tərənnüm etdikləri ədalətlilik, cəsurluq, mərdlik, təvazökarlıq, səmimilik, doğruçuluq kimi əxlaqi sifətlərini təcəssüm etdirmişlər.

Əlbəttə, Azərbaycan maarifçiləri öz sələflərinin etik baxışlarını mexaniki olaraq təkrarlamamışlar. Onlar sələflərinin ideya irsini layiqincə qiymətləndirərək və bu irsin mütərəqqi, qabaqcıl cəhətlərini mənimsəyib əxz edərək ondan bir ideya mənbəyi kimi istifadə etmişlər. Onlar yeni tarixi şəraitdə sələflərinin etik fikirlərinin mütərəqqi cəhətlərini daha da inkişaf etdirib, öz sələflərinə nisbətən etik anlayış və kateqoriyalara daha radikal məzmun vermişlər.

Ümumilikdə götürdükdə insanın bütün fəaliyyəti, yaradıcılığı, davranışı onun mənəvi aləminin gözəl olub-olmamasından çox asılıdır. Əgər insanın mənəvi aləmi gözəl və kamildirsə, onun fəaliyyəti, yaradıcılığı, davranışı, gördüyü işlər də gözəl və kamil olacaq, cəmiyyət həyatının

daha da gözəlləşməsinə xidmət edəcəkdir. Əksinə, insanın daxili aləmi yoxdursa, çirkin və eybəcərdirsə, belə nöqsanlı daxili aləmi olan insanın işi, fəaliyyəti, hərəkətləri, münasibəti, o cümlədən zövqü də eybəcər olacaqdır. O, həmişə ümumi işə zərər verəcək, xətər toxunduracaqdır. Müasir dövrdə etik problemlərin izahına dair çoxlu müxtəlif, bəzən də bir-birinə zidd baxışlar və mövqelər formalaşmışdır. Bununla belə, cəmiyyətin inkişafı gedişində potensialı artdıqca və sosial praktikası zənginləşdikcə, etika haqqında təsəvvürlər də təkmilləşmiş və onun adekvat elmi anlamı formalaşmışdır.

Dərs vəsaitində qeyd olunur ki, müstəqillik əldə etdikdən sonra ölkəmizdə totalitar rejimin qalıqları qətiyyətlə aradan qaldırılmış, cəmiyyət həyatının bütün sahələrində əsaslı dəyişikliklər baş vermiş, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulması istiqamətində mühüm addımlar atılmışdır. Ölkəmizdə həyata keçirilməkdə olan mürəkkəb və genişmiqyaslı vəzifələrin uğurlu həlli sosial-fəlsəfi tədqiqatlar sahəsində vaxtı çatmış problemlərin araşdırılmasını da vacib edir. Bu baxımdan etika və əxlaq problemlərinin elmi-fəlsəfi konsepsiyasının yaradılması xüsusi zərurət kimi ortaya çıxır. Ümumbəşəri universal dəyərlər sistemində xüsusi yer tutan etik problemlər ümumi və mücərrəd məzmuna malik olmayıb konkret-tarixi səciyyə daşıyır, onun mahiyyəti və məzmunu, reallaşması miqyası mövcud ictimai quruluşun xarakteri və inkişaf səviyyəsi ilə şərtlənir. Məsələyə bu mənada yanaşdıqda, müasir dövrdə etik problemlərin məzmunu və həyata keçirilməsində keyfiyyətcə yeni mərhələ başlanır.

Əlbəttə, Azərbaycan müstəqillik əldə etdikdən sonra ictimai elmlərdə aparılan uğurlu islahatlar, universitetlərimizdə yeni-yeni ixtisas və fakültələrin açılması etika sahəsində yeni tədqiqat və tədris vəsaitlərinə tələbatı artırmışdır. Bu mənada Q.Abbasovanın "Etika: tarix, nəzəriyyə və təcrübə" adlı dərs vəsaiti etika sahəsində olan boşluğu doldurmaq baxımından olduqca əhəmiyyətlidir. Həm də nəzərə almalıyıq ki, əvvəlki dərsliklər və dərs vəsaitləri marksist metodologiyası əsasında tərtib edildiyindən müasir günümüzün tələblərinə cavab vermir. Amma bütün deyilənlərlə yanaşı dərs vəsaitində bir sıra məsələlər də vardır ki, onlar ya müəllifin nəzərindən qaçmış, ya da nədənsə müəllif bu məsələlərə bilərəkdən az diqqət yetirmişdir. Belə ki, müasir qloballaşma şəraitində dünya dövlətləri arasında sərhədlərin aradan qaldırılması, müxtəlif etik nəzəriyyələrin dünya dövlətləri arasında geniş yayılmasına səbəb olmuşdur. Bu mənada Azərbaycan dövləti də Avropa və Qərb nəzəriyyələrindən əvvəlki dövrlərdən fərqli olaraq geniş surətdə bəhrələnmək imkanı əldə etmişdir. Yeni etik nəzəriyyələr təhsil sistemimizdə və insanların dünyagörüşlərində müxtəliflik yaratmaqla yanaşı, həm də milli mədəniyyətlərə bəzi hallarda mənfi təsir etmək imkanına da malik olmuşlar. Belə ki, etika sahəsində mövcud olan yeni baxışlar və yanaşmalar milli mədəniyyətlərin və xüsusilə də submədəniyyətlərin aradan çıxmasına səbəb olmuş, sanki dünyada hamının qəbul etdiyi vahid qlobal mədəniyyəti formalaşdırmışdır. Bu proses isə mədəni müxtəlifliyin inkişafına mənfi təsir göstərən hallardan biridir. Digər tərəfdən müasir Qərb etik nəzəriyyələrində fərdiyyətçilik ruhu kəskin artmış və bu proses isə insanlarda özgələşmə meylini daha da artırmışdır. Yaxşı olardı ki, sadalanan məsələlər dərs vəsaitində daha geniş surətdə təhlil ediləydi və bu məsələlərə müəllif münasibəti daha geniş veriləydi.

Fikrimizcə, Q.Abbasovanın "Etika: tarix, nəzəriyyə və təcrübə" (Bakı, 2016, 368 s.) adlı dərs vəsaiti etika probleminə istər sosial-fəlsəfi, istər tarixi və istərsə də ictimai elmin müxtəlif istiqamətlərini dərindən öyrənmək baxımından olduqca zəngindir. Bu kitabı ali təhsil müəssisələrində fəlsəfə fənninin mühüm istiqamətlərindən biri olan etika probleminin öyrənilməsində mühüm metodiki dərs vəsaiti kimi qiymətli tədqiqat əsəri hesab etmək olar.

**İzzət Rüstəmov**
fəlsəfə üzrə elmlər doktoru, professor
**Rəşad Əsgərov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent

**Hüquq üzrə elmlər doktoru, professor Ə.H.Rzayevin "Şəxsiyyət, Dövlət, Möcüzə" monoqrafiyasına**

**R Ə Y**

Professor Ə.H.Rzayevin elmi əsəri bir sıra fundamental xarakterli problemlərin təhlilinə həsr edilib. Bu problemlər müəllif tərəfindən sistemli şəkildə araşdırılır və və bunun nəticəsində insan, cəmiyyət, dövlət arasında qarşılıqlı əlaqələrin və onların bir-birindən asılılığı, bir-birinə təsir etməsində müəyyən bir qanunauyğunluğun olması sübut edilir. Əsəri fərqləndirən cəhətlərdən biri müəllif tərəfindən müasir elmin müxtəlif metodologiyalarından istifadə edilməsidir. Məsələn, tarixi aspektlərin araşdırılmasında tarixi, müqayisəli-tarix, dövlət, cəmiyyət və hüquq ilə bağlı problemlərin araşdırılmasında müqayisəli-hüquq, problemlərin kompleks şəkildə araşdırılmasında sistemli təhlil, müəyyən anlayışların, o cümlədən insan, şəxsiyyət, dövlət, cəmiyyət, bəşəriyyət anlayışlarının müəyyən edilməsi və tətbiqində formal-məntiqi, bəşəriyyətin inkişafının və onun müxtəlif mərhələlərinin tədqiqində isə dialektika üsullarından məharətlə istifadə edilib. Əsəri həm də fərqləndirən digər bir xüsusiyyət müəllifin insan cəmiyyətinin inkişafında xüsusi çəkiyə malik olan filosofların, mütəfəkkirlərin, bəşəriyyətin inkişafında öz yerlərini tutmuş görkəmli şəxslərin və alimlərin əsərlərindən geniş istifadə etməsidir. Təbii ki, bütün bunlar müəllifin elmin müxtəlif sahələrində zəngin biliklərə malik olmasına dəlalət edir. Onu da qeyd etmək istərdim ki, müəllif bu əsərin yaradılması üçün uzun yol keçmiş və onun ölkəmizin elmi elitasının bəyəndiyi və qəbul etdiyi bu problematika ilə bağlı əsərlərini və çoxsaylı məqalələrini bu yolun ayrı-ayrı mərhələlərinin aprobasiyasi kimi qiymətləndirmək olar. Əsərin əvvəlində müəllif tərəfindən tərtib edilən sxemdə əsərin aparıcı ideyası əvvəlcədən müəyyən edilir. Bununla da o cəmiyyətin, bəşəriyyətin inkişafında əsas parametrlərində müəyyən edir və insan cəmiyyətində, onun inkişafında bir sıra unikal hadisələri haqlı olaraq möcüzə kimi qiymətləndirir.

Müəllif haqlı olaraq belə bir postulatdan çıxış edir ki, hər şeyin əsas ölçüsu insandır. İnsan əqli həyatın ən yüksək formasının təzahürüdür. Lakin cəmiyyətin formalaşması və bəşəriyyətin inkişafı üçün insan şəxsiyyət keyfiyyətlərinə malik olmalıdır. Şəxsiyyətlər məclisi, şəxsiyyətin çəkisi yüksək olan cəmiyyətlər, bəşəriyyətin inkişafının əsas komponentinə çevrilir və insan cəmiyyətinin təşkil olunmuş müxtəlif formalar alması, onların içində isə ən yüksəyi olan dövlətin formalaşması üçün əsas şərt kimi çıxış edir. Müəllif, fikrimcə bu səbəbdən dövlət kateqoriyasının araşdırılmasına xüsusi diqqət ayırır. Çünki müəyyən mərhələdə bəşəriyyətin inkişafının əsas formalarından biri, bəlkə də birincisi, özünü dövlətlərin inkişafı formasında büruzə verir. Onu da xüsusi vurğulamaq istərdim ki, ənənəvi olaraq, xüsusən Qərb ədəbiyyatında, bəşəriyyətin inkişafına dair, o cümlədən dövlətlərin inkişafına dair fəlsəfi təlimlərin və nəzəriyyələrin guya ki, əsasən Qərb ölkələrində yaranması və inkişafı haqqında fikirlər aparıcı yer tutur. Halbuki bu fikrin özü ən azından mübahisəlidir. Prof. Ə.Rzayev çoxlu sayda Şərq filosofları, mütəfəkkirləri və şairlərin əsərlərini tədqiq edərək bir sıra maraqlı nəticələr əldə etmiş və təkliflər irəli sürmüşdür (xüsusən bax əsərin V fəslinə). Bunların içində dahi Azərbaycan şairi, və həm də fikrimcə, filosofu və mütəfəkkiri Nizami Gəncəvinin də böyük rolunu qeyd etmək lazımdır. Məsələn, utopik ədalətli cəmiyyət və dövlət haqqında onun fikirləri avropalı Tomas Mordan bir neçə əsr əvvəl irəli sürülmüşdür. Düzdür, demək olar ki, ədalətli dövlət haqqında hələ Platon da bir sıra fikirlər irəli sürmüşdür. Belə ki "Dövlət" əsərində ideal dövlətə xas olan bir neçə xüsusiyyəti qeyd etmişdir. Dövlətin müdrikliyini Platon idarəedənlərin (nəinsə keşiyində, məsələn, ədalətin keşiyində durmaq) baçarığında görür. Platonun əsas fikri ədalətli dövlətin qurulmasını bir qrup müdrik olan şəxslərin

(hökmverənlərin) idarəetməsində görür. Platon qeyd edir ki, bu məsələ ilə bağlı hökmverənlərin və hakimiyyət altında olanların kim tərəfindən idarə olunmasına dair razılığı olmalıdır. Bununla belə, Platon xüsusi olaraq vurğulayır ki, ədalətli dövlət üçün xas olan əlamətlər ağıl-fərasət, hünər, şüurluq və ədalət əsas keyfiyyətlərdir. Və ən əsası cəmiyyətdə olan üç təbəqə gərək bir-birinin işlərinə müdaxilə etməsinlər. Digər halda isə bu dövlətə vurulan ən böyük zərərdir və ən ciddi cinayətdir. Bununla belə, qulları o heç bir təbəqəyə aid etmir və onlara cəmiyyətin bir tərkib hissəsi kimi baxmır.

Nizamının ideal dövlət konsepsiyası öz demokratikliyi, ədalətliyi, qərarların qəbul edilməsində və cəmiyyətin idarə olunmasında bütün insanların ümumi razılığın olması və s. ilə fərqlənir. Bütün bu ideyalar indiyə kimi öz müasirliyini və aktuallığını saxlayır.

Ümumiyyətlə, fikrimcə, prof. Ə.Rzayev haqlı olaraq diqqəti o problemə cəlb edir ki, dövlət və cəmiyyət ilə bağlı Al-Farabinin, İbn Sinanın, Nizamimülkün, Nizami Gəncəvinin, N.Tusinin və s. əsərlərində əks olunmuş konsepsiyalar ümumbəşəri xarakter daşıyır. Bunun böyük həm nəzəri, həmçinin praktiki əhəmiyyəti vardır. Belə ki, elmi şəkildə bu problematika ilə bağlı yalnız"Qərb hegemonluğu" haqqında fikirlərin əsaslı olmaması sübuta yetirilir.

Fikrimcə, monoqrafiyanın III fəsli unikal xarakter daşıyır. Mənim diqqətimi çəkən digər bir məsələ, Qərb sivilizasiyasının formalaşması və inkişafında Şərqin təsiridir. Heç də sirr deyil ki, bu problemlərin araşdırılmasına elmdə yeni qədəm qoyulub. Xüsusən, Şumer sivilizasiyasını əslən bəşəriyyət tarixində möcüzə kimi qiymətləndirmək olar.Onu da qeyd etmək zəruridir ki, şumer dili və türk dilləri arasında oxşarlığın olması çox maraqlıdır. Məsələn, O.Suleymenov "Az və ya" («Az i Ə»)və s. əsərlərində yüzlərlə eyni və ya oxşar sözləri göstərir (məsələn, yer, gil, qamış və s.). Onda belə bir sual əmələ gəlir. Ənənəvi Qərb və rus elmi ədəbiyyatında bir sıra müəlliflər türk tayfalarının Yaxın Şərqə XI əsrdən sonra gəlmələrini və guya ki, bu vaxta qədər türk tayfaların bu regionla heç bir əlaqəsi olmadığı iddia edilir. Bəs onda neçə izah etmək olar ki, şumer dilində olan sözlərə yanlız türk dilində rast gəlmək olar və digər dillərdə onlara demək olar ki, rast gəlinmir? Bu sual qarşısında belə müəlliflər acizdir. Məsələn, mənim fikrimcə şumer əfsanəvi qəhramanın adı Gilqamışdır. Hətta indi də bu adın mənasını, fikrimcə asan izah etmək olar. "Gil" palçıq deməkdir. İndi də bəzi kəndlərlə palçıqdan kərpiçlər düzəldəndə palçığa qamış doğradılaraq əlavə edilir. Belə halda kərpiçlər daha dözümlü və bərk olur. Gilqamış, yəni içində qamış olan kərpiç kimi bərk olan, güclü insan mənasını verə bilər.

Prof. Ə.Rzayevin monoqrafiyası yeni araşdırma istiqamətlərini (məsələn, qədim dövlətlərin (həm Qərbdə, həmçinin Şərqdə) yaranmasında, onların idarəolunmasında, qanunlarında oxşar cəhətlərə malik olub-olmamasında və s. problemlərin tədqiq edilməsində müəyyən edir.Bu isə əsərin dəyərini daha da artırır.Bu sahələr, demək olar ki, araşdırılmamış və bu sahələrdə müəyyən boşluqlar mövcuddur.

Ümumiyyətlə, fikrimcə, bu əsəri təkcə onu oxumaqla kifayətlənmək düzğun deyil. O ayrı-ayrı fraqmentlərə, parçalara bölünmüş hissələrdən ibarət olan vahid bir sistemin, bəşəriyyətin ümumi müəyyən qanunlarla inkişaf olunması haqqında təsəvvürün formalaşmasında vacib bir vasitədir.

**Rauf Qarayev**
**Hüquq üzrə fəlsəfə doktoru, dosent**

## ELMİ HƏYAT

AMEA Fəlsəfə İnstitutunda "Bir sıra anlayışların ümumvəhdət fəlsəfəsi kontekstində yeni məzmun çalarları" mövzusunda seminar keçirilib.Tədbirdə professor Zümrüd Quluzadə məruzə ilə çıxış edib.

Alim müasir elmi idrakda baş verən dəyişiklikləri qeyd edib, anlayış və kateqoriyalara yeni yanaşmalara ehtiyac yarandığını deyib. Bu keyfiyyətdə fəlsəfədə olan varlıq, idrak, inkişaf və etnos kimi anlayışların yeni məzmun çaları daşıdığı vurğulanıb.

Z.Quluzadə bunun üçün yeni metodologiyanın yaradılmasına ehtiyac olduğunu qeyd edib. Bildirilib ki, bu məsələdə Lütfi Zadənin qeyri-səlis məntiq nəzəriyyəsi, sinergetika və başqa müasir sintetik elmi istiqamətlərdə işlənən metodoloji yanaşmalara nəzər salmaq olar. Azərbaycan filosoflarının bu istiqamətdə tədqiqat aparmaları vacibdir.

İnstitutun direktoru, professor İlham Məmmədzadə və digər çıxış edənlər məruzənin müxtəlif aspektləri ilə bağlı fikirlərini bildiriblər.Qeyd olunan problem və onun Azərbaycan fəlsəfəsi ilə əlaqəli tərəflərinin növbəti seminarlarda müzakirə edilməsi qərara alınıb.

***

AMEA-nın Fəlsəfə İnstitutunda tanınmış filosof alim, fəlsəfə üzrə fəlsəfə doktoru Solmaz Rzaquluzadənin 85 illik yubileyinə həsr olunan elmi konfrans keçirilib.

Tədbirdə institutun direktoru, professor İlham Məmmədzadə alimin keçdiyi ömür yolundan, zəngin elmi fəaliyyətindən söz açıb. Bildirib ki, məhsuldar yaradıcılıq yolu keçmiş Solmaz Rzaquluzadənin tədqiqatlarında fəlsəfə tarixinin bəzi aktual problemləri ətraflı tədqiq olunub.

Sonra İctimai Elmlər Bölməsinin akademik-katibi akademik Nərgiz Axundova S.Rzaquluzadənin Azərbaycan elminə verdiyi töhfələrdən, fəlsəfə sahəsinin inkişafında əvəzsiz rolundan danışıb, onun zəngin irsinin uzun illər boyu tədqiq ediləcəyini vurğulayıb. N.Axundova bu kimi yubiley tədbirlərin keçirilməsini ömrünü elmə həsr edən alimlərə verilən dəyər kimi qiymətləndirib.

Tədbirdə çıxış edən f.ü.e.d., professor Zümrüd Quluzadə Solmaz Rzaquluzadəni gənclik illərindən tanıdığını söyləyərək onun müsbət cəhətlərindən söhbət açıb, alimlə bağlı xatirələrini bölüşüb. Z.Quluzadə alimin həyat yolunun gənc filosoflar üçün örnək olduğunu diqqətə çatdırıb.

Konfransda professor İzzət Rüstəmov, f.ü.e.d. Rəfiqə Əzimova, f.ü.e.d. Arzu Hacıyeva, gənc alim Zaur Rəşidov müxtəlif mövzularda məruzələrlə çıxış edərək S.Rzaquluzadəni təkcə böyük alim deyil, həm də böyük insan kimi xarakterizə ediblər.

Sonda alimin ailəsi adından çıxış edən qızı Fidan Fərəcova tədbirin təşkilatçılarına və iştirakçılarına minnətdarlığını bildirib.

***

AMEA Fəlsəfə İnstitutunda "Kreativ tolerantlıq və konvergensiya" Elmi Disskussiya Klubunun "Fənlərarası metodologiyanın təşəkkülü" mövzusunda növbəti elmi seminarı keçirilib.

Seminarda institutun şöbə müdiri, fəlsəfə üzrə elmlər doktoru Füzuli Qurbanov məruzə ilə çıxış edərək sinergetik yanaşma prizmasında fənlərarası metodologiyanın formalaşması imkanlarından danışıb.

Həmçinin H.Haken, İ.Priqojin və digər alimlərin yaradıcılığından bəhrələnərək sinergetika ilə qeyri-səlis məntiqin nəzəri-metodoloji kəsişmə sahəsində fənlərarası metodologiyanın hazırlanması problemini də analiz edib.

Məruzəçi indiyə kimi bu sahədə apardığı tədqiqatların nəticələri haqqında da seminar iştirakçılarına ətraflı məlumat verib. Seminar qarşılıqlı müzakirələrlə başa çatıb.

***

Mərkəzi Elmi Kitabxanasında AMEA Fəlsəfə İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Fransanın Sofia-Antipolis Universitetinin hüquq və siyasi elmlər fakültəsinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi, mədəni müxtəliflik və milli identiklik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə Azərbaycanda akkreditə olunmuş ABŞ, Fransa, Mərakeş, Misir, Pakistan, Qazaxıstan və digər ölkələrin mədəniyyət mərkəzlərinin nümayəndələri, Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov, Milli Məclisinin deputatı Bəxtiyar Əliyev iştirak ediblər. Fəlsəfə İnstitutun direktoru, professor İlham Məmmədzadə 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edildiyini bildirib, onun regional və qlobal dünyəvi əhəmiyyətindən söz açıb, sülhün, əməkdaşlığın və həmrəyliyin bərqərar olmasında mühüm rolunu diqqətə çatdırıb.

Fransalı alimlər Kristian Vallar "İslam və Respublika", Ksavye Latur "Fransız olmaq", Poline Türk "Dil identiklik: Fransada və Azərbaycanda azlıqların statusu", Klodin Terrazzoni-Biblok "Respublika və İslamın bölünməzliyi" məsələlərinə toxunub, müasir dövrdə İslam həmrəyliyinin əhəmiyyətini və böyük maraq doğurduğunu qeyd ediblər.

Konfransda professor Zümrüd Quluzadə, Fəlsəfə İnstitutunun direktor müavini fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətli, fəlsəfə elmləri doktoru Fizuli Qurbanov, Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev çıxış edərək İslam həmrəyliyi təcrübəsində milli dəyərlərin yeri və əhəmiyyətindən, eləcə də İslam həmrəyliyinin mənəvi əsaslarından danışıblar.

***

AMEA-nın Fəlsəfə İnstitutunun dəvəti ilə Bakıda səfərdə olan Fransanın Sofia-Antipolis Universitetinin bir qrup alimi - professorlar Kristian Vallar, Ksavye Latur, Poline Türk və Klodin Terrazzoni-Biblok Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.

Qonaqlara ətraflı məlumat verən Fəlsəfə İnstitutunun direktoru, prof. İlham Məmmədzadə ermənilərin tarixən xalqımıza qarşı törətdikləri qanlı qırğınlardan, soyqırımlarından danışıb. Bildirib ki, XX əsrin ən faciəli soyqırımlarından biri kimi tarixə düşən 31 Mart soyqırımı amansızlığına və miqyasına görə xüsusilə seçilir.

Diqqətə çatdırılıb ki, Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə torpaq işləri görülərkən aşkar edilib. Bundan sonra AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən kütləvi məzarlıqda geniş tədqiqat işləri aparılıb. Tədqiqatlar nəticəsində məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu müəyyən edilib.

Qeyd edilib ki, Quba Soyqırımı Memorial Kompleksi Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılıb və 2013-cü il sentyabrın 18-də açılışı olub.

Fransalı alimlər gördükləri mənzərədən dəhşətə gəldiklərini bildirirərək qeyd ediblər ki, bu məzarlıq erməni millətçilərinin iç üzünün dünyaya çatdırılması üçün canlı nümunədir.

Ekskursiyaya tarix üzrə elmlər doktoru Solmaz Rüstəmova -Tohidi bələdçilik edib.

***

AMEA-nın Fəlsəfə İnstitutunda ulu öndər Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilən elmi-praktik konfrans keçirilib.

Tədbirdə institutun direktoru, fəlsəfə üzrə elmlər doktoru İlham Məmmədzadə görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanın ictimai-siyasi həyatındakı fəaliyyətindən danışıb, onun irsinin öyrənilməsinin həm ölkə daxilində, həm də beynəlxalq aləmdə xüsusi əhəmiyyət

kəsb etdiyini bildirib. Vurğulanıb ki, dahi rəhbər Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur.

Sonra f.ü.e.d. Füzuli Qurbanov "Heydər Əliyev və tarixi yaddaş" mövzusunda məruzə ilə çıxış edib. Alim məruzəsində qeyd edib ki, Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin mühüm məqsədlərindən biri müasirlərimizdə tarixi yaddaş duyğusunu gücləndirmək, öz dilinə, ədəbiyyatına sahib çıxmaq, bununla da əcdadlarımızın yaratdığı mənəvi sərvətlərə həqiqi varis, torpağa əsl sahib formalaşdırmaq idi.

Ulu öndərin siyasi xəttinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini deyən F.Qurbanov bildirib ki, Heydər Əliyevin azərbaycançılıq və dövlətçilik ənənəsi, xalqına, tarixinə, mədəniyyətinə olan məhəbbəti və fəaliyyəti nəsildən-nəslə ötürülən ənənə formasını alıb.

Konfransda digər çıxış edənlər ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm məqamlarına toxunub, Azərbaycanın müasir inkişaf strategiyasında bu irsin roluna dair əsaslı təhlillər aparıblar.

***

İtaliyanın Genuya şəhərində ölkələrimiz arasında əlaqələrin yaradılmasının 25-ci ildönümünə həsr olunan beynəlxalq konfrans təşkil edilib.

Tədbirdə AMEA Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə, beynəlxalq əlaqələr şöbəsinin müdiri fil.ü.f.d. Zöhrə Əliyeva, aparıcı elmi işçi fəl.ü.f.d. dosent Elsevər Səmədov Genuya Universitetinin dəvəti ilə iştirak ediblər.

Konfransda "Müasir dövrdə Azərbaycan və İtaliya fəlsəfəsinin qarşılıqlı təsiri" mövzusunda məruzə ilə çıxış edən İ.Məmmədzadə ölkələrimiz arasında qurulan əlaqələrə fəlsəfənin təsirindən danışıb. O, həmçinin Heydər Əliyev Fondunun İtaliyada gördüyü uğurlu işlər və ötən il Roma Papası Fransiskin Azərbaycana səfərinin əhəmiyyəti barədə geniş məlumat verib.

Konfrans müvafiq mövzu ilə bağlı qarşılıqlı müzakirələrlə davam etdirilib.

***

AMEA-nın Fəlsəfə İnstitutunda 15 iyun - Milli Qurtuluş Gününə həsr olunan "dəyirmi masa" keçirilib.

Tədbirdə institutun elmi işlər üzrə direktor müavini, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətli Milli Qurtuluş Gününün dövlətçilik tariximizə dönüş nöqtəsi kimi daxil olduğunu qeyd edib. Bildirib ki, 24 il əvvəl xalqın təkidli tələbi ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev böyük xilaskarlıq missiyasını öz üzərinə götürməklə xalqımızın, dövlətçiliyimizin sonrakı taleyində həlledici mərhələnin təməlini qoyub. Bu tarixi gün müasir Azərbaycanın müstəqilliyinin təntənəsi, hüquqi dövlət quruculuğunun başlanğıcıdır. Hazırda həmin siyasət Prezident İlham Əliyev tərəfindən inam və qətiyyətlə davam etdirilir.

Daha sonra çıxış edən fəlsəfə üzrə fəlsəfə doktorları Fizuli Qurbanov, Rəfiqə Əzimova, Xatirə Quliyeva və digər çıxış edənlər Milli Qurtuluş Gününün ictimai-siyasi, tarixi əhəmiyyətindən danışıblar.

***

AMEA Fəlsəfə İnstitutunda Tacikistan Elmlər Akademiyasının tanınmış akademiki Karomatullo Olimov ilə görüş keçirilib. Görüş zamanı tərəflər birgə kitabların və elmi əsərlərin nəşri barədə razılığa gəliblər. Akademik K.Olimov Tacikistan Elmlər Akademiyası Fəlsəfə İnstitutunun nəzdində fəlsəfi irsin öyrənilməsi və nəşri ilə məşğul olan elmi mərkəzin fəaliyyət göstərdiyini diqqətə çatdırıb. Qeyd edilib ki, hələ 2014-cü ildə iki elmi təşkilat arasında əməkdaşlıq memorandumu imzalanıb.

***

Sentyabrın 27-də AMEA Fəlsəfə İnstitutunda görkəmli alim Lütfi Zadənin "Qeyri-səlis məntiq nəzəriyyəsinin işığında elm və fəlsəfənin əsas anlayışları" mövzusunda elmi seminar keçirilmişdir. Seminarı Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə açaraq qeyd etdi ki, hər bir azərbaycanlının qürur mənbəyi olan görkəmli azərbaycanlı alim Lütfi Zadənin adı dünyanın elm tarixinə qızıl hərflərlə həkk olunub. Lütfi Zadənin elmi kəşfləri, elmi ideyaları bəşəriyyətin inkişafına, insanların rahatlığına, rifah halını yaxşılaşdırmağa xidmət edən elmi ideya və kəşflərdir. Bütün dünyada, xüsusilə Vətənində - Azərbaycanda L.Zadə hörmətlə anılır.

İ.Məmmədzadə həmçinin alimin irsini yaşatmaq məqsədilə elmi məqalələrin yazılıb dünya mətbuatında dərc edilməsi təklifini irəli sürdü.

Sonra çıxış edən fəlsəfə üzrə elmlər doktoru Füzuli Qurbanov alimin elmi fəaliyyəti və dünya elminə gətirdiyi yeniliklər və qeyri-səlis məntiq nəzəriyyəsi haqqında seminar iştirakçılarına geniş məlumat verdi.

Məruzə ilə çıxış edən professor Zümrüd Quluzadə qeyri-səlis çoxluqlar nəzəriyyəsinin mahiyyətindən danışaraq bildirdi ki, qeyri-səlis məntiq, qeyri-səlis çoxluqlar nəzəriyyəsinin əsas mahiyyətində mütləq heç nə yoxdur. Hər şey, riyazi dillə desək, 0-1 şkalasında müəyyən həddə dəyişir. Deməli, real dünyanın ümumi mənzərəsi 0 və vahid arasında olan onlarla, yüzlərlə çalarlardan ibarətdir.

Z.Quluzadə onu da qeyd etdi ki, L.Zadə ABŞ-da yaşamış Azərbaycan alimidir. Onun vətəni Azərbaycandır. Biz alimlər də görkəmli alimimizin irsini yaşatmalı və davam etdirməliyik.

Daha sonra seminar AMEA İdarəetmə Sistemləri İnstitunun əməkdaşı tex.üzrə elmlər doktoru, professor Ramin Rzayev, Fizika İnstitunun əməkdaşı f.r.e.ü.f.d. Elmira İsayeva və Fəlsəfə İnstitutunun əməkdaşlarının qarşılıqlı müzakirələri ilə sona çatdı.

***

Oktyabrın 3-4-də Rusiya Elmlər Akademiyasının Fəlsəfə İnstitutunda elmi praktik konfrans keçirilib. Konfrans Rusiya Elmlər Akademiyası Fəlsəfə İnstitutunun elmi jurnalı olan "Voprosu filosofii" jurnalının 70 illiyinə həsr edilmişdir. Qeyd edək ki, bu jurnal dünyada tanınmış Tomson Reyter jurnallarının siyahısına daxil edilib və reytinqi yüksəkdir. Konfransda iştirak etmək üçün AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə təmsil edib. İ.Məmmədzadə öz çıxışında "Voprosu filosofii" jurnalının fəaliyyətindən bəhs edərək bildirib ki, hazırda jurnal məqalələri kitablardan daha çox oxunur və diqqəti tez cəlb edir. Xüsusən də bu sahədə belə jurnalların xidmətləri əvəzsizdir. Biz demək olar ki, dünya fəlsəfəsində olan yeniliklərlə bağlı bu jurnal vasitəsi ilə məlumat əldə edirik. Jurnalda elmin və fəlsəfi mühitin təhlili, fəlsəfə və tarix, fəlsəfə və mədəniyyət bölümlərində elm adamları və bu sahə ilə maraqlananlar üçün maraqlı və dəyərli yazıların yer aldığını bildirən İ.Məmmədzadə, çıxışının sonunda Rusiya Fəlsəfə İnstitutunun rəhbərliyinə və jurnalı ərsəyə gətirənlərə işlərində uğur diləyərək, yubiley münasibəti ilə onları təbrik edib.

Qeyd edək ki, konfransda Rusiya Fəlsəfə İnstitunun direktoru, akademik A.V.Smirnovla AMEA Fəlsəfə İnstitutunun direktoru fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə arasında birgə əməkdaşlıq sahəsində razılaşma əldə olunub. Razılaşmaya əsasən 2018-ci il aprel ayında Bakıda Rusiya filosoflarının iştirakı ilə Ulu öndər Heydər Əliyevin 95 illik yubileyinə həsr edilmiş elmi konfrans keçiriləcəkdir.

***

Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi və 2017-ci il "İslam Həmrəyliyi ili" münasibətilə YAP Sabunçu rayon təşkilatının və Sabunçu rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə 10.10.2017-ci il tarixdə tədbir keçirilib.

Tədbirdə AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə eləmlər doktoru, professor, YAP-ın üzvü İlham Məmmədzadə, Sabunçu rayon İcra Hakimiyyətinin müavini, YAP-ın üzvü Rəna Fərəcova və AMEA Fəlsəfə İnstitutunun şöbə müdiri, professor, YAP-ın üzvü Rəna Mirzəzadə çıxış etdilər. Bir qrup fəlsəfə üzrə elmlər doktoru, professorlar da tədbirdə iştirak edirdilər.

Tədbir iştirakçıları dünya şərqşünaslığı tarixində xüsusi yeri olan görkəmli şərqşünas alim, professor Aida İmanquliyevanın əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxış edərək, partiyanın 25 ildə keçdiyi inkişaf yolu, uğurları, ictimai-siyasi həyatdakı müstəsna xidmətləri haqqında geniş məlumat verdi.

M.Abasquliyeva qeyd etdi ki, YAP-ın 25 illik yubileyi "İslam Həmrəyliyi İli" ilə bir ilə təsadüf edir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyev demişdir: "2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi Sülhə Çağırışdır."

***

Oktyabrın 11-də Fəlsəfə İnstitutunda növbəti ümuminstitut elmi seminarı keçirilib. Seminarın mövzusu "Azərbaycanlıların Avropa müqavimət hərəkatında iştirakı" idi. (məruzəçi: İlham Abbasov). Tədbirdə institutun direktoru, f.ü.e.d., prof. İlham Məmmədzadə iştirak edib.

Məruzədə İkinci Dünya savaşı dönəmində Avropanın müxtəlif ölkələrində faşizmə qarşı mübarizə aparmış Azərbaycan vətəndaşları haqqında informasiyaların mövcudluğu ilə bağlı fikirlər səslənib. Bir neçə azərbaycanlı haqqında Avropa və Rusiya mənbələrində yanlış məlumatlar verildiyi vurğulanıb. Onlar ukraynalı, rusiyalı, gürcüstanlı kimi qələmə veriliblər. Hətta bəzi partizanların ad və soyadları təhrif edilib.

Bu kimi halların olması azərbaycanlıların İkinci Dünya Müharibəsində faşizmlə mübarizədəki yeri və rolu barədə doğru olmayan təsəvvürlər yarada bilər. İnformasiyanın müasir dünyada oynadığı rolu nəzərə alsaq, qaldırılan məsələnin ciddiliyi və əhəmiyyəti aydın görünər. Məruzədə təklif olunub ki, həmyerlilərimizin İkinci Dünya Müharibəsində iştirakı ilə bağlı düzgün və dolğun informasiyaların olması istiqamətində çalışmaq lazımdır.

Məruzədə qoyulan məsələ birbaşa yaddaş siyasəti (kommemorasiya) ilə bağlıdır. Seminar iştirakçıları bu kontekstdə maraqlı fikirlər ifadə ediblər. Prof. İlham Məmmədzadənin bununla bağlı apardığı təhlil, gəldiyi qənaətlər və ümumi nəticələri ətrafında seminarda maraqlı müzakirələr gedib. Azərbaycan vətəndaşlarının İkinci Dünya Müharibəsində Avropa Müqavimət Hərəkatının aktiv iştirakçısı olduğunu sübut edən sənədlərin üzə çıxarılması məsələsinin aktuallığı vurğulanıb. Filosof və sosioloqlar isə həmin faktlar əsasında kommemorativ analizlər aparmalı, müəyyən tövsiyələr hazırlamalı və həmin aspektdə müzakirələri genişləndirməyə çalışmalıdırlar.

***

"İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər" mövzusunda konfrans keçirilib.İdentiklik və multikulturalizm mövzusu müasir şəraitdə fəlsəfədə elmi, mənəvi və siyasi baxımdan xüsusi aktuallıq kəsb edir" - bu fikiri Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə oktyabrın 27-də "İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda deyib.

İlham Məmmədzadə Venesiya Kafoskari Universiteti ilə 2013-cü ildən əməkdaşlıq etdiklərini bildirib. Qeyd edilib ki, bir müddət öncə həmin universitetdə "Azərbaycan və İtaliya multikulturalizminin müqayisəsi" mövzusunda konfrans keçirilib və bugünkü tədbir onun məntiqi davamıdır.

Tədbirin mövzusunun elmi baxımdan aktuallığını qeyd edən alim Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli" elan olunduğunu xatırladıb. İ.Məmmədzadə multikultural dəyərlərin Azərbaycanın dövlət siyasətinə çevrildiyini və bu istiqamətdə ölkəmizdə bir sıra beynəlxalq forumların keçirildiyini diqqətə çatdırıb.

AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi, akademik Nərgiz Axundova konfransın maraqlı problemə həsr olunduğunu bildirib. O deyib: "İdentiklik bütün ölkələrin problemidir. Bugünkü konfrans onu göstərir ki, Azərbaycan alimləri dünyada gedən proseslərdən kənarda qalmırlar. Konfransda məruzələr dinləniləcək, diskussiyalar aparılacaq. Alimlər onları maraqlandıran suallara cavab tapacaqlar". Akademik vurğulayıb ki, Azərbaycanda yaşayan xalqların heç biri öz mədəniyyətini itirməyib, əksinə, inkişaf etdirib. Azərbaycan tarixən zor gücünə müxtəlif ideologiyalara cəlb edilib, lakin ölkəmiz müstəqillik qazandıqdan sonra milli kimlik amili yenidən gündəmə gəlib. N.Axundova identiklik və multikulturalizmin vəhdətinin artıq ölkəmizdə formalaşdığını, alimlərin bu istiqamətdə müəyyən araşdırmalar apardıqlarını söyləyib.

Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev bildirib ki, identiklik və multikulturalizm bir–birini tamamlayan iki hüquqi anlayışdır. O, multikultural dəyərlərin Azərbaycan Respublikasının Konstitusiyasında da əksini tapdığını söyləyib. Qeyd edilib ki, konstitusiyanın 25-ci maddəsində irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verilir.

İtaliyanın Azərbaycandakı səfiri Auqusto Massari konfransın mövzusunun bu gün Avropada aktual olmadığını bildirib. Azərbaycanda multikulturalizm ideyalarının dövlət tərəfindən dəstəkləndiyini söyləyən A.Massari alimlərin bu prosesdə iştirakını yüksək dəyərləndirib. Fəlsəfə İnstitutu ilə Ka Foskari Universiteti arasındakı əməkdaşlığın əhəmiyyətindən danışan səfir deyib: "Ölkə səviyyəsində multikulturalizmlə bağlı konfransın keçirilməsi və alimlərin bu tədbirə cəlb olunmaları müsbət haldır".

"İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər" mövzusunda konfrans keçirilib. Konfransda professor Zümrüd Quluzadə "Milli mədəniyyət və milli identiklik anlayışları", filologiya üzrə fəlsəfə doktoru, dosent Eynulla Mədətli "İranda azərbaycanlıların milli kimlik məsələləri: təmayüllü yanaşmalar və reallıqlar", fəlsəfə üzrə elmlər doktoru Füzuli Qurbanov "Böhran şəraitində identiklik anlayışları: XXI əsrin çağırışları fonunda", iqtisadiyyat üzrə fəlsəfə doktoru Əhməd Qəşəmoğlu "Multikultural mühitin yaradılmasında riyazi modellərdən istifadənin əhəmiyyəti", professor Aldo Ferrari "Tiflis - XIX əsrdə transqafqaz multikulturalizminin mərkəzi kimi", professor Ciampiero Belinceri "Multikultural atmosfer və monolingual (təkdilli) təəssürat: transqafqaz aşıqları və Azərbaycan dili", professor Karlo Frappi "Kimlik və xarici siyasət arasında əlaqə: Azərbaycan multikulturalizmi", professor Luis Tarka "Multikulturalizm, universalizm və inanc sonrası: Emanuel Severino və Taymon Panikkarın fəlsəfi dünyagörüşündə dialoq" mövzusunda məruzələrlə çıxış ediblər.

***

Fransanın Nitsa şəhərində Sofiya Antipolis Universiteti və AMEA Fəlsəfə İnstitutunun birgə təşkilatçılığı ilə "Həmrəylik fəlsəfi prinsip və hüquq norması kimi: Fransa və Azərbaycan mövqeyindən müqayisəli yanaşma" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda universitetin vitse-prezidenti, professor Kristian Vallar hər iki ölkənin elmi əlaqələrindən bəhs edib, 2017-ci ilin əvvəllərində AMEA-nın Fəlsəfə İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Bakı Beynəlxalq Multikulturalizm

Mərkəzindəki görüşlərindən danışıb, rəhbərlik etdiyi nümayəndə heyətinin bu tədbirlərdən xoş təəssüratlarla ayrıldığını bildirib.

Tədbirdə "Həmrəylik və hüquq: problemin fəlsəfi-etik konteksti" mövzusunda çıxış edən AMEA Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə həmrəyliyin tarixinə ekskurs edib, klassik fəlsəfi məktəbin nümayəndələrinin bu məsələyə müxtəlif münasibət bəsləmələrini diqqətə çatdırıb, problemin fəlsəfi-etik tərəfləri barədə fikrini bildirib.

Tədbirdə AMEA Həmkarlar Təşkilatının sədri, professor Habil Qurbanov, Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev, Fəlsəfə İnstitutunun əməkdaşı Zöhrə Əliyeva, Sofiya Antipolis Universitetinin hüquqi və siyasi elmlər fakültəsinin dekan müavini, professor Ksavye Latur, professorlar Flipp Vekel, Polin Tyurk və başqaları həmrəylik məfhumunun müxtəlif aspektləri barədə öz fikirlərini ifadə ediblər.

Yüksək və dərin məzmunlu çıxışlarla yadda qalan konfransda o da vurğulanıb ki, Azərbaycan və Fransa alimlərinin birgə əməkdaşlıqları bundan sonra da davam edəcəkdir.

***

AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli (Qəzənfəroğlu) 2017-ci il martın 25-i tarixində Türkiyənin Ankara şəhərində İLESAM-ın (Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği) təşkilatçılığıyla "Türk Birliyi" mövzusunda konfransda çıxış etmişdir.

Ələkbərli məruzəsində Türk Birliyinin qurulması mövzusuna toxunmuş, tarixi mərhələlərdən, Türk Birliyi yaranmasının qarşısında duran əngəllərdən, bəhs etmişdir.

***

AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli (Qəzənfəroğlu) Türkiyənin Konya şəhərində "Ahde vefa Turan Birliyi Dərnəyi"nin düzənlədiyi "Alparslan Türkeş və Ülküçü Dünyagörüşü" mövzulu panelə qatılmışdır.

***

"Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş beynəlxalq konfrans keçirilib. Bu gün AMEA Fəlsəfə İnstitutunda "Ümumdünya fəlsəfə günü" münasibəti ilə "Qloballaşma şəraitində milli fəlsəfənin inkişaf istiqamətləri" mövzusunda Beynəlxalq elmi-nəzəri konfrans keçirilib.

YUNESKO-nun təsis etdiyi "Ümumdünya Fəlsəfə Günü"nə həsr olunmuş konfransı giriş sözü ilə açan institutun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə hər il ənənəvi olaraq keçirilən konfransın əhəmiyyətindən danışaraq, fəlsəfə elminin öyrənilməsinin əhəmiyyətindən, fəlsəfi biliklərin cəmiyyətin mənəvi saflığının və sabitliyin qorunmasındakı rolundan, fəlsəfənin Azərbaycan ideologiyasına təsirindən danışmış, digər elmlərin dərindən mənimsənilməsində fəlsəfi mülahizələrin zəruriliyini vurğulayıb.

Konfrasnda çıxış edən Misirin Azərbaycandakı Mədəniyyət Mərkəzinin rəhbəri Əhməd Sami, Bilik Fondunun Aparat rəhbəri İsaxan Vəliyev və fəlsəfə üzrə elmlər doktoru, professor Rəbiyyət Aslanova "Ümümdünya Fəlsəfə Günü" münasibəti ilə konfrans iştirakçılarını təbirik edərək, fəlsəfə sahəsində çalışan bütün elm adamlarına uğurlar dilədilər.

Daha sonra konfransda "Heydər Əliyevin nəzəri irsində azərbaycançılıq fəlsəfəsi", "Müasir fəlsəfədə və elmdə epistimologiya problemləri", "Kainatın maskulin və feminin başlanğıcları arasında ilkin təmas: materiyanın doğuluşu" və "Azərbaycan fəlsəfə tarixinin inkişafında A.O.Makovelskinin rolu" mövzusunda məruzələr dinlənilib.

***

Oktyabrın 18-20-də Belarusiyanın paytaxtı Minsk şəhərində "Milli fəlsəfə qloballaşma" işığında I Belarus Fəlsəfi Konqresi keçirlib. Konqresdə Belarus filosofları ilə birgə Rusiya Elmlər Akademiyasının akademiki V.Styopin, akademik A. Hüseynov, İtaliya filosofu,

"Beynəlxalq Fəlsəfə Cəmiyyəti Federasiyası"nın baş katibi Luka Skarantini və digər ölkələrdən yüzə yaxın filosof iştirak edirdi. Konqresdə Azərbaycanı AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə təmsil edib. İ.Məmmədzadə konqresin plenar iclasında "Fəlsəfənin aktuallığı" mövzusunda çıxış edərək fəlsəfənin və milli ideologiyanın bir-birinə təsirindən və milli fəlsəfənin universal dəyərlərinin əlaqələri haqqında nitq söyləyib. Həmçinin konqres zamanı İlham Məmmədzadənin Çinin Sosial Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun nümayəndələri ilə görüşü olub. Görüş zamanı elmi əlaqələrin Bakıda və Pekində davam etdirilməsi üçün razılıq əldə olunub. Qeyd edək ki, bu təşəbbüs çinli alimlər tərəfindən edilib.

***

Fəl.ü.f.d. Məhəmməd Cəbrayılov 23-25 noyabr 2017-ci il tarixdə Türkiyənin Kastamonu Universitetində Türkiyənin 14 bölgəsindən bələdiyyə sədrlərinin və alimlərinin, o cümlədən dünyanın 28 ölkəsindən alimlərin qatıldığı "Davamlı inkişafa" həsr olunmuş beynəlxalq konfransda iştirak etmişdir. Məhəmməd Cəbrayılovun "Regionda yaşıl iqtisadi siyasətin inkişafında Azərbaycan Türkiyə münasibətləri: reallıq və perspektivlər" mövzusunda etdiyi çıxış iştirakçılar arasında böyük marağa səbəb olmuş və ona verilən sualları elmi cəhətdən əsaslandırmışdır.

***

Fəlsəfə İnstitutunda 17 Noyabr Milli Dirçəliş Günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan Fəlsəfə İnstitutunun elmi işlər üzrə direktor müavini, f.ü.f.d., dos. Eynulla Mədətli bu günün mahiyyəti barədə toplantı iştirakçılarına məlumat verərək, 17 noyabr Milli Dirçəliş Gününün yaranma tarixinə nəzər salıb:

"Azərbaycanın Milli Dirçəliş Günü 17 noyabr 1992-ci ildə elan olunmuşdur. Bu bayram 1988-ci ilin noyabr-dekabr aylarında Bakıda olan milli azadlıq hadisələriylə bağlıdır. Bildiyimiz kimi, o vaxt, 1988-ci il noyabrın 17-də Bakıda Qarabağ məsələsində respublika və SSRİ orqanlarının xalqımıza zidd siyasət apardıqlarına görə cəmiyyətin davamlı mitinqi başlanmışdı. Azərbaycanda bu hadisələr milli-azadlıq hərakatı kimi qiymətləndirilir və Respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır" – deyə qeyd edən E.Mədətli həmçinin bildirib ki, bu hərəkatın nəticəsində 17 Noyabr Milli Dirçəliş Günü yarandı və tariximizdə bu günün çox önəmli gündür.

Sonra çıxış edən natiqlər də 17 Noyabrın Azərbaycan xalqı üçün xüsusi əhəmiyytindən söz açıblar və Xalq hərəkatının başlanğıcı olan bu günün müasir Azərbaycan tarixinə Milli Dirçəliş günü kimi həkk olunduğunu bildiriblər.

***

Almaniya Xarici İşlər Nazirliyinin Beynəlxalq Klubunda AMEA Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadənin "Mədəniyyətlərin qarşılıqlı təsirinin fəlsəfəsi və Cənubi Qafqazda alman məskənlərinın salınması" adlı kitabının təqdimatı keçirilib.

Mərasimdə Almaniya Bundestaqının nümayəndələri, Alman-Azərbaycan Forumunun idarə heyətinin üzvləri, Almaniya Xarici İşlər Nazirliyinin əməkdaşları, Almaniyanın elmi-mədəni, ictimai-siyasi, iqtisadi dairələrinin və KİV-lərinin təmsilçiləri, eləcə də Azərbaycanın Almaniyadakı səfirliyinin əməkdaşları iştirak ediblər.

Tədbirdə Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov çıxış edərək kitabın təqdimatının "Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyi haqqında" Prezident İlham Əliyevin 30 avqust 2016-cı il tarixli Sərəncamı çərçivəsində baş tutduğunu bildirib.

Sonra çıxış edən Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə xüsusi nümayəndəsi, səfir Haydrun Tempel AMEA tərəfindən

Azərbaycanda alman məskənləri barədə kitabın dərc edilməsini xalqlarımız arasındakı tarixi bağların ictimaiyyətə çatdırılması baxımından təqdirəlayiq hadisə adlandırıb.

Təqdimat mərasimində, həmçinin UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının baş katibi, səfir Elnur Sultanov çıxış edərək kitab haqda məlumat verib. Bildirib ki, Azərbaycanda tarixən alman ailələrinin məskunlaşması ölkəmizdə hökm sürən multikultural mühitin və dini tolerantlığın bir nümunəsi olaraq nəşrdə araşdırılıb. O, kitabın mədəniyyətlərarası dialoqun əsaslarının öyrənilməsi baxımından dəyərli mənbə olduğunu diqqətə çatdırıb.

***

Böyük Azərbaycan şairi Molla Pənah Vaqifin 300 illik yubileyinin keçirilməsi haqqında 12 yanvar 2017-ci il Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamına əsasən AMEA Fəlsəfə İnstitutunda "Böyük Azərbaycan şairi və ictimai-siyasi xadimi Molla Pənah Vaqif" mövzusunda 22 noyabr 2017-ci ildə dəyirmi masa keçirilmişdir.

Tədbiri giriş sözü ilə açan institutun elmi işlər üzrə direktor müavini, f.ü.f.d., dos. Eynulla Mədətli Vaqif irsinin Azərbaycançılıq işığında daha dərindən araşdırılıb öyrənilməsindən, bu gün də öz aktuallığını qoruyan mühüm məsələ olduğundan danışaraq Molla Pənah Vaqifin həyat və yaradıcılığı, xüsusilə də onun Qarabağ xanlığındakı dövlətçilik fəaliyyəti barədə geniş məlumat verdi.

Azərbaycan şeirinin Vaqifin sayəsində öz tarixinin növbəti mərhələsinə qədəm qoymasından, onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən zəngin irsinin müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərdiyini vurğuladı.

Sonra məruzəçilərdən AMEA-nın müxbir üzvü, f.ü.e.d. Könül Bünyadzadə Azərbaycanın düşüncə tarixində Molla Pənah Vaqifin yeri və rolundan danışaraq qeyd etdi ki, Vaqif o vaxta qədər mövcud olan və artıq böhran yaşayan islam təfəkküründə bir dönüş nöqtəsi yarada bildi. F.ü.e.d. Ziba Ağayeva öz məruzəsində Molla Pənah Vaqif yaradıcılığında milli-mənəvi dəyərlərin tariximizin, mədəniyyətimizin, identikliyimizin açar dəyərlərinin movcud olduğunu vurğuladı. F.ü.f.d. Əli İbrahimov isə Molla Pənah Vaqifin nikbinlik fəlsəfəsi haqqında məruzəsində ictimai həyatda, ədəbiyyatda, sənətdə nikbinlik və bədbinlik haqqında bir-birinə əks olan, lakin paralel proseslər olan iki münasibətdən söz açdı.

Məruzələrdə qeyd olundu ki, 1982-ci il yanvarın 14-də ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində şairin məzarı üzərində ucaldılmış əzəmətli məqbərənin açılışı olmuşdur. 1992-ci il mayın 8-də Ermənistanın silahlı quldur dəstələri işğala məruz qoyduqları Şuşada bütün beynəlxalq hüquq normalarını pozaraq mədəniyyət abidələrinə qarşı vandalizm aktları törətmiş və 600-ə yaxın tarixi-memarlıq abidəsini talayıb məhv etmiş, o cümlədən Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün ev-muzeylərini və Molla Pənah Vaqifin məqbərəsini dağıtmışlar. 1982-ci ildə Ümummilli lider Heydər Əliyev Şuşada şairin məqbərəsi ilə yanaşı, eyni zamanda Poeziya Evinin açılışında və orada keçirilən "Vaqif poeziya günləri"ndə iştirak etmişdir. Məhz həmin tarixdən etibarən hər il avqust ayında Vaqif poeziya günləri keçirilir.

Dəyirmi masada f.ü.e.d. prof. Rəfiqə Əzimova, f.ü.e.d. Adil Əsədov, f.ü.e.d. Rəna Mirzəzadə, f.ü.f.d. Məmmədağa Sərdarov, f.ü.f.d. İradə Zərqanayeva, elmi işçi Yasəmən Mahmudova, direktor müavini Qabil Camalov çıxış edərək Molla Pənah Vaqifin çoxsahəli yaradıcılığının fəlsəfi məzmunu və qayəsindən söz açmışlar. Tədbirin sonunda belə bir yekdil fikrə gəlindi ki, M.P.Vaqifin zəngin irsi fəlsəfi baxımdan geniş tədqiq edilməyə möhtacdır.

***

Qazaxıstanın Türküstan şəhərində Uluslararası Xoca Əhməd Yəsəvi Türk-Qazax Universitetinin düzənlədiyi Uluslararası Sosial Elmlər Konqresi: Türküstan Forumu III -

"Küreselleşme Sürecinde Türk Dünyasının Geleceği, Fırsatlar ve Tehditler" adlı beynəlxalq elmi konfrans keçirilib. Beynəlxalq konfransa Türksoylu ölkələrin (Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Tatarıstan və b.) alimləri ilə yanaşı, digər dövlətlərin nümayəndələri, o cümlədən AMEA Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Faiq Ələkbərli (Qəzənfəroğlu) də qatılmışdır.

O, Konqresdə "Çağdaş dünya düzənində yeni Türkçülük düşüncəsininin əsasları" adlı məruzəsində bildirib ki, artıq türkçülük ya da Türk birliyi məfkurəsini yenidən gözdən keçirməyin zamanıdır. Bunun üçün ilk növbədə, Türk tarixi yenidən dəyərləndirilməli, Türk-Turan irqinin ortaq tarixi yazılmalı, orta və ali təhsildə yer almalıdır.

# YENİ NƏŞRLƏR

**İlham Məmmədzadə. Mədəniyyətlərin qarşılıqlı təsirinin fəlsəfəsi və almanların Cənubi Qafqazda məskunlaşması. Bakı: Print- E- service LTD, 2017, 158 səh.** (*İngilis dilində*)

Almanların Cənubi Qafqazda məskunlaşmasının 200 illiyinə həsr olunmuş bu kitabda almanların Cənubi Qafqazda, o cümlədən Azərbaycanda məskunlaşmasından bəhs olunur. Müəllif Azərbaycan multukulturalizmi konteksində mədəniyyətlərin qarşılıqlı təsiri fəlsəfəsindən çıxış edərək milli şüurunun inkişaf məsələlərindən bəhs edir və göstərir ki, hər bir millətin mədəniyyətinin, mənəviyyatının inkişafını mədəniyyətlərin müxtəlifliyi və qarşılıqlı təsirindən kənar təsəvvür etmək olmaz. Yaxın və uzaq qonşuların mədəniyyətlərinə və milli dəyərlərinə münasibət hər bir sivil cəmiyyətin mühüm dəyərlərini təşkil edir və ideyanın təzahürünün bariz şəkildə sübutu müasir alman fəlsəfəsi ədəbiyyatında görmək olar.

**Зумруд Кулузаде. Четко-нечёткое постижение логики бытия. Bakı: ”Elm və təhsil”, 2017, 176 s.**

В настоящей книге, на основе предложенной автором новой редакции философской концепции всеединства, читателю представлены вопросы для размышлений и возможные темы исследований, ориентированные на постижение внутренних закономерностей, т.е. логики бытия в форме различных его проявлений.

**Afaq Rüstəmova. Müasir dünya və Azərbaycan reallıqları: fəlsəfi təhlil. Bakı: 2017, Afpoliqraf, 240 səh.**

Monoqrafiyada müasir dövrün bir sıra aktual problemləri fəlsəfi, sosial-siyasi kontekstlərdən təhlil edilir, o cümlədən, modernləşmənin inkişaf mərhələləri, problemlə bağlı nəzəri-metodoloji yanaşmalar, sosial-siyasi inkişafın əsas konsepsiyaları, Azərbaycanda modernləşmənin sosial inkişafa təsiri, inkişafın Azərbaycan modeli nəzərdən keçirilir, daha sonra modernləşmə prosesləri kontekstində milli şüur və milli mentalitet problemi təhlil edilir. Kitabda XXI əsrin qlobal və təhlükəli hadisələrindən olan terrorizm problemi diqqət mərkəzinə çəkilir, daha dəqiq desək, terrorizm, beynəlxalq terrorizm, din və terrorizm və s. məsələlər araşdırılır, həmçinin dini tolerantlıq, humanizmə dair ideya və mülahizələr tarixilik və müasirlik baxımından araşdırılır.

**Əlikram Tağıyev.Milli kimlik və multikultural proseslər. Bakı: Gənclik, 2017, 204 s.**

Kitabda milli kimlik problemi, onun mentalitet, milli xarakter, milli dil və mədəniyyət, milli siyasi şüur, milli ideya və milli idealogiya və s. kimi tərəflərindən, onların qarşılıqlı əlaqələrindən, azərbaycançılıq və türkcülük ideyalarının milli təhlükəsizliyimizin təmin olunmasındakı rolu təhlil olunur.

**Qızılgül Abbasova. Etika:tarix, nəzəriyyə və təcrübə. Ali məktəblər üçün dərs vəsaiti. Bakı: 2016, 368 s.**

Kitabda sistemli olaraq etikanın elmi paradiqmasının formalaşması tarixi, etik kateqoriyalar, qanunlar təhlil olunur. Etikaya aid müxtəlif nəzəriyyələr, dünyada gedən proseslərin etika elminə təsiri həm nəzəri, həm praktiki baxımdan təhlil olunur. Humanitar və ictimai elm sahələri tədqiqatçıları üçün bu kitab olduqca faydalı ola bilər, çünki etika

problemləri ilə yanaşı bir çox fəlsəfi,sosial-siyasi, sosial-psixoloji məsələlər burada təhlil olunur.

**Zeynəddin Şabanov. Müasirləşən cəmiyyətin yeni paradiqmaları. Bakı: Avropa, 2017, 257 s.**

Monoqrafiyada müasir dövr paraqdiqmaları və onların əhəmiyyətindən danışılır, yeni epistemoloji paradiqmaların işlənib hazırlanması zəruriliyi, postneoklassikanın səciyyəvi cəhətləri, ictimai və humanitar elmlər kompleksi üçün epistemologiya məsələlərinin mühüm əhəmiyyəti əsaslandırılır. Eyni zamanda Azərbaycanda dini tolerantlığın zəruriliyi, ölkəmizdə həyata keçirilən multikulturalizm siyasətinin əhəmiyyəti və cəmiyyətdə islam həmrəyliyinin xilas yolu kimi rolu tədqiqata cəlb edilir. Kitabda bununla bərabər müasir dövr ideologiyalarından olan sosial tərəfdaşlıq və cəmiyyətdə sosial sülhün təminində onun roluna diqqət yönəldilir, gender mədəniyyətinin təbliginin vacibliyi haqqında maraqlı fikirlər irəli sürülür.

**Şölət Zeynalov. Dialoq fəlsəfəsi. Bakı: Avropa, 2017, 304 s.**

Kitab sivilizasiya, mədəniyyət və dinlərarası münasibətlərin açarı hesab edilən dialoq probleminə həsr edilmişdir. Dialoq bu kitabda xalqlar, millətlər və sivilizasiyalararası münasibətlərin saflaşdırılması, onları ziddiyyətlərdə, anlaşılmazlıqlardan, açıq və ya qapalı şəkildə kin və küdurətdən təmizləyərək ümumbəşəri ideala-sülh və əmin-amanlıq içərisində yaşamağa istiqamətləndirən xilas yolu kimi təqdim olunur.

**Səadət Məmmədova. Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri. Bakı: "Avropa",2017, 232.**

Monoqrafiya dünyada və Azərbaycanda sosial dövlətin inkişaf istiqamətlərinin araşdırılmasını ilə baglıdır. Burada sosioloji fikir tarixində sosial dövlət haqqında ideyaların təkamülü, "sosial dövlət"anlayışının təhlili, sosial dövlət konsepsiyasının inkişaf istiqamətləri, müasir sosial dövlətin metodoloji əsasları ilə baglı tədqiqat təqdim edilir. Kitab Azərbaycanda sosial dövlətin inkişafının nəzəri-ideoloji və konstutision əsaslarının, o cümlədən ayrı-ayrı sosial institutların müasir inkişaf səviyyəsinin öyrənilməsinə həsr edilmişdir.

**Faiq Ələkbərli. Turan sivilizasiyasına giriş: Turan məfkurəsi və Tanrıçılıq. Bakı; Xan, 2017, 512 səh.**

Kitabda Turan sivilizasiyanın dünyada ən qədim mədəniyyət olması məsələsi təhlil olunaraq Turan məfkurəsi və Tanrıçılıq fəlsəfəsi bütün aspektləri ilə tədqiqata cəlb edilib. Burada Turan məfkurəsi ilə bağlı Turan İmperiyalarınınm tarixinə, mahiyyətinə və çağdaş dönəmdəki yerinə aydınlıq gətirilib. Bununla yanaşı əsərdə Turan-Avropa, Turan-Aryan/İran ideoloji və mənəvi-fəlsəfi savaşları öz əksini tapmışdır.Eyni zamanda kitabda Türk xalqlarının təşəkkülü ilə bağlı onun etnogenezi, dini-mifoloji və fəlsəfi dünyagörüşü geniş şəkildə tədqiq olunmuşdur. Belə ki, monoqrafiyada Tanrıçılıq fəlsəfəsinin mahiyyəti, onun Şamanizmə, Mağlar təliminə, Zərdüştlüyə, yunan kosmologiyasına, Xristianlığa, İslama münasibəti də öz əksini tapmışdır.

**Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlər qarşısında məqalələrin qəbulu ilə bağlı qoyduğu tələblər:**

1. Məqalələr Azərbaycan, rus, türk və ingilis dillərində çap olunmuş şəkildə və elektron variantda təqdim olunmalıdır. Məqalənin yazıldığı dildən əlavə digər 2 dildə xülasəsi verilməlidir. Məqalələrin həcminin 8-10 səhifə, xülasələrin 5-8 sətir olması tövsiyə olunur.
2. Məqalələrin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni və məqalənin məzmununa uyğun olmalıdır. Xülasələr elmi və qrammatik baxımdan ciddi redaktə olunur.
3. Mövzu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır. Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya əlifba ardıcıllığı ilə yaxud istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla nömrələnməli və məsələn, (1) və ya (1, s.119) kimi işarə olunmalıdır. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.
4. Məqalə müəllifin işlədiyi kafedrada yaxud şöbədə müzakirə olunmalı və iclasın protokolundan çıxarış redaksiyaya təqdim edilməlidir.
5. Məqalələrin mətnləri Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası və ingilis dilində ingilis (ABŞ) əlifbası ilə Times New Roman – 14 şrifti ilə 1,5 intervalla yığılmalıdır.
6. Məqalələr rəyçilərin gizli rəyindən sonra sahə redaktoru və ya redaksiya heyətinin mütəxəssis üzvlərindən biri tərəfindən çapa təqdim olunur.
7. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə verilməlidir.
9. Məqalələrdə müəllif(lər)in adı və soyadı, işlədiyi müəssisə və onun ünvanı, müəllifin elektron poçt ünvanı göstərilməlidir.
10. Məqalələrin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalar və s. istinadlara üstünlük verilməlidir.
11. Jurnalda baxılan elm sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına da yer verilir.
12. Jurnal yalnız öz profilinə uyğun məqalələri dərc edir.

**Yuxarıda göstərilən şərtlərə uyğun olmayan məqalələr redaksiya heyəti tərəfindən qəbul edilmir**

# Требования Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики к научным изданиям при приеме статей, отражающих основное содержание диссертации

1. Статьи должны быть представлены на азербайджанском, русском, турецком, английском языках в напечатанном виде и электронном варианте. К статье, написанной на одном языке, должны быть даны резюме на двух языках. Рекомендуется статьи представлять объемом 8-10 страниц, а резюме 5-8 строчек.
2. Резюме к статьям на различных языках должны быть идентичные и соответствовать содержанию статьи. Статьи должны быть тщательно отредактированы с научной и грамматической точек зрения.
3. Должны быть ссылки на научные источники, связанные с темой. Список литературы, приведенный в конце статьи должен быть дан в алфавитном порядке или пронумерован в порядке встречающейся в тексте ссылки на литературу, как например, (1) или (1, с.119). Если в статье встречаются повторные ссылки на одну и ту же литературу, тогда эта литература должна быть дана под предыдущим номером.
4. Статья должна быть обсуждена на кафедре или отделе, где работает автор и выписка из протокола собрания должна быть представлена редакции.
5. Текст статей на азербайджанском языке должен быть дан латинским алфавитом; на русском языке – кириллицей; английском языке – английским алфавитом (США), Тимес Нew Роман – 14 шрифтом, 1,5 интервала.
6. Статьи могут быть представлены к печати после получения тайного отзыва со стороны отраслевого редактора или специалиста из членов Редакционного совета.
7. В конце статьи автор должен сказать о научной новизне работы, прикладном значении, экономической пользе, соответсвующей характеру статьи.
8. В каждой статье должны быть даны индексы типа УДК и ПАЪС, а также ключевые слова на трех языках.
9. В статье должны быть указаны имя и фамилия автора, место работы, его адрес и электронная почта.
10. В списке литературы предпочтение должно быть дано ссылкам из статей, монографий и т.д., написанных за последние 5-10 лет.
11. В журнале помещаются статьи, поступающие из разных стран мира с развитой наукой.
12. Журнал печатает статьи, соответствующие его профилю.

**Статьи, не отвечающие вышеизложенным требованиям,**
**не принимаются Редакционным советом.**

## Requirements of the Supreme Attestation Commission under the Azerbaijan Republic President to be fulfilled at acceptance of the articles comprising the basic conclusions of the theses by the scientific editions recommended for publication

1. Articles should be submitted in Azerbaijani, Russian, Turkish, English languages in printed form and electronic version. In addition to the article written in one language, two summaries of it in other languages are to be presented. It is recommended to present an 8-10 page articles and summary in 5-8 lines.

2. Summaries to articles in different languages should be identical and in conformity with the contents of the article. The articles should be carefully edited from the scientific and grammar point of view.

3. There should be references to the scientific sources connected to the theme. Literature list cited at the end of the article is to be given either alphabetically or numbered in order of reference to literature met in the text, as for instance (1) or (1, p.119). If in the article there are met the repeated references to one and the same literature, this literature should be given under the previous number.

4. Article is to be discussed in a chair or department where the author works, an extract from the minutes is to be submitted to the editorial board.

5. Text of the articles in Azerbaijani should be typed by Latin alphabet, in Russian – by Cyrillic alphabet, in English – by English alphabet (USA), Times New Roman – 14 font, 1,5 line spaced.

6. Articles may be submitted to the press after receiving the secret reference on the side of the branch editor or an expert from the members of the editorial staff.

7. In conclusion of the article the scientific innovation of the work, importance of applying, economic advantage corresponding to the scientific field and character of the work should be clearly indicated.

8. In every article the indices of UDC and PACS type, as well the keywords in three languages should be indicated.

9. In article an author's name, surname, his work and home addresses and e-mail are to be indicated.

10. In Literature List the preference should be given to references from the articles, monographs and oth. written for last 5-10 years.

11. In the journal there is a room for the articles coming in from the different countries of the world with advanced science.

12. The journal publishes only those articles which are in conformity with its profile.

**Articles not meeting the above mentioned reguirements are not accepted by the editorial board.**

# ELMİ ƏSƏRLƏR

*Beynəlxalq elmi-nəzəri jurnal*

**№ 2(29), 2017**

**Redaktorlar:**

**Svetlana CABBARLI, Xuraman TURABOVA, Gülarə AXUNDOVA, Solmaz QURBANOVA, Rəhilə HƏSƏNOVA, Səbinə MUSTAFAZADƏ**

**Kompyuter tərtibatı və dizayn:**

**AYTƏKİN SADIQOVA**

**Texniki redaktor:**

**OKTAY YUSİFOV**

# SCIENTIFIC WORKS

*The international scientific and theoretical journal*

**№ 2(29), 2017**

**Editors:**

**Svetlana JABBARLY, Khuraman TURABOVA, Gulara AKHUNDOVA, Solmaz GURBANOVA, Rahila HASANOVA, Sabina MUSTAFAZADE**

**Printing and design:**

**AYTAKİN SADIGOVA**

**Technical editor:**

**Oktay YUSIFOV**

Yığılmağa verilmişdir: 06.11.2017
Çapa imzalanmışdır: 08.12.2017
Kağız formatı: 60x84 16/1. Çap vərəqi: 18,8. Tirajı 200.
Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə İnstitutunun İnformasiya və Nəşriyyat şöbəsində nəşr olunmuşdur. Şöbə müdiri: fəlsəfə doktoru **Adil Həşimov** tel.: 050-337-74-33 Ünvan: H.Cavid pr-ti 31. Tel.: (99412)539-28-74
E-mail: philosophy@phill.science.az

Submitted to collection:
Sent to the press:
Paper format: 60x84 16/1
Print sheet: 18,8. Copies: 200
Published in the Information and Publishing department of IP of ANAS, department chief: doctor of philosophy **Adil Hashimov** phone: 050-337-74-33 Address: H.Javid ave. 31. Phone: (99412) 539-28-74
E-mail: philosophy@phill.science.az